# AZƏRBAYCAN NAĞILLARI

**BEŞ CİLDDƏ**

**I CİLD**

"ŞƏRQ-QƏRB"
BAKI-2005

Toplayıb tərtib edəni: **Hənəfi Zeynallı**

Nəşrə hazırlayanlar: **İsrafil Abbaslı**
**Rza Xəlilov**
**Maarif Teymur**

Redaktoru: **İsrafil Abbaslı**

**398.2’094754 - dc 21**
**AZE**
**Azərbaycan nağılları.** Beş cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2005, 360 səh.

“Biri vardı, biri yoxdu...” möcüzəsi əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçmiş, dildən-dilə, yaddaşdan-yaddaşa köçə-köçə milyon-milyon insan ömrünü yaşayaraq bugünümüzədək gəlib çatmışdır. Əbədi gözəlliyə qovuşmaq istəyindən doğulan, şirin-şəkər dillərdə yaşaya-yaşaya şirinləşən, yüzilləri adladıqca daha da cilalanan söz-fikir incilərimiz – nağıllar yenə də insanları öz işığına toplayır.

Haqqın nahaqq üzərində qələbəsinin aparıcı olduğu bu zəngin el yaradıcılığı nümunələrində qəhrəman hər cür çətinliyə üstün gəlir, öz böyük arzularına çatır. Lakin xoşbəxt həyat asanlıqla qazanılmır. Nağıl qəhrəmanı son dərəcə ağır imtahanlardan çıxmalı olur; sehrkar varlıqlarla, fövqəltəbii güclərlə çarpışır, bu müdhiş qüvvələrin qırılmaz tilsimlərinə qarşı dayanır...

Beşcildlik “Azərbaycan nağılları”nın təqdim olunan I cildinin əsasında milli folklorun toplanması, nəşri və araşdırılmasında böyük xidməti olan Hənəfi Zeynallının “Azərbaycan nağılları” toplusu dayanır. Hələ 1936-cı ildə nəşrə hazırlanmış həmin toplama-tərtib işi bu gün də el arasında geniş yayılan nağıllarımızın böyük qismini əhatə edir. Topluda yer alan, milli koloritlə zəngin nağıllar vaxtilə Azərbaycanın dəyişik bölgələrindən yazıya alınmışdır.

**ISBN 9952-418-70-9**

© “ŞƏRQ-QƏRB”, 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## REDAKTORDAN

Azərbaycan folklorunun toplanması, nəşri və araşdırılmasında xüsusi xidməti olan Hənəfi Zeynallının (1896-1937) irsində indiyədək işıq üzü görməmiş əsərlərindən biri də "Azərbaycan nağılları" toplusudur. Nağıllarımızın böyük bir qismini əhatə edən bu toplama-tərtib işi 1936-cı ildə çapa hazırlanmış, lakin müəllifin həbsindən (28 yanvar 1937) sonra bir sıra əsərləri ilə yanaşı Azərbaycan Elmlər Akademiyasının xüsusi fonduna göndərilmişdir.

Toplama-tərtib işinin əlyazması (latın əlifbasında olan makina yazısı) hazırda Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Ədəbiyyat və İncəsənət Arxivinin H.Zeynallının adı ilə bağlı xüsusi fondunda (sayı 160, №1) saxlanılır.

"Azərbaycan nağılları" toplusundan bəlli olur ki, H.Zeynallı bu tərtib işini üç cilddə nəşr etdirməyi nəzərdə tutmuş, bu məqsədlə I cildə 21, II cildə 23, III cildə isə 28 xalq nağılı (cəmi 72) daxil etmişdir. Özünü hər üç cildin toplayıcısı kimi təqdim edən müəllif, görünür, məhz bu səbəbə görə də nağılların toplayıcısı və söyləyiciləri haqqında məlumat verməmiş, başqa sözlə, pasportlaşdırma qeydi aparmamışdır. Bununla yanaşı, "Azərbaycan nağılları" toplusuna əksəriyyətinin toplayıcısı və söyləyicisi bəlli olan 20 nağıl daxil edilmişdir ki, H.Zeynallı onlar haqqında aşağıdakı məlumatı vermişdir:

Toplayıcı H.Əlizadə – "Axvay" (söyləyəni Əziz Əsgər oğlu, Qazax, Köçəsgər kəndi); "Peşə dalınca" (söyləyəni Şamil Aslan oğlu); "Lala-Nərgiz" (Söyləyəni Qədir Mərdan oğlu, Tovuz, 1933); "Yeddi qardaşlar" (söyləyəni Nazlı İsgəndər qızı, Qazax rayonu); "Barxudarın baxtı" (söyləyəni Həsən Həsənov, Qazax, Köçəsgər kəndi); "Şahşanqar" (söyləyəni Heybət Məhəmməd oğlu, Qaryagin rayonu, 25.X.1933); "Qızıl və ilan" (söyləyəni Hümmət Ağayev, Qaryagin rayonu, 1934); "Kosa" (söyləyəni Səkinə Kərbəlayı Məhəmmədəli qızı, Qaryagin, 1934).

Toplayıcı Ə.H.Tahirov – "Gül ilə sanavar" (Bakı, Nardaran kəndi); "Mərdnən Namərdin nağılı" (söyləyəni Fatma Nəsir qızı, Bakı, 1934); "Dünya gözəli"; "Molla Əli Pənah" (söyləyəni Həbib, Bakı, Buzovna kəndi, 1933); "Keçəl bacıoğlu" (söyləyəni Xədicə Hüseyn qızı, Bakı, Maştağa kəndi); "Axundla keçəl" (Bakı, Binəqədi kəndi, 1936); "Keçəllə tacir" (söyləyəni Mahmud Əzim oğlu, Bakı, Binəqədi kəndi, 10.V.1936).

Toplayıcı M.H.Təhmasib – "Şahzadə İbrahimin nağılı", "Üç Şahzadə", "Hazaran dastan bülbülü" (söyləyəni Baxşəli Sultanov, Bakı, 17.VII.1934).

Toplayıcı Baqi Hüseynov – "Həzər", "Keçəlin divanı" (söyləyəni Zibeydə, Naxçıvan, Ordubad rayonu).

H.Zeynallı tərtib işində nağılları məzmun və ideyalarına görə (sehirli nağıllar, məişət nağılları, heyvanlar haqqında nağıllar, tarixi nağıllar və s.) təsnif etmədən düzmüşdür. Odur ki, bu sıralanmanın (ardıcıllığın) hansı prinsipə söykəndiyi bəlli olmur.

Topluda özünə yer tapan nağılların dilindən (dialekt və ləhcə xüsusiyyətlərindən), bir çoxunun isə hansı bölgədən toplanmasının qeyd edilməsindən aydın olur ki, onların toplandığı areal Azərbaycanın əksər rayonlarını əhatə edir.

Əlyazması (makina yazısı) üzərində müəllifin öz dəst-xətti ilə aparılmış təshihlər belə bir qənaət doğurur ki, H.Zeynallı nağılların mətnlərində redaktə xarakteri daşıyan bir çox düzəlişlər aparmış, buraxılmış orfoqrafiya və üslub səhvlərini islah etməyə çalışmışdır. Lakin nə tərtib işindən, nə də uyğun arxiv sənədlərindən gələcək kitabın kim tərəfindən redaktə ediləcəyi (redaktoru) bəlli olmur.

H.Zeynallının "Azərbaycan nağılları" toplusunun beşcildlik "Azərbaycan nağılları"nın təkrar nəşri tərkibində bir cild halında çapa hazırlanması məqsədyönlü sayılmış və bu sətirlərin müəllifi ilə filologiya elmlər namizədi Rza Xəlilov həmin məqsədlə iki məsələyə xüsusi diqqət yetirmişlər:

– zəif təsir bağışlayan, nağıl janrının daxili tələblərinə cavab verməyən, süjet və epizodlarında məntiqi ardıcıllıq gözlənilməyən nağıllar topludan çıxarılmışdır;

– dili, ləhcəsi və üslubu qorunmaqla mətnlər üzərində redaktə işi aparılmış, anlaşılmayan cümlələr, təhrif olunmuş bir çox söz və ifadələr dəqiqləşdirilmişdir.

H.Zeynallının toplayıb tərtib etdiyi nağıllarda milli kolorit üstünlük təşkil etmiş, onların dilində isə əsasən, iki istiqamət özünü göstərmişdir. Belə ki, örnəklərin bir qismi sırf dialektlə, əksəriyyəti isə xalq danışıq dilində təqdim olunmuşdur. Şübhəsiz ki, bu, ifaçılıq sənətindən, söyləyicilərin söyləmə tərzindən irəli gəlmişdir. Mətnlər çapa hazırlanarkən onların üslubuna əsasən toxunulmamış, H.Zeynallının təqdimatında verildiyi şəkli qorunmuşdur.

Öncə qeyd edildiyi kimi, topluda örnəklərin söyləyiciləri haqqında məlumat verilməmişdir. Tərtib işi ön söz, izah və qeydlərlə də təchiz edilməmişdir. Nəşrə daxil edilən "Azərbaycan nağılları haqqında" adlı giriş məqaləsi isə H.Zeynallının xatırladılan fondunda qorunan nağıllar haqqındakı araşdırmaları arasından seçilmişdir. Müəllifin nağıl janrı barədə Azərbaycan və rus dillərində yazmış olduğu bir neçə giriş məqaləsi, nağıllar haqqında olan izahlı biblioqrafiya, izah, şərh və qeydlər təsdiq edir ki, H.Zeynallı ötən yüzilliyin 30-cu illərində Azərbaycan nağılları ilə bağlı çoxyönlü axtarışlar aparan ilk tədqiqatçılardan olmuşdur. H.Zeynallının giriş səciyyəli araşdırması isə Azərbaycan nağılları haqqında ümumi bilgi verdiyi üçün ondan ön söz kimi faydalanmaq məqsədyönlü sayılmışdır.

H.Zeynallının giriş məqaləsi çapa hazırlanarkən redaktə səpkili bir sıra dəqiqləşdirmələr aparılmış, mövzu və problemdən faydalanmış qaynaqlar (ətək yazıları) isə müasir tələblərə uyğunlaşdırılmışdır. Bununla bərabər Azərbaycan, həmçinin müxtəlif xalqların nağılları ilə bağlı söylənən mülahizələr tamamilə qorunmuş, mətnə ciddi heç bir müdaxilə edilməmişdir.

H.Zeynallının "Azərbaycan nağılları" toplusundakı örnəklərin (təəssüf ki, onlar sonrakı onilliklərdə müxtəlif ünvanlarda ayrı-ayrı müəlliflərin adları ilə bağlı dəfələrlə nəşr olunmuşdur) qaynaqlarını müəyyənləşdirmək, nağıllar barədə yazdığı çoxyönlü araşdırmaları dəyərləndirmək imkan xaricindədir. Bu işi bir vəzifə kimi gələcək tədqiqatçıların öhdəsinə buraxırıq.

H.Zeynallının toplayıb çapa hazırladığı Azərbaycan nağıllarının 70 ildən sonra doğma oxucusu ilə qovuşmasını mühüm mədəni hadisə sayır və onun ruhu qarşısında mənəvi borc hesab edirik.

## AZƏRBAYCAN NAĞILLARI HAQQINDA

Nağıllar, hekayətlər, qaravəllilər və lətifələr azərbaycanlıların zəngin və müxtəlif şəkilli el yaradıcılığı növlərindən bir qismidir. El yaradıcılığının bu fantastik təhkiyəvi növünün pərdəsi altında Azərbaycan əməkçi elinin tarixi keçmişi, ictimai əlaqələri, əməl və arzuları ilə etiqadları, inanışları canlanan kimidir.

Nağıllar onları yaratmış olan insan cəmiyyəti qədər qədimdir. Bunlar el yaradılıcılığının bir növü kimi uzun zamanlar bilgi və bədii həyəcanın mənbəyi olmuş, bir sıra həyatı bağları, təbiətlə, ayrı-ayrı şəxslər və kütlələrlə olan əlaqəni sürətləndirmiş, ibtidai insan isə bunların hamısını öz yaradıcılığı ilə bəzəmiş, şəxsləndirmiş, nəsildən-nəslə söyləyərək əbədiləşdirməyə çalışmışdır.

Nağıllara diqqət etdikdə bir sıra mifoloji (əsatiri) süjetlərə təsadüf ediləcəyi bəllidir. Bu süjetlərin ən qədim zamanlardan sinifli cəmiyyət təşəkkül etmədən çox-çox əvvəlki dövrlərdən xəbər verdiyinə şübhə yoxdur. Bu kimi nağıllar onu yaradan, öz mühitində bəsləyən və yaşadan hər hansı bir elmin totemik təsəvvürlərini və ya qədim insanın təbiətə qarşı fikir, duyğu və xəyallarını, bir sözlə, naturalist və sehrli (nağılı) görüşlərini ifadə edir.

Bu kimi süjet, yaxud "motiv"lərin qədimliyini anlamaq üçün nağıllarımızda ən çox təsadüf olunan motivlərə diqqət edilməlidir. Bunlarda möcüzəli bir surətdə dünyaya gəlmiş uşaqlar nağılın qəhrəmanı olur, sonradan padşahın taxtına yiyələnirlər.

Bu süjet yalnız bizim bu gün eşitdiyimiz Azərbaycan nağıllarında deyil, ta qədim Misir nağıllarında da vardır. Misir nağılları sirli bir surətdə doğulmuş uşaqların axırda firon taxtına sahib olacağını qabaqcadan xəbər verir[1]. Bütün dünya folklorunda olan bu süjet, adəti üzrə nağılın başlanğıcını təşkil edir. Yalnız köhnə dünyanın xalqları, Şimali Amerika telengitlərinin nağıllarında da belədir. Lakin qədim Misir nağıllarında "Anup və Bata qardaşlarının romanı"nda bu süjet sona yaxın verilir[2] və burada da arvadın ağzına düşmüş əncir ağacı yarpağından arvad hamilə olur və doğduğu oğlan Misir padşahının (fironun) vəliəhdi olur[3]. Sonra insanın ölməzliyi süjetini, bizim nağıllardan "Nar qızı" və başqalarında görüldüyü kimi, həmin yuxarıda adını çəkdiyimiz Misir nağılında da görmək olur.

Ayin, sehr mahnıları, tapmacalar, ovsunlar, əmək nəğmələri ibtidai tayfalarda mövcud olmaqla bərabər, qədim insanın dünyanı duyuşu və anlayışı

---

[1] Bax. И.М.Викситьев. Древнеегипетская повесть о двух братьях, М., 1917, Предисловие, с.4

[2] Yenə orada, səh.10

[3] Yenə orada, səh.49

əsasında meydana gəlmişdir. Məsələn, Amerika və Avstraliya tayfalarının inanışına görə bir düşmənin heykəlini düzəldib ona əzab verilərsə və onun ürəyi çıxarılıb əzilərsə, düşmən ölər. Və ya yaxın bir insanın başına bir müsibət gələcəyi onun buraxıb getdiyi şeydə də öz əlamətini göstərə bilər. Bu zehniyyətin nağıllarda eynilə inikas etdiyini görmək mümkündür.

Məsələn, qədim Misir nağılında deyilir ki, "Batanın böyük qardaşı Anup öz evinə gəldi, oturdu, əllərini yudu, ona bir qab pivə verdilər. Pivə köpük idi. Ona ikinci qabı çaxırla bərabər verdilər. O da bulandı[1]. Bu, qardaşı Batanın ölməsi əlaməti idi. Türk nağıllarında şah qızının ölümcül bir halda olması üzükdən məlum olur. Bu ibtidai dünyagörüşləri bugünkü nağıllarda əbəs yerə qalmamışdır. Bunun izlərini Azərbaycan xalqının etnoqrafiyasında tapmaq çətin deyildir. Məsələn, bəzi kəndlərdə qadınlar öz günülərinin uşağını qarğayıb onun heykəlini qəbiristanlıqda basdırdıqlarına az təsadüf etməyirik. Salyan ətrafında zəlzələ olan vaxt yerin altında yeriyən cinləri saxlamaq üçün yerə şiş basdırırdılar. Bakı kəndlərində qapıya, getdiyi yerdən gec gələn ailə üzvlərini tez qaytarmaq üçün (kənara) şiş basdırılır. Guya bura şiş basdırdıqda orada həmin şəxs rahatsız olacaqmış. İndi izləri qalmış inanışların vaxtılə bir dini təsəvvür sistemi olduğuna heç şübhə yoxdur. Əlbəttə, qədim dövrün insanları həyatlarında tətbiq etdiklərinin bir qismini nağılda daha bədii bir şəkildə eşitdikdə ona inanacaqdı! Əlbəttə, buna inanmaqla bəzən o, öz ayinlərindən nağıllarda da istifadə edəcəkdi. İnsanlar nağıllarda göstərilən qəribə şeylər, təbiətin mövhumi qüvvələri içərisində özünün dost və düşmənlərini görürdü. İş belə olduqda mühitə təsir edə biləcək bütün sehrli qüvvəyə malik tilsimləri, löhləri, ovsunları, caduları və qarğışları bilmək lazım gəlirdi. İndiki nağıllar bunların heç birini təkrar etməsə də, onların nə yerdə işləndiklərini, təsirlərini və nəticələrini müəyyən dərəcədə təfsilatilə qoruya bilmişdir.

Nağıllar hadisələri ümumiləşdirir, haqqında bəhs edilən hadisə Misirdəmi, Çindəmi və ya İran şəhərlərinin birindəmi baş verir-versin, eşidən üçün maraqlıdır. Nağıllarda adamın dost və düşmənləri, ümumiyyətlə, bütün xarakteristikası ilə tanıdılır. Buna görə də nağıllarda bir hadisədən bəhs edərkən qəhrəmanın "doqquz ölkə arxasından" gəldiyi söylənilir, nağılçı onu dağlardan yel kimi, dərələrdən sel kimi, badeyi sərsər kimi atın üstündə gəzdirir, tipik olaraq, "biri vardı, biri yoxdu, Allahdan başqa heç kəs yoxdu, bir paççah vardı, bunun üç oğlu vardı", "Günlərin birində bir yoxsul kətti getmişdi tikan qırmağa" və s. deyə təqdim edir.

Nağıllar hekayənin (novellanın) əksinə olaraq, təsvir etdiyi hadisənin gerçək, həqiqi olmasını sübut etməyə çalışmayır[2].

---

[1] Древнеегипетская повесть о двух братьях, с.42

[2] Bu xüsusda R.O.Şorun "Pançatantra"nın tərcüməsinə verdiyi müqəddiməyə bax: "Pançatantra", M., 1930, s.15-16

Nağılların süjetlərini analiz etdikdə onlarda ən qədim iqtisadi stadiyaların və ictimai inkişafların izlərini tapmaq asandır. Burada bəzən mülkiyyətin törəməsi, şəxsi əkinçiliyin başlanması, kişi və qadın münasibətləri və i.a. birər-birər göz önündən keçib gedir. Kəlləgöz nağılları, İskəndər Zülqərneyn haqqındakı rəvayətlər, əfsanələr indiki Azərbaycanın daxil olduğu Arran ərazisinin yunanlar tərəfindən zəbt edilməsi və ya daha başqa tarixi hadisələrin abidəsi deyildirmi?

Lakin burada bir "əmma" lazım gəlir. Bəzən nağıl heç bir tarixi hadisəni söyləmək məqsədini daşımır. Müəyyən iqtisadi əlaqələrə və ictimai münasibətlərə dair nağıllar bəzən heç bir göstəriş və ya eyham gözləməyir[1]. Məsələn, bir gün İskəndər Zülqərneyn ovdan gələrkən başını, üzünü tük basmış olduğunu görüb dəlləyi çağırır ki, başını qırxsın. Dəllək ülgüc-büləni çıxarıb, sabun hazırlayır, əlini padşahın başına uzadanda, İskəndər onu saxlayır: – Bax, – deyir, – burada sənnən başqası yoxdur. Sən mənim başımı qırxanda gördüyün sirri bir adama demiş olsan, başını sənnən qabaqkıların başı kimi vurduracağam. Dəllək padşahın təskülahını qorxa-qorxa götürür, amma heç bir şey görmür. Ürəyi bir az sakit olur. Padşahın başını islatmağa başlayanda İskəndərin onu nə üçün sınadığını başa düşmür. Onu fikir götürür. Padşahın boynunu, boğazını isladır, xəbər almadan İskəndərin başını da islatmağa başlayır. Birdən tüklərin arasında bitən iki buynuz onun əlinə ilişir. Dəllək vahimə ilə çəkilir.

Bu zaman İskəndər şəhadət barmağını dodaqlarının üstə qoyub hökm edir ki, səsini çıxartmasın. Günlər keçir. Dəllək bu sirri saxladıqca qarnı şişir. Axırda qərara gəlir ki, bu sirri qarnımda saxlayınca, qoy gedim dağa-daşa deyim. O, çölə gedir, ağzını bir suyu qurumuş quyuya tutub deyir: "İskəndərin buynuzu var, buynuzu var, buynuzu!".

Bunu quyuya deyəndən sonra evinə gəlir, görür ki, hər şey öz qaydasındadır. Bundan bir neçə vaxt sonra həmin quyunun üstündə bitən qamışı bir çoban kəsir. Ondan özünə bir tütək qayırır. Bu tütəyi çalanda qamışdan səs çıxır: "İskəndərin buynuzu var, buynuzu var, buynuzu!". Beləliklə, İskəndərin iki buynuzu olduğu aşkar olur. Buna görə də ona "Zülqərneyn" deyirlər.

Burada artıq ictimai və iqtisadi əlaqələr görünməsə də, sirrin aşkara çıxması kimi didaktik bir məqsəd vardır ki, öz sirrini kimsəyə asma! "Qız qalası" əfsanəsi də bu qəbildəndir.

İnsanların ayrı-ayrı heyvanlara qarşı münasibətindən törəyən əlaqəsini anladan totem hekayələri get-gedə cəmiyyətin dəyişməsilə dəyişib qulyabanı, hal anası hekayələrini meydana gətirir.

Bu qəbul nağıllar mühüm elementlərlə doludur. Məsələn, biri nağıl edərkən babası, nənəsi və ya ulu babasının qulyabanını görmüş olduğunu söyləyir.

---

[1] Buna baxmayaraq, nağılları yaşadan iqtisadi və ictimai dövrləri onların içindən çıxarmaq olur.

Guya qulyabanı qorillaya bənzər sarsaq, tüklü bir məxluq imiş. Nağılçının atası, yaxud babası qulyabanını meşədən tutub evə gətirmiş, yaxasına yekə bir iynə sancıb bunu özünə qul edibmiş. Qulyabanı hər şeyi tərs anlayır, istənilən şeyi əmələ gətirir, suya, oduna gedir və s. Qulyabanı ölçü bilməzmiş. Bunu odun gətirməyə göndərdikdə gedib meşənin otuz-qırx ağacını qırar və həyəti, damı odunla doldurarmış. Qulyabanı dəmirdən qorxduğu üçün yaxasındakı iynəyə əl vurmağa cəsarət etmir, küçədə oynayan uşaqlara şirni verərək iynəni çıxartdırar və sonra qaçarmış. Ertəsi gün evə gətirdiklərini tamamilə geri daşıyarmış.

Hal anasına gəldikdə, buna bəzən "həmzad" adı da verilir. Bu da doğan arvadların, yenicə dünyaya gətirdikləri uşağın ciyərini çıxarıb apararmış. Ona görə də bəzən yenicə doğmuş arvad bayıldıqda "onu hal aparmış" deyirlər. Şəhərin və kəndin avam xalqı isə bunu mövhumi bir şəxs kimi təsvir edir. Hətta kəndlərdə doğan arvadın bayıldığı zaman "hal anasını" qaçırmaq üçün evdə tüfəng atırmışlar və s. Əslində isə doğan arvad ağrının gücündən bayılarsa, doğulacaq çağanın boğulması qorxusu və bir sıra başqa nəticələr törəməməsinin qarşısını almaq üçün qadını bayılmağa qoymazmışlar. Lakin hal anasından bəhs edən avam nağılçı belə deyir: nənəsi çay başında paltar yuyarkən, hal anasının əlində ciyər su üstünə gəldiyini görür, hal anası ciyəri suya salmaq istəyir. Bu dəmdə nağılçının nənəsi ona mane olur və bu surətlə doğan arvadla uşağı ölümdən qurtarmış olur.

Daha fantastik olan div haqqında nağıllar xüsusi bir mövqe tuturlar. Div və ya dev (bəzi yerlərdə döy də deyilir) nağılları Azərbaycan elləri içərisində çox yayılmış nağıllardandır. Divlər bir, üç və yeddi başlı olarmış. Bunların canı şüşədə olur, özündən xaricdə saxlanır, bu qabı əldə edib qıran adam divə qalib gələrmiş. Bu divlərin ən dəhşətlisi "ağ div" imiş.[1]

Firdovsinin təsvirlərinə əsasən, divlər haqqında olan nağıllar ən qədim İran nağılları ilə əlaqədardır. Lakin həmin adamyeyən vəhşilər əski monqollarda da "Əməgən" adı ilə məşhurdur. Ancaq bunların təsiri Azərbaycan nağıllarında görünməyir.

Xalq yaradıcılığının (folklorun) bütün başqa növləri kimi nağıllar da ən qədim zamanlardan insan nəsilləri, insan cəmiyyətilə birlikdə inkişaf edərək cəmiyyət quruluşunun dəyişməsilə pədərşahı, quldarlıq və ya feodal mühitlərində mündəricəsini dəyişə bilmişdir. Lakin bu dəyişmə nə qədər dərin olur olsun keçmiş epoxalardakı ictimai əlaqələrin ayrı-ayrı yönləri nağıla daxil olmuş, yeni ünsürlər ilə çulğalaşaraq bizə qədər gəlib çatmışdır. Məsələn, nağılın içində bir tərəfdən şəhərdə inkişaf etmiş ticarət əlaqələri ilə yanyana, kənd yoxsullarının – rəncbərlərin mülkədar, padşah, vəzir və s. tərəfindən

[1] İstər İran xalqları, istərsə azərbaycanlılar arasındakı qənaətə görə, divlər Şimalı İranda Gilan meşələrində yaşayırlarmış.

soyulması, qul əməyinin istismarı və bunların arasında sinifli cəmiyyətdən əvvəlki dövrləri andıran hadisələr və mifoloji dünyagörüşləri bir nağıla toplandığı hallarda az deyildir.

Bu da nağılların nə kimi etaplar keçirmiş olduğuna bir dəlildir.

Bu kimi vertikal baxış nağılın, belə demək mümkündürsə, "yaşını" təyin etməyə imkan verir, üfüqi baxış isə nağılın eldən-elə, ölkədən-ölkəyə keçməklə nə kimi dəyişmələrə təsadüf etdiyini göstərir.

Xalqların ta ibtidaidən istər döyüş, istərsə sülh-saziş, ticarət yolları ilə bir-birləri ilə daimi əlaqədə olduğunu hər kəs bilir. Belə bir qarşılıqlı əlaqə nəticəsində hər bir tayfa, hər bir cəmiyyət başqasından, qonşu tayfadan, özgə bir mühitdən aldığı folklor materialını mənimsəyir, öz zövqünə uyğunlaşdırır və axırda öz malı eləyir. Lakin yeni mühitə düşən nağıl, yeni ünsürləri qəbul etməklə bərabər, əvvəlki yerindən gətirdiyini də saxlaya bilər. Qəhrəmanların adı, iştirak edənlərin xarakteristikası və nağılın başqa komponentləri bunu aydın göstərir.[1]

Misal üçün, Naxçıvandan toplanmış "Hazaran dastan" nağılını götürək. Nağılın süjeti belədir: Padşah misilsiz bir bağ salır. Bu bağı bəzəmək üçün "Hazaran dastan" – bülbül lazım olduğunu bir dərviş ona söyləyir. Şahın iki böyük oğlu bülbül üçün gedir. Lakin bülbülün sahibəsinin əlinə düşdükdə onun qulu olub qalırlar. Şahın üçüncü oğlu bir çox əngəllərə üstün gəldikdən sonra bülbül yiyəsi cadugər qızın bağına çatır, "Hazaran dastan"ı qəfəsilə götürüb tilsimi sındırır və atasının yanına dönür. Cadugər qız bülbülü aparan qəhrəmanı arayır, iki qardaşın yalan söyləyərək qəhrəmanlığı özlərinə isnad verdiklərini açır. Və əsl qəhrəmanın kim olduğu meydana çıxır. Sonra üçüncü şahzadə Hazaran dastan gülünü də gətirir.

Erməni nağılları içərisində də bunun variantı ("Hazaran bülbül")[2] olduğunu görürük. Nağılların adını təhlil etmiş olsaq, "Hazaran" sözünün farsca ("həzar"), "bülbül"ün də ərəbcə olduğunu fərq edərik. "Hazaran dastan" – min cür dastan söyləyən deməkdir. Əsatiri məxluq olan "hazaran bülbül" adı da buradan gəlir. Lakin bu ad erməni nağılçısı tərəfindən təhrif edilmişdir. Əslinə baxılsa, buradakı baş qəhrəmanın adı Alo-Dinodur. Bu da əslən ərəbcə "Ələddin"dən alınmış və istər Türkiyə, İran müsəlmanları və istərsə Şura Şərq ellərindən tatar, türk, ləzgi və s. içərisində yayılmış bir addır. Erməni nağıllarına yazdığı müqəddiməsində Marietta Şahinyan belə deyir: "Hazaran bülbül" və sehrli gözəl qızları qorxusuz əldə edən Alo-Dino və

[1] Burada nağılçıların xarakteristikasını vermədiyimiz üçün onlardan bəhs etməyirik. Yeni gəlmişkən, hər bir nağılçı alışdığı ifadəni saxlamaqla öz yerli şivəsini də, yerli ənənələrini də, etiqadlarını və görüşlərini də nağıla aşılayır və bununla da əvvəlki mühitində öyrəndiyi nağılları yayır.

[2] Армянские сказки. Academia, I çapı, 1930, səh.168-192

Çuqqo şahzadələr maraqlı nağıl qəhrəmanlarındandırlar. Maraqlı burasıdır ki, bunların adları ermənicədən deyil, türkcədən gəlir"[1]. M.Şahinyanın heyrəti bizcə tamamilə anlaşıqlıdır.

Lakin biz "nağıl, içərisində yayıldığı mühitin ünsürlərini qəbul edir" – demişdik, dediklərimiz bu nağılda tamamilə yerini alır.

Alo-Dino deyir:

– Elə isə bu üç arvadı və quşu sənin yanında qoyub, qardaşlarımın dalınca gedirəm.

– Yaxşı, oğul (deyə qoca cavab verdi – *Z.H.*), qoy bu, Allah amanatı olsun, yeri.

Alo-Dino şəhərləri gəzərək uzun zaman qardaşlarını aradı, heç yerdə tapa bilmədi. Bir şəhərdə onu qonaq çağırdılar. O, ev yiyəsindən soruşdu:

– Burada qəribləri necə tapırlar?

Ev yiyəsi cavab verdi:

– Kilsədə! Səhər tezdən get o kilsənin zəngini çal və yeddi öküz qurban kəs. Qəriblər bu kilsədə ibadət edildiyini və ehsan veriləcəyini bildikdə hər tərəfdən oraya toplaşarlar, sən də aradığını asanlıqla taparsan.

Bu nağılda erməni mühitinin yeni ünsürü bu başdan nağıla yerləşdirilən kilsə məsələsidir. Nağıl belə başlayır:

"Padşah kilsə tikdirirkən bir zahid gəlib dedi:

– Kilsə çox gözəldir, ancaq bunun içində bircə şey – hazaran bülbül çatmayır", – deyilməklə dini xristian elementi bu nağıla girmişdir. "Qəriblər kilsəsi" də dediyimiz elementlərdəndir.

"Cadugər ilə onun şəyirdi" nağılı bizim üçün aydın misal ola bilər. Bu fantastik nağıl, demək olar ki, bütün dillərdə vardır. Bu nağıl türkcə "Axvay", "Oxqay", "Oxay", ermənicədə "Oxik"[2], ruscada həm prof. Zeleninin yazmasında "Ox"[3], həm də M.Q.Azadovskinin yazmasında "Koldun i ef uçenik"[4], abxazca "Xaytın"[5] və i.a. adları ilə məşhurdur[6]. Bu nağılın süjeti bütün dillərdə eynidir. Yoxsul bir kəndli oğlu üç il cadugərin şəyirdi olur. Vaxtı tamam olanda ustadından daha bilikli çıxır. Cadugər rəqibini yox eləməyə çalışır. Lakin şəyirdi müxtəlif cildlərə girərək ona qalib gəlir, onu yox eləyir, özü də padşah qızını alır. Zeleninin qeydinə görə, nağıl Şərq koloritilə doludur. M.Azadovskinin yazması isə daha çox ruslaşdırılmış və hətta nağılçı qadın Vinaqirova yoxsul kəndlinin əyyaşlığına artıq diqqət verərək onun

---

[1] Yenə orada, səh.21

[2] Армянские сказки. Academia, 1930, стр.89-94

[3] Зеленин. Сказки Вятской губернии

[4] Сказки Верхнеленского края, Вып. I, Иркустк, 1925, № 4

[5] Абхазские сказки, Изд. "АБНИИК"а. Сухуми, 1935, с.114, "Сказка о Хайте".

[6] Həmin nağılın başqa paralelləri haqqında bax: Н.П.Андреев. Указатель сказочных сюжетов, №325

bədbəxtliyinin əsası məhz araqdan olduğunu qeyd edir. Erməni nağılı isə bədbəxtliyin səbəbini (türk nağılında olduğu kimi) artıq pulpərəstlikdə görür, sonra isə nağıla zaqafqaziyalılar üçün çox xarakterik olan aşıq obrazı daxil edir.

Göründüyü kimi, nağıl bir para yeni elementləri qəbul etməklə bərabər başqalarını itirir və bir mühitdən başqa bir mühitə keçdikdə əhəmiyyətli dərəcədə dəyişə bilir.

Burada nağılçının üzərinə ən böyük yaradıcılıq işi düşür. Nağıl danışan nağılı anladığı, xatırladığı və zövqünə uyğun olduğu kimi söyləyir. Həm də dediyimiz kimi, söyləyən hər zaman öz şəxsi və sinfi dünyagörüşünü nağıla keçirir və müxtəlif ictimai pillədə olan nağılçı eyni süjetdə olan nağıla başqa-başqa don geydirir. Bunu bir sıra nağıllarda görmək olur və nağıl söyləyən yaradıcının hansı bir ictimai qrupdan olduğunu nağıla görə bilmək çətin deyil.

Nağıllarımızın çoxu kəndlilər içərisindən toplandığı üçün bunları söyləyən nağılçının kəndin hansı qrupuna mənsub olduğunu aydınlaşdırmaq olur. Məsələn, qəhrəmanları keçəl və ya yoxsul olan nağıllar, torpaqsız rəncbər içərisində cücərib inkişaf edə bilər. Bu nağıllardakı keçəl çil, sarışın, seyrək dişli kosaya qarşı qoyulur və rəhmsiz, qəddar darğa ilə, vəzirlə və ya padşahın bütün quyruqları ilə amansız surətdə vuruşur. Sinfi antaqonizm öz-özündən gözə çarpır və nağılın inkişaf mehvəri istismarçı ilə aparılan mübarizədən ibarət olur. Bu kimi nağıllarda iştirak edən qadın obrazı bütöv bir halda qalmışdır. Buradakı qadın ərinin həqiqi yardımçısı olub, onu ən şücaətli addımlar atmağa ruhlandırır. Bu nağıllarda hakim siniflərin maskası yırtılmış, aristokratiyanın öldürücü xarakteristikası verilmişdir. Burasını da qeyd etmək lazımdır ki, rəncbər və yoxsul kəndlilər içərisində yayılan nağıllar istər yaşayışa aid hekayə xarakterli, istərsə də fantastik nağıl olsun – hər yerdə zalıma qarşı nifrət bəsləndiyini aydın göstərir. Nağılçı da düşünmədən iki ayrı-ayrı ictimai-iqtisadi pillələrdə olan qardaşlar arasındakı belə ziddiyyəti görür ("Saleh və Valeh" tipli nağıllar).

Qəhrəmanı şah, vəzir, tacir və ya onların oğulları olan nağıllar kəndin varlı təbəqəsi arasında (və bu təbəqə tərəfindən) yayılır və bu nağıllardakı intriqanın çərçivəsi daralır, ictimai toqquşmalardan qaçılır və bunlardakı mübarizə həmişə kor olmuş ata ilə rəhmli, lakin atasına qulaq asmayan oğul, ögey ana ilə qız və ya öz qardaşının düşməninə vurulmuş bacı ilə qardaş arasında gedir. Bacı qardaşı öz ehtirasına qurban verir.

Bacıların paxıllığını, ögey ananın zalımlığını ("Üç bacı"), arvadın vəfasızlığını, qadının kəmağıllığını ("İki arvadın işdəkləri", "Altı qadının səfehliyi") təsvir edən nağıllar hər zaman avam və meşşan təbəqələr içərisindən su alır. Bu təbəqə istər kənddə olsun, istərsə şəhərdə olsun, həmişə ya şəxsi təşəbbüsü sayəsində və ya bir xoşbəxtlik üz verməsilə böyük sərvətə malik olur. Bu kimi nağıllarda çox zaman dini, xüsusən şiə məzhəbin təbliği aparılır. Abşeron yarımadasındakı kəndlərdən nağıl toplayarkən 1922-1923-cü illərdə

topladığım nağılların bəzisinin süjeti aydın göstərir ki, nağıllardakı hadisələr bilərəkdən Ərəbistana köçürülmüşdür. Guya nağılın qəhrəmanı islamdan əvvəl yaşamış bir qocaman pəhləvan imiş, islamın inkişafına qədər yaşayır və Məhəmmədin hümməti olur.

* * *

Budda, Yusif, Kənan, İsa, Musa haqqında olan əfsanələr hamıya bəllidir. Hər bir din sisteminin el yaradıcılığından istifadə etdiyini hamı bilir. Hətta hər bir məzhəb başqa bir məzhəbi batil göstərmək və ona qarşı mübarizə üçün nağılı başqasının dilindən rəvayət edərək əfsanələşdirir və özünə lazım olan dövrə bağlayır. Məsələn, şiələr folklor motivlərindən istifadə ilə deyirlər ki, Məhəmməd meraca vardıqda, ona bir sini südlü plov gətirirlər. Məhəmməd təkbaşına yemək istəmədikdə, qaibdən bir tüklü əl uzanıb həmsüfrə olur. Bu dəmdə bir südlü düyü onun əlinin dalına düşür, ləkə əmələ gətirir.

Guya Abutalib oğlu Əli anadan olduqda həmin ləkə onun əlinin dalında varmış. Bu surətlə şiələr Əlinin fəzilətini mübaliğələrlə artırırlar. Şiələr Abutalib oğlu Əlinin beşikdə ikən əjdahanı tək böldüyünü nəql edirlər. Guya Əli beşikdə yatmışkən şəhərə bir əjdaha girir. Bütün əhali şəhərdən çıxıb qaçır. Əlinin anası canını qoruyarkən uşağı unudur. Sonra daha şəhərə gələ bilməyir. Əjdaha şəhəri gəzə-gəzə Abutalibin evinə gəlir və beşikdə uşağı udmaq istədikdə Əli əllərini uzadır, əjdahanın alt və üst dodaqlarından tutub tən bölür. Əjdahanın cəmdəyinin yarısı o yana, yarısı bu yana düşür və bir gilə də qanı yerə tökülmür. Bir neçə gündən sonra şəhərə dönmüş camahat bu möcüzəni görəndə heyran qalır. Əjdahanı aparıb şəhərin kənarına atırlar. Bu zaman əjdahanın qanı sel kimi axmağa başlayır.

Bu kimi əfsanələr ilə molla və dərvişlər xalqın başını doldurur və bu möcüzələrə inanmayanın mütləqa daşa dönəcəyini qətiyyətlə söyləyirdilər.

Əfsanələr ilə əlaqədar olan abidələr Azərbaycanda az deyildir. Misal üçün, bugünkü Qız qalası vaxtilə atəşpərəstlər üçün bir qala və eyni zamanda atəşgədə yeri olmuşdur. Bəziləri isə bunu Xəzər dənizinin mühüm bir fanar qalası olduğu iddiasındadır. Bir rəvayətə görə, bu qalanı Süleyman peyğəmbər tikdirmiş, sevgilisi Bilqeyisi burada saxlamışdır. Başqa rəvayətə görə, 1200 il bundan əvvəl Azərbaycanda yaşayan Səməd xan adlı birisi öz qızına aşiq olmuş və qızın əmrinə görə bu qalanı tikdirmişdir. Dərbənd divarı da Makedoniyalı İskəndərə isnad edilir.

Birinci Şah Abbas haqqında da nağıl və əfsanələr çoxdur. Vaqif haqqında düzəldilmiş nağıl aşıqlar arasında söylənir. Bu nağıllar yarı əfsanə, yarı hekayə şəklində olan, quruluşca zəif nağıllardır.

Bəzi nağıllar danışılarkən əyləndirmək məqsədini daşısalar da, yenə ("Kəlilə və Dimnə" kimi) müəyyən didaktik bir ideyaya malikdirlər. Nağılçı

və dastançı aşıq ifa zamanı məclisin kimdən ibarət olduğunu, onun şəraitini, yerini və s. nəzərə alır. Ona görə "məclisi tutdurmaq", "məclisi başa vermək" tədbirləri aşıqlar və nağılçılar arasında məşhurdur. Hər bir aşıq və nağılçı məclisə görə nağılın süjetini də dəyişdirir.

Məsələn, 1924-1925-ci illərdə Abşeron yarımadasının Mərdəkan və Şağan kəndlərində nağıl toplayarkən 62 yaşlı Məmməd Rəsul Şeydabəy oğluna təsadüf etdim. Ona molla Rəsul deyirdilər. Bu nağılçı yarısavadlı olsa da, Quranın bəzi surələrini əzbərdən bildiyinə görə ona molla deyərdilər. Molla Rəsul yoxsul idi. Qohumları ilə birlikdə bir parça yeri var idi. Lakin heç bir vaxt bu yeri becərməyə imkanı yox idi. Həmin bu qoca kənddə də, şəhərdə də hər zaman nağıl danışarkən məclisi hesaba alardı. Xüsusən şəhərlilər üçün kənd yaşayışını və kəndlilər üçün şəhər yaşayışını müfəssəl surətdə təsvir etməyi sevərdi. Sonra qocalar olan məclisdə Yusif və Züleyxadan, İskəndər Zülqərneyndən, Xıdır İlyasdan bəhs edərdi. Guya bu Xıdır İlyas daima insanlar içərisində görünməz bir surətdə yaşayır, suda boğulanları, tufana düşənləri xilas edir və hər zaman doğan arvadların tez azad olmasına yardım edərmiş. Ona görə də qarılar doğan arvadın ağrıyan yerinə əl çəkdikdə: "Ya Xıdır Nəbi, Xıdır İlyas, bəndəni bəndədən xilas" – deyə imdad çağırarlarmış. Məmməd Rəsul da xüsusi bir ləzzətlə Davud peyğəmbərin səsindən quşların qanad saxladığını və onun Qurandan bir surə oxurkən bütün quşların səslərini kəsib onu dinlədiyini həvəslə hekayə edərdi. Maraqlı burasıdır ki, yalnız bunları deyil, hətta islamdan çox-çox əvvəlki dövrlərdə yaşamış əfsanə qəhrəmanlarını da müsəlmanlaşdırardı.

Məmməd Rəsul həmin il qış vaxtı bizə 22-yə qədər fantastik və hekayə məzmunlu nağıllar söylədi. Bunlardan əlavə molla, qazı və bəylərə aid bir çox lətifələr danışdı. Bunların içərisində "Yəmən padşahının oğlu İbrahim" haqqında söyləmiş olduğu nağılı bölüb iki ayrı-ayrı nağıl kimi bizə danışdı.

1935-ci ildə Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsi tərəfindən Tovuz rayonunda ekspedisiyada olarkən 25 illik stajı olan Aşıq Mirzə Bayramova təsadüf etdim. Bu aşıq adət üzrə fantastik və hətta yaşayışa aid nağılları sevməzdi. Lakin bunlardan çoxunu bilir, hətta Himmət Əlizadənin toplamış olduğu nağıllar məcmuəsində çap olunmuş Şah İsmayıl nağılını 1928-ci ildə söylədiyini deyirdi:[1]

Tovuzlu Aşıq Hüseyn Bozalqanlı olduqca məşhur bir aşıqdır. Mənim üçün, "Koroğlu" dastanının bir neçə qolunu söyləmiş dəyərli xalq şairidir. Bu qocaman aşıq xalq qəhrəmanları olan qaçaqlar, o cümlədən Qaçaq Tanrıverdi haqqında mənə qısa bir hekayə söylədi. 1936-cı il ildə Azərbaycan Xalq sənəti Olimpiadasına gəldikdə dörd hissədən ibarət olacaq bu dastanın birinci

---

[1] Azərbaycan ədəbiyyatı (nağıllar), I hissə, Azərbaycanı öyrənən cəmiyyət nəşriyyatı, Bakı, 1929. Toplayanı H.Əlizadə.

hissəsini Elmlər Akademiyası Azərbaycan filialının Dil və Ədəbiyyat İnstitutuna təqdim etdi. Aşıq bunun yerdə qalan üç hissəsini də göndərəcəyini vəd vermişdir.

İstər ən geridə qalmış bir nağılçı, istər ən qocaman və ya qabaqcıl aşıq olsun, (istər-istəməz) məclisin ictimai tələbləri ilə hesablaşır və ənənəvi süjetləri kütləyə təqdim edərkən hazırkı mühit üçün lazım gələn mündəricəni biçib düzəldir. Bu surətlə aydındır ki, ən qədim ənənəvi material həmişə təqdir və təğyir olunur.

Azərbaycan nağılçıları arasında ən görkəmli yeri Cabbar Mövlamqulu oğlu tutur. Onun dilindən oğlu müəllim Qulu Quluzadə 40-dan çox nağıl yazıya almışdır. Bu nağılçı Qarabağın Qaryagin rayonunun[1] Horadiz kəndindəndir. Əslən çoban olmuşdur. Səksən yaşında olmasına baxmayaraq, ta uşaqlıqdan eşitdiyi xalq yaradıcılığı nümunələrini hafizəsində saxlamışdır. Çobanlıqda danışdığı və ağasının sürüsünü otarırkən dağ yamaclarında, meşə ayaqlarında, çay qıraqlarında eşitdiyi xalq yaradıcılığının heç bir incilərini unutmamışdır. Sonradan dülgərliyə gedən Cabbar Azərbaycanda hökm sürmüş zülm və əsarət həyatını gözəl bilir və onu öz nağıllarında əks etdirir. Nağıl sənətində tayı az tapılan ustad, ənənəvi nağıl söylərkən sonda "göydən üç alma düşdü" kimi incəliklərlə yanaşı, mifoloji və fantaziyalarla bağlı gözəl realist səhnələr yaradır. Uca dağların mənzərələrini, nağıl qəhrəmanlarının divlərlə tək-təkinə döyüşdüklərini, əcaib vücudlara üstün gəldiklərini məharətlə təsvir edir. Cabbar Mövlamqulu oğlunun dili misilsiz dərəcədə aydın və obrazlıdır.

Cabbarın nağıllarında olan xarakterik xüsusiyyətlər bir çox söyləyicilərin nağıllarında yoxdur. Onun nağılları həddindən artıq təfsilatlı olmasına baxmayaraq, usandırıcı deyil, məşğuledicidir. Bəzən sırf kənd tədbirlərindən qaçmaq istədiyinə baxmayaraq, söyləniş dili sərbəstdir. Bu son xüsusiyyət öz-özünə aydındır, çünki nağılçı söylədiklərinin yazıya alındığını nəzərə almaya bilməzdi.

Cabbar Mövlamqulu oğlunun nağılları nə qədər qiymətli, bədii cəhətdən nə qədər zəngin olsalar da, Novruz Qatanovun Naxçıvandan yazıya aldığı nağıllar zəifdir. N.Qatanovun nağılları elmi cəhətdən də nöqsanlıdır. N.Qatanov bir ümumi dəftərdə 28 nağılı ərəb əlifbası ilə yazmaqla bərabər, nağılçının (yaxud nağılçıların) dil xüsusiyyətini mühafizə etməmiş, nağılın harada kimdən və nə vaxt yazıldığı qeyd edilməmişdir.

Nağılın mətni ədəbi dildə verilmiş və hətta naxçıvanlılar üçün belə adi sayılan ibarələrdən qaçılmışdır. N.Qatanovun yazmalarını oxuduqda insanda belə bir fikir hasil olur: bu nağıllar az-çox uzaq bir keçmişdə eşidildikdən sonra yazılan qısa bir süjetdir.

---

[1] İndiki Füzuli rayonu

Himmət Əlizadənin nağılları buna nisbətən bir az yaxşıdır. Himmət nağılın yazıya alındığı yeri, tarixi qeyd etsə də, onun təcrübəsizliyi nəticəsində ilk illərdə topladığı nağıllardakı Şuşa və sair yerlərin şivə və dialektləri Qazax dialekti ilə qarışdırılır. Əlizadənin "Göy gözlü kosa" nağılını Mövlamqulu oğlunun buna uyğun olan "Göy muncuq" nağılı ilə müqayisə etmək kifayət edər. Himmət Əlizadənin yazdığı nağılların bədii cəhətdən nə qədər geri qaldığı bəllidir...

Lakin nağılçının və ya aşığın fantaziyası o qədər ətraflı, zəngin və rəngbərəngdir ki, alimlər heç bir zaman onu öz hafizələri ilə əvəz edə bilməzlər. Yorulmuş əməkçi kəndlinin uzun günü od saçan günəşin altında çalışdıqdan sonra yuxunu unudaraq sazın ləzzətverici səsi və ya nağılçının sözlərinə qulaq asması əbəs deyildir.

Xalqın fantaziyasının rəngbərəng və dilinin obrazlı olması hər şeydən çox sehrli-mifoloji nağıllarda görünür. Bu nağıllarda iştirak edən qüvvə və şəxsiyyətlər kişiləri yeyən və gözəl qadınları çəkib aparan divlərdir. Lakin bu divlər heç bir zaman sona qədər insana qalib gəlmirlər. Bu divlər həmişə dağlarda, şəhərlərdən uzaq qalaçalarda yaşayır və ya yerin altında özlərinə bağlı-bağçalı saraylar salır, gözəl pəriləri və ya qızları bu yerlərə çəkib aparırlar. Nağılın qəhrəmanı adəti üzrə, ya təsadüfən və ya müəyyən göstərişlə bu yerləri tez tapır. Bu divlərin adət üzrə sarayları, mülkləri bir-birinə yaxın olur və hər zaman bir div o birisindən uzaqda yaşadıqca əvvəlki qardaşından daha sərt, daha qüvvətli və daha ziyankar olur. Lakin bu divlərin ifritə anaları oğlanlarından daha dəhşətli olur. Buna baxmayaraq bu ifritə qüvvətli, boylu-buxunlu nağıl qəhrəmanına vurulmaqdan çəkinmir. Divlərin arasında qara başlı, ağ başlı, bir başlı və yeddi başlısı olur. Lakin bunlar dəhşətli olduqları qədər də sarsaq olurlar. Ona görə də çox asanlıqla bəzən bu və ya başqa padşahın əmrinə tabe olurlar.

Pərilər bütün-bütünə divlərin əksini təşkil edir. Bunlar ya göyərçin cildində, ya gözəl bir qız şəklində nağıl qəhrəmanına rast gələrək onun əjdahalar, divlər və başqa zalım qüvvələrlə apardığı qeyri-müsavi mübarizəsində ona yardım edirlər.

Nağıl qəhrəmanlarının məqsədlərinə çatmaları üçün heyvanat aləmi onlara az kömək etmir; məsələn. it, pişik, ayı, meymun, xüsusən at, bəzən ağıllı ilanlar, hikmət sahibi olan quşlar, ağ və qara qoyunlar qəhrəmana yardım edirlər. Bəzən dövlət quşu ən yaxşı bir keçəlin başına qonmaqla onu nağıldakı cəmiyyətin ən yüksək pilləsinə çıxarır. Simurq insanın yaxşılığına qarşı onu dünyanın bir ucundan başqa ucuna qanadları üstündə aparır, aslan isə ürəyi rəhmli nağıl qəhrəmanına öz balalarını verməklə onun müvəffəqiyyətinə səbəb olur.

Səs-küylə dolu şəhərlərdən qaçan və zahid həyatı sürən qocalardan savayı Azərbaycan nağıllarında ən çox cadugər dərvişlərin obrazlarını gör-

mək olur. "Dərviş" adı gələndə Azərbaycan avamları bir vahimə, xariqülادə bir qüvvə qorxusu duyurlar. Yalnız yoxsul təbəqələr deyil, xırda meşşan əhali deyil, bəlkə Şərqin qudurğan feodalları da, bəyləri və xanları da, şahların sarayları da dərvişə qarşı qorxu ilə qarışıq bir hörmət duyurlar.

XVII-XVIII əsərlərdə Azərbaycan və hətta Yaxın Şərq tarixində dərviş hərəkatının əhəmiyyəti aydındır. Lakin nağılda vücuduna əziyyət verib işgəncə çəkən dərviş, Şeyx Səfinin sona qədər müridi və yaxud onun nəvəsi, sonradan Şah İsmayıl olan Şeyx İsmayıla itaət edən dərviş təsvir edilməyir. Nağıllardakı dərviş obrazı Mirzə Fətəli Axundzadənin "Molla İbrahim Xəlil kimyagər" adlı komediyasındakı dərvişin eynidir.

Dərvişdə hər bir şeyi qızıla çevirən iksir daşı olur. Bunun ən çox möcüzəli bir surətdə təsir qüvvəsi başı, quyruğu kəsilmiş ilanın qovurmasını yeməkdə imiş. Bunu yeyər-yeməz bütün otların, daşların səsi onun qulağına gəlmişdir. Hər birisi hansı xəstəliyə dərman olduğunu və ya torpağın altında nə kimi dəfinələr gizlənmiş olduğunu söyləyir və bu səs dərvişin qulağına gələrmiş.

Lakin bəzən də ilan ətini yeyən tamamilə qızıla dönürmüş. Həmin bu nağıldakı dərviş təcrübəsiz cavan uşaqları əldə etməyə və öz təcrübələrini bunların üzərində sınamağa çalışır. Lakin Mirzə Fətəli nağıllarda söylənən kimyagər dərvişin obrazından istifadə edərkən bununla yazıçının dövründə bütün Yaxın Şərqi doldurmuş və meşşan avam xalqın başını tovlayıb var-yoxunu əlindən alan dərviş tipini göstərmişdir. Bu surətlə nağılın özü tarixi zəmindən şirə alaraq yazılı ədəbiyyatda səmərə vermək üçün yeni bir zəmin hazırlayır. Lakin burada bir əmma lazımdır. Azərbaycan nağılında, istər fantastik məzmunlu, istərsə novella-hekayət süjetli olsun, dərviş ancaq mənfi cəhətdən təsvir edilir. Bu nağıllardakı dərviş siması məşhur "Min bir gecə" hekayələrində göstərilən ovqatlar qədər parlaq və onlar qədər canlıdır. Əlbəttə, bütün bu ovqatlar feodal Şərqin bizə buraxmış olduğu mirasdır. Bunlarda yan-yana həmin bu Şərqin sonsuz müharibələrini, tükənməz qanlı tarixi hadisələrini keçirmiş və bunların nəticəsində böyük-böyük əziyyətlər çəkmiş Azərbaycan kəndlisi də təsvir olunur.

* * *

Azərbaycan nağıllarında başlıca mövzulardan biri də məzlum, əzilmiş, cəhalətdə qalmış kəndli kütləsinin bütün hökmran və istismarçı təbəqələrə qarşı apardığı müxtəlif mübarizələrdir. Şah üsul-idarəsi tərəfindən dəfələrlə soyulan kəndli nağıllar vasitəsilə özünün əsrlər boyu çəkdiyi əziyyətlər tarixini əks etdirmişdir. Bu cəhətdən nağıl əməkçi kütlənin yeni nəsillərində zalımlara – ağalara qarşı kin və ədavət bəsləmək üçün ən kəskin bir alət olur.

Nağıllar istər güldürücü yumor, istərsə qəhqəhəli satira vasitəsilə olsun, hər yerdə əməkçi kəndlini istismar edənləri ifşa edir. Nağıllarda bu mübarizə

məxsusi gizli bir formada verilir. Nağılçının fantaziyası dünyanın hansı yerində gəzir-gəzsin, bütün Şərq nağılı üçün istismarçı ilə istismar olunanlar arasındakı münasibətləri əks etdirir.

"Bəxtiyar", "İskəndərin nağılı" və başqa Azərbaycan nağıllarında çox zaman kəmağıl, uzaqgörməz, əlindən bir şey gəlməyən və yalnız öz hərəmxanasını gözəl qız və qadınlarla doldurmaq istəyində olan şəhvətpərəst kimi obrazı canlandırılır. Nağılların birində Keçəl Məhəmməd şaha deyir: "Padşah! Bu ağılla sən necə padşahlıq edirsən?!". Və hətta Azərbaycanın meşşanları arasında yarıəfsanəvi bir şöhrət almış I Şah Abbas dillərdə ədalətli və insaflı təsvir edilsə də, nağıllarda qəddar, insafsız, kor-koranə divan edən ("Salehnən Valehin nağılı"), qaniçici ("Həsən Qara"nın nağılı) bir şəkildə göstərilir. Nağıllardakı vəzirlər də şahlardan çox da uzaqgörən olmurlar, bunlar sarsaq, rüşvətxor və qadına həris ("Zərniyar" nağılı) insanlardır.

* * *

Əlbəttə, nağıllardakı həyatın böyük tərbiyəvi əhəmiyyəti unudulmamalıdır.

"Bəxtiyar" və "Keçəl Məhəmməd" nağıllarında sinfi antaqonizm o dərəcəyə çatır ki, mübarizə edən iki qüvvədən birisi məhv olur. Cabbar Mövlamqulu oğlu da öz keçəli vasitəsilə padşahı bütün sarayilə, saraydakıların ailələrilə və hətta padşahın casusu olan dəlləklə birlikdə hamısını tonqalda yandırır. Yoxsul kəndli mülkədarlarla mübarizə edərkən daha canavar, tamahkar bir düşmənə rast gəlir. Bu düşmən, əvvəldə bəzirgan, sonra isə tacir tipidir. Bu tip qızılı əldə etmək üçün cinayətlər törədir. Hər gün onu dağa çıxarır, oradan sabahdan axşama qədər cavahirat endirir, günün axırında isə bu cavan avamlığı nəticəsində qurban gedir. Yoxsul kəndli tacirlərin bu kimi can ağrıdıcı, qəddar əlaqələrini təsvir edirkən, bu yeni sinfin daha çox qana susayan olduğunu və öz halının yaxşılaşmasını əldən verməmək üçün hər bir cinayətə hazır olduğunu anlayır.

"Nardan xanım" nağılındakı meymun obrazı istismar olunan kəndli təbəqələrin varlılara qarşı münasibətini ifadə edir. Burada məsələ çox kəskin qoyulmuşdur: sinfi düşmən məhv olmadıqca köməksiz Azərbaycan qadınına həyat yoxdur. Azərbaycan nağıllarında istər dünya ağalarına, istərsə axirət ağalarına – müsəlman ruhanilərinə qarşı amansız bir mübarizə aparılır. Məişət nağıllarına din və etiqadla aparılan mübarizə daha çox xarakterikdir. Burada molla və qazıların bütün yalanları, ehtirasları, tamahkarlıqları, bir sözlə, bütün alçaqlıqlarını örtən pərdə yırtılıb göz qabağına qoyulmuşdur. Ailə və qadın məsələsi Azərbaycan nağıllarında bundan da kəskin qoyulmuşdur. Bunlarla bərabər nağıllarda köçəri həyatındakı qadınlar da göstərilmişdir. Bu qəbilə həyatı keçirən ailələrdəki qadınlar Mirzə Fətəlinin idealizə etdiyi və bununla bərabər onların bütün nöqsanlarını açıb göstərdiyi əxlaqca

yüksək dərrakəli, ailə və təsərrüfatın yiyəsi olan qadınlardır. Nağıllarda təsvir edilən qadınlar çox zaman apardıqları mübarizədə ərlərinə dayaq olur və döyüş meydanında öz məsləhətlərilə, ruhlandırıcı tədbirlərilə qalibiyyətə nail olurlar. Bu cür qadınlar ər evinə satılmayır. Adəti üzrə istədiyi, bəyəndiyi oğlanı seçir, tanıyır və özünə həyat yoldaşı qəbul edir. Bu zaman bəzən qızla atanın ixtilafı düşür, ata bütün ailənin sahibi olması hüququndan istifadə edir.

Nağıllarda çox zaman padşah qızlarının üçüncüsü ya bir mehtəri, ya da bağban oğlunu sevir, ona ərə gedir. Onun üçün də başqa məmləkətlərə üz tutmağa məcbur olur. Qəhrəman qadın obrazı daha çox "Nərgiz" və "Həsən Qara" kimi nağıllarda diqqəti cəlb edir. Bu cür qadınlar özlərindən cəsur, cəld, qüvvətli və ağıllı bir kişi tapmadıqca ərə getməyirlər. Çox zaman təsadüf etdiyi oğlanı sınayır və özünə qalib gələnə əl verərək maskasını açır və onun həyat yoldaşı olur ("Şah İsmayıl" dastanındakı Ərəb Zəngi motivi).

Yuxarıda saxlanılan problemlər üzrə nağıllarda kəskin sinfi xətt nəzərə çarpır. "Nazikbədən", "Əzizin nağılı", "Zərniyar" və başqalarında qadının sərbəstlik hüququ ideya kimi qoyulmuşdur.

Nağılların mündəricə, tematika və əsas ideyaları, ümumiyyətlə, bunlardan ibarətdir.

Biz burada yalnız bəzi məsələlərə işarə etdik. Bunların tədqiqini isə ayrı-ayrı kitablar təşkil edəcəkdir.

***Hənəfi Zeynallı***

## ZƏMANƏNİN HÖKMÜ

Biri vardı, biri yoxdu. Allahın aciz bəndəsi çoxdu. Onların biri də bizim Kür qırağında yaşayan Əlmərdan kişiydi. Bu yazığın əli xamırlı, qarnı ac idi. Ha iştərdi, şumlardı, əkərdi, malalayardı, becərib məhsulu başa gələndə bəy bir yannan, koxa bir yannan, borclu bir yannan bunun məhsulunu xırmanda qurtarardılar. Payız gələndə, kişi təzədən düşərdi qapı-qapı borc dilənməyə. Tikan qırıb satardı, meşədən odun oğurlayıb satardı. Elə ac idi ki, ac.

Günlərin bir günündə Əlmərdan kişi gecə arvadnan sözü bir yerə qoydular ki, ta bundan sonra şəhərdə ruzusunu qazansın. Olsun ki, bir yandan baxtı açıldı. Sabah oldu, tezdən arvadı Əlmərdançun xamralı[1] bağladı, bir az da daşa dönmüş pendir qoydu, Əlmərdan düşdü yolun düzünə. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəldi bir dərənin başına satdı.

Bu dərə vilayətdə Cinni dərə adıynan məşhurdu. Buraya girən sağ-salamat evinə qayıtmazdı. Sağdan-soldan buludlar içində gizlənən dağları aşıb şəhərə getmək, dərədən də qorxuluydu. Adam çənə, dumana düşür, yolunu azıb, axırda genə də bu dərəyə gəlib çıxırdı, ya da qurd-quş didişdirib aparırdı.

Əlmərdan kişi:

– Cinni dərəyə girərəm, – dedi. – Hər nə olur olsun. Təfavütü yoxdu, acından evimdə ölməkdənsə, canavara yem olmaq, cinə rast gəlmək yaxşıdı.

---
[1] X a m r a l ı – sacda bişirilən çörək

Kişinin üstündə kəsərtidən-zaddan bir tiyəsi də yoxdu. Çörəyini yoxladı, gördü ki, elə sabahı görər-görməzdi. Koroğlu özünü düşmənə toxuyan kimi, bu da soxuldu dərəyə. Bir xeyli getdi. Yol çox əyriş-üyrüş, daşlı idi. Dərənin ensiz bir yerindən açıq bir yerinə çıxmışdı ki, gördü daldan çağırırlar:

– Əlmərdan, Əlmərdan, dayan!

Əlmərdan kişi bir az da yeyin tərpəndi. Gördü dalınnan yenə səs gəldi:

– Əlmərdan dayan, Əlmərdan sənnənəm, dayan!

Qoca kişi özünə ürək verdi. Dönüb dala baxdı. Heç kimi görmədi. Dedi:

– Bax, Cinni dərədən belə-belə səslər gəlir. Adam gərək özünü itirməsin. Nə olacaq olsun...

Qoca yenə yeyinlədi. Baxdı ki, yox, bu dəfə səs lap qulağının dibindən gəlir. Dişlərini basıb bir-birinin üstə, gördü ki, bir ağ ilandı, quyruğu üstə qalxıb elə gəlir ki, diyəsən bu saat bunu puç eləyəcək. Gördü ilan deyir:

– Əlmərdan, axı mən sənnənəm, ayaq saxla.

Əlmərdanın boğazı qurumuşdusa da, əmma yenə özünə toxtaq verirdi. Ağ ilan gəldi özünü yetirdi:

– Əlmərdan, xoş gördük! Niyə belə yeyin gedirsən?

– Başına dönüm, acdıqdan şəhərə gedirəm, görüm bir çörək pulu çıxarda bilərəmmi? Kənddə lap binava olmuşdum.

İlan dedi:

– Əlmərdan, bu dərədən gəldin, qorxmadın?

Qoca dedi:

– Ay balam, ac özünü qılınca toxuyar. Mənimçün nə təfavütü var. Ya kənddə ölüm, ya burda ilan-çayana yem olum?!

İlan dedi:

– Əlmərdan, mən görürəm sən çox comərdsən, özün də əhl-əyal sahibisən. Gəl sənnən qardaş olaq.

– Nə deyirəm ki, olaq.

İlan dedi:

– Bax burdan düz şəhərə gedərsən. Görəcəksən, camahat dükan-bazarı bağlayıb padşah meydanına qaçır. Sən də qoşularsan camaata. Şəhərin padşahı bir yuxu görübdü. O deyəcək ki, ay camahat, kim mənim yuxumu yoza bilər? Yuxusunu danışacaq ki, mən bu gecə

yuxuda gördüm ki, göydən canavar yağır. Qorxudan özümü itirdim. Bir adam çıxsın bu şəhərdən, gəlsin mənim yuxumu yozsun.

Camahat kiriyəcək. Onda sən səslən ki, mən yozaram. Səni apararlar padşahın hüzuruna. Yeyərsən, içərsən, padşahnan bağçada seyrana çıxarsan. Bağın ortasındakı hovuzun qırağında oturarsan. Padşah sənnən xəbər alacaq ki, ey mənim şəhərimin dünyagörmüşü, mənim bu vaqiəmin mənası nədir? Mənə əyan eylə.

Sən də bir az fikirdən sonra bir hovuza baxarsan, bir göydəki Aya, bir də ki, buluda baxarsan. Deyərsən: "Padşah sağ olsun, böyük adamın yuxusunun mənası da böyük olar. Sənin gördüyün vaqiənin mənası budur ki, bir zaman gələcək ki, dünya qapışdırma dünyası olacaq. Dünyanın adamları canavara dönəcək. Bir-birini parçalamağa atılacaq. Güclü gücsüzün başını əzib, əlindəkini alacaq. Sən bunun yuxusunu yozannan sonra sənə bolluca xələt, qızıl verəcəklər. Hər nə versələr hamısı sənin, ancaq qızılın yarısı qardaşdıqda mənə çatacaq.

Əlmərdan arxayın şəhərə çatdı. Özünə bir yer axtarırdı. Gəldi bir çayçının dükanının qabağına. Gördü camahat çölə çıxır, o içəri girə bilmədi. Axırda çayçı da çıxdı.

Əlmərdan soruşdu ki:

– A bala, çayçı, bu vaxt dükanı bağlamağından, deyəsən bir yana tələsirsən?

Çayçı dedi:

– Hə, əmi, şəhərin padşahı camaatı çağırır. Hamımız oraya gedirik. Sən də gəl.

Əlmərdan da bunlara qoşuldu. Gəldi gördü, paho, burda papax atsan yerə düşməz, adam o qədər çoxdu. Bu da özünü verdi bir tərəfə, qısılıb durdu.

Padşah çıxdı. Camahat muna baş əydi. Padşah dedi ki:

– Camahat, mən bu gecə bir yuxu görmüşəm. Yatmışdım, yuxuda gördüm ki, göydən canavar yağır. Vahimədən özümü itirib oyandım. İndi mənim bu yuxumu kim yoza bilər?

Əlmərdan baxdı ki, ağ ilanın dedikləri düz çıxdı. Dedi:

– Hə, indi bildim ki, ağ ilan bir şey bilirmiş, yoxsa bunu mən cin-şeytan işi sayırdım. Qoy görüm, nə olar?

Padşah bir də soruşdu:

– Camahat, mənim yuxumu kim yoza bilər, çıxsın yuxarı.

Aləm kiriyirdi. Əlmərdan kişi papağını qaldırdı. Padşahın sağında, solunda dayananlar bunu gördülər. Qocanı yuxarı apardılar. Yedi, içdi, kefi duruldu. Axşam çağları padşah vəzir-vəkiliynən baxçaya seyrana çıxdı. Hovuzun qırağında oturanda padşah qoca Əlmərdannan soruşdu:

– Yaxşı, sən mənim bu yuxumu yoz bir görək. Sən gələn kimi xəbər almaq istəyirdim, ancaq yuxumun vahiməsi məni elə basmışdı ki, indi ancaq özümə gəlmişəm. De görək, başımıza nə gələcək?

Əlmərdan kişi saqqalını əlləşdirdi. Yerə baxdı, suya baxdı, ucalmış ağaclara baxdı, ağ ilanın sözdərini yadına salıb, dedi:

– Padşah sağ olsun, böyük adamların yuxusunun mənası da böyük olar. Sən gördüyün yuxudan bu məna çıxır ki, dünya çox qarışacaq, insanlar canavar kimi hər yerdə bir-birinin ətini gəmirməyə çalışacaq. Bir-birinin əlindəkini qarmalayacax.

Əlmərdanın sözləri padşahın xoşuna gəldi. Vəzir, vəkilinə əmr elədi ki, məni istəyən Əlmərdana xələt versin.

Gətirdilər qoca kişini başdan-ayağa geyindirdilər. Bir neçə kisə qızıl verib yola saldılar.

Qoca genə Cinni dərəsiynən gəldi. İlanın yuvasının ağzınnan keçdi. Ağ ilan görünmədi. Əlmərdan fikir elədi ki, a kişi, qızılın yarsını ilan neyləyəcək? Çəl munu apar evinə, balaların acdır.

Əlmərdan yedi, işdi, kefi kökəldi. Bunnan bir qədər keçdi. Genə bir gün padşah bununçun xəbər göndərdi ki, gəlsin.

Əlmərdan arvadınnan halal-himmət eləyib, yola düşdü. Gəlib Cinni dərədən keçirdi. Öz-özünə xəyal eləyirdi ki, padşahnan dost olanın başı ya cıdada ucalar, ya darda. Tayı bu dəfə məni yağın öldürəcək. İndi ilan da bir yannan çıxıb məni çalsaydı, heç "uf" deməzdim. Takı el içində risvay olmazdım.

Bu hində qulağına ilanın səsi gəldi. Boğazı lap qurudu. Öz-özünə dedi: "Ürəgimə gələn başıma da gələcək".

İlan yaxınnaşdı:

– Ay kişi, hara gedirsən?

Əlmərdan kəmal ədəbnən, ərkannan muna salam verdi:

– Ağa, padşah hökmüdü, çağırıb gedirəm. Bu dəfə yəqin məni öldürəcək.

İlan dedi:

– Qorxma, bu dəfə sən ona deyərsən ki, padşah sən bir yuxu görmüsən. Görmüsən ki, göydən qılınc yağır.

Padşah munu eşidəndə sənnən munun mənasını xavar alacax. Deyərsən ki, zaman gələcək dünya bir-birini qıracax. Padşahlar arasında çoxlu davalar olacax. Sən də özüvü gözdə. Qan su yerinə axacax.

Əlmərdan padşahın yanına gəldi. İlan deyən kimi padşahın ağzını açmağa qoymadı. Dedi:

– Padşah sağ olsun, məni niyə çağırdığını bilirəm. Sən yuxuda görmüsən ki, göydən qılınc yağır.

Padşah sevindi. Əlmərdanın kəramətinə lap inandı. Yuxunun mənasını soruşdu. Əlmərdan kişi dedi:

– Padşah sağ olsun, dünya çox qarma-qarışıq olacaq. Padşahlar bir-biriynən çox dava eliyəcəklər. Qan su yerinə axacax. Sən də özünü gözlə.

Padşah çox razı oldu.

– Məni istiyən, muna xələt! Buna dövlət!..

Əlmərdana xələt, qızıl, gümüş verdilər. Padşah əmr elədi ki, Əlmərdana tövləsindən ən yaxşı atlardan birini versinnər. Xəznəsinnən də ən yaxşı daş-qaş, bir qızıl qılınc versinlər.

Əlmərdan atın üstə on beş yaşında bir oğlana dönmüşdü. Cinni dərədən gələndə uzaqdan ağ ilanı gördü. Qılıncı sıyırdı, atı çapdı ağ ilanın yuvasına tərəf. Onda yetirdi ki, ağ ilan özünü dəlikdən içəri soxur. Əlmərdan dedi:

– Ta munnan sonra padşah nə yuxu görəcək, nə də məni çağıracaq. Səni də öldürrəm canım qurtarar. Bir də sənnən qızılı bölən kimdi. Qılıncı endirdi, ilanın quyruğunu çapdı, atı sürüb getdi.

Günnərin bir günündə genə Əlmərdan kefi kök, damağı çağ oturmuşdu evində. Padşahdan hökm çıxdı ki, Əlmərdan bura gəlsin.

Əlmərdanın dizdəri qırıldı.

– Ta, – dedi, – bu dəfə ölümdü. Ya ilan məni öldürəcək, ya padşah. Mən ki, heç bir şey bilmirəm. Padşaha nə deyəcəm. İlanı da yaralamışam. Qardaşdığımız da pozulub.

Əlmərdan arvad-uşaxlarıynan halal-himmət elədi. Genə gəlib ilanın yuvasının qabağınnan keçəndə daldan ağ ilan munu çağırdı. Dedi ki:

– Bax, padşah yuxuda görüb ki, göydən qoyun yağır, sənnən xəvər alsa, deyərsən ki, dünya düzələcəh. İnsannıx, qardaşdıx zamanası olacax. Heç kəs bir-birinin haqqını yeməyəcək. Fağır-füqəra ağ gün görəcək. Nə dava olacax, nə də qılınc.

Əlmərdan gəldi. Ağ ilan dedigi kimi padşaha dedi. Padşahın kefi duruldu. Gətirdi Əlmərdana beş o qədər xələt, qızıl, qaş-daş verdi ki, getsin oğulbaoğul yesin, dolansın.

Əlmərdan fikirrəşə-fikirrəşə gəlirdi:

– Yaxşı, bu ilan mənə nə qədər yaxşılıq elədi. Mən hər dəfə ona pisdikdən başqa bir şey eləməmişəm. Bu ağ ilanın sayasında vara, dövlətə çatmışam. Budəfəki xələtə, qızılların heç birsinə ehtiyacım yoxdu. Gəlsənə, bu qızılların hamısını kisələrilə aparım qoyum ilanın yuvasının ağzına. Ona vurduğum yaradan ötrü ona yalvarım, bəlkə qanınnan keçə, yox istəyir, çalsın öldürsün. Təki balalarım mənnən sora farağat yaşaya bilsinlər.

Əlmərdan fikirləşdi, fikirləşdi, qızıl-mızılı gətirdi ilanın yuvasının ağzına. Çağırdı, ilan çıxdı.

Əlmərdan başladı ilana yalvarmağa. İlan dedi:

– Əlmərdan kişi, mənə qızıl da, xələt də lazım deyil. Get bunların hamısını apar balalarına. Sən mənə heç yalvarma. Mən səni taxsırrandırmıram. Taxsır zamanadadır. Ondakı canavar zamanasıydı, hər kəs bir-birinin əlindəkini qarmalayırdı, sən də mənim payımı yedin. Onnan sora qılınc-qalxan zamanası gəldi. Adamlar bir-birinin ətini didirdi. Sən də qılıncbazdıx eliyib, məni yaraladın. İndi insanlıq zamanası gəlib, heç kəsin haqqı yeyilməyir. Aciz ağac altda qalmır. Sən də zamanın hökmüynən xasiyyətini dəyişdirdin. Get, qızılların hamısı ana sütü kimi halalın olsun.

Munu deyib, ilan yuvasına çəkildi. Əlmərdan kişi də gəldi evinə, arvadı, uşağı, qonşusuynan dövran sürdü, ağ günə çıxdı.

Olar yedi, içdi, yerə keçdi, siz yeyin için dövrə keçin.

## GÖY MINCIX

Biri var idi, biri yox idi. Üç qardaş var idi. Bıların bir də bir bacısı vardı.

Bı qardaşlar söydəyərlik edirdilər. Bir gün bılar söydəyə getmişdilər. Qız da düyü arıtdıyırdı ki, xörək bişirsin. Gördü ki, düyünün içində bir göy mıncıx var. Mıncığı götürüb ağzına qoydu. Nə təhər oldusa, özün unudub, mıncığı uddu. Bir müddət keçənnən sora bı qız gördü ki, hamilədi. O saat başa düşdü ki, hər nə əngəl oldusa, həmən göy mıncıxdan oldu. Bilmədi neynəsin.

Bını bırda qoyax, sizə kimnən xəbər verim, qızın qardaşdarınnan. Bılar söydaların qurtarıp evə döndülər. Gördülər ki, bacılarının qarnı şişip, ağzına dəyir.

Bılar dedilər:

– Bacı, düzün deyinən, bı uşax kimnəndi?

Qız nə qədər and işdi ki, heç kimin üzün görmiyip, qardaşdarı inanmadılar. Dedilər, yalan diyirsən.

Böyük qardaş kiçik qardaşı çağırıp dedi:

– Apar bı çəpəli öldür, bizi binamus elədi, papağımızı yerə soxdu.

Balaca qardaş qızı götürüb çıxdı bir meşənin kənarına, istədi qızı öldürsün, qız ağlayıp dedi:

– Qardaş, mənim günahıma batıb, nahaq qan eləmə. Mən heç bir kişi xaylağı görməmişəm. Düyü arıtdıyırdım, bir göy mıncıx tapdım, ağzıma atmışdım, bilmədim uddum. Hər nə oldusa, o göy mıncıxdan oldu.

Oğlanın qıza yazığı gəlip dedi:

– Bacı, baş götür qaç bu mahaldan.

Qız ağlayıp qardaşınnan ayrıldı. Az getdi, çox getdi, getdi çıxdı bir biyabana. Gördü bırda bir qalaça var. Girdi qalaçaya. Gördü bırda düyü, yağ, hər nə disən var, ancaq heç bir insan ətəri yoxdu. Qız fikirləşdi, dedi:

– Hər nə isə, bı evin sahibi bir yana gedip, qayıdacax.

Qız o saat qollarını çırmayıp qazanı götürdü, ocağı qalayıp bir qazan xörəy bişirdi, vırdı dəmə, özü gizləndi. Elə ki axşam oldu qız gördü ki, bıdı nərhanər, gurhagur bir dev gəldi. Qapını açdı, girdi içəri. O tərəfə-bı tərəfə baxdı, gördü nə? Ev silinip-süpürülüp çiçək kimi təmizlənip. Xörək bişip, hazırranıp, qazan da dəmə vırılıp. Div çox şad olup hay verdi ki:

– Hər kimsən çıx, and olsun Süleyman peyğəmbərin başının cıqqasına sənnən işim yoxdu.

Qız çıxdı, dev gördü, paho, bı bir qızdı ki, yimə, işmə bının xəttixalına, gül camalına tamaşa elə.

Dedi:

– Qız, sən bırda nə gəzirsən?

Qız başına gələn əhvalatı devə söylədi.

Dev dedi:

– Neynəy, nə istəsən bırda var. Sən ol mənim bacım, mən də olum sənin qardaşın. Sən otur bırda, mən hər gün gedərəm avlaram, quşdaram, gətirrəm dolanarıx.

Qız sevinip xörəyi çəkdi, yedilər, işdilər. Dev bir tərəfdə, qız da bir tərəfdə yatıp gecəni sabah elədilər.

Hər gün dev gedip avlayırdı, quşdayırdı. Bılar bırda yeyip, içib bacı-qardaş kimi dolanırdılar. Bir müddət belə dolandılar, ta ki qızın vədəsi təmam oldu, bir oğlan doğdu. Oğlanın adın qoydular Göy Mıncıx. Bir yaşınnan beş yaşına, beş yaşınnan on yaşına çatdı. Bı əlli yaşında pəhləvan kimi bir oğlan oldu. Qabağına ağac gəlsə yerinnən qoparıb gedirdi.

Dev bını hər gün özüynən ava aparırdı. Çeyrannan, maraldan avlayıp gəlirdilər evlərinə.

Bılar bırda qalsın, saa kimnən xəvər verim, bı qızın qardaşdarınnan. Bıllar söydəyə getmişdi, üstlərinə haramı düşüb var-yoxlarını əllərindən alır. Qaldılar lüt-üryan. Hər qardaş bir işə getdi, kiçik qardaş özözünə dedi:

– Gedim görüm, bacım necə oldu?

O yerdən ki, qızı ötürmüşdü, üz qoydu qız gedən tərəfə getməyə. Gəzə-gəzə gəlib çıxdı həmən qalaçaya ki, bacısı ordaydı. İçəri girdi. Gördü ki, bacısı oturub çörəy hazırrıyır. Bacı qardaşını görən kimi durub boynunu qucaxlayıb:

– Ay qardaş, xoş gəldin, beş gəldin, nə əcəb bizi yad elədin, – dedi.

Qardaşı əhvalatı nağıl elədi. Onnan sora qız da başına gələnləri bir-bir qardaşına hekayət elədi.

Bılar bı söhbətdə idilər, devnən Göy Mıncıx avdan gəldilər. Göy Mıncıx gördü anasının yanında bir oğlan oturub. Soruşdu:

– Ana, bı kimdi?

Anası dedi:

– Bala, bı həmən kiçik dayındı ki, məni öldürmədi, bıraxdı.

Bılar təzədən öpüşdülər, görüşdülər, gecəni şaddığnan keçirdilər. Səhər tezdən Göy Mıncıxnan dev ava getdi. Bacı-qardaş qaldılar əvdə.

Bir müddət belə keçdi. Axırda bu oğlan fikirrəşdi ki, ədə nə vağta qədər mən bırda qalacağam? Gərək gedəm özümə bir iş tapam. İstədi getsin qız qoymadı, dedi:

– Dayan, Göy Mıncıx dev evə gəlsin, görüş, onnan sora gedirsən get.

Bəli, elə ki axşam oldu, çölə gedənnər gəldi çıxdı, qız əhvalatı olara nağıl elədi.

Devnən Göy Mıncıx nə qədər elədi ki, gəl getmə.Oğlan dedi ki, xeyr gedəciyəm. Axırda gördülər tay əlac olmadı, Göy Mıncıx dedi:

– Dayı, indi ki gedirsən, nəbada göy göz, sarı saqqal kişiyə nökər olasan.

Bir də başınnan bir tük çəkip verdi dayısına, dedi:

– Nə vaxt dara düşsən, bı tükü at ocağa, yanında hazır olacağam.

O gecəni keçirdilər. Səhər olanda Göy Mıncıxnan dev getdi ava. Oğlan da üz qoydu günçıxan tərəfə getməyə. O qədər getdi ki, çıxdı bir şəhərə. Gördü bir göygöz, sarı saqqal kişi çağırır:

– Ay nökər olan, ay nökər olan!

Oğlan dedi:

– Mən olaram.

Kişi dedi:

– Bala, onda gəl gedək əvə.

Getdilər əvə, çörəydən-zaddan yidilər, yatdılar. Səhər olan kimi kişi bını durquzup dedi:

– Di dur, işə gedəcəksən. Ancaq sənnən bir şərtim var: gərək itim hardadırsa toxumu orda səpəsən, öküzüm hardadırsa oranı əkəsən, qatığı elə yeyəsən qaymağı tərpənmiyə, çörəyi də elə yiyəsən qırağı tərpənmiyə.

Oğlan durdu, öküzdəri boyunduruxlıyıp, toxumu, xışı da götürüp çıxdı işə. Öküz düz gedib durdu bir kolluxda, it də getdi durdu bir çayın ortasında. Oğlan qaldı məhəttəl. Fikir elədi ki, bı yeri əkmək olmaz, toxumu da suya səpmək olmaz. Əlacı kəsilip qayıtdı geri.

Kişi gördü budı oğlan qayıtdı. Dedi:

– Hey, nəyə qayıtdın?

Oğlan dedi:

– Mən əkə bilmədim. Öküz getdi durdu bir kolluxda, it də durdu çayın lap ortasında, əlacım kəsildi, qayıtdım.

Kişi dedi:

– Mənim şərtim şərtdi, gərək əkəydin.

Oğlanı süpürrüyüb istədi başın kəssin, oğlan tükü atdı ocağa, ancaq tük yanıncan oğlanın başın kəsdi.Göy Mıncıx onda yetdi, gördü ki, dayısını kişi öldürüp. Ta bir söz dimədi.

Kişi başın qalxızıp gördü ki, bir cavan oğlan durup. Dedi:

– Bala, nə qulluğun var?

Göy Mıncıx dedi:

– Əmi, nökər olacığam.

Kişi dedi:

– Neynək, elə maa nökər lazımdı. Ancaq mənim bir neçə şərtim var, gərək qəbul eliyəsən. Yerinə yetirməsən səni öldürəciyəm.

Göy Mıncıx dedi:

– Şərtin nədi?

Kişi dayısına deyən şərti bına da dedi.Göy Mıncıx razı oldu. Öküzdəri, iti götürüp getdi cüt əkməyə. Öküz yenə gedip durdu bir kolluxda, itsə getdi durdu çayın ortasında. Göy Mıncıx bını görən kimi xurcunun altından tutup toxumu tökdü çaya. Ulamanı çıxardıp öküzdərin hərəsinin buynuzunun arasınnan bir dəfə vuran kimi yıxıldılar öldülər. Göy Mıncıx öküzdərin başın kəsdi, sora sıfranı qoydu qabağına. Çırtmaynan vırıp baydacanın altın dəldi, dibindən baydacanı elə sordu ki, qaymaq gəlip yapışdı baydacanın dibinə. Çörəyin qırağın kəsip qoydu bir yana, başladı ortasın yeməyə. Çörəyi yeyip qurtarandan sora durdu yönəldi əvə.

Kişi gördü bıdı Göy Mıncıx gəlir. Amma öküzdər yoxdu. Dedi:
– Bala, Göy Mıncıx, nəynədin?
Dedi:
– Çörəyi yedim, qatığı da sən diyən kimi işdim.
Kişi gördü çörəyin qırağı durur. Qatığın da qaymağı tərpənməyib. Dedi:
– Bəs öküzdər hanı?
Göy Mıncıx dedi:
– Getdilər durdular bir kolluxda. Nə qədər elədim çəkə bilmədilər, vırdım başdarı çürümüş oldular. İt durmuşdu çayda, toxumu da tökdüm ora.
Kişi dedi:
– Nə danışırsan, dəli olmamısan ki?!
Göy Mıncıx cavab verdi ki, mən niyə dəli oluram, sən özün şərt qoymuşdun, mən də elədim.
Kişinin əlacı kəsilip dedi:
– Öküzdər mındar oldu, yoxsa başın kəsdin?
Dedi:
– Ta niyə mındar eləyəydim, heç olmasa, ətin yiyərik. Onların başını kəsdim.
Kişinin əlacı kəsilip dedi:
– Göy Mıncıx, gedək barı, öküzdəri gətirək. Atam öləndə ona ehsan verməmişdim, barı ona ehsan verim.
Getdilər öküzdəri gətirdilər, başladılar ehsan verməyə.
Kişinin balaca bir oğlu var idi. Birdən bı başdadı ağlamağa. Kişi nə qədər elədi, oğlan kirimədi. Kişi dedi:
– Göy Mıncıx, dur mını çıxart çölə, səsin kəssin.
Göy Mıncıx uşağı götürüp apardı çölə. İki qılçasınnan yapışıp dartdı, iki bölüb yarısını bu itə atdı, yarısını o biri itə atdı. Girdi içəri. İtdər başdadı boğuşmağa.Kişi dedi:
– Göy Mıncıx, itdər niyə boğuşur?
Cavap verdi ki, uşaxdan koxa əvinin itinə çatmadı ona görə.
Kişi dedi:
– Ədə, nə uşaxdan, sən nə danışırsan?
Göy Mıncıx dedi:
– Sən dedin uşağın səsin kəs, mən də kəsdim, neyniyim?
Kişi dedi:
– Ədə, barı uşağın meytin gətir aparax basdırax.

Göy Mıncıx gedip uşağın meytin gətirdi, kişiynən arvad meyti götürüb getdi qəbristanlığa. Dedilər:

– Göy Mıncıx, sən də bel-külüng götür gəl.

Bılar o yana gedən kimi Göy Mıncıx da heç zad götürmüyüp, boş atıla-atıla düşdü bıların dallarınca. Gəldilər qəbristanlığa. Kişi dedi:

– Göy Mıncıx, bəs bel-külüng necə oldu?

Dedi:

– Nənən vermədi.

Kişi dedi:

– Get başına bir yumrux vur, al götür gəl.

Göy Mıncıx əvə qayıdıp, arvadın başına bir yumrux vırdı ki, boynu girdi qınına, o saat öldü. Bir külüng götürdü gəldi.

Kişi qəbir qazmağa başlayanda Göy Mıncıx da getdi o biri tərəfdən başdadı bir qabır qazımağa.

Kişi dedi:

– Göy Mıncıx, o nədi, kimə qazırsan?

Göy Mıncıx cavab verdi ki, sən dedin get nənəmin başınnan bir yumrux vır, bel, külüng al gətir. Mən də vıranda arvad öldü. Bı qabrı da ona qazıram.

Müxtəsər gedip arvadı gətirip basdırdılar, soradan qayıtdılar evlərinə. Yolda arvadıynan kişi danışdılar ki, Göy Mıncıx bizim başımıza bəla açacaq, yaxşısı bıdı ki, bını yatırdax, yüklənək qaçax.

Göy Mıncıx bını eşitdi. Axşam olan kimi kişi dedi:

– Ay arvad, Göy Mıncıx yorunuxdu, yerin sal, yatsın.

Arvat yerin saldı. Göy Mıncıx yerə girən kimi başın buruyur yalannan, başdadı xoruldamağa. Arvat kişiyə yavaşca dedi:

– A kişi, nə aparax, nə götürək?

Kişi dedi:

– Ağırdan, yüngüldən qabla farmaşdara[1], bir neçə dəst də yatıp-duracax qoy, yüklənək qaçax.

Göy Mıncıx bını da eşitdi. Bıların başı qarışan kimi xəlvətcə durdu girdi farmaşa, paltarların arasında gizləndi. Gecənin bir aləmində arvatnan kişi ağırdan, yüngüldən ata, öküzə yükləyip farmaşdarı da bir ata çatıp düşdülər yola. O qədər getdilər ki, gün çıxanda çatdılar bir dəryanın qırağına, yükləri açdılar. Kişi dedi ay arvat, birəz çörəy hazırra yeyək. Arvat qazanı çıxardanda dedi:

[1] F a r m a ş – döşənəcək və yatacaq qablaşdırmaq üçün böyük mələfə

– A kişi, Göy Mıncıx bırda olsa idi, genə birəz odunnan-zaddan yığardı.

Bını eşidən kimi Göy Mıncıx farmaşdan sıçrayıb çıxdı:

– Xala, mən burdayam, nə qulluğun var?

Kişi bını görən kimi öz-özünə dedi:

– Vay evi yıxılan canım, iş xarab oldu.

Göy Mıncıx başdadı odun yığmağa. Gördü kişi arvadına deyir ki, axşam olanda Göy Mıncıxın yerin lap dəryanın qırağınnan sal, onnan bəri öz yerini, lap qırağından da mənimkini sal. Gecə mən diyəcəyəm ay arvat, birəz o yana yat, sən də diyərsən ki, Göy Mıncıx, o yana yat. Helə-helə bını sallıx dəryaya, başımızdan rədd olar.

Nə isə xörəyi-zadı yedilər, axşam araya gələn kimi kişi necə dimişdi arvad da heləcə yerləri saldı. Göy Mıncıx o qədər gözdədi ki, bılar yuxuya gedəndə arvadı gətirdi qoydu öz yerinə, özü girdi arvadın yerinə yatdı.

Gecənin bir vaxtı kişi bını dürtməliyip dedi:

– Ay arvat, o yana yat.

Göy Mıncıx da arvadı dürtməliyip dedi:

– Göy Mıncıx, birəz o yana yat.

Belə-belə kişi Göy Mıncığı, Göy Mıncıx da arvadı itələyə-itələyə o qədər apardı ki, birdən arvat şappıltıynan düşdü suya. Tez Göy Mıncıx qışqırdı:

– Ay əmi, qoyma, arvat düşdü suya.

Hay-haray düşdü. Arvad boğuldu. Qaldı bir kişi, bir də Göy Mıncıx. Kişi arvadı-zadı da yadınnan çıxardıb öz hayına qaldı.

Səhər açıldı. Göy Mıncıx böyük bir qazanı suynan doldurup qoydu üstə. Şaxdan-şüvəldən[1] altına basıb şaqqır-şuqqır qaynatdı. Elə ki, su tamam qaynadı, dedi:

– Əmi can, bilirəm, çoxdan çimməyirsən, indi soyun, səni çimdirəciyəm.

Kişi nə qədər yalvardı, Göy Mıncıx baxmadı. Bını lüt soyundurup, qazanı qaynaya-qaynaya tökdü bının başına, dirigözdü bişirib öldürdü. Sora qayıtdı anasının yanına.

O yedi-işdi, yerə keçdi, siz də addıyın dövrə keçin.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

---

[1] Ağacın budağı, şüvü

## KEÇƏL MƏHƏMMƏD

Biri vardı, biri yoxdu, bir Fatı qarı vardı. Bu qarının da bir keçəl oğlu var idi, adına da Keçəl Məhəmməd diyərdilər.

Fatı qarının sənəti çərçilərdən nisyə pambıq gətirib, onnan ipliy əyirirdi, aparıb bazarda satardı. Mayasını çərçilərə verərdi, qalanına da birəz çörək, bir az soğan alardı. Nənə-bala yeyib dolanardılar.

Bir gün Keçəl Məhəmməd bazara çıxmışdı. Gördü elə yaxşı kişmiş satıllar ki, ağzının suyu başdadı axmağa. Amma bir pulu da yoxudu ki, bir şey alsın. Başın qarıtdıya-qarıtdıya gəldi əvlərinə. Gördü nənəsi əvdə yoxdu. Fürsət tapıb girdi içəri. Fatı qarı ipliyi kələf-kələf qayırıb asmışdı göydən. Məhəmməd tullanıb kələfin birin alıb qoydu qoynuna, üz qoydu bazara, gəlib bir baqqalın dükanının qabağında boynunu büküp durdu.

Baqqal dedi:

– Keçəl qurumsax, müştərilərə mane olma, qoy alverimizi eləyək.

Məhəmməd kələfi çıxardıb baqqala verdi, birəz kişmiş alıb düzəldi yola.

Sizə kimnən xəbər verim, Fatı qarıdan. Fatı qarı evə gəlib gördü ki, kələfin biri yoxdu. Başdadı söyüb qarğamağa.

Qonum-qonşu yığışıb işi bilənnən sora dedilər:

– Ay Fatı qarı, heç kimi söyüb qarğıma, biz hamımız düşəndə sənə əl kölgəliyi eləyirik, kim sənin malını oğurlayacaq. Bu yenə öz oğluvun işidir.

Fatı qarı öz-özünə dedi: "Motala dadanan köpək bir də gələr. Gör a köpəy oğlu, sənin başına nə gətirərəm".

Bir gün Fatı qarı Məhəmmədə dedi:

– Məhəmməd, sabah mən əvdə olmıyacağam, hərdənbir gəl əvimizə dəy.

Səhər tezdən Fatı qarı əvdən çıxıb hərrəndi, gəldi otdu qonşunun çəpərinin dalında, başdadı pusmağa. Birdən gördü Məhəmməd başını qarıtdıya-qarıtdıya gəldi, qapını aşdı, atılıb göydən kələfin birini aldı ki, qapıdan çıxsın, Fatı qarı yapışdı qolunnan, başdadı budamağa:

– Ay köpəy oğlu, mən əlimnən ona-muna işdiyib səni saxlayıram, sən də mənim oğrum olubsan. Dədən gorbagor da sənin kimi oğruydu. O nə qayırırdı ki, sən nə qayırasan?

Məhəmməd gördü iş pisdi, dedi:

– Ay nənə, tayı məni niyə öldürürsən. Tut əlimnən, məni apar bazara sat, gətir xərcdə.

Fatı qarı dedi:

– Keçəl köpəy oğlu, saa kim pul verəcək?!

Fatı qarı tutub Məhəmmədin əlinnən düşdü bazarın canına:

– Ay qul alan?! Ay qul alan?!

Çayçı gördü ki, bir qarıdı bir uşağın əlinnən tutub satır. Çağırdı:

– Qarı nənə, bura gəl!

Fatı qarı gəldi. Çayçı baxdı gördü bı elə bir keçəldi, əgər bını alsa tay bınnan dükanına bir müştəri də ürzükməz. Dedi ki, qarı nənə, bını tez bırdan apar, müştəriyə mane olmasın.

Fatı qarı genə başdadı bazar aşağa, bazar yuxarı çağırmağa. Baqqal isdədi alsın, o da çayçı kimi. Aşbaz istədi alsın, o da helə. Axırda bazarın lap qırağında qırx lotu oturmuşdu. Lotubaşı da bılların içində buğun burub, bir səndəlin üstdə əyləşmişdi. Gördü bir qarı bir keçəlin əlindən tutub "ay qul alan!" diyip dad edir. Lotulara dedi:

– Onu bıra çağırın.

Lotular Fatı qarını çağırdı. Lotubaşı baxdı gördü bı elə bir keçəldi ki, bir ağacdıxdan yaxın düşməli deyil. Başının qasmağı yenib gözünün üstünə, amma gözünnən od yağır. Çox diribaş gədədi. Üzün tutub qarıya dedi:

– Qarı nənə, qıymatı neçədi?

Qarı dedi:

– Yüz tümən.

Lotubaşı çıxarıb yüz tümən qarıya verib Məhəmmədi aldı. Yoldaşdarı lotubaşıya dedilər:

– Bı nəydi aldın. Yidiyimiz, işdiyimiz də haram olacaq.

Lotubaşı dedi:

– Eybi yoxdu, çəhməmizi-zadımızı silər.

Lotular ta ki gəlib yığışdılar mənzilə, Məhəmməd o saat bıların ustulun hazırrayıb, mənzillərin eylə sildi-süpürdü ki, qırx arvat da belə təmizdiyə bilməzdi. Tez çayların qoyup, çörəklərin bişirdi. Axır ki, bılları elə rahat elədi ki, lotular ömrində bı istirahatı görməmişdilər.

Məhəmmədin hörməti gün-gündən lotubaşının yanında artırdı. İstəmirdi onu gözünnən kənara qoysun. Məhəmmədə lotular hər nə buyuruq buyururdular, o saat əlüstü əmələ gətirirdi.

Bir gün lotular içib piyan olmuşdular. Lotubaşı üzün tutub yoldaşlarına dedi:

– Bir qoçax istəyirəm bu tavla mıxını aparıb filan hamama çalsın.

Heç kəs dinmədi. Hamı dedi:

– Genə bı Fatı qarının oğlu Keçəl Məhəmmədin işidi.

Lotubaşı o saat Məhəmmədi çağırıb dedi:

– Qoçağım, bir toxmax götürüb, bı tavla mıxını aparıb filan yerdə bir xaraba hamam var, ora çala bilərsənmi?

Keçəl dedi:

– Canın da allam.

Məhəmməd tavla mıxını, bir də toxmax götürüb, üz qoydu getməyə. Elə ki gəlib hamama çatdı, papağın əyri qoyub fışdırıx çala-çala başdadı mıxı çalmağa. Elə bir toxmax vırmışdı, dıfardan bir səs gəldi ki:

– Ay anasın satdığı Fatı qarının oğlu Keçəl Məhəmməd! Sən ağzını hara yetirmisən ki, mənim məkanımda mıx çalırsan?!

Məhəmməd başın qalxızıb gördü heç kəs yoxdu, bənd olmuyub başdadı genə çalmağa. Bir də səs gəldi:

– Ey anasın satdığı Fatı qarının oğlu Keçəl Məhəmməd, saa dimirəm çıx bırdan, rədd ol!

Məhəmməd başın qavzıyıb dedi:

– Mənim ağamnan hamı şəhər tük salır, bı da məni qorxuzur.

Başdadı bir, iki, üç tapla mıxı budamağa. O saat hamam titriyib, divar yarıldı, oradan bir oğlan çıxdı. O, əl atdı Məhəmmədin yaxasına, Məhəmməd də əl atıb onun kəmərindən tutdu. O difara-bu difara o qədər vırdı ki, oğlan gördü keçəl onu öldürəcək, istədi qaçsın, bir

ayağı keçdi Məhəmmədin əlinə. Oğlan o tərəfə çəkdi, Məhəmməd bu tərəfə, axırda oğlanın bir tay corabı da çıxdı Məhəmmədin əlində qaldı. Məhəmməd tavla mıxını çalıb, toxmağı da götürüb, papağını hərriyib fışdırıq çala-çala corabı da cibinə qoyub düşdü yolun ağına.

Keçəl bazarnan getməkdə olsun. Sizə beş kəlmə xəbər verim lotubaşınnan. Lotubaşı ayılıb gördü Məhəmməd yoxdu.

Dedi:

– Ay aman, Məhəmməd hanı?

Dedilər:

– Məhəmmədi keflənib özün göndərdin filan hamama ki, tavla mıxı çalsın.

Lotubaşı dedi:

– Ay aman, tez olun, ora hər kim girsə, ölər. Gedəy, bəlkə diri tapdıx. Heç olmasa, ölüsün taparıx.

Lotular durub getməydə olsun, bir neçə kəlmə Məhəmməddən eşidin. Məhəmməd fışdırıx çala-çala bazarnan gedirdi. Gördü bir baqqal kişmişi, noğulu, badamı töküp satır. Bını görən kimi başdadı Məhəmmədin ağzının suyu axmağa. Birdən yadına düşdü ki, axı bir corabı var. Dedi:

– Ay baqqal, bir tay corabım var, nə qədər kişmiş verərsən, verim saa?

Baqqal dedi:

– Ver baxım görüm.

Məhəmməd corabı çıxardıb verəndə baqqal gördü ki, bı bir corabdı ki, bının qiyməti heç paççahın xəzinəsində yoxdu. Yapışıp keçəlin yaxasınnan dedi:

– Keçəl köpək oğlu, bını hardan alıpsan? Yerini de! Mənim evimi yarıp qırx cüt corabımı aparıplar.

Məhəmməd dedi:

– Əşi, Allaha bax, mənnən əl çek, nə əv yarmax, nə qırx cüt corab? Bını mən indicə filan hamamda qazanmışam. Bının üstündə mən bir qat qabıx qoymışam.

Baqqal dedi:

– Keçələ bax, filan hamama bax. Heç ora nər kimi oğlannar gedip sağ qayıtmır, bir yalan da diyirsən? Düzün de görüm, corabın qalanın neynəmisən.

Keçəl dedi:

– Əşi, məndən əl çək, kişmiş vermirsən, corab da olsun sənin, vırram səni öldürrəm, qanını mənim üstümə tökmə.

Baqqal əl çəkmədi. Məhəmmədin acığı tutub vırdı baqqalın baş-gözün əzdi. Səs-küyə bazar darğası gəldi, əhvalı soruşdu. Baqqal dedi:

– Ay darğa ağa, mənim əvim yarılıp qırx cüt corabım getmişdir. İndi bir tayın bı keçəldə tutmuşam, qalanını da istiyəndə vırdı baş-gözümü bı hala saldı. Qədəm haqqını da verrəm, bizi apar paççahın yanına, dərdimi diyim.

Darğa "qədəm haqqı" eşidən kimi gözü maşaldar pişigin gözünə döndü. Keçəlin qolun bağlıyıb da gətirib gəldi paççahın hüzuruna dedi:

– Qibləyi-aləm sağ olsun, bı keçəl bu baqqalın əvini yarıp, malın aparıp. Kişi malın istiyəndə özünü də bı hala salıp.

Paççah baqqaldan soruşdu ki, nəyin gedip. Baqqal əhvalatı nağıl elədi. Paççah əmr elədi:

– Cəllad!

Cəllad hazır olub dedi:

– Qibləyi-aləm sağ olsun, nə əmr eliyirsən yerinə yetirim.

Paççah dedi:

– Vır bı keçəlin boynun.

Keçəl başın bılayıb dedi:

– Vay-vay, elə bı zadnan padçahlıq eləyirsən? Əvvəl bir sor görnən düzdü, necədi, onnan boynumu vırdır.

Paççah dedi:

– Hə, di sözüvü. De görək, nə qırıldıyırsan.

Məhəmməd əhvalatı nağıl eliyib dedi:

– Qibleyi-aləm, qırx gün möhlət ver, əgər bı corabdan mən qırx cüt gətirdim, bı baqqalın boynı vırılsın, əyər baqqal gətirdi, mənim boynum vırılsın.

Paççah dedi:

– Çox yaxşı.

Baqqal gördü iş xarapdı, tez dedi:

– Qibleyi-aləm, sağ olsun! Bı lotunun biridi, bıraxdın, bəlkə qaçdı getdi. Bının bırda dədəsinin mülkü qalmır, maşı qalmır, mən razı deyiləm.

Məhəmməd dedi:

– Paççah izin versə, mən bir adam deyil, qırx adam zamın verrəm. Mənim ağam filan lotulardı, harda olsa, gəlip bı saat bıra çıxallar.

Məhəmmədi qoyax cəllad əlində. Sizə xəbər verək lotulardan.

Lotular elə ki gəlib çıxdılar hamama, gördülər Məhəmməd tavla mıxı çalıp çıxıb gedip. Düşdülər bazar aşağı küçəyə. Elə ki, gəlip çatdılar bizim baqqalın dükanına, gördülər bir çox adam yığışıb. Əhval sordular. Camahat olan əhvalatı lotulara söylədi. Lotular o saat nişanınnan bildilər ki, keçəl həmən Məhəmməd özüdü ki, var. Lotubaşı dedi:

– Qardaşlar, tez olun, özümüzü paçcahın divanına yetirək, bəlkə Məhəmmədi qurtara bildik.

Özdərin onda yetirdilər ki, cəllad Məhəmmədin sağında, solunda fır-fır fırlanır; "öldürrəm, öldürrəm" diyirdi.

Məhəmməd lotuları görən kimi üzün tutup paçcaha dedi:

– Qibləyi-aləm! Bı da mənim ağalarım, indi baqqal nə deyir.

Baqqalın ələci kəsilip razı oldu. Lotular zamin olub Məhəmmədi gətirdilər mənzillərinə. O gecəni yeyip-içip yatdılar. Sabah olan kimi Məhəmməd qalxıb dabanın bərkidip, lotularnan vidalaşıp düşdü yolun ağına.

Çəkip çarığın dabanını, qırıp yerin amanını, dərələrdən yel kimi, təpələrdən sel kimi, badəyi-sərsər kimi, acı beyannıx, çax-çax qamışdıx, az getdi, üz getdi, dərə-təpə düz getdi, ta ki gəlib çıxdı bir dəryanın kənarına. Gördü gəmi tərpənib bir azca aralanıb. Məhəmməd "Allah, Məhəmməd, ya Əli" diyip atıldı gəminin sükanında otdu. Gəmi günə bir mənzil tey mənazil bir neçə gün yol getmişdi. Birdən dəryanın ortasında gəminin qabağında bir nəhəng peyda oldu. Gəmiçi nəhəngi görən kimi qışqırdı:

– Ay aman, tez olun, quluzdan birini, yüz tümən də pul hazır eləyin, atax bı nəhəngin ağzına, yoxsa bı saat gəmini dağıdacax. Hamımız qərq olacıyıx. Gəminin də hamı yükü tacirrərdi.

Biri dedi:

– Mən heç vaxt qulumu atmaram.

O biri dedi, mən heç vaxt qulumu atmaram. Bir də gördülər sükanın dalında bir keçəl oturub, çağırıb dedilər:

– Gəl səni atax bı nəhəngin ağzına, qannama da yığaq, kimə diyirsən, verək ona.

Məhəmməd dedi:

– Yüz tümən yığın, belimə də bir ip bağlayın, atın nəhəngin ağzına. Salamat qurtardım, verərsiniz özümə, qurtarmadım qayıdanda filan şəhərdə bir Fatı qarı var, verərsiz ona.

Pulu yığdılar, ipi də bağladılar Məhəmmədin belinə, atdılar nəhəngin ağzına.

Məhəmməd əl atıb yapışdı bir əlinən nəhəngin üst damağınnan. Bını bı dəryada ora-bıra o qədər vırdı ki, nəhəngin bir qat qabığı getdi. Axırda gördü keçəl onu öldürəcək istədi qaçsın, Məhəmməd əl atdı tutdu nəhəngin burnunnan, nəhəng o tərəfə çəkirdi, Məhəmməd bı tərəfə. Nəhəngin burnunda bir sırğa var idi. Burnu cırıldı, sırğa da qaldı Məhəmmədin əlində. Məhəmməd sırğanı cıbinə qoyub çıxdı gəmiyə. Məhəmmədin çörəyini də, xörəyini də verdilər, yeyip qarnım bərkitdi. Sora dedi:

– Mənim yüz tümənimi verin.

Tacirrər dedilər:

– Biz səni atmışdıq ki, öləsən, ölmədin, yüz töməni niyə verək?!

Məhəmməd nə qədər elədi, olmadı, gördü bılar çoxdu, bı bircə adam, sakit oldu. Elə ki gəldi dəryanın qırağına çıxdı, tacirrərnən xudahafiz də eləmiyib düşdü yolun ağına. Az getdi, üz getdi, dərə-təpə düz getdi, ta ki gəlib çıxdı bir şəhərə. Şəhərə daxil olub gördü ki, çörəglər təndirə yapılıb qalıb, dükannarda mallar başınadı; amma bir insan yoxdu şəhərdə. Dolana-dolana gəlip şəhərin o biri qırağına çıxdı, gördü bir cığır gedir, dedi:

– Yaqin şəhərin əhli bı cığırnan haraysa gediplər. Gedim görüm nə var.

Birəz getdi qabağına bir təpə çıxdı, təpəni aşıp gördü ki, bir qalaça var. Özün yetirdi qalaçaya, içəri girən kimi qalaçanın qapısı örtüldü. Bir səs gəldi:

– Ey anası satdığı Fatı qarının oğlu keçəl Məhəmməd! Mənim mənzilimə qatır gəlsə, dırnaq salmaz, quş gəlsə qanat salmaz. Sən nə cürət eliyib mənim məkanıma gəlmisən.

Məhəmməd bir başın qalxızıb fikir elədi, sən öləsən bı şəhərə hər nə bəla toxunub, bınnan toxunub. Görək nə olacax.

Səs bir də gəldi:

– Ey Fatı qarının oğlu Keçəl Məhəmməd!

– Sənə dimirəm çıx, dalınnan danışma, iyit ağzın yumar, əlin açar. Çıx belə görüm kimsən, mətləbin nədi?

Yer titrəyib divar yarıldı. Bir oğlan çıxdı ki, qəddi minayə kimi, baş ütgec gümbəzi kimi, bığların eşib şənbələ kimi qoymuşdu qulağının dibində. Əl atdı ki, Məhəmmədi götürüb yerə vursun, Məhəmməd

yapışdı onun biləyinnən, özünə tərəf çekip yapışdı ortasınnan. Onu o divara-bı divara o qədər vırdı ki, bir qat qabığı getdi.

Oğlan gördü Məhəmməd onu öldürəcək, istədi qaçsın. Məhəmməd yapışdı biləyinnən, oğlan o tərəfə çəkdi, Məhəmməd bı tərəfə çəkdi. Axırda oğlanın barmağında bir üzük vardı. O da çıxıb Məhəmmədin əlində qaldı.

Məhəmməd cibinə qoyub qalaçadan çıxdı. Allaha təvəkkül eləyib üz çevirdi bir tərəfə getməgdə olsun. Görək axırı necə olacax.

Məhəmməd bu gedişnən tamam on gün, on gecə yol getdi. Gəlip çıxdı bir qalaçaya. Gördü vallah, bı bir qalaçadı ki, çəkilib göyün üzünə. Bir siçan da keçməgə yolu yoxdu, gün də az qalmışdı ki, batsın. Məhəmməd də çox yorulmuşdu. Başdadı qalaçanın dörd tərəfin gəzməyə görsün bir yol taparmı girsin qalaçaya. Gəzip-gəzip axırda gördü ki, divarın dibinnən bir su çıxıb axır. Məhəmməd ağlınnan bildi ki, bı su içəridən gəlir. O saat başın soxdu su gələn deşiyə. Başının qartmağı sıyırıla-sıyırıla birtəhər keçdi o tərəfə.

Nə gördü? Paho, bura bir bağdı, deyirsən behişdin bir guşəsidi? Bülbüllər cəh-cəh vırır, güllər pəh-pəh vırır, ağacdar baş çəkib fələyə. Dünyada nə meyvə desən, bırda tapılır. Məhəmmədin ağzı açıla qalmışdı. Bilmirdi hankı tərəfə getsin. Birdən qulağına bir su şırıltısı gəldi. Yuxudan ayılan kimi olub öz-özünə dedi:

– Ey yar, nə qayırırsan? Məhəmməd, ayıx olmalısan bı qalaça işsiz deyil.

Yavaş-yavaş suya tərəf gəlip gördü bir çarhovuzdı, diyirsən vallah, suyu abi-kösərdi. Çarhovızın daşının biri yaqutdan, biri mirvarıdandı. O biri tərəfə baxanda nə gördü? Gördü bir çiməni-basafa yerdə sırfa salınıp, sırfanın üstə üç qap xörək qoyulub elə buğlanır, yanına da xurşu, məzəsi qoyulub. Məhəmməd o saat bildi ki, bılar təzə qoyulup, indicə kimsə gələcək. Tez bir gül kolunda gizlənib başdadı sıfraya tərəf marıtdamağa. Bir də gördü üç göyərçin gəlip qondu sırfanın qırağına, donnarın çıxardıp üç qız oldular ki, vallah yemə, işmə bılların xəddi-xalına, gül camalına tamaşa elə. Günə diyillər sən çıxma, mən çıxım. Aya diyillər sən çıxma, mən çıxım. Məhəmmədin ağzı açıla qalmışdı. Bir də gördü, qızlardan biri o birrərinə dedi: "Bacılar, xörəgi yiyək, söhbət eliyək, yoxsa söhbət eliyək, xörəgi yiyək?"

O biri cavaf verdi ki: "Bacılar, bıdı on ildi ki, bir-birimizi görmürdük. Xörək qaşmır ki, yeyərik, hələ bir-birimizin sərgüzəştinnən

xəbərdar olax, onnan çörəyimizi yeyək. Üzdərin tutub böyük qıza dedilər:

– Bacı, sən böyügümüzsən, gərək əvvəlcə sən başına gələni danışasan.

Böyük qız başdadı:

– Bacılar, filan şəhərdə bir hamam var. Mən on ildi ki, orda peyda olmuşdım, nə qədər ora gələn vardısa, səsdənirdim bağrı çatdıyıb ölürdü, nələri var yığışdırıb aparırdım. Günnərin bir günündə haradasa Fatı qarının oğlu Keçəl Məhəmməd birisi ara-təzə gəldi çıxdı ora, başdadı bir tovla mıxı çalmağa, bir dəfə səsdəndim, dərbənd olmadı, iki dəfə səsdəndim dərbənd olmadı, axırda özüm çıxdım tutaşdıx. Məni o difara, bı difara o qədər vırdı ki, bir qat qabığım getdi. Bədənim indi də hələ döyütmiyip. İstədim qaçam, ayağımda bir cüt corabım vardı ki, yeddi ilin bacı xəracınan əmələ gəlmişdi, onun da bir tayı çıxıp əlində qaldı. Kaş o bırda olsaydı, bı xörəyi onnan yeyip, ona ərə gedərdim.

Məhəmməd öz könlündə dedi:

– Keçəl, dinmə baxtın getirib.

Ortancıl qız başladı:

– Dad Fatı qarının oğlu keçəl Məhəmmədin əlindən. Bacılar, mən də filan dəryada məsgən eləmişdim. Nə qədər gəmi gəlsə ya yüz tümən pul, bir qul alırdım, ya da gəmini dağıdıb bütün var-yoxun aparırdım. Bir gün qara yola qara sata həmən Məhəmməd gəldi çıxdı urcahıma, o gen dəryanı başıma dar elədi. İstədim qaçam, dartdı burnumda bir sırğa vardı, yeddi ilin bacı-xəracından əmələ gəlmişdi, onu da qopardıb apardı. Allahın altda o bırda olaydı, bu xörəyi onnan yeyip, ona ərə gedəydim.

Başdadı kiçik bacı, dedi:

– Bacılar, mən filan şəhərin kənarında bir qalaçada məskən tutmışdım. O şəhərin hamısın qaçax iləyip, şəhərin bütün mal-dövlətinə sahablanmışdım. Bir gün haradansa həmən Məhəmməd ara-təzə gəldi çıxdı o qalaçaya, nə qədər çığırdım dərbənd olmadı. Axır çıxdım tutaxlaşdıx. Məni o qədər vırdı ki, bir qat qabığım getdi. Gördüm məni öldürəcəg, istədim qaçam, yapışdı əlimdən o tərəfə çəkdi, mən bı tərəfə çəkdim, barmağımda bir üzük vardı, yeddi ilin bacı xəracınnan əmələ gəlmişdi. O da çıxdı qaldı əlində. Kaş o bırda oleydı, bı xörəyi onnan yeyib ona ərə gedəydim.

Məhəmməd bı sözdəri eşidən kimi koldan çıxıb dedi:

– Xanımlar, mən bırdayam, əvvəlcə hələ o corabdan qırx cüt bıra gətirin, sora danışax.

Qızdar o saat corabdan qırx cüt hazır elədilər. Onnan Məhəmməd dedi:

– İndi hansınız məni o şəhərə tez aparsa, onu alacam.

Böyük qız dedi:

– Mən bir həftəyə aparram.

Məhəmməd dedi:

– Bı olmadı.

Ortancıl qız dedi:

– Mən üç günə apararam.

Məhəmməd dedi:

– Bı da olmadı.

Kiçik qız dedi:

– Mən sabah günortaya kimi səni şəhərə aparram.

Məhəmməd razı oldu, o saat pərilər qazısın gətirdilər, kiçik qızın kəbinin kesdi Məhəmmədə. Məhəmməd qıznan xörəyi yeyib o gecəni yatdılar. Səhər tezdən qız löh oxuyub Məhəmmədi elədi bir çöp, özü də donun geyip oldu bir göyərçin. Məhəmmədi vırıp dimdiyinə üz tutdu Məhəmmədgilin şəhərinə. Günorta azanı başdananda gəlib düşdü şəhərin qırağına. Geriyə də löh oxuyub Məhəmmədi elədi adam. Məhəmməd dedi:

– Xanım, sən bırda gözdə, mən qaçım evdən bı saat bir çarşavdan-zaddan tapım gətirim, bürün gedək.

Qız razı oldu. Məhəmməd özün yetirip anasına dedi:

– Ana, çarşavdan-zaddan bir şey varmı, tez ver maa, arvat almışam.

Qarı dedi:

– Dədən gorbagor havaxt maa çarşav almışdı ki, çarşavım ola.

Məhəmməd dedi:

– Ay arvat, tez ol, qız gözdəyir.

Qarı dedi:

– Qoy görüm, gərəy toy çarşavım dura, onu verim apar.

Qarı durub bir yastığı söküb içinnən köhnə tükə bılanmış bir çarşav tapıb verdi Məhəmmədə. Məhəmməd tez özün yetirdi xanımın qulluğuna, çarşavı saldı başına, gətirdi evlərinə.

Bir gün xanım Məhəmməddən soruşdu ki, bu yerinizin sərhədin maa görkəzə bilərsənmi? Məhəmməd dedi:

– Görkəzərəm.

Xanım dedi:

– Ala bı üzüyü, apar dəryada çalxala, sudan bir oğlan çıxacax, diyəcəy, bizə görə qullux. Diyərsən ki, qul sahibi olasan, xanım diyirdi, bı gecə filan yerdə paççahın evi kimi bir əv istəyirəm. Sora qayıdıp gələrsən. Tayı sənin işin olmasın.

Məhəmməd özün yetirdi dəryaya, üzüyü suya salan kimi oğlan çıxdı:

– Oho, Məhəmməd, xoş gəlmisən, bizə görə qullux?

Məhəmməd dedi:

– Qul sahibi olasan. Xanım diyirdi filan yerdən paççahın evi biçimdə bı gecə bir ev tiksin.

Oğlan dedi:

– Baş üstə, qal bizə kömək elə.

Məhəmməd dedi:

– Yox, mən qala bilmərəm.

Qayıtdı geri. Gələndə gördü aşbaz aşı bişirip, həlimini töküb qablara. Məhəmmədin tamahı düşüb otdu bir az həlim içməyə. Yolnan gedənin birisi çömçənin sapına toxunub həlimi dağıtdı. Məhəmmədin acığı tutub dedi:

– Axmaq oğlu, axmaq, qoymaz birəz bu müftə həlimnən içək.

Kişi qayıdıp dedi:

– Axmaq oğlu sənsən ki, xalx tamaşaya gedir, sən oturub həlim içirsən.

Məhəmməd dedi:

– Qardaş, nə tamaşa?

Dedi:

– Ey, hələ xəbərin yoxdu? Fatı qarının oğlu keçəl Məhəmmədin ağalarının vaxtı tamamdı. Məhəmməd gəlmiyib paççah onların boynun vırdırır.

Məhəmməd bını eşidən kimi məsələ yadına düşdü. Tez corabları götürüb paççahın divanxanasına tərəf üz qoydu. Onda yetip gördü ki, az qalıp ha cəllad elə ağalarının boynunu vurhavurdu. Adamları o tərəf-bı tərəfə yarıp, özün atdı meydançaya, corabları paççahın qabağına töküb, dedi:

– Hanı baqqal? Corabları gətirsin, görək.

Paçcah əmr elədi, lotuları azad elədilər. Baqqala da əmr elədi ki, corabları gətirsin. Baqqal corabları gətirəndə paçcah gördü ki, paho bı corablar ha bırda Qazaxlarda, Usuluda, Çubuxda toxunub, o saat əmr elədi cəllada. Cəllad hazır oldu:

– Nə buyurursan qibleyi-aləm? Qulum qolatanı, qılıncım kəskin.

Paçcah dedi:

– Vır, bı saat baqqalın boynun.

Cəllad baqqalın boynun elə vırdı ki, bir gilə qan da yerə düşmədi. Paçcah dedi:

– Məhəmməd!

Məhəmməd dedi:

– Bəli.

– Məhəmməd, bəlkə bı corabın bir cütünü maa verəsən.

Məhəmməd dedi:

– Gözdərinin ikisi də bir dəşiydən çıxa, genə vermərəm!

Corablardan hər ağasına bir cütün bağışdadı. Lotubaşı da Məhəmmədi azad eləyip dedi:

– Get, nə qədər mən sağam, bı şəhərdə saa bir adam sataşsa, gəl maa xəbər ver. Sənin işin olmasın.

Məhəmməd üz qoydu əvlərinə. Nə gördü?! Evlərinin yerində qırx mərtəbə bir ev tikilipdi ki, heç paçcaha miyəssər dəgil. Xana baxçası, fəvvarası, qulluxçusu, qaravaşı, hər şeyi içində. Məhəmməd durup fikir eləyirdi ki, ay Allah, yəni bı mənim evimdi? Dedi, yox, ola bilməz, yəqin mən yanlış gəlmişəm. İstəyirdi qayıtsın geri, gördü arvadı külafirəngidən çağırır:

– Məhəmməd, niyə içəri gəlmirsən?

Baxdı gördü, xeyr, öz arvadıdı, bı da öz evidi. Çıxdı yuxarı, başdadı xanımnan kef eləməyə.

Bıllar kef çəkməkdə olsun, sizə kimnən xəbər verim, paçcahdan. Paçcah bir gün vəzirinən oturmuşdu külafərəngidə, dörd tərəfə baxırdı. Gördü, vallah şəhərin bir yerində bir imarat tikilip, heç paçcaha miyəssər deyil. Üzün tutub vəzirə dedi:

– Vəzir, bı ev kimindi?

Vəzir cavap verdi ki:

– Qibleyi-aləm sağ olsun, həmən Fatı qarının oğlu Keçəl Məhəmmədindi.

Bıllar bı danışıqdaydılar, Məhəmmədin arvadı çıxdı eyvana. Paçcah qızı görən kimi bir ox qızın iki qaşının arasınnan qutarıp dəydi paçcahın ürəginin başınnan. Paçcah, bildirmi ölübsən, bu ilmi? Yıxılıp ürəyi yetdi. Vəzir paçcahı birtəhərnən özünə gətirdi. Dedi, evin yıxılmasın nə qayırırsan?

Paçcah dedi:

– Vəzir, tədbir! Mən gərək qızı alam!

Vəzir dedi:

– Qibleyi-aləm, nə tədbir, gücnən ala bilməzsən. El diyər paçcah kişinin kəbinni arvadın zornan aldı. Gərək Məhəmmədə elə bir qullux buyurasan ki, yerinə yetirə bilmiyə, boynun vırdırasan. Ayrı əlac yoxdu.

Paçcah dedi:

– Nə buyurux buyurax?

Vəzir cavaf verdi:

– Qibleyi-aləm, sabah Məhəmmədi çağırarsan, diyərsən ki, Məhəmməd, sən bir qoçaq oğlansan, sənnən başqa heç kəs bacarmaz. Gərək mənə nar içində huri gətirəsən, gətirməsən boynunu vırdıracığam. Əlacı yoxdu, gedəcəg, ya ölər, ya da gətirə bilməz, sən boynun vırdırarsan.

Paçcah dedi:

– Çox yaxşı tədbirdi.

Birtəhərnən paçcah gecəni sabah elədi. Tezdən qırmızı geyinip çıxdı taxda. Fərraş göndərip Məhəmmədi çağırtdı hüzuruna, bir kitabı açıb əlin qoydu bir yazının üstə, dedi:

– Məhəmməd, bı nədi?

Məhəmməd uşaxlıxda birəz molla yanında oxumuşdu, höccələməynən bilirdi. Odur ki, höccələyib dedi:

– Paçcah sağ olsun, "nar içində huri".

Paçcah dedi:

– Hə qoçağım, düz oxuyubsan, "nar içində huri"dir. İndi mən görürəm bı şəhərdə sənnən qoçaq adam yoxdu, gərək bınnan maa gətirəsən, gətirməsən boynuvu vırdıracayam.

Keçəl kor-peşman, suyu tökülmüş qarı kimi qayıtdı. Qız gördü tay nə... Elə bil Məhəmmədin dədəsi indicə ölüb, qaş-qabağı yer süpürür, cəld durup Məhəmmədin boynun qucaxlayıb dedi:

– Mənim sevgilim, niyə bikefsən, sən bilmirsən mənim sənnən başqa bir kimsəm yoxdu? Sən də bekaf olanda bı qürbətdə mən neynərəm?

Məhəmməd dedi:

– Xanım, paçcah bir buyurux buyurub, yerinə yetirmək mümkün deyil, boynum vırılacax.

Qız dedi:

– Məhəmməd, sən Allah, helə demə, ürəyimi qana döndərmə. De görüm, nə buyurup?

Məhəmməd əhvalatı mən sizə diyən kimi qıza nağıl elədi.

Qız gülüp dedi:

– Elə bu?

Məhəmməd dedi:

– Bəli.

Qız soruşdu:

– Hələ de görüm, möhlət alıpsan?

Məhəmməd dedi:

– Almamışam.

Qız dedi:

– Onda, get paçcahdan qırx gün möhlət al, gəl otur otuz doqquz gün yeyək, içək, Allaha şükür eliyək. Qırxıncı gün Allah kərimdi.

Məhəmməd gedip paçcahdan qırx gün möhlət aldı. Gəlip otuz doqquz gün xanımnan kefə baxdı, qırxıncı gün xanım bir löh verdi Məhəmmədə. Dedi:

– Məhəmməd, çıxarsan şəhərdən kənara, bu löhü oxuyub gözdərini yumarsan. Bir də görəcəksən ki, ayağın bir şeyə ilişdi, gözünü açanda görərsən bir daşdı, qalxızarsan, daşın altından bir piləkan çıxacaq. Piləkandan yenərsən, qabağa bir darvaza çıxacax. Darvazanın ağzında bir qarı oturub. O mənim xalamdı, bı kağızı verərsən ona oxuyar, o nə disə əməl edərsən. Qayıdanda bı löhü oxuyarsan, olacaxsan evimizdə, qorxma.

Məhəmməd löhləri alıp nənəsiynən, arvadıynan görüşüp, öpüşüp ayrıldı. Elə ki, şəhərin qırağına çıxdı, löhü başladı oxumağa. Oxuyub qurtaran kimi Məhəmməd başladı quş kimi uçmağa. Bir də gördü ayağı bərk bir şeyə ilişdi. Gözün açıb gördü ki, bir daşdı. Daşı qavzadı, piləkanı çıxdı, piləkandan enib özün qarıya yetirdi. Kağızı uzatdı qarıya, qarı dedi:

– Məhəmməd!

Dedi:

– Bəli!

Qarı dedi:

– Ala, bı löhü, o dağı görürsən, get o dağın dabanına, görərsən nar ağacdarıdı. Üstü tey nar, ancax hər narın saplağının dibində ilannar yatıp. Bu löhü tutarsan havaya. Bir ağ yağış başdayacax. O ilannar çəkilib gedəcəklər. Onda çıxarsan nardan nə qədər lazımdı qoynunu, qoltuğunu doldurarsan.

Məhəmməd löhü alıp özün verdi dağın dabanına, löhü havaya tutan kimi bir ağ yağış başdadı. İlannar təmiz çəkilip getdilər. Məhəmməd cəld nə qədər ki lazım idi, nardan yığıp, qoynun, qoltuğun doldurdu. Sora düşüp gəldi qarının yanına. Qarı bir kağız da bacısı qızına yazıb, Məhəmmədi yola saldı.

Məhəmməd qayıdıb pilləkannərnən qalxdı yuxarı, çölə çıxıp daşı genə çəvirdi yerinə. İkimci löhü oxuyub gözdərin yumdu. Gözün açanda gördü, öz qapısındadı. Yuxarı qalxıb öz evinə girdi.

Qız Məhəmmədi görən kimi dedi:

– Gətirdin?

Dedi:

– Bəli.

Qız dedi:

– Qoy bıra, görüm bəlkə heç içində hurisi yoxdu.

Məhəmməd narrarı töhdü qızın qabağına. Qız pıçağı əlinə alıp, narın birin kəsdi. İçindən huri çıxıp dedi:

– Ay maa su, ay maa su.

Su olmadı, uçub getdi. İkincisi belə, üçümcüsü belə... ta bir nar qalıncan. Qız hamısın kəsdi. Biri qalanda qız dedi:

– Məhəmməd!

Məhəmməd dedi:

– Bəli!

Dedi:

– Bir qab su hazır qoy.

Məhəmməd suyu hazır elədi. Qız narı kəsdi, huri qırağa atılıb "ay maa su" diyən kimi suyu uzatdı.

Huri dedi:

– Sən Allah, paççahı örgətmiyin, qoyun, mən də gedim bacılarımın yanına.

Qız dedi:

– Arxayın ol.

Huri genə girdi nara. Qız narın kəsdiyi yerini qoydu bir-birinin üstə, elə bil heç kəsilməmişdi. Bitişib oldu əvvəlki kimi. Məhəmmədə verip dedi:

– Apar, ver paçcaha.

Məhəmməd özünü yetirib paçcaha narı uzatdı. Paçcah dedi:

– İndi bının içində huri var?

Məhəmməd dedi:

– Mən nə bilim? Kəsərsən, görərsən!

Paçcah pıçax istiyib narı kəsən kimi, huri sıçrayıb qondu kənara, çığırdı ki, "ay maa su, ay maa su". Paçcah, "vəzir su", "vəkil su", ha-hi eləyip su getirincən, huri pırıldıyıp çıxdı getdi.

Paçcah dedi:

– Məhəmməd, axı qız qaçdı.

Məhəmməd dedi:

– Mən nə eləyim. Maa demişdin gətir, deməmişdin ki, saxla, özün saxlıyaydın.

Paçcahın əlacı kəsilip Məhəmmədi azad elədi.

Məhəmməd evə getməkdə olsun, görək paçcah nə qayırır? Paçcah üzün vəzirə tutub dedi:

– Vəzir! Tədbir, yoxsa bı qızın dərdi məni öldürər.

Vəzir dedi:

– Evin yıxılsın, taha nə tədbir, hər nə desən, əmələ gətirəcək.

Paçcah dedi:

– Genə bir çarə tapıb bı keçəl köpək oğlunu başımızdan rədd eləməliyik.

Vəzir dedi:

– Qibleyi-aləm sabah çağırax, deyək bı dəryanın ortasınnan bir ev tiksin. Hamı – vəzir, vəkil arvad-uşağını da götürüb orda olax.

Paçcah bı tədbiri bəyənib, səhər Məhəmmədi çağırtdırdı:

– Qoçağım, bı dəryanı görürsən, onun ortasında gərək maa bir ev tikdirəsən.

Məhəmməd dedi:

– Ay paçcah! Ədalətinə güc eləmə, suyun üzündə ev tikdirmək olarmı?

Paçcah dedi:

– Uzun danışma, tikdirdin tikdiribsən, tikdirməsən boynun vurılacaxdı.

Məhəmməd genə suyu tökülmüş qarı kimi evə qayıtdı. Qız gördü vallah Məhəmməd ölüb, yerdən götürən yoxdu. Durub Məhəmmədin boynun qucaxlayıb dedi:

– Qadan alım, niyə bikefsən?

Məhəmməd olan əhvalatı nağıl elədi. Qız qah-qah çəkib dedi:

– Elə bı?..

Məhəmməd dedi:

– Bəli, xanım, məyər bı azdı, suyun üzündə də ev tikdirmək olar?

Qız dedi:

– Hələ sən maa de görüm, möhlət aldın?

Məhəmməd dedi:

– Xeyr, xanım, almamışam.

Qız dedi:

– Onda, get, əvvəlcə qırx gün möhlət al. Otuz doqquz gün kef eliyək, görək qırxı nə olur?

Məhəmməd gəlib paççahdan qırx gün möhlət aldı. Başdadılar xanımnan kefə. Elə ki, otuz doqquz gün tamam oldu, xanım üzüyün barmağından çıxarıb verdi Məhəmmədə, dedi:

– Al bı üzüyü, apar dəryada suda çalxala. Bir oğlan çıxıb diyəcək ki, Məhəmməd, nə qullux? Denən, qul sahibi olasan, xanım deyirdi, dəryanın ortasında bir ev tikdirsin, paççah, vəzir, vəkil arvat-uşağınan orada olacax. Onda o diyəcəg: Məhəmməd, qal maa kömək elə, deyinən xeyr, mən qala bilmərəm, özün də qayıdanda nəbadə, dala baxasan.

Məhəmməd gəlib dəryanın qırağına üzüyü suda çalxalayan kimi su ayrılıb oğlan hazır oldu:

– Paho, Məhəmməd, xoş gəlmisən, beş gəlmisən. Bizə görə qulluğun?

Məhəmməd dedi:

– Qul sahibi olasan, qullux bizimdi. Ancax xanım diyirdi, bı dəryanın ortasında bir ev tikdirsin, paççah, vəzir, vəkil arvat-uşağınan orda olacax.

Oğlan dedi:

– Məhəmməd, qal bizə kömək elə.

Məhəmməd dedi:

– Xeyr, mən qala bilmərəm.

Qayıdıp gəldi evə. Gecəni yatdılar, sabah üzüza xeyrə açılsın. Elə ki, sabah oldu qız Məhəmmədi yuxudan oyatdı, dedi:

– Məhəmməd, di dur bir tamaşa elə, gör nə görərsən?

Məhəmməd dərya tərəfə baxanda nə gördü? Baho, nə! Dəryanın ortasında bir imarat tikilib, heç paççaha miyəssər deyil.

Qız dedi:

– Məhəmməd, di get, paççaha xəbər ilə köçsün evə.

Məhəmməd gəlib paççaha xəbər verdi ki, ev hazırdı. Paççah baxıb gördü ki, doğrudan bir elə imaratdı ki, misli görünməmiş ola. Paççah əmr elədi nə qədər yaxın adamları varıdı, hamısı arvat-uşaxlarınan bərabər köçdülər evə. Axşam olanda xanım dedi:

– Məhəmməd! Al bu üzüyü, gedərsən dəryanın qırağına, üzüyü suda çalxalarsan, həmən oğlan çıxacax. Diyəcək, "bizə görə nə qullux". Diyərsən, "qul sahibi olasan, xanım salam yetirib diyirdi ki, o binanı bı gecə elə çəkər dəryanın tənginə ki, izi-tozu da qalmaz. Diyəcək, "qal, kömək elə". Denən, "mən qala bilmərəm". Bax, özün də nəbadə qayıdanda dala baxasan.

Məhəmməd gəlib dəryanın qırağına, xanım diyən kimi elədi.

Oğlan dedi:

– Qal, kömək elə.

Məhəmməd dedi:

– Xeyr, məni bağışda, qala bilmərəm.

Məhəmməd xudahafizdəşib evə qayıtdı. Yolnan gələndə, fikirrəşdi ki, yanı mən dala baxanda nə olacax? Lap qapının ağzına çatmışdı ki, davam eləyə bilməyip, əyildi iki qıçının arasından dala baxdı. Məhəmmədi götürüb başı üstə elə vurdular yerə ki, Məhəmməd bu ilmi ölüpmüş, bildirmi, bəyax, özündən getdi. Tappıltıya qız çıxıb gördü ki, Məhəmməd tirtap uzanıb. Qız qulluqçulara səslənip Məhəmmədi yuxarı gətirdilər. Üzünə ayna tutub gördülər ki, canı var. Başdayıb sinəsinə sudan-zaddan səpip, qarsın boğup, Məhəmmədi özünə gətirdilər.

Məhəmməd ayılan kimi qız dedi:

– Saa deməmişdim, dala baxma, indi bir dərya tərəfə bax gör noolub?

Məhəmməd dedi:

– Xanım, qələt elərəm, mən bir ildən də sora dərya tərəfə baxmaram.

Xanım dedi:

– Qorxma, daha vaxtı keçib, hələ saa xətir qoydular, öldürmədilər. İndi baxa bilərsən.

Məhəmməd qorxa-qorxa dərya tərəfə baxanda, gördü o boyda imarətdən bir çöp də qalmayıp yerində. Dərya ləpə çalır. Səhər şəhər əhli əhvalatdan xəbərdar olub şad oldular. Bu işdəri kim elədiyin bilip Məhəmmədi aparıb özdərinə paçcah seçdilər. Məhəmməd də həmən lotuları çağırıb hərəsin bir mənsəbə qoydu. Lotubaşını da özünə vəzir elədi.

Bir müddətdən sora Məhəmmədin bir oğlu da oldu. Ömrü uzunu paçcahlıx elədi, xalxnan yaxşı rəftar eləyip, rəyyəti ədalətnən dolandırdı.

O yedi, işdi, yerə keçdi, siz də addıyın, dövrə keçin. Olar mətləbinə çatdılar. Allah hamını mətləbinə çatdırsın, biz də onun biri.

# MƏLİK MƏMMƏDLƏ MƏLİK ƏHMƏD

Biri vardı, biri yoxdu. Yunan şəhrində bir Məhmət Həsən adında paççah vardı. Bının qonşusunda da bir naxırçı vardı. Bılların hər ikisinin də övladı yoxdı, nə paççahın, nə də naxırçının. Bı paççah fikirləşirdi ki, bir belə torpağım, bir belə dövlətim ola, bir övladım olmıya ki, barı ona sahıp ola. Gün çıxannan gün batana cəmi paççahlar mənnən qorxur.

Gecə yatmışdı. Aləmi-vaqiyədə gördü ki, bına deyillər: "Ey paççah, səhər sühb namazınnan qabax dur get çarhovuzun başına. Orda suyun üzündə bir alma üzür. Onı gətir qoy xonçıya, ortadan tən böl. Yarısın ver qonşun naxırçıya, arvadıynan yesin, yarısın da özün hərəminnən ye".

Bı sübh namazınnan qabax durdu, getdi çarhovuzun qırağına, gördü bəli, çarhovızda bir alma üzür. Bını götürdü gəldi əvə, qoydı xonçıya. Böldü, yarısını göndərdi naxırçıya. Dedi ki, "arvadıynan yesin". Yarısını özü hərəmiynən yedi.

Ay oldu, il dolandı, bılların hər ikisinin arvaddarının boynuna uşax düşdü. Hər ikisi vaxt oldı ki, doğdular. Bılların hərəsinin bir oğlu oldu. Gətirdilər bılların hərəsin bir dayaya verdilər. Bıllar, bəli, bir yaşınnan gəldi iki yaşına, ikidən üçə. Belə-belə bılar altı yaşına çatanda, bılları qoydular məktəbə.

Paççahın oğlının adı Məlik Məmməd, naxırçının oğlının adı da Məlik Əhməd idi. Bulları əvdən çölə qoymırdılar çıxsın. Bir molla təyin etmişdilər, gəlip bir əvdə bılların ikisinə də dərs verirdi.

Paççah da aşbaza tapşırırdı ki, nə bada bılların xörəyinə sümük qoyasan.

Bıllar hər ikisi gəldi, çatdı on beş yaşına. Bir gün aşbaz gətirdi bılların xörəyinə bir sümük qoydı. Bıllar xörəklərin yedilər. Bu sümüyü oynadırdılar. Sümük dəydi aynanın şüşəsinə sındı. Birdən başdadı əvə gün düşməyə. Bıllar gördülər, əvdə difara bir göyçək şey düşür. Başdadılar bını tutmağa. Nə qədər elədilər, bını tuta bilmədilər.

Molla gələndə gördü ki, bıllar qan-tərin içindədilər. Bıllar mollanı görəndə dedi:

– Bizi niyə bırda qırırsan? Qoymırsan çölü görək? Bax çöldən nə göyçək şey düşür?

Molla gətirdi aynanın sınığından çölü bıllara göstərdi. Bıllar gördülər ki, kimi quş oynadır, kimi gəzir, kimi oynıyır. Hərə bir işinən məşğuldu. Çöl belə gözəldi ki, nə təər. Mollıya dedilər:

– Get atamıza de ki, taa biz oxıyıp molla, muşdet olmıyacıyıx ha. İzin versin, biz də çıxax çölə. Bir at da hazırrasın ova çıxaq.

Molla getdi, dedi:

– Uşaxlar deyir ki, bizə icazə versin, çıxax çölə. Özü də bir at həriyə hazırrasın, ova çıxacıyıx.

Paççah car çağırtdırdı. Bıllara qoşın yığdırıb dedi:

– Sabah ova gedəcəksiniz, mənim oğlanlarımın yanınca.

Məlik Əhməd almıya oxşıyırdı, elə Məlik Məmməd də almıya oxşıyırdı. Ancax Məlik Əhməd birəz ağıdı Məlik Məmməddən. Onnar bir-birinnən seçilmirdilər.

Bıllar geyinip, atdandılar, düşdülər yola, getdilər. Çıxdılar bir düzəngah yerə. Gördülər ki, bəli, bırda bir ceyran otdıyır. Qoşına əmr elədilər ki, ətdən çəpər çəkin onun dörd tərəfinə. Hər kəsin başının üstdən tullanıp getsə, boynın vırdıracıyam. Hər kəsin böyrünnən getsə, əlin vırdıracıyam. Bıllar cərgeynən durdular ceyranın dörd bir tərəfin tutdular. Ceyran o yana baxdı, bu yana baxdı, dedi:

– Mən heç kimin qanına bayıs olacıyam.

Gəldi Məlik Məmmədin başının üstdən tullanıb getdi.

Bı dedi:

– Bir adam mənim dalımca gəlsə, bı ad mənim üzərimə qənim olsın. Boynın vırdıracıyam.

Heç kəs qorxısınnan getmədi. Bı dedi:

– Gərək, mən özüm tutam o ceyranı, o ki mənim başımın üstdən qaçıp.

Bı iki qardaş düşdülər yola. Bı ceyranı qava-qava gətirdilər saldılar bir qalaçıya. İsdədilər ceyranın dalınca girsinnər qalaçıya, gördülər bir oğlan çıxdı. Oğlan dedi:

– Ey paçcahzadə, mənim ceyranımı niyə qavdınız?

Məlik Məmmədgil oğlana dedilər:

– Bizim şikarımızı ver.

Bı oğlan dedi:

– Ay oğlan, siz gəlmisiniz bıra, paçcahzadəsınız, yoxsa sizi mən bir tilisimə salardım, heç çıxa bilməzdiniz.

Bı girdi içəridən bir şəkil gətirdi. Kağızın arasında verdi Məlik Əhmədgilə. Kağızı aşdılar, baxdılar gördülər ki, bı bir qızdı ki, Allahtala xoş gündə, xoş saatda yaradıp. Bını görən kimi Məlik Məmmədin ürəyi getdi.

Birəzdən sora ayıldı bıllar, başdadılar yol getməyə. Yol uzunu Məlik Əhməd bına təsginnik verirdi ki:

– Heç fikir eləmə, qardaş, nətər olsa, o qızı ələ gətirrik.

– Nə fayda, qızın yerin bilmədik, hankı paçcahın qızıdı.

Amma Məlik Əhməd bir elə pəhlivanıdı ki, Rusdama əvəz. Deyirdi:

– Qardaş, bı başı bədənnən gərək cida eliyəm, o qızı tapam.

Şəkli də gətirdilər evə. Məlik Məmməd şəkli gətirdi qoydı atasının qabağına.

Atası dedi:

– Ey oğul, o boş fikirdi, o yeddi qardaş devin bacısıdı. Mən düz yeddi dəfə onın üstdə qoşın göndərmişəm, qoşınımı təmiz qırıplar. Onı almax olmaz. Həmən qızın adına da Gülü Qahqah deyərlər. O qıza cəmi paçcahlar aşıxdı. Ancax ələ gətirə bilmirrər. O qız tilisimdir. Mən qoşın verə bilmərəm, aparıp qırdırasınız.

Məlik Əhməd dedi:

– Ay paçcah, maa qoşın lazım döyü. Ancax yolın de, hara gedəciyəm? Bı baş nə qədər ki sağdı, gərək o qızı gətirəm.

Paçcah dedi:

– Bəli, şimal tərəfə sübh tezdən atı sürsəniz, gedərsiniz axşamatan.

Hər ikisi azuqasın götürüp atdarına qütəvvər oldılar. Sübh tezdən yola düşdülər. Gün batanda getdilər çatdılar. Gördülər ki, qırx pilləkəndə beşimci mərtəbədə qız gəzinir. Bını görəndə Məlik Məmmədin az qaldı, ürəyi getsin. Məlik Əhməd bını tutdu, birəz təsəlli verdi. Dedi:

– Özünü toxtat.

Qız da Məlik Məmmədi görən kimi min könüldən aşıx oldı. Bı qız Məlik Əhmədə dedi:

– Ey oğlan, maa çox paçcahlar aşıxdı. Amma qardaşdarım gəldikcə, onnarın qoşının qırdırıp. Ancax saa indi bir şey öyrədəcəyəm. Mənim bir taxdam var ki, gərək onı elə axıdasan suya dəymiyə. Bir də bir qazanım var, yeddi dəmirçi hərəsi bir küncündə otırıp çəkic döyür, bılların səsi bir-birinə getmir. Gərək onı qaldırıp götürəsən bir gilə də su yerə düşmüyə. Mən də qardaşdarıma demişəm ki, hər kəs o taxdanı axıtsa, o qazanı da doldırıp götürsə, ona gedəciyəm. O sizə deyəcək ki, "bı taxdanı axıt, bı qazanı da doldır". Onda sən de ki, "Taxda! Gülü Qahqah eşkinə, nə sən suya dəy, nə su saa". Qazanı da doldır, denən: "Qazan! Gülü Qahqah eşqinə qalx." O özü qalxacax. Onda o da məni saa verər.

Axşam oldı bının qardaşdarı gəldi. Gördü ki, iki oğlan otırıp. Birinin sifətinnən, elə bil, Rusdam qəbirdən dirilip gəlip. Böyük qardaş dedi ki, mənim bacımın bir taxdası var, onı gərək elə axıdasan ki, nə taxta suya, nə su taxdıya dəymiyə. Bir də qazanı var; yeddi dəmirçi hərəsi bir küncündə çəkic döyür, onın səsi bir-birinə getmir. Onı da suyunan doldurasan elə gətirəsən ki, bir gilə də su yerə düşmiyə. Əyər onnarı eliyə bilməsəniz, ikinizin də boynınızı vırdıracıyam. Eliyə bilsən, bacımı verəcəyəm.

Axı, qız da bılları örgətmişdi Oğlan qazanın qulpunnan yapışdı. Basdı suya doldurdu, dedi:

– Gülü Qahqah eşqinə, qazan, qalx!

Qazan qalxdı. Sora taxdanı götürdü, atdı suya. Dedi:

– Taxda, Gülü Qahqah eşqinə, nə sən suya dəy, nə su saa!

Bəli, taxda başdadı sudan birəz qəlbi axmağa.

Bir molla gətirtdilər qızın kəbinin kəsdirdi Məlik Məmmədə. Məlik Məmməd qızınan evdə oturup söhbət edirdi həmişə. Şikara da bı qızın yeddi qardaşı, bir də Məlik Əhmədlə gedirdi. Bir gün Məlik Məmməd otırıb qızınan söhbət edirdi. Məlik Məmməd birdən əlin vırdı bının kürəyinə, gördü bir yumuru var. Dedi:

– Ay qız, deyəllər hər gözəldə bir ayıb var, səndə də bu yumru?

Qız dedi:

– O eyb deyil. Maa bir ağ dev aşıxdı. Qırx ildi onı dutup salmışam tilsimə. Bı tilsimin haçarrarıdı. O tilsim qırx evdən ibaratdı.

Məlik Məmməd o saat dedi:

– Gərək o evləri acıb, o devi maa gösdərəsən.

Qız dedi:

– Gəl, aşdırma. O qapıları aşsam, o məni götürüp aparacax. Məlik Əhməd də dayanmıyacax, gələcək o devin dalınca. O dev də çox hənirsiz devdi.

Nə qədər elədi olmadı. Dedi:

– Məlik Məmməd, gəl aşdırma, aşsam, ta məni görmüyəcəksən.

Məlik Məmməd dedi:

– Xeyr, aç!

Qız otuz doqquzun aşdı qırxıncıda dedi:

– Məlik Məmməd, gəl aşdırma.

Dedi:

– Xeyr, aç.

Qız dedi:

– Qapını açan kimi, o dev məni aparacax, gəl aşdırma.

Dedi:

– Xeyr, aç görüm.

Qız qapını aşdı. Açan kimi dev qızı götürüp, ya Əli mədət getdi. Məlik Məmməd qaldı lavud. Nətər eliyim, necə eliyim.

Bı qalsın bırda. Sizə kimnən xəvər verim, Məlik Əhmədgildən. Bıllar gördülər dev qızı aparır. Bı qızın qardaşdarı dedi:

– Əvin dağılmasın, Məlik Əhməd, qızı dev apardı.

Əhməd o saat atın minib üz çəvirdi bılların dalınca.

Məlik Əhməd dedi:

– Qırx günün səfərinə gedirəm. Qırx günəcən gəldim, gəldim. Gəlmədim, heç.

Bı üz qoydu getməyə. O qədər getdi ki, çıxdı bir şəhərə. Bırda gördü, bir adam var. Adına Əhmədi-Kəmxörəy deyirlər.

Dedilər:

– Yarım put düyünün xörəyin yeyir. Onın üçün ona Əhmədi-Kəmxörəy deyirlər. Əhmədi Çilingi adında bir adam varıdı. Bı Əhmədi-Kəmxörəyiynən Əhmədi Çilingi, Məlik Əhmədi apardılar bir quyunun başına. Kəndiri bının belinə bağladılar, salladılar quyunun içinə.

Bı girdi gördü ki, dev başın qoyub qızın dizinin üstdə yatıp. Qız Məlik Əhmədi görən kimi dedi:

– Vay, Məlik Əhməd, nəyə gəldin bıra. Bı bir məlundi ki, oyansa səni öldürəcək.

Oğlan dedi:

– Sən dinmə!

Qız dedi:

– Məlik Əhməd, sən gətir, bını yavaşca öldür.

Dedi:

– Mən namərt döyüləm, namərtdiynən adam öldürəm. Mən mərtdiynən öldürəciyəm, – deyip, qılıncını sivirdi. Başdadı devin dabanın oymağa. Dev yuxudan bidar olub qıza bir şapalax çəkdi ki, niyə qoyırsan məni milçək yeyə.

Məlik Əhməd bir “Allahı əkbər” nalası çəkdi ki, az qaldı, dağ-daş titrəsin. Dev yuxudan ayılıb əlin atdı Məlik Əhmədin toqqasınnan yapışdı. Yeddi dəyirman daşın bir daşa nəsb eləmişdi. Bını getdi qalxızdı, gətirdi ki, Məlik Əhmədin başına salsın. O saat Məlik Əhməd firsəti fot eləməyip bir qılınc çəkdi devin başınnan. Devin başı iki parça olub canı cəhənnəmə vasil oldı.

Bırdan qızı da götürüp gəldi quyunun ağzına.

Qıza dedi:

– Sən çıx.

Qız dedi:

– Mən çıxsam səni quyuda qoyup, məni aparallar.

Məlik Əhməd dedi:

– Xeyr, çıx.

Qız dedi:

– İndi ki belədi, mən çıxıram. Əgər səni quyuda qoysalar, al bı düdüyü çal. Onda özü bir qarış, saqqalı iki qarış gələcək, deyəcək ki, “bir də çal”. Onda sən de, “məni çıxart, bir də çalım”. Havax onı çalsan, o saat yanında hazır olacax. Nə isdəsən hazır edəcək.

Bı qızı bir sandığa qoydı bağladı. Dedi:

– Çəkin.

Bıllar çəkdilər. Gördülər bı bir qızdı ki, heç olmıyan kimi. Qızı götürüp getdilər. Məlik Əhməd qaldı quyuda. Bı düdüyü çaldı, o saat özü bir qarış, saqqalı iki qarış gəldi, dedi:

– Nə qəşəng çaldın! Bir də çal!

Dedi:

– Məni bırdan çıxart, çalım.

Gətirdi bını çıxartdı. Çöldə düdüyü bir də çaldı.

Özün yetirdi yavaş-yavaş bı şəhərə. Gördü Əhmədi-Kəmxörəyi qıza toy eliyir özinə. Qız da deyir:

– Gərək mənim özümün qızıl mecmeyim, qızıl teşdim gələ.

Bı Məlik Əhməd də gəlip bir zərgara şəyirt oldu. Bıllar bı zərgara qızıl gətirdilər ki, bir qızıl teşt, bir qızıl mecmeyi qayır. Bı zərgar dedi:

– Mən bacarmaram.

Məlik Əhməd dedi:

– Al, mən qayırram.

Bı zərgar dedi:

– Sən dünənki şəyirt nə bacararsan?

Bı dedi:

– Sənin işin yoxdı, sən al, mən qayırram.

Bı zərgar qızılı aldı. Dedi:

– Bəli, sabah gəlip apararsan...

Bıllar gedən kimi Məlik Əhməd düdüyü çaldı, özü bir qarış, saqqalı iki qarış hazır oldu. Dedi:

– Gedərsən həmən devin teştin, mecmeyisin gətirərsən.

Bı o saat gedip gətirdi. Qız gördü ki, öz teşti, öz mecmehyisidi. O saat bildi ki, Məlik Əhməd gəlip. Bı Məlik Əhməd bir də düdüyü çaldı, genə özü bir qarış, saqqalı iki qarış gəldi. Dedi:

– Gedərsən həmən devin, atın, qılıncın, geyimin gətirərsən.

Bı o saat gedip, gətirdi. Altdan geyindi, üstdən qıfıllandı, üstdən geyindi, altdan qıfıllandı. Qılıncı bağladı, qalxanı götürdü Allah, Məhəmməd, ya Əli dedi, düşdü yola. Bı Əhmədi-Kəmxörəyi də geyinmişdi ki, bəli gəlin gəlir. Atdılar gördülər, bəli bir atdı gəlir, guya Rusdam qəbirdən dirilip. Bıllar hamısı xofa düşdülər. Məlik Əhməd yetişip, Əhmədi-Kəmxörəyinin də, Əhmədi Çillinginin də boynın vırdı. Qızı da götürdü. Əhmədi-Kəmxörəyinin bir bacısı da varıdı. Bını da götürdü, üçü də atdanıp yola düşdülər.

Yeddi qardaşdar da şikardaydı. Qırx gün tamamıdı. Gördülər bıdı üç atdı gəlir. Bıllar dedilər:

– Gərək iki oleydılar, bəs niyə üçdülər?!

Gəldilər bıllar Məlik Məmmədin yanına. Bir-iki gün də bırda qaldılar. Bı devlər ehtiyat gördülər ki, yola düşsünnər, getsinnər öz vilayətdərinə. Bılları devlər cah-cəlalınan, qoşınnan yola saldılar.

Qız dedi:

– Məlik Əhməd, çox əziyyət çəkmisən, amma qoysana bir söz deyim. Paççah maa aşıx idi. O, bir at göndərəcək ki, oğlum minsin gəlsin. Minən kimi o at onı yerə vırıp öldürəcək. At gələndə onı sən vır öldür. Onnan sora bir qızılquş göndərəcək. O da Məlik Məmmədin gözün çıxardacax. Onı da öldürərsən.

O at gələn kimi vırdı atı öldürdü. Quşu da göndərdi. Onu da bir ox yayınan vırdı, bını da öldürdü.

Qız dedi:

– O çox cadukunnuk bilir. Bir ismi-əzəm oxıyıp olacax bir ilan, girəcəy bir otağa. Məlik Məmməd o otağa girəndə vıracax, öldürəcək. Onda sən, Məmməd girməmiş o ilanı da öldür. Paççah ölsün.

Paççah əmr elədi ki, oğlum girsin o otağa. Onı onnan ötəri tikdirmişəm.

Məlik Əhməd tez gedip gördü, atası ilan olub ki, Məlik Məmmədi vırsın. Məlik Əhməd fürsəti fot vermiyip ilanı öldürdü. Məlik Məmməd gördü ki, Məlik Əhməd ilanı vıranda, bı ilan bir nərə çəkdi ki, "ay Məlik Məmməd, bəs adam atasın öldürər". Gördü ilan öldü, düşdü yerə. Məlik Məmməd dedi:

– Bı sirdən məni agah elə, görüm, o atı, o quşu, o ilanı niyə öldürdün?

Dedi:

– Gəl xəbər alma, sənin yolında mən başımı fərmanda qoymışam. Sən gəl bı sirri aşma.

Dedi:

– Xeyr, de!

Bı dedi:

– Sənin atan o qıza aşıxıdı. O qıza nə qədər qoşun göndərir ki, alsın. O qoşını qırdırdı. Atı onın üçün göndərmişdi ki, sən minəndə vırsın öldürsün! – deyəndə Məlik Əhməd yarıyacan daş oldı. – Quşu da onın üçün öldürdüm ki, sənin gözünü tökəcəydi. – Toqqıyacan daş oldı.

Dedi:

– Bəs ilanı niyə öldürdün?

Dedi:

– O da sən içəri girəndə səni vıraceydı, ona görə öldürdüm.

Bı tamam daş oldı, yıxıldı qapının ağzına. Məlik Məmməd onnan sora başdadı atasının taxdına paççahlıx elədi.

Ay ötdü, il dolandı, bının külfətinin boyuna uşax düşdü. Bı barıhəmlin vaxt oldı ki, yerə qoydı. Gəldi bının bir oğlı oldı. Bir müddətdən sora bı uşax üzə gülən oldı. Gördü, üç göyərçin gəldi, qondu ağaca. Biri dedi:

– Bacı, bı daşı tanıyırsan?

Bılar dedi:

– Yox.

Dedi:

– Bı filan naxırçının oğlıdı ki, Məlik Məmmədin yolında nə zəhmətdər çəkdi.

O biri dedi:

– Bacı, bı uşağın nənəsi qıyıp o daşın üstdə başın kəssə, o asqırıp durar.

Arvad o saat dedi:

– Yüz belə oğlan qurban olsın Məlik Əhmədə.

Başın kəsdi. O saat asqırdı durdu. O biri göyərçin də dedi:

– İndi belədi? Mən də bir lələk salasıyam. Uşağın başın qoysın üstdə onı çəksin, olacax anadan doğma.

Bı lələyi götürdü çəkdi uşağın başına, oldı anadan doğma.

O yedi yerə keçdi. Siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü: Biri sənin, biri mənim, biri də nağıl deyənin.

## AXVAY

Gülnahar mahalında Şəftən adlı orta sinli bir kişinin Gülxar adlı bir arvadı var idi. Şəftənin peşəsi naxırçılıq, Gülxarın peşəsi evdarlıq idi. Bu ər-arvad çox zəlil bir halda ömür sürürdülər. Hal belə ikən Gülxar barihəmlin yerə qoydu. Bunun bir misilsiz gözəl oğlu oldu. Oğlanın adını Xanoğlan qoydular. Xanoğlan böyüyüb tainki on səkkiz yaşına yetişdi. Günlərin bir günündə Xanoğlan Gülnahar şəhərinə gəzməyə çıxmışdı. Şəhərdə gəzərkən güzarı Gülnahar şəhərinin şahı olan Qəni şahın qəsrinə düşdü, nə gördü? Qəsirdə Qəni şahın qızı Püstə xanım özünə yeddi qələm ilə zinət verib, qızıl sandal üstündə qərar tutubdur. Xanoğlan bir belə mah-camalı görcək, bir könüldən min könülə aşıqı-giriftar oldu.

Xanoğlan oradan evlərinə gəlib əhvalatı ata-anasına nəql elədi. Sora, atasından təmənna etdi ki, Qəni şahın qızı Püstəxanımı ona alsın. Şəftən dedi:

– Ay bala, biz bir naxırçı babayıq, xalxın mal-qarasını otarıb, bir qarnı ac, bir qarnı tox dolanırıq. Amma o bir dövlətli şahdır, sana qızını verməz.

Xanoğlan ərz elədi ki, mehriban ata, sən get elçi daşının üstündə otur, onlar nə mətləbə gəldiyini xəbər aldıqda əhvalatı söylərsən. Görək nə cavab verirlər. Biz də ona görə iş görək. Ata-anası hər ikisi ona nəsiyyət verdilər, razı olmadı. Axırda biçarə Şəftən canına doyub şahın qızına elçi getməgə razı oldu. Odur ki, gedib elçi daşının üstündə oturdu. Qəni şah elçi daşının üstündə Şəftəni gördükdə, hüzuruna

gətirdib nə istədiyini soruşdu. Biçarə Şəftən qorxa-qorxa əhvalatı şaha söylədi. Şah xəbər aldı:

– Ay kişi, oğlun nə peşə sahibidir?

Şəftən ərz etdi ki, şah sağ olsun, heç bir peşə sahibi degildir.

Şah Şəftəndən bu sözü eşidib buyurdu:

– Onda mən qızımı sənin o peşəsiz oğluna verə bilmərəm.

Şəftən dinməz-söyləməz şahın hüzurundan mürəxxəs olub evinə gəldi. Əhvalatı Xanoğlana nağıl etdi. Xanoğlan bu tərəfdən məyus, digər tərəfdən şad olub atasına ərz elədi ki, dur bu yaxında olan Bəndər şəhərinə gedək. Orada məni bir peşəyə qoy. Bəlkə baxtım yar ola, bir yaxşı peşə öyrənib həm sizləri bu zəlil yaşayışdan xilas edəm, həm də öz mətləbimə çatam.

Atası oğlunun bu ağıllı sözünə çox şad olub, Xanoğlan ilə birgə Bəndər şəhərinə yola düşdü.

Bunlar o qədər getdilər ki, axırda yorulub yolun kənarında olan bir çeşmənin başında belə zəlil ömür sürməklərindən, yorulmaqlarından ax-vay çəkib oturdular. Bu ata-oğul sərçəşmənin üstündə oturmaqda olsunlar, gəl sana Axvaydan xəbər verim.

Axvay cadugarlığı son dərəcə gözəl bilən bir sehirbaz idi ki, dünyada ikinci bir tayı yox idi. O cürbəcür sifətlərə girməgə mahir bir cadugər idi. O həmən sərçeşmənin yanında zirzəmidə özünə ev bina edib var-yox Süsən adlı qızı ilə o məkanda sakin idi. Həmən vəqt gah insan sifətində, gah da heyvan sifətində sehirbazlıq ilə xəlqin gözünü bağlayıb aldığı pullar ilə ömür keçirərdi. Axvay bəzən də bir peşəkar sifətində xəlqin içərisinə girib hiylə yolu ilə mahalın adamlarından girinə keçəni o zirzəmiyə aparıb, o adam sehirbazlığı ögrənənə qədər işlədərdi. Oylə ki, sehirbazlığı ögrəndi, dərhal öldürərdi.

Qəzadan Şəftən ilə Xanoğlan axvay çəkib həmən sərçeşmənin başında oturanda bunların Axvay sədası onun qulağına çatıb onların yanına gəldi. Dedi:

– Məni nə üçün çağırırdınız?

Bunlar and içdilər ki, biz səni çağırmamışıq.

Axvay dedi:

– Bəs nə üçün axvay dediniz? Mənim adım Axvaydır.

Şəftən ərz elədi ki, ay canım bizim elin qaydəsidir, hansı vaqt işi düz gəlməyəndə, ya yorulanda axvay çəkərlər.

O sehirbaz buyurdu, yaxşı, bəs söyləyin görüm, haradan gəlib, haraya gedirsiniz?

Şəftən əhvalatı tamamən ona söylədi. Axvay işdən xəbərdar olub buyurdu:

– Ay kişi, qorxmayın, işiniz yaxşı rast gəldi. Mən hər cürə peşə bilirəm. Özüm də çox şəyird saxlayıb ustad edib buraxmışam. Hərgah könlün istəsə, oğlunu mana ver, yaxşı peşə sahibi edim.

Bunun bu sözünə ata-oğul razı oldu. Axvay buyurdu ki, indi sən get, oğlun qalsın. Tainki üç ilə bunu yaxşı peşə sahibi edim. Sora gəl bu sərçeşmənin üstündə Axvay deyif çağır. Onda mən yanında hazır olacağam.

Səftən göz üstə deyib oğlu ilə, Axvay ilə görüşüb evlərinə qayıtdı.

Bu yandan Axvay öz-özünə dedi:

– Hələ üç il bu oğlanı işlədərəm. Hərgah, sehirbazlığı ögrəndi, öldürərəm, ögrənmədi atası gələndə verərəm aparar.

O zalım bu fikirdən sora Xanoğlan ilə evinə gəldi.

Süsən gördü atası özüynən bərabər bir oğlan gətirir. O oğlanın gözəllikdə misli yoxdu. Qızın o cavana heyifi gəlib dedi:

– Gərək nə töhr olsa, bu oğlanı atamın cəngindən xilas edəm.

Axvay Xanoğlanı evinə gətirdikdən sora o gündən şagirdlik işi ilə məşğul etdi. O gündən başlayıb Xanoğlan sehirbazlıq örgənirdi. Bir gün Axvay şəhərə çıxmışdı. Zirzəmidə Süsən ilə Xanoğlan qalmış idi. Süsən Xanoğlanı yalqız görüb yanına gəldi, onun belə avara olmasının sirrini ondan soruşdu. Xanoğlan o xoş sifət Süsənə bütün başına gələn qəza-qədəri nəql etdi. Süsənin o muraz üstündə olan cavana rəhmi gəlib, atası Axvayın bütün sirlərini ona açdı. Xanoğlan son dərəcədə heyrətlənib dedi:

– Süsən, heç bir belə biinsaf, zalım adam olarmı?

Süsən dedi:

– Heç heyrətdə qalma! Əgər söylədiyim sözlərə inanmayırsansa, gəl göstərim!

Xanoğlan göstərməgə razı olduğundan Süsən onnan atasının adamları qırıb doldurduğu dama getdi. Xanoğlan nə gördü? Bu dam başdan-başa meyit ilə doludur. Əhvalı belə görcək yüzünü Süsənə dutub ərz etdi:

– Ey rəhmikar! Bə mən nə tər edim ki, həm bu insan cəlladının əlindən salamat qurtarım, həm də sehirbazlığı örgənim?

Süsən dedi:

– Ay cavan, hər nə təhər olsa, bu zalım səni həlak edəcək, bircə bu hiylə ilə sehirbazlığı ögrənib bunun əlindən salamat qurtarasan. O nə qədər səndən xəbər alsa ki, oğlum, sehirbazlığı örgəndinmi, sən cavab ver ki, usta mehriban, xeyr. Bəlkə bu minval ilə üç ilin müddətində sehirbazlığı örgənib, atan gələndə gedəsən.

Xanoğlan Süsənin bu tədbirinə "afərin" deyib, sehirbazlıq işinə məşğul oldu. O yandan Axvay şəhərdən gəlib buyurdu:

– Oğul, bir neçə gün bundan qabaq sana dediyimdən və indiyə qədər nə eləmisən. İndi di görüm, göstərdiyim işi qurtardınmı? İndiyə tək sehirbazlıqdan nə örgənmisən?

Xanoğlan Süsənin çəkdiyi tədbir nəticəsində ərz elədi:

– Usta mehriban, göstərdiyin işi qurtarmışam, amma sehirbazlıqdan bir şey bilməyirəm.

Axvay zahirən məyus, batilən xoşhal olub oğlanı işlədirdi. Üç il tamam olana qədər Xanoğlan sehirbazlığı örgəndi. Ancaq Axvay xəbər alanda, "bir şey örgənməmişəm" deyirdi.

Üç il tamam olduğundan Xanoğlanın atası Şəftən gəlib həmən sərçəşmənin üzərində Axvay deyib səsləndi. Bunun sədası Axvayın qulağına yetişcək, Xanoğlan ilə onun yanına gəldi. Onun ilə görüşdikdən sora buyurdu:

– Ay kişi, sənin bu oğlun nə yaman korazehin imiş. Bu üç ildə həm mənim zəhmətimi itirdi, həm də sənin yanında məni xəcalət elədi. Özü üçün də bir yurd-yuva yapa bilmədi.

Şəftən ərz elədi ki:

– Ay usta, tanrı səndən razı olsun. Hər adamın zehni bir olmaz, nə etməli, örgənməyib, özünə etdi. Eylə onun sağ-salamat əlimə gəlməsi böyük bir işdir. Necə mən naxırçılıq edib bir qarnı ac, bir qarnı tox dolanıram, bu da elə dolanar.

Şəftən Axvay ilə bir qədər söhbətdən sora çıxıb oğlu ilə evinə gəldi. Xanoğlan bu üç ilin ərzində başına gələn qəza-qədəri ata-anasına təmamən nəql etdi. O yazıqlar oğlanlarının bir belə zəhmət, məşəqqət ilə peşə sahibi olmasını görüb çox şad oldular.

Xanoğlan dedi:

– Ey mehribanlarım, hələ şad olmanız qabaqdadır. İmdi, atacan, mən hər nə desəm, əməl et. Çox keçməz, mal-dövlətimiz həddən ziyada olar.

Şəftən razı oldu.

Xanoğlan dedi:

– Mehriban ata, mən sehir oxuyub, bir yaxşı öküz olacam. Aparıb bazarda satarsan, amma başımın ipini verməzsən. Axşam olcaq, yenə də evimizə gələcəm.

Şəftən "göz üstə" dedi.

Xanoğlan sehirbazlıq ilə bir yaxşı öküz oldu. Atası ipindən tutub bazara apardı. Bazarda ən bahalı öküzün qiymətinə satdı. Ancaq başından ipi açmaq istədikdə, alan şəxs razı olmadı. Şəftən min belə öküz də olsa, ipi vermiyəcəyini söylədi. Nəhayət, ipi açıb evə gəldi. O yandan öküz alan adam evinə aparıb xal-xala saldı. Xanoğlan o qədər gözlədi ki, kişi evə getdi. Bu zaman sehir oxuyub, insan sifətinə düşdü. Oradan da evlərinə gəldi.

Xanoğlanın belə sehirbazlığına ata-anası heyran qalıb dedilər:

– Ey nuri didəmiz, hərgah səni biz əmələ gətirməsəydik, onda sənə bəni-insan demək olmazdı.

Xanoğlan şad olub, sabah yenə bir qiymətdar heyvan surəti ilə satılacağını ata-anasına vəd etdi. Bu surət ilə Xanoğlan hər gün başqa bir heyvan donuna girərək baha qiymətlərə satılırdı.

Nəhayət, bu minval ilə onlar son dərəcə böyük dövlətə malik oldular. Bu mal-dövlət ilə doqquz mərtəbə saray qurdurdular. Ona görə də Xanoğlanın atası naxırçılıqdan əl çəkib, taciryana libas geydi. Ağsaqqal, qarasaqqal mərəkəsində əgləşirdi.

Genə bir gün adəti üzrə Xanoğlan sehir oxuyup bir dəvə oldu. Dedi:

– Ata, sayıq ol ki, osarımı məni alan adama verməyəsən.

Şəftən "göz üstə" deyib dəvənin osarından tutaraq bazara apardı. Qəzadan, o günü Axvay da bir çodar surəti ilə bazara çıxmışdı. Nə gördü, həmən Şəftən kişi dəvə satır. Yanına gəlib diqqət ilə baxdıqda sehirbaz olduqdan gördü ki, öz sehiridi. Xanoğlan dəvə sifətinə girmişdir. O dəvəni Şəftən özü dediyi qiymətə alıb ovsarından tutaraq getmək istədigdə, Şəftən dedi:

– Çodar qardaş, osarı verməyərəm.

Axvay dedi:

– Ay kişi, dəli olmamısan ki, satılan heyvanın başından ip açmazlar. Çünkü onda o heyvandan xeyr görmək olmaz.

Şəftən dedi:

– Bizim elin qaidəsi belədir ki, onlar mal satanda heyvanın başında ip verməzlər.

Axvay osarı kişidən almağ üçün bağırıb bütün bazar əhlini oraya tökdü.

Dedi:

– Ay həzarat, bu hansı məzhəbdə görünmüşdü ki, dəvənin başından osar açıla. Nə qədər istəyir osara da pul verim. Ancaq açmasın. Bazar əhli dedi ki, biz də görməmişik. Şəftən həm bazar əhlinin sözünə inanıb, həm də o haramzadanın çox pul verməsinə aldanıb dəvəni osarlı verib evinə getdi.

Axvay dəvənin osarından tutub zirzəmiyə gətirdi. Süsən uzaqdan Xanoğlan olduğunu tanıyıb zirzəmidə olan kəsərtiləri tamam gizlətdi. Bu yandan Axvay dəvənin osarını Süsənə verib onu öldürmək üçün kəsərti gətirməgə getdi. Süsən firsəti qənimət bilib dəvənin osarını buraxdı. Bu zaman Xanoğlan sehir oxuyub bir dövlət quşu sifətinə düşdü. Oradan uçub Qəni şahın başına qondu. Bu yandan Axvay çox gəzdigdən sora kəsərti gətirib gələndə nə gördü, dəvə yoxdur. Axvay qəzəblənib Süsəndən dəvənin necə olduğunu soruşduqda, Süsən dəvənin bir dövlət quşu sifətinə düşüb Qəni padşahın barigahına tərəf uçduğunu söylədi. O sehirbaz Süsəndən bu sözü eşitcək, sehir oxuyub bir dərviş donuna girib Qəni padşahın sarayının yanında çadır qurub oturdu.

Qəni şah dərvişi hüzuruna gətirtdi. Dedi:

– Ağa dərviş, nə mətləbin varsa, söylə, rəva edim.

O nəbakar ərz etdi:

– Şah sağ olsun. O başına qonan dövlət quşunu mana versəniz, bütün mətləbimi rəva etmiş olarsınız.

Şah dərvişin belə bir namünasib mətləbinə qarşu dedi:

– Ağa dərviş, bu quş dövlət gətirən quşdur, ona görə dövlət sahiblərindən başqa kimsəyə verilməz.

Axvay əl çəkməyib ərz etdi ki, ey Gülnaharın şahı, bil, agah ol, hərgah bu quşu mana verməsən, burada hər gün sana o qədər qarğış edəcəyəm ki, tainki, taxtı-tacın tarı-mar ola. Şah dərvişin qarğışından qorxub, nəhayət, quşu tacından götürüb ona verməg istədigdə, quş bir qab darı olub yerə töküldü. Dərviş bir çiçəyi toyuq olub o darını dənləməgə başladı. Toyuq darının hamısını dənləyib qurtardı, yalınız bir dənəsi şahın taxtının altına sıçradığından, toyuğun gözü görmədi. O

darı bir tülkü olub, toyuğun həm cücələrini, həm də özünü boğub öldürdü. Bundan sora insan sifətinə düşdü.

Şah bu vəqəəyə təəccüb edib buyurdu:

– Oğlan, söylə görüm, bu vəqeənin səbəbi nədir?

Xanoğlan dedi:

– Şah sağ olsun, buyurun şəhər əhli səgirən-kəbirən təmamən buraya cəm olsunlar, sora vəqeənin səbəbini söyləyim.

Qəni şah vəzirə-vəkilə, əyan-əşrəfə, sərbazlara fərman verib bütün Gülnahar şəhərinin əhalisini oraya topladılar. Şahın fərmanı mövcibincə camahat ilə Xanoğlanın ata-anası da şahın barigahına gəldilər. Bu zaman Xanoğlan Axvayın özünün başına gələn qəza-qədəri axıratək Gülnahar əhlinə, Qəni şaha nağıl etdi. Şah, Gülnahar əhli Xanoğlanın bir belə şücaətinə "afərin" dedilər.

Qəni şah buyurdu:

– Bala, indi ki sən bir çox zəhmət, məşəqqətdən sora bir belə sənət sahibi oldun, gözümün ağı-qarası olan qızım Püstə xanımı sənə verirəm.

Xanoğlan ondan bu sözü eşidib əl-ayağından öpüb dedi:

– Var-dövlətin həddən ziyadə olsun, ancaq sizdən bir təmənnam var.

Şah dedi:

– Hər nə təmənnam var söylə! Can-baş ilə rəva edərəm.

Xanoğlan Ayvayın qızı Süsənin ona etdiyi yaxşılığı, onun zirzəmidə kimsiz-kimsənəsiz qaldığını şaha nəql etdi.

Şah buyurdu ki, oğlum bir qədər sərbaz götürüb Süsənin məkanına get, onu şəhərə gətir. Hərgah oğlum Rəhman Süsəni bəyənsə, Süsən də oğlumu bəyənsə, Rəhmana alaram.

Xan oğlan razı olub, bir qədər sərbaz ilə Süsənin məkanına getdi. Süsəni Qəni şahın hüzuruna gətirdi. Şah Süsəni gördükdə başa düşdü ki, doğrudan da şahzadalara layıq bir qızdır. Şah Püstə xanımı hüzura gətirdib, Süsəni zər-ziba ilə bəzəyib qırx incə qız ilə seyran bağına çıxmağını söylədi.

Püstəxanım şahın fərmanına görə, Süsəni həmən minval ilə bəzəyib qırx incə qız ilə seyran bağına seyrə çıxdı.

Bunlar seyran bağında seyir etməkdə olsunlar, gəl sana şahzadə Rəhmandan xəbər verim. Şahzadə Rəhman qırx gün idi ki, vəzirin-vəkilin oğlu ilə başında qırx atlı Lalə dağına ava çıxmışdı. O cavan

lazımı qədər av edib, şadi-xürrəm Gülnahar şəhərinə qayıdarkən şəhərin civarında bir qədər yorğunluqlarını almaq üçün seyran bağına düşdülər.

Əhli süvarlar atlara baxmağa məşğul ikən, şahzadə Rəhman bağın digər tərəfində olan çarhovuzda əl-üzünü yumağa getdi. Qəzadan, Süsən də qızlardan ayrılıb həmən çarhovuzda əl-üzünü yuyurdu. Bu əsnadə Şahzadə Rəhman çarhovuzun başına yetişdi. Nə gördü hovuzun başında; bir ceyran misal qız əl-üzünü yuyur. Dünyada misli manəndi yoxdur. Qaşları kaman kimi, kiprikləri ox kimi, gözləri qan piyaləsi kimi, sifəti on dörd gecəlik ay kimi, burnu Hind fındığı kimi, dişləri mirvari kimi, dodaqları şeh düşmüş qızılgül yarpağı kimi, zənəxdanda həbəşi xallar mixək danəsi kimi, sinə Səmərqənd kağızı kimi, qollar qarğı kimi. Xülasə, qəddi-qaməti insan üzü görməmiş meşələrdə bitən sərv ağacı kimi. On dörd hörük siyah zilfi dal gərdənini bürümüş, insan görəndə valeh olur.

Belə bir vəsfəgəlməz gözəli görən şahzadə Rəhman bir könüldən min könülə aşiqi-giriftarı oldu. O yandan Süsən əl-üzünü yumaqdan fariq olub başını yuxarı qaldıranda nə gördü, bir cavan nörəsidə çarhovuzun kənarında eşq şərabını içmiş bir aşiq kimi məst olmuş bir halda məlul-məlul ona baxır. Bu iki dil pərvərlər eşq dəryası olan çarhovuzun başında bir-birlərinə baxdıqda ürəklərinə məhəbbət oxu sancıldı. Hər ikisi bir-birinə aşıq giriftar oldular. Şahzadə Rəhman bitab bir halda ərz etdi:

– Ey nazənin! Söylə görüm, sən hansı bağın gülü, hansı baxçanın bülbülüsən?

Süsən şahzadəyə cavab olaraq dedi:

– Ey cavan, dərdsiz aşıq ağlamaz. Əlbət bir dərdi var ağlayır. İmdi sən öz əhvalını mana söylərsən, mən də hansı bağın gülü, hansı baxçanın bülbülü olduğumu sana söylərəm.

Bu zaman şahzadə Süsənin yaxınına gəlib öz əhvalatını təmamən ona nəql etdi. Süsən də başına gələn qəza-qədəri təmamən şahzadəyə nəql etdi. Bundan sora hər ikisi bir-birlərinə söz verib ayrıldılar.

Şahzadə süvarıların içinə, Süsən isə qızların içərisinə getdi. Şahzadə süvarıların yanına yetən kimi onlar ilə bahəm şəhərə varid oldu. Bu yandan Püstə xanımla Süsən qırx incə qız ilə atasının barigahına getdi.

Şahzadə Rəhman Süsənə aşıq olduğunu atasına bildirdi. Şah Süsənin yanına xacə göndərib Rəhmana getməsini soruşdu. Süsən də Rəhmana aşıq olmasını söylədi. Bu əsnədə Şəftən şahın yanına gəlib gəlinini aparmağa izn istədi. Şah isə can-baş ilə izn verdi. Hökm verib bütün Gülnahar şəhərini əlvan çiçəklər ilə bəzətdirdi. O yandan Şəftən şahın izin xəbərini oğluna yetirəcək Xanoğlan başında bir qoç cavan ilə şahın barigahına getdi. Şahın hökmü mövcibincə bütün Gülnahar əhli şahın məclisinə gəldilər. Ziyafətdə yeyib-içdikdən sora Püstəxanımın əlini Xanoğlanın əlinə, Süsənin əlini şahzadə Rəhmanın əlinə tapşırıb dağıldılar.

Xanoğlan Püstə ilə, şahzadə Rəhman Süsən ilə, eşi-işrətə məşğul olub var-dövlət içərisində ağ günlər ilə ömür sürməgə başladılar.

# BƏXTİYAR

Bir vardı, biri yoxdu. Bəxtiyar adında bir qoca kişi vardı. Bu kişi çox kasıb idi. Günnərin bir günündə bı kişi işdən yornux gəlib bir az çaddan, kütdən yeyip yatdı, gecə bir yuxu gördü, səhər tezdən buran kimi dedi:

– Ay arvad, heybəyə birəz caddan[1], şordan qoy, səfərə gedəcəyəm.

Arvat dedi:

– A kişi, nə səfər, hara səfər eliyirsən?

Dedi:

– Ay arvat, sən kişi işinə qarışma. Bir yuxu görmüşəm, gedirəm o yuxunu tapam.

Arvat nə qadır elədi ki, a kişi dəli olma, yuxuya da tamah olarmı? Hər gecə adam min cürə yuxu görür. Olmadı, kişi dedi:

– Ay arvat sən qarışma, mənim dediklərimi hazır elə.

Arvat qalxıb yol tədariki gördü.

Kişi heybəni atıb çiyninə, arvadnan xudahafizləşib düşdü yolun ağına. Çəkib çarığın davanını, qırıp yerin amanını, günə bir mənzil, teyi mənazil, "nağıllarda mənzil olmaz". Az getdi, çox getdi, getdi çıxdı bir biyabana. Gördü bir çoban ağır bir sürü qoyun otarır. İtinən eşşəyinən hamı binəsi bırdadı. Bir təhərinən ilə işdərin görünən yaynı özün saldı qoyunun içinə, çobana yaxınnaşıb dedi:

---

[1] C a d – darı çörəyi

– Bərəkətdi olsun, çoban qardaş. Diyəllər: "Azdın çobana, yoruldun sarvana". Neçə gündür yol gəlirəm, birəz cadım var qurudur.

Çoban o saat biləylərin çirmiyib bir neçə qoyun sağdı, bir qavlama süd gətirib qoydu Bəxtiyarın qavağına. Bəxtiyar caddan doğruyub qavlamıya toqqanın altın bərkidib istədi getsin, çoban dedi:

– Əmi, hardan gəlib, hara gedirsən? Bəlkə yolun uzaxdı, gözdə birəz yağdan, yavannıxdan hazırrıyım.

Bəxtiyar gördü bı çoban bir yaxşı oğlandı, dedi:

– Bala, mən bir yuxu görmüşəm, gedirəm o yuxunun dalıncan.

Çoban dedi:

– Əmi, nə yuxudu? Yuxunun da dalıncan gedəllərmi? Adam hər gecə min yuxu görür.

Kişi dedi:

– Bəli, oğul, mənim o gördüyüm yuxu elə yuxudu ki, onun dalıncan getməlidi.

Çoban dedi:

– Əmican, gətir o yuxunu maa sat.

Kişi dedi:

– Nə olar, sataram.

Yuxunu çobana açıb, bütün sürüsünü, hətta itini, eşşəyinəcən aldı. Addarın da dəyişib – çoban oldu Bəxtiyar, kişi də oldu Məlik Məmməd.

Bəli Bəxtiyar heybəni atıb çiyninə bir biyabannan getməydə olsun. Məlik Məmməd də qoyununu yığıb yavaş-yavaş öz kəndlərinə tərəf gəldi.

Paho, arvad baxdı gördü ki, əri bıdı çoban olub bir sürü qoyun otara-otara gəlir. Dedi:

– A kişi, bı qoyun kimindi, indi də camahat diyəcək Bəxtiyar kişi ağsaqqal çağında gedib xalxa çoban oldu.

Məlik Məmməd dedi:

– Ay arvat, dəli-zad olmamısan, əvvəla xalx kimdi, mən çoban olam. Qoyun özümündü, yuxum ilən deyişmişəm. İkiminci, mən Bəxtiyar deyiləm, mənim adım Məlik Məmməddi.

Arvat elə bildi ki, bı öz əri deyil, ona oxşayan bir adamdı. Dedi:

– Qardaş, bağışda, mən helə bildim sən mənim ərim Bəxtiyarsan, ona görə belə dedim.

Məlik Məmməd arvadının gicdiyin əvvəldən bilirdi, dedi:

– Ay arvat, karıxmısan? Bəs mən sənin ərin deyiləm, kiməm? Yuxunu dəyişəndə adımı da dəyişmişəm.

Arvat o saat başa düşüb, səvindiyinnən ərinin başına fırfır fırlanırdı. Elə bil cəhrə talğalağıdı.

Məlik Məmməd ilən arvadı bırda kef eləməkdə olsunnar, sizə kimnən xəbər verim Bəxtiyardan. Bəxtiyar az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib axşamçağı çıxdı bir şəhərin qırağına. Onda yetdi gördü ki, şəhərin dərvazaları təzəcə bağlanıb, Bəxtiyar nə qədər elədi, onu şəhərə bıraxmadılar. Çəkilib yoldan kanar difarın dibində həybəni qoydu başının altına uzandı.

Çoban adamdı, çöldə yatmağa adət eləmişdi, o saat yuxu tutdu yatdı. Səhərə yaxın gördü bir adam, "Bəxtiyar, Bəxtiyar!" diyib çağırırlar. Ağa durup o yana, bı yana baxıb gördü ki, kim isə qalanın başınnan çağırır. Qalanın başınnan genə səsləndi ki, niyə durubsan, gəl tut, səhər açılır, mən də bu saat gəlirəm. Bəxtiyar irəli yeriyip gördü bir xurcun ağır şeydi. Xurcunu yerə qoydu. Bir az keçmişdi ki, gördü həmən adam yedəyində iki at bir balaca qapını açıb hasardan çıxdı çölə, genə qapını bağladı. Üzün Bəxtiyara tutub dedi:

– Nə durmusan, tez ol, xurcunu bağla atın tərkinə! Min atına, qaçax. Bı saat atam duyuğ düşər, ikimizi də tutdurub öldürdər. Axşamnan bəri neçə dəfə gəlib qalanın başına işarə iləmişəm, görmişəm yoxsan, axırmıncı dəfə istəyirdim evə qayıdam. Ağlıma gəldi ki, bəlkə yatıb, qayıdıp difarın başınnan baxam görəm nə, yatırsan! Neynək, tay əvdən çıxmışam. Tez ol, atı min qaçax.

Bəxtiyar qalmışdı mat, bilmirdi bı neçə sirdi. Nə desin, bının adın bı hardan bilir, bı adam kimdi? Axırda "Allaha pənah" diyib mindi atı, bı adam qabaxcan, Bəxtiyar da bının dalıncan başladılar qaçmağa, ta sabah oluncan qaçdılar.

Səhər açıldı. Bəxtiyar gördü bı bir qızdı ki, yemə-işmə bının xəttixalına, gül cəmalına tamaşa elə. Qız dönüb geri baxanda nə gördü, bının dalıncan gələn elə bir çobandı ki, heç ömründə alça turşsu dadmayıb. Qız mat-məhətdəl qalıp bilmədi nə disin. Birəz sora özün yığışdırıp dedi:

– Oğlan, adın nədi?

Bəxtiyar cavab verdi:

– Xanım, neyə gecə özün çağırmırdın, indi bəs niyə tanımırsan?

Qız dedi:

– Sənin də adın Bəxtiyardı?

Oğlan dedi:

– Xanım, bəli, necə məndən də başqa Bəxtiyar var idi?

Xanım cavab verdi:

– Bəli, var idi. Bil, agah ol, ey Bəxtiyar, mən həmən şəhərin paççahının qızıyam. Adıma da Pərizad xanım diyəllər. Atamın vəkilinin bir oğlu vardı, adına Bəxtiyar diyərdilər. Biz bir-birimizi sevirdik. Amma atam məni Bəxtiyara vermək istəmirdi. İstəyirdi versin vəzirin oğluna. Mən də ona getmək istəmirdim. Odur ki, Bəxtiyarnan vədə qoyduq ki, bu gecə həmən sən yatan yerə gəlsin, mən də atam-anam yuxuya gedəndən sora gəlim qaçax. Mən dediyim kimi elədim, iki at, iki xurcun da qızıl götürüb gəldim. Qəzadən vəkilin oğlu qorxub, ya nə olubsa gəlmiyip, sən gəlib həmən yerdə yatıbsan. Mən də səni vəkilin oğlu Bəxtiyar bilip qaçmışıq. İndi neyniyək, qismət beləymiş, sür atı qaçax atamın torpağından. Nə qədər ki çıxmamışıq, atdan düşə bilmərik.

Bəxtiyar ata bir şallaq vırıb düşdü qabağa, qız da onun dalıncan. Qaçhaqaç "asta qaçana imam qənim olsun" axşama kimi qaçdılar. Axşam günün saraltısı qalanda, başqa bir paççahın yerinə çatıb atdan düşdülər. Birəz çörəkdən-zaddan yedilər, dincəldilər.

Qız öz-özünə dedi:

– Əyər Bəxtiyar çoban olubsa, genə onnan bir şey olar, yox əyər naxırçı olubsa, axırı heç olacaq. Vaxtıkan bını əkmək lazımdı.

Üzün Bəxtiyara tutub dedi:

– Bəxtiyar, dədəmin güclü ılxısı var, de görüm, ılxıçı ola bilərsənmi?

Bəxtiyar dedi:

– Ilxı nədi?

Pərizadxanım dedi:

– Belə bı altımızdakı atın sürüsünə ılxı diyillər. İlxını otarana da ilxıçı diyillər.

Bəxtiyar dedi:

– Xeyr, xanım, mən ılxıçılıq bacarmaram.

Qız dedi:

– Onda atamın çoxlu qaramalı var, naxırçı ola bilirsənmi?

Bəxtiyar dedi:

– Xanım, qaramal nədi, necə olan şeydi, onu da bilmirəm, mən naxırçı ola bilmərəm.

Qız dedi ki, neynək, dəvəçi ol, o da helə, qatırçı ol, o da helə.

Qız gördü Bəxtiyar bılların heç birin görmüyüp, dedi:

– Bəxtiyar atamın çoxlu qoyunu var, de görüm, qoyuna getmək bacararsanmı?

Qoyun adı tutulan kimi Bəxtiyarın sümüyü oynamağa başladı. Dedi:

– Xanım, elə mənim dədə-baba sənətim çobançılıxdı. Qoyunun lap ölüsünün üstə düşsəm, diriltdərəm.

Qız bı cavabı eşidənnən sora bir qədər təskinlik tapdı. Gecənin bir qədərini yatdılar, sabah olana yaxın atdara minib düşdülər yolun ağına. Dərələrdən yel kimi, təpələrdən sel kimi at qavıp gün cəşt olanda bir şəhərə çatdılar, atdarın sürüp bir karvansaraya düşdülər. Atdarın rahlıyıb xurcunnarın götürüp bir hücrə kiralayıp, hücrədə qərar tutdular.

Qız dedi:

– Bəxtiyar, karvansara elə yerdi ki, ora hər adam gəlir. İndi sən çıx bazara bir dəllal tap, əvvəl atdarı sat, onnan sora bir minasip mənzil tut yığışax ora, gətirdiyimiz maldan-dövlətdən xırıd eliyip yeyək dolanax, Allah kərimdi.

Bəxtiyar o saat şəhərə çıxıp bir dəllal tapıb atdarı yaxşı qiymətə satdı. Sora da xana baxçalı-zaddı gözəl bir imarət alıp yığışdılar ora.

Pərizad xanım o saat qazı gətirdip öz kəbinin Bəxtiyara kəsdirdi. Bəxtiyarı hamama yolladı, bir dəstə taciryana paltar alıp Bəxtiyara geydirdi ki, Bəxtiyar oldu bir gözəl oğlan. Başdadılar Pərizad xanımnan kef iləməyə.

Bir müddət belə yaşayannan sora, bir gün dəllək gəlmişdi Bəxtiyarın başın qırxsın, nə təhər oldusa, gözü Pərizad xanıma sataşdı. Az qaldı bihuş olsun, bir təhərnən Bəxtiyarın başın qırxıb haqqın almağa da dayanmıyıp özün yetirdi paççaha. Dedi:

– Paççah, taxtın tarac olsun, yəhərin qannan dolsun, nə yatırsan?

Paççah dedi:

– Hə, nə var, söylə görüm!

Dəllək birinin üstə də beşin qoyup qızı o qədər tərif elədi ki, paççah görməzə-bilməzə qıza aşıq oldu.

Dedi:

– Vəzir, tədbir! Mən gərək nə təhər olsa, o qızı görəm.

Vəzir gülüp dedi:

– Qibleyi-aləm sağ olsun, onnan hasan nə var? Çağırrıx Bəxtiyarı, diyərik sabah günorta saa qonağıq. Qoyduğumuz vaxtdan bir saat qabax gedərik, qəfildən içəri girip qızı görərik.

Paçcah vəzirin tədbirini bəyənip, o saat Bəxtiyarı hüzurına çağırtdırıp dedi:

– Bəxtiyar, eşitmişik, bir yaxşı oğlansan, özün də qəribsən. Saa heç kim sataşmasın diyə, sənnən dost olmaq istəyirəm. Get hazırraş, sabah düz günorta saa qonağıx.

Bəxtiyar baş əyip geri qayıtdı. Yolnan gedə-gedə fikir edirdi ki, bı necə işdi? Taki gəlib evə çatdı. Qız baxan kimi gördü Bəxtiyar bikafdı. O saat durup Bəxtiyarın boynun qucaxlayıp dedi:

– Bəxtiyar, qadan alım, de görüm niyə bikefsan? Bı qərib eldə sən bikaf olanda gör mən nə hala düşərəm. Dərdini gərək maa diyəsən.

Bəxtiyar əhvalatı qıza mən sizə nağıl eliyən kimi nağıl elədi.

Qız o saat başa düşdü ki, bu dostuq məsələsi deyil, ayrı məsələdi, özü də əngəl dəlləkdən keçip. Bəxtiyarın ürəyin sıxmamaq üçün dedi:

– Bəxtiyar, qadan alım, niyə bikefsən, burada ki, bir pis şey yoxdu, neyə darıxırsan. Paçcahnan dost olsan, doğrudan da saa xeyri dəyər. Get bazara düyüdən, yağdan, turşudan-qırqovuldan al ver hambala getirsin əvimizə, sabaha ehtiyat görməliyik.

Bəxtiyar bazara çıxıb, tapşırılan şeyləri aldı, qayıtdı evə. O gecəni qıznan keçirdi. Səhər olan kimi başdadılar hazırrıx görməyə.

Günortıya bir saat qalmış paçcahnan vəzir qapını açıp girdilər içəri ki, paçcah qızı baş açıx, qolu çırməyli gördü. Paçcah qızı görən kimi bir ox qızın iki qaşının arasınnan qutarıp dəydi paçcahın ürəyinin başınnan. Paçcah bıyılmı ölmüş, bildirmi yıxılıb ürəyi getdi.

Vəzir təz paçcahın üzünə su səpip, birtəhər baş qarışıx ikən özünə gətirdi. Qulağına dedi:

– Oğlu ölməmiş, nə qayırırsan, özünü yığışdır.

Paçcah özün yığışdırıp gəlip otdular ocağın qırağında. Xörək hazır oldu, bir təhərnən birəz zəhərrəndilər. Sonra durup getdilər. Paçcah evinə çatan kimi üzüqoylu yıxılıp dedi:

– Vəzir, tədbir! Bağrım çatdadı.

Dedi:

– Qibleyi-aləm, nə tədbir, sabah çağırıp diyərsən ki, maa gərək cənnət alması gətirəsən, o da hardan cənnət alması tapacax, gedər ya özü gəlməz, boş da gəlsə sən boynun vurdurarsan, ayrı təhəri yoxdu. Gücnən arvadını əlindən ala bilməzsən, səbəbsiz öldürə də bilməzsən, el nə deyər? Gərək bir səbəb tapax, onu da ki, görkəzirəm.

Paçcah vəzirin rəyin bəyənip durdu oturdu.

Səhər olcax Bəxtiyarı çağırtdırıp dedi:

– Bəxtiyar, mən naxoşam, həkimlər maa cənnət alması dərman diyip. Qoçağım, gərək nə təhər olsa, maa cənnət alması tapasan.

Bəxtiyar dedi:

– Qibleyi-aləm sağ olsun, mən bir qərip adamam, cənnət almasın hardan tapım, öz vilayətinnən bələd olan bir adama desən yaxşı olar.

Paçcah qəzəplənip dedi:

– Uzun danışma, qırx günə kimi almanı gətirdin gətiribsən, gətirmədin boynunu vırdıracıyəm.

Bəxtiyar ölüsü ölmüş adam kimi qayıtdı əvə.

Qız Bəxtiyarı bı halda görəndə dedi:

– Bəxtiyar, nəyə bikefsən?

Bəxtiyar hamı əhvalatı qıza söylədi. Qız dedi:

– Qorxma, mən saa kağız verərəm, qibləyə tərəf gedərsən, üç gün gedənnən sora çıxarsan dev paçcahının vilayətinə. Mənim bacım bı paçcahın arvadıdır. Kağızı hansı devə görkəzsən səni aparacax paçcahlarının yanına, o nə disə əməl edərsən. Gərək maa söz verəsən ki, farağat duracaxsan, ta arvat-filan getirmiyəcəksən.

Bəxtiyar kağızı alıp Pərizad xanımnan görüşüp ayrıldı. Bazara çıxıb bir saz at alıp minip düşdü yola. Üç gün, üç gecə yol gedip çıxdı həmən dev paçcahın torpağına. Divlər bını gördülər, dedilər aparax bını paçcahımıza soqat, yesin.

Bəxtiyarı gətirdilər paçcahın yanına. Bəxtiyar kağızı verdi. Div gördü paho, bı öz bacanağıdı.

Dedi:

– Bəxtiyar, xoş gəlmisən! Sən hara, bıra hara?

Bəxtiyar əhvalatı paçcaha nağıl elədi.

Divlər paçcahı Bəxtiyarı qonax saxladı. Bir nəfər çağırıp Bəxtiyarı ona tapşırıb dedi:

– Bına cənnət alması lazımdır, bını apararsan hara lazımdı, ora.

Sonra div Bəxtiyarı alıp kürəyinə tənur elədi. Üç gün, üç gecə yol gedəndən sora, bir yerdə düşdü. Bir çinar görkəzip dedi:

– Pərilər paçcahının qızı gəlip orada bir bulax var, o bulaxda çiməcəylər. Birinin donun oğurrarsan, onnan sora nə disən, onu iləyəcəklər.

Bəxtiyar gəlip həmən yerdə ki, div demişdi, bılağa yavux bir kola girib gizləndi. Bir əzdən sora Bəxtiyar gördü üç göyərçin gəldi, qondu bılağın başına. Dil oldu başdadı bir-birinən danışmağa.

Böyük bacı dedi:
– Bacılar, di soyunun çimək.
Kiçik bacı dedi:
– Bacı, mən pis yuxular görmüşəm çimmiyəcəyəm.
O biriləri dedi:
– Ay bacı, ordan bıra gəlmişik, sən çimməsən, biz də çimmiyəcəyik. Gəl bizi peşiman eləmə.
Axırı kiçik bacı razı oldu. Soyundular çimməyə başdadılar.
Bəxtiyar koğanı uzadıp kiçik bacının donun çəkdi.
Qızdar çimip çıxdılar, böyük bacıynan ortancıl donnarın geydilər, kiçik bacının donu tapılmadı. Nə qədər gəzdilər, donu tapa bilmədilər. Axırı dedilər:
– Ay donu oğurrayan, səni and veririk nəyə inanırsan ona! Çıx, bizim donumuzu ver. And olsun Süleyman peyğəmbərin başının cıqqasına, nə istəsən verəcəyik.
Bəxtiyar o saat çıxıp dedi:
– İndi ki, belədi, bı saat sizdən bir neçə dana cənnət alması istəyirəm, götirin bıra, donunuzu verim.
Böyük bacı uçub o saat bir neçə cənnət alması gətirdi, verdi Bəxtiyara. Bəxtiyar da donu qaytardı qızdara, qayıtdı ki, geri gəlsin, gördü həmən donun oğurradığı qız da bının dalınca gəlir. Dedi:
– Ay pərizadə, sən hara gəlirsən?
Pərizad dedi:
– Bəxtiyar, maa adam əli dəyib, məni bir də pərilər öz işlərinə qoymazdar.
Bəxtiyar dedi:
– Nəyniyək, gəl gedək.
Qız bir löh oxuyub Bəxtiyarı elədi bir çöp, aldı cıynağına uçub gəldi düşdü Bəxtiyarın qapısına, genə də bir löh oxuyub Bəxtiyarı elədi adam. Girdilər içəri.
Xanım gördü paho, Bəxtiyar bıdı pərilər paççahının da qızın gətirir. Güldü dedi:
– Bəxtiyar, saa gedəndə nə tapşırmışdım?
Bəxtiyar dedi:
– Xanım, vallah, mən gətirmədim, özü gəldi.
Pərizad xanım gülüp dedi:
– Neynək, gəlip, xoş gəlip. Mən də qəribdim həmsöhbət ollux.

Bı qızın da adı Hurizad idi.

Səhər tezdən Bəxtiyar istədi almaları aparsın paçcaha, Hurizad dedi:

– Bəxtiyar, almaları hara aparırsan?

Bəxtiyar:

– Paçcaha, – deyə cavab verdi.

Qız dedi:

– Bəxtiyar dəli olmamışsan ki, o almaları hər kəs yesə, on beş yaşında cavan olar. Ala saa ona oxşayan üç alma verim, apar paçcaha, gətir oları özümiz yəyək.

Bəxtiyar almaları alıp qoydu cibinə. Cənnət almaların özdəri yedi, o biri almaları gətirib verdi paçcaha.

Paçcah gördü paho, Bəxtiyar sağ qayıtdı. Doğrudur, üzdən güldü isə də, amma qarnına sancı doldu. Almanı Bəxtiyardan aldı. Bəxtiyar paçcahdan izin alıp qayıtdı evinə.

Olar yeyip-içməkdə olsun, sizə kimnən xəbər verim, dəlləkdən.

Dəllək gəlmişdi Bəxtiyarın başın qırxmağa, gördü paho, Bəxtiyar bir qız gətirip vallah, yemə-işmə onun xətti-xalına, gül camalına tamaşa elə. O biri qız bının əlinə su tökməyə yaramaz. Bir təhərnən Bəxtiyarın başın qırxıp özün yetirdi paçcaha. "Paçcah sənin taxtın tarac olsun, yəhərin qannan dolsun. Həmən Bəxtiyar bu dəfə bir qız gətirip o qabaqkı heç onun əlinə su tökməyə də yaramaz".

Paçcah dedi:

– Ah, yox.

Dəllək dedi:

– Başın üçün, necə diyirəm, elədi ki var.

Paçcah dedi:

– Vəzir, nə təhər eləyək ki, bir o qızı da görək.

Vəzir dedi:

– Onnan asan nə var, genə qabaqkı kimi qonax gedərik, görərik.

O saat paçcah xəbər yolladı ki, Bəxtiyar sabah axşam saa qonağıx, hazırraş. O biri gün paçcah axşam demişdi, günorta gəldi. Qəflətən elə gəldi ki, qızdarın ikisini də gördü.

Paçcah gördü bı qız, doğrudan da o birinnən min kərrə gözəldi. Bir təhər çörəyi-xörəyi yeyip, qayıtdılar geri.

Paçcah dedi:

– Vəzir, tədbir. Mən paçcah, gədənin biri belə gözəllərə sahab ola, mən ola bilmiyim.

Vəzir dedi:

– Qibleyi-aləm, heç fikir eləmə, onu elə yerə göndərərəm ki, geri qayıtmaz. Sabah sən çağır Bəxtiyarı, deyinən ki, gərək maa Gülüstani baği-İrəmnən gül gətirəsən, yoxsa boynunu vırdıracıyam. Onda o gedər, bir də qayıtmaz.

Səhər tezdən paçcah Bəxtiyarı çağırtdırıp dedi:

– Bəxtiyar, qoçağım, görürəm sən bir qoçaq oğlansan, gərək maa Gülüstani-İrəmnən gül gətirəsən. Qırx gün saa möhlətdi, getməsən boynun vırılacaxdı.

Bəxtiyar gördü ki, danışıqdan bir mırad hasıl olmıyaçax, bıkef, məlul qayıtdı evə. Qızdar gördülər Bəxtiyar çox məyusdı, dedilər:

– Bəxtiyar, niyə bikefsən. Sən bilmirsən ki, sən bikef olanda bı qərib ölkədə biz nə hala düşürük?

Bəxtiyar əhvalatı qızdara nağıl elədi.

Hürizad gülüb dedi:

– Elə bı?

Bəxtiyar dedi:

– Bəli.

Qız dedi:

– Onda, gəl qırx günün hələ otuz doqquzunu yeyək-içək, kef iləyək, qırxımcını da Allah kərimdi.

Başdadılar otuz doqquz gün kef elədilər, qırxımcı gün Hurizad xanım bir löh oxuyub Bəxtiyara dedi:

– Bı löhü oxuyarsan gözünü yumarsan, ha vaxt ayağın yerə dəydi, açarsan, ora Gülüstani-İrəmdi. Bir dəstə qız görəcəksən. Ala bı kağızı, onların içində bir Güli Qah-Qah xanım var, ver ona, o saa gül verər. Amma bizi yadından çıxartma. Bir də bizə gərək söz verəsən ki, farağat duracaxsan. Qız-zad gətirmiyəcəksən. Sora genə bu löhü oxuyarsan, olacaxsan öz evimizdə.

Bəxtiyar löhü alıp düz çıxdı şəhərin kənarına, löhü oxuyup gözdərin yumdu. Bir vaqt gördü, ayağı yerə dəydi, gözin açıp gördü paho, bı elə bir yerdi ki, diyəsən cənnətin bir guşəsidir. Bülbüllər cəh-cəh vırır, güllər pəh-pəh vırır, tamaşasınnan doymax olmır. Bı halda gördü, paho bıdı qırx incə qız çala-çala, oynaya-oynaya gəlir. Diyəsən, Allah-taala xoş günündə, xoş saatında bılları yaradıp.

Bəxtiyar bılları görəndə paçcah da, gül də – hər şey yadından çıxdı. O qədər tamaşa elədi ki, bir vaqt gördü ki, az qalıp gün yatsın,

kağızı-zadı da yadından çıxardıp, tez geri döndü. Löhü oxudu, gözün yumdu. Bir vaxt gördü əyağı yerə dəydi, gözün açıp gördü ki, öz qapısındadı. İstədi evə girsin, birdən yadına düşdü ki, ədə sən nəyə getmişdin. Bəs gül hanı, kağızı niyə vermədin. İstədi qayıda Hurizad xanım daldan çağırdı:

– Bəxtiyar, hara qayıdırsan. Bir gəl evə, görək nə olub?

Bəxtiyar qayıtdı evə. Gördü paho, həmən Gülüstani-İrəmdə gördüyü qız bıdı bırda oturub.

Hurizad xanım dedi:

– Bəxtiyar, nə qayırdın?

Bəxtiyar əhvalatı nağıl elədi:

– Qayıdırdım, gül gətirim.

Bını eşidən kimi Güli Qah-Qah xanım güldü. O saat ağzınnan bir neçə tabax gül düşdü. Dedi:

– Bəxtiyar, di götür, apar paççaha ver.

Bəxtiyar gülü götürüp apardı paççaha.

Paççah gördü paho, Bəxtiyar ölmiyip, bıdı güli gətirdi. Genə qarnına sancı doldu. Tay bir şey demədi.

Bəxtiyar da rüsxət alıp əvinə gəldi, qızdarın üçünü də başına yığıp başdadı söhbətə.

Səhər açıldı yenə dəllək gəldi Bəxtiyarın başın qırxmağa. Gördü nə, bı dəfə bir qız gətirip ki, o biriləri bının yanında heç nədi.

Bəxtiyarın başın ala-tələsik qırxıp özünü yetirdi paççaha, dedi:

– Paççah evin yıxılsın, xəbərdən xəbərin var? Sən Bəxtiyarı göndərmişdin ki, ölsün, o bı dəfə bir qız gətirip, o biriləri bının yanında bir köpiyə də dəyməz.

Paççah bını eşidən kimi dedi:

– Vəzir, gərək bir də Bəxtiyargilə qonax gedək, görək bı qız necədi?

Bəli, Bəxtiyara xəbər yolladılar ki, filan gündə, filan saatda saa qonağıx, ehtiyatını gör.

Bəxtiyargil ehtiyat görməkdə olsunlar.

Paççah vəziri də götürür elə gəldi ki, qızdar xəbər tutmamış evə girip qızın üçünü də gördü. Ta paççahın boğazınnan xörək keçə bilərdimi? Bir təhər xörəkdən daddı. Durup qayıtdılar əvlərinə.

Paççah dedi:

– Vəzir, ta mən tifladım, bir əlac. Bını hara göndəririk, sağ gəlir. Neyniyək ki, bının başın batıraq?

Vəzir dedi:

– Qibleyi-aləm, neyniyə billik? Əyər bını öldürdüp arvadın alsan, bı olacax ağ. Xalx da üz döndərər. Gərək bını elə yerə göndərək ki, bir də bıralara gələ bilməsin. Taki, sən də mətləbinə çatasan.

Paççah dedi:

– Hara göndərək?

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bını göndərək qırx qullunnu at südü gətirsin, bəlkə at bını birtəhər eliyə.

Paççah vəzirə "afərin" diyib təzədən Bəxtiyarı çağırtdırdı. Dedi:

– Qoçağım, mən naxoşam, həkimlər mənə Qırx qullunnu at südü dərman diyip. Gərək nə təhər olsa onu gətirəsən.

Bəxtiyar fikirrəşip dedi:

– Paççah sağ olsun, onda maa qırx gün möhlət ver, görüm başıma nə gəlir?

Paççah möhlət verib dedi:

– Bax, qırx günün tamamında gəlməsən, boynunu vırdıracağam.

Bəxtiyar genə bikef evə qayıtdı. Qızdar Bəxtiyarı bı halda görəndə hərəsi bir yannan yapışıp dedi:

– Bəxtiyar niyə bikefsən, bı nə haldı?

Bəxtiyar əhvalatı nağıl elədi.

Hurizad dedi:

– Elə bı? Hələ gəl otu, otuz doqquz gün kef eliyək, ondan sora Allah kərimdi.

Bıllar otuz doqquz gün kef elədi, qırxmıncı gün Hurizad xanım bir löh oxuyub Bəxtiyara dedi:

– Çıxarsan şəhərdən kanara, bı löhü oxursan, gözdərini yumarsan. Gözüvü açanda görərsən ki, bir təpənin dibindəsən. Təpənin başında bir qalaça var, gedərsən o qalaçaya. Görərsən bir qoca nurani kişi var, o qədər qocalıp ki, onu pambıq arasına büküb qoyuplar uşax kimi beşiyə, onun pambığın dəyişdirərsən. Yırğalayarsan, yatar, dincələr. Ayılanda dərdini ona deyərsən. O saa əlac elər.

Bəxtiyar qız diyən kimi elədi. Gözün açanda gördü doğrudan da bir təlli dibindədi. Yavaş-yavaş təllin başına çıxıp gördü bir qalaça var, qalaçaya girip gördü qız diyən kimi bir pirani qoca kişi var. O qədər qocalıp ki, yumağa dönüb. Tez qocanın yerin aşdı, pambığın dəyişdi, qız deyən kimi rahat elədi.

Qoca yatıp dincələnnən sora gözün aşdı dedi:

– Bəxtiyar, bala xoş gəlmisən! Nə dərdin var?

Bəxtiyar təəccüb elədi ki, bı hardan məni tanır, irəli yeriyib ədəbnən dərdin qocaya dedi.

Qoca dedi:

– Bala, bı çox qorxulu işdi, o paççah səni öldürmək istəyir. Amma qorxma, mənim qulağımın kirinnən bir az pambığa sürtüp götürərsən. Qarğıdan da bir ney qayırarsan, gün çıxanında bir göl var, gedərsən o gölün qırağında bir quyu qazarsan, girərsən o quyuya. Günortanın istisində atdar gələcək su içməyə, yaxınnaşanda pambığı atarsan suya, su köpürüyüp qalxacax. Onda atdar hürküşüp çəkiləcəklər. O saat sən başdarsan ney çalmağa, onlar toplanacaxlar quyunun başına. Yalvaracaxlar ki, bir də çal, onda sən denən ki, and iç ki, maa dəymiyəcəksən, çıxım çölə çalım.

Hər nəyə and içsə inanma. Amma, elə ki, su pişigi Qəribin canına and içdi onda çıxarsan. Sora nə desən, əməl edər.

Bəxtiyar yavaş-yavaş gəlib gölün qırağında bir quyu qazdı. Qoca diyən kimi qarğıdan da bir ney qayırıp gətirdi. Girdi quyuya, başdadı gözdəməyə, elə ki, günorta oldu, Bəxtiyar gördü, bıdı at dalında da qırx qulunu gəlir. Elə ki gölə yaxınlaşdılar, Bəxtiyar pambığı atdı gölə, gölün suyu o saat köprüyüp qalxdı. Atdar bını görən kimi xorruyup geri çəkildilər. Bəxtiyar başdadı tütəyi bir əl çalmağa. O saat atdar yığışdılar quyunun başına. Bəxtiyar təz kəsdi. Ana at başdadı yalvarmağa ki, genə çal.

Bəxtiyar dedi:

– And iş ki, maa dəymiyəcəksən, özü də nə disəm yerinə yetirəcəksən. Çıxım çölə, nə qədər istəyirsən, çalım.

At hər nəyə and işdisə, Bəxtiyar qəbul eləmədi, dedi ki, ta Qəribin canına and içməsən, çıxmaram.

At əlacı kəsilip dedi:

– Qəribin canı üçün saa dəymərəm, özü də nə istəsən müzayiqəm yoxdu.

Bəxtiyar bını eşitcək, çölə çıxdı, başdadı tütəyi çalmağa. Birəz çalannan sora dedi:

– Bilirsən nə var? Bizim paççahımız azarrıdı, ona sənin südünü dərman diyiblər. Gərək maa o südünnən verəsən.

At dedi:

– Bilirsən, nə var? O paçcah səni öldürmək istəyir. Gəl sən min mənim dalıma. Bərk-bərk tut yalmanımnan. Sən diyinən bıdı atı getirmişəm, gəlin özünüz sağın, qoy gəlsinnər özdəri sağsınnar, görək sağa biləcəklərmi? Hər kim mənim südümü yesə, həmişə cavan olar. Onlara bir gilə də süd verməyəm. Sənin işin o olsun ki, məni paçcaha təhvil vercək get, onnan oyanı mənim işimdi.

Bəxtiyar at diyən kimi elədi, minip atın belinə, gözdərin yumup yapışdı atın bərk yalmanınnan. At qanad bağladı. Bir saat çəkmədi at dedi:

– Bəxtiyar, indi gözdərini aç!

Bəxtiyar gözdərin açıb gördü, paho öz şəhərindədi. Atı sürüp paçcahın qapısına səs elədi ki, atı gətirmişəm. Paçcah nə qədər istəyir, sağsın.

Paçcah çıxıp gördü nə, Bəxtiyar bıdı atı qulunnarıynan gətirip. Dedi ki, atdarı bir möhkəm yerə salın, axşam sağarıx. Atı möhkəm bir yerə salıp, Bəxtiyarı da bıraxdılar getdi evinə.

Elə ki, Bəxtiyar o yana getdi, at qulaxların qələm eliyip harayasa sıçradı. Qulunları da dalıycan üz qoydu bərri-biyabana. Ay qoymayın! Ay qabağın kəsin! Nə olacaqdır? At qabağına gələnin də başın üzüp çıxdı getdi. Xəbər paçcaha getdi ki, atdar belə-belə qaçdı.

Paçcahın dərdi atdaydı ki, onun qarnının ağrısı ayrı idi. Dedi:

– Nə bilim, qaçdı. Qaçanı saxlamax olmaz ki.

O biri tərəfdən vəziri çağırıp dedi ki, vəzir, belə olmaz. Bını hara yollasax, genə gəlip çıxacaq, tədbir! Amma bı dəfə gərək elə tədbir tökəsən ki, bı tələf ola, yoxsa mənim bağrım çatdar.

Vəzir birəz fikirləşib dedi:

– Qibleyi-aləm sağ olsun, sabah Bəxtiyarı çağırtdır, de ki, gərək gedip o dünyadan mənim ata-anamnan xəbər getirəsən. Onda görək nə eləyəcək?

Paçcah tədbirdən şad olub səhər olan kimi Bəxtiyarı çağırtdırdı. Dedi:

– Bəxtiyar, görürəm, sənnən qoçax adam yoxdu, gərək gedip o dünyadan mənim ata-anamnan maa bir xəbər gətirəsən.

Bəxtiyar dedi:

– Paçcah, ədalətinə güc eləmə, o dünyadan da xəbər getirmək olar?

Paçcah bını eşitcək qəzəblənip çığırdı ki, mən saa nə buyururam əmələ gətirməlisən. Qırx gün saa möhlətdi. O dünyadan maa xəbər

gətirdin gətirdin, gətirmədin boynunu elə vırdıracağam ki, bir damcı qanın yerə düşməsin.

Bəxtiyar mürəxxas olup gəldi əvinə.

Arvatlar baxdılar gördülər nə? Bəxtiyar ölüp, yerdən götürən yoxdu. Dedilər, Bəxtiyar, gənə nəyə fikirlisən, nə olup, dərdini bizə de bilək.

Bəxtiyar dedi:

– Ay arvat, paççah, hələ bir nadəhim iş buyurup ki, heç əlacı yoxdur. Maa deyir ki, gərək o dünyadan gedip ata-anamnan bir xəbər gətirəsən, gətirməsən qırx günnən sora boynu vırdıraciyəm. İndi bilmirəm nə eləyim?

Güli Qah-Qah xanım dedi:

– Bəxtiyar, qorxma, get paççaha deyinən ki, odun toplatsın səni də qoysun üstə. Dörd tərəfinə nefit töküb od vursun. Odunu ancax çox yığdır ki, sən ortasında oturasan, tüstü hər tərəfi bürüyəndə mən səni löh oxuyup bir çöp iləyip gətirəciyəm evə. Ta sorasıynan sənin işin yoxdu. Gör, o paççahın başına nə iş getirəciyəm?

Bəxtiyarın kefi başdadı şıtırıx çalmağa. Özün paççaha yetirip dedi:

– Qibleyi-aləm, buyur şəhərdənkənar bir yerdə qırx qatır yükü odun yığsınnar, mən sabah çıxıp odunun üstə oturacıyəm. Dörd tərəfdən neftdiyip od vırsınnar, gedip o dünyadan saa xəbər getirəciyəm.

Bəxtiyar qırx yük demişdi paççah buyurdu, yüz yük yığdılar. Dedi qoy lap sümükləri də yansın.

Səhər Bəxtiyar, paççah, vəzir, vəkil hamı camahat yığışıp gəldilər həmən yerə. Bəxtiyar çıxıp otdu həmən odunun üstə, dörd tərəfdən nefti tökdülər. Paççah öz əliynən od vırdı. Odun alışıp tüstü bürüyəndə Güli Qah-Qah xanım bir göyərçin olup düşdü qondu Bəxtiyarın yanına bir löh oxuyup Bəxtiyarı elədi bir çöp, vırdı caynağına birbaş gətirdi evlərinə, bir löh oxuyup genə ilədi adam. Dedi

– Bəxtiyar indi bı şəhərdə lap qoca kimdi, onu tap gətir bıra.

Bəxtiyar şəhəri gezip elə bir qoca tapdı ki, tay qocalıqdan yeriyə bilmirdi, bını gətirdi evə. Xanım bınnan soruşdu ki, paççahın atasını görmisənmi?

Qoca cavab verdi ki, lap babasını da görmüşəm. Güli Qah-Qah xanım şad olup qələm kağız alıp paççahın yeddimci babasınnan bərinin siyahisini tutdu, vəzirin də elə, vəkilin də elə, dəlləyin də elə. Götürdü onların dilincə paççaha bir kağız yazdı ki, üzün qara olsun oğul, Bəxtiyarcan da yoxsan, o gəldi bizi yoxladı, sən bizi bir yada da salmırsan?

Birin vəzirə, birin vəkilə, birin də dəlləyə öz ata-analarının dilinnən belə yazdı, bir şeyə qoyup asdı Bəxtiyarın böyrünnən. Otuz doqquz gün keçdi, qırxmıncı gün tezdən gəlip külün lap ortasında Bəxtiyarı basdılar külə, arvatdar özdəri qayıtdılar əvlərinə.

O biri tərəfdən paççah vəzirə əmr elədi ki, gedək o külü dağıtdırax Bəxtiyarının sümüyünün yanığından-zaddan tapax, hamı bilsin ki, o ölüp, sora arvatdarın toyuna başdarıx.

Belçidən, körəncidən götürüp gəldilər külün yanına. Paççah buyurdu, külü başdadılar kürüməyə. O qədər kürüdülər ki, lap ortaya çatanda, Bəxtiyar birdən külün ortasınnan pırtdayıp çıxdı. Gördülər paho Bəxtiyar bıdı sağdı, böyründə də yekə bir bağlama var.

Bəxtiyar paççaha baş endirip dedi:

– Qibleyi-aləm sağ olsun, ata-ananı gördüm, kefləri çox sazdır, yaxşıdı, behiştə oturup bir yannarınnan bir süd gölü axır, bir yannarınnan bal gölü axır. Özləri də sənnən çox gileylidilər.

Vəzir dedi:

– Mənimkini də gördünmü?

Bəxtiyar dedi:

– Səninkini də, vəkillərin də, dəlləyin də ata-anasını gördüm. Hamısı paççahın ata-anasının qulluğunda idilər. Özdəri kağız verib, bıdı bağlamadadır, açın oxuyun.

Bağlamanı aşdılar. Gördülər pə, ulu babalarından bəri hamısının bırda kağızı var, hamısı da giley eləyir ki, sizin üzünüz qara olsun! Bəxtiyarcan da olmadınız, o gəldi, heç olmasa bir bizi gördü. Siz heç yadınıza da salmırsınız.

Paççah dedi:

– Bəxtiyar, mən getsəm, nə qədər odun lazımdı?

Bəxtiyar dedi:

– Qibleyi-aləm sağ olsun, sən böyük adamsan, gərək sənin odunun on dəfə artıx ola.

Vəzir də, vəkil də hamısı dedilər ki, biz də gedəciyik.

Bəxtiyar dedi:

– Onda gərək odunu lap çox yığasınız.

Paççah əmr elədi bir dərənin arasına o qədər odun yığdılar ki, ta heç olmıyan kimi. Sora vəzir, vəkil, dəllək, paççah hamısı bütün qohum-əqrəba, arvat uşaxlarıynan yığışıp otdular. Odunun üstən dörd tərəfdən neft töküb odu vırdılar. Hamısı çığır-çığır yandılar. Qırx gün-

nən sora gəlip külü dağıtdılar. Gördülər ki, paçcah nə gəzir, vəzir nə gəzir. Hər yerdən bir ütülmüş adam sümüyü tapılır. Bildilər ki, yanıplar. Yığışıp özdərinə paçcah tikdilər.

Bəxtiyar başdadı bırada paçcahlıx eləməyə. Elə ədalətnən paçcahlıx elədi ki, camahat dedi:

– Ay Allah, elə bı iş çoxdan olaydı? Hamısı Bəxtiyara duaçıdı.

Bir gün Bəxtiyar divanxanadan evə gəldi, gördü xanımlar üçü də yatıplar, ta bılları qıymadı oyatsın, elə yıxılıp üçünün ortasında bir şeyə bürünüp yatdı. Bir vaxt Hurizad xanım oyandı, gördü bir dələngavazın biri yıxılıp bırda yatıp, o biri qızdarı da oyadıp əhvalatı dedi olara. Olar da baxıb gördülər doğrudur. Məsləhət qoydular ki, öldürsünnər. Birdən Pərizad xanım dedi:

– Ay aman, dəymiyin bı elə Bəxtiyar özü olacaxdı, çünki o çobannıx eliyip. Bı yatış onun yatışıdı. Qızın biri sağda, biri solda, biri də Bəxtiyarın başının üstə oturup o qədər gözdədilər ki, Bəxtiyar oyandı.

Bəxtiyar bıları görən kimi qah-qah çekip güldü. Qızdar dedilər ki, Bəxtiyar niyə gülürsən? Gərək bizi agah eliyəsən.

Bəxtiyar dedi:

– Bırda bir sir var.

O yuxu ki, mən almışdım, indi zahir oldu, ona gülürəm.

O kişi görmişdi ki, bir gün onun sağınnan bir ay, solunnan bir yıldız, başının üstünnən bir gün doğub. İndi Hurizad xanım gün, Güli Qah-Qah ay, sən də yıldızsan. Mənim də əsli adım Məlik Məmməd idi ki, o kişiynən dəyişmişdim.

## AVÇI MƏHƏMMƏD

Günlərin bir günündə əyyami sabiqdə bir danə Məhəmməd var idi. Günlərin bir günündə Məhəmməd çöldə yer şumlayırdı. Məhəmməd qan-tər içində evə döndü və anasına dedi:

– Ana! Doğrusun di. Mənim atam nə sənət sahibi idi?

Anası dedi:

– Oğul, vallah, atan avçı idi. Hər gün ava çığanda yorğun gəlib üzü üstə düşüb, torba barıt çeşmədən savayı heç bir iş görmürdü.

Məhəmməd deyir:

– Atamnan qalma şeyləri getir görüm.

Məhəmmədin anası köhnə bir sandıq açdı, onın içinnən bir tüfəng, bir torba barıt çıxartdı. Oğluna uzatdı. Məhəmməd gün çıxmamışdan tüfəngi götürüb yola düşdü.

Məhəmməd az gedib çox girləndi, bir mənzil başına düşdü. Gecəni orada eliyib səhər yola çıxdı. Ərzuman dağların aşdı, bir də nə gördü, qabağına bir ceyran çıxdı. Məhəmməd bir xeylaq ceyrana baxdı dedi:

– Mən bu ceyranı diri dutacağam.

Atın çapdı, ceyran toz elədi, bir qalaçadan içəri girdi. Məhəmməd də bunun ardınca.

Məhəmməd bir də gördü ki, burada saçınnan bir qız bağlanıb ki, nə bilim, dünya gözəli. Ceyran düz onun yanına qaçdı. Qız ceyranı tumarladı. Birdən Məhəmmədi gördü, dedi:

– Ey oğlan, sən hara, bura hara? Ağ div gəlib səni bu saat ətin aşıxcaq, qanıvı qaşıxcan eliyər.

Məhəmmədin gözi qıza düşdü, dedi:
– Axtardığımı tapdım! Mən sənin üçün gəlmişəm.
Qız dedi:
– Sən ta ağ divi öldürməsəm, məni apara bilmiyəcəksən.
Məhəmməd dedi:
– Sən mənə de divin canı haradadır?
Qız əliylə göstərdi:
– Bax orada, şişə içindədir.
Məhəmməd şişəni əlinə alıb devin canın yerə vırdı. Bu vaxt ağ div bir nərə çəkib göydən yerə düşdi. Məhəmməd ceyranı, qızı, xeyli ləl-cəvahirət götürüb evlərinə gəldi.
Anası oğlunu qucaqladı. Məhəmməd dedi:
– Bax, ana, qızı sənə tapşırıram.
Qız Məhəmmədə dedi:
– Bu ceyranı apar padişaha hədiyyə.
Məhəmməd ceyranı padişah üçün apardı. Padişah ceyranı görüb vəziri çağırdı.
– Vəzir, apar bu oğlana min tümən xəzinədən ənam ver.
Vəzirin gözləri kəlləsinə çıxdı, min tümən Məhəmmədə verib dedi:
– Oğlan, bu min tümənnən bizə bir şey ver.
Məhəmməd dedi:
– Heç qara quruş da desən olmaz.
Məhəmməd pulları yığıb, qızın yanına gəldi. Qız sual etdi:
– Məhəmməd, ceyran üçün nə qədər pul verdilər.
– Min tümən.
Qız dedi:
– Nə səfih padişahdır. Onın qiyməti min tüməndir?
Bir gün padişah vəzirə dedi:
– Vəzir, mən padişah, sən vəzir, o imarət, bu da ceyran.
Vəzir Məhəmmədi tora salmaq istəyirdi.
– Qibleyi-aləm sağ olsun, doğrudur. Əmma...
Padişah dedi:
– Kişi açıq danış. Nə, əmma? Vəzir, bu ceyranın, bu bağın qızıl gümüş ördəgi də olmalıdır. Kim onu gətirə bilər?
Vəzir dedi:
– Qibleyi-aləm sağ olsun, ceyranı gətirən, ördəgini də gətirər.

Padişah əmr verdi ki, bu saat avcını bura gətirsinlər. Adam yolladılar, Məhəmmədi tapdılar. Məhəmməd gəldi, baş əydi. Padişah dedi:

– Ey oğlan, get bu saat haradan olursa olsun, bu ceyranın qızıl-gümüş ördəgini də tapmalısan. Yoxsa, başuvı daldan vurduraram.

Məhəmməd evə döndü. Qız xəbər aldı:

– Məhəmməd, nə var?

Məhəmməd dedi:

– Zalım oğlu vəzir, yıxıb evimi.

Qız dedi:

– Nə olıb?

Məhəmməd dedi:

– Padişah qızıl-gümüş ördəgləri istiyir.

Qız dedi:

– Heç fikir etmə. Sən get padişaha deginən ki, mən gedirəm, əmma sənə vəzirin atdarından birin, vəzirin pulundan bir tuluq yağ, bir tuluq da bal versin.

Məhəmməd padişahın yanına getdi, dedi:

– Qibleyi-aləm sağ olsun, mən gedirəm. Gərək mənə vəzirin bir yaxşı atından, bir də xüsusi vəzirin öz pulundan alınmış bir tuluq yağ, bir tuluq bal verəsən.

Padişah vəziri çağırtdırdı.

– Vəzir, durma, Səmənd atınla bir tuluq yağ, bir tuluq bal verginən avçıya.

Vəzir baş əgdi getdi. Vəzir Məhəmmədi yola saldı. Məhəmməd birbaş qızın yanına getdi.

Qız dedi:

– Hə gəldin?!

Məhəmməd dedi:

– Bəli, gəldim.

Qız dedi:

– Məhəmməd buradan gedərsən, düz bir gün yolun var. Bir günü vurarsan başa, sora qabağuva bir böyük dağ gələcək, dağı aşarsan. Bir xeylaq düzəngah gedəcəksən, sora qabağuva güllük gələcək. Həmən güllüklərdə atını bağlayıb bir az piyada gedərsən. Qabağıva bir çeşmə çıxacaq. O çeşmənin suyunu qurudarsan. həmən bal ilə yağı o çeşməyə tökərsən. Özin də bir tərəfə çəkilib gizlənərsən. Ordakılar onı su bilib gəlib çiməcəklər. Elə ki, gəldilər çimməgə, onların qanatları şirəyə batacaq. Onda sən onları tutarsan.

Məhəmməd ata minib yola düşdü. Qızın dedigi yerə çatdı, çeşmənin suyunu qurudub balı ora tökdü, özü bir tərəfdə daldalandı. Ördəklər çiməndə Məhəmməd tez ördəkləri tutdu. Atına minib geri qayıtdı. Ördəkləri padişah üçün apardı. Padişah ördəkləri qəbul eliyib vəziri çağırdı. Vəzir gəldi. Padişah dedi:

– Vəzir, apar bu avçıya üç min tümən ver.

Vəzir pul gətirib Məhəmmədə verdi.

Vəzir dedi:

– Bizə bir şey ver.

Məhəmməd dedi:

– Bir qara quruş belə verməyəcəyəm.

Vəzir dedi:

– Yaxşı, gör sənə neyniyəcəyəm?

– Əlindən gələni elə.

Məhəmməd evlərinə döndü. Qız Məhəmmədi qucaqladı:

– Məhəmməd, gəlibsən?

Məhəmməd dedi:

– Bəli, gəlmişəm.

Aradan bir neçə gün keçmişdi, padişah vəzirə dedi:

– Vəzir, bu bağ, bu ceyran, bu ördək, bu da mən.

Vəzir dedi:

– Əmma...

Padişah:

– Necə əmma?

– Bu bağın bir şeyi əskikdi, o da Hindistan padişahının qızı gərək bu Gülü firəngidə ola. Ta ki, sora sənin adın tarixlərdə söylənmiş ola.

Padişah dedi:

– Bunu kim gətirə bilər?

Vəzir:

– Əlbətdə, ördəgi, ceyranı gətirən oğlan.

Padişah əmr elədi:

– Bu saat oğlanı çağırın.

Məhəmmədi çağırdılar. Gedəndə qız Məhəmmədə dedi:

– Padişah sənə nə desə sən razı ol. Qorxma.

Padişah Məhəmmədə dedi:

– Oğlan, durma bu saat get Hindistan padişahının barigahında yaşayan dünya gözəli qızı gətir. Yoxsa, başuvu daldan vurduraram.

Məhəmməd evə gəldi, qız üçün danışdı. Qız dedi:

– Eh! O mənim bacımdır. Sən get bu saat padişaha de, vəzirin pulundan bir gəmi qayıtdırsın, bir taxtası qızıl, bir taxtası gümüş. Sora mən özüm gedib bacımı gətirərəm.

Məhəmməd padişahın yanına gedib dedi:

– Bu saat gərək bir gəmi qayıtdırasan, bir taxtası qızıl, bir taxtası gümüş, əmma vəzirin pulundan ola.

Padişah vəziri çağırtdırıb dedi:

– Vəzir, gərək bu saat öz pulundan bir gəmi qayıtdırasan. Bir taxtası qızıl, bir taxtası gümüş olsun.

Vəzirin boğazının yolu qurudu. Üzünü avçıya tutub dedi:

– Yaxçı, gör sənə nə elərəm?

Məhəmməd dedi:

– Nə bilirsən elə.

Vəzir getdi, həsirinə kimin satdı, gəmini düzəltdi. Gəminin bir taxtası qızıl, biri gümüş suya saldılar. Məhəmmədi çağırdılar:

– Gəmi hazırdı.

Qız ilə Məhəmməd gəmiyə minib cəzirəyə çatdılar. Gəmini bir qıraqda saxladılar. Qız Məhəmmədə dedi:

– Biz gəmidən düşmiyəcəyıx. Əvvəlcə camahat bu gəminin tamaşasına gələr. Sora xəbər padişaha çatar. Mənim bacım padişaha diyəcəkdi qoy mən gedim gəminin tamaşasına.

Şəhər əhalisi gəminin tamaşasına gəldilər. Sabahısı gün padişah əmr elədi ki, bütün şəhər əhli evə girməlidir; Nuri Cahan xanım gəminin tamaşasına gedəcək. Nuri Cahan xanım gəmiyə gəldi. Qız Məhəmmədə dedi:

– Sən hazır ol.

Hər iki bacı gəmidə görüşdülər. Bütün pərilər gəmidən çıxdı. Nuri Cahanın başı bacısı ilə söhbətə qarışdı. Bir başa gəmi gözdən itdi. Nuri Cahan xanımı padişahın barigahinə apardılar. Padişah vəziri çağırtdı, dedi:

– Vəzir, bu qız kimə çatar.

Vəzir dedi:

– Əlbətdə, sizə çatar.

Padişah əmr etdi ki, vəzirin boynun vursunlar. Məhəmmədə də vəzirligi verdilər.

## QUŞ DİLİ BİLƏN İSKƏNDƏR

Biri vardı, biri yoxdu. Bir naxırçı vardı, bircə oğlu vardı. Adına İskəndər deyərdilər. Naxırçının arvadı öldü, öyə arvad gətirdi. İskəndər altı yaşındeydı, amma çox ağıllı, fərasətdi bir oğlanıdı. Özü də hər bir quşun dilin bilirdi. Dedikcə də göyçək bir paççahyana uşağıdı. Bılların əvlərinin qabağında bir baxçaları vardı. Bir gün öyə ana həmən baxçada paltar qazanı asıp, paltar yuyurdu. İskəndər də cur-cubux yığır, ocağa qoyurdu. Nənəliyinə kömək eliyirdi. İskəndər baxdı gördü, bir bülbül oxuyur, başqa bir bülbülə deyir:

– Ay bülbül, bir vaxt olacax İskəndər bı şəhərə paççah olacax; bı baxçıya qonax gələcək, həmən bı analığı onun qabağına xörək gətirəcək. Dədəsi də afdaha-ləyən gətirəcək, onun əlinə su tökəcək.

İskəndər güldü. Arvadın bının gülməsinə acığı tutdu, ocaxdan bir kösəv götürdü İskəndəri vırdı ki, nəyə gülürsən, koram, şiləm, keçələm, yoxsa nəyimə gülürsən?

İskəndər dedi:

– Ay ana, vallah, ona gülmürəm. O bülbül oxuyur. Deyir ki, İskəndər bı şəhərə bir vaxt paççah olacax, paççahlıx eliyəcək. Bı baxçalarına qonax gələcək, nənəligi qabağına xörək gətirəcək, dədəsi də afdafa-ləyən gətirip İskəndərin əlinə su tökəcək. İndi ona gülürəm.

Arvad təzədən başdadı bını döyməyə ki, ay köpoğlu, sən nəsən, indi də şəhərə paççah olasan, mən də sənə çörək gətirəm. Gör sənin başına nə gətirəcəyəm?..

Axşam kişi naxırdan qayıtdı gəldi. Arvad dedi:

– Bı and mənim üzərimə qənim olsun, bı İskəndəri bı gecə ya öldür, ya bı torpaxdan rədd elə. Elədin, elədin, eləmədin səndə otumuyacığam.

Kişi nə qədər minnət, sünnət elədi, dedi, yox birdi, iki deyil.

Kişinin əlaci kəsildi, İskəndərə dedi:

– Bala, dur gedək.

İskəndəri də götürdü gəldi, bazardan bir sandıx da aldı, dedi:

– Bala, Allah kərimdi, gəl gedək, heç fikir eləmə.

İskəndər dedi:

– Dədə, bir müşənbə də götür, sandığın ağzın müşəmbələ ki, su dolmasın.

Kişi bir müşənbə də götürdü. Sandığı da götürüb gəldilər bir dəryanın kənarına. İskəndəri qoydu sandığa ağzın bağladı müşəmbələdi saldı dəryaya.

Dərya bını ora-bıra vıra-vıra öz paççahlarının şəhərinnən çıxartdı, gətirdi çıxartdı üçüncü paççaha. Bırda bir torçu tor atırdı, gördü ki, bir sandıq gəlir. Toru atdı, bı sandığı dəryadan çıxartdı. Dedi:

– Yaxşı oldu, görən hansı söydəgərin malıdı?

Bı kişinin də züryəti yoxudu. Elə bir özüydü, bir də arvadı. Sandığı açdı, gördü bir oğlan uşağıdı ki, üzünə baxanda göz qamaşır. Bını durquzdu, soruşdu ki, bala adın nədi?

Dedi:

– Adım İskəndərdi.

Kişi dedi:

– Allah yaxşı yetirip səni maa, heç mənim züryətim yoxdu.

İskəndəri səvinə-səvinə götirdi əvə. Dedi:

– Arvad, Allah-taala bizə bir oğul kəramət eliyip.

Arvad baxdı gördü, doğrudan bı bir göyçək uşaxdı ki, nətər? Hər üçü də sevinirdilər. Arvad, kişi sevinirdilər ki, oğlumuz oldu. İskəndər də sevinirdi ki, bəli, dəryadan sağ-salamat çıxdım.

Kişi getdi bazardan bir dəst paççahyana libas aldı, gətirdi, İskəndəri geyindirdi. Mollanı çağırdı, tapşırdı:

– Bı mənim oğlumdu, bına yaxşı dərs verərsən.

Molla bına başdadı dərs verməyə, bir gün, iki gün. Bir gün gördü, bı uşax elə fərasətdi, zehinnidi ki, bı molla dediyin əlbəhəl götürür.

Bı məktəbdə də bir Yahya addı uşax varıdı. İskəndər içəri girəndə deyərdilər Yahyadı, Yahya girəndə deyərdilər İskəndərdi. Bıllar o

qədər bir-birlərinə oxuyurdular ki, bir-birinnən seçilmirdi. Bı ikisi də, siğə oxutdular, qardaş oldular. Bıllar bir-birini elə çox işdiyirdilər ki, birəz gec görəndə, biri-birini az qalırdılar dəli olsunnar. Cüt gedərdilər, cüt gələrdilər, cüt də gəzərdilər.

Bir gün məktəbdən çıxanda paççahın vəziri gəzişirdi, İskəndəri gördü, gəldi bını birəz danışdıhdı, gördü çox ağıllı, çox qanacaxlı, mərfətdi bir uşaxdı. Bı vəzir bınnan siğə oxudup qardaşdıx oldular. İskəndəri götürdü gəldi əvinə. Xörəkdən-zaddan yedilər. İskəndər gəldi əvlərinə, axşam oldu. Atası gəldi əvə.

Dedi:

– Ata, sabah mənim baxdıma bir tor at, nə düşər-düşər. Aparfcıyam vəzir qardaşıma. Bı kişi də İskəndəri çox isdərdi. Səhər açıldı, kişi toru götürdü, – bismillah irəhman irrəhim – dedi, getdi. Sıfdə toru atdı dəryaya, gördü tor çox ağırdı, çəkdi gördü bir qızıl balıq. Dedi:

– Bizim ata-babamız da deyərdilər ki, bı dəryada qızıl balıq olmaz. Gör İskəndər nə qədər xoşbaxdısa, bı balıq tora düşüb. Balığı da götürdü səvinə-səvinə gəldi əvlərinə. Arvad bı balığı yardı, təmizdədi, qoydu xonçuya. İskəndər məktəbdən qayıtdı. Dedi:

– Ata neylədin?

Atası dedi:

– Bala, sən çox xoşbaxt adamsan. Mən yaşımnan bəri o dəryada qızıl balıq olduğun eşidip, görməmişəm. Ata-babamız deyərdi ki, bı dəryada qızıl balıq olmaz.

Səhər cümə günüydü. İskəndərin dərsi yoxudu. Bu xonçanı götürdü apardı vəzirə. Vəzir baxdı gördü, bı bir qızıl balıxdı, dedi:

– İskəndər bı neçə işdi, heç mən yaşımnan bəri bı şəhərdə eşitməmişəm qızıl balıq ola. Xörəyi yedilər, işdilər, həmən xonçanı doldurdular qızılnan, İskəndər gətirdi əvlərinə.

Hər gün adına axşamı atasına tapşırardı ki:

– Ata, sabah mənim dərsim yoxdu. Bu gün toru mənim baxdıma at. Səhər aparacıyam vəzirə.

Hər atanda da bir qızıl balıq düşərdi. Bir gün genə qızıl balığı xonçada gətirdi vəzirə.

Hər evə qayıdanda da xonçasını qızılnan doldurardılar. Bı da gətirip atasının qabağına qoyardı. Bı kişi başdadı bı qızıllarınan yaxşı əv tikdirdi. İmaratlar tikdirdi ki, nə təhər. Öz-özünə deyirdi ki, Allah, saa şükür, nə yaxşı bını, maa yetirdin. Öz oğulu da adamın belə olmaz.

Bir gün paççah divanxanada oturmuşdu ki, camahat nə şikayəti olsa, gəlip orda paççaha deyirdi. Bir də gördü bir sürü ala qarğa töküldü qapıya, başdadılar qır-vır. Ta bı ala qarğaların səsinnən nə şikayətə baxa bildi, nə də divan eliyə bildi. Nə qədər də eliyirdilər, gənə getmirdilər. Paççah durdu divanxananı bağladı, gəldi əvinə. Gecə yatdı, səhər durdu dedi:

– Gedim divanxanıya, şikayətə-zada baxım.

Elə divanxananın qapısına gəldi, aşdı qapını, isdiyirdi şikayətə baxsın, genə həmən qarğalar töküldülər gəldilər, başdadılar qa-qu, qır-vır etməyə. Paççah genə qapını bağladı, gəldi əvə, dedi:

– Vəzir, bu quş qismi adamnan qaçar. Bəs bı necə işdi?

Vəzir dedi:

– Qibleyi-aləm, oların şikayəti var. İndi nədisə, quş dilində kim bilir ki, dərdlərin bilə?

Paççah dedi:

– Bir quş dili bilən tapıb gətirəsən.

Vəzir dedi:

– Ay paççah, mən hardan tapım?

Paççah dedi:

– Qırx gün saa vaxt verirəm. Qırx günəcən tapdın tapdın, tapmadın boynunu vırdıracıyam.

Vəzir bekaf, məlul gəldi əvə, dedi:

– Arvad, birəz bir dəsmala çörəkdən-zaddan bağla, gedəciyəm qırx günün səfərinə. Amma qırx günnən sora boynım vırılacax.

Arvad dedi:

– Niyə, nolup?

Vəzir əhvalatı söylədi. Arvadına tapşırdı ki, nəbada, İskəndərə deyəsən. Demə, özü də gələndə həməşəki qaydeynan yola sal. Bını deyip yola düşdü. İskəndər genə cümə günü bir qızıl balığı xonçada gətirdi vəzirin əvinə, verdi. Soruşdu bəs, qardaşım hanı? Arvad dedi:

– Paççah qırx günün səfərinə göndərip.

İskəndər dedi:

– Nə işə gedip?

Dedi:

– Bilmirəm, vallah.

Xülasə, nə qədər elədi, arvad demədi. Bını arvad həməşəki kimi yola saldı.

İskəndər hər cuma gəldi. Bəli, bilirdi ki, vəzir bı gün otuz doqquz tamamdı, gələcək. Genə bir qızıl balıq xonçaya qoyup gətirdi. Vəzir də gəlmişdi. İskəndər xonçanı verdi, baxdı gördü, vəzirin üzünə ölü bənizi çəkilip. Soruşdu:

– Qardaş, niyə belə olmusan?

Vəzir dedi:

– Heç, birəz azarramışdım.

İskəndərin qabağına çay gətirdilər, çörək gətirdilər.

Dedi:

– Xeyr, yemərəm. Gərək sənin dərdin biləm. Sən azarrı deyilsən, ayrı dərdin var. Qardaşın qardaşdan ayrı dərdi olmaz.

Nə qədər vəzir dedi ki, xörəgini ye, neynirsən?

İskəndər əl çəkmədi, dedi:

– Xeyr, yemərəm, gərək deyəsən.

Vəzir gördü olmıyacax. Dedi:

– Gündə paçcahın divanxanasına bir sürü ala qarğa tökülür, qoymullar ki, paçcah şikayətə baxa. Səsdəri aləmə düşür. Paçcah da maa qırx gün möhlət verip ki, gərək bir quş dili bilən adam tapasan. Mən də tapmadım. Sabah da qırx tamamdı, boynum vırılacax. Onun üçün belə olmışam.

İskəndər dedi:

– Qardaş, elə məni bırda qoyup şəhərrəri gəzirsən?

Vəzir dedi:

– Nə deyirsən?

İskəndər dedi:

– Canın üçün, quşdarın hamısının dilin bilirəm.

Hər ikisi şad-şalayın xörəklərin yedilər. Səhər vəzir İskəndəri gətirdi paçcahın yanına. Paçcah dedi:

– Tapdın?

Vəzir dedi:

– Bəli, bı oğlandı.

Paçcah nəzər saldı, gördü bəli, bı bir paçcahyana, göyçək oğlandı. Çağırdı yanına, dedi:

– Qoçağım, quş dili bilirsənsə, onlar gör nə deyir.

İskəndər qarğanın dilincə dedi:

– Sakit olun.

O saat camahat gördü ki, qarğalar elə sakit oldular, ta birinnən bir səs çıxmadı. İskəndər dedi:

– Şikayətiniz nədi, biriniz deyin!

Ana qarğa dedi:

– Bir elə acdıx oldu ki, bir quş özünə bir dən tapıb yeyə bilmədi. Bı ata qarğa, bı balaları töhdü mənim üsdümə çıxdı getdi. Mən saxladım, böyütdüm, bir belə artıplar. İndi gəlip ki, mən də şərikəm.

İskəndər paççaha dedi:

– Qibleyi-aləm, şikayətdəri bıdı.

Paççah dedi:

– Balalar ana qarğanındı, ata qarğanın haqqı yoxdu, bir söz deyə bilməz.

İskəndər paççah dediyin quş dilincə bunlara dedi.

Ata qarğa ağzın çəvirdi bir tərəfə çıxdı getdi. Ana qarğa da balaları yığdı bir tərəfə getdi. Paççah dedi:

– Məni isdiyən bına xələt!

Hərə bir xələt verdi bına. O qədər xələt verildi, ta nə tər.

Bı nə ki xələtdər varıdı göndərdi atasına. Paççah dedi:

– Vəzir, bı nə yaxşı oldu.

Vəzir dedi:

– Qibleyi-aləm, gəl bına bir yüngül qullux verək, elə əlimizin altında dolansın, o donnuğu verək ona.

Paççah dedi:

– Yaxşı olar!

Dedi:

– Nə qulluğa qoyax?

Vəzir dedi:

– Mən bir qullux deyim, gör nətərdi?

Dedi:

– Gündə üç dəfə ki, qızına xörək çəkilir verilir, bını qoyax xörəyi aşbazxanadan aparsın versin qıza. Donnux da kəsək.

Paççah dedi:

– Yaxşı olar.

Bına bəli, dedilər sən bı işi görəcəksən, saa ayda da filan qədər verəcəyik. İskəndər razı oldu.

Səhər İskəndər xörəyi apardı, qoydu qızın qabağına. Qız dedi:

– Ay oğlan, otur söhbət eliyək.

İskəndər dedi:

– Xeyr.

Qız dedi:

– Aləm deyir, o qızı bir göreydik, indi sən oturup söhbət eləmirsən?

İskəndər dedi:

– Xeyr, gedəciyəm.

Çıxdı qayıtdı. Günorta genə xörəyi gətirdi, ta qızın qabağına qoymadı, qoydu aralı. Qız nə qədər yalvardı: "Ədə, bəri gəl, bəri gəl!" İskəndər baxmayıb qapıdan çıxdı. Axşam genə gətirdi, qapının ağzında qoydu. Nə qədər qız yalvardı, baxmadı, getdi. Ta həmişə xörəyi gətirip qapının ağzına qoyurdu. Qarabaşdar gətirirdi xanımın qabağına. Nə qədər eliyirdilər İskəndər içəri girmirdi.

Tamam bir ay belə gətirdi. Qapının ağzına qoyurdu. Ordan verirdilər xanıma. Bir ayın tamamında İskəndər xəsdələndi. Getdi Yahyanın yanına. Dedi:

– Qardaş, mən azarramışam, yaxşı oluncan gəl o xörəyi sən apar.

Yahya gəldi, xörəyi apardı, qızın qabağına qoyanda, qız yapışdı bının biləyinnən, dedi gəl söhbət eliyək. Yahya oturdu. Başdadılar söhbətə, gündə xörəyi aparırdı. Söhbətin nazik yerinnən başdadılar. On beş gün Yahya xörəyi aparırdı, oturup söhbətə başdıyırdılar.

On beş günün tamamında İskəndər dedi:

– Qardaş, ta yaxşıyam. Gəl sən get işinə, çörəyi özüm aparım.

İskəndər çörəyi apardı, qoydu genə qapının ağzına, isdədi qayıtsın, qız dedi:

– Ay ləvənd oğlu, ləvənd. Elə dünən mənnən söhbət eliyirdin, buyun noldu?

İskəndər o saat barmağın dişdədi, dedi:

– Bəli, ta iş ayrı cür oldu.

İskəndər gəldi vəzirin yanına. Dedi:

– Qardaş, öz paççahların, salıx verdi. Mən də filan paççahın oğluyam. İndi isdiyirəm, gedəm.

Vəzir dedi:

– Gedəcəksən? Nolar.

Vəzir İskəndəri də götürdü gəldi paççahın yanına.

Dedi:

– Qibleyi-aləm, bu da filan paççahın oğludu, indi getmək isdiyir.

Paççah dedi:

– Onda mənim qızımı alsın, mənim yerimdə paççahlıx eləsin.

Nə qədər yalvardılar. İskəndər dedi:

– Xeyr, mən gedəcəyəm.

Bına bir dəst paççahyana libas verdilər, hamamlandırdılar, bir dəsdə qoşunnan bını öz şəhərrərinə yola saldılar. Qoşunnan düşdülər yola. O qədər gəldilər ki, çatdılar öz şəhərrərinə. Gətirdilər İskəndəri saldılar şəhərə. Bı şəhərin də paççahı ölmüşdü, qızı yerində paççahlıx eliyirdi.

Bı qıza xəbər getdi ki, qoşun gəlip tökülüp şəhərə. Qız adam göndərdi ki, gedin görün nə işə gəlip, bizinən davamı eliyir, yoxsa başqa işə gəlip. Adam gəldi. İskəndər dedi:

– Xeyr, heç bir işə gəlməmişik. Ayrı paççahın oğluyam, gedirəm öz yerimə.

Xəbəri gətirdilər qıza. Qız dedi:

– Onda maa qonaxdı.

Gəldilər İskəndərə dedilər ki:

– Bəli, xanım deyir, bizə qonaxdı.

İskəndər gəldi. İskəndərnən qız söhbət elədilər, çörək-zad yedilər. Qız dedi:

– İskəndər, atam ölüp yerində paççahlığı mən eliyirəm, gəl məni al, elə paççahlığı sən elə.

İskəndər razı oldu. İskəndər qoşunu azad edib geri qaytardı. Bir molla gətirtdilər, qızın kəbinin kəsdi İskəndərə. Toy elədilər, qızı aldı yerində paççah oldu. Bir müddət bı şəhərə paççahlıx elədi.

Bir gecə yatmışdı, gördü qapı döyülür. İskəndərin əlinnən pəhlivannıx da gəlirdi. Durdu əsnahaların geyindi, xas polada qərq oldu, getdi qapını aşdı, gördü qardaşı Yahyadı. Yahya dedi:

– Qardaş, filan paççah bir pəhlivan göndərip. Paççahdan həmən qızı da isdiyir. Yeddi ilin də badi-xaracın da.

İskəndərin arvadı bı əhvalatdan bixəbər idi. Yatmışdı. İskəndər dedi:

– Qardaş, gəl sən get, yavaşca soyun gir mənim yerimə, mən də gedim, Allaha pənah.

İskəndər yola düşdü. Yahya da soyundu, qılıncı qoydu arvadınan öz arasına yatdı.

İskəndər gecəni gündüzə, gündüzü geciyə vırdı. Getdi çıxdı həmən yerə. Onda yetişdi ki, gördü camahat yığışıp meydana kağız möhürrənir ki, yeddi ilin badı-xaracını da, qızı da versinnər. O qədər gözdədi ki, kağız bına gələndə aldı dörd parça elədi, tökdü yerə. Pəhlivan qalxdı paççahın üstdə ki, indi də kağızı cırdırırsan? Elə bildilər Yahyadı, çünkü bıllar bir-birinə o qədər oxşuyurdular ki, hansı Yahyadır, hansı İskəndərdi seçilmirdi. İskəndər dedi:

– Qibleyi-aləm, sənin hankı pəhlivanını öldürüp, hankı adamını qırıp?

Paççah dedi:

– Neynəy Yahya, dur çıx meydana.

İskəndər qılıncın sivirdi, aldı əlinə, qalxanın götürdü qalxdı əyağa. Pəhlivan da durdu, gəldilər meydana. Pəhlivan dedi:

– Nöbə sənindi, ya mənim?

İskəndər dedi:

– Xeyr, biz həmişə, firsəndi düşmana vermişik. Növbə sizindi.

İskəndər qalxanı cəhdi başına, bı pəhlivan üç qılınc vırdı İskəndərin başına. İskəndər qalxanın altdan silkindi çıxdı. Dedi:

– Mən dəmirçi zindanı deyiləm ki, dəmirçiliyi mənim başımda örgənirsən. Düşməmisən qoş davasına, düşmüsən tolu-molu davasına... Çək qalxanın başına. Bı qalxanın cəhdi başına.

İskəndər dedi:

– Üç qılınc vırmısan başıma. İkisin bağışdıyıram saa, tək bircə qılınc vıracağam.

İskəndər qılıncı qalxızıp elə vırdı ki, pəhlivan iki bölündü. Hərəsi bir tərəfə düşdü, canı cəhənnəmə vasıl oldu.

O saat İskəndəri camahat alqışladı. "Ay məni isdiyən, bına xələt! Hər kəs Yahyaya bir xələt versin!" Hərə bir xələt verdi İskəndərə. İskəndər yığılan xələtdəri göndərdi Yahyanın əvinə.

Paççah bir yaxşı, kamıl molla gətirdi, bı qızın kəbinin kəsdirdi Yahyaya. Gecə qaldı, səhər düşdü yola. Gəldi çıxdı öz şəhərinə.

Qapını yavaşca tıqqıldatdı. O saat Yahya durdu geyindi gəldi qapını aşdı. Gördü İskəndərdi. Soruşdu ki, qardaş, nətər oldu?

İskəndər dedi:

– Qardaş pəhlivanı öldürdüm, qızın kəbinində kəsdirdim saa. Nə qədər də xələt vermişdir, göndərdim əvə.

Yahya dedi:

– Qardaş ürəklər örtülüdü. Gedərsən külfətiyin yanına, onda bilərsən.

Yahya əvinə gəlməkdə, bı da soyundu girdi arvadının yanına. Arvad bına acıxlandı. Dedi:

– Neçə gündü arıya qılınc qoyursan, indi gəlmisən.

Qayıtdı bir löh oxudu, İskəndəri saldı çox iyrənc bir heyvan halına. Özünə də bir aclıx qələbə elədi ki, nə yeseydi doymazdı. Arvad o saat geyindi, nökərlərə çığırdı ki, ey köpəy uşaxları, bı necə heyvandı gətimisiniz, girip bıra?

Gəldilər gördülər bəli, bir bimürvət, bədürət heyvandı. Hərə bir ağac götürdü, bını döyə-döyə şəhərdən çıxartdılar. Bı gəldi çıxdı bir meşiyə. Meyvələrdən-zaddan nə qədər yedi, gördü elə acınnan ölür.

Bı bırda qalsın, sizə xəbər verim Yahyadan. Gəldi çıxdı əvinə, gördü o qədər xələt veriplər ki, əvdə xələt əlinnən yer yoxdu. Paçcah da adam göndərdi ki, toyun ehtiyatın görsün. Toy ehtiyatı gördü, yeddi gün, yeddi gecə toy vırdırdı, paçcahın qızın gəlin gətirdi.

On beş gün tamamında paçcah öldü. Yahyanı bının yerində paçcah elədilər.

Bı bırda qalsın, sizə kimnən xəbər verim, İskəndərdən. İskəndər bı meşədən, o meşədən meyvə yeyə-yeyə, gəldi çıxdı Yahyanın şəhərinin meşəsinə. Yahya da paçcaha xeyrat verirdi. Adam töküp meşədən odun qırdırırdı. İskəndər bının birin çağırdı, dedi:

– Bı odunu neynirsiniz bir bı qədər qırırsınız?

Bı adam baxdı gördü, bı bir bədurət heyvandı, qorxdu qaçdı. İskəndər dedi:

– Qorxma, adam yeyən deyiləm, sənnən söz xəbər alıram.

Bı adam gennən durdu dedi:

– De sözünü.

İskəndər dedi:

– Deyirəm ki, bı odunu neynirsiniz?

O adam dedi:

– Paçcahımız ölüp, Yahya onun yerində paçcahdı, indi paçcaha xeyrat verir.

İskəndər o adama dedi:

– İndi Yahya xörək yeyiləndə gəlip aralıxda gəzəcək ki, görüm kimin xörəyi azdı, yağlıdı, yavandı. Onda ətəyinnən tut, deyəcək yağ-

lıdı, yavandı, ya azdı, nə deyirsən? Onda denən, xeyr, filan meşədə bir heyvan var, deyir, o olsun İskəndərin canı, məni doyursun.

Yahya aralıxda gəzirdi, həmən adam Yahyanın ətəyinnən tutdu.

Yahya dedi:

– Nə deyirsən bala, xörəyin azdı, yağlıdı, yavandı?

Dedi:

– Xeyr, filan meşədə bir heyvan var, deyir, olsun o İskəndərin canı, məni doyursun.

O saat Yahya dedi:

– Ay aman, durun gedin onu gətirin bıra.

Gətirdilər. Bir nimçə xörək verdilər yedi. Dedi:

– Sən İskəndərin canı məni doyur.

Birin də verdilər genə heylə, ikisin, üçün... Axırda baxdılar gördülər ta xörəkxanada xörək qalmır.

Yahya gəldi. Dedi:

– Bı sirdən məni agah elə görüm, sən kimsən, nəsən?

O saat dedi:

– Mən filan İskəndərəm. O arvad mənim başıma bı oyunu gətirip.

O dəm də Yahya nə ki cadu, münəccim, həkim varıdı töhdü bıra. Hansı baxdısa, dedi:

– Bına əlac yoxdu.

Bıların biri dedi:

– Filan yerdə bir qoca cadıkun var, qocalıp əldən düşüp. Əyər orda olsa olacax bına əlac.

Getdilər onu da gətirdilər, baxdı dedi:

– Mənim filan yerdə bir kitabım var, əyər olsa onda olacax bına əlac, onda olmasa bına əlac yoxdu.

Gedip o kitabı gətirdilər. Baxdı dedi:

– Bıdı, tapdım!

Yahya bir vürd örgətdi.

Dedi:

– Bı vürdü oxursan aparıp bını filan hamamda hamamlandırarsan. Onda bı cildən çıxacax, öz cilidinə düşəcək.

Bını apardılar hamama. Yahya o vürdü də oxudu, bını hamamlandırdılar. İskəndər çıxdı o ciliddən, düşdü öz cilidinə. Paltar gətirdilər geyindirdilər, gəldilər əvə. Yahya dedi:

– Qardaş, nə qədər qoşun isdiyirsən hazırdı. Gedək.

İskəndər dedi:

– Xeyr, maa qoşun lazım deyil.

Əslahasın geyindi, qılıncın, qalxanın götürdü, düşdü yola. Gecəni gündüzə, gündüzü geciyə vırıp gəldi çıxdı öz əvinə. Kəməndi atdı, barıdan aşıp girdi içəri. Otağa girdi, gördü arvad yatıp taxdın üstdə, qılıncı sivirdi elə vırdı kı taxdıynan özün dörd parça elədi, saldı yerə.

Paçcah paltarın geyindi, çıxdı taxta. Bir neçə gün başdadı şəhərə paçcahlıx elədi.

Günnərin bir günü, adam göndərdi ki, filan naxırçıya deyin paçcah deyir ki, bı gün ona qonağam.

Naxırçıya xəbər apardılar. Xörək-zad hazırradı, baxçanı döşətdirdi, bazardan ayınnan-oyunnan aldı, kürsü gətirtdirdi. Baxçada paçcahyana bir məclis döşətdirdi. Xörək vaxdı paçcah gəldi əyləşdi. Bir də gördü, atası əlində afdaha-ləyən, anası da əlində xonçada xörək gətirir. Gəldilər İskəndərə baş yendirdilər. Dil-ağız elədilər. Atası afdaha-ləyəni gətirdi ki, İskəndərin əlinə su töhsün. İskəndər durdu əyağa, dedi:

– Ateyi-mehriban, layıx deyil ki, ata oğulun əlinə su tökə. Mən sənin oğlun İskəndərəm.

O saat arvad əlindəki xörəyi yerə tulladı. Dedi:

– Baho... Koroğlu, indi də maa paçcahlıx eliyir.

İskəndər o saat cəlladları gətirtdirdi, dedi:

– Çıxardın həyətdən bayıra. Onun boynun vırın, qoyun orda itdər yesin cəmdəyin.

Arvadın boynun vırdırdı, bir dəsdə paçcahyana libas gətirtdirdi, atasın hamamlandırdı, geyindirdi, apardı yanına.

Dedi:

– Ata, nə qədər canımda can var ye, iç, kef elə. Heç fikir eləmə.

O yedi, yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl deyənin.

## NAR QIZI

Biri var imiş, biri yox imiş, bir padişahın bir oğlı varimiş. Bu oğlan bir gecə yuxuda Nar qızına aşiq olur. Sübh olanda vəzirin çağırub yuxusunu söyləyüb buna deyir ki, gərək gedib Nar qızını mana alasan. Vəzir ərz edir ki, başqa hər nə əmrin varsa yerinə yetirim. Amma onı gətirmək mənim üçün mümkün deyil, çünkü o devlərin içindədir.

Padişahın oğlu cavab verir ki, hökman gərək gedəsən! Yoxsa boynuvi vuraram.

Vəzirin əlacı kəsilib qəbul edir. Şahzadə buna xeyli pul verüb yola salır. Vəzir də gedəndə bazardan bir xeyli qır-saqqız alır. Bir müddət yol gedəndən sora gəlüb bir evə çıxır. İçəri girəndə baxıb görür ki, burada bir qarı oturmuş ki, alt dodağı yer süpürür, üst dodağı göy. Qarı bunu görəndə səvinib deyir:

– Qadan alım gəl, yaxşı gəldin, altı ay olur ki, adam əti yiməmişəm. Tez gəl, səni yeyim. Yoxsa oğlanlarım gəlib səni mənim əlimdən alub yiyərlər, mana bir şey verməzlər.

Bu sözləri eşidəndə vəzir qarının ağzına bir qədər qır-saqqız tollayır. Qarı saqqızı çeynəməgə başlayur, yazığı gəlüb bunu yiməyir. Vəzir özi də sehr bilirmiş. Qarının oğlanları gəlməyə yaxınlaşanda, bir sehr oxuyub bir çuvalduz ignəsi olub bir deşigə girir. Bu halda oğlanlar evə daxil olub analarına:

– Ana! Adam-badam iysi gəlir, yağlı badam iysi gəlir, qatır gələr dırnaq salar, quş gələr qanad salar, de görək buraya kim gəlmiş? – diyib bağırırlar.

Qarı cavab verir:

– Buraya kimsə gəlməmiş, yəqin öziniz bağda, daşda tapub yemişsiniz, iysi dişlərinizin dibindən gəlir. Hərgah buraya adam gəlsə, yiyərəm, sizə də saxlamaram.

Qarının oğlanları inanub yatdılar. Sübh olanda işlərinə getdilər. Oğlanlar gedəndən sora, ignə gənə də adam olub qarıdan yolu sorur. Qarı da buna:

– Günbatan tərəfə get, – cavab verir.

Vəzir yolu dutub gedir. Bir müddət getdikdən sora bir evə çatır. İçəri girəndə görir ki, burada bir qarı oturmuş alt dodağı yeri süpürür, üst dodağı göyi. Qarı bunu görəndə:

– Yaxşı gəlmisən, altı aydır ki, adam əti yeməmişəm, gəl səni yeyim. Yoxsa oğlanlarım gələrlər, səni mənim əlimdən alarlar, – diyib istəyir bunu yisin.

Vəzir bunun da ağzına bir parça qır-saqqız tullayır. Qarı saqqızı çeynəməgə məşğul olur, buna yazığı gəlib öldirmir. Buna deyir ki, imdi oğlanlarım gələcəklər, gəl səni gizlədim. Vəzir ismi-əzəm oxuyub bir palaz parçası olur, qarı aparıb bunu göyligdə gizlədir, bu halda qarının oğlanları gəlir, içəri daxil olub:

– Ana! Adam-badam iysi gəlir, yağlı badam iysi gəlir, qatır gələr dırnaq salar, quş gələr qanad salar. Di, görək bura kim gəlmiş? – diyib bağırırlar.

Anaları isə cavab verir ki, buraya kimsə gəlməmiş, yəqin dağda, daşda adam tapub yimisiniz, indi iyisi dişlərinizin dibindən gəlir. Adam olsa, özim yiyərəm, sizə də vermərəm.

Oğlanlar analarının sözünə inanıb yatırlar. Sübh olanda çıxıb işlərinə gedirlər. Oğlanlar gedəndən sora palaz qırığı yenə də adam olub, gəlib qarıdan yolu soruşur. Qarı da günbatan tərəfi buna göstərir.

Vəzir bir müddət yol gedəndən sora gənə bir evə yetişir, içəri girəndə görir ki, əvvəlki kimi burada da bir qarı əyləşmiş ki, alt dodağı yer süpürür, üst dodağı göy. Bu qarı da bunu görəndə sevinib buna deyir:

– Qadan alım, xoş gəlmisən. Altı aydır adam əti yiməmişəm, gəl səni yeyim. Yoxsa bu saət oğlanlarım gəlib səni mənim əlimdən alarlar, mana bir şey verməzlər.

İstəyir ki, bunu yesin, tez vəzir bunun da ağzına bir parça qır-saqqız tollayır. Qarı saqqızı çeynəməgə məşğul olub buna yazığı gəlib bunu yiməyir.

Oğlanlarının gəlmək vəqti olanda vəzir ismi-əzəm oxuyub bir cibin olub bir deşigə girir. Oğlanları qapıdan içəri girən kimi bunlar da:

– Ana, adam-badam iysi gəlir, yağlı badam iysi gəlir, qatır gəlib dırnaq salar, quş gəlib qanad salar. Di görək, buraya kim gəlmiş? – diyib bağırırlar.

Anaları cavab verir ki, buraya kimsə gəlməmiş. Yəqin dağda-daşda adam tapub yimişsiniz. Odur ki, iyisi dişlərinizin dibinnən gəlir. Oğlanları analarının sözinə inanıb yatırlar. Sübh olanda qalxub işlərinə gedirlər.

Oğlanlar gedən kimi vəzir genə də adam olub qarıdan Nar qızının yerini sorur. Qarı cavab verir:

– Onı gətirmək müşküldür, bu fikirdən daşın. Devlər səni öldirərlər.

Vəzir cavab verir:

– Hər nə olur olsun, gərək gedəm!

Qarı görür ki, əlac yoxdur, Nar qızının yerini söyləyib, buna deyir:

– Buradan bir az uzaqda bir bağ var, o bağda bir nar ağacı və ağacın başında üç nar var. Əmma ağacın ətrafında devlər keşig çəkirlər. Gərək o narları elə dərəsən ki, devlərin xəbəri olmasın.

Vəzir qarıdan Nar qızının yerini öyrənəndən sora yola düşür, gedib həmən bağa yetişir. Divardan baxub görir ki, doğrudan da devlər keşik çəkirlər, qorxusunnan ismi-əzəm oxuyub bir milçək olub divarın arasında gizlənir. Gecə araya gəlib devlər yuxuya gedəndə xəlvət gedib üç narı üzüb qaçır, başlayır qayıtmağa. Bir müddət gəldikdən sora öz şəhərlərinə yaxınlaşır. Burada oturub əvvəlcə narın birini parçalayır, içindən bir şey çıxmayır, ikincisindən bir şey çıxmayır. Üçüncisini parçalayanda içindən gözəl bir qız çıxır. Çıxan kimi böyüyüb on beş yaşında bir nazənin sənəm olur. Vəzir istəyir ki, bunu aparsun, qız buna deyir:

– Məni bu hal ilə aparma, get libas gətir, geyinim, həm də toy edin, sora aparın.

Vəzir, qızı bir çinarın başında qoyub gəlib əhvalatı həm evdə söyləyir, həm də şahzadəyə söyləyir, toy tədarikinə başlayurlar. Vəzirin qulluqçusu qab götürüb həmən çinarın dibindəki quyudan su aparmağa gəlir. Baxub görür ki, suda gözəl bir qızın əksi görünür. Yuxarı baxanda görür ki, çinarın başında bir nazənin sənəm əgləşmiş. Qulluqçu əhvalatı bilirmiş. Bu da çinarın başına çıxır. Qız ilə bir az söhbət etdikdən sora itələyib birdən qızı quyuya salub özi yerində oturur.

Nar qızı quyudan çıxıb kənarda bir gül ağacı olur.

Qərəz toy tədarikini görüb şahzadə paltar götürüb vəzir-vəkil, xeyli qoşın ilə qızı aparmağa gəlirlər. Gəlib görürlər ki, ağacın başında bir qara qız əgləşmişdir. Şahzadə vəzirdən:

– Bı qız niyə belə qaradı? – diyib soranda, vəzir təəccüb etdi.

– Günəşin qabağında qalmış, onun üçün qaralmış, – diyib cavab verir.

Xülasə, qara qızı götürüb şəhərə gəlirlər. Toy edüb şahzadəyə tapşırırlar.

Vəzir isə çinarın dibində güldən bir dəstə dərüb götirmiş imiş. Ertəsi gün bunu şahzadənin arvadı qara qıza göndərir. Qara qız isə alıb pəncərədən eşigə atır. Bu gül burada bir çinar olur.

Bir ildən sora şahzadənin həmən qara qızdan bir oğlu olur. Arvad şahzadəyə deyir ki, çinarı kəsdirib uşağa beşik qayıtdırılsın. Şahzadə qəbul edib çinarı kəsdirib taxta yondurur. Bu təxtənin birini bir qarı aparır evində taxçaya qoyur. Bu qarı gedib bazardan yun alub əgirib satarmış, qazancı ilə bir növ dolanarmış. Bir gün gənə gedib bazardan on girvənkə yun alır. Götürüb evə qoyub gedir. Bu taxta, bir qız olub qalxub evi süpürüb, bir bu tərəfinə üfürür dügü olur, bir bu tərəfinə üfürür yağ olur. Bunları götürüb bir yaxşı pilov pişirir. Üstündən bir az yeyib qalanını saxlayur. Sora yunun hamısını darayub, əgirib gənə də təxtə olub taxçada öz yerində oturur.

Qarı evə gələndə baxub görir ki, ev təmiz süpürülüb, yun tamam daranılmış, əgrilmişdi. Ocağa baxanda görir ki, pilov də dəmdədir. Bu işə təccüb edib ipi aparub bazarda satır. Ertəsi gün bu əhvalat genə üz verir. Axırda qarı gedib əhvalatı qonşularına da söyləyir. Qonşuları muna məsləhət görirlər ki, evdə gizlənib bussun. Qarı bu sözə əməl edib ertəsi gün bazara getmək bəhanəsilə bir tərəfdə gizlənir. Bir də görir ki, şahzadənin evindən gətirdigi taxta dönib bir qız oldi. Evi təmiz süpürüb yunu daradı, əyirdi. Sora bir o tərəfə, bir bu tərəfə üfürdü: yağ oldu, bir tərəfə üfürdü, dügü oldi. Sora qalxub pilov bişirib üstündən bir az yedi, qalanın gənə ocağa qoydu. Bu halda qarı gizləndiyi yerdən tez çıxıb qızı dutur. Qız buna yalvarır ki, bu sirri bir kimsəyə söyləməsin. Qarı cavab verir ki, xatircəm ol, kimsəyə söyləmərəm. Burada mənim yanımda qal mana kömək et. Qız buna razı olub qarının yanında qalır. Bir gün şəhərə xəbər çıxır ki, padişahın oğlu Məkkəyə getmək istəyir. Ona görə də cəmaətə yayılır ki, bir ayın müddətində kim ata yaxşı baxsa, ona padişah çox pul verəcəkdir. Bu xəbəri eşidəndə Nar qızı cavab yollayır ki, gedib şahzadədən bəslə-

mək üçün bir at alsın. Qarı cavab verir ki, bizim nə otumuz var, nə arpa-samanımız, nə də töyləmiz.

Qız dedi:

– Sən get al gətir, orası mənim işimdir.

Xülasə, qarı gedib şahzadədən bir arıq at alır. Qarı atı evə gətirir. Qız atı görəndə bir o tərəfə füləyir, bir bu tərəfə füləyir. Arpa, saman olub atı töyləyə çəkib, burada ona baxmağa başlayır.

Ay tamam olanda atları yığırlar. Şahzadə atlara baxanda heç birisin bəgənməyir. Bu halda şahzadəyə xəbər verirlər ki, bir at da filan qarıda var. Adam göndərir ki, getsin onı da gətirsin. Şahzadənin adamları gəlüb qarının qapısını dögəndə, qarı qabağa çıxdı. Baxıb görür ki, atı aparmağa gəlmişlər. Gedüb qıza xəbər verir. Qız söyləyir:

– Get, ver aparsınlar!

Adamlar gəlib töyləyə girəndə at buları yaxınına qoymayır. Qabağa keçəni ağzı ilə dişləyir, dala keçəni təpik ilə vurur. Xülasə, apara bilməyib gedüb şahzadəyə xəbər verirlər. Bu dəfə adamları ilə şahzadə özi nə qədər çalışırlarsa atı töylədən çıxara bilmirlər. Axırda qarını çağırub diyirlər:

– Atı kim bəsləmişsə, gəlsin töylədən çıxarsın.

Nar qızı bunu heç kəs tanımasın diyə, başına bir palaz parçası salub, gəlüb töylədən atı çıxarub şahzadəyə verir. Qərəz bir noyilə atı aparırlar.

O zaman qayda beləymiş ki, şahzadələr Məkkəyə gedəndə üstü inci muncuq ilə tikilmiş paltar giyərlərmiş. Odur ki, şahzadə bir dəst paltar alub əmr edir ki, şəhərdə nə qədər inci muncuq tikməkdə ustad arvat varisə, gəlüb bunun paltarına inci, muncuq tiksinlər.

Bu xəbəri eşitdikdə Nar qızı qarıya yalvarır ki, qarı buna izin versin, gedüb padişahın paltarına inci və muncuq tiksin. Qarı izin verir.

Xülasə, arvatlar, qızlar muncuqları gətirub ortaya qoyur. Və onlar nöbə ilə oxuya-oxuya tikməyə başlayırlar. Nöbət Nar qızına çatanda deyir:

Mən bir Nar qızı idim – İncim, düzül, düzül!
Almadan qırmızı idim – İncim, düzül, düzül!
Çıxdım ağac başına – İncim, düzül, düzül!

Qız belə söylədikdə padişahın arvadı qara-qaravaş mətləbi anlayıb və ölümin gözinin qabağına gətirdi. Bir tərəfdən padişahın oğlu gəlüb pəncərənin qabağında oturub arvatların oxumasına qulaq asırmış.

Qara-qaravaş, şahzadə bunun sözlərini eşitməsin diyə arvatların oxumasını bəhanə edüb şahzadəyə söyləyir ki, pencərənin qabağından getsin. Şahzadə pencərənin qabağından çəkilir. Qız oxumağa başlıyanda gənə pəncərənin qabağına gedib dinləyir. Sözinə davam edir:

Qara qaravaş gəldi, aftafanı doldurdı.
İncim, düzül, düzül!
Aftaxanı vurdi daşdan-daşa, incim, düzül, düzül!
Çıxdım qondum ağac başına – incim, düzül, düzül!

Qaravaş baxub gördü ki, şahzadə gənə pəncərədən baxır. Nə qədər istiyirsə şahzadəni pencərənin qabağınnan uzaxlaşdırsın, mümkün olmayır. Bu halda, vəzir də gəlir. Bərabər qızın sözlərinə qulax verirlər. Qız sözinə davam edir:

Məni ağacdan saldı quyuya – incim, düzül, düzül.
Bitdim oldum gül ağacı – incim, düzül, düzül.
Məndən bir dəstə gül dərdilər – incim, düzül, düzül.
Məni gətirdilər şah evinə – incim, düzül, düzül.

Bu sözləri vəzir eşidəndə şahzadəyə deyir ki, mənim gətirdigim qız budur. Qulax ver görək daha nə söyliyəcək. Qız sözinə davam edir:

Otaxdan məni tulladılar güllügə – incim, düzül, düzül.
Qaldım oldum çinar ağacı – incim, düzül, düzül.
Mənim taxtamdan qarı apardı – incim, düzül, düzül.
İndi gəldim inci düzməyə – incim, düzül, düzül.

Vəzir şahzadəyə deyir:

– Yəqin, bu həmən mən gətirdiyim qızdı.

Həmən saat arvatları yola salıb onı saxlıyırlar.

Vəzir bunnan soruşur:

– Sən Nar qızısanmı?

Qız cavab verir:

– Bəli!

Əhvalatı başdan-ayağa bunlara söyləyir. Bunnan sora qırx gün, qırx gecə toy eliyib bu qızı şahzadəyə alırlar. Qaravaşı da bir xam atın quyruğuna bağlayıb səhraya buraxırlar.

At onu dağa, daşa çırpıb, parça-parça eliyib öldürür.

## KİÇİK ŞAHZADƏ

Biri var imiş, biri yox imiş, bir padişah var imiş. Bu padişahın gözəl bir üzüm bağı var imiş. Padişah bir gün bağda gəzəndə görür ki, bağın tənəkləri qırılmış, xeyli üzüm dərub aparmışlar. Padişah bağbanı hizurinə istəyüb, ondan bu nə əhvalat olduğunu sorur. Bağban bir şey bilmədigini söyləyir. Padişah əmr edir ki, gecələr bağa qaravul qoysunlar, oğrunu dutsunlar. Bağa nə qədər qaravul qoyulursa, gecənin bir vəqti yatır. Oğru da gəlüb bağı talan edir.

Padişahın üç oğlu var imiş. Bir gün oğluni hizurinə çağırıb, əhvalatı ona söyləyib, gecə bağda qaravul olub oğrunu dutmağı əmr edir.

Böyük oğlu gecə bağa gedir. Gecədən bir neçə saat keçəndən sora yuxu bunu aparır. Sübh olanda görürlər ki, gənə də bağı xarab etmişlər. Padişah ikinci gecə ortancıl oğlını göndərir, bu da ağşamdan bir az keçmiş yatır, genə oğru gəlib bildigini eləyir. Üçüncü gecə kiçik oğlunu göndərir. Bu isə yatmayım diyə, barmağının birini kəsüb yerinə duz doldurur. Gecənin bir vəxti görür ki, bağa bir zorba dev gəldi. Şahzadə bilir ki, tənəkləri xarab edüb üzümü dərən budur. Tez nişan alub buna bir ox atır. Ox isə boşa keçir. Dev bağda adam olduğunu duyub tez qaçır. Şahzadə də bunun dalıncan düşür.

Bir xeyli yol gedəndən sora, qabaqlarına bir daş çıxır. Şahzadə görür ki, tez dev daşı qaldırır, altından bir quyu çıxır. Dev quyuya girir, daşı da gənə yerinə qoyur. Bunu gördikdən sora şahzadə evlərinə qayıdub, əhvalatı qardaşlarına söyləyir. İp götürüb qardaşlarilə quyunun başına gəlirlər. Şahzadə əl atır daşa, qaldurıb quyunun ağzından bir

səmtə yığırlar, ipi belinə bağlayub quyuya düşür. Qardaşları da quyunun kənarında qalub bunu gözləyirlər. Şahzadə quyunun dibinə düşdikdən sora ipi açub yol getməgə başlayur. Bir qədər yol getdikdən sora bir imarətə yetişir. İçəri daxil olanda görir ki, bir təxtin üstündə üç gözəl qız əyləşmişlər. Qızlar bunu görəndə qorxuya düşüb buna diyirlər:

– Oğlan, sən nə cürət edib buraya gəldin? Bura devlərin məskənidir. Dev yuxudan qalxanda səni öldirəcəydi.

Şahzadə dedi:

– Mən eşitmişəm devin cani şişədə olur. Şişənin yerini mana göstərin. Devi öldürüm, sizi də buradan xılas edim.

Qızların ən kiçigi ki, hamısından gözəl idi, qalxıb şişənin yerini buna göstərdi. Bu halda dev yuxuda görür ki, bunun cani içində olan şişə adam əlinə düşmüşdür. Tez yuxudan qalxub şahzadə olan evə yügürür. Şahzadə şişəni əlinə alub daşa çalmaq istəyirdi ki, dev yetişib şahzadə ilə dutuşdi. Bir qədər qovğa etdikdən sora firsət edüb şişəni daşa çaldı. Şişə parçalandıqda dev də yıxılub həlak oldu. Bundan sora qızları götürüb quyunun yanına gəldi, böyük qızı ipə bağlayub qardaşlarına xəbər verirdi ki, ipi çəksinlər. Bundan sora ortancıl qızı ipə bağlayub qardaşları çəkdi. Nöbə kiçik qıza gələndə, qız dedi:

– Mən bunların hamısından gögcəyəm. Qardaşların məni görsələr, artıq səni yuxarı çəkməzlər, sən burada tələf olarsan. Yaxşısı budur ki, qabaxca sən çıx, sora məni çıxardarsan.

Şahzadə buna razı olmadı, onda qız buna deyir:

– Əgər, qardaşların məni yuxarı çəksələr onda quyunun sağ tərəfinə get. Qabağına biri ağ, biri qara iki qoyun çıxacaqdır. Cəhd elə ağ qoyunun dalına min. Onda o səni ışıqlı dünyayə atacaqdır, gəlüb bizi tapacaqsan. Yox, qara qoyunun dalına minsən, səni qaranlıq dünyayə atacaqdır.

Bundan sora qardaşları kiçik qızı da çəkirlər. Nöbə şahzadəyə çatanda, yolun yarısında ipi kəsirlər. Şahzadə quyunun dibinə düşür. Şahzadənin qardaşları qızları götürüb atalarının yanına gəlür, ona belə söyləyirlər:

– Kiçik qardaşımız dev ilə dava etdikdə həlak oldu. Biz devi öldirdik, qızları da xılas etdik.

Padişah da oğlanların sözlərinə inanır.

Şahzadə quyunun dibinə düşənnən sora quyunun sağ tərəfinə yol başlayır. Bir qədər getdikdən sora qabağına bir qara qoyun, bir ağ

qoyun çıxır. Şahzadə ağ qoyunun belinə atılmax istəyir, qara qoyun belini irəli dutur, bu da onun belinə düşür. Qara qoyun, bunu qaranlıq dünyayə atır. Yerə düşdikdən sora bir qədər yol gedir. Görür ki, bir qız əlində bir qab aparır. Bundan sorur ki:

– Apardığın nədir?

Qız cavab verir:

– Çörəkdir.

– Bunu kimin üçün aparırsan?

– Burada bir əjdəha peyda olubdur, suyun başını kəsüb, kimsəyi su aparmağa qoymayır. İmdi bu xörəki aparıram ki, əjdəha bunu yiyəndə mən də firsət edib qabımı su ilə doldurum. Hər gün işimiz boylədür.

Şahzadə bu sözi eşitdikdə dedi:

– Qabı mana ver, mən bu saat əjdəhanı öldürüm, səni də xilas edim.

Şahzadə xörəki yedikdən sora gedüb əjdahani öldürür, xəlqi azad eləyir. Qız bunu görəndə, tez əlini əjdəhanın qanına batırıb şahzadənin kürəginə basdı. Bu xəbəri eşitdikdə bir neçə adam yügürdü padişaha əjdəhanı öldürdüklərini söylədilər. Bu tərəfdən şahzadə gedüb bir böyük ağaca yetişdi. Bu ağacın başında bir böyük yuva, yuvanın içində bir neçə quş balası var idi. Şahzadə yorulduğundan yıxılıb ağacın kölgəsində yatır. Bir qədər yatdıqdan sora quş balalarının bağırtısına yuxudan qalxub görür ki, bir ilan ağaca qalxub quşun balalarını yemək istəyir. Tez qalxub ilanı öldürür, genə də yatır. Bu halda bir zorba quş uçub gəlir. Şahzadəni ağacın dibində yatmış görəndə, elə xiyal edir ki, gündə gəlüb bunun balalarını yiyən budur. İstəyir ki, aşağı ənüb şahzadəni öldürsün balaları bağırışırlar:

– Ana, onı öldirmə, o bizim düşmanımız ilanı öldürüb.

Quş bu sözləri eşidəndə aşağı ənüb qanadlarını açub şahzadəyə kölgəlik edir. Bir xeyli yatdıqdan sora şahzadə oyanır. Quş buna deyir:

– Sən mənim balalarımı düşməndən xilas etdin, indi məndən nə istəyirsən, istə.

Şahzadə cavab verir ki, xahiş edirəm məni ışıqlı dünyayə çıxarasan.

Quş cavab verir ki, get bir qoyun, bir tuluq da su tap gətir. Səni işıqlı dünyayə çıxarım. Bu sözdən sora şahzadə o yerin padişahının yanına gedir və əjdəhanı öldürüb xəlqi zillətdən xilas etdigini söyləyir. Padişah inanmaq istəməyir. Onda şahzadə əjdahanı öldürəndə bir

qızın gördügünü bəyan edir. Padişah əmr edir, həmən qızı tapub gətirirlər. Qız Şahzadənin sözini təsdiq edir. Padişah əjdəhanı bu öldürdügünü nədən təyin etdigini qızdan soranda, qız cavab verir:

– Mən o vəqt əlimi əjdəhanın qanına bulayıb onın kürəginin ortasına basmışam.

Baxub görürlər ki, doğrudan da oğlanın kürəgində qanlı əl nişanəsi var. Ondan sora padişah şahzadəyə deyir:

– Məndən nə istəyirsən, söylə verim.

Şahzadə:

– Səndən bir qoyundan, bir tuluq sudan başqa heç bir şey istəmirəm.

Şah əmr elədi, şahzadə istədigini verdilər. Şahzadə qoyunu öldürüb ətini, bir tuluq suyu götürüb quşun yanına gəlir. Quş buna dedi:

– Minərsən mənim dalıma, mən "qa" diyəndə ət, "qu" diyəndə su verərsən. Ta ki səni ışıqlı dünyaya çığararam.

Bu sözlərdən sora şahzadə quşun dalına minir. Quş "qa" dedikdə ətdən, "qu" dedikdə sudan verir. Işıqlı dünyaya az qalmışdı ki, ət qurtardı. Şahzadə bıçağı çığardub öz budundan bir parça kəsib quş "qa" edəndə ona verir. Quş qanır ki, bu adam ətidir, yeməyib ağzında saxlayur. Qərəz boyləliklə ışıqlı dünyayə çıxırlar.

Burada quş şahzadəni yerə qoyur. Görür ki, şahzadə yeriyəndə axsayur. Həmən saat əti çıxardıb yerinə qoyur, qanadını sürtür, yara sağalır. Quş burada xudahafis edib geri qayıdır. Şahzadə də başlayur vilayətlərinə getməgə. Bir müddət getdikdən sora gəlüb atasının yanına çıxır. Qardaşlarının əhvalatını atasına söyləyir. Padişah da oğlanlarını çağırıb onlara xəbər verir. Şahzadəni öz yerində vəliəhd edir. Kiçik qızı da toy edüb buna alır.

## MƏLİK MƏHƏMMƏD

Biri var imiş, biri yox imiş, bir padişahın üç oğlı var imiş. Böyük oğlının adı Məlik Cəmşid, ortancıl oğlının adı Məlik Əhməd, kiçik oğlının adı Məlik Məhəmməd. Bu padişah öləndə oğlanlarını yanına çağurub, onlara belə bir vəsiyyət edir:

– Mən öləndən sora Məlik Cəmşid, ondan sora Məlik Əhməd və ondan sora Məlik Məhəmməd padişah olsun, məmləkətin hər bir səmtinə getməgə ixtiyarınız var. Əmma, filan dağın o tərəfinə getməyin ki, axırda zərər çəkərsiniz.

Padişah öləndən sora Məlik Cəmşid padişah olur. Bir gün Məlik Cəmşid qoşun götürüb ava çıxır. Nə qədər dolanırsa, əlinə bir şey keçməyür ta ki, gəlib atası vəsiyyət etdigi dağı aşır. Bu halda bunların qabağına bir maral çıxır. Məlik Cəmşid qoşun əhlinə söyləyir ki, mən bu maralın dalıncə gedəcəyəm, üç gün məni bayırda gözləyin. Bu müddətdə gəlməsəm onda gedüb Məlik Əhmədi özünüzə padişah edərsiniz. Bu sözü söyləyüb maralın dalınca at salub gözdən qayıb olur. Qoşun üç gün gözləyüb şəhərə qayıdır, bir müddətdən sora bir gün Məlik Əhməd qoşun götürüb ava çıxır və bunun də əlinə bir şey keçməyüb həmən dağı aşır. Gənə də həmən marala rast gəlirlər. Bu da qardaşı kimi vəsiyyət edüb maralın dalınca qaçıb gözdən qayib olur. Qoşun əhli üç gün gözləyüb şəhərə qayıdır, camahat yığılub Məlik Məhəmmədi özlərinə padişah edirlər.

Bir müddətdən sora bu da qardaşları kimin qoşun götürüb ava çıxır, dolana-dolana həmən dağı aşırlar. Gənə marala rast gəlirlər. Məlik Məhəmməd qoşun əhlinə qardaşları kimi vəsiyyət edüb deyir:

– Üç günə kimi qayıtmasam, məsləhət gördüyinizi özinizə padişah edin.

Bu sözləri diyüb maralın dalınca at salır. Camahat üç gün gözləyüb şəhərə qayıdır.

Bu tərəfdən Məlik Məhəmməd maralın daliycən at salır. Maral bunu görən kimi qaçır. Müxtəsər, maral qaçır, bu qovur, ta ki gəlüb bir şəhərə çatırlar. Maral gəlüb şəhərin kənarında bir qapıdan girib gözdən itir. Məlik Məhəmməd gəlüb qapını açdı. Bunun qabağına bir qoca kişi çıxır. Məlik Məhəmməd:

– Maralım qaçub buraya girdi,– diyib qoca kişidən qaytarılmasını rica edir. Qoca kişi isə:

– Görürəm yoldan gəlmisən, yorulmusan. Buyur, gəl bu gecə qonağım ol, – diyib bunu evinə aparır, gecəni evində saxlayır. Gecə söhbət əsnasində qoca buna söyləyir:

– Şəhərin padişahının bir qızı vardır, neçə müddətdir ki, lal olmış, danışmayur. Padişah əhd etmiş ki, hər kəs üç dəfə qızı danışdırsa, qızı ona versin, özinü də vəliəhd eləsin. Hər kəs danışdıra bilməsə, onı zindana salsın. Odur ki, həpsxanə dolmuşdur, kimsə qızı danışdıra bilməyir.

Bu xəbəri Məlik Məhəmməd eşitdikdə qət edir ki, ertəsi gün getsin öz bəxtini sınasın. Bu fikrini qocaya da söylədi.

Ertəsi gün, səhər tezdən Məlik Məhəmməd yuxudan qalxub paltarını geyib, padişahın şəhrinə tərəf yol başlayur. Yolda bir tutu quşuna rast gəlir. Tutu quşu dilə gəlüb Məlik Məhəmmədə deyir:

– Ey Məlik Məhəmməd! Məni də özünlə apar. Qızın otağına daxil oldıqda qabaqca məni otağa bırax, mən xəlvət gedib güzginin dalında gizlənəcəyəm. Onda sən qapıdan daxil olanda, kimsəyə etina etmə. Güzgiyə salam ver. Ondan xahiş elə ki, sana qəribə bir əhvalat söyləsin. Qayıdanda gənə xəlvət məni özinlə qaytar.

Məlik Məhəmməd tutunu götürüb padişahın qəsrinə gəlir. Padişahə xəbər verirlər ki, bir oğlan gəlmiş, qızı danışdırmaq istəyir. Padişah əmr edir ki, oğlanı qızın yanına salsınlar. Tutu söylədigi kimi qapıdan daxil olanda xəlvət quşu bıraxır, quş da gəlüb güzgünün dalında gizlənir. Mələk Məhəmməd otağa daxil olub kimsəyə etina etmədən

güzgüyə səlam verir. Güzgünün dalında quş cavab verir. Hamı elə bilir ki, cavab verən güzgüdür. Sora bir qəribə əhvalat söyləməsini güzgüdən xahiş edir. Gənə də güzgünün dalından quş dilə gəlib söyləyir:

– Ey Məlik Məhəmməd! Məlumun olsun ki, bir nəfər dülgər, bir dərzi, bir molla yoldaş olub səfərə çıxmışdılar. Bunlar bir meşəyə yetişdilər. Axşam oldığından burada qalırlar, Qərar qoyurlar ki, nöbə ilə bir nəfəri yatmayub keşik çəksin. Püşg atırlar. Əvvəlinci nöbə dülgərə, ikinci nöbə dərziyə, üçüncü nöbə mollaya düşür.

Xülasə, molla ilə dərzi yatır, dülgər keşik çəkir. Yuxu bunu basmasın diyə durub ağacdan bir adam yonur. Vəqti bitdikdə dərzini oyadub özi yatır. Dərzi baxub görir ki, dülgər ağacdan bir adam yonubdur, bu da bir dəst paltar tikib adama geydirir. Vəqti tamam oldıqda mollanı oyadıb özi yatır. Molla baxıb görür ki, ağacdan bir adam qayırub buna bir dəst paltar geydirmişlər. Qanır ki, bu yoldaşlarının işidir. Bu da durub dəstəmaz alub, iki rükət namaz qılıb Allaha yalvarır ki, ona can versin. Həmən saat adam dirilüb gözəl bir qız olur. Sübh olduqda bunların arasına mübahisə düşür. Dülgər deyir ki, qız mənimdi, çünki onı mən yonmışam. Dərzi deyir ki, qız mənimdi, çünki paltarını mən tikmişəm. Molla da deyir ki, qız mənimdir, çünki duam ilə Allah ona can vermişdir. İndi ey Məlik Məhəmməd, söylə görüm, qız kimə çatacax?

Hekayə bitən kimi padişahın qızı biixtiyar əyağa qalxub söyləyir ki, qız mollaya çatasıdır.

Qızın danışdığını eşidüb tez padişahın yanına müjdəçi gedir ki, qız danışdı. Bu əsnadə Məlik Məhəmməd firsət tapub quşu götürüb gedir. Axşam quş Məlik Məhəmmədə deyir:

– Ey Məlik Məhəmməd, qız bu gecə güzgüni qırdi. Sabah mən bu pərdənin altına girəcəyəm. Odir ki, qapıdan girəndə salamini verəndə pərdəyə verərsən, hekayəni də ondan istərsən.

Ertəsi gün Məlik Məhəmməd libasını geyüb quşu da götürüb qəsrə gedir. Qızın otağına daxil olanda qabaxca quşu buraxır. Quş xəlvət gedüb pərdənin dalında gizlənir. Məlik Məhəmməd isə otağa daxil olub, kimsəyə etina etməkdən pərdəyə səlam verir. Pərdənin dalından quş cavab verir. Sora pərdədən qəribə bir əhvalat söyləməsini xahiş edir. Pərdənin dalından quş dilə gəlüb söyləyir:

– Ey Məlik Məhəmməd! Məlumun olsun ki, üç nəfər yoldaş olub bir şəhərə gedirlər. Burada işləyib hər biri xeyli pul qazanır. Bunlardan biri bir kitab, o birisi bir xalça, üçüncüsü bir qızıl tas alır. Kitabın

xasiyyəti bu imiş ki, hər kəs ona baxsa imiş dünyadəki vəqiat ona məlum olarmış. Xalçanın xasiyyəti bu imiş ki, onın üstündə oturub hansı yeri niyət etsəydin, xalça havaya qalxub oraya uçarmış. Tasın xasiyyəti bu imiş, onı su ilə doldurub niyət edüb hansı naxoşun başından tökülsəymiş, həmən xəstəlikdən şəfa taparmış.

Bunlar bir gün bir yerdə oturub söhbət etdikləri əsnadə kitab sahibinə deyirlər ki, baxsın görək dünyadə nə əhvalət üz verməkdədür. Baxıb cavab verir:

– Filan padişahın bir gözəl qızı var. Bərk xəstələnmiş, ölüm halındadır. Padişah əhd etmiş ki, hər kəs qızına əlac edüb sağaltsa, qızı ona versün.

Bu xəbəri eşitdikdə, xalça sahibindən rica edirlər ki, onları həmən şəhərə yetirsin. Xalça sahibi qəbul edüb bir saatə onları həmən şəhərə yetirir. Burada tas sahibi tasını götürüb padişahın hizurinə gəlir ki, mən qıza əlac edərəm. Padişah əmr edir, bunı qızın yanına aparsınlar. Qızın yanına yetdikdə, tası su ilə doldurub niyət edüb qızın başına tökür. Dərhal qız şəfa tapır. Padişah əhdinə görə qızı buna vermək istəyir. Ancaq o biri yoldaşları hər birisi davayə çıxırlar ki, qız onlara çatasıdır. Kitab sahibi deyir ki, mən olmasaydım, əhvalatı bilüb qıza şəfa verə bilməzdiniz. Xalça sahibi deyir ki, mən olmasaydım, tasım olmasaydi, hər halda, qız şəfa tapmazdı. İndi, ay Məlik Məhəmməd, söylə görək, qız kimə çatasıdır?

Bu sözü eşitdikdə biixtiyar qız ayağa qalxub deyir ki, qız sahibinə çatasıdır.

Qızın ikinci dəfə danışmağını gənə də padişaha xəbər aparırlar. Bu əsnadə Məlik Məhəmməd firsət tapub quşu götürüb gedir. Gecə quş Məlik Məhəmmədə deyir:

– Ey Məlik Məhəmməd! Qız pərdəni cırıpdır. Bu dəfə də taxtin altında gizlənəcəyəm. Odur ki, sənin səlamın, cümlə sual-cəvabın təxtə olmalıdır.

Ertəsi gün Məlik Məhəmməd qızın otağına girəndə genə xəlvət quşu buraxır. Quş xəlvət gəlüb təxtin altına girir. Məlik Məhəmməd otağa daxil olanda kimsəyə etina etmədən təxtə salam verir, cəvab alandan sora qəribə bir əhvalat söyləməsini xahiş edir. Təxtin altınnan quş dilə gəlüb söyləyir:

– Ey Məlik Məhəmməd, məlumun olsun ki, bir gün padişahın, vəzirin, vəkilin arvatları atlanub sehrə çıxmışlar. Yolda padişahın, vəzi-

rin arvatları baxub görürlər ki, yolda bir qızıl gərdənbənd düşübdür. Bunlar etina etməyürlər. Vəkilin arvatı düşüb götürür, evə qayıdanda gərdənbəndin üstündə mübahisə düşür. Padişahın, vəzirin arvatları diyirlər ki, qabaqca biz görmüşük, bizə çatar. Vəkilin arvadı deyir ki, mən görmüşəm mana çatar. İmdi, Məlik Məhəmməd, söylə görüm, gərdənbənd kimə çatacaqdır?

Kimsə cavab verə bilməyir. Genə padişahın qızı cəld qalxub deyir ki, vəkilin arvatına çatacaqdır.

Padişaha xəbər getdi ki, qız üç dəfə danışdı. Padişah Məlik Məhəmmədi hizurinə istəyür, qızını ona verüb özünə vəlihəd edir. Məlik Məhəmməd qardaşlarını, başqa dustaqları həpisdən azad edir.

# TAXTA QILINC

Biri var imiş, biri yox imiş, bir padişahın bir oğlu, bir arvadı var imiş. Bir gün bu padişah oğlunu, vəzirini, vəkilini götürüb qoşun ilə şikara çıxır, xeyli av etdikdən sora bir gözəl çəməndə çadır qurub, burada oturaq edirlər.

Padişahın oğlu həya etdiyindən, öz çadırını bir kənarda qurur.

Padişah oğlunu çox istədigindən, tez-tez onu yoxlarmış. Gənə də qalxıb oğlunu yoxlamağa gedir və gəlüb çadırə girdikdə, baxub görür ki, çadırın dalından bir qızıl ilan daxil olub oğlunu çalmaq üzrədür. Tez padişah başmağının bir tayını su ilə doldurub ilanın qabağına qoyur. İlan su içib qayıdır. Padişah isə oğlunu oyadub:

– İstəkli oğlum! Qalx, burada yatma. Məsləhət dəgil, – deyib əhvalatı ona söylədi, oğlu ilə bərabər öz çadırına qayıtdı. Bir az qalıb, şəhərə getdilər. Bu əhvalatdan bir neçə gün sora, padişahın arvatı bərk naxoşluyur, oğlunu yanına çağırıb ona belə bir vəsiyyət edir:

– İstəkli oğlum! Bu xəstəlikdən mən qalxmıyacayam, öləcəyəm. Mən ölənnən sora atan gedüb başqa arvat alacaq. Tazə aldığı arvat səni yola aparmıyacaqdur. Ağan ilə sənin aranda ziddilik düşəcək. Getgedə ziddilik artacaqdır. Atan qeyzə gəlib səni öldürmək istəyəcək. Atanı o məqama gəlməyə qoyma, baş götür bir müddət atayın vilayətindən çıx get. Yolda hər kəs ki, səninlə yoldaş oldu, çörəy yeyəndə sən öz çörəyivi ortaya qoy. Hərgah yoldaşın çörəyin çox hissəsini sənin qabağıva qoysa, onunla yoldaş ol. Yox, qabağıya qoymasa, onda ondan ayrıl, bir də yoldaşınla bir çayın kənarinə yetişsən, sən ona təklif

et ki, gəl dalıma min, səni sudan keçirdim. Əgər o səni dalına alıb sudan keçirsə, onda onnan yoldaş ol. Yox sənin dalıva minsə onnan yoldaş olma. Tez ondan ayrıl. Bu sözləri söyləyib, ana bı vəsiyyətlərini tamam etdi.

Oğlan qalxıb anasının əlinnən öpüb otaxdan çıxdı. Bir neçə gündən sora padişahın arvatı ölür. Bir müddətdən sora padişah gedib bir arvat alır. Bu ara arvad nanəcib olduğundan oğlanı yola verməyib hər nə ilə mümkündürsə, atasilə bunun arasına bir ziddilik salmağa çalışırdı. Odur ki, şahzadə anasının vəsiyyətinə əməl edüb, baş götürüb atasının vilayətindən çıxıb gedir. Oğlan bunnan haraya getdigini sorduqda, "başqa bir vilayətə", deyib cavab verdi.

Mənim adım Taxta qılıncdır. Məni də özinlə bərabər götür deyib cavan oğlan şahzadədən rica elədi. Xülasə, yoldaş oldular, bir qədər yol gedənnən sora, bir yerdə oturub çörəyi yemək istiyirlər. Şahzadə bir çörəyi çıxardıb ortuya qoyur. Oğlan çörəyi kəsib çox hissəsini şahzadənin, az hissəsini öz qabağına qoyur. Oğlan görür ki, anasının vəsiyyət etdigi üzərə yoldaşlığa layıq bir oğlandı. Çörəy yeyib yola düşdülər. Yolda bir çaya yetişirlər. Şahzadə ona təklif edir ki, gəl dalıma min, səni sudan keçirdim. Oğlan şahzadəni dalına alıb sudan keçirdir yollarına davam edib gedirlər. Bir müddət gedəndən sora bir şəhərə yetişirlər, burada ev dutub mənzil edirlər. Ertəsi gün cavan oğlan padişahın oğluna deyir ki, qardaş, sən evdə otur, mən gedim qazanım gətirim bərabər yeyək. O gedib gündə qazanıb gətirir, bahəm yeyirlər. Bir gün belə, beş gün belə, axırda padişahın oğlu fikir edir ki, nə vaxta kimin bu oğlan qazanıb gətirəcək, mən də yeyib bekar oturayağam? Mənim də iş görməyim lazımdır. Bu fikir ilə ayaqqabısını geyib evdən kənara çıxır. Küçələri dolanır. Bir vaqt baxub gördü ki, hündür bir imarətin pəncərəsindən gözəl bir qız baxır. Qızı görüb, ona aşıq oldu. Demə, bu imarət padişahın, qız da padişahın qızı imiş. Padişahın oğlu fikirli mənzilə qayıdır. Bir az keçir yoldaşı gəlir. Oğlan baxub görür ki, şahzadə çox beykefdi. Bundan səbəbini xəbər alır. Şahzadə isə əhvalatı buna söyliyir. Oğlan gülüb deyir:

– Elə bundan ötürün beykef olmusan? Bu ki asand işdir, yəqin bir vəqtdə o qızı sənə alaram, – deyib onı sakit etdi.

Ertəsi gün oğlan gedib elçi daşının üstündə oturdu. Padişaha xəbər getdi ki, elçi gəlib. Həmən saat adam göndərdilər ki, gedin görün sözü nədür. Oğlan cavab verir:

– Padişahın qızını qardaşım üçün istiyirəm.

Padişah xəbər göndərir ki, hər kim mənim imarətim kimin bir imarət tikdirsə, qızımı ona verərəm. Oğlan qəbul eliyir. Ertəsi gün xəlq yuxudan oyananda baxub görirlər ki, padişahın evinin qabağında bir ev tikilip ki, padişahın evindən min dəfə gözəldür. Oğlan padişaha xəbər göndərir ki, ev hazırdı. Padişahın artıq diyəcək sözü olmayub qızı verir. Toy olur. Şahzadə qızın yanına getmək istiyəndə oğlan deyir:

– Qardaş, hələ dayan, qoy qabaxcan mən gedim gəlim, sora sən get.

Şahzadə qəbul eliyir. Oğlan qızın yanına gedüb bunun ağzından üfürür. Həmən saat qızın ağzından bir-birinin dalıncan on bir ilan çıxır. Hər birisi çıxdıqca istiyir ki, oğlanı vırsın, əmma oğlan zirəhlik edib bir-bir on birin də öldürür. Sora qulağını qızın ağzına qoyub gördü ki, bir ilan da qalıb. Xülasə, qayıdıb oğlanı qızın yanına göndərir.

Demə ki, bunnan qabaxca qızı kimə verirlərmiş, əvvəlinci gecədə ilanın biri çıxıb oğlanı vurub öldürürmüş. Odu ki, padişah yəqin edirdi ki, bu oğlan da sabaha sələmət çıxmıyacaqdı.

Ertəsi gün sübh tezdən padişah bir adam göndərir ki, oğlannan bir xəbər gətirsin. Gəlib görirlər ki, salamat oturub qız ilə söhbət edir. Bu xəbəri padişaha aparanda padişah əmr edir ki, camahat üç gün şadyanlıq etsinlər.

Bir müddət burda qaldıqdan sora şahzadə öz vilayətlərinə qayıtmaq fikrinə düşür. Padişahdan rüsxət istiyir. Çox təkiddən sora padişahdan izn alır. Padişah bunlara çoxlı mal, qızıl-gümüş, dövlət verib yola salır, əmr edir ki, üç mənzil buları ötürsünlər.

Müxtəsər şahzadə oğlannan əvvəl görüşdükləri yerə gəlirlər. Burada oğlan şahzadəyə deyir:

– Qardaş, artıq ayrılmalıyıq, bu mal-dövləti də, qızı da bahəm qardaşlıqda gərək yarı bölək. Şahzadə razı olur hər şeyi bölürlər. Ancaq bölünməmiş bir dəvə, bir qatır, bir də padişahın qızı qalır. Oğlan deyir ki, buları yarı bölməliyik. Qılıncın çəküb əvvəl dəvəni, sora qatırı ortadan yarı bölüb, nobat qıza gəldikdə şahzadə nə qədər yalvarırsa, qızı yarı bölməsin, oğlan razı olmur. Axırda şahzadə təklif edir ki, cəmi dövlət onın olsun, ancaq qız bunun olsun. Oğlan gənə razı olmayır.

Sora şahzadə təklif edir ki, qızı bütöv götürsün. Gənə də oğlan razı olmur, qızı gətürüb bir ağaca səriyir. Qılıncı çəküb qaldırır və istiyir ki, qızın başın üzsün. Qız qorxusunnan qusur, ağzınnan axırmıncı ilan düşür. Bunnan sora oğlan qılıncı yerə qoyub şahzadəyə deyir:

– Mənə mal-dövlət, qız lazım deyil. Məqsədim həmən ilanı qızın ağzınnan çıxarmağ idi. Bu çığmasaydı bir gün çıxıb səni həlak edəcəydi. İndi bu malı, dövləti qızı götürüb atovın yanına get, bir də məlumun olsun ki, mən insan deyiləm. Mən həmən ilanam ki, aton yaxşılıq edüb başmaq tayında su vermişdi. İndi mən yaxşılıq borcından çıxdım. Artıq xudahafiz.

Bunu deyib oğlan bir ilan olur, bir deşiyə girib gözdən itir. Bunnan sora şahzadə atasının vilayətinə dəlir. Atası oğlunun gəlmək xəbərini eşidüb pişvaza çıxıb cah-cəlal ilə şəhərə gətirir. Bulara təzədən toy eliyir. Onlar yeyib-içib yerə keçib, biz də yeyəy-içək, dövrə keçək. Göydən üç alma düşdü, biri mənim, biri nağıl diyənin, biri də dinliyənin.

## SÜDƏMƏN

Biri varıdı, biri yoxudu, Allahdan başqa heç nə yoxdu. Bir böyük sövdəgar varıdı. Bının da bir qızı varıdı. Bı qız bir gün qızdarnan çıxmışdı siyahata. Bir dağda gəzirdilər. Bir vədə gördülər ki, bir ayı çıxdı, isdədilər qaçsınlar, qorxudan qaça bilmədilər. Bı ayı gəldi, qızdarın içinnən sövdəgarın qızın götürdü. "Ya Əli, mədət" – deyib apardı saldı bir kahıya, ağzına da bir iri daş döndərdi.

Bir ilin müddət bı qızı bırda saxladı. Bı ayıdan qızın boyuna bir uşax düşdü. Ay ötdü, il dolandı, gəldi bının bir oğlu oldu. Bının adın qoydu "Südəmən". Bu uşax yekəldi, bir yaşınnan iki yaşına, ikidən üçə, belə-belə gəldi çatdı yeddi yaşına. Bı qız da çox savaddıydı. Bı oğlana da dərs verip örgətdi. Anası gördü bı uşax elə zehinnidi ki, nə hərif deyir o saat onu götürür. Bı uşax gəldi çatdı on iki yaşına çox fərəsətti, qanacaxlı, başarıxlı uşax oldu. Bir gün Südəmən anasına dedi:

– Ana, sən də insan, mən də, bəs bı ayı nədi?

Anası dedi:

– Bala, mən Heydarabad şəhərində Həsən sövdəgarın qızıydım. Atam da qırx sövdəgarın böyüküydü. Bir gün qızdarınan siyahata çıxmışdım. Ayı məni ordan götürdü, gətirdi bıra, özünə arvad qayırdı. Onnan da gəldi, sən oldun.

Südəmən dedi:

– Ana, indi gedərsənmi, səni aparım atayın vilayətinə?

Anası dedi:

– Ay bala, o daşı ki, ora döndərip, onu nətər qalxızmax olar? Ayı da gələr, bizi öldürər.

Südəmən dedi:

– Ana, heç fikir eləmə, heç nədən qorxum yoxdu.

Dedi:

– Bala, di dur gedək, o daşı nətər qalxızax?

Südəmən dedi:

– Onnan sənin işin yoxdu, o mənim işimdi.

Südəmən durdu daşa bir təpik vırdı, daş yumalandı. Bı on iki, on üç ilin ərzində ki, bı arvad kahada qalmışdı, bir yerə çıxmamışdı, ta yeriyə bilmirdi. Dedi:

– Bala, axı mən yeriyə bilmirəm, qılçalarım ağrıyır.

Südəmən dedi:

– Ana, fikir eləmə.

Anasın aldı dalına, gəldilər. O günü axşamatan çıxdılar o dağın başına ki, ayı ordan bını aparmışdı. Gördü bir şəhər görükür. Südəmən dedi:

– Ana, bı şəhər nə şəhəridi?

Anası dedi:

– Bala, o şəhər Heydərabad şəhəridi ki, atam orda olur.

Bırdan anasın da aldı dalına, gətirdi dədəsinin şəhərinə, gəldilər əvə. Dədəsi, qızın görəndə çox şad oldu, gətirdilər qurban, niyaz kəsdilər, payladılar. Yedilər, işdilər, yaxşı hürmət-izzət elədilər qıza. Bir gün atası qızdan soruşdu ki, bala bı kimdi? Qız başına gələni atasına nağıl elədi, dedi:

– Bı da, həmən oğlumdu.

Atası dedi:

– Adı nədi?

Qız dedi:

– Adı Südəməndi.

Dedi:

– Bala, heç bir şey bilir, oxuyub?

Qız dedi:

– Bəli, savaddıdır.

Kişi bını genə apardı qoydu məktəbə. Bı məktəbdə oxudu. Hər kəsinən dalaşırdı, bir yumrux vırırdı, ölürdü. Gəldilər bı Südəmənnən şikayətçi oldular. Dedilər:

– Gedip paçcaha sənnən şikayət eliyəcəyik. Taa belə iş olmaz ki, sən eliyirsən, ta məktəbdə uşax qalmadı, hamısın sən öldürdün. Paçcaha camahat bı Südəmənnən hər gün şikayət eliyirdi. Bir gün atası qıza dedi:

– Bala, axı belə şey olmaz. Camahat hamısı mənim üzümə gəlir. Bına öyüd, nəsihət ver.

Südəmən məktəbdən gələndə anası dedi:

– Bala, belə şey olmaz, camahat hamısı sənin üsdündə babanı danıyır.

Südəmən dedi:

– Ana, bilirsən nə var? Mən isdəmirəm, babamın üzünə söz gələ. Maa birəz ayın-oyun ver, mən gedim bir başqa yerdə olum. Heç babamın üzünə də söz gəlməsin.

Anası dedi:

– Bala, hara gedirsən?

Dedi:

– Hara olsa, olsun.

Anası gətirdi bının heybəsinə çörəkdən, qənddən, ayın-oyın nə lazımıdı qoydu. Südəmən anasıynan, babasıynan, qohum-aqrabasıynan halal-himmət eliyib yola düşdü. Ağzın çevirdi bir bərri-biyabanınan getdi.O qədər ki gəldi, çıxdı bir yola, otdu bırda, xeylax dincəldi. Gördü iki də adam gəlir. Bınlar da gəldilər salam məleyküm, əleykəssalam, oturdular dincəldilər, düşdülər yola. Üçü də yolda biri-birinnən soruşdular:

– Bəli, hara gedirsiniz?

Dedilər:

– Gedirik, qəribə şəhərlərdə işdəməyə.

Südəmən dedi:

– Qardaşdar, biz oldux yoldaş, qardaşıx, xeyr ha xeyr, şər ha şər.

Oldular qardaş, gəldilər bir şəhərə, baxdılar gördülər bir yerinnən yazılıp ki, hər kəs bı şəhərə gəlsə, gərək bı hörküdən bir ip hörsün. Gördülər, bının böyründə də bir qalaça var. Girdilər bı qalaçıya, gördülər bırda hər şey var, yağ, düyü, kişmiş. Gəldilər ikisi hörgü hörməyə. Südəmən birinə dedi:

– Sən get xörək qayır.

Bı gəldi düyünü artdadı, xörəyi bişirdi, dəmə vırdı. Bir vədə gördü, qapı açıldı, bir kişi girdi. Özü bir qarış, saqqalı iki qarış, saqqalın da boynuna doluyub.

Dedi:

– Bir kəpgir o xörəyinnən mənə ver.

Bu götürdü xörəkdən bir kəfgir qoydu bir boşqaba, qoydu bının qabağına, onı yedi, dedi:

– Bir kəpgir də ver.

Bı dedi:

– Sənnən də başqa adam var axı!

Özü bir qarış, saqqalı iki qarış bına bir şapalax vırdı. Bı o saat yıxıldı, yıxılan kimi saqqalınnan bir tük çəkdi bının əlin-əyağın o tükünən möhkəm sarıdı. Yıxdı bir tərəfə. Xörəyi çəkdi qabağına, başdadı yeməyə. Təmiz yedi, durdu çıxdı getdi. Bı da çabaladı boyana-oyana, axırı bir təhərinən əlin açdı, əyağın da açdı. Durdu tələm-təlhdili bir xörək qayırdı, genə dəmə vırdı ta axşam çağıdı. Gəldilər üçü də yığışdılar bı xörəyi çəhdilər yedilər. Gördülər içi daşdı, kəsəkdi. Elə bil heç bı düyü artdanmıyıp. Yedilər, içdilər, yatdılar.

Səhər açıldı bılların ikisi genə getdi hörgü hörməyə. İndi də o biri qaldı əvdə. Bı da hər şeyi hazırradı, xörəyi bişirdi dəmə vırdı, gördü qapı açıldı, içəri bir adam girdi – özü bir qarış, saqqalı iki qarışdı. Saqqalın da doluyub boynuna.

Dedi:

– Bir kəfgir o xörəkdən maa ver!

Bı da bir qab gətirdi, bınnan bir şapalax qoydu verdi, bını da yedi.

Dedi:

– Bir kəfgir də ver.

Bı da dedi:

– Zalım oğlu, zalım, bizinən şərik deyilsən ha? Axı sənnən də başqa adam var.

Özü bir qarış, saqqalı iki qarış o saat bına bir şapalax vurdu, bı yıxıldı. Saqqalınnan bir tük çəkdi, bının əlin də, əyağın da möhkəm bı tükünən sarıdı. Yıxdı bir tərəfə. Başdadı xörəyi qabağına qoyub yeməyə. Yedi, təmiz qutardı, çıxıb getdi.

Bı da o yana, bu yana partdadı. Əlin aşdı, onnan da əyağın da aşdı durdu. Başdadı genə təzədən xörək qayırmağa. Xörəyi hazırladı dəmə vırdı, axşam üçü də yığışdılar xörəyi yedilər gördülər bı xörək də onun kimidi.

Bı ikisinin sirri bir oldu. Südəmən bilmədi. Gecə yatdılar, bəli, səhər açıldı, nöbət gəldi Südəmənə. Südəmən gətirdi düyü artdadı. Bir

qazan xörək qayırdı, dəmə vırdı. Gördü qapı açıldı, içəri bir adam girdi – özü bir qarış, saqqalı iki qarışdı. Gəldi Südəmənə dedi:

– O xörəkdən bir kəfgir ver maa.

Baxdı gördü saqqalını boynuna doluyup. Özü-özünə dedi ki, hə, bılların başına oyun gətirən budu. Dedi:

– Gözün çıxa, bir düyü də verməram.

İstədi ki, bı Südəməni vırsın, Südəmən əl atdı bının saqqalınnan tutdu. Bını vırdı yerə, başdadı bının başın kəsdi, baş bir tərəfə yumalandı düşdü quyuya, bədən də başqa quyuya. Südəmən gördü baş deyir ki, gözəl isdiyən maa sarı gəlsin, bədən deyir, xəznə isdiyən maa sarı gəlsin.

Gəldilər yoldaşdarı axşam cəmləşdilər, xörəyi çəkdilər yedilər. Gördülər bı çox yaxşı, ləzətdi xörəkdi. Yatdılar.

Səhər açıldı Südəmən dedi:

– Qardaşdar, bilirsiniz nə var? Sizin başınıza oyun gətirən, özü bir qarış, saqqalı iki qarışı öldürmüşəm. Başı diyirənip o quyuya düşüp, leş də bı biri quyuya. Baş dedi ki, gözəl isdiyən maa sarı gəlsin; leş dedi ki, xəznə isdiyən, maa sarı gəlsin. Qardaşdar, gəlin, indi məni sallıyın gözəl olan quyuya.

Bını salladılar quyuya. Getdi gördü, bir neçə qızdı, bı başı alıplar qucaxlarına, ağlıyırlar. Bı qızdar o qızdardı ki, Allah-tala xoş gündə, xoş satda yaradıp. Bı qızdar dedilər, bı bizim babamızdı, o otaxda nə var hamısı bınındı. Orda hər kəs ki xörəy qayırardı heylə eliyərdi. İndi sən bını öldürdün. Sənin adın nədi?

Dedi:

– Mənim adıma Südəmən deyərlər.

Qızdar dedilər:

– Ay Südəmən, əziyyət çəkmisən, əziyyət də çəkəcəksən. Onnar bizi görsələr, səni quyuda qoyacaxlar, onda sən bir ağ qoçunan bir qara qoç gəlip bırda hələşəcək. Onda elə atılıp mindin ağ qoçun belinə, işıxlı dünyaya çıxardacax, elə ki, qara qoçun belinə düşdün, səni elə vıracax yerə ki, yeddi qat yerin altına gedəcəksən, çıxacaxsan qarannıx dünyaya.

Südəmən qızdarı quyudan sandığa qoydu ağzın bağladı. Gətirdi dedi:

– Çəkin bılları!

Çəkdilər, çöldə sandığı aşdılar, gördülər iki qızdı ki, yemə-işmə, bılların xəddi-xalına, gül camalına tamaşa elə. Bıllar dedilər ta Südəmən quyuda qalası oldu, elə adama biridi. Qızdarı götürdülər, ya Əli mədəd, getdilər kəndiri də qırdılar.

Südəmən qaldı quyuda. Oturup fikir eliyirdi ki, bı nə işdi mənim başıma gəldi. Gördü bıdı iki qoçdu gəlir, biri ağ, biri qara. Gəldilər, başdadılar həlləşməyə. Atıldı ki, ağ qoçun belinə düşsün, düşdü qara qoçun belinə. Qoç bını elə vırdı ki, yerə, yeddi tabağa yerin altına getdi, çıxdı qarannıx dünyaya. Gördü, bir qarannıx vilayətdi. Yavaş-yavaş Allaha pənah deyip, gəldi bir qarının əvinə. Bir gün, iki gün bı qarının əvində qaldı. Günnərin bir günü bı susadı.

Dedi:

– Qarı nənə, maa birəz su ver.

Qarı ayıp olmasın, çıxdı çölə bir qaba pəşav elədi, gətirdi verdi bına. Südəmən aldı isdədi içsin, gördü pəşav iyi gəlir. İçmədi, tulladı.

Dedi:

– Qarı nənə, bı nədi?

Qarı dedi:

– Bala, Allahdan gizdin deyil, bəndədən nə gizdin. Bir əjdəha peydah olup yıxılıp bizim kəhrizin ağzına, su onun qarnına gedir. Gündə bir adamınan bir nimçə aş gedir, bir gün su buraxır bizə.

Südəmən dedi:

– Qarı nənə, oranın yolu hardandı?

Dedi:

– Bala, elə buraynan get, qabağına çıxacax.

Südəmən əlinə qılıncın alır, yola düşür. Onda yetirdi, gördü bir qızdı əlində də bir nimçə aş ağlıya-ağlıya gedir. Qızın əlinnən xörəyi aldı yedi.

Dedi:

– Ağlama, indi bı saat mən o əjdəhanı öldürəcəyəm.

Durdu yavaş-yavaş getdi. Əjdaha elədi ki, qalxsın Südəmənin üsdünə. Südəmən bir "Allahü-əkbər" nərəsi çəhdi, elə sıçradı ki, düşdü əgdahanın o tərəfinə, qılıncı sivirdi. Elə vırdı ki, əjdəhanın başı sıçradı bırdan hara. Qayıtdı əjdəhanı parçaladı, tulladı o yana. Qız o saat əjdəhanın qanına əlin bılıyıp çəhdi Südəmənin kürəyinə.

Südəmən qayıtdı gəldi əvə dedi:

– Qarı nənə, di dur get su gətir.

Qarı dedi:
– Əjdaha necoldu?
Südəmən dedi:
– Əjdahanı öldürdüm.
Şəhərdə car çağırıldı ki, bəli, əjdəha ölüp, kim su aparacax, gəlsin aparsın. Paçcah bı xəbəri eşidip, çar çağırtdırdı ki, hər kəs o əjdəhanı öldürüp, gəlsin qızımı verəcəyəm ona. Paçcah gündə car çağırtdırırdı. Bı gəlirdi, mən öldürmüşəm, o gəlirdi, mən öldürmüşəm. Qızı da gətirmişdilər deyirdi: xeyr.
Beş gün tamamıdı, bı hər gün adamı yığırdı, öldürəni tapa bilmirdi. Altıncı günü paçcah dedi:
– Taa şəhərdə adam qalmıyıp ki?
Dedilər:
– Bəli, filan qarının əvində biri qalıp.
Əmr elədi ki, gedin onu gətirin. Getdilər Südəməni gətirdilər. Aparan kimi qız gördü dedi:
– Ata bıdı.
Paçcah dedi:
– Nə bilirsən?
Dedi:
– Nişanası da var.
Paçcah dedi:
– Qızım, nişanası nədi?
Qız kürəyin qavzadı, gördülər, bəli qız qanlı barmağının beşin də çəkib Südəmənin kürəyinə.
Paçcah dedi:
– Gəl qızımı verdim saa, otur mənim taxdımda. Bı şəhərə paçcahdıx elə.
Südəmən dedi:
– Xeyr, məni çıxart işıxlı dünyaya.
Paçcah dedi:
– Sana əlac eləmək mümkündü. Gedərsən, filan çinar ağacında bir zümrüd quşu var, əyər mümkün olsa, o əlac eliyəcək!
Bına bir bələtçi qoşdular, gəldi həmən çinarın yanına. Südəmən gördü bir əjdəhadı çıxır zümrüd quşunun yuvasına. O saat bir ox qoydu kamana, atdı əjdəhanı öldürdü, parçaladı tulladı yuvıya. Bını zümrüd quşunun balaları yedi, birəz də saxladılar analarına. Südəmən də başın qoydu yatdı. Bələtçi də qayıtdı gəldi.

Zümrüd quşu gəldi gördü ağacın dibində bir bəni-adəm yatıp, isdədi yensin bını öldürsün. Balaları çığrışdı, dedilər, ana, bıra bizi yeməyə bir əjdəha çıxırdı. O oğlan öldürdü atdı bizə, yedik yarısın da saa saxladıx.

Zümrüd quşu yendi gəldi qanadın tutdu Südəmənin üstdə. Oğlan üşüdü, oyandı. Gördü zümrüd quşudu qanadın tutup bının üsdə. Zümrüd quşu oğlanın oyanmasın gördü. Dedi:

– Ay oğlan, mənnən nə isdiyirsən?

Dedi:

– Sənnən heç nə isdəmirəm, ancax məni çıxart işıxlı dünyaya.

Zümrüd quşu dedi:

– Ey oğlan, gedərsən paççahdan yeddi tulux su, yeddi qoyunun cəmdəyin alıp gətirərsən, onnan sora səni çıxardaram işıxlı dünyaya.

Bı oğlan durdu yavaş-yavaş gəldi paççaha baş yendirdi. Dedi:

– Qibleyi-aləm! Maa yeddi tulux su, yeddi qoyun cəmdəyi ver!

Paççah o saat yeddi tulux su, yeddi də qoyun cəmdəyi yüklədi bir ata, verdi bına. Südəmən yavaş-yavaş götürüp gəldi. Zümrüd quşu dedi:

– Südəmən yığ belimə, özün də min. Mən "qaq" eliyəndə tuluğun birin at, "quq" eləyəndə cəmdəkdən birin at.

Dedi:

– Baş üstə!

Bılları yühlədi zümrüd quşunun belinə, özü də mindi düşdülər yola. "Qaq" eliyəndə tuluğun birin atırdı, "quq" eliyəndə cəmdəyin birin atırdı.

Belə-belə atırdı, yavıxlaşanda cəmdəyi atanda birdən cəmdək düşdü yerə. Südəmən o saat pıçağın çıxartdı, budunun ətinnən sivirdi atdı quşa. Quş gördü bı çox şirindi. Yemədi dilinin altında saxladı.

Bı quş gəldi çıxdı bir yerə, baxdı gördü ta bıra işıxlı dünyadı. Quş Südəmənə dedi:

– Taa yeri, get. Bıra işıxlı dünyadı.

Südəmən yeriyəndə quş gördü axsıyır.

Soruşdu ki:

– Südəmən, niyə axsıyırsan?

Südəmən dedi:

– Allahdan gizdin deyil, bəndədən nə gizdin, saa əti atanda yerə düşdü. Gətirdim budumun ətinnən atdım. İndi onçun axsıyıram.

Quş o saat dilinin altınnan əti çıxartdı verdi Südəmənə, qoydu öz yerinə. Quş qanadın da cəhdi üstdən, o saat Südəmənin qılçı oldu anadan doğma.

Quş dedi:

– Südəmən, mənnən ta nə isdiyirsən?

Südəmən dedi:

– Sənnən onu isdiyirəm ki, məni apar o şəhərə ki, orda məni salıplar quyuya.

Quş bını götürdü apardı həmən şəhərə. Südəmən gördü bını quyuya salan adamlar toy eliyir həmən qızdara. Getdi o iki adamları da öldürdü, qızdarı özü aldı.

Bir neçə gün yaşadılar, bir gün bı şəhərin paççahı öldü. Südəmən gördü car çağrılır ki, camahat yığılsın meydana. Dövlət quşu uçurdacaxlar paççah tihməyə. Durdu yavaş-yavaş getdi meydana. Bir kənarda durdu. Quşu uçurdular gəldi qondu Südəmənin başına. Gətirdilər bını paççah elədilər. Gördülər bı bir paççah oldu ki, heç olmuyan kimi əzazil. Yaxşı, Südəmən başdadı bırda paççahlıx eləməyə. Götürdü bir kağız yazdı anasının üsdə ki, "yığışın gəlin bıra. Mən bırda paççahlıx eliyirəm, kefim də çox yaxşıdı". Babası, anası, yığışıp gəldilər. Başdadılar bırda kef eliyip, yeyip-içip, gəzdilər. O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## GÜL SUMANA NEYLƏDİ?

Biri varıdı, biri yoxudu, Allahdan başqa heç kim yoxdu. Bir kasıb oğlan varıdı, adına Məhəmməd deyərdilər. Bu paççahın qızın isdiyirdi. Elçi göndərdi.

Paççah dedi:

– Getsin xəbər gətirsin görək, Gül Sumana neylədi, Suman gülə neylədi? Onnan sora qızımı verərəm ona.

Elçi gəldi paççah dediyin Məhəmmədə xəbər verdi. Məhəmməd dedi:

– Neynək, gedip gətirrəm.

Məhəmməd durdu, düşdü yola. Günə bir mənzil, tey-mənazil, gəldi çıxdı bir şəhərə. Gördü bu şəhərdə bir maşınçı var. Paltarı tikir, qaçıynan doğruyur tökür yerə, deyir:

– Gül Sumana neylədi, Suman Gülə neylədi?

Məhəmməd dedi:

– Yaxşı, onu da sana deyərəm.

Düşdü yola. Yavaş-yavaş gəldi, çıxdı bir şəhərə. Gəldi gördü bir qaltaxçı var. Qaltağı hazırrıyır. Sora çəkicinən döyüp əzir. Deyir:

– Gül Sumana neylədi, Suman Gülə neylədi?

Dedi:

– Yaxşı, sənə də xəbərin gətirrəm.

Getdi gördü bir dəmirçidi dəhrə, balta qayırır, hazırrıyır. Sora əzir bılları, deyir:

– Gül Sumana neylədi, Suman Gülə neylədi?

Qayıtdı şəhərdən çıxdı. Gəldi gördü üç dev gəlir. Devlər bını görəndə dedilər:

– Bəni-adəm kəsər şərimizi.

Devlər gəldi bına çatdı. Bı dedi:

– Şəriniz nədi?

Dedilər:

– Bir xəlçədi, bir sırfa, bir tac. Bölə bilmirik.

Məhəmməd dedi:

– Mən bölərəm. Onların mənası nədi?

Devlər dedi:

– Sırfanı açıp desən Süleyman peyğəmbər eşqinə filan şey hazır olsun, o saat nə isdəsən, hazır olar. Xəlçiyə də minərsən, deyərsən: Süleyman peyğəmbər eşqinə filan yerdə ol! O saat harda demisən, orda olar. Tacı da başına qoyarsan, heç kim görməz, amma sən hamını görərsən.

Məhəmməd dedi:

– Mən indi üç ox atacıyam. Hərəniz birinin dalınca gedin, hankınız tez gəlsə, sırfa onun, onnan sora hansınız gəlsə, xəlçə onun, hansınız axıra qalsa, tac onun. Devlər razı oldular. Məhəmməd oxları atdı. Bıllar oxun dalınca yüyürəndə, Məhəmməd sırfanı, tacı götürdü, mindi xəlçiyə.

Dedi:

– Xəlçə, Süleyman peyğəmbər eşqinə, ol Sumanın qapısında. Suman bir padşahıdı. O saat xəlçə Sumanın qapısında oldu.

Devin biri gəldi gördü bəni-adəm yoxdu, nə də ayın-oyun, o biri də gəldi dedi:

– Bəs, bəni-adəm hanı?

Dedi:

– Nə bilim hara getdi?

Bı dedi:

– Sən yemisən bunu.

Vırdı devi öldürdü. O biri gəldi gördü, devin biri ölüp, bəni-adəm də yoxdu, nə də ayın-oyun. Soruşdu ki, bəs bəni-adəm hanı?

Dedi:

– Nə bilim!

O dedi:

– Onda bəni-adəmi yemisiniz, şeyləri də gizləmisiniz.

Vurdu bunu da bı öldürdü.
Məhəmməd gəldi düşdü Sumanın qapısına. Girdi içəri, dedi:
– Allah qonağı.
Suman dedi:
– Allaha da qurban olum, qonağına da, gəl.
Gəldi, oturdular. Axşam Suman xörək gətirdi qoydu Məhəmmədin qabağına. Məhəmməd dedi:
– Yemərəm. Gərək, deyəsən ki, sən Gülə neyləmisən, Gül saa neyliyib, sora yeyəm.
Suman dedi:
– Məhəmməd, çörəyini ye, onu soruşma.
Məhəmməd dedi:
– Xeyr, gərək deyəsən.
Bu Sumanın qırx otağı varıdı, ağzı olduğu otağa açılırdı, ancax olduğu otağın ayrı qapısı varıdı. Bu otağın birində qırx xəlçə varıdı, hamısı qatdalı yığılmışdı bir-birinin üsdünə. Onnarın hökmü Sumandaydı. Əvə qonax gələndə deyirdi, qırx xəlçə tut, tuturdular. Dedi:
– Məhəmməd, dur gəl bura.
Apardı bir zirzəmi gösdərdi ki, ağzınacan insan meyidi idi.
Dedi:
– Məhəmməd, bax isdiyirsən sən də öləsən, söylüyüm. Hər kəsə söyləsəm, söyləyip qurtarannan sora öldürürəm.
Məhəmməd dedi:
– Neynəh, öldüsən də de.
Məhəmməd öz ürəyində dedi:
– Örtülü qapılar hamısı Süleyman peyğəmbər eşqinə açılsın, açıx qalsın, qatdalı xəlçələr də açıx qalsın.
Suman dedi:
– Di Məhəmməd, xörəyini ye, saa nağıl eliyəcəyəm.
Məhəmməd gördü, bir tulası var, buna çox hörmət eliyir, xörəyi çəhdi bir nimçiyə, gətirdi qoydu tulanın qabağına, artıq qalan nə qədər də sümüyü-zadı var, onu da bucaxda bir qatır bağlamışdı, apardı töhdü onun qabağına. Qayıtdı qatıra bir ağac vırdı, qatır başdadı sümüyü yedi. Suman dedi:
– Məhəmməd, mənim iki atım var, çox xətrin isdərəm. Elə görürəm bu atdar günü-günnən geri gedir, meytərrərə deyirəm, bəs mənim alafım necə olur ki, bu atdar günü-günnən sınıxır, deyirlər, nə bilim.

Hər gecə də əmim qızı Gül, yanıma girəndə buz kimi olur. Deyirəm:

– Hara getmişdin ki, belə söyüxsan?

Deyir:

– Heç yerə, çölə çıxmışdım.

Meytər bir gün dedi:

– Suman sən böyüksən, yoxsa Gül?

Dedi:

– Əlbətdə, mən. Necə?

Dedi:

– Hər gecə Gül sənin paltarını geyinir, atın birin yəhərrədir minir, çıxır, gedir.

Məhəmməd o gecə barmağımı kəsib duz doldurur, yatmır. Gecənin bir aləmi görür o, durdu, mənim paltarımı geyindi, göydən qılıncı sivirdi, üç dəfə mənim üsdümə yendirdi qalxızdı, çıxdı getdi. Meytərə dedi:

– At hazırdı?

Meytər dedi:

– Hazırdı.

Atı mindi düşdü yola. Mən də o biri atı mindim bunun dalınca qarabaqara getdim. Gördüm, bir dağın dibində işıx gəlir. Gül bu işıxı tuşduyup gedir. O qədər getdi ki, gördüm həmən dağın döşündə bir imarat var. İmaratın qapısında düşdü, atı bağladı, girdi içəri. Mən də atı bağladım gəldim pəncərədən baxdım, gördüm qırx haramıdı, burda oturublar. Gülnən söhbət eliyirlər. Haramibaşı Gülə dedi:

– Çəpəl, bəs niyə gec gəldin?

Gül dedi:

– Nə bilim, yatmamışdı. Gözdədim yatdı, gəldim.

Haramibaşı dedi:

– Bəs niyə öldürmədin?

Gül dedi:

– Nə bilim, öldürmədim.

Amma gördüm tövlədən otağa yol var. Girdim gördüm qırx at bağlanıp ki, ta nətər, yeyip yatmış atdardı. Bılların bir neçəsinin noxdasın açdım, atdar başdadılar təpikləşməyə. Haramibaşı bıllara dedi:

– Biriniz gedin görün atdar niyə belə eliyir?

Atdar belə elədikcə bir-bir gəldilər mən də boyunnarın vırdım, yıxdım. Belə-belə otuz doqquzunun boynun vırdım, girdim içəri. Harami başıynan tutaxlaşdım. Gördüm Gül isdiyir məni Harami başının altına sala. Bı tula da yanımdeydi. O saat tula Haramibaşını yığışdırdı saldı mənim altıma. Qayıtdım Haramibaşının başın kəsdim saldım torbaya. Əmim qızı Gül o saat durdu çıxdı. Atı mindi gəldi. Mən də torbanı götürdüm bının dalıncan gəldim əvə. Əmim qızına çox məhəbbətim varıdı, heç qəlbim onnan sınmırdı. Nə qədər öyüd, nəsihət elədim, gördüm, xeyr heç bı hala gələn deyil. Səhər açıldı durdum dedim:

– Əmi qızı, dur çay qoy, xörək qayır.

Mana bir vürd oxudu elədi bir tula, dedi:

– Get, köpoğlunun tulası!

Mən oldum tula, bırda itdər boğdu, orda itdər boğdu. Getdim çıxdım bir qəssəbxananın qabağına. Bu qəssəbin şəyirdi maa bir parça çiy ət atdı. Bını yemədim.

Dedi:

– Bı nə yaxşı tuladı, bunu saxlıyacıyam.

Gətirdi mənim boğazıma bir xalta saldı, apardı otağın bir küncündə bağladı. Gördü mən çiy ət yemirəm. Nə bişirirdi, maa da onnan verirdi. Hər gün bir qızıl gətirip salırdı mənim başımın üsdündəki o daxil kimiyə, bilirdim ki, bını qəssabdan daldalıyır.

Qırx gün burda qaldım. Hər gün də görürəm ki, o bir qızıl gətirir, salır bı daxıla. Qırx gün tamamında bullar gileyləşip ayrıldılar. Malı, mayanı böldülər. Gəldi məni çəkdi ki, açsın aparsın, ayağımı yerə dirədim, getmədim. Bir çomax götürdü gəldi ki, məni döysün. Atıldım o daxılı tökdüm. Bı bildi ki, mən onçun getmirmişəm. Qızılları yığdı, qəssəbə də dedi:

– Bını da oğurramısan.

Məni də götürdü, qızılları da, gəldi əvinə. Bağladı məni bir bucağa, altıma da bir döşəy saldı. Anasına da tapşırdı ki, buna yaxşı baxın. Yaxşı tuladı, maa da bir belə xeyr verip. Bullar da nə bişirseydilər maa da verirdilər. Mən də öz ürəyimdə dedim, mən nətər eliyim, dərdimi bıllara bildirim. Heç demeynən, bı arvad da cadıkun imiş. Bının qızı həməşə mənim payımı gətirip verirdi. Bir gün çörəyi qoydu qabağıma. Başdadı zənd elədi maa.

Dedi:

– Ay nənə, bı Sumana oxşuyur.

Qayıtdı maa dedi:

– Sən Sumansan?

Mən ağladım.

Dedi:

– Ay nənə, vallah Sumandı, bax Sumansan, dedim, ağladı.

Arvat gəldi baxdı, gördü Sumanam. O saat barmağın dişdədi ki, bını o çəpəl bu hala salıp.

Arvat dedi:

– Yaxşı, qoy oğlan gəlsin.

Oğlan əvə gəldi. Arvat dedi:

– Bala, bı Sumandı! Gül bını bı hala salıp.

Oğlan dedi:

– Ana, əlacın varsa, öz halına sal, o bizə çox yaxşılıxlar eliyip.

Arvat o saat bir vürd oxudu. Mən oldum həmən Suman. Məhəmməd, qayıtdı bir vürd də maa örgətdi.

Dedi:

– Gedərsən, bı vürdü oxursan, deyərsən: "ol filan şey!" O saat nə desən, o olar.

Gəldim əvə. Mənim onda o qədər isdəyim varıdı ki, ürəyim qəbul eləmədi ki, o vürdü oxuyam, onu bir şey qayıram. İçəri girən kimi dedi:

– Get, köpoğlunun qarğası.

O saat bir qarğa oldum.

Burda qarğalar döydü, orda döydü. Bir təhərnən özümü saldım həmən qarının yanına.

Qarı dedi:

– Səni yaxşı eləmiyəciyəm, mən sana vürd oxudum ki, get, onu bir şey elə. Eləmədin. Beş gün, on gün qaldım, bir gün genə oğlan yalvardı ki, ay anan, sən Allah, bını yaxşı elə! Arvat bir vürd oxudu, mən oldum həmən adam.

Dedi:

– Bı səfər eləməsən, taa səni yaxşı eləmiyəcəyəm.

Gəldim içəri girdim, genə ürəyim qəbul eləmədi.

Məni görən kimi dedi:

– Get, köpoğlunun eşşəyi, oldum bir eşşək. Verdi çarvadara. O qədər işdətdilər ki, əldən düşdüm. Çarvadarrar boşdadılar məni. Gəldim bı qarının əvinin börünə. Orda otdadım, orda da yatdım. Bı oğluynan

qızı genə yalvardılar ki, bını sağalt yazıxdı. Bı gətirdi genə bir vürd oxudu. Genə oldun həmən əvvəlki Suman. Dedi:

– Gedərsən, bu səfər ona bir şey eləməsən, taa yaxşı elmiyəciyəm!

Gəldim, Məhəmməd, o vürdü oxudum elədim qatır. İndi bax o qatır, odu i, sümüyü tökmüşəm qabağına. Bı tula da həmən harami başını mənim altıma salan tuladı. Görürəm bı tula əmim qızınnan vəfalıdı. Onun üçün ona yaxşı hürmət eliyirəm. Bı başda haram başının başıdı ki, çubuğunan döyürəm, o yeyir. Onu da heylə eliyirəm. Məhəmməd, mənim dərdim budu.

Məhəmməd xörəyin yedi. Suman dedi:

– İndi də öldürəcəyəm səni.

Suman durdu ki, qapını bağlasın, Məhəmmədi öldürsün. Məhəmməd o saat tacı başına qoydu. Ta Suman Məhəmmədi görmədi. Ancax Məhəmməd Sumanı görürdü. Suman qapını bağladı, gəldi, dedi:

– Örtüyü qapılar, tut!

Gördü heç səs çıxmadı. Dedi:

– Qatdalı xəlçələr, tut!

Gördü heç səs çıxmır.

Qılıncı sivirdi, dedi:

– Çəpəl, mən dedim bı sir çölə çıxmasın, ta indi ki çıxdı, sənin qalmağın lazım deyil!

Qayıtdı bı qatırı elə doğradı ki, pul kimi.

Məhəmməd ayın-oyunnarın götürdü çıxdı çölə. Çöldə xəlçiyə mindi, dedi:

– Xəlçə, Süleyman peyğəmbər eşqinə, dəmirçinin qapısında ol!

O saat gördü həmən dəmirçinin qapısındadı. Necə ki, Suman nağıl eləmişdi, heylə nağıl elədi.

Ordan da gəldi qaltaxçının dükanına ona da nağıl elədi. Mindi xəlçiyə dedi:

– Xəlçə, Süleyman peyğəmbər eşqinə, ol filan maşınçının dükanının qabağında!

Gəldi ora. Maşınçıya da söylədi. Ordan da genə xəlçiyə mindi, dedi:

– Xəlçə, Süleyman peyğəmbər eşqinə, ol həmən paçcahın qapısında

Gəldi ora, paçcaha baş yendirdi, dedi:

– Ey paçcah, bir qonaxlıx elə, camahatı yığ. Camahatın yanında söylüyüm. Hamı da eşitsin.

Paççah əmr elədi, camahatı yığdı. Bı oğlan da dedi ki, heç bir şey lazım deyil, özüm hamısın düzəldəciyəm, işiniz yoxdu. Camahat hamısı cəm oldu. Məhəmməd sırfanı aşdı qabağa.

Paççah dedi:

– Nə var ki, bı sırfanı aşdı?

Bir də gördü Məhəmməd dedi:

– Süleyman peyğəmbər eşqinə bı camahatın hərəsinə bir qab xörək isdiyirəm! O saat hər adama bir nimçə xörək, yanında xurudu, xörəyinən hazır oldu. Paççah məhətdəl qaldı bı işdərə. Yedilər, içdilər yığışdılar. Məhəmməd necə biz söylədik, heylə söylədi.

Paççah, o saat bir molla gətirtdi, qızın kəbinin kəsdirdi Məhəmmədə.

Dedi:

– Di, get toyun ehtiyatın gör!

Məhəmməd toyun ehtiyatın gördü. Gəlini gətirdi.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin.

## GÜL İLƏ SANAVAR

Biri var idi, biri yox idi. Günlərin bir günündə bir padişah var idi. Bu padişahın üç oğlu vardı. Günlərin bir günündə üç qardaş bir-birinə diyirlər:

– Gəlin, atamıza xəbər yollayaq ki, biz yetişmişik.

Qardaşlar bazara çıxıb üç dənə qovun alırlar. Bu üç qovunun biri lap yetişmiş, o biri miyanə, üçüncisi alababat. Bu üç qovunu qızıl məcməyəyə qoyub ataları üçün yolladılar. Padişah qovunu görüb tez vəziri çağırtdırdı:

– Vəzir bu qovunlar nə olan işdir?

Vəzir dedi:

– Padişah sağ olsun, bu qovunları oğlanların alub, yəni biz bu qovunlar kimi yetişmişik.

Padişah fikrə getdi.

– Eybi yoxdur, vəzir get bu saat üç dənə ox gətir, apar ver oğlanlarıma qoy nişan alsınlar, bəxtlərinə nə çıxdı onların olsun.

Səhər oldu, car çəkildi, heç kim evdən bayıra çıxmasın. Padişahın oğlanları ox atdılar. Birininki vəzirin qapısına düşdü. O birinki vəkilin qapusuna düşdü. Vəzirin qızını padişahın böyük oğlu aldı. Vəkilin ortancılı aldı.

Xəbəri verim sizə, padişahın kiçik oğlundan. Məlik Düçar ox atdı. Oxu gedib düşdü bir qara küllügə. Məlik Düçar onun düşdügü yerə gedib gördü ki, bir meymun qızıl zəncirə bağlanıb. Məlik Düçar meymunu açıb yola düşdü. Padişahə xəbər getdi ki, kiçik oğlunun bəxtinə

bir meymun çıxıb. Padişah qəmli oldu. Əmr verdi ki, şəhərin bir qırağında ona əv versinlər. Məlik Düçar meymunu götürüb getdi. Böyük qardaşdar qırx gün, qırx gecə toy edib evləndilər.

Məlik Düçar meymunu əvinə aparıb bir tərəfdə bağladı. Gecə-gündüz ağlayırdı. Günlərin bir günündə iki qardaş bir-birinə dedi:

– Görəsən, Məlik Düçar meymun ilə nə edir?

İkinci qardaş dedi:

– Gəl, Məlik Düçar üçün xəbər yollayaq ki, atamız bizdən hamam istiyir.

Bir gün Məlik Düçarı çağırtdırıb dedilər:

– Atamız bizdən hamam istiyir.

Məlik Düçar əvə qayıtdı, ağlaya-ağlaya meymunun yanına gəldi. Bu meymun pərilər padişahının qızı idi. Meymun Məlik Düçarın bu halın görüb dedi:

– Mən pərilər padişahının qızıyam. Mən sənin bəxtinə çıxdım.

Məlik Düçarın gözləri işıqlandı. Meymun cilitdən çıxıb bir qız oldu.

Məlik Düçar dedi:

– Atamız bizdən bir hamam istəyir.

Pərilər qızı dedi:

– Durma, gedərsən pərilər padişahının yanına, diyərsən ki, qızı pərilər xanım deyir ki, atamdan qalan qarpuzu versin. Sora o qarpuzu götürərsən. Gün batanda yox, gün çıxan tərəfdə qarpuzı yerə vurarsan, qayıdıb dala baxmıyasan.

Məlik Düçar getdi. Ağacı yerə vurub pərilər xanımın atasından qalan qarpuzi istədi. Bir əl çıxdı, Məlik Düçara qarpuzı uzatdı:

Qarpuzu alıb gün çıxan tərəfə gəldi. Qarpuzu yerə çırpıb dala baxmadan geri döndü.

Padişah səhər yuxudan durub bağa çıxdı. Bir sağa baxdı nə gördü bir hamam tikilib. Sola baxdı, nə gördü, biri də burda tikilib. Gün padişahın gözinə düşdi. Əmma gün çıxanda bir hamam tikilib ki, adamın ağlını alır. Padişah vəziri hizüra çağırdıb dedi:

– Vəzir, bu gün gərək oğlanlarımın tikdirdigi hamamlara tamaşa edim.

Vəzir, vəkil yığışıb padişahın yanına düşüb getdilər. Padişah böyük oğlun, sora ortancılısının hamamına gedib, axırıncısı Məlik Düçar tikdirdigi hamama gəldi. Padişah hamamın qapusuna çata-çatmiya

qullar-qarabaşlar padişahı əl üstə götürüb təxtə oturdular. Padişah çimdi. Əmma bu hamam padişahın huşini aparmışdı.

Belə bir imarət xəbəri qardaşlara çatdı. “Vay dad, Məlik Düçar bizi apardı. Atamız bizim tikdirdigimiz hamamı bəgənmədi”.

Ortancıl qardaş dedi:

– Gəl, bu dəfə Məlik Düçarı qonaq çağıraq. Belə diyək, guya atamız deyir ki, gərək Düçar adaxlısını da gətirsin. Onun da adaxlısı meymun olduğu üçün gəlib pərt qalacaq.

Qardaşlar xəbər yolladılar Məlik Düçar üçün. Məlik Düçar pərilər xanımın yanına gəlib dedi:

– İmdi atam səni qonaq çağırır, mən sənin üçün neçə edim?

Pərilər xanımı dedi:

– Al bu ağacı, get həmən küllügə, ağacı vur yerə, digilən ki, pərilər padişahının qızı, pərilər xanım deyir ki, atamdan qalan qızıl sandığı versin, ancaq dala baxmazsan.

Məlik Düçar yol elədi küllügə. Çatdı, ağacı yerə vurub dedi:

– Pərilər padişahının qızı pərilər xanımı deyir ki, atamdan qalan qızıl sandığı versin.

Məlik Düçar sandığı alıb gətirdi. Qız geyinib-kecinib Məlik Düçara dedi:

– İmdi gedək, al bu cildi bağla kürəkmin ortasına. Vay onda ki, qardaşların cilidimi yandıralar. Onda məni dayi görməzsən.

Qardaşlar böyük qonaqlıq etmişdilər. Öz atalarını da çağırmışdılar. Məlik Düçar öz adaxlısı ilə məclisə girdilər, padişah vəzirə dedi:

– Vəzir, bu nə olan işdir? Bunun bəxtinə ki, bir meymun çıxmışdı.

Hamu oturdu, məclisin gözi Pərilər xanımında idi. Pərilər xanımı bir pilov nimçədən götürüb qolunun içinə tökür, yarısın yeyir. Baldızdar bunu görüb, bular da dügünü qollarına tökürlər. Xörək yeyildi, süfrə yığışdı. Böyük baldız durdu oynadı qolların tərpədəndə dügü səpələndi padişahın saqqalına. Sora Pərilər xanımı durdu oynadı, hər dəfə fırlananda yerə mirvari səpələndi. Padişah əl vurdu.

Xəbəri verim sizə qardaşlardan. Bu dəm bir manqal od qalayıb Məlik Düçarı oynatmaq bəhanəsilə dərini belindən açıb oda atdılar. Pərilər qızı vay diyib bir göyərçin oldu getdi. Gəldi bir ağac başında oturub dedi:

– Məlik Düçar, mən getdim. Dəmir hasavın ucu yeyiləndə, dəmir sarığının altı sürtüləndə məni taparsan.

Padişahın əhvalı pozuldu. Məlik Düçar o günü ağladı. Şəhəri durub dəmir çarıq giyib dəmir hasa götürdü, yola düşdü.

Yol ağzında iki dev oturmuşdi. Buların atalarından bir xalça, bir papaq qalmışdı. Məlik Düçar devlərə yaxın gəlib bunların nə üstə söz-dəşmələrin sordu. Divlərin birisi dedi:

– Ay insan qardaş, bizim atamızdan bir xalça qalmışdır, hər kəs onun üstə oturub deyir ki, Süleyman peyğəmbərin eşqinə, apar məni qoy filan yerdə, aparır. Bir də bu papaxdı ki, bunu da kim qoysa başına, heç kim onu görməz. Sən gəl bunu bizim aramızda böl.

Məlik Düçar dedi:

– Mən bölləm, siz bir az kənar durun, gözlərüvüzi yumun, mən bir az fikirləşim.

Divlər bir tərəfə çəkildi. Məlik Düçar xalçaya minib papağı başına qoydu:

– Süleyman peyğəmbərin eşqinə, məni apar Pərilər vilayətinə.

Divlər bunu görüb, başlarına döyüb "vay insan qardaş bizi aldatdı" dedilər. Bular burda bir-birlərini dögməkdə olsun, sizə xəbər verim Məlik Düçardan.

Məlik Düçar həmən yerə çatdı. Şəhəri dolandı, əmma bir şey tapmadı. Günlərin bir günündə Məlik Düçar bir bağa girdi. Bir də gördü ki, üç göyərçin bir havuz qırağına gəlib oturdu. Cilidlərin çıxarıb çimməyə məşğul idilər. Məlik Düçar Pərilər xanımı görüb tanıdı. Tez öz adaxlısının cilidini oğurladı. Üç bacı çimdilər çıxdılar. Pərilər xanımı: "vay, mənim cilidimi oğurladılar" – dedi.

Bacılar nə qədər gəzdilər, tapmadılar. Məlik Düçar cilidi oraya atıb buların dalınca düşüb əvlərinə getdi.

Neçə gün Məlik Düçar Pərilər xanımın evində qaldı.

Günlərin bir günündə Pərilər xanımı anasına dedi:

– Xörəydən heç doymuram?

Anası dedi:

– Qızım, hələ əvvəlki qədər çəkirik, nə azdı, nə çox, qaydəsiylə.

Bir gün Pərilər xanımı gənə taam yeyirdi. Bu doymadı, birdən qayıdıb dedi:

– Ey gözə görünməyən insan kimi sənə and verirəm dünyadə kimi səvirsən çıq aşkara.

Məlik Düçar şepkülahi başınan götürüb dedi:

– Elə mən özüməm.

– Vay dad sən bura necə gəldin?

Pərilər xanımı anasını çağırtdırıb bütün əhvalatı danışdı, dedi:

– Atama deginən, Məlik Düçar gəlib.

Anası Pərilər xanımın atasının yanına getdi, onu and verdi ki, acıqlanmasın, qızın adaxlısı Məlik Düçar gəlib qızı aparmağa. Padişah fikirə getdi. Əmma bəni-insanə qız verməkistəmirdi. Məlik Düçarı öldürmək istiyirdi. Arvadı dedi:

– Əgər, o mənim üçün Gül ilə Sanavarın hekayəsin tapsa, mən ona qızı verrəm, tapıb gətirməsə, yox.

Anası qızının yanına gəldi. Atasının istədigi Gül ilə Sanavar nağılın Məlik Düçar gərək gətirsin.

Bu xəbəri Məlik Düçara qız yetirdi. Məlik Düçar şəpkülanı başına basıb xalçaya minib yola düşdü. Xalça Məlik Düçarı gülün damının üstünə qoydu.

Məlik Düçar aşağı endi. Sanavar bunu görüb dedi:

– Heyif sənnən, oğlan, bura gəldin. Mənim sirrimi heç kəs apara bilməyib. Bir çox cavanların başın kəsmişəm.

Məlik Düçar dedi:

– Sən mənə öz hikayəni nağıl elə. Sora öldürməlisən öldür məni.

Sanavar Məlik Düçarı evə gətirdi. Məlik Düçar gördü bir tərəfdə bir qızıl zəncirə it bağlanıb. O biri tərəfdə bir ceyran, araya iki nimçə aş gəldi. Sanavar aşı itin qabağına qoydu, sora itin artığını ceyranın qabağına qoydu. Ceyran yemədi. Əl çaldı bir qızıl nimçədə bir qul başı oraya gəldi. Sanavar çubuğu əlinə aldı, o qədər bunun dodaxlarına vırdı ki, ceyranın gözinən yaş damdı. Ceyran aşı yedi.

Məlik Düçar dedi:

– Bundan məni qəni et.

Sanavar sözə başdadı:

– Biz ikimiz əmi qızı, əmi oğlu idik. Günlərin bir günündə biz evləndik. Bir günləri yatmışdım, qulluxçularım mənim başımın üstə oturmuşdu. Bular özlüklərində bir-birinə deyirdilər. Heyif ağamızdan burda tək yatıb. Xanım isə qullar ilə eş-eşrətə məşğuldur. Əmim qızı qulluxçuları qovdu. Bir üzümə baxdı. Mən gözlərimi yumdum, sora qılıncı üç dəfə üstümə çəkdi, mən ayılmadım. Təxtinnən uzaqlaşdı, aşağı endi. Mən də durub bunun dalıncan düşdüm. Atımı minib yol elədi. Mən də təzədən bir at çıxarıb mindim, bunun dalıncan yol elədim. Əmimin qızı bir qalanın qabağında düşdü, içəri girdi. Həmən bu qul ki, başını kəsib saxlamışam, orada oturmuşdu. Mənim xanımımı görüb əyağa qalxdı:

– Ey süxtə! Bu vaqta qədər haradasan? Hamı kefin çəkib.

Əmim qızı bunun əyağına düşdü. Mən səbir eliyə bilmədim. Bayra çıxıb atları açıb bir-birinə qatdım. Atdar kişnədi, bu səsə hamı bayra çıxdı. Mən özümü içəri atdım, bu qulu bərzəngini öldürmək istədim. Əmim qızı içəri girdi, mənə bir sillə çəkdi. Vəfalı itim içəri girdi. Bərzənginin üstə atılıb xayasınnan dutdu. Mən qılıncı qaldırıb başını kəsdim. Evə qayıtdım. Mənim əmim qızı mənə bir çubux çəkdi, məni elədi bir eşşək. Düşdüm şəhəri gəzməgə. Bir qəssab məni dutub, evinə apardı. Qəssabın bir qızı varıdı. O tilisimçi idi. Məni görən kimi atasına dedi:

– Bu ki, insandı.

Mənə bir çubux çəkdi, adam elədi. Əlimə bir çubuq verib "get" dedi:

– Həmən adamın yanına çatsan, onnan qabaq sən bu çubuqla onı vur.

Mən də evə qayıtdım, əmim qızı qabağıma çıxdı. Mən bir çubux ona vurdum. Ürəgimdən gəlmədi, ceyran eliyib bir tərəfə bağlamışam. Hər gün itin artığını onun qabağına qoyuram yemir. Mən də bu başa iyirmi-otuz çubux çəkirəm, o ağlayır. Sora itin artığını yeyir. İmdi isə dəstəmazı al, başını kəsəm.

Məlik Düçar bir az fikir edib dedi:

– Mən bir söz demirəm, ancaq mənə beş dəqiqə möhlət ver ki, bayra çıxım.

Məlik Düçar bayıra çıxdı. Şəpkülanı başına qoyub palaza minib, Süleyman peyğəmbərin eşqinə pərilər vilayətinə çatdı.

Sanavar bayra çıxdı, Məlik Düçarı gördü dedi:

– Vay! Mən bu sirri neçə ildir saxlamışam, indi faş oldu.

Sanavar belinnən qılıncı çəkib ceyranı öldürdü.

Məlik Düçar taxtına çatdı, bütün gördügünü padişaha nəqil elədi. Padişah qızı Məlik Düçara verdi. Məlik Düçar Pərilər xanımını atasının vilayətinə gətirib, qırx gün, qırx gecə təzədən toy etdi.

## BULUD

Biri vardı, biri yoxdı. Allahdan başqa heç kim yoxdı. Bir paççah vardı. Gözünün biri bozarmışdı, adına "Kor paççah" deyərdilər. Günnərin bir günü bütün münəccimləri yığdı, dedi:

– Bir rəm atın görüm, bu gözümün dərmanı nədi?

Münəccimlər rəm atdılar, dedilər:

– Qibleyi-aləm, sənin gözünün dərmanı filan dəryada bir qızıl balıqdadı.

Paççah torçunu çağırdı, dedi:

– Filan dəryadan bir qızıl balıq gətirərsən.

Torçu tor atdı həmən dəryaya. Paççahın da bir oğlu varıdı, adı İbrahim idi. İbrahim getdi, gördü torçunun toruna bir qızıl balıq düşüb. Torçuya dedi:

– Bunu bırax, getsin, yazıxdı.

Torçu İbrahimın sözün çəvirmiyib buraxdı. Torçu qayıtdı gəldi evə. Gecə yatdı, səhər genə getdi, tor atdı, bir qızıl balıq düşdü tora. İbrahim genə gəldi, dedi:

– Əşi, burax, yazıxdı, torçu! Mən pulun verrəm.

Torçu dedi:

– Axı, atan buyurup ki, gərək bir qızıl balıq gətirəsən.

İbrahim dedi:

– Çox da atam deyib. Sənə mən nə deyirəm, ona bax.

Bu səfər də buraxdı, gəldi əvə. Səhər bir də toru götürdü getdi. Toru dəryaya atdı. Həmən qızıl balıq bu səfər də düşdü tora. İbrahim bu səfər genə birtəhər, zorrama balığı buraxdı. Səhər paççah torçunu çağırtdı, dedi:

– Bəs mən saa bir balıq tut gətir demədimmi?
Torçu dedi:
– Paççah sağ olsun, üç gündü gedirəm balığı tuturam, sənin oğlun İbrahim gəlir, zorrama bıraxdırır.
Səhər paççah İbrahimi çağırdı, dedi:
– İndi ki mənim gözümün sağalmasına bayis olursan, itil bırdan. Get, hara gedirsən. Durma, gözümün qabağında!
İbrahim atın minib ağzın çevirdi bərri-biyabana. Az getdi, çox getdi, dərə-təpə düz getdi. Getdi çıxdı bir şəhərə. Gəldi gördü şəhərin qırağında bir koma var, atı sürdü bu komaya, çağırdı:
– Ay ev yiyəsi, ay ev yiyəsi.
Bir qarı çıxdı. İbrahim dedi:
– Qarı nənə, Allah qonağı istəmirsən?
Qarı dedi:
– Allaha da qurban olum, qonağına da. Bala, gəl içəri.
İbrahimiı apardı çaydan-çörəkdən verdi. İbrahim dedi:
– Qarı nənə, nəyin var?
Qarı dedi:
– Bala, heç bir şeyim yoxdu. Elə təkəm.
İbrahim dedi:
– Qarı nənə, elə mən saa olum oğul, sən də ol maa nənə, bırda dolanax.
Qarı dedi:
– Çox yaxşı olar, nolar.
İbrahim bir səhər atın çıxartdı bazara, satdı, pul elədi. Birəz ətdən, yağdan, düyüdən gətirdi evə, qarı da bişirdi, yedilər. Gündə İbrahim bu qaydeynən ayınnan-oyunnan alıb gətirirdi, burda dolanırdılar.
Bir gün İbrahim gördü şəhərdə bir sandıx satıllar. Amma deyirlər, alan da peşmandı, satan da! Qiyməti də yüz tüməndi. Hər kəs də deyir ki, ağzın aç görək, içində nə var? Deyirlər: “Xeyr, xeyr! Ağzın aça bilmərəm. Elə-belə satacağam”.
İbrahim yüz tümən verdi, bu sandığı aldı gətirdi evə. Haçarın saldı, sandığı açdı, gördü paho... sandığın içində bir oğlan var ki, heç tayı-bərabəri yoxdu. Oğlan o saat ayağa qalxdı, dedi:
– İbrahim, nətərsən, necəsən? Kef-əhval?
İbrahim öz-özünə dedi ki, bu mənim adımı nə bilir? Oğlana dedi:
– Məni hardan tanıyırsan?
Oğlan dedi:

– Tanıyıram.
İbrahim dedi:
– Sənin adın nədi?
Oğlan dedi:
– Mənim adım Buluddu.
İbrahim çıxartdı altı şahı verdi, dedi:
– Bulud, get, buna düyü al gətir.
Bulud gəldi baqqalın dükanına. Dedi:
– Ağam deyir, bu altı şahıya yarım put düyü versin.
Baqqal dedi:
– Altı şahıya düyü verəllərmi?
Bulud baqqala bir şapalax vurdu. Baqqal yıxılıb ürəyi getdi. Bulud düyünü kisəsinən götürdü gəldi evə.
İbrahim bu əhvalatdan çox qorxdu, dedi:
– Bu mənim başıma çox qəza gətirəcək.
Çıxartdı üç şahı da verdi ki, get buna da yağ al, gətir.
Bulud gəldi baqqalın yanına, dedi:
– Ağam deyir, bu üç şahıya iki girvənkə yağ versin.
Baqqal dedi:
– Ədə, səfeh oğlu, səfeh. Ona iki girvənkə yağ verəllərmi?
Bulud bir şapalax vurdu, bunun da o biri baqqal kimi ürəyi getdi.
Bəli, beş girvənkə yağ götürdü, “ya Əli, mədət” deyib gətirdi, üç şahını da verdi İbrahima. Dedi:
– Ağa! Deyir, qəlpdi.
İbrahim öz-özünə dedi:
– Allah, saa pənah! Görən bu mənim başıma, nə oyun gətirəcək.
Dedi:
– Bulud, get bu üç şahını ver, arpa al gətir, atın arpası yoxdu.
Bulud gəldi arpa satana dedi:
– Ala bı üç şahını, bir put arpa ver.
Dükançı dedi:
– Bala, üç şahıya bir put da arpa verəllərmi?
Bulud dedi:
– Niyə verməzlər?
Kişiyə bir şapalax vurdu, dedi:
– Belə verəllərmi?
Arpadan bir put götürdü. “Ya Əli, mədət!” gətirdi genə üç şahını verdi İbrahim dedi:

– Ağa deyillər ki, pul qəlpdi, götürmədi.

Bulud bu şəhərə bir vəlvələ saldı. Hara göndərirdilər belə yığıb gətirirdi.

Bir gün Bulud gəldi bir dəmirçinin yanına, dedi:

– Usta, maa bir gürz çəkərsən, dörd ərşin uzunnuğu, dörd put da ağırrığı.

Usta dedi:

– Zalım oğlu, zalım! Onu kürəyə sığışdırmaxmı olar?

Bulud dedi:

– Saa nə deyirəm, onu elə. Yoxsa vırram əngin çıxar, ala bu da pulun.

Pulu verdi. Dəmirçi qorxudan dedi:

– Yaxşı, hazırraram.

Bəli dəmiri vara vurd elədi, dedi:

– Bir belə çıxarı çıxacax. Yerdə də bir belə qalacax.

Qoydu kürüyə. Körüyü basdı, bu dəmir qurquşum kimi əridi. Bir gürzü qayırdı.

Səhər Bulud gəldi dedi:

– Usta, hazırdımı?

Usta dedi:

– Bəli, hazırdı.

Bulud gürzü aldı çiyninə, getdi evə. İbrahim gördü Bulud bir gürz gətirir ki, heç olmuyan kimi, dedi:

– Vay mənim halıma.

Axşam olanda Bulud dedi:

– Ağa, dur bəri gəl.

İbrahim qorxusunnan durdu düşdü Buludun yanına. Bulud İbrahimı gətirdi bir imaratın qabağına, dedi:

– Ağa, görürsən, bu imaratı? Bı imarət paççahın qızının imarətidi, o qızın adına "Üç Çərək xanım" deyəllər.

Qapını açdı, dedi:

– Gedərsən. Qız yatıb, onun bir üzünnən öpərsən, ta dəyməzsən, qayıdıp gələrsən. Vallah saa bir gürz vırram ki, nətər.

İbrahim qorxusunnan getdi. Gördü bir göyçək qızdı yatıp. Bir üzünnən öpdü qayıtdı.

Səhər açıldı. Qız durdu, geyindi, əlin yudu, üzün yudu, bədənnənmə güzgüyə baxdı. Gördü, üzünün bir tərəfinə ləkə düşüb. Qız ta heç kimə bildirmədi.

Axşam oldu genə Bulud dedi:

– Ağa, di dur, gedək.

İbrahim durdu gəldilər həmən imarata.

Bulud dedi:

– Gedirsən indi də o biri tərəfinnən öpərsən, gələrsən, ta əlini başqa şeyə vurmazsan. And olsun, əlini bir şeyə vursan, saa bir gürz çəkəciyəm, bala pişik kimi fırranacaxsan.

İbrahim qorxusunnan girdi o biri üzünnən öpdü, çıxdı. Gəldilər yatdılar.

Səhər açıldı, qız genə həməşəki qaydeynan durdu. Bədənnəmə güzgüyə baxdı, gördü indi də o biri tərəfinə ləkə düşüp.

Dedi:

– Yaxşı, bu gecə taparam, bu kimdi.

Gecə genə Buludnan İbrahim gəldilər. İbrahima Bulud dedi:

– Gedərsən, qızın sual-cavabı nədi, maa deyərsən.

İbrahim girdi içəri, qız gördü bu bir oğlandı, gözəllikdə misli yoxdu, min könüldən İbrahima aşıq oldu.

Qız o saat qalxdı ayağa, dedi:

– Ey oğlan, nəçisən, kimsən?

Oğlan dedi:

– Mən kor paççahın oğluyam, adıma da İbrahim, deyəllər.

Qız dedi:

– İbrahim, məni apara bilərsənmi?

İbrahim dedi:

– Qız bir havır dayan.

Çıxdı çölə Buluda dedi:

– Xanım deyir, "məni apara bilərsənmi?"

Bulud dedi:

– Get, denən aparram.

İbrahim gəldi qıza dedi:

– Aparram.

Qız çıxdı çölə. Bulud dedi:

– Qız iki at yəhərrərsən birin İbrahima, birin də özünə.

Qız iki yaxşı at hazırradı. Birin İbrahim, birin də qız mindi. Bulud da bunların yanında, hər üçü düşdülər yola. Hava işıqlanınca at sürdülər. Gün çıxanda paççaha xəbər getdi ki, bu gecə qızını aparıblar. Paççah hökm elədi, qoşun atdandı bunların dalısınca. Bir vədə İbrahim gördü, budu qoşun qarışqa kimidi götürüb dünyanı. Qoşunu görəndə Bulud dedi:

– İbrahim, siz yavaş-yavaş gedin. Mən qayıdım qoşunun qabağına, görüm nə istəyirlər?

İbrahim dedi:

– Qız, gəl, qaçax! Buludu öldürəcəklər gəlip səni də mənim əlimnən alacaqlar.

Bunlar qaçmaqda olsun, Bulud da qoşunun qabağına getməkdə.

Bir paççah vəziriynən ova çıxmışdı. Gördülər budu bir oğlannan bir qız qaçır. Tez atlı göndərdi, bunları tutdular. İbrahimi saldılar bir quyunun təkinə. Qızı da apardı öz qızının yanına qoydu.

Bulud gəldi, qoşuna yavıxlaşanda yerə bir gürz vurdu ki, o saat bir dərya açıldı, qoşun keçə bilmədi.

Bulud gəldi gördü, nə qız var, nə də İbrahim. Amma gördü bir şəhər görünür. Gəldi şəhərin kənarına, gördü bir dəstə uşaq aşıx-aşıx oynuyur. Bir keçəl də durup baxır. Dedi:

– Keçəl, sən niyə oynamırsan?

Keçəl dedi:

– Mən cığalam deyin, məni qoymurlar oynuyam.

Bulud dedi:

– Onda, ala bu pulu, bura bir oğlannan bir qız tutup gətiriplər, onun yerin tapıb, maa deyəsən.

Keçəl dedi:

– Ver papağını götürüm qaçım, hankı imarata vursam, bil ki, qız o imaratdadı. Harda da tullandım-düşdüm, bil ki, oğlan o quyudadı.

Keçəl Buludun papağın götürdü qaçdı. Bulud da bunun dalınca.

– Vay keçəl, siz qəribə belə hörmət elərsiniz? – deyə düşdü yola.

Həmən qızın imaratı da paççahın imaratına bitişiyidi. Keçəl gətirdi papağı vurdu həmən imarata qayıtdı. Bir yerdə də tullandı göyə, düşdü yerə. Bulud gəldi papağı götürdü. Gəldi həmən yerə, gördü bir quyudu ağzına bir daş döndəriblər. Daşı qavzadı, dedi:

– İbrahim!

İbrahim quyudan dedi, can!

Bulud dedi:

– Bəs mən saa demədim yavaş sür, mən də gəlirəm.

Tez kəməndi belinnən aşdı, salladı quyuya, İbrahimi çıxartdı. Paççaha qaravılçılar xəbər apardı ki, şəhərə bir pəhlivan gəlib, həmən oğlanı da çıxartdı. Şəhəri bu saat alt-üst eliyəcək.

Bulud İbrahimi da götürdü, gəldi paçcahın yanına. Paçcah baxdı gördü, bu doğrudan da bir pəhlivandı. Əgər dinsə, şəhəri alt-üst edib viran qoyacaq. Dedi:

– Vəzir, tədbir!

Vəzir dedi:

– Tədbir odur ki, qızını verəsən ona, qohum olasan.

Paçcah Buluddan soruşdu:

– Adın nədi?

Dedi:

– Adım Buluddu.

Paçcah dedi:

– Bulud, bir qızım var, onu alarsanmı?

Bulud dedi:

– Xeyr, maa lazım döyül, ağama ver!

Paçcah soruşdu ki:

– Qalacaqsınız, gedəcəksiniz?

Bulud dedi:

– Xeyr, gedəciyik.

Paçcah bir at da öz qızına hazırratdı, iki at da İbrahimgilin özünündü. Bullar yola düşdülər. Bulud, İbrahim, Üç Çərək xanım, bir də paçcahın qızı gəldilər o qədər ki, gördülər iki dev gəlir.

Bulud dedi:

– İbrahim, siz yavaş-yavaş gedin, mən də qayıdım görüm devlər nə deyir.

İbrahim qızlara dedi:

– Gəlin qaçax. Bı saat dev Buludu öldürəcək, gəlip sizi də mənnən alacax.

Bulud gəldi devlərin birin gün batana qovdu, birin də gün çıxana.

Bir paçcah avdan qayıdırdı, gördü bir oğlandı, iki də qız qaçırlar. Bunları tutdu, gətirdi qızları saldı öz qızının yanına, İbrahimi də saldı bir quyuya.

Bulud gəldi gördü nə qızlar var, nə də İbrahim. Yavaş-yavaş gəldi bir cütçüyə urcah çıxdı, gördü bu cütçünün özü də qaradı, öküzü də, xışı da.

Dedi:

– Allah, qüvvət versin.

Cütçü dedi:

– Xoş gəldin.

Bulud dedi:

– Ay cütçü, elə deyək, öküz qaradı, bəs özün niyə qara geyinmisən, xışın niyə qaradı?

Cütçü dedi:

– Bizim paçcahımız üç qəribi tutub gətirib, ona görə qara geyinmişik, biz qəribə çox hörmət elərik.

Bulud dedi:

– Onların yerin bilirsənmi?

Cütçü dedi:

– Paçcahın öz imaratına bitişik bir imarat var, qızının imaratıdı, qızlar ordadı. Oğlanı da salıb bir quyuya. Get şəhərə, hansı adamnan, uşaxdan soruşsan, o quyunu görkəzəllər saa...

Bulud gəldi yavaş-yavaş şəhərə. Gördü bu şəhərin adamları qara geyinib. Soruşdu niyə qara geyinmisiniz. Dedilər:

– Paçcah üç qərib gətirib dustaq eliyib, ona görə qara geymişik.

Bulud dedi:

– Onlar hardadı?

Görkəzdilər ki, o imaratdadı qızlar, oğlan da o quyudadı. Bulud gəldi quyunun başına, daşı qavzadı çağırdı:

– İbrahim!

İbrahim quyudan dedi:

– Can!

Bulud dedi:

– Axmaq oğlu, axmaq, bəs mən saa deməmişdim yavaş sür gəlirəm.

Belindən kəməndi açdı, İbrahimi quyudan çıxartdı. Qaravullar bunun zərbi-şəşdin görüp heç biri dinə bilmədi. Paçcaha xəbər apardılar ki, bir belə oğlan gəlib. Həmən oğlanı da çıxartdı. Budu gəlir sənin qulluğuna. Dedi:

– Vəzir, tədbir!

Bulud İbrahimi da götürdü gəldi paçcahın yanına. Qapını açdı, içəri girəndə paçcah baxdı gördü buna qoşun da cavab verə bilməz. Vəzir dedi:

– Qibleyi-aləm, belə adamnan qohum olmaqdan başqa əlac yoxdu. Ayrı heç bir şeynən bunun öhdəsinnən gələ bilmək olmaz.

Paçcah dedi:

– Nolar, yaxşı olar.

Paçcah qorxusunnan yer görkəzdi. Bulud oturdu.

Dedi:

– Adınız nədir?

Dedi:

– Mənim adım Buluddu, ağamın adı da İbrahimdi.

Paçcah dedi:

– Bulud, mənim bir qızım var, onu alasanmı?

Bulud dedi:

– Xeyr, maa lazım deyil, ağama ver!

Molla gətirdilər, qızın kəbinin kəsdirdi İbrahima. Sual elədi ki, qalacaxsınız, gedəcəksiniz?

İbrahim dedi:

– Xeyr, mən gedəcəyəm öz vilətimizə, mən kor paçcahın oğluyam.

Paçcah bunların hərəsinə bir at verdi, yola saldı. Bulud, İbrahim, Üç Çərək Xanım, iki də paçcah qızları, o qədər gəldilər ki, İbrahimin atasının vilayəti görükdü.

Bulud dedi:

– İbrahim, atan səni öldürəcək, mən də burdan gedəcəyəm.

İbrahim dedi:

– Niyə?

Dedi:

– Mən o balığam ki, üç dəfə məni buraxdırdın. O yaxşılıqların əvəzidi ki, bir belə elədim saa... Atan xörəyə zəhər qatıb, saa verəcək. Sən bir ovuc götür at ya bir itə, ya pişiyə. Gördün ki, yedi öldü, onda dur atanı öldür, yerində paçcahlıx elə.

Xudahafiz, eliyip düşdü yola. Dərya da yaxın idi. İbrahim baxdı gördü Bulud balıq donun geyib atıldı dəryaya.

Bunlar da getdilər, şəhərə daxil oldular. Paçcaha muşduluqçu getdi ki, İbrahim gəlir, üç də qız gətirir. Paçcah muşduluqçunun muşduluğun verdi. Amma öz ürəyində dedi ki, sən ki mənim gözümə heylə, qoymadın əlac ola, səni öldürəcəyəm. İbrahimə xörək tədarükü gördürdü. İçinə də bihuşdarı daxil elədi, qoydu İbrahimin qabağına. İbrahim xörəkdən bir ovuc götürdü atdı bir tula vardı onun qabağına. Tula yeyən kimi öldü. O saat İbrahim gürzü qalxızıp elə vurdu ki, paçcahın canı cəhənnəmə vasıl oldu. İbrahim başdadı atasının yerində paçcahlıx elədi.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin.

# FƏRASƏTSİZ OĞUL

Biri varımış, biri yox imiş. Bir tacir var imiş. Bunun gözünün ağı-qarası bir oğlu var imiş. Bu oğlanı çox istərmiş. Bu tacirin dünya malı dövlətindən başqa üç qəribə şeyi də var imiş. Bunlardan biri papaqdan, biri zurnadan, o biri torbadan ibarət imiş. Hər kəs papağı başına qoysa idi, kimsə onu görəməzdi. Hər kəs zurnanı çalsa idi, camahat hüzuruna cəm olub ona itaət edərdi, torbanı yerə qoysa idi, orası qızıl olardı.

Bu tacir öləndə vəsiyyət edir ki, onın oğlına heç sənət öyrətməsinlər, çünki onsız da o qədər dövlət-mal qoymuş ki, oğlan ölənə kimi yesə təmam olmaz. Atası ölənnən sonra oğlan eyş-işrətə qalır. Həmən şəhərdə bir padişah varımış. Bu padişahın da Hildais adında bir gözəl qızı varmış ki, yaxşı nərd oynarmış. Bu qız eşidir ki, bu şəhərdə dövlətdi bir əyyaş tacir oğlunun üç qəribə şeyi var, özü də nərd həvəskarıdır.

Bir gün qız atasından xahiş edir ki, həmən tacir oğlunu onın hüzuruna dəvət etsin. Şah qəbul edir. Oğlan qızın hüzurinə daxil olur. Qızı görüb ona aşiq olur, qız ilə nərd oynamağa başlayırlar. Qız oğlandan yaxşı oynadığından hər dəfə oğlanı udurdu. Beylə ki, oğlanın cəmi dövləti, torbası, zurnası əlindən gedir, ancaq bircə papaq qalır. Bundan sonra qız oğlanı hüzurindən qovur, oğlan axırda əliboş evinə qayıdır.

Bir gün həmən oğlan papağı başına qoyub padişahın sarayına gəlir, çəkilib görür ki, padişahın arvatı qızıyla pilov yeyirlər. Bu da bir tərəfdə oturub yeməyə başlayır. Padişah görür ki, bunlar ilə dördüncü bir adam da xörək yeyir, amma kim isə görünməyir. Çox təəccüb edirlər.

Bu halda, padişahın qızının əli dəyib oğlanın başından papağı düşür, oğlan zahir olur.

Qız xahiş edir ki, oğlan onunla yenə nərd oynasın. Oğlan qəbul edir.

Qız yenə bunu udu və papağını da əlinnən alır, sonra oğlanı qovur. Oğlan əliboş saraydan çıxır. Artıq o şəhərdə otura bilməyib səfər axtarırdı.

Bir gün oğlan bir bağa çatır, görür ki, burada yaxşı alma ağacları vardır. Əl uzadır almanın birini üzüb yeyir, həmən saat bunun başında iki zorba buynuz çıxır. Oğlanın dərdi daha da artır. İndi buynuz ilə hara gedə bilər? Bir az irəli gedib görür ki, bir əzgil ağacı var. Bu əzgildən də bir dənə dərib yeyir, həmən saat buynuzları düşür. Oğlan bu işə sevinir. Bir xeyli alma, əzgil yığıb evinə qayıdır.

Bir qab almanın yaxşısından padişahın qızına göndərir. Padişahın arvadı qızı ilə bir-bir almalardan yeyirlər. Həmən saat hər birinin başından bir cüt zorba buynuz çıxır. Bu işə heyran qalırlar, nə qədər təbibləri dəvət edirlər, kimsə bunlara əlac edə bilməyir. Bu halda oğlan padişahın hüzuruna gəlib ərz edir ki, qızını maa ver, sizi bu bəladən xilas edim. Padişah əlacsız razı olur. Qızı kəbin kəsdirib oğlana verir. Oğlan da əzgildən onlara yedirib, o bəladən onları xilas edir.

Sonra həmən qız, həmən papax, zurna, torba və həm də cəmi dövlətə sahib olur.

## PEŞƏ DALINCA

Qədim vaxtlarda bir paçcah var idi. Günlərin bir günündə bu paçcah pəncərədən küçeynən keçən adamlara baxan vaxtda, gördü əlində bir dəmir xəkəndaz küçə ilə bir əməlli adam gedir. Bu adam bir az gedəndən sora küçəni dönüf geri qayıtdı. Amma indi əlindəki xəkəndaz qızıldan idi. Paçcah bunu görüb təəccüb elədi. Hökm elədi ki, o adamı yanına gətirsinlər. Paçcah onnan xəkəndazın əhvalatını soruşdu. Həmən adam cavab verdi:

– Paçcah sağ olsun, mən gedirdim küçə ilə qabağıma bir adam çıxdı o, mənim xəkəndazımı əlinə alıb istədi baxsın xəkəndaz əlində qızıl oldu. Sora mana verdi.

Paçcah ona hökm elədi gedif o adamı çağırsın. Bir azdan sora onlar hər ikisi paçcahın qulluğuna gəldilər. Paçcah xəkəndazı qızıl eləyən adamın adını soruşdu. O dedi:

– Adım Mirdamaddır.

Paçcah ondan xəkəndazı necə qızıl eləməsini soruşdu. Mirdamad dedi:

– Peşədir.

Paçcah Mirdamada hökm elədi:

– Gərək o peşəni mənə öyrədəsən.

Mirdamad paçcaha dedi:

– Paçcah sağ olsun, sən o peşəni öyrənə bilməzsən. Sən paçcahsan, sənin peşən paçcahlıqdır. Onu öyrənmək istəyən gərək paçcahlıqdan əl çəksin.

Paççah dedi:

– Mən paççah olmaqdan əl çəkərəm, sən o peşəni maa öyrət.

Mirdamad razı oldu. Paççah öz oğlunu yerində paççah qoyuf Mirdamad ilə bu şəhərdən çıxıb yola düşdülər. Bir az gedəndən sora paççah bir qızıl daraq çıxartdı, başını daramağa başladı. Mirdamad qızıl darağı paççahın əlindən alıb cibinə qoydu. Paççaha dedi:

– Mənim sənətimi öyrənmək istəyənə başını qızıl daraq ilə daramaq olmaz.

Bir az yol gedəndən sora bular bir bulağa çatdılar. Paççah cibindən bir qızıl su qabı çıxarıb istədi su içsin. Mirdamad yenə dedi ki, onun sənətini örrənmək istəyən qızıl şey gəzdirə bilməz. Bir xeyli yol gedənnən sora Mirdamad paççaha dedi:

– Qardaş, indi daha mən səndən ayrılıram. Get dərvişlik elə, ayrı peşə gör, sən mənim peşəmi öyrənə bilməzsən. Özü də altı aydan sora məni tapacaqsan.

Burda ayrılıb hərəsi bir tərəfə getdilər. Paççah bir az yol gedif bir şəhərə çıxdı. Burda paççah bir karvansaraya gedif yer istədi. Dedilər:

– Boş otağımız yoxdur. Amma bir otax var hər kəs orada bir gecə qalsa, şəhərə sağ çıxmayır. Onu da biz saa verə bilmərik.

Paççah dedi:

– Eybi yoxdur, mən orada qallam.

Paççah otağa girdi, əyləşib çörəgini yedi. Bir vaxt gördü ki, evin difarı ayrıldı, difarın arasından bir qarı iki qızınnan, ikisi də bir paltarda, bir suratda çıxdılar. Qızın biri otdu masanın üstə, biri yerdə. Qarı paççaha dedi:

– Bunların hansı xanımdır, hansı qulluqçu?

Paççah masanın üstündə oturana dedi:

– Ey, düş otur yerdə, xanımı incitmə. Qoy, xanım otursun masada.

Qarı paççaha dedi:

– Sən ki, xanım ilə qulluqcunu tanıdın mən sana dəymərəm. Bunları indiyə kimi bir adam tanıya bilməyibdi. Mən onları öldürürdüm. İndi mən o xanımı, qızımı sana verrəm.

Paççah qarıya dedi:

– Mən bir yerdə dayanan adam deyiləm onu alıf saxlayam. Mana arvad gərək deyil.

Qarı dedi:

– İndi belə eylərəm ki, həmişə o sənnən gəzər, amma sənin gözünə görünməz. Bu hər nə eləsə sən ona qarışma!

Paççah razı oluf bu qızı aldı. Burdan çıxıb bir ayrı mənzil tafdılar orada qaldılar. Bir neçə aydan, gündən sora arvadın bir oğlu oldu. Arvad uşağı aparıf yaxınnan axan bir çaya atdı. Paççah buna heç bir söz dimədi. Bir azdan sora bunlar buradan bir ayrı mənzilə köçdülər. Orada bu arvad yenə bir oğlan doğuf təndirə atdı. Paççahın bu səfər arvadının bu işinə çox acığı dutdu, dedi:

– Səni görüm ilan vursun, neyə uşağı təndirə atdın.

Arvat duruf çıxdı. Paççah da bunun dalınnan çıxdı. Birdən gördü bir ilan arvadın boğazına dolanıf onu sancır. Paççah ona çatıncan ilan qaçdı. Arvad öləsi oldu. Ölən vaxtda paççaha dedi:

– Mən öləndən sora mənim dişimin birini çıxart saxla. Sana bir vaxt lazım olar.

Arvad öldü. Paççah arvadın dişini çıxartdıf cibinə qoydu. Birdən gördü arvadın ata, anası qapudan girdilər dedilər:

– Sən bizim qızımızı qarğış edub öldürdün. İndi hələ bilirsən sənin uşaqların ölüf. Yox, barmaqının arasından bir bax, onda görərsən uşaqların haradadır.

Paççah baxdı gördü oğlanları taya yanında oynayırlar. Qayıdıf baxdı heç kəsi görmədi.

O çıxıf getdi, uşaqlarını tapsın. Yolda buna bir dev rast oldu. Dev bunu görcək dedi ki, ay paççah, səni xoş gördük. Sən hara, bura hara. Bunu deyif paççahı yanına salıf yerin altındakı bir mağaraya apardı. Paççah buraya girəndə gördü bura adam, qoyunnan doludur. Axşamatan paççah vaxtını orada keçirdi. Axşam dev buna dedi:

– Ay paççah, sən adam əti yeyə bilərsənmi? Əgər yeməsən, un verim çörək bişir ye!

Paççah unu aparıb çörək bişirib yedi. Bir vaxt paççah gördü dev böyük bir adamı vurub, qoyun kimi şaqqaladı, şişə çəkib odun üstə qoydu ki, bişsin. Paççah bunu görüb öz-özünə dedi ki, mən paççah ola-ola bu dev mənim gözümün qabağında bu adamları şaqqalayıb yeyir. Gərək mən şişi qoyam oda, munun gözlərini yatan vaxtda dağlayam.

Gecə paççah yatdı. Səhər gördü ki, dev qoyunların hərəsinə bir ad deyə-deyə sığallaya-sığallaya bir-biri çölə çıxartdı, apardı otarmağa. Otardı, axşam gətirdi. Axşam paççah oda iki şiş qoydu. Dev paççaha genə dedi:

– Ay paççah, mən gedim sana un gətirim, çörək bişir ye.

Paççah dedi:

– Un gətirmə. Yer qaranlıq yeridir.

Paççah fürsət tapub şişləri oddan götürdü, aparıb birdən onun gözdərinə basdı. Dev başdadı gözdərini ovuşdurmağa, amma bir şey görə bilməyirdi. Bu halda paççah gedif bir qoyun öldürüf, onun dərisini soyuf içinə girdi. Səhər dev qoyunnarı çölə çıxaranda, nə qədər onları əlləşdirdi, amma paççahı tapa bilmədi. Paççah çölə çıxıb, devə bir ox atdı. Ox gəlif devin sinəsinə dəyən vaxt, dev yerə yıxıldı. Paççah o saat qılıncı çəkib onu cəhənnəmə vasil elədi. Paççah mağaraya girəndə adamlar onun qavağında dizi üstə yıxılıf dedilər:

– Sən devi öldürdün, bizi ölümdən azad elədin. Dev çoxlu qızıl gizlədif biz onu tapıb sana verərik.

Paççah onlara dedi:

– Sağ olun, maa qızıl-zad lazım deyil.

Paççah yola düşüf getdi. Bir xeylax gedəndən sora paççahın qabağına çıxdı bir vəzir. Vəzir paççahı götürüf ona dedi:

– Mən paççahın azarlı qızınnan ötəri bir həkim gəzirəm.

Paççah vəzirə dedi:

– Mən həkiməm, gedək.

Paççah vəzir ilə getdi. Gördü qızın üzü yaradır. Qızdan soruşdu:

– Ay qız, sənin üzünə nə olufdur ki, yaradır?

Qız başdadı başına gələni nağıl eləməyə paççaha. Qız dedi ki, mən atamnan ova çıxmışdım. Bir düzdə mən bir balaca difar görüf onun üstən o tərəfə addadım. Orada bir dərviş gördüm. Dərviş mənim əlimdən dutuf bir bağa apardı. Bağda bir ev var idi. Dərviş maa bir otaq göstərdi. Dedi ki, sən burada olacaxsan. Bir yerə mənnən izinsiz gedə bilməzsən. Dərviş tək hər gün çölə gedirdi, amma qayıdanda bir neçə adam ilə gəlirdi. Adamlar geri evlərinə qayıtmırdılar. Mən bu dərvişin işini bilmək üçün bir dəfə qapının haçar deşigindən baxıb gördüm dərviş qonaqlar üçün aş bişirif, üztünə bir cürə yağ töhdü ki, qonaqların əlləri dəyən saat od alıf yandılar, qızıl oldular. Dərviş qızılları aparıb bir anbara tökdü. Bundan yeddi il keçdi. Bir gün dərviş maa dedi:

– Bu gün qonağımız yoxdur, get aş bişir, hazır olanda məni də çağır yeyək.

Aşı hazırlayıf apardım qonaq otağına qoydum. Gəlif dərvişi çağırdım. Mən genə deşikdən baxıb gördüm dərviş o yağdan xörəgin bir tərəfinə tökdü. Sora məni çağırdı. Mən birdən dedim ki, o baxan kimdir?

Dərviş o yana baxanda, mən qabın o yağdan tökülən tərəfini onun qabağına çevirdim. O, əlini uzatdı ki, yesin, od dutuf yandı, birdən bir parça o yanğıdan mənim üzümə atdı. O vaxtdan mənim üzüm yaradır. O yağı da götürüf evə gətirdim.

Paççah ölən arvadının dişini çıxartdı, bir daşa sürtüf qızın üzünə çəkdi. Qızın o üzü o saat yaxşı oldu.

Qız paççaha dedi ki:

– Mənim atam söz veribdir ki, hər kim mənim üzümü yaxşı elədi, ona iki dəvə yükü qızıl verəjəm.

Qız şüşədəki dərvişin yağını ona verdi. Atası da buna on iki dəvə yükü qızıl verdi. Bu dəvələri qavağına salıb yola düşdü. Bir az gedəndən sora buna bir yaşıl əmmaməli adam rast gəldi. Dedi:

– Ey Məhəmməd hümməti! Allah yolunda bu dəvələrin altısını mana ver, əhli-əyalım acdır.

Paççah dedi:

– Allah yolunda canımı da verərəm.

Gətirib muna altı dəvə verdi. Bir mənzil yol gedəndən sora paççaha bir qara əmmaməli adam rast gəldi. Dedi ki:

– O qalan dəvələrini də Allah yolunda ver maa.

Paççah o qalan dəvələrini də ona verdi. Bir az getmişdi qavağına başında qara çarşo, üzündə örtük bir arvad çıxdı. Dedi ki:

– Ey şəxs, səni and verirəm Allaha, o şişədəki yağı ver mana.

Paççah yağı çıxardıf ona verdi. Onnan ayrılıf bir xeylax gələndən sora gəlif bir bağa çıxdı. Bağın içinə girif bir ağacın dibində oturdu. Bir vaxt gördü ki, iki göyərçin uça-uça gəlif dibində oturduğu ağacın üstünə qondular. Göyərçinin biri o birinə adam diliynən dedi:

– Bajılı-bajılı, bilirsənmi, bu paççahdır. O paççahlıqdan əl çəkdi, gör nejə insaflıdır ki, qızıl yüklü on iki dəvəni Allah yolunda payladı. Dərvişin ambarındakı qızılları da o adamlar üçün qoydu. Onun qabağına yolda əvvəl çıxan Harum idi. O altı dənə dəvəni apardı fağır-füqəraya payladı. Sora rast gələn İrəşit idi. O da altı dəvəni aparıb korşillərə payladı. Axırda rast gələn Hatəm idi, o şişədəki bir elə qan eləmiş yağı aldı.

Sora genə göyərçin dedi ki:

– Bajılı-bajılı, o arada qoyulan camınan o sudan iki cam işsin, o güllərdən də dərsin, onların hərəsi bir davadır. O bağın qırağındakı ev də Mirdamadındır.

Göyərçinlər bunu deyif uçuf getdilər. Paçcah sudan içif, güldən dərif bağdan çıxdı. Mirdamadın yanından keçdi. Mirdamad onu görjək, "sən buralara xoş gəlifsən" deyif əlindən dutuf evə apardı. Mirdamad paçcahın gəlməginə görə çoxlu adam yıxıf böyük qonaqlıq elədi. Qonaxlardan biri ayağa duruf dedi:

– Ay Mirdamad, sən görək bizim üçün ağ bağdan birillik yoldan bir saada bir dəstə gül bağlıyıb gətirəsən.

Mirdamad hazırlanıb yola düşdü. Paçcah da munun dalınca getdi. Çatan kimi Mirdamad gülü götürüf qayıdırdı. Paçcah bir şir oluf munun yolunda dayandı. Mirdamad gələndə onun əlindən gülü dəstə ilə alıb ona bir balaca budağını verdi. Paçcah ondan qabaq gəlif qonaqların yanında oturdu. Bir vaxdan sora Mirdamad gəldi. Qonaqlar munun əlindəkini görüf dedilər ki, birillik yolu bir saata gedif gəlmisən, hələ gətirdiyin budurmu?

Mirdamad dedi:

– Vallah yolda qabağımı bir şir kəsib gülü əlimdən aldı, bir budağını verdi.

Paçcah bu halda gülü çıxardıf qonaqların qabağına qoydu. Qonaxlar baxıb gördülər ki, Mirdamad gətirdiyi gül, paçcahın gətirdiyinin bir budağıdır. Mirdamad paçcaha dedi:

– İndi istədiyin peşəni öyrənmisən.

Paçcah Mirdamada dua eləyib o gündən paçcahlığını atıf peşə dalınca getməyə başladı.

## ÜÇ BACI

Bir dükançının üç qızı var imiş. Bunların anaları ölür. Ataları gedib bir arvad alır. Bu kişi gündə gedib tikan yığıb gətirir və satıb puluna çörək alıb gətirərmiş. Bir gün bu taza gətirdigi arvad ərinə deyir ki:

– Gündə evə getirdiyin iki girvənkə əppəkdir, onu da qızların basıb yeyir. Ya məni boşa, qızlarını saxla, ya da qızlarını boşa, məni saxla.

Axırda kişi gəlib qızdarı azdırmaq fikrinə düşüb arvadına deyir:

– İndi nə tör bu qızları azdıraq?

Arvad cavab verir ki:

– Onun çarəsi asandır. Sən bazardan üç alma al gətir. Mən azdıraram.

Kişi bazardan üç alma alıb gətirib arvadına verir. Arvad da həyətdəki quyunun ağzına bir az ot yığıb almaları da onun üstünə qoyur və qızlar evə gələndə:

– Ay qızdar! Atanız sizə alma alıb gətirmiş. Baxın, həyətdəki otun üstünə qoyulmuşdur, – xəbər verir.

Qızdar bunu eşidəndə tez yügürüşürlər ki, almanı alsınlar və bir-birlərini itəliyə-itəliyə almaları qapmaq istəyəndə üçü də quyuya düşür. Qızlar quyunun dibində acından ölmək məqamına gəlirlər. Axırda qərar qoyurlar ki, gəlin tollanaq, hər kim az tollansa onu yiyək. Buna razı olub tollanırlar. Hamıdan az kiçik qız tollanır. İstəyirlər onu yisinlər. Biçarə qız bunlardan möhlət alıb divarı qurdalayır, bir avuc

kişmiş tapır. Bunu yiməsinlər diyə kişmişi bacılarına verir. O günü onu yimirlər. Etrəsi gün genə acıyırlar. Gənə də tollanırlar, hamıdan az kiçik qız tollanır. Bu dəfə qız divarı qazanda iki avuc kişmiş tapır. Munu yiməsinlər diyə yarısını bacısının birinə, yarısına o birinə verir. Bu gün də qızı yimirlər. Üçüncü gün genə tollanırlar. Bu dəfə də kiçik qış hamıdan az tullanır. Bu dəfə qız divarı qazanda üç avuc kişmiş tapır, bir hissəsini böyük bacısına, bir hissəsini ortancıl bacısına verib, bir hissəsini də özü yeyir.

Birdən qızdarın xiyalına düşür ki, baxsınlar görsünlər bu kişmişlər quyunun divarında haradan peyda olur. Quyunun divarını qazımağa başlayırlar. Bir az qazıdıqdan sora bir dəşik açılır. Orada baxıb görürlər ki, bu bir tölədir. Orada bir at bağlanmışdır. Atın yidiyi kişmişdir. Dimə ki, burası padişahın töləsi imiş. Qərəz qızlar hər gün gecə bu töləyə daxil olub atın qabağından kişmişləri yığıb aparırlar və atın da quyruğunu tərs düyünləyirlər. Bir gün bilə, beş gün bilə, get-gedə at arıxlayır.

Bir gün padişah töləyə gəlib ata baxanda görür ki, at lap arıxlamış. Möhtəri çağırıb buna açıqlanır ki:

– Yoxsa atın kişmişini aparıb özün yeyirsən ki, at gündən-günə arıxlayır?

Möhtər cavab verir ki:

– Bilmirəm kimdirsə, hər gecə gəlib atın qabağından kişmişi götürüb və atın da quyruğunu tərs düyünləyir.

Padişah əmr edir ki, keşik çəkib oğrunu dutsun.

Möhtər gecə yarıya kimi keşik çəkir, yuxu dutur yatır. Sabah olanda görür ki, genə kişmişi yığmışlar və atın da quyruğunu da tərs düyünləmişlər. Bir neçə gün gözləyir. Padişah baxıb görür ki, möhtərdən bir faidə hasıl olmadı və at da get-gedə arıxlayır.

Axırda qərar qoyur ki, gecə özü keşik çəkib oğrunu dutsun. Gecə olanda gəlib tölənin bir səmtində gizlənir. Gecə yarı olanda baxıb görür ki, yuxusu gəlir, barmağını kəsib duz basır və gecənin bir vaxtı görür ki, üç qız daxil oldu və atın qabağındakı kişmişi yığıb atın quyruğunu tərs düyünləyib getmək istəyəndə tez yüğürüb bunlardan kim olduqlarını soruşur. Qızlar başlarına gələn qəza və qədəri söyləyirlər. Padişahın bunlara rəhmi gəlib xəbər alır ki:

– Əlinizdən nə gəlir?

Böyük qız cavab verdi ki:

– Elə xalca toxuyuram ki, tamam qoşunun onun üstündə oturar, yenə də açıq qalar.

Ortancıl qız dedi ki:

– Yumurta qabuğunda aş bişirərəm, qoşunun yiyər, yenə də artıq qalar.

Kiçik qız diyir ki:

– Biri oğlan, biri qız sana bir cüt uşaq doğaram kəkillərinin yarısı qızıl, yarısı gümüş.

Padişahın xoşuna gəlir, bu qızların üçünü də alır. Böyük qız bir xalça toxuyur, üstünə o qədər ignə sancır ki, kimsə oturmayıb açıq qalır. Ortancıl qız bir az düyünün içinə duz tökür aş bişirir, kimsə yiyə bilməyib artıq qalır. Doqquz aydan sora kiçik qız bir oğlan, bir qız doğur, bunların kəkillərinin yarısı qızıl olur, yarısı gümüş.

Bacılarının buna paxıllıqları tutur, tez uşaqları götürüb bir qutuya qoyub suya atırlar və yerinə bir cüt it küçüyü qoyurlar. Padişaha xəbər aparırlar ki, arvadın bir cüt it küçüyü doğmuş. Padişahın açığı dutur, əmr edir ki:

– Arvadı aparıb həyətdəki peyinin içinə qoysunlar və gündə bir parça quru əppək versinlər ki, ölənə kimi o hal ilə orada qalsın.

Su qutunu axıdıb dəgirmanın çarxının üstünə salır və dəyirmanda dayanır. Dəgirmançı baxıb görür ki, dəgirman birdən dayandı. Xiyal edir ki, yəqin xərəgin arasına daş düşmüş. Gedir ki, daşı götürsün görür ki, bir qutudur. Qutunu götürüb açanda görir ki, içində bir cüt gözəl uşaq var. Dəyirmançının evladı olmaz imiş. Sevinə-sevinə bunları evinə götürüb arvatına verir. Arvat da bunları öz övladları kimi bəsləyib böyüdür. Uşaqlar yeddi, səkkiz yaşına çatdıqda aparır bunları məktəbə qoyurlar.

Bir gün məktəbdən gələndə padişaha rast gəlirlər. Padişah baxıb bəgənir və yanına çağırıb danışdıqda görür ki, xeyli mərifətli danışırlar. Padişahın bu uşaqlar o qədər xoşuna gəlir ki, bunları evinə qonaq aparmaq istəyir. Uşaqlar da razı olmayıb cavab verir ki:

– Ata-anamız razı olmasa gedə bilmərik.

Bu cavab padişahın xoşuna gəlib:

– Elə isə gedin izin alın, mənə qonaq gəlin, – diyib gedir.

Uşaqlar evə qayıdıb əhvalatı dəgirmançının arvadına söyləyirlər.

Arvat bunlara adam şəklində bir parça mum verib deyir:

– Evladlarım, padişahın qonaqlığına gedin. Həyətdə peyinin içində bir arvat görərsiniz, ona salam verib ötün. Elə ki, xörək yidilər meçməyini götürmək istəyəndə bu mumu məcməyiyə atın və söyləyin: “A mum, oyna görək, adam da küçük doğarmı?” O zaman mum oynayacaqdır. Hamı təəccüb edəcək. Onda padişaha diyərsiniz ki, sənin uşaqlarınıq. Peyində yatan bizim anamızdır. Bu misibəti bizim başımıza öz xalalarımız gətirmiş.

Bunu diyib arvat əhvalatı başdan-ayağa uşaqlara söyləyir.

Uşaqlar padişahın qonaqlığına gəlirlər. Analarının yanından ötəndə ona salam verirlər. Çörəkdən sora məcməyini götürəndə mumu çıxarıb məcməyiyə atıb deyirlər: “A mum, oyna görək, adam da it küçüyü doğarmı?” Mum oynamağa başlayır, hamı təəccüb edir. Padişah “bu nə sirdir?” diyə uşaqlardan soruşur. Uşaqlar cavab verirlər ki, biz sənin uşaqlarınıq və o peyində yatan bizim anamızdır. Bu işi bizim başımıza xalalarımız gətirmişdir.

Padişah bunu eşidən kimi arvatını peyinlikdən çıxartdırıb, taza paltar giydirib, onnan üzr istəyir. Genə də özünə hərəm edir və bacılarını isə öldürtdürür. Bundan sora uşaqları ilə şad yaşayırlar.

## LALA VƏ NƏRGİZ

Bir paçcah var idi. Bir arvadı var idi. Paçcahın Lala adlı bir oğlu, Nərgiz adlı bir qızı var idi. Lala, Nərgiz böyümüşdülər. Birdən anaları öldü. Ataları getdi bir qız aldı. Qızın paçcaha ürəgi yox idi. Paçcah qoja idi. Günlərin bir günü Lala, Nərgiz analıqlarını görməgə gəldilər. Axşam çıxıb gedəndə analıx dedi:

– Nərgiz sən get, Lalaya deyəjək sözüm var.

Nərgiz getdi, Lala qaldı, analıq dedi:

– Lala! Mən səni deyif gəlmişəm. Yoxsa, qoja atannan ötrü uçmurdum ki... İndi gərək mənnən başbirlik eləyəsən. Yoxsa əlimi qan eləyib yaxana çəkəjəm.

Lala analığından bu sözü eşidəndə bir elə şillə onun ağzının üstündən vurdu ki, ağzının-burnunun qanı bir-birinə qarışdı. Yıxıldı, yerə. Yerdən qalxdı, ağzı-burnu qannı gəldi paçcahın yanına. Dedi:

– Taxtın tarac olsun, yəhərin qannan dolsun, bu necə oğuldur saxlayıbsan, mana əl atdı. Əl vermədim deyə məni bu kökə qoydu.

Paçcah hököm elədi, Lalanın boynu vurulsun. Vəzir irəli yeriyib torpağa düşüb dedi:

– Paçcah sağ olsun, bu nə işdir görürsən? Camahat içində tunçur olarsan. İstəmirsən yanında qalmağa torpağından çıxart, qoy getsin.

Paçcah vəzirin təbirinə razı oldu. Hököm elədi, Lalanı sürgün eləsinlər. Nərgiz qardaşının getdigini görüb dedi:

– Mən niyə daha bu analığın danlayışında qalıram.

Nərgiz də qoşuldu qardaşına, iki cəllad onları götürüb atalarının torpağından çıxardıb qayıtdı.

Lala ilə Nərgiz çölə üz qoydular. Az getdilər, çox getdilər, axşama kimi yol getdilər. Axşam gəlib bir meşəyə çıxdılar. Meşədə gecələyəsi oldular. Nərgiz böyük idi, Lala kiçik. Nərgiz başladı gözləməgə. Lala yatdı. Gecədən xeyli keçmişdi, bir cüt quş gəlib düşdü Lala, Nərgiz duran ağacın başına. Biri deyir:

– Bacı, can bacı, bilirsən nə var?

O biri dedi:

– Nə var? Bilmirəm.

Dedi:

– Bu ağacın dibində yatanlar paçcahın oğlu, qızıdır. Analıqları bunları belə çöllərə salıb. İndi mənim bunlara yazığım gəlir.

O biri quş dedi:

– Ha vaxt onlar başımı yesələr, paçcah olarlar. Ürəyimi yesələr, hər gecə başlarının altında yüz tümən pul olar.

Nərgiz bunu eşitdi. O qədər gözlədi ki, quşlar yatdılar. Çıxdı quşu dutdu, öldürdü. Başını, ürəgini bişirib doydu qabağına. Dedi:

– Mən başını yeyim, ürəyini yeyim? Yox, mən qardaşım dura-dura başı yemərəm.

Hə, Nərgiz götürüb ürəyi yedi, başı qoydu qardaşına. Birdən göy guruldadı, bulud oynadı, bir əl göydən uzanıb Nərgizi çəkdi. Nərgiz özünü bilmədi, bir də gözünü açanda özünü bir mağarada gördü, bir devin yanında. Dev gördü qız qorxur, başı üstünə gəldi, dedi:

– Ey gözəl, qorxma, adam yiyənəmsə də, səni yemərəm. Sənə aşıq olmuşam.

Nərgiz dedi:

– Sənə arvad olmaram.

Dev qızdan bu sözü eşidib acığı dutdu, durdu qızı o qədər döydü ki, qız özündən getdi. Çox keçdi, az keçdi, qız özünə gəldi. Dev genə dedi ki, qız, mana arvad olarsan?

Qız razı olmadı. Dev bu yol bərk acıqlandı. Qızı dutub saçından asdı. Qız axşama kimi asılı qaldı. Dev axşam çöldən gəldi qızı düşürdü. Dilə dutdu. Söhbətə başladılar. Qız dedi:

– Sənin canın haradadır?

Dev dedi:

– Mənim canım bir şüşədədir.

Qız dedi:

– Mən uzun gün burada tək qalıram. Onu mənim yanımda qoy, sən gələnə kimi mənə həyan olsun.

Əvvəl dev razı olmadı. Qız çox yalvardı. Devin boynuna qoydu. Dev dedi:

– Şüşə başının üstündədir. Sabah mən gedəndən sora, al oynat, gözdə qırmayasan ha...

Qız dedi:

– Qırmaram.

Cecə yatdılar, sabah açıldı. Sabah dev çıxıb getdi.

Nərgiz əl atdı başının üstündən şüşəni götürüb saldı yerə. Şüşə qırıldı, içindən bir göyərçin çıxdı. Qız tez göyərçini dutub boğazını üzüb atdı yerə. Bir az keçdi, göy guruldadı, bulud oynadı, dev göydən yerə endi. Bir nərə çəkdi. Yıxılıb öldü. Nərgiz devin əlindən qurtarmasına sevindi. Çəkidə yüngül, qiymətdə ağır, nestələrdən götürüb qardaşı Lalanı axtarmağa getdi.

İndi Laladan xəbər verim. Sabah oldu. Lala ayıldı gördü bacısı yoxdur. Amma bir bişmiş quş başı var. Götürdü başı yedi. Meşəaşağı çox gəzdi. Bacısını tapa bilmədi. Üz qoydu getməyə, çox getdi, az getdi gəlib bir şəhərə çıxdı. Gördü bu şəhərin camahatı yığılıb quş uçurdurlar. Birinə yanaşdı, dedi:

– Burda nə var ki, camahat belə yığılıb?

O adam dedi:

– Bu şəhərin paççahı ölüb, paççah seçirlər. O quş da dövlət quşudur, hər kimin başına qonsa, onu paççah tikəcəklər.

Lala o adamnan danışırdı ki, quşu uçurtdular, gəldi qondu onun başına. Paççah olmaq üçün bəzənib-düzənən xanzadələr, bəyzadalar düşdülər yazıq Lalanın üstünə, qapaz altda itirdilər. Lala qaçıb bir su gilifində gizləndi. Quşu bir də uçurtdular. Quş gəlib su girifində yenə Lalanın başına qondu. Yenə camahat paççahlıq tamahında olanlar yığılıb Lalanı döydülər, qovaladılar. Dedilər quş allanıb, bir də uçurdaq. Quşu bir də uçurtdular. Quş yenə gəlib Lalanın başına qondu, yenə istədilər Lalanı paççah tikməşinlər, ağsaqqal, qarasaqqal töküldülər. Dedilər:

– Canım, qərib olanda nə olar? Bəlkə paççah oğludur ki, quş onun başına qonur.

Çox götür-qoydan sora Lala paççah oldu. O, camahatnan yaxşı rəftar eləyirdi.

Bir gün bir əjdəha peyda olub şəhərin dörd tərəfini xaraba qoydu. Neçə adamlar onun davasına getdü, öldü. Axırda qorxusundan heç kim

getməyirdi. Gəlib səhəri dağıtmasın deyə səhərin dərvaza qapılarını axşamdan bağlayıb camahat içəri dolurdu. O yandan Nərgiz qardaşını gəzə-gəzə gəlib həmən şəhərə çıxdı. Axşam idi, qapılar bağlanmışdı. Nərgiz qapını döydü. Dedi:

– Qapıçı, aç qapını, içəri girim, yol adamıyam.

Qapıçı dedi:

– Lala paçcahdan izin yoxdur.

Nərgiz bildi ki, qardaşıdır. Ha dedi:

– Aç, mən onun bacısıyam.

Qapıçı açmadı. Nərgiz gördü əjdəha yaxınlaşıb qurtara bilməyəcək. Belindəki qılıncı çəkdi, verdi əjdəhanın ağzına, yara-yara apardı quyruğunun dibindən o yana çıxdı. Qapıçı gördü, qız əjdahanı öldürdü, amma özü də qüvvətdən düşdü, yıxıldı özündən getdi, qılıncı əlindən yerə düşdü. Qapıçı paçcahdan çoxlu nəmər almaq üçün yerdən qılıncı götürüb Nərgizi doğradı. Bir sandığa qoydu, apardı yaxındakı meşəyə atdı. Qayıtdı gəldi paçcahın yanına, dedi:

– Bu axşam, paçcah sağ olsun, əjdahanı mən öldürdüm.

Lala paçcah vəzirnən gəldi gördü, doğrudan da əjdəha öldürülüb. İstədi qapıçıya nəmər verə, vəzir qoymadı.

Dedi:

– Paçcah sağ olsun, bu iş bunun işi deyil. Bunu kim bilir hansı adlı pəhləvan öldürüb, bu öz adına çıxır. Buyur bunu zindana salaq. Ta ki, düzünü desin.

Paçcah vəzirin tədbirini bəyəndi. Höküm elədi ki, qapıçını zindana saldılar. Sabah tezdən bir odunçu kişi var idi, baltasını götürüb meşəyə getdi, odun eləyib qayıdanda gördü: ki, bir sandıx var. Dedi:

– Baxtım kəsdi, atdım kaşıblığın daşını, yaqın bundakı qızıldır.

Odunçu arvadınan barabar sandığın ağzını açdı, gördülər bir qız; günə deyir sən çıxma mən çıxacağam, aya deyir doğma mən doğaçayam. Amma yarası çoxdur. Nərgizi sandıqdan çıxardıb yer saldılar. Gördülər sandığın içində yüz tümən pul var. Odunçu sevindi, getdi bir həkim gətirdi. Həkim dedi:

– Yarası çoxdu. Amma qırx gün baxılsa, sağalar.

Odunçu dedi:

– Hər nə istəyirsən al, tə ki, qurtar.

Həkim qırx gün baxdı, Nərgizi qurtardı. Yüz tümən odunçu pul verib onu yola saldı.

O tərəfdən qapıçı paççaha söz verib: "Əjdahanı öldürəni gətirəcəyəm" deyib zindandan çıxmışdı.

– Ha vaxt tapa bilməsə, yenə tutduracağam, – demişdi paççah.

O tərəfdən Nərgiz şəhərə çıxmışdı ki, qardaşını tapsın. Qapıçıya rast gəldi. Qapıçı hiylə ilə onu dutub evinə gətirdi. Öz paltarını ona geydirib, gecə zindançıya pul verib, öz yerinə onu zindana saldırdı.

Günlərin bir günü bu şəhərə bir tacir gəlmişdi. Malını satıb qayıdanda paççahın yanına gəldi. Dedi:

– Qara dəryadan keçəcəyəm, orda bir laxa əmələ gəlib, hər ordan keçəndə onun ağzına bir adam atmasam, gəmini batırır. İndi zindanda bir günahlı dustağın varsa, ver aparım onun ağzına atım.

Paççah zindançını çağırdı. Dedi:

– Bu tacirə bir günahlı dustaq ver, aparsın.

Zindançı gəlib Nərgizi verdi tacirə. Tacir Nərgizi götürüb yükləndi, yola düşdü. Az getdi, çox getdi, gəldi Qara dəryaya çıxdı. Gəmilər gəldi həmən laxada dayandı. Tacir götürdü ki, Nərgizi atsın laxanın ağzına. Nərgiz dedi:

– Bir məni udmaqla laxa sizdən əl çəkməz. Suyun dibinə əl çatmır. Ün yetmir. Mənim belimə ip bağlayıb atın laxanın ağzına, ha vaxt bir xeyli keçmiş qanlı köpük suyun üzünə çıxdı, onda bilin ki, laxeyi öldürmüşəm. İpi çəkin. Ha vaxt qanlı köpük suyun üzünə çıxmadı, onda ipi buraxın, gedin. Onda bilin ki, mən öldüm.

Tacir ip bağlayıb, atdı Nərgizi laxanın ağzına. Nərgiz qılıncı çəkib özünü verdi laxanın qarnına. Ağzından yarıb dalından salamat çıxdı. Tacir xeyli keçdi, gördü qanlı köpük suyun üzünü götürdü. Tacir ipi çəkdi. Nərgiz əlində laxanın başı çıxdı. Tacir Nərgizin alnından öpdü, dedi:

– Səni oğulluğa götürürəm.

Tacir Nərgizi də götürdü gəldi şəhərə. Paççaha ərmağan hazırladı. Ərmağanı Nərgizə verdi. Barabar o şəhərin paççahının yanına gəldilər. Paççah həm ərmağanı, həm Nərgizi bəyəndi. Vəzir dedi:

– Qızın layıqdır.

Paççah götürdü Nərgizə qızını bağışladı. Tacir o şəhərdə malını satdı. Nərgiznən paççah qızı ilə barabar yola düşdülər. Lala paççahın şəhərinə dəryadan keçəndə tacir qızı özünə almax üçün Nərgizi sandığa qoydurub, gəmiçiyə dəryaya atdırdı. Qız Nərgiz üçün çox ağladı. Tacirə getmərəm dedi. Tacir qızı da götürdü, gəldi Lala paççahın

yanına. Qızı bağışladı ona. O tərəfdən dərya dalğalandı, sandığı gətirdi çıxartdı Lala paçcahın yanına. Sandığı bağban tapdı, apardı evinə. Aşdı gördü bir gözəl qız, amma yarı canı qalmayıb. Bağban həkim gətirdi, onu bir neçə gündə sağaltdı verdi bağbana. Bir gün bağban gül yığırdı. Nərgiz xəbər aldı ki, bu gülü kim üçün yığırsan?

Bağban dedi:

– Lala paçcah üçün yığıram. Bu günlərdə tacir ona bir paçcah qızı bağışlayıb. Paçcah qızı çox qəmgindi. Aparıram verəm, onun qəmi dağıla.

Nərgiz bildi ki, bu qız həmən paçcahın buna bağışladığı qızdır. Bir dəstə gül bağladı. Gülün arasına saçından bir tel kəsib qoydu. Dedi:

– Bu gülü də həmən tacir bağışlayan paçcah qızına ver. Deyinən sənin qəmini çəkdigin Nərgiz gülü gəlib.

Bağban Nərgizdən gülü alıb, gətirdi verdi qıza. Dedi:

– Xanım, sənin qəmini çəkdigin Nərgiz gülü gəlib.

Qız bildi ki, Nərgiz dəryadan salamat çıxıb gəlib, çıxartdı muştuluq üçün qızıl boyunbağını bağbana bağışladı. Dedi:

– Get o Nərgiz gülünü mənim yanıma gətir.

Bağban söyünmüş gəldi bağa, Nərgizi götürdü qızın yanına getdi. Nərgiz qıznan görüşdü. Hər ikisi barabar gəldilər Lalanın yanına. Nərgiz özünü tanış verdi. Lala Nərgiz görüşdülər, necə il qalıb bir-birini gəzən bacı-qardaş qol-boyun oldular. Başlarına gələn bəlaları bir-birinə başdan-ayağa nəql elədilər.

Lala paçcah qırmızı geyindi, taxta çıxdı. Hökm eylədi qapıçını, zindançını, taciri, bağbanı gətirsinlər. Qapıçının, zindançının, tacirin boynunu vurdurdu. Bağbana xələt verib yola saldı. Nərgiz dedi:

– Qardaş, indi düşmənləri öldürdün, dostların, atamızın gözü yoldadır. Gedək onları da şad edək.

Lala razı oldu. Yerinə bağbanı paçcah tikib Nərgizlə paçcah qızı ilə yola düşdülər. Gəlib atalarının torpağına çıxdılar. Ataları ağlamaqdan kor olmuşdu. Tutyə sürtüb gözlərini açdılar. Başlarına gələni nəql elədilər. Ataları elədiyi zülmə peşman oldu. Höküm elədi, analığı asdırdı. Lalanı öz yerinə paçcah, Nərgizi vəzir elədi.

Nərgiz dedi:

– Qardaş, mən sənə qız gətmişəm. Toy eləcəyəm.

Qırx gün, qırx gecə toy eləyib paçcah qızını Lalaya aldılar. O gündən gözəl günlər keçirməyə başladılar.

## MƏRDNƏN NAMƏRDİN NAĞILI

Bir vardı, bir yoxdu, Allahdan başqa heç kim yoxdu. Günlərin bir günündə iki yoldaş olur. Birinin adı Mərd, o birinin adı Namərd. Mərdnən Namərd yoldaş olub çıxdılar səfərə. Mərd hər yerə çatırdı süfrəsin açırdı, Namərdə deyirdi:

– Buyur, çörək ye!

Namərd də Mərdnən bir yerdə çörəgini yeyirdi. Bir iki rəs Mərd buna çörək yiməgi təklif etdi. Namərd bunun çörəginən yedi, ta o çağacan, Mərdin çörəgi qurtardı. Mərd oldu Namərdə möhtac. Bir az bular yol getdilər. Mərd və Namərd bir ağacın dibində oturdular. Namərd süfrəsin açdı. Mərd yaman açmışdı, dedi Namərdə ki, bir az çörəginnən ver mənə, yaman acmışam.

Namərd dedi:

– Sol gözüvü ver, çıxardım qoyum sol cibivə, bir az çörək verim sənə, ye.

Mərd baxıb gördü ki, əgər sol gözünü verməsə, buna çörək vermiyəcək. Bu da ki acdı, heç bir yana gedə bilmiyəcək. Mərd razı oldu. Namərd Mərdin sol gözünü çıxardıb qoydu sol cibinə, bir parça çörək verdi. Mərd çörəgi alıb yedi. Bunlar bir günorta yol getdilər. Namərd genə süfrəsin açıb, başladı çörək yeməgə. Mərd gördü ki, Namərd buna çörək yeməgi təklif etmir, dedi.

– Namərd qardaş, yaman acmışam. Mənə bir parça çörək.

Namərd dedi:

– Sağ gözünü ver çıxardım, qoyum sağ cibivə, bir parça çörək verim.

Mərdin əlacı kəsilib razı oldu. Namərd ayağa durub Mərdin sağ gözünü çıxartdı, qoydu sağ cibinə. Namərd Mərdə bir parça çörək verib, durub düzəldi yola.

Namərd çıxıb getməkdə olsun, xəbəri sənə kimdən verim Mərddən. Mərdin iki gözləri də yox idi. Əlin yerə sürtə-sürtə gedib çıxdı köhnə xarabalığa. Burda özinə bir yumşaq yer tapıb oturdu.

Bu burda qalmaqda olsun, xəbəri sənə kimdən verim, şirdən, pələngdən, qurtdan, tülküdən. Şir, pələng, qurt, tülkü gəlib çıxdılar bu xarabalığa. Hərəsi bir yanda oturdu. Pələng şirdən xəbər aldı ki, dünyada nə təzə xəbər var?

Şir dedi:

– Pələng qardaş, sağlığın. Hələ bir təzə xəbər yoxdu, salamatlikdi.

Şir qurtdan soruşdu ki, qurt lələ, səndə nə təzə xəbər var? Qurt gözinin yaşını axıda-axıda dedi:

– Bazarım yaman kasatdı.

Şir dedi:

– Qurt lələ, bazarın niyə kəsatdı?

Qurt dedi:

– Bu dağı ki gəzirsiniz, bu dağın ətəgində bir çoban var. Bu çobanın tulası kimi tula yoxdu. Mən hər axşam gedib quzudan, qoyundan nə rastıma gəldi, çalıb-çapıb götürüb buniynən dolanardım. Əmma isrən gündən bu çobanın bir tulası var. Nə qədər eliyirəm, çobanın qoyunlarına yaxın durum, tulanın qorxusundan heç bir iş görə bilmirəm.

Şir dedi

– O tulanın qanı dərmandır, hər kim naxoş olsa, hər hankı naxoşluq olsa, o tulanın qanından naxoşa verən kimi, naxoş ayılar.

Mərd bu sözü yadında saxladı. Şir tülküyə dedi:

– Tülkü lələ, sən danış, görək, sənin bazarın necədi?

Tülkü dedi:

– Mənim bazarım yaxşıdı, heç bir kəsatdığım yoxdu. Bu dağı ki gəzirsiz, bu dağın o üzündə bir siçan olur. Siçan hər gün qızılları günə sərib oturur yanında. Mən də bu qızılların qarovulunu çəkərəm. Siçan da mənə çörək verər.

Mərd buların hamısın eşitdi. Səhər oldu qurt, pələng, şir, tülkü çıxıb getdilər. Mərd ayağa durub köhnə xarabalıqdan çıxdı bayıra. Gedib oturdu bir ağacın dibində. Əmma bərk acmışdı. Bu dəmdə göydə iki göyərçin qənət-qənətə verib gəlib oturdular Mərd oturan ağacın budağında. Böyük bacı kiçik bacıya dedi:

– Mərdnən Namərdin hekayəsini eşitmisən?

Dedi:

– Eşitməmişəm. Bir danışsana mənim üçün.

Dedi

– Danışım. Günlərin bir günündə bir Mərd olur, bir Namərd. Mərdinən Namərd yol gedirlərdi. Belə oldu ki, Mərdin çörəgi yolda qurtardı. Namərdə dedi ki, bir az çörək ver mənə. Namərd Mərdin gözlərini çıxardıb ona çörək verdi. İndi budu, Mərd kor olub qalıb burda, dadı heç bir yana çatmır.

Kiçik bacı dedi:

– Bacı, bəs bu Mərdə heç bir kömək eləmək olmaz?

Dedi:

– Olar.

Dedi:

– Ey Mərd, yatmısan ayıl, ayıqsan eşit.

Mərd baxıb gördü ki, göyərçinlər dil olub, bir balaca yerindən tərpəndi. Böyük göyərçin dedi:

– Biz ki tərpəndik, burdan – ayağımızın altınnan bir qənət düşəcək. O qənəti götir, gözlərivi qoyarsan yerinə. O qənədi gözlərivə çəkərsən. Gözlərin olar anadangəlmə.

Göyərçinlər sözlərini deyib qənət-qənətə verib uçub getdilər. Mərd baxıb gördü ki, dizinin üstə bir şey düşdü. Əlin yerə sürtüb qənəti tapdı. Sağ gözün çağ cibinnən, sol gözün sol cibinnən çıxardıb, qoydu yerinə.Qənəti çəkdi gözlərinə, gözləri oldu anadangəlmə. Durub birbaş yol elədi gəlməyə, ta o çağacan gəlib çıxdı bir dağın təpəsinə. Gördü ki, burda bir siçan bir xeylax qızıl töküb qabağına oturub qızılların qarovulunu çəkir. Mərd əlinə bir daş alıb tolladı siçana. Siçan gördü ki, Mərd buna daş tulladı. Tez qaçıb qorxusundan girdi yuvaya. Mərd qızılları yığışdırıb birbaş başladı yol getməgə. Az gəlib çox gəlib, iynə yarım yol gəlib, gəlib özün yetirdi bir dərəyə. Gördü ki, bir çoban qabağında bir sürü qoyun, yanında bir tula, dərə başı yuxarı çıxır.

Mərd dedi:

– Çoban qardaş, bu tulanı gəl sat mənə.

Çoban dedi:

– Tula-zad satan deyiləm.

Mərd çox dedi, çoban az eşitdi. Axırda bir çəngə qızıl verib tulanı bundan aldı.

Çoban yollanıb getməkdə olsun, eşit bir neçə kəlmə Mərddən. Mərd dərəbaşı aşağı endi. Tulanı ayağının altına alıb, başın kəsib qanın yığdı bir şüşəyə. Cibinə qoyub düzəldi yola.

Xəbəri sənə kimdən İstanbul padişahından. İstanbul padişahının qızı necə ildi ki, naxoş, yorğan-döşəkdə idi. Nə qədər həkim çağırırdılar heç kəs əlac eliyə bilmirdi. Mərd özün İstanbul şəhərinə yetirib gördü ki, burda bir dəstə adam padişahın imarətinin qabağına yığışıb. Mərd bu adamlardan xəbər aldı:

– Nə olub məgər?

Burdakı adamlardan biri Mərdə dedi:

– Məgər bilmirsən, İstanbul padişahının qızı neçə ildi ki, naxoşdu?

Mərd bu adamlardan ayrılıb gedib həkimlərə layiq özünə bir dəst libas aldı; özünə ziynət verib gəldi padişahın imarətinin qabağına, dedi:

– Həkiməm?

Dedilər:

– A kişi, yazıqsan, bir belə həkimlər gəlib heç biri əlac eləmiyib, indi səni də öldürüb yollayarlar o birlərinin yanına.

Mərd dedi:

– Mən o yan-bu yan bilmirəm. Mən həkiməm ki, həkim. Gərək padişahın qızına baxam.

Dedilər ki, indi ki belədi, qoy gedək padişaha xəbər verək.

Padişaha xəbər gedib çatdı ki, bəs şəhərə təzə bir həkim gəlib. Padişah dedi ki, gedin çağırın o həkimi bura.

Gəlib Mərdi apardılar padişahın yanına. Padişah Mərdə dedi:

– Həkimsən?

Mərd dedi:

– Bəli, həkiməm.

Padişah dedi:

– Əgər qızımı sağaltsan, qızımı verəcəyəm sənə. Əgər sağalda bilməsən, sənin boynuvi vurdutduracağam.

Mərd razı oldu. Mərdi gətirdilər, apardılar padişahın qızının yanına. Mərd qızın nəbzinnən tutub yoxladı, axırda tulanın qanından bir neçə damcı suya töküb, verdi qıza. Qız içən kimi ayıldı. Padişaha xəbər getdi ki, gözlərin aydın olsun, bəs qızın sağalıb.

Padişah bu xəbəri eşidən kimi yerindən qalxıb əmr elədi ki, təbil vurulsun. Təbil vuruld. O günü böyük bir şaddıq elədilər. Belə ki, padişah əhd eləmişdi ki, "əgər qızım sağalsa, yeddi gün yeddi gecə şəhərimdə olan bütün fəqir-füqərələra, əlsiz-ayaqsızlara plov verəcəm".

Qazan qazanların yanına düzüldü. Aşbazlar əl-qolların çirməliyib dügüləri tökdülər qazanlara. Düz yeddi gün fəqir-füqəralara yemək payladılar. Padişah bu tərəfdən də əmr etdi, öz qızının kəbinini kəsdirdi Mərdə. Mərd padişahın qızını aldı. Mərdə qırx gün qırx gecə toy eliyib qızını verdi Mərdə.

Xəbəri sənə kimnən verim Namərddən. Mərd pəncərədən baxırdı, kefi yaman kökdü. Qabağında çay, əlində qəlyan gördü ki, Namərd qardaş gəldi. Adam yolladı ki, Namərdi çağırın. Namərdi gedib çağırdılar. Namərd baxıb gördü ki, Mərd sagalıb. Dedi:

– Mərd qardaş, bu nə olan hekayətdir.

Mərd başına gələn hekayəni bir-bir Namərdə danışdı. Namərd bu sözü eşidən kimi Mərddən ayrılıb özün yetirdi həmən köhnə xarabalığa. Namərd bir yanda gizlənməgdə olsun, xəbəri sənə kimdən verim, pələngdən, şirdən, qurtdan, tülküdən. Axşam ki oldu, pələng, şir, qurt, tülkü gəldilər bu köhnə xarabalıga. Pələng şirdən xəbər aldı:

– Şir qardaş, dünyada təzə xəbər nə var, nə yox?

Şir dedi:

– Sağlıq, səlamətlik. Heç bir təzə xəbər yoxdu.

Şir qurtdan xəbər aldı:

– İndi kefin necədi?

Qurt dedi:

– Bu saat kefim bərk çökdi. O çobanın yanında ki tula vardı, indi o tula yoxdu. Mən də gündə bir qoyun gətirib asudalıqnan yeyirdim. Daha qorxum-filanım yoxdu.

Qurt gördü ki, tülkü sımsırıxın sallayıb. Qurt dedi:

– Tülkü lələ, sənin kefin necədi?

Tülkü dedi:

– Kefim kök deyil. Onunçün ki, bazarım kasatdı.

Dedilər:

– Nə üçün?

Tülkü dedi:

– O ki siçan var idi gedib qızıllarımın qarolunu çəkərdim, indi onun qızıllarını oğurlayıblar. Onunçun kefim kök deyil, bazarım da kasaddı.

Pələng dedi:

– Burda insan var. Gəlin buranı axtaraq.

Başladılar axtarmağa. Namərdi tapdılar. Tez Namərdi parçalayıb hərəsi bir tikəsini götürüb yedi. Namərdi cəhənnəmə vasil elədilər.

## İSKƏNDƏR

Biri vardı, biri yox idi. Allahdan başqa heç kim yoxdu. Hindistanda bir paççah varıdı. Adına Yunan deyərdilər. Yunanın gözünün ağı-qarası bir qızı varıdı. Heç oğlu yoxıdı.

Bı qızı qoymuşdu məktəbə. Bir gün bı qız qırx incə qızınan çıxmışdı səyahətə. Bılar çıxmışdılar bir uca dağın başına bı dağı seyr eliyirdilər. Bir vədə gördülər ki, bir ayı böyürdən çıxdı. Yunanın qızın götürdü, "ya Əli, mədət" qaçdı. Hay saldılar. Yunan atdanıp qoşunuynan başladılar qızı axtarmağa. Nə qədər soraq elədilər, qızdan bir xəbər tapmadılar. Qoşun qayıtdı geri.

Bı ayının da dağın kahasında bir evi varıdı. Qızı aparıb qoydu bırda. Ay ötdü, il dolanıb qızın boynuna ayıdan bir uşax düşdü. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz saniyədən sora bir oğlu oldu. Adın qoydu İskəndər.

Bı uşax gəldi bir yaşınnan iki yaşına, ikidən üçə... Bəli, bı İskəndər gəldi beş-altı yaşına, bir gün özünə baxıb, anasına baxıb, dedi:

– Ana, sənnən mən birik, bəs bı ayı necə şeydi?

Qız dedi:

– Bala, mən Hindistan paççahının qızıyam, günnərin bir günü qırx incə qızınan çıxmışdıq filan dağın başına, seyr eliyirdik. Bı ayı gəldi qızdarın içinnən məni götürdü qaçdı, bıra gətirdi. İndi sənin dədən o ayıdı.

İskəndər dedi:

– Mənə bələdçilik eliyərsənmi, səni aparım dədənin yanına.

Anasın götürdü, aldı dalına. Getməyin binəsin qoydular. Anası dedi:

– Bırdan get, ordan get.

Gəldilər çıxdılar Yunan paççahın vilayətinə. Yunan paççaha getdi ki, bıdı qızını bir oğlan gətirir. Paççah çıxdı qızının qabağına. Gördü bını gətirən bir oğlandı ki, nətər, elə bil Rusdamdı. Dedi:

– Bala, bı oğlan kimdi?

Qız dedi:

– Ata, o ayı ki məni götürüp qaçmışdı, həmən o ayıdandı. Mənim oğlımdı.

Paççah başdadı bırda şaddıx eləməyə. Bı uşağı da qoydular məktəbə. Bı hankı uşaqnan qalaşırdı, çəkip qolun-qılçın sındırırdı. Şəhər əhli bı uşaxdan dad çəkirdi. Axırı gəlib şəhər əhli paççaha xəbər verdilər ki, bı İskəndər məktəbdə bir salamat uşax qoymadı. Hamısın şil-axsaq elədi. Paççah qızı çağırıb dedi:

– Bala, hamı onnan, dilxordu. Bına öyüd, ver!

Anası nə qədər öyüd verirdi, bı baxmırdı. Şəhər əhli də hey şikayət eliyirdi. Anası da oğluna öyüd verirdi, dannıyırdı. Bir gün çox fikirləşənnən sora İskəndər dedi:

– Ana, gedirəm.

Gəldi babasının yanına dedi:

– Baba, maa bir at ver.

Bına babası bir at verdi. Bı da geyindi, ox-yayını götürdü, qılıncın, əslahasın da götürdü mindi ata ki getsin, anası dedi:

– Mən də gedirəm. Oğlumu tək qoymaram.

Atası nə qədər elədi ki, getmə, qız dedi, xeyr, gedəcəyəm.

Bıllar ana-bala atdanıp düşdülər yola. Bəli, az getdilər, çox getdilər, dərə-təpə düz getdilər. O günü axşamatan at sürdülər. Axşama iki saat qalmış özlərin yetirdilər bir imarata. Açdılar qapını, girdilər içəri; gördülər əvdə heç kəs yoxdı. Ora-bura baxdılar, gördülər yağınnan, düyüsünnən, ununnan, hər şey var. Anası düyü artdayırdı, bı da atı örühlədi, bıraxdı bir çəmənə. Qayıtdı gəldi. Dedi:

– Ana!

Qız dedi:

– Nədi bala?

Dedi:

– Ana, bıra ya dev yeridi, ya da pəhlivan.

İskəndər çıxıb qapıda gəzinirdi. Gördü: bir dev gəlir ki, nətər.

Dedi:

– Ana, bıdı bir dev gəlir, ancax heç xof eləmə. Allahın deməkliyinən necə dev olsa, öldürəcəyəm.

İskəndəri dev görəndə bir nərə çəkdi. Başdadı İskəndərin üsdünə yüyürməyə. İskəndər xof etmədi. Bı da yönəldi devin üsdə. Bir qılınc çəkdi, devi iki parça elədi, saldı yerə. Gördü, bıdı biri də gəlir, bı dev də yeddi qardaş devdilər. O da gəldi, gördü qardaşın öldürüplər. Hüçum elədi İskəndərin üsdə. Bını da öldürdü. Bılların, altısın da bir-bir, gəldikcə öldürdü. Qaldı biri, bı da bı devlərin böyük qardaşdarıydı. Bı qorxup qaçdı, gəlmədi...

İskəndər gedərdi, ovlardı, getirərdi, anası da bişirər, yeyərdilər. Bir ay bırda qaldılar. Bıllar bı qayda gündə xörəklərin bişirərdilər, yeyərdilər. Bir gün İskəndər şikara çıxmışdı. Bı dev dedi:

– Gedim, görüm qardaşlarımı qıran adam necə oldu, gedibdimi?

Yavaş-yavaş durup gəldi, baxdı gördü heç kəs yoxdu. Qapını acdı, girdi içəri gördü bırda bir zənən oturub. Bı arvad devi görən kimi aşıx oldu bına. Dedi:

– Dev, nətər eliyək, bı İskəndəri biz tələf eliyək.

Dedi:

– Mən bir məsləhət görrəm.

Arvad dedi. gör.

– İskəndər gələndə de ki, bala könluma bir yemiş düşüp, o deyəcək ki, nə bilim yemiş harda olar? Onda denən ki, nə bilim, bir bu günçıxan tərəflərə get, birdən olar.

Arvad dedi:

– Yaxşı.

Dev dedi:

– Orda yeddibaş devin bosdannarı var, gedər ora. İskəndəri olar öldürərlər.

İskəndərin gələn vaxtı, durdu getdi. İskəndər ovdan qayıdıb gəldi. Səhər İskəndər ova gedəndə anası dedi:

– Bala könluma bir yemiş düşüp, ta ölürəm.

Dedi:

– Ay ana, bırda bazar yox, bağ yox, bostan yox. Bırda yemişi hardan alım?

Dedi:

– Bala, bir günçıxan tərəflərə get, birdən olar.

İskəndər atın mindi, getdi günçıxan tərəfə. Gördü bırda bir bostan var, heç ucu-bucağı yoxdu. Girdi bu bostana, atı ötürdü otdamağa. Başdadı bı yemişdən, qarpızdan yığıp heybəsin doldurdu. Dev də bir dağın daşında durub baxırdı. Gördü, bəli, bir adamdı atı ötürüb bostana, yemiş-qarpızı da yığır. Yendi gəldi, bir nərə çəkdi. İskəndər heç dərbənd olmadı, dev gəldi əlin atdı İskəndərin kəmərinə ki götürüp yerə vırsın, İskəndər qılıncın belinnən sıvırıp devin başınnan elə vırdı ki, dev iki parça olub, cəhənnəmə vasil oldu. Devin başını da kəsib götürdü. Atı minib yemiş-qarpızı da götürdü; gəlməyin binəsin qoydu. Devnən anası baxırdılar. Gördülər bıdı İskəndər devin başın, yemiş-qarpızı da gətirib gəlir. Tez anası bı devi gizdədi. Bəli, beş günbelə, on gün belə.Bir gün genə anası devə dedi:

– Bını nətər eliyək, ölsün.

Dev dedi:

– Bı yanda çox dev var, onların alma ağacları var. Denən könluma alma düşüp. Onda deyəcək ki, bırda alma harda olar, hardan tapım? Denən, bı qiblə tərəfə atı min get, genə o tərəfdə olar. Ora getsə o devlər öldürər. Yüz canı olsa ora gedənin biri salamat qutarmaz.

İskəndər genə ovdan qayıdıb gəldi. Yedilər, işdilər, gecə yatdılar. Səhər İskəndər genə ova gedəndə anası dedi:

– Bala, könluma bir alma düşüb.

Dedi:

– Ay ana, hardan tapım, bırda alma hardadı?

Dedi:

– Bir bu qiblə tərəfə get, orda olar.

İskəndər atı minib yavaş-yavaş getdi. Gördü bir dağ var, bının aşağısında da bir bağ görükür. Atı sürdü bağa, girdi gördü bı bağda çox ağaclar var. Amma bağın içində çox imaratlar var. Getdi otağa sarı, gördü bı otaxda bir qız var, bını saçınnan asıplar.

Qız dedi:

– Ay oğlan, bıra nahax gəlmisən. Bıra qırx devin mənzilidi. Bınnan bələ neçə otaxlar var.

İskəndər dedi:

– O devlər hardadı?

Dedi:

– Bı saat o devlər şikardadılar. Bı saat gəlhagəl vaxdarıdı. Biz üç bacıyıx, hərəmiz birindəyik.

İskəndər bı qızı alıp qoydı yerə, keçdi o biri otaxlara. O iki qızı da alıp qoydı yerə. Bı qızdar dedi:

– Ay oğlan, nəyə gəlmisən? Bı saat sənin ətini aşıxcan, qanını qaşıxcan eliyəcəklər.

Oğlan dedi:

– Sizin işiniz yoxdu.

Bir də gördü bıdı nırhanır devlərin ikisi gəlir. Bıllar isdədi hücum eliyip İskəndəri diri tutsunnar, İskəndər firsəti qənimət bilip, Allah, Məhəmməd, ya Əli deyip, qılıncın belinnən çəkip, bı devləri dörd parça eliyip saldı yerə. Qərəz bir-bir bı devlərin qırxın da tamam elədi.

Qayıdıb gəldi. Qızdar dedi:

– Ay İskəndər, getmə, anan səni ölümə verəcək.

Dedi:

– Xeyr, anam məni ölümə verməz.

Almadan yığıb heybəsin doldurdu. Qızdara da tapşırdı ki, gəlip sizi aparacam.

Bəli, heybəni aşırdı atın üsdə, yavaş-yavaş sürdü. Gəldi çıxdı əvə, almanı verdi anasına. Şəhər getdi ova.

Bı arvad devə dedi:

– Nətər eliyək İskəndər tələf olsun?

Dev dedi:

– Gələndə de ki, bala, bir belə ki sən gedirsən, devləri qırırsan. Gətir sənin bir gücünü sınıyım. Gətir bı zinciri yeddi qatdan salım qoluna, görək qıra bilirsənmi? Qırbı qırdı, qırmadı onda mən çıxıp onu öldürrəm.

Arvad dedi:

– Yaxşı olar.

Axşam İskəndər ovdan qayıtdı. Bı arvad dedi:

– Bala, baxıram kı sən bir pəhlivansan, bir belədə devi gedip qırırsan. Gətir sənin gücünü sınıyım, görüm necədi. Gətir bı zinciri yeddi qatdan salım sənin qoluna, görüm qıra bilirsənmi?

İskəndər dedi:

– Yaxşı olar.

Anası gətirip zinciri yeddi qatdan İskəndərin qoluna bağladı. Dedi:

– Ağ dev gəl?

İskəndər dedi:

– Ana, Ağ dev nədi?

Dedi:

– Bala, heç nə, sözdü deyirəm.

İskəndər zinciri elə dartdı ki, zincir qırıx-qırıx olup töküldü yerə. Dedi:

– Bala, bınnan olmadı. O yay-kirişin götürüm.

Dedi:

– Gətir.

Arvad yay-kirişin gətirip yeddi qatdan İskəndərin qoluna saldı. "Ağ dev, gəl" deyəndə İskəndər elə çəkdi ki, paltarı kəsip ətə dirəndi. Bir də "Ağ dev, gəl!" deyəndə, elə çəkdi ki, əti kəsip sümüyə dayandı.

İskəndər gördü ki, bir də çəksə sümüyü qırılacaq, çəkmədi. Ağ dev çıxdı. Anası dedi:

– Öldürmə, İskəndəri. Gözdərin çıxart.

Pıçağı götürüp İskəndərin iki gözünü də çıxartdı.

İskəndərin bir tulası varıdı. Həmişə İskəndər ova gedəndə yanınca gedərdi. Yerə atan kimi gözün, ikisin də tula götürdü. Nənəsi dedi:

– Ağ dev, bını götür apar at bir quyuya-zada.

Bı Ağ dev yolda bir quyu görmüşdü, İskəndəri gətirip gurultu ilə saldı bu quyuya, qayıtdı geri.

Bı qayıdannan sora bı qızdar dedi: "İskəndər vədə vermişdi ki, gəlip sizi aparacayam. Yəqin İskəndərin başında bir qalmaqal var, gəlmədi". Bıllar devlərin ayın-oyınınnan ata yüklüyüp bırdan köçdülər. Bı tula da gündə gəlirdi, bı qızdar çörək atırdı, götürüp çıxıp gedirdi.

Bıllar bir gün dəsdərxana çörəyi bağlıyıp atdılar. Bı tula çörəyi götürüp gedəndə, bı qızdar da düşdü bı tulanın dalına. Gəldilər gördülər bı tula durup bir quyunun başında zingildiyip çörəyi saldı. Bı qızdar gəldi quyunun başına.

Dedilər:

– İskəndər!

Dedi:

– Hey....

Tez bıllar kəməndi atıb İskəndəri çıxartdılar. İskəndəri götürdülər getdilər evlərinə sarı. Yolda otdılar bir ağacın altında. Bına malıcəa elədilər, qolının yarasını sağaltdılar, üzün yudular. İskəndərin xörəyin verip, bırda müğayat olurdular. Bir gün oturmuşdular, gördülər ki, üç göyərçin gəldi, qondu həmən ağacın başına.

Biri dedi:

– Bacı, bu oğlanı tanıyırsınız?

Dedilər:

– Yox.

Dedi:

– Bı oğlandı ki, adına İskəndər deyərdilər. Bının nənəsi Yunan paççahın qızıdı ki, ayı aparmışdı ordan gətirip çıxartdı dədəsinin vilayətinə. Ordan da getdi. Bırda Ağ devə aşiq olup, öz oğlunun gözün çıxartıb, atdı quyuya.

O biri quş da dedi ki, bının gözləri bırda olseydı, mən qalxanda bırdan bir yarpax salardım, onu götürüp döyüp gözdərin yerinə qoyup, onnan damızdırsalar, olar anadangəlmə. Amma birəz göy olar.

Tula da yatmışdı bılların yanında, o saat tula gözdəri ağzınnan saldı yerə.

O biri də dedi:

– Mən də bir lələk salacıyam ona çəksələr, ta göy olmaz. Həmən gözdəri olar.

Bı quşdar belə deyip qaçdılar. O saat bir yarpax, bir də lələk düşdü. Qızdar gözdəri götürüp təmiz yudular, qoydular hər küşdəsin öz yerinə. Bı yarpağı da əzip bir damcı damızdırdılar, oldu anadangəlmə, bı ləlәyi də çəkdilər, oldu lap əvvəlki gözdəri.

İskəndəri yedirdilər, içirdilər. İskəndər düşdü həmən halına.

İskəndər bir gün bir dərviş libası alıp, geydi, atı minip yavaş-yavaş gəldi bir yerə. Atdan düşdü, atı örüklüyüp buraxdı; gəldi gördü həmən devnən anası oturup. Devdən də bir uşağı var. Bı da oturup yannarında. İskəndər gördü ox-yayı anası asıp göydən. İskəndər dedi:

– Allah eşqinə, o ox-yayı ver maa.

Arvad durdu, ox-yayı verdi bına ki, qoy heç gözüm görməsin onu. İskəndər o saat bir ox qoyub kamana elə atdı ki, o sat devin canın cəhənnəmə vasil elədi. Sora üzün anasına çörup dedi:

– Çəpəl, mən saa nə yamannıx elədim? Səni ayının əlinnən qutardım, alma dedin, gətirdim; yemiş dedin gətirdim... Mənim gözümü çıxartdırdın. Qoydu ayağının altına. Elə çəkdi ki, şir çıxdı. Sora da bı devdən olan uşağı da öldürdü. Onnan sora bırda olan şeyləri də ata yüklüyüb getdi qızdarın yanına. Başdadılar orda yeyip, içip, kef eləməyə.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü – biri mənim, biri özümün, biri də nağıl deyənin.

## ŞƏMSİ QƏMƏR

Bir padşahın yetişmiş üç qızı var imiş. Bir gün vəzirin və vəkilin qızları bunlara qonaq gəlirlər. Söhbət əsnasında bunlara deyirlər ki, nə vəqtə kimi evdə oturacaqsınız? Az qalmısınız qocalasınız.

Qızlar cavab verirlər:

– Bizim ixtiyarımız atamızdadır. O nə vəqt keyfi istəsə verəcəkdir.

Vəzirin qızı cavab verir:

– Yəqin atanızın başı hökumət işlərinə qarışmış, siz də yadından çıxmısınız. Gərək siz özünüz onun yadına salasınız.

Padişahın böyük qızı soruşur:

– Nə tor edək ki, atamızın yadına salaq?

Bunda vəzirin qızı deyir:

– Bunun tədbiri asandır. İndi mən buna tədbir edərəm.

Əmr edir ki, bazardan biri ötmüş, biri yetmiş və digəri yetişmək üzrə üç qavun alsınlar. Bunların hər birinə bir pıçaq sancıb, bir xonçaya qoyup və padişaha göndərir. Padişah bu üç qavunun nə dimək olduğunu vəzirindən soruşur. Vəzir cavab verir:

– Ötmüş qavun böyük qıza, yetişmiş qavun ortancıl qıza, yetişmək üzrə olan qavun isə kiçik qıza işarədir ki, onlar ərə getmək istəyirlər.

Bu sözdən sora padişah əmr edir ki, üç ox hazır etsinlər. Sora qızlarını hizurına istəyib onlara deyir ki, hər biri götürüb oxun birini atsın. Hər kəsin oxu kimin damının üstünə düşsə, onu ona verəcək. Qızlar oxları atırlar. Böyük qızın oxu vəzirin, ortancıl qızın oxu vəkilin, kiçik qızın oxu isə şəhərdən kənara bir müğilan kolunun dibinə düşür. Padişah böyük qızı vəzirin, ortancıl qızı vəkilin oğluna verib, kiçik qıza da əmr edir ki, gedib müğilan kolunun dibində əyləşsin.

Xülasə, kiçik qızın başına bir carşop salıb, aparıb müğilan kolunun dibində əyləşdirirlər. Gecənin bir vəqtində qız baxıb görür ki, kolun dibindən bir ilan çıxdı. Bir o tərəfə, bir bu tərəfə getdi, birdən-birə orada bir kərpici qızıldan, bir kərpici gümüşdən bir imarət zahir oldu. Sora ilan donundan çıxıb gözəl bir oğlan oldu və qıza dedi:

– Ey qız, sənin qismətin mən və mənim də qismətim sənsən. Mənim adım Şəmsi Qəmərdir. Olmıya ki, mənim bu çirrimi ata və anana diyəsən, onda mən buradan gedərəm. Havaqt məni tapmaq istəsən, ayağına dəmir bir çarıq geyib, əlinə də bir dəmir əsa alasan. Çarığın altı yırtılıb, əsanın ucu əyiləndə məni ancaq gəlib taparsan.

Qərəz bu sözü diyib qızı da götürüb imarətə daxil oldular. Sübh olanda çıxıb görürlər ki, şəhərin kənarında qəribə bir imarət zahir olub. Hamı ona təəccüb edir.

Bir neçə gündən sora padişah qızlarını qonaq çağırır. Böyük qızları oynayanda köynəklərinin qoluna pul doldururlar, oynadıqları zaman tökülsün. Növbət kiçik qıza gələndə bu heç bir şey doldurmayır. Amma oynayanda qolundan ləl və cəvahirat tökülür. Böyük qızlar bunu görüb xəcarət çəkirlər.

Axşam olanda padişah arvadı ilə kiçik qızlarını görməyə gəlirlər. Gecə söhbət arasında qızdan bunun nə sirr olduğunu xəbər alırlar. Qız bunlara nə qədər yavarırsa ki, bu sirri xəbər almasınlar, ata və anası əl çəkməyirlər. Axırda qızın əlacı kəsilib söyləyir ki, mənim ərim bir gözəl oğlandır, gündüzlər ilan olur, gecələr insan.

Qızın anası soruşur ki, bəs onun ilan donu haradadır? Qız cavab verir ki, filan qızıl taxtın altındadır.

Qızın anası cəld qalxıb ilan donunu tapub ocağa salıb yandırır. Bu halda baxıb görürlər ki, oğlan rəngi saralmış içəri daxil oldu. Üzünü qıza dutub:

– Sana dimədim ki, mənim sirrimi ata və anana söyləmə. İndi ayağına dəmirdən çarıq giyərsən və dəmirdən əlinə əsa alarsan. Çarıq dağılıb, əsanın ucu əyiləndə məni ancaq taparsan. Di xudahafiz, – deyib oğlan qeyb olur.

Bir vaqt görürlər imarət də qeyb oldu, yenə də qaldılar müğilan kolunun dibində.

Bu əhvalatdan sora qız bir dəmir çarıq və bir dəmir əsa qayıtdırıb, çarığı ayağına geyib, əsanı əlinə alıb səhraya üz qoyur. Tamam yeddi il şəhərləri, vilayətləri və səhraları dolanıb Şəmsi Qəmərdən bir soraq tapa bilməyir.

Bir gün gəlib bir bulağın başında oturur. Baxıb görür ki, çarıq yırtılmış, əsanın ucu da əyilmişdir. Qızın qəlbində ümid oyanır. Bu halda baxıb görür ki, bir neçə qız su doldurmağa gedirlər. Qız bunlardan kim olduqlarını soranda:

– Biz Şəmsi Qəmərin kənizləriyik, onun üçün su aparırıq, – deyə cavab verdilər.

Qız görür ki, mətləbə yaxınlaşmışdır. Xəlvət üzüyünü oğlanın avtavasının içinə salır.

Şəmsi Qəmər dəstəmaz alanda birdən üzük avcuna düşür. Baxıb görür ki, öz övrətinin üzüyüdür. Anlayır ki, övrəti araya-araya gəlib bunu tapmış. Kənizlərdən soruşur ki, bulağın başında bir qız gördünüzmü? Kənizlər:

– Bəli, gördük, – deyib cavab verdilər.

– Öylə isə gedin onu buraya gətirin.

Kənizlərdən biri gedib qızı gətirir. Burada görüşüb uyuşurlar. Şəmsi Qəmər kimsəyə bir söz diməyib qızı yanında saxlayır.

Şəmsi Qəmərin anası bunu da bir kəniz xiyal edib, bir gün buna deyir ki, get meşədən odun gətir. Qız "odunu mən necə toplayacağam" – diyib ağlamağa başlayır. Bunun ağlamağını Şəmsi Qəmər görüb səbəbini soranda, qız əhvalatı söyləyir. Şəmsi Qəmər:

– Ağlama, vaqta az qalmış dur qatırları da götür, get meşəyə. Orada söylə ki, Şəmsi Qəmərin yasıdır, gəlmişəm yas odunu aparam. Onda odunlar özləri toplanacaqdır, – deyib qızı meşəyə göndərir.

Qız meşəyə çatanda səslənir:

– Şəmsi Qəmərin yasıdır. Gəlmişəm yas odunu aparam.

Bir vaqt görür ki, hər tərəfdən odunlar toplanıb qatırlara yükləndilər. Bunu görəndə qız qatırların cilovundan dutub evə qayıdır.

Şəmsi Qəmərə anası bir qız alıbmış. Qızı oğlan sevmirmiş. Bir gecə toy edib qızı götürməli olurlar. Axşam gəlin gələndə Şəmsi Qəmər o qədər səbr edir ki, hamısı yatır, qalxıb iki qazan su qaynadıb götürüb gəlinin başından tökür. Gəlin bişib ölür. Tez iki at hazır edib birinə özü minir və o birinə qızı mindirib, qızın vilayətinə qaçırlar. Gəlib qızın ata-anası ilə görüşüb təzədən toy edib şad yaşayırlar.

Bu tərəfdən gəlinin yengələri sabah olanda qızın yanına girir. Bir də baxıb görür ki, qız yanıb ölmüş. Qızın adamlarına xəbər gedir. Həmən saat atlanıb oğlanın dalınca düşürlər və tapa bilməyib əliboş geri qayıdırlar.

## MƏLİK CƏMİLİN HEKAYƏSİ

Biri var imiş, bir yox imiş. Bir padişahın üç oğlu var imiş. Böyük oğlunun adı Məlik Məhəmməd, ortançılının adı Məlik Cəmşid, kiçik oğlunun adı Məlik Cəmil imiş. Bir vəqt bu padişah xəstələnir. Öləcəgini anlayıb oğlanlarını yanına çağırıb onlara vəsiyyət edir ki, öləndən sora üç gecə qəbrinin yanında keşik çəksinlər.

Padşah öləndən sora oğlanları atalarını basdırıb matəm qurdular. Gecə araya gələndə Məlik Cəmil atalarının vəsiyyətini qardaşlarının yadına salıb, gedib keşik çəkmək təklif elədi. Heç birisi qəbul etmədi.

Məlik Cəmil özü oxunu, yayını və bir də qılıncını götürüb gedib atasının qəbrinin üstündə keşik çəkir. Gecənin bir vaxtı görür ki, qara atlı və qara donlu bir nəfər nərə çəkə-çəkə gəlir və deyir:

– Ey padişah, taxtın tarac olsun və yəhərin qanla dolsun. Bu saat gəlib qəbrində sənin cəzana yetirərəm.

Məlik Cəmil bu sözü eşitcək bir ox kamana qoyub bunu nişan alır. Ox kamandan rədd olanda atlıya nişan sinəsindən deyir. Atlı atdan yerə düşür. Məlik Cəmil yüyürüb başını kəsib, paltarını soyundurub, atını minib evinə qayıdır və gəlib atı mehtərə verib tapşırır ki, bunu elə bir yerdə saxlasın ki, qardaşlarının bu atdan xəbəri olmasın. Mehtər atı aparıb xəlvət bir tölədə saxlayır.

İkinci gecə keşik çəkəndə gənə həmən sözləri diyə-diyə geyinmiş bir ağ atlı gəlir, onu da həmən təriqlə öldürür və paltarını, atını götürüb gəlir evə. Atı yenə mehtərə tapşırır.

Üçüncü gecə qırmızı geyinmiş qırmızı ata minmiş bir atlı gəlir. Onu da bu qayda ilə öldürür və atını götürüb mehtərə tapşırır.

Ataları öləndə bir də vəsiyyət eləmişdi ki, mən öləndən qırx gün sora üç dərviş gələcəkdir. Üç qızımın hər birisini dərvişin birinə verərsiniz.

Qırx gün tamam olanda ataları söylədiyi dərvişlər gəlirlər. Böyük qardaşlar dərvişlərə etina etməyirlər. Məlik Cəmil atalarının vəsiyyətinə əməl edib bacılarını dərvişlərə verir. Dərvişlər də qızları götürüb vilayətlərinə qayıdırlar.

Bunlar ilə qonşu padişahın üç gözəl qızı var imiş. Bu padşah qırx arşın enində, beş arşın dərinligində bir xəndək qazdırıb elan etdirir ki, "hər kəsin atı bu xəndəkdən tollansa, qızımın birini ona verəcəyəm". Vədə günündə padişah xəndəgin kənarında təxtini qurdurub vəzir, vəkil və qoşun ilə qızların əlindən yapışıb, gəlir təxtin kənarında əyləşir. Hər şəhərdən cavan oğlanlar və şəhzadələr atlarını minib buraya toplanırlar. Məlik Əhməd ilə Məlik Cəmşid də atlarını minib burada hazır oldular. Məlik Cəmil isə qardaşlarından nə qədər rica edir ki, onu da özləri ilə bərabər aparsınlar, amma qardaşlar aparmayırlar. Qardaşlar gedəndən sora Məlik Cəmil paltarını dəyişib atasının düşmənindən aldığı qara libası geyinib, qara atı minib, həmən mərəkəyə tərəf üz qoydu.

Bu tərəfdən oraya toplanmış cavanlar və şəhzadələr nə qədər calışırlarsa, biri də xəndəyi keçə bilməyir. Hamısı xəndəyin ortasına düşür. Bir də baxıb görürlər ki, qara libas geymiş, qara ata minmiş bir cavan bir tərəfdən yel kimi gəlir. Gəlib xəndəyə yetişəndə ata bir qamçı vurub, bir üzəngi göstərdikdə xəndəgi keçir və atı sürür qızın birinin qolundan tutub qaldırıb tərkinə qoyub, gəldigi yol ilən qayıdır. Bunun kim olduğunu kimsə bilməyir. Xülasə, qızı gətirib bir yerdə gizlədir.

Ertəsi günü genə düşmənlərindən aldığı ağ libası geyib, ağ atı minib xəndəgin kənarına gəlir. Genə ata qamçı çəkdikdə, at dal ayağını yığıb xəndəyin o tərəfinə tollanır və gedib qızın ikincisini tərkinə alıb gəldigi yol ilə evinə qayıdır.

Üçüncü gün qırmızı paltarı geyib və qırmızı atı minib gəlir. Genə də xəndəyi keçib üçüncü qızı tərkinə alıb evinə gətirir. Kiməsə bunun kim olduğunu bilməyir. O biri qardaşları isə əliboş evlərinə qayıdırlar.

Gecə araya gələndə Məlik Cəmil qardaşlarına deyir:

– Siz atanızın vəsiyyətinə əməl etmədiniz. Mən getdim üç gecə keşik çəkdim. Atamın düşmənlərini öldürüb libaslarını, atlarını gətirdim. Bacılarımı dərvişlərə verdim. Mənə uşaq diyib özünüz ilə aparmadınız. Mən də gündə düşmənlərimizdən aldığım atların birini minib gedib qızları gətirdim.

Bu sözü deyib böyük qızı böyük qardaşına verir, ortancıl qızı ortancıl qardaşına verir, kiçik qızı da özü alır.

Bir gün qızların atası bunları bağa qonaq çağırır. Bunlar bağda eyş-işrətə məşğul ikən bir də baxıb görürlər ki, havadan bir əl zahir oldu. Məlik Cəmilin arvadı ki, hamısından gözəl imiş, yaxasından tutub havaya apardı.

Baxub gördülər ki, havadan səs gəldi:

– Ey Məlik Cəmil mən Üçtüklü kosayam.

Məlik Cəmilin arvadını Üçtüklü kosa aparandan sora, hamı bikef olub dağılırlar. Üç qardaş da evlərinə qayıdır. Məlik Cəmil mehtərin yanına gəlib düşmənlərindən aldığı atın birini yəhərlədib, yarağını geyinib, atını minib səhraya üz qoydu. Bir müddət dolandıqdan sora gəlib bir bağa yetişdi. İçəri giləndə gördü ki, Üçtüklü kosa başını nişanlısının dizinə qoyub yeddi günün yuxusuna getmişdir. Qızdan xəbər alır:

– Bunun canı hardadır?

Qız cavab verir:

– Filan şüşənin isindədir.

Məlik Cəmil cəld gedir şüşəni tapır və yerə vurur. Şüşə qırıldıqda içindən bir göyərçin uçur, tez göyərçini tutub öldürür. Üçtüklü kosa da həlak olur. Ondan sora qızı gətirib, vilayətlərinə qayıdır. Qardaşları ilə bərabər rahat yaşayırlar.

## DƏMİR DİŞ QIZ

Biri var imiş, biri yox imiş. Bir kişinin bir qızı var imiş. Dişləri dəmirdən imiş. Bu qız körpə vaxtından harada toyuqdan, cücədən düşsə idi, tutub yiyərmiş. Bu qız bir qədər böyüdükdən sora başlayır xırda uşaqları, qoyun-keçiləri oğurlayıb yeyir. Axırda bunun əlindən təngə qalıb, atası aparıb bunu bir meşədə buraxıb qayıdır.

Bir müddətdən sora atası oğluna deyir:

– Oğlum, get, gör bacın nə haldadır, ondan bir xəbər gətir.

Oğlan tədarük görüb atını minib meşəyə üz qoyur. Meşəyə yaxınlaşanda bacısı baxıb görür ki, bir atlı gəlir. Birəz diqqətlə baxanda görür ki, gələn qardaşıdır. Qız tez qardaşının qabağına yüyürüb, atını tez ağaca bağlayır, özünü də götürüb tikdiyi evdə oturdur və cəld gedib atın bir ayağını yeyib qayıdır qardaşının yanına. Deyir:

– Bacın ölsün, qardaş, atın üç ayaqlımı gəlmişsən?

Oğlan anlayır ki, qız atın bir ayağını yimiş. Əlacsız cavab verir:

– Bəli, üç ayaqlı gəlmişəm.

Bir az keçəndən sora qız gedib atın bir ayağını yeyir. Qayılıb gələndə qardaşına deyir:

– Bacın ölsün, qardaş, atın iki ayaqlımı gəlmişsən?

Oğlan qorxusundan cavab verir:

– İki ayaqlı gəlmiş.

Qərəz belə atın dörd ayaqlarını yeyib qardaşından soruşur:

– Bacın ölsün, qardaş, atın gövdəsinimi minib gəldin?

Oğlan yenə qorxusundan cavab verir:

– Bəli, gövdəsini minib gəlmişəm.

Qız gedib atın gövdəsini də yeyib gəlib qardaşından soruşur:

– Bacın ölsün, qardaş, piyadamı gəlmişsən?

Qorxusundan cavab verir:

– Bəli, piyada gəlmişəm.

Bir az keçib qız oğlana deyir:

– Gəl yorulmuşsan başın yuyum.

Oğlan deyir:

– Yu.

Qız bunun başını yuyanda başından bərk dişləyir. Oğlan görür ki, qız bunu yiyəcəkdir, deyir:

– Bacı bilirəm məni yiyəcəksən. Al bu düdügi çal, mən də oynaya-oynaya bacadan üstünə tollanım, sora yi.

Qız razı olur. Oğlan düdügi qıza verir. Özü də eşigə çıxıb, çəkmələrini kül ilə doldurub bacadan sallayıb qaçır. Qız bir qədər düdügi çalır, görür ki, qardaşı düşmək istəmir. Gedib çəkmələrindən çəkəndə, çəkmə üzülüb kül qızın gözlərinə dolur. Qız anlayır ki, qardaşı qaçmış. Tez dalınca yüyürür. Oğlan baxıb görür ki, bacısı gəlir. Tez bir çinar ağacına çıxır. Qız da gəlib çinarın dibini eşməgə başlayır. Bu halda bunların yanına bir tülkü gəlir. Tülkü qızdan çinarın dibini nə üçün qazdığını soruşanda, qız cavab verir deyir:

– Gəl sən də kömək elə, bu çinarı yıxıb başından adamı tutub yiyək.

Bir tərəfdən qız çinarın dibini eşir, o biri tərəfdən də tülkü eşilmiş torpağı quyruğu ilə çinarın dibinə doldurur. Qız tülkünün hiyləsini qanıb onu yimək istəyir. Tülkü qaçır. Oğlan baxıb görür ki, qız bundan əl çəkmiyəcək, çinarın başında öz-özünə oxumağa başlayır:

– Ay yırtan-dartan, bu qızı elə yırtın-dartın ki, bir damcı qanı da düşməsin.

Bu halda baxıb görür ki, bir ayı və qurt gəlib bu qızı dartıb, dağıdıb büsbütün yidilər. Oğlan ağacdan düşüb görür ki, bir damcı qan bir yarpağın üstünə düşüb. Bu qan damcısı buna deyir ki, məni götür cibinə qoy, bir vaqt olar ki, sana lazım olaram. Oğlan yarpağı cibinə qoyur. Bir qədər yol gedəndən sora qabağına bir calvadar çıxır. Calvadar buna deyir:

– Əgər bu ulaqların yükünün nə olduğunu bilsən, ulaqları yükləri ilə bərabər sənə verərəm. Yox bilməsən, səni öldürərəm.

Yarpaq cibindən səslənir ki, yükün yarısı bitdir, yarısı da birə. Calvadar ulaqları oğlana verir, oğlan da ulaqları gətirib salamat evlərinə qayıdır.

## YEDDİ QARDAŞLAR

Biri var idi, biri yox idi. Bir ayı, günü keçmiş kişi var idi. Bir arvadı var idi. Bunların yeddi oğlanları var idi. Amma heç qız uşaqları yox idi. Yeddi qardaşlar bir bacıları olmadığından çox qəmgin idilər.

Bir gün yeddi qardaşlar analarına dedilər:

– Ay analı, bacı çox istiqanlı olur, deyirlər. Hayıf ki, bizim bircə bacımız yoxdur. İndi ki bacımız yoxdur, biz gedirik uzaqdakı Ballı dağa ovçuluğa. O vaxta kimi gəlmiyəcəyik ki, sənin uşağın olsun. Ay ana, havaxt oğlun olsa qapıya ox as, ondan da o yana gedək, daha gəlməyək. Ha vaxt qızın olsa, qapıya ələk as. Gələk evə.

Ana çox dedi, oğlanları az eşitdi. Başa gəlmədi. Axırda yeddi qardaşlar çıxıb Ballı dağa getdilər. Orda ovçuluq eləyib dolanmağa başladılar.

Aylar keçdi, həftələr dolandı. Yeddi qardaşların analarının bir qəşəng qızı oldu. Arvad qızın adını Nardanxatun qoydu. Sevinib getdi qapıya ələg asdı ki, oğlanları qızı olduğunu bilib gəlsinlər.

Düşmanın arvadı da düşmandır, kişisi də. Bunların qapı-qapıya bir qan düşmanları var idi. Kişi ölmüşdü. Arvad dururdu. Arvad ələgi götürüb qapıya ox asdı. Yeddi qardaşdar Ballı dağdan baxırdılar. Bir gün baxanda gördülər ki, qapılarından ox asılmış. Dedilər ki, genə anamız oğlan doğdu. Baş götürüb getdilər ordan. Bir göy, səfalı, sulu yerdə çadır qurdular, genə ovçuluğa başladılar.

Yeddi qardaşlar anası Napdanxatunu sevə-sevə saxlayırdı. Oğlanlarının gəlməsini gözləyirdi. Nardanxatun böyüyüb gözəl qız olmuşdu.

Bir gün qonşulardan biri qonşuları yun daramağa çağırmışdı. Nardanxatunı da çağırmışdı. Nardanxatunun əlində böyütdüyü bir iti var idi. Onu çox istəyirdi. Onu Qaraca-böcük deyib çağırırdı. Haraya gedəndə Qaraca-böcüyü də aparırdı. Onu da yanına salıb qonşuya yun daramağa getdi. Orda çoxlu qız-gəlin var idi. Bir qarının aralıqda başmağı itdi. Hay-küy düşdü ki, görəsən bunu kim götürmüş ola. Biri "anamın", o biri "qardaşımın başı üçün mənim xavarım yoxdur" deyib qarını inandırdılar. Nardanxatun da "bu Qaraca-böcüyün başı üçün mənim də xəbərim yoxdur" dedi. Ordakı arvadlar gülüşüb dedilər:

– Ay günü qara, pis niyyətli, yeddi qardaşları olan bacı da bir tulanın başına and içərmi?

Nardanxatun oradan çıxıb ağlaya-ağlaya anasının yanına gəldi. Qardaşlarının necə olmasını anasından soruşdu. Anası ağlaya-ağlaya əhvalatı qızına söylədi. Nardanxatun dedi:

– Ay ana, mən qardaşlarımı harada olsalar tapacam, onlarsız mən nəyə lazımam. Onlar bacı-bacı deyib çöllərə düşüblər, mən də onların dalıncan gedəcəm.

Anası ha yalvardı, yapışdı, başa gəlmədi.

Nardanxatun yol azuqu götürüb Qaraca-böçüknən yola düşdü. Soraqlaşa-soraqlaşa gedir idi. Az getdi, çox dincəldi, çox getdi, az dincəldi, axırda həmən qardaşları olan yerə yetişdi. Cəlib çadıra çıxdı. Tərs kimi o günü qardaşlarının yeddisi də ova getmişdi. Evdə heç kəs yox idi. Nardanxatun gördü çadırda ət var, çörək var, yorğan-döşək var. Nardanxatun dedi:

– Həlvət bunların bir yiyəsi var. Harada olsa axşam gələcək. Bu ətdən xörək bişirim, həm özüm yeyim, həm də ona qalsın.

Nardanxatun yaxşı xörək, çörək bişirib hazır elədi. Axşama kimi ev-eşigə müğayət oldu. Axşam olanda bir xəlvətdə gizləndi.

O tərəfdən yeddi qardaşlar ovdan gəldilər, xörək-çörəyi hazır gördülər, ev-eşigi süpürülmüş, yığılmış gördülər. Mat-məəttəl qaldılar. Yeyib-içib hər yanı gəzdilər. Bir şey görmədilər, yatdılar. Sabah olanda bu sirri bilmək üçün biri evdə qaldı. Qalanı yenə ova getdi. Evdə qalan qardaş bir yanda gizləndi. Nardanxatun bunları getmiş bilib evə gəldi. Burada duran qardaş bunu görəndə daban basaraq çadıra girdi. Nəçi olmasını, haradan gəlib haraya getməsini xəvər aldı. Nardanxatun əhvalatı başdan-başa ona söylədi. O da bacısı olduğunu bilib, özünü ona nişan verdi. Hər iki bacı-qardaşlar görüşüb öpüşdülər.

Axşam oldu o biri qardaşları da gəldi. Görüşdülər, halallaşdılar, bacıları olduğuna sevindilər.

Bu gündən sora yeddi qardaşlar gedib ov eləyib gətirirdilər, Nardanxatun bişirib axşama hazır eləyirdi. Gəlib kef-damaq ilə yeyib dolanırdılar. Bir gün Nardanxatun qardaşlarına xörək bişirmək üçün yol otun pəncəri dərməyə getmişdi. Evə gec gəldi. Gələndə gördü od-ocaqdan keçib, qarıya çıxıb oddan ötəri çox vurnuxdu, bir şey tapmadı. Bikef qayıdırdı ki, bir də uzaqda tüstü gördü. Sevindi. Uşaqlığına baxmayaraq, balağını belinə vurub, bir ev damına girdi. Gördü orda bir qızı saçından asıblar. Tükləri biz-biz oldu. Qorxa-qorxa dedi:

– A bacı! Sana bu zülmü kim eləyib?

Asılı qız dedi:

– Mən Uğurşahın qızı Almayam. Məni bu saçımdan asan dev mənə aşıq olmuşdur. Məni istədi, atam vermədi. Axırda götürüb buraya gətirdi. İndi mən ondan baş birlik eləmədiyimnən mənə belə zülmü eləyib. İndi ay bacı, sən yazıqsan. Tez buradan get, gələr səni məndən pis eliyər.

Nardanxatun qorxa-qorxa bir od götürüb oradan çıxdı. Birbaş yola düzəldi. Nardanxatun tələsik qaçanda yumaq kələfi əlindən düşüb cözələnə-cözələnə gəlmişdi. Oyannan dev gəlib:

Adam-adam iyisi gəlir.  
Yağlı badam iyisi gəlir,  
Qatır gəlsə, dırnaq salar,  
Quş gəlsə, qanad salar –

deyə-deyə qızdan soruşdu:

– Buraya bəni-adəm haradan gəlmişdi?

Qız dedi:

– Buraya, mənim yanıma heç kim gəlməyib. O adam iyisi mənim iyimdir.

Dev o yan-bu yanı gəzirdi. Birdən kələf gözünə sataşdı, kələfin ucunu alıb dəstələyə-dəstələyə düz gəlib çıxdı Nardanxatungilə. Nardanxatun qapını bağlayıb içəridə xörək bişirirdi. Dev gördü asanlıqla onu ələ gətirə bilməyəcək, bicliknən dedi:

– Ay Nardanxatın, ay Nardanxatun, anan sana bir üzük yollayıb barmağını çıxart, onu taxım.

Nardanxatun inandı, barmağını qarının dərməyindən eşiyə çıxartdı. Dev barmağını dişinin arasına qoyub o qədər sümürdü ki, Nardanxatunun bütün qanını sümürdü. Nardanxatun lap bihuş düşdü. Dev qızı ölmüş bilib qayıdıb getdi.

Axşam yeddi qardaşlar evə gəlib bacılarını ölü gördülər. Onu özünə gətirdilər. Qız əhvalatı söylədi. Yeddi qardaşlar gedib devi öldürdülər. Şah qızını azad elədilər. Devin başını da gətirib evlərinin sol tərəfində basdırdılar.

Ay keçdi, il keçdi, devin qəbrinin üstündən yeddi gül bitdi. Nardanxatun gül yeddi, qardaşları yeddi olduğuna həvəslənib gülləri dərib, gətirib sandığına qoydu. Həmişə asıb baxırdı, bir də asıb baxanda gördü ki, bu güllər yeddi qənirsiz gözəl qız olublar. Nardanxatun bu sirri qardaşlarına söylədi. O, qızların hərəsini qardaşlarının birinə aldı. O qızlar Nardanxatuna xəlvətcə xörək içində ilan-çayan verdilər. Nardanxatunun qarnı qalxıb burnuna dəyəsi oldu. Yeddi qardaşlar arvadlarından xəvər aldılar ki:

– Bunun belə olmasına səbəb nədir?

Onlar dedilər:

– Kim bilir? Hansı lotu-potunnan aranı sazlayıb, belə olub.

Yeddi qardaşlar dev qızlarının sözlərinə inanıb bacılarını evdən qovaladılar.

Nardanxatun dinməz-söyləməz ah çəkib yola düşdü. Az getdi, çox getdi, getdi bir dağın başında bir sürüyə çatdı. Sürünün iki çobanı var idi. Nardanxatunun yanına gəldilər. O dedi, bu qız mənimdir, bu dedi, mənimdir. Çobanların sözləri çəpləşdi. Bir-birini qırası oldular. Böyük çoban belindən xəncəri çəkib dedi:

– İndi ki belə oldu, mən bu qızı iki bölüb yarı payını aparacam.

Çoban xəncəri endirmək istəyəndə Nardanxatun qorxub qarnındakı ilan-çayan düşdü. Sora çobana qoşulub getdi.

Çoban onu evinə gətirib kəbin elədi, saxladı. Bu vaxtdan ay keçdi il keçdi, Nardanxatun o çobanın bir qəşəng oğlu oldu. Yekələnib hər işə gedəsi oldu.

Nardanxatun bir gün oğlunu da götürüb qardaşları olan yerə gəldi. Qardaşları at sulayırdılar. Nardanxatun oğlunu bir qamış ata mindirib özünə də öyrətdi, dedi:

– Suyun qırağına gedəndə “ay atım su iç, ay atım su iç de”.

Oğlan qarğı atı minib, gəldi suyun qırağına. Qarğı atı çapdırıb: "Ay atım su iç, ay atım su iç" diyəndə, dayıları gülüb dedilər:

– Ay qancıq oğlu, qarğı atı su içərmi?

Oğlan dedi:

– Bə yeddi qardaş da bir bacıdan keçərmi?

Yeddi qardaşlar bu sözü eşidəndə onun yanına gəldilər. Əhvalatı ondan bildilər. Uşağı da götürüf bacıları Nardanxatunun yanına gəldilər. Onun ayaqlarına döşəndilər. Ona haqsız yerə zülm elədiklərini söylədilər. Yeddi qardaşlar Nardanxatunu, oğlunu evlərinə gətirib, ata-analarını, o çobanı da Ballı dağa çıxartdılar. Dev qızlarını öldürüb quyulara doldurdular.

Nardanxatunun, ata-analarının məsləhətinə görə öz ellərindən hərəsi bir gözəl qız alıb evlərinə gətirdilər. Hər kəs öz nişanlısı ilə ömür sürməyə başladı.

Göydən üç alma düşdü: biri nağıl söyləyənə, biri qulaq asanlara, biri də bacadan baxanlara. Onlar yedilər, işdilər, yerə keçdilər, biz yedik, içdik, dövrə keçdik.

# DÜNYA GÖZƏLİ

Bir var idi, bir yox idi. Bir qoca kişi var idi. Bu qocanın üç qızı var idi. Bunların anası ölmüş idi. Atası ikinci bir arvad almışdı. Arvad bir gün ərinə deyir:

– Ya bu yetimləri tut, yada məni saxla.

Kişinin əlacı kəsilib uşaqları aparıb buraxır çölə.

Yazıq qızlar çöldə gəzirdilər. Gedib bunlar bir meşəyə çatdılar. Günü batırıb ağacda yatdılar. Səhər açıldı. Böyük bacı deyir:

– Ay bacı, tozanağa bax!

İkinci bacı deyir:

– Yəqin padşahdır.

Kiçik bacı deyir:

– Bacılı-bacılı, nə olaydı padşah məni ala idi, mən də bir oğlan doğa idim, bir kəkli qızıl olaydı, bir kəkli gümüş olaydı, alnı ay.

Ortancılı bacı deyir:

– Məni də vəzir üçün alaydılar. Mən xalca toxuyaydım, o xalçada padşahın bütün qoşunu yerləşə idi.

Böyük bacı deyir:

– Məni də nə olaydı vəkil alaydı. Mən də padşahın qoşunu üçün bir yumurta qabığında xörək verə idim.

Padşah bu sözləri eşidir və kiçik qızı özünə alır, ortancılını vəzirə, böyügini də vəkilə verir.

Günlər, aylar keçir. Kiçik qız bir oğlan doğur. Oğlanın alnı ay dişləri inci, kəkli qızıl. Bacılar tez xəbər tuturlar. Deyirlər ki, vay padşah bizi öldürər. Kiçik bacımızın dediyi doğruya çıxdı, bizimki yalana.

Böyük bacı dedi:

– Heç əlacımız yoxdur. Gəl mamaya pul verək, o bu işi düzəldər.

Bacılar mamanı çağırdılar, oğlanı aradan götürüb, onun yerinə bir küçük qoydular. Padşaha xəbər çatdı ki, arvadın bir küçik doğubdur. Padşah gəzəbnak olub əmr etdi ki, aparsınlar qızı peyinlik içində basdırsınlar.

İki bacı həmən oğlanı bir sandıq içinə qoyub çaya atdılar. Padşahın bağbanı çay qırağında gəzirdi. Çayın ləpə döyənində bir sandıq gördü. Sandığı açıb içində bir oğlan uşağı gördü, alnı ay, bir kəkili qızıl, bir kəkili gümüş. Tez evə gəldi, arvadına dedi:

– Arvad, qızımız var, bu da oğul. Oğlanın adını qoydular Sabah.

Aradan bir-iki il keçdi. Bağban vəsiyyət eləyib öldü. Öləndə dedi:

– Mənim yeddi küp qızılım var, onu oğluma verin.

Bir az müddətdən bağbanın arvadı da öldü. Qaldı iki yetim. Sabah böyümüşdü, on beş yaşında idi. Atalığından qalan küpləri çıxartdı, bu qızıl ilə bir imarət tikdirdi.

Xəbəri verim sizə iki bacılardan. Bacılar gördülər ki, bəli oğlan sağdır. Mamanı tapdılar, dedilər:

– Ay ölmüş qarı! Bəs sən oğlanı öldürməmisən?

Qarı dedi:

– Çoxdan!

Böyük bacı əlini belinə verib dedi:

– Ay qoca köpək, yalan deyirsən! Budur özü sağ-salamat, gün çıxan əldə bir imarət tikib ki, padşahlara layiq. Get, bu saat onun başını batır!

Qarı bir fitnə ilə özünü Sabahın evünə saldı. Sabahın bacısı eyvanda oturmuşdu. Qarı pilləkənləri çıxdı. Qıza salam verib dedi:

– Qadan alım, keyfin necədir? Nə gözəl eviniz var? Amma heyif olsun!

Sabahın bacısı dedi:

– Nə istəyirsiniz? Bir qardaşım var. Gəldigin bəs deyil, ah-uf da çəkirsən.

Qarı dedi:

– Qadan alsın, qarı. Mən ki, bir söz diməyirəm, ancaq bu imarətin bir gülü əskikdir.

Qarı deyib çıxıb getdi. Sabah evə gəldi gördü ki, bacısı ağlayır. Bacısınnan soruşdu:

– Bacı, neçün ağlayırsan?

Bacısı ağlaya-ağlaya dedi:

– Mən evdə idim, bir qoca qarı gəldi dedi ki, imarətiniz gözəldir, amma heyif ki, bir gülü əskikdir.

Sabah bacısını qucaqladı:

– Heç fikir çəkmə, bu saat gedim gətirrəm.

Sabah atın minib yola düşdü. Bir ay yol getdi, həmən yerə çatdı. Bir dərvazadan içəri girdi. Onun qabağını bir dev kəsdirib dedi:

– Ey oğlan heyifsən getmə, sən gülü apara bilməzsən!

Sabah dedi:

– Mən gedirəm, qorxmayıram.

Dev buna qoşulub gülün dalısıncan getdi. Dev yolda buna çox köməkliklər elədi. Gülü götürüb gəldi, bacısına verdi.

İki bacı bunun gəlməsindən xəbərdar oldu. Qarıya dedilər:

– Ay yerə batmış qarı, Sabah getdi, gülü də gətirib gəlib. Özünnən başqa bir dev də götürüb gəlib. Get, bu saat onun başını batır!

Qarı yola düşdu. Gəlib həmən imarətə çatdı. Çıxdı həmən qızın yanına dedi:

– Qadan alsın nənən, bu ev, bu eşik, bu da gül. Bu dəmdəsgahın bir dünya gözəllisi əskikdir.

Qız hirsindən qarıya bir şillə vurub, pilləkanlardan itələdi və özü oturub ağladı. Qardaşı Sabah içəri gəldi, bacısının qucaqladı. Dedi:

– Nə üçün ağlayırsan, bacı?

Qız dedi:

– Qarı yenə gəlmişdi, bu dəfə onu qovladım.

Sabah dedi:

– Nə istəyirdi?

Qız dedi:

– Qarı dedi ki, bu evin, bir dünya-gözəllisi əskikdir.

Sabah dedi:

– Hələ bunun üçün ağlayırsan? Bu saat gedib gətirrəm.

Sabah atın minib həmən yerə getdi. Pərdəyi-ismət dalında dünya gözəli oturmuşdu. Sabahı görüb dedi:

– Ey oğlan, heyif səndən, özüvə yazığın gəlsin, qayıt dala.

– Yox, mən sənin üçün gəlmişəm.

Dünya gözəli dedi:

– Sən məni apara bilməzsən. Qayıt yazıqsan, yoxsa səni də o birilər kimi daşa döndərrəm. Bura sox adamlar gəlmiş, ancaq hamısı daşa dönmüşlər.

Dünya gözəli bir tilsim oxudu, Sabah daşa dönüb yıxıldı bir yana. Axşam oldu. Dünya gözəli gülsüz yatmış idi. Gecə yuxuda gördü ki, Sabahın atası bağban, əlində bir dəyirman daşı dünya gözəlinin yuxusuna gəldi və dedi:

– Dur ayağa, mənim oğlum Sabah ilə get. O gülünü aparıb, sən də get. Yoxsa, bu dəyirman daşını salaram başına.

Dünya gözəli yuxudan diksindi. Yerindən durub Sabaha bir çubuq çəkdi. Dedi:

– Ey oğlan, mən sənin ilə gedirəm. Çünki bu gecə atanı yuxuda görmüşəm.

Hər ikisi bir ata minib yola düşdülər. Dünya gözəlini aparıb bacısının yanında qoydu. Dünya gözəli bir gün Sabaha dedi:

– Dur, bu devləri apar bazara. Padşah sənə deyəcək ki, ey oğlan, bu nədir eliyirsən, xalqa niyə əziyyət verirsən? Deyərsən ki, padşah sağ olsun, məndən soruşma, devlərdən soruş. Sora da padşah səni qonaq çağıracaq.

Sabah devləri bazara apardı. Padşaha xəbər getdi ki, bir nəfər oğlan üç dənə dev bazara düşüb aləmi viran etdi. Padşah əmr elədi ki, oğlanı çağırsınnar. Sabah patşahın hüzuruna getdi. Padşah bunun gözəlliyini görən kimi Sabaha aşiq oldu, dedi:

– Kaş bu mənim oğlum olaydı! Sora dedi:

– Ey oğlan, nəyə xəlqə əziyyət verirsən? Devlərini başlı-başına bazara buraxmısan?

Sabah dedi:

– Padşah sağ olsun, dilsiz-ağılsız heyvandan nə gözləmək olar?

Padşah bu sözdən xoşlanıb böyük bir qonaqlıq elədi. Devləri qazannan çəkilmiş xörəklərin hamısını yedilər. Padşah xörəklərin çatmamasından xəcil oldu. Sabah ayağa qalxıb dedi:

– Padşah sağ olsun, qonaqlığım var. Süfrən də açıq olsun. İndi buyur, sən bizə qonaq ol.

Padşah o günün sabahısı bütün vəzir-vəkilini, qoşununu yığıb Sabahgilə qonaq getdi.

Sabah dünya gözəlinin yanına gedib dedi:

– Padşah gəlib, hazır elədiyin şeyi əmr elə, gedim bazardan alım.

Dünya gözəli dedi:

– Hazırdı.

Əlin uzadıb sandıqdan bir xalça çıxartdı, xalçanı saldı həyətə. Padşahın bütün əşya və cəngavərləri bu xalçanın üstündə oturdular yenə yer artıq qaldı. Dünya gözəli bir yumurta çıxartdı, başladı onun içindən xörək çəkməyə. Hamı yedi, yenə artıq qaldı.

Padşah buna çox təəccüb elədi. Bunu bilmək istəyirdi, amma danışmayırdı. Bu aralıqda pərdə quruldu, dünya gözəli pərdənin dalında oturdu. Sabahın anasın peyinlikdən çıxartdırıb, qabaqcadan müalicə edib saxlamışdı. Sora iki bacıları çağırdı, həmən mamanı da çağırtdırdı.

Dünya gözəli dedi:

– Ey padşah, eşit və agah ol! Bax bu sənin arvadındır. Bu da sənin oğlundur ki, alın ay, dizləri inci, bir kəkli qızıl, bir kəkli gümüş. Bunu sənin öz arvadın doğub, amma bu iki bacılar mamaya pul verib səs salmışdılar ki, sənin arvadın küçük doğub. İndi al, bu sənin arvadın, bu da sənin oğlun.

Padşah ayağa qalxıb mamanı və bu iki bacının boynunu vurdurdu. Sora öz oğlunun alnından öpüb, dünya gözəlindən sox razılıq elədi.

Yeddi gün, yeddi gecə toy eləyib, dünya gözəlini Sabah üçün aldı. Özü də öz arvadını götürüb evə apardı.

## MUXTARIN HEKAYƏTİ

Biri var imiş, biri yox imiş, bir padişahın on bir oğlu var imiş. On nəfəri bir arvatdan, birisi başqa arvatdan. Bu başqa övrətdən olan oğlının adı Muxtar imiş. Bir gün padişah istəyir ki, oğlanlarını evləndirsin. Buna görə vəziri çağırıb fikrini ona söyləyir. Vəzir isə padişahın fikrini bəyənib, əhvalatı oğlanlara söyləyir. Oğlanlar isə razı olmayırlar. Bu xəbəri eşitdikdə padişah oğlanlarını hüzuruna istəyib, onlara evlənmələrini təkid edir.

Oğlanları çox tədbirdən sora atalarına ərz edirlər ki:

– Çin padişahının on bir qızı vardır. Əgər icazə versən, həmən qızları alarıq. Yox, başqa qız bizə lazım deyildir.

Padişah əlacsız qalıb icazə verir. Ancaq oğlu Muxtarı hüzuruna çağırub ona söyləyir:

– Yol ilə gedəndə bir qoruğa çatacaqsınız, orada bir at otlayır. Nəbadə orada qalasınız. Bir az getdikdən sora, digər bir qoruğa çatacaqsınız. Orada da bir qoç otlayır, orada da qalmayın. Sora bir qalaya rast gələcəksiniz, orada qalmayın.

Bu vəsiyyətləri edəndən sora padişah tədarük görüb oğlanlarını yola salır.

Müxtəsər bir xeyli yol getdikdən sora ataları söylədiyi birinci qoruğa yetişdilər. Gördülər ki, burada bir at otlayır. Qardaşları burada gecələməyi məsləhət gördülər, nə qədər Muxtar burada qalmağı məsləhət görmədisə, qardaşları qulaq asmadılar, qalmağı təkid etdilər. Muxtar əlacsız razı oldu. Yüklərini düşürüb orada qaldılar. Gecəni bir vaxtı

at kişnəyib bunlara hücum etdi. Qardaşları qaçdı. Muxtar qalxıb ata hücum etdi və xeyli zəhmətdən sora atı öldürdü, gecəni rahət yatıb ertəsi gün yola düşdilər.

Bir xeyli getdikdən sora, ikinci qoruğa yetişdilər. Gördülər burada bir qoç otlayır. Qardaşları yenə də burada qalmağı təklif etdilər. Muxtar yenə də əlacsız qalıb razı oldu. Gecənin bir vəxti qoç bunlara hücum etdi. Qardaşları qorxub qaçdılar. Muxtar qalxıb qoç ilə tutaşdı və axırda qoçu öldürdü. Qardaşları yığılıb qoçu soyub yedilər və gecəni orada rahət yatdılar. Ertəsi gün genə yola davam etdilər.

Bir müddət getdikdən sora ataları xəbər verdiyi qalaya yetişdilər. Muxtarın qardaşları "yorulmuşıq və artıq getməyə taqətimiz yoxdur" deyə burada qalmağı tələb etdilər. Muxtar atalarının vəsiyyətini onların xatirinə saldısa, razı olmayıb tələblərində israr etdilər. Əlacsız qalıb Muxtar qəbul etdi. Baxub gördülər ki, qalanın qapısı bağlıdır. Zorlayıb qapını açdılar, o gecəni orada rahət yatıb ertəsi gün yenə də yollarına davam etdilər.

Bir müddət getdikdən sora böyük bir karvana çatdılar. Bunlardan Çin vilayətinin paytaxtına nə qədər yol qaldığını soruşurlar. Onlara "yarım ağac qalmış" deyə cavab verirlər.

Xülasə, gəlib şəhərə yetişdilər. Baxıb gördülər ki, şəhərdə bir nəfər də olsun görünməyir. Evlər, dükanlar açıq qalmış idi. Gedib bir evə mənzil etdilər və sora Muxtar çıxıb şəhəri nə qədər gəzdisə, bir nəfərə rast gəlməyib, axırda gəlib bir dükandan atları üçün bir qədər arpa və saman, başqa bir dükandan bir qədər ət, çörək və sair yeməli şeyləri götürüb, pulunu qoyub mənzilə qayıdır. Görür qardaşları yatmışlar. Gətirdiyi şeylərdən şam tədarükü edir. Hazır olduqdan sora qardaşlarını oyadır. Bu halda bunların yanına bir qoca kişi gəlir. Bu da bunlar kimi ac olduğundan bunlar ilə bərabər yeyib-içir. Sora Muxtar qocadan şəhərin adamlarının harada olduğunu sorur. Kişi cavab verir ki:

– Çin padişahının bir quşu var, həmişə o quş adam əti yeyir. Odur canlarının qorxusundan xalq şəhəri tərk edib qaçmışdır.

Muxtar bu xəbəri eşitdikdə qocadan xahiş edir ki, onu quş olan yerə aparsın. Qoca razı olub qabağa düşür. Onu bir bağın kənarına gətirib deyir:

– Söylədiyim quş bu bağda qızıl qəfəsin içindədir və ətrafında on nəfər keşik çəkir. Keşikçiləri öldürməmiş quşu öldürmək mümkün deyildir.

Bu sözü eşitdikdə Muxtar özünü bir hiylə ilə bağa salır. Gəlib görür ki, keşikçilərin doqquzu yatmış, bir nəfəri keşik çəkir. Bir səmtdə gizlənir. Bir vaxt görür ki, keşik çəkən qaravul bir səmtə gedir, tez qabağına yüyürüb xəbəri olana kimi onu həlak edir və qayıdıb yatanları dəxi bir-bir öldürür və sora quşu da qəfəsdən çıxarıb başını kəsir.

Bundan sora padişah qəsrinə gəlir və bir növilə özünü qaravullardan xilas edib padişah yatan otağa daxil olur və görür, padişah yatır. Tez sinəsi üstə əyləşir. Padişah gözünü açıb bunların kim olduğunu sorur. Muxtar deyir:

– Əzrayiləm, gəlmişəm sənin canını alam. Əgər qızlarıvı filan padişahın oğlanlarına verməyə kağız versən, səndən əl çəkərəm.

Padişah qorxub kağız verməyə razı olur. Muxtar tez padişahın sinəsindən qalxıb padişahın qabağına bir parça kağız, bir qələm qoyur. Padişah qələmi götürüb Muxtar istədiyi kağızı yazıb ona təqdim edir. Bundan sora Muxtar padişahın əl-əyağını bağlayıb, vəzirin evinə gedir. Gəlib vəzir yatdığı otağa daxil olur. Onu da qorxudub padişah yazdığı kağızı möhürlədir. Oradan qalxıb qızlar yatdığı otağa daxil olur. Baxıb görür ki, qızların on nəfəri bir yatmış və bir nəfəri ki, hamısından gözəldir ayrı yatmış. Muxtar anlayır ki, qızların on biri bir anadan, birisi bir anadandır.

Xülasə, Muxtar qardaşlarının yanına qayıdıb, səhər olan kimi padişahın hüzurunda hazır olub qızları istəyirlər. Padişah əlacsız qalıb qızlarını bunlara verir və tədarük görüb yola salır. Bir müddət yol getdikdən sora həmən qalaya yetişirlər və gecəni burada qalırlar.

Gecə hamı yatmış, Muxtar yatmayıb keşik çəkir. Gecənin bir vaxtı baxıb görür ki, bir dev gəldi və bunları burada yatmış görüb bunlara hücum edir. Muxtar qalxıb devin qabağına yeriyir və dev ilə tutaşdı və xeyli zəhmətdən sora devi həlak edir. Bu xəbər devin anasına yetişir. Tənurə çəkib gəlir Muxtarı qapıb aparır, Kühqafdə həbs edir.

Bir gün bu qarı kitaba baxanda görür ki, Muxtar hansı bir dev ilə mübarizə etsə öldürəcəkdir. Qarı bundan istifadə etmək istəyir. Odur ki, Muxtar zindandan çıxarıb ona deyir:

– Bir yerdə bir üzik var, onu mənə gətirsən, səni azad edib atana yetirrəm.

Muxtar qəbul edir. Qarı bunu cibinə götürüb tənurə çəkib, bunu bir evə gətirir. Bir kənarda yerə qoyub deyir:

– Bu evə daxil olarsan, orada bir çərx görəcəksən, gərək onun üstünnən elə tullanasan ki, heç bir yerin ona toxunmasın. Sora bir arvad görəcəksən, sənin anana oxşayır, amma sənin anan deyil, onun şirin dilinə aldanma, onu öldür. Üçüncü otaqda bir qarı görərsən, onu da öldür və oturduğu döşəyin altında bir üzük var, onu alıb mənə gətirərsən.

Muxtar ətəyini belinə yığıb bir tullanmaqla çərxi o tərəfə keçdi. İkinci otağa daxil olanda, anası şəklində bir arvad görür. İstəyir öldürsün, arvad yalvarır ki, mən sənin ananam, mana rəhm elə. Məni öldürmə, yoxsa südümü sənə halal eləmərəm. Muxtar bunun yağlı dilinə aldanıb ona rəhm edir. Həmən saat arvad bunu götürüb havaya atır. Əvvəlki qarı bunu havada tutub yerə qoyur, deyir:

– Mən sənə demədimmi, sənin anan deyildir. İndi bu dəfə ona rəhm etməyib öldürərsən və üzüyü mənə gətirərsən.

Muxtar bu dəfə də ikinci otağa daxil olub, həmən anası şəklində olan arvadı öldürür. Sora üçüncü otağa daxil olur. Buradakı qarını öldürüb, döşəyin altından üzüyü götürüb barmağına taxır. Dərhal bir dev hazır olur. Muxtar bundan xəbər alır:

– Sən kimsən?

Dev cavabında deyir:

– Bu üzük hər kimin barmağında olsa, mən ona itaət etməyə hazıram. İndi nə əmrin varsa, söylə əmələ gətirim, – diyib cavab verir. Muxtar onu atasının vilayətinə aparmağı əmr edir. Dev dərhal Muxtarı götürüb şəhərin kənarında yerə qoyur. Muxtar devi mürəxxəs edir.

Bir qədər yol getdikdən sora bir çobana rast gəlir və görür ki, çoban qara geymiş. Çobandan qara geyməginin səbəbini soruşanda, çoban:

– Padişahımızın Muxtar adlı bir oğlu var idi, həm padişah, həm camaat onu çox sevərdi, onu devlər öldürmüş. Odur ki, bütün camaat qara geymiş.

Muxtar çobana deyir ki:

– Çoban qardaş, qarasını geydiginiz Muxtar mənəm. Get padişaha müjdə apar.

Bu sözü eşidən kimi çoban düz birbaş padişahın yanına gəlir. Bir tərəfdən Muxtarın qardaşları qayıdub əhvalatı söyləyib Muxtarın nişanlısını da, anasını da tapmışdılar. Bu xəbəri eşidən kimi pişvazə çıxıb Muxtarı qəsrinə götürüb toy edib eyş-işrətə məşğul oldular.

## BARXUDARIN BAXTI

Biri var idi, biri yox idi. Yaradan bir idi, bəndəsi çox idi. Barxudar adlı bir balıqçı var idi. Barxudar dəryadan balıq dutar, bazarda satıb dolanar idi. Barxudar bir gün axşam tərəfi dəryaya tor atdı. Çoxlu balıq dutuf bazara gətirdi, satdı. Çayçıya getdi, yedi, işdi, tanış-bilişnən görüşdü. Başı söhbətə qızışdı, bir də baxdı gecə-gecədən keçif. Qalxdı getdi. Barxudar qaranlıq çarşı ilən fikirləşə-fikirləşə gedir idi. Getdi, bir bala boylu dəvrişə rast gəldi yolda. Dərviş Barxudara dedi:

– Niyə fikirlisən? Al, bu qızıl pıçağı, apar ver paççahın qızı Ülkərə, muradına çatarsan.

Dərviş bu sözü deyif qeyıba çəkildi. Barxudar pıçağı götürüf gəldi paççah qızı Ülkərin yanına. Pıcağı verdi Ülkərə. Ülkər dedi:

– Xalaoğlu Barxudar, gəldinmi?

– Gəldim, paççah qızı, gəldim.

– Barxudar, daha durmaq vaqtı döyüldür, hazırlaş gedək.

Barxudar getdi, paççahın toylasından iki at çəkdi yəhərlədi. Atdarı minib gecə vaxtı yola düşdülər. O gecə sabaha kimi at sürdülər, gedib bir bulaq başına çatdılar. Gördülər suynan bir qiymətli daş axır. Barxudar atdan düşüb daşı götürdü, genə yola düşdülər. Az getdilər, çox getdilər, getdilər bir şəhərə çıxdılar. Paççah qızı atasının qızıl-gümüşündən çoxlu götürmüşdü. Verdilər, üç mərtəbəli bir imarət tutdular, orda yaşamağa başladılar.

Bir gün Barxudar ilə Ülkər eyvanda oturmuşdular. Çay içib, söhbət eləyirdilər. Söhbət sudan, daşdan düşdü. Barxudar dedi:

– Paçcah qızı, gətir o daşa bir baxım.

Paçcah qızı daşı gətirdi əlində tutdu. Barxudar baxdı ki, daş ay, gün kimi işıq salmağa başladı. O yannan o şəhərin paçcahı Ayvaz, vəzir, vəkil ilən ordan gəlir idi. İmarətin qabağından keçəndə gözü əlində ləl daşını oynadan Ülkərə düşdü. Gözəlliyini görüf ona aşıq oldu. Ürəgi pərişan, qəlbi yaralı gəldi divanxanaya. Al qırmızı geyinif taxta çıxdı. Vəziri çağırtdırıb dedi:

– Aman vəzir, bu dərdimə bir çarə elə.

Vəzir dedi:

– Şah sağ olsun, nədən qəm yeyirsən, güc səndə, mal-pul səndə, nə cürə istəsən, o cürə qızı ələ gətirə bilərsən.

Paçcah dedi:

– Vəzir, mən qızı güc ilən o oğlanın əlindən ala bilmərəm. El məni qınar, tədbir tökmək lazımdır.

Vəzir dedi:

– Onda ləl daşını mahna eləyib, qızı almaq olar. Sən hökm elə oğlanı gətirt, deyinən o daşı mənim xəzinəmdən oğurlayıbsan. Onda söz tapa bilməz, boynuna oğurluq qoyub öldürdərsən, qız sana qalar.

Paçcah vəzirin tədbirini bəyəndi. Hökm elədi Barxudarı gətirtdi. Dedi:

– O səndəki ləl daşını mənim xəzinəmdən oğurlayıbsan, boynuna al, yoxsa öldürtdürəcəyəm.

Barxudar dedi:

– Sah sağ olsun, belə qırmızı böhtan olmaz. Mən bu daşı döylər torpağında bir bulaqdan tapmışam. İnanmayırsan, mən gedim o daşdan yenə gətirrəm.

Paçcah Barxudara on gün möhlət verib azad elədi ki, getsin o daşdan genə gətirsin. Paçcahın fikri bu idi ki, oğlan getsin, devlər tələf eləsin, qız buna qalsın. Barxudar evlərinə gəldi. Əhvalatı Ülkərə söylədi. Ülkər dedi:

– Barxudar, ayrılıqdır sən getməmiş qulaq as, mən əhvalatı sana söyləyim. Mən öz torpağımızın paçcahının qızıyam. Öz xalam oğluna nişanlı idim. Bu yaxınlarda toyun olacaxdı. Amma mənim onda könlüm yox idi. O gecə sən qızıl pıcaq əlində gəldin, mən də gecə sənin yuxumda görmüşdüm. Gördüm ki, öz elimizdə sana getsəm hamı məni qınayar, qoşuluf bu yerə gəldim. İndi mən səninəm, sən də mənim. İndi paçcah mana aşıq olufdur, ləl daşını bəhanə eləyif səni öldürmək

istəyir. Sən get, Tanrı yar olsun. Daşı tapıb gətirərsən, canımız qurtarar. Bir də devlərin əlində mənim bir bacım var, on beş yaşında, onu dev götürüf aparıb. Bəlkə ona rast gəldin. Özün ilə gətir. O, bizi paçcahın cəngəlindən qurtarar.

Barxudar baş üstə deyif qıznan halal-hümmət elədi. Yola düşdü. Az getdi, çox getdi, getdi suya çatdı. Axtardı o ləl daşından beşini tafdı götürdü, sora öz-özünə dedi ki, gəl bu suyun başına tərəf get. Hər nə var, bu suyun başındadır. Barxudar suyuxarı getdi, getdi, dərənin boğazında bir mağaraya çatdı. İçəri girdi, gördü bir qızıl taxt qoyuluf. Üstə bir gözəl qız yatıf. Barxudar dedi:

– Yəqın bu qız Ülkərin bacısıdır. Suyundan da ona bənzəyir. Gərək aparım.

Barxudar ha çığırdı ki, qız oyansın, qızdan cavab çıxmadı. Əliynən itələdi, yenə də qız oyanmadı. Bildi ki, qız tilsimə düşüf. Yuxarı baxdı bir ləl daşı gördü, asılıf qızın başının üstündən. İstədi əl atıf ləli duta. Ləl yuxarı çəkildi. Bildi qızı huşa aparan daşdır.

Dedi:

– Gözləmək lazımdır, bunu huşa aparan bir gün gələr.

Barxudar bir yana çəkilib gizləndi. Çox keçmədi göy guruldadı, ıldırım çaxdı, bir dev yerə düşdü, mağaraya girdi. Qız yatan taxtın baş ucunnan bir qamçı götürdü, ləl daşına vurdu. Daş göyə çəkildi, qız huşa gəldi. Dev dedi:

– Ay qız, ray ver ki, canın bu tilsimdən qurtarsın.

Qız dedi ki, sənin pis üzünü görməkdən bu tilsim yaxşıdır.

Dev acıqlanıb bir qamçı qıza vurdu, qız özündən getdi. Ləl daş üstünə gəldi. Dev çıxıb getdi. Barxudar devin bütün işdəhlərini görmüş idi. Mağaraya girdi, taxtın başınnan qamçını götürdü, lələ vurdu. Ləl göyə çəkildi, qız ayıldı. Dedi:

– Ey oğlan, sən kimsən, buraya niyə gəlifsən? Buraya bəni-adəm gələ bilməz.

Barxudar özünün, Ülkərin əhvalatını ona söylədi. Sora dedi ki, səni aparmağa gəlmişəm. Qız dedi:

– Məni aparmaq üçün bu devi öldürmək lazımdır. Mən devdən xəbər aldım: sənin canın haradadır. O acıqlanıb dedi: mənim canım şüşə içərisində bir quşdur. Hər kimdə Süleyman peyğəmbərin üzüyü olsa, o gedib üzüyü suya salsa, mənim canımı ələ gətirə bilər.

Barxudar dedi:

– Bacın gələndə o üzüyü mana verif. Dur gedək.

Getdilər su kənarına, üzüyü suya saldılar. Bir şüşə gəldi. Şüşəni qırdılar, bir quş çıxdı. Barxudar quşun boğazını üzüb atdı. O saat dev göydən düşüb öldü. Bir qatır tapıf iki xurcun dolusu ləl daşı yükləyib yola düşdülər. Mənzil eyləyə-eyləyə gəlif Ülkərə çatdılar. Hər iki bacı görüşdülər. Başlarına gələnləri bir-birlərinə söylədilər. Barxudar gətirdi beş ləl daşı paççaha verdi. Paççah dedi:

– Get, canını yaxşı qurtardın.

Barxudar gəldi evlərinə.

Paççahı gecə sancı tutdu. Dedi ki, vəzir çarə elə öldüm. Vəzir dedi:

– Paççah, oğlanı çağır, deyinən mən naxoşdamışam, həkimlər ceyran südü buyurur, gərək gedif gətirəsən. Gedər, gətirə bilməz, boynunu vurdurarsan. Qıza sahib olarsan.

Paççah Barxudarı gətirtdi, vəzir dediyi kimi dedi. Barxudar gəldi əhvalatı qızdara söylədi. Dev aparan qız dedi:

– Devin məndə bir müşkü var. Apar meşəyə səp, ceyranlar bihuş olar, sağıb gətir südünü ver şaha.

Barxudar qız diyən kimi eləyib, gətirdi südü paççaha verdi. Paççahın munnan da əli üzüldü. Çarasız Barxudarı azad elədi. Barxudar evə gəldi. Dev aparan qız dedi:

– Paççah bizdən əl çəkməz, görək çarəsini eləyək. İndi Barxudar, sən get paççahı vəzir-vəkilinnən qonax çağır.

Barxudar getdi paççahı başının adamınnan qonaq çağırdı. Paççah dedi:

– Gedərəm, mana layiq qonaqlıq verəmməz, boynunu vurduruf qıza sahib ollam.

Bu fikir ilən paççah başının adamınnan Barxudarın evinə gəldi. Dev aparan qız məclis açdı, hamısı əyləşdi. Birdən devin ləl daşını atdı paççah başının adamları behuş oldular. Barxudar qızlar ilə bərabər onların başlarını kəsib sinələrinin üstə qoydu. Camahata xəbər verdi. Hamı gəldi, Barxudar əhvalatı başdan-başa nağıl elədi. Camahat sülmünə qarşı şaha nəhlət oxudu. Barxudarı onun yerinə paççah elədilər. Barxudar camahat ilə yaxşı rəftar eləyif dövran sürməgə, gün keçirməgə başladı.

## TƏNBƏL ƏHMƏD

Bir padşahın üç qızı var idi. Padşahın xatırı istədi ki, qızlarına qonaq getsin. Əvvəlcə böyük qızına xəbər göndərdi ki, bu axşam vəzir-vüzəra ilə qonaq gələcəkdir. Qız qazanları dordurur, otaqları bəzəyir, çıraqban eləyir. Ayaqları altına payandaz döşəyir, böyük bir qonaqlıq hazırlayır. Padşah ətrafında vəzir-vəkil ilə gəlib yeyib-içir, gedəndə soruşur:

– Qızım, bu dövlət, bu cəlal sənin üçün hardandır?

– Ata, sənin dövlətindəndir.

Bu söz atasının xoşuna gəlir. Deyir ki, sağ ol, qızım.

Sabahı günü ortancıl qızın üstünə xəbər göndərir ki, bu axşam ona qonağam, hazırlansın, vəzir-vüzəra ilə ona qonaq gələcəyəm.

Ortancıl qızı da otaqları bəzətdi, çilçıraqları yandırtdı, küçələri süpürtdürdü, ayaqları altda payandaz saldırdı.

Padşah vəzir-vəkili ilə gəlib, yeyib-içdi, durub gedəndə soruşdu ki, qızım, bu dövlət, bu cəlal sənin üçün haradan?

Dedi:

– Atam sağ olsun, bu dövlət sənin dövlətindir.

Bu söz padşahın xoşuna gəldi:

– Sağ ol, qızım, – dedi.

Padşahın üçüncü qızı bunu eşitdi. Padşah bunun üçün də xəbər göndərdi. Amma kiçik qız eylə hazırlıq görmədi. Payandaz döşəmədi, nə də otaq bəzəmədi. Padşah vəzir-vüzarə ilə gəldi. Dərvişin oldu-

ğundan nə tapdılar yedilər, içdilər. Padşah gedəndə qızından xəbər aldı ki, qızım, bu cəlal, bu dövlət sənin üçün haradan?

Qız dedi ki:

– Qismətim budur.

Bu söz padşaha çox acıq gəldi: necə yəni, qismətim budur? Mənim malımı-dövlətimi basıb yeyirsən və sora qismətim budur deyirsən?

Qız dedi:

– Öylədir, atam, çünki sənə də Allah verib, mən də ondan yeyirəm. Allah verməsəydi, nə sən yeyə bilərdin, nə də mən yeyərdim.

Sabah oldu. Padşah qızının boynunu vurdurmaq istədi. Vəzirlər padşahın əl-ayağına düşdülər:

– Ay padşah, hər nə olsa qızındır, yazıqdır, padşahlar arasında sənin üçün əyibdir, biabır olarsan: deyərlər ki, bax, padşah bir sözdən ötrü öz qızının boynunu vurdu.

Məsləhət gördülər, dedilər:

– Yaxşısı budur ki, onu bir yasaq adama ver, getsin acından ölsün.

Padşah razı oldu. Axtardılar, şəhərin qırağında yol üstə bir qorxaq və tənbəl Əhməd oturmuşdu. Bunun qırdan bir damı, bir də qocalmış anası vardı.Elə tənbəldi ki, yoldan ötənlər ağzına çörək versəydi yeyəcəkdi, yerə düşsəydi götürməzdi.

Qızı buna verdilər. Qız axşam gələndə tənbəl bir az cana gəlmişdi. Sabah oldu. Qız buna bir manat verdi:

– Al bunu.

Oğlan götürdü, getdi bazara. Bir sövdəgara tuş gəldi, soruşdu:

– Əhməd, haradan gəlirsən?

Dedi:

– Padşahın qızını veriblər mənə, o da bir manat verib ki, get bazardan şey-mey al. Amma ki, manatı da xırdalama. Qalmışam mətəl, necə eləyim?

Sövdəgar buna dedi:

– Gəl gedək mənim qatırlarıma qulluq elə. Axşam gedəndə o şeyləri mən alım verim sənə, artıq pul da verərəm.

Bu da getdi, qatırların altını-üstünü gördü, axşam olmamış sövdəgər gəldi. Deyir:

– Əhməd bu qumu görürsən, sabah bundan palçıq tutub dama salarsan, mən də sənə yenə şey-mey alıb verərəm, üstəlik pul da verərəm.

Bu qayıdanacan Əhməd o qumu palçıq tutub dama salır. Sövdəgar gəlib görür ki, bu sabahkı işin də yarısını görüb. Ona bir yekə nimçə aş, çörək və şey-meyləri ilə üstəlik pul verir, onu yola salır. Gənə sabah gəlib qatırlara baxmağı tapşırır, bir neçə gün boylə davam edir.

Bir gün sövdəgar deyir:

– Əhməd, mən səfərə gedəcəyəm, səni də özümnən aparmaq istəyirəm. Nə deyirsən?

Əhməd deyir:

– Qoy gedim padşahın qızına məsləhət eləyim, görüm nə deyir.

Gedir padşahın qızına məsləhət eləyir. Padşahın qızı deyir ki:

– Eybi yoxdur, get.

Bunlar yola çıxırlar. Yol suları qurtarmışdı özləri də gəldilər yolun qırağında bir köhnə quyunun başına çatdılar. Bunlar dolçanı ipə bağlayıb quyuya saldılar, ip boş çıxır, deyirlər ki: “A insan, sinsən, nə sən? Biz öldük, suzunnan ölürük”.

Quyuya kim düşsün, kim düşsün, Əhməd. Əhmədin belinə ip bağlayıb salladılar. Əhməd görür quyunun dibində, suyun başında bir div oturub.

Dedi:

– Nöşün bizə su vermirsən?

Dedi:

– Saqqız ver, su verim.

Əhməd ipi tərpədir, çəkirlər yuxarı. Karvannan bir parça saqqız tapır, enir aşağı, verir divə. Div də su buraxır, özü də Əhmədə bir nar bağışlayır. Karvan atları tamam sirab olur.

Əhməd yuxarı çıxırdı ki, o biri yannan bir ayrı karvan gəlib, düşdü. Əhmədə saqqız verib, təzədən salladılar. Əhməd genə də karvanın özünü, atlarını sırab eləyir. Div yenə Əhmədə bir nar bağışladı. Gələn karvan Əhmədgilin şəhərinə gedirdi. Əhməd də bu iki narı və bir azda onunçun yığılmış pulu-xərcdiyi verib: “Filan yerdə, yolun kənarında bir damım var, bir qarı anamnan bir də əyəlim var, apararsan bu pulu və bu narları verərsən, deyərsən ki, bunları Əhməd göndərdi.

Özləri gəldilər, İsfahana çatdılar, düşdülər karvansarada. Əhməd atların, qatırlarını qulluğunu elədi. Dedi ki, ürəgim tutulur, gedim bir şəhərdən qıraq gəzim özümçün. Çıxıb şəhərdən qıraq, gəldi çərhovuzun qırağında soyundu, çimdi və sora yatdı çərhovuzun üstündə. Bu dəmdə üç göyərçin gəldi, ağacın başına qondu. Quşlardan birisi dedi:

– Bacılı-bacılı.

Dedi:

– Can bacılı.

– Bu Əhmədi tanıyırsan?

Dedi:

– Nə Əhməd?

Dedi:

– Bu həmən tənbəl Əhməddir ki, yolun qırağında qır damı vardı. Ağzına çörəyi versəydilər yeyərdi, yerə düşsəydi, tənbəlliynən götürməzdi. İndi həmən o şəhərin padşahının qızını buna verdilər ki getsin acınnan ölsün. Bu da sövdəgara rast gəlib bura çıxıb, gəl adama bir şey bağışlayax.

O birisi dedi:

– Yatıbdır oyaq, oyaqdır sayaq olsun, sayaqdır eşitsin: bu çərhovuzun dibində yeddi küp qızıl var. Mən onu bağışladım. Əhməd, durub qazıb çıxardarsan.

Əhməd bunu eşitdi və o biri dedi ki:

– Hindistan padşahının qızı naxoşdu onun dərmanı bu ağacdadır. Yarpağınnan qızın əndamına çəksən, qız sağalar, qızı da verəcəklər ona.

O birisi dedi:

– Əhmədin Hindistan şəhərinə getməsi üçün dəryaları keçməyi lazımdır. Mən də bu ağacın qabığından ona bağışladım. Hansı dəryaya vursa qabağına yol açılar.

Bunu da Əhməd eşitdi. Bunu deyib quşlar pırr eləyib ötdülər.

Əhməd durdu çərhovuzun dibini qazdı. Gördü ki, bir dənə böyük daş çıxdı, əl atıb daşı qopartdı. Gördü bir daha mağara açıldı. Girib gördü ki, yeddi dənə küp ağzınacan dolu qızıldı. Zəncirlənib biri-birinə axırıncısın üstündə bir dana qızıl xoruz.

Sabah oradan qalxdılar, üçün çubuğundan da götürür. İndi Hindistana getməkdə olsunlar. Gəlirlər, qabaqlarına dərya çıxır, qalırlar dəryanın kənarında. Əhməd deyir ki, Allah kərimdi. Gecəni yatırlar burada. Gecə vaxtı Əhməd durub o çubuğu vurur dəryaya; dəryadan yol açılır bunlarcun. Səhər dururlar, görürlər ki, hacannan işdənmiş yoldur ki, özü qalxır. Gəlib axırda bu qız olan şəhərə çatırlar.

Bular karvansarada düşməkdə olsunlar, Əhməd deyir:

– Mən bu şəhəri gəzmək istəyirəm.

Əhməd şəhərə çıxır. Bir dəst həkimlik libası alır, geyir əyninə, o yarpağı da qoyur cibinə. Padşahın imarətinin qabağında birisi bunu görür. Deyir:

– Eşitmişəm padşahın qızı naxoşdur. Gəlmişəm ki, onu müalicə eləyim. Get padşaha xəbər apar, deyinən taza həkim gəlib.

O adam gedib padşaha xəbər aparır. Padşah deyir:

– Gedin o həkimi götürün görüm, necə şeydir.

Götürüb gəlirlər. Padşah deyir ki, ey həkim, otuz doqquz həkimi zindana salmışam. And içmişəm qırx olsa, qırxının boynunu vurduracağam. Sən gəl buların qanına susama.

Əhməd deyir:

– Ey padşah, əgər mən qızını yaxşı edə bilməsəm, onların da əvəzinə mənim boynumu vur. Sabah mən gəlləm. Sən car çəkdirginən ki, bazar-dükan bağlı olsun. Qızıvı qaravaşlar aparsınlar hamama, mən də gəlləm ona dərman çəkərəm. Yaxşı olar.

Əhməd oradan gəlib soyunub paltarlarını gizlədir, atlara qulluq eləməyə başlayır.

Sabah olanda Əhməd genə də geyinib padşahın qapısına gəlir. Padşah da car çəkdirir ki, bazar-dükan bağlansın. Bir nəfər adam küçədə olmasın, qızım hamama gedəcək.

Qızı gətirib apardılar hamama. Əhməd də bu yannan getməkdə olsun hamama.

Əhməd bu qızı dörd əl-ayağından çəkir çarmıxa. Yarpağı yandırıb külünü isladıb yaxır qızın əndamına. Qıza bir çillə çəkir. Qız özünnən getdi. Haçandan-haçana qız özünə gəlib, gözünü açır. Görüblər ki, qız da zərrəcən heç naxoşluq yoxdur. Padşaha muşduluqçu gedir ki, qızın yaxşı oldu.

Padşah da hökm eləyib, payandaz döşənib hamamın qapısından padşahın evinəcən. Qızı aparıb evə. Əhmədi də padşah apartdırır öz yanına. Padşah Əhmədin özünə qonaqlıq, mərəkə eləyib deyir:

– Həkimbaşı, mən əhd eləmişdim ki, hər kim qızımı yaxşı eləsə, qızımı verim ona.

Əhməd də deyir:

– Baş üstə. Mənim də qəbulumdur. Ancaq sabah gəlib deyərəm sənə.

Əhməd bir vaxt xəbər tutdu ki, bayır axşam olub. Karvansaraya gəldi. Sövdəgər soruşdu:

– Əhməd harada idin?

Day Əhməd gizlədə bilmədi. Necə olmuşdu, macərasını ona danışdı. Dedi:

– Sövdəgər, bu dövlət də sənindir. Bu qızı da ki, mənə veriblər buların ikisi də sənindir.

Sövdəgər deyir:

– Yox Əhməd, hələ bu sənin qismətinmiş, hələ sənindi. Bağışlayıram sənə. Hindi Əhməd sənin bizim yanımızda qalmağın layıq döyül. Get sabah kəbinüvü kəsdir, qızı al, get vilayətüvə. Biz də sövdəmizi elərik, gələrik.

Əhməd deyir:

– Yox, mən səni qoyub getmərəm. Dövləti sənnən qazanmışam.

Bu çox deyir, sövdəgər az eşidir. Əhməd gedib padşahın qızını alır, sora gəlir sövdəgərin yanına. Sövdəgər deyir ona:

– Get beş-on dənə dəvə al, on-on beşi daha qutu və bir neçə top arşın malı al. Olarnan gedib həmən şəhərdə, həmən xəzinənin üstündə düşərsən. Oların hamısını gecəynən yığarsan sandıqlara, hər birinin üstünə bir top mal qoyarsan, mıxlarsan. Səni tutanda deyərsən ki, arşın malı almışam, vilayətimə aparıram satmağa. İnanmırsız, baxın.

Əhməd də gedir tacirin sözüynən on-on iki dəvə alır. Bir gündə on-on iki sandıq və bir neçə top arşın malı gətirib gəlir. Sabahınan gəlir padşahın yanına ki, mən istəyirəm gedəm şəhərimizə.

Padşah deyir:

– Mənə bir həftə möhlət ver, qızım üçün kəcava bağlatdırım.

Padşah qızıçin kəcava bağlatdırıb qızı qoyur kəcavaya. Əhməd götürüb oradan qızı, kəcavaynan, bir neçə atnan həmən xəzinə olan şəhərə gəlməkdə olsun. Bunu qoyaq burada.

Xəbəri sizə kimdən, xəbəri Əhmədin arvadınnan. Sövdəgər pulları, narları götürüb evə vermişdi. Pullar xərclənməkdə idi. Bir gün Əhmədin anası dedi:

– Qızım, ürəyim yanır, dur oğlum göndərən narın birini kəs mənim üçün.

Gəlin durub narın birini kəsəndə gördü ki, içi cavahirlə doludur. O cavahirdən götürüb damın həndəvərini aldı. Qarıya da bir qədər pul verdi ki, getginən mənə daş yonan, daş çıxardan gör. Qarı da gedib bir bənna götürüb binanı yavaş-yavaş başladılar tikməyə. Bir ayın müddətində qız burada bir imarət tikdirdi ki, heç padşaha müyəssər dögül.

Dörəsinə də hasar-zad çəkdirib, həyətində bağ-bağça, bağçanın ortasından fəvvarə var. Gül öz bülbülün çağırır. Qul-qarabaş tutdu, necə ki, atasının evində bəxtəvərlik olurdu, bir az da onnan artıq eləməyə başladı. Bu burada qalmaqda olsun, danışım sizə Əhməddən.

Əhməd gəlib həmən xəzinənin üstə düşdü. Gecəynən qızılları sandıqlara doldurdu, arşın malların da üstə qoydu və sandıqların ağızlarını mıxlayıb gəlməyə başladı. Əhməd öz şəhərin qırağına çatanda dəvələri şəhərin qırağında qoyub gedir evlərinə xəbər versin. Gəlir görür ki, qırlı damın yerində bir alt-üst imarət var, həyət qapısını taqqıldadır. Nökərlər, qullar xəbər verir:

– Ay xanım, bir atdı gəlib, içəri girmək istəyir.

Padşahın qızı gəlib qapının dalına xəbər alır:

– Ay qonaq, kimsən?

Əhməd deyir:

– Mənəm ey, mən.

– Sən kimsən?

Əhmədin adı yadından çıxır. Deyir ki, adım yadımdan çıxıb, gedim öyrənim gəlim. Əhməd gəlir şəhərin qırağına, adamlarınnan soruşur ki, mənim adım nədir. Deyirlər, ağa Əhməd. Əhməd təzədən gəlir adını deyir. Arvad da qapını açdırır, görür həqiqətdə Əhməddir. Əlini salır Əhmədin boynuna, götürür yuxarı. Əhməd ürəyində deyir ki, ey diliqafil mən getmişəm padşahın qızı görəsən nə edib ki, bu evi tikdirib.

Çıxıb yuxarı, görür anası olub on dörd yaşında cavan. Anasıynan görüşür. Əmmə qaşqabağı hələ açılmayır. Padşahın qızı o saat xəbər tutur. Deyir:

– Əhməd, o şeylər ki, sənin fikrinnən keçir, onları qoy bir qırağa. Əhməd, sən göndərdigün narın birisini anam kəsmək istədi, ürəyi yanırdı. Kəsdim, içi dolu cavahir çıxdı, onun yarısıynan bu dəsgahı düzəltmişəm.

Gətirib o birisini kəsdilər, gördülər bunun da içi cavahirdir. Qız dedi:

– A kişi, baxtım oğlanımış.

Dedi:

– Bunda hələ nə var? Dövləti mən gətirmişəm.

Dəvələri çəkir içəri. yüklərin vurur anbara. Sövdəgər də gəlir çıxır. Əhməd bir xonça cavahirdən düzəldir, aparır onun üçün. Çünki bunlar hamısı onun əyağınnandır.

Günlərin bir günü padşah evə gedirdi, qız uzaqdan bunu gördü, özünü on dörd qələmnən bəzədi, zinətləndi. Atası gəlib qapılarından keçəndə pəncərədən boylanıb baxırdı. Padişah başını götürüb gördü ki, öylə bir qızdı ki, misli şəhərdə yoxdu.

– Vay dad məni sancı dutdu.

Əlini qoydu boş bögrünə.

Vəzir gəldi:

– Padşah, sənə nə oldu?

– Məni tez aparın evə.

Qız gəldi Əhmədin yanına.

– Əhməd, hal-güzəran, macara belə. Sabah mənim atam mənim üçün elçi göndərəcək, sən də məni verərsən ona.

Əhməd dedi:

– A qız, arada kişini biyabır eləmiyəcəksən ki?

– Sənin işin olmasın.

Sabah oldu, gördülər ki, qapı döyüldü, Əhməd getdi qapıya, gördü vəzirdu. Vəzir dedi:

– Bəs elçiyə zaval yoxdu. Mən padşahın tərəfinnən gəlmişəm, sizdə bir qız var, onu padşah istəyir.

Əhməd dedi:

– O bir yetim qızdır, mənim bacımdır, qurban olsun padşaha.

Vəzir gəlib padşaha xəbər verdi:

– Ay padşah, aldım sənin üçün qızı.

Padşah deyir:

– Ey vəzir, sabah get gör adamımızı haçan verəcəklər və bizdən nə istəyirlər?

Sabah oldu, vəzir gəlib qapını döyür.

– Nə var?

– Padşah deyir adamımızı tez versin, nə istəyir bizdə aparaq.

Əhməd deyir:

– Qıza bəs nə istəyirsən?

Deyir ki:

– Beş kisə düyü, on dana qoyun, bir xəlvər un göndərsin.

Sabah hər nə padşaha layıq istəmişdi yolladı. Qız da aldı buları gətirib özündən o yana ötürdü. Padşah molla göndərdi, kəbin kəsildi. Cəlal-dəsgah ilə qızı apardılar, taxt qurdular. Qızı da qoydular gəlin otağına. Padşaha xəbər verdilər. Padşah gəldi gördü ki, qız oturub təxtin

üstündə. Padşah içəri girən kimi qız qaçdı təxtin bu başından getdi oturdu o başında. Dalın da çevirdi atasına.

Padşah bir saat gözlədi, gördü olmıyacaq. Dedi ki:

– Ey, səni mənim üçün götürüblər, məni sənin üçün gətirməyiblər.

Bir dedi, iki dedi, gördü olmadı. Üç dedikdə, qız başını açıb atasına baxdı:

– Ay utanmaz! Adam da öz qızını alar?

Padşah çox utandı.

– Ay dadı-bidad, bu necə şeydir? – dedi və gecəynən qızını evinə yola saldı.

Sabah oldu qızı, padşahı qonaq çağırdı. Padşah vəzir-vəkilnən gəlmişdi. Qız hamını buraxdı, atasını gecə qalmağa saxladı. Padşah bu dəm-dəsgaha baxıb təəccüblə soruşdu ki, qızım, bunlar haradan? Qız dedi:

– Ata, dövlətimi sabah görkəzəcəyəm, hələ bu harasıdı.

Sabah oldu. Əhməd gətirdiyi qızılları padşaha görkəzdi, padşahın ağzı açıla qaldı. Qız dedi:

– Ata, yadındadırmı mən sənə dedim ki, hamıya qismət verir. Sənin acığına gəldi. Sən də məni götürüb tənbəl Əhmədə verdin ki, mən gedim acınnan ölüm. Əmmə Əhməd ruzu dalınca getdi, qismətini axtardı və tapdı. İndi bu qismət belədi.

Padşah deyirdi:

– Oğlum Əhməd, o biri qızlarım bədbəxt olmuş. İndi gəl sən mənim tacıma, taxtıma sahib ol, mən də qocalmışam, gedim beş gün ibadət eliyim.

Onlar da yedi, içdi, muradına, yetişdi. O gün olsun ki, olmayanlar üçün olsun.

## ŞAHŞONQAR

Bir padşah vardı. Padişahın üç oğlu vardı: Məhəmməd, Əhməd, Səməd. Padişah qırx günün sikarına çıxmışdı. Gördü bir əjdəha bir dağı götürür döyə, qoyur yerə. Padişahın rəngi üzündən qaçdı, dedi:

– Vəzir, bir buna bax.

Vəzir baxdı, dedi:

– Onun şikayəti var. Gedək, görək bizə şikayəti nədi?

Getdilər əjdahanın yanına, dedilər:

– Bizdən nə istəyirsən?

Dedi:

– Sizdən bir əmlik quzu istəyirəm.

Padşah dedi:

– Yaxşı, göndərrəm.

Gözlərini yumub açanda gördülər, əjdəha oldu bir balaca qara ilan. Qayıtdılar geri. Vəzir dedi:

– Şah sağ olsun, ilan istəyən əmlik sənin oğlun Məhəmməddi. Verməsən, səni ilan sağ qoymaz.

Padşah dedi:

– Vəzir, sən nə tədbir töksən, mən razıyam.

Vəzir dedi:

– Qoy Məhəmmədi mən götürüm aparıb verim.

Şah razı oldu. Vəzir Məhəmmədi götürüb, o dağa gəldi. Dağda əjdəha gəldi dedi:

– Məhəmməd, gəl dalımcan.

Məhəmməd dalcan, ilan qabaxcan getdilər, girdilər bir dəlməyə. Məhəmməd girəndə dəlik yekələndi, girdi, gördü hər tərəf ilandı. Səf çəkiblər. Məhəmmədi görəndə yol verdilər. Gedib bir yerə çıxdı. Gördü ilanlar padşahı oturub. Qurşaqdan aşağısı ilan, qurşaqdan yuxarısı adamdı, başında tac. Məhəmmədə yer göstərdilər. Oturdu. Axşam oldu oları aparıb bir otağa qoydular. Məhəmməd qılıncı çəkib oturdu. Gecədən bir az keçmiş gördü bir canavar gəlir, tülkü yernən sürünür, hər gözündə bir çıraq yanır. Üstünə yürüdü, istədi öldürsün, tuta bilmədi. Qovladı, qırx otaq getdi, qırx birdə gördü bir pərdə çəkilib. Pərdəni çəkdi, gördü pərdə dalında bir qız oturub, ay üzünnən işıq salır. Dedi:

– Ay qız, bir canavar burdan getdimi?

Qız dedi:

– Get, yerində farağat otur, durram ortandan süngümü keçirrəm.

Oğlan qızın sözünnən getdi öz yerində oturdu.

Sabah oldu, vəzir gəldi gördü oğlan diri oturub. Götürdü padşahın yanına gətirdi. Padşah dedi:

– Çəpəl, oğlanı bəyənib.

Padşahın əmrinə görə vəzir oğlanı götürüb getdi, bir qapı açdı. Oğlan gördü burda qırx şah ölüb, başlarında tac. Vəzir getdi genə padşahın yanına. Padşah dedi:

– Oların hamısını o sən axşam görən qız öldürüb, mənim qızımdı. İndi səni bəyənib. Otur, gətirsinnər.

Qızı gətirdilər, danışdırıb verdilər Məhəmmədə. Məhəmmədnən qız bir müddət qaldılar. Məhəmməd atasının vilayətinə qayıtmaq istədi. Qızın atasıynan görüşməyə gedəndə qız dedi:

– Atam hər nə versə alma, qara atı al.

Məhəmməd gəldi padşahın yanına getməyini söylədi. Padşah dedi:

– Yaxşı yol. İndi mənnən nə istəyirsən?

Dedi:

– Qara atı.

Padşah qara atı Məhəmmədə verdi. Məhəmməd atın dırnağından, dizindən, gözündən öpdü. At ona çilo verdi. Atı mindi, qızı tərkinə alıb yola düşdü. Üç gün, üç gecə yol getdilər. Dördüncü günün gecəsi yol gedirdilər. Gördülər bir dağın deşiyindən işıq gəlir. Getdilər gördülər, bir quş lələyidir. Məhəmməd istədi götürsün, qız dedi:

– Götürmə, onnan ziyan gələr.

Məhəmməd qulaq asmadı götürdü. Yollarına davam elədilər. Gəldilər bir qarının evinə qonaq oldular. Qarının çırağı yoxudu. Lələyi verdilər, işığına oturdular. Gecə qarovullar gəlib lələyi aparıb padşaha verdilər.

Padşah gördü, lələk şahşonqar quşunundu.

Məhəmmədi çağırıb dedi:

– Get mənim quşumu tap, maa gətir.

Məhəmməd padşahdan qırx gün möhlət aldı. Gedəsi olanda qız dedi:

– Bir xurcun darı götür. Lələyi tapdığın çölə səp. Özün gizlən. Şahşonqar gəlib darını dənniyəndə, tutdun-tutdun, tutmadın qırıx div gəlib səni öldürəcək.

Məhəmməd atı minib sürdü çölə gəldi darını səpdi. Qus gəldi darını dənləməyə başladı. Məhəmməd çıxıb quşu tutdu. Atı minib qaçdı. Bir qız munu gördü. Divlər çığırdı, qoymayın şahşonqarı apardılar. Divlər düşdülər dalına Məhəmmədin. Tuta bilmədilər, at Məhəmmədi qurtardı. Məhəmməd sürüb getdi şahşonqarı verdi padşaha. Padşah dedi:

– Vəzir, nə gözəl quşdu.

Vəzir dedi:

– Mənim qızım quşdan da gözəldi.

Padşah Məhəmmədi çağırıb dedi:

– Get bunun qızını da gətir.

Məhəmməd gəldi qara atın yanına. Qara at dedi:

– Get iki girvənkə ət, iki büküm yuxa, bir qazan götür, gəl gedək.

Məhəmməd əti, yuxanı, qazanı götürüb gəldi mindi qara atı. Düşdülər yola. Gəldilər həmən çölə. Məhəmməd qazanı üzüqoylu asdı, əti qoydu qazanın üstdə od qaladı. Ətin yağı, əriyib töküləndə Məhəmməd dedi:

– Qazan yırtıqdı, ac qalacam.

Bir səs dedi:

– Məhəmməd, qazan yırtıq döyül, tərs asıbsan.

Məhəmməd qulaq asmadı. Axırda qız özü gəldi qazanı asmağa. Məhəmməd qızı götürüb, qara ata qalxdı. Qara at qaçmağa başladı. Divlər bilib Məhəmmədin dalınca töküldülər. Gəlib çata bilmədilər. Məhəmməd qızı gətirib gəldi. Qız yolda dedi:

– Məhəmməd, məni özünəmi aparırsan, yoxsa özgəyəmi?

Məhəmməd dedi:

– Səni mənnən padşah istəmişdi. Padşaha aparıram.

Qız dedi:

– Bu zəhməti çəkibsən, özün al.

Məhəmməd dedi:

– Padşah boynumu vurdular, ala bilmərəm.

Məhəmməd qızı apardı verdi padşaha. Padşah istədi qıza toy eləsin. Qız dedi:

– Biz pəriyik, bizi alan gərək pəri ola. Gəl səni çimizdirim pəri ol. Sora saa gedim.

Padşah dedi, çimdir. Qız bir qızıl test gətirdi, su qızdırdı, içinə nə isə tolladı, tökdü padşahın başına. Padşah əriyib su oldu. Qız qalxdı Məhəmmədin yanına gəldi. Dedi:

– Sən zəhmət çəkib məni gətirmisən. İndi mən sənin, sən mənim.

Məhəmməd qırx gün toy eliyib pəri qızı da aldı. Ordan qızdarı götürüb atasının torpağına yola düşdü. Axşam bir qala qapısına yetişdilər. Qala qapısı bağlıydı. Qaldılar qapıda. Gecədən bir xeylaq keçmişdi. Məhəmməd gördü, bir sandığı qala qarışından çölə atdılar. Məhəmməd sandığı açdı, gördü içində bir gözəl qızdı. Amma, sağ yeri qoltuğunun dibindədi. Məhəmməd həkim tapdı. Həkim qırx gün baxdı, qızı qurtardı, haqqını alıb getdi. Məhəmməd qızdan belə olmasının səbəbini xəbər aldı. Qız dedi:

– Mən bu şəhərin padşahıyam. Qulum məni bu günə salıb, indi yerimdə oturub.

Məhəmməd getdi qulu öldürdü. Qızı götürüb yerinə, taxda qoydu.

Qız dedi:

– Məni ölümnən qurtardın, ta mən başqasına getmərəm.

Məhəmməd bu qızı da aldı. Üç qızı götürüb gəldi atasının torpağına. Hamıynan görüşdü. Qonaqlıq oldu. Qonaqlıqda qardaşları paxıllığınnan bunun xörəyinə zəhər qatdılar. İlanlar padşahının qızı bunu bildi. Xörəkdən bir qaşıq itə tökdü. İt o saat öldü. Padşah aşpazı çağırtdırdı. Aşpaz dedi:

– Oğlannarınnan biri məni tutdu, o biri xörəyə zəhər tökdü.

Padşah oğlanların ikisini də öldürtdürdü. Məhəmmədi öz yerinə taxta çıxartdı. Məhəmməd padşah oldu. Üç gözəlnən qırmızı günnər keçirməyə başladı.

Bacadan üç alma düşdü, biri nağıl deyənin, biri nağıla qulaq asanların, biri bacadan baxanların. Olar yedilər yerə keçdilər, biz də yeyək, dövrə gedək.

## TƏLİMLİ PİŞİK

Bir tacir var imiş. Bir gün fikrinə düşür ki, ticarət üçün özgə vilayətə getsin. Odur ki, xeyli mal alıb, tədarük görüb, əhli-əyaliylə vidalaşıb yola düşür. Mənzilbəmənzil gəlib axırda bir səhərə yetişir. Burada bir karvansarada mənzil edir. Bu vilayətin qaydası elə imiş ki, hansı tacir bu şəhərə gəlsəymiş, gərək padşaha layiq bir şey apararmış və padşah o taciri gecə qonaq edib, onunla nərd oynarmış.

Tacir də bir xeyli parça bir xonçaya qoyub padşahın hüzurinə aparır. Söhbət əsnasında padşah tacirə deyir:

– Gəl mənim ilə nərd oynayaq və mənim bir pişiyim var, o axşamdan sabaha kimin quyruğunun üstündə yeddi çıraq saxlar. Mən o pişiyi çağıraram. Hərgah axşamdan sabaha kimi quyruğunun üstündə yeddi çıraq saxladı. onda sizin dövlətlərinizin cümləsi mənim olsun. Yox, saxlamasa, onda mənim xəzinəmin təmamisi sizin olsun.

Tacir əlacsız şərti qəbul edir. Padşah səslənən kimi bir pişik hazır olur, quyruğunu dügümlüyüb padşahın hüzurunda əyləşir. Padşahın əmri ilə götürüb bunun quyruğunu üstünə yeddi çıraq qoyurlar. Padşah tacir ilə nərd oynamağa başlayır. Üç gün, üç gecə nərd oynayırlar. Pişik əvvəl hərəkət etməyir, axırda tacir qalxıb məğlub olduğuna qərar verir. Padşah əmr edir ki, tacirin qollarını bağlayıb zindana saldılar. Padşah tacirin cəmi mal-dövlətini zəbt edir.

Tacirin bir nökəri əhvalatı belə görəndə qaçıb gəlib əhvalatı tacirin arvadına xəbər gətirir. Tacirin arvadı isə bir xeyli siçan tutdurub bir sandığa doldurur və bir xeyli qızıl və gümüş götürüb libasını də dəyişib

kişi paltarı geyib bir karvan ilə yola çıxır. Mənzilbəmənzil gəlib həmən əri dustaq olan şəhərə çıxır. Bu da əri kimi bir xonça bəzəyib, padşahın hüzuruna aparır və öziylə gətirdiyi siçanları nökərlərinə verib tapşırır:

– Mən padşah ilə nərd oynamağa məşğul olanda siçanları qapının arasından bir-bir içəri buraxın.

Padşah bunu da çox hörmət ilə qəbul edir. Söhbət əsnasında buna nərd oynamağı təklif edir. Arvad qəbul edir. Padşah səslənən kimi bir pişik içəri daxil olub padşahın hüzurinə quyruğunu düyünləyib əyləşir. Götürüb bunun quyruğunun üstünə yeddi çıraq qoyurlar.

Bunlar nərd oynamağa başlayırlar. Bu halda nökərlər siçanın bir-ikisini içəri buraxırlar, pişik siçanları gördükdə hərəkət etmək istəyir. Padşah buna gözünü ağardanda pişik sakit olub yerində qalır. Bir az keçir, nökərlər siçanın bir neçəsin də içəri buraxırlar. Siçanlar evdə oynamağa başlayırlar. Bunları görüb pişik artıq səbir edə bilməyib, çıraqları töküb siçanların birini burdan birini ordan basmarlayır. Arvadın işarəsi ilə nökərlər içəri daxil olub padşahın qollarını bərk bağlayıb zindana salırlar və taciri də xilas edirlər. Camaat padşahın zülmündən təngə gəlmiş imiş. İşi belə görəndə yığılıb taciri özlərinə padşah seçirlər. Tacir də onlar ilə ədalət ilə rəftar etməyə başlayır.

# QARA AT

Günlərin bir günündə əyyamı-sabiqdə biri vardı, biri yoxdu. Allahdan başqa heç kəs yoxdu, bir padşah vardı. Günlərin bir günündə padşahın arvadı ölür. Onun ölən arvaddan İbrahim adlı bir oğlu qalır.

İndi keçək padşahın ikinci arvadı görək nə edir. Padşahın ikinci arvadından da bir oğlan olur. Padşah buları qoyur dərsə. Bir az müddət dərsə gedib gələndən sora, padşah bir gün qonaqlıq edir. Şərbət paylayırlar. Padşah əmr verir:

– İlxıdakı atlarımdan yoxsul adamlardan hərəyə bir at versin.

İbrahim dərsdən gəldi. Bir də gördü ki, bir qoca əkinçi yedəyinə almış zil qara bir day aparır. İbrahim qocanı saxladı:

– Dayı, haradan gəlirsən?

Qoca dedi:

– Padşah sağ olmuş, oğlu İbrahimin dərsin qurtardığına söyünüb ilxı atların yoxsullara peşkəş verir. Mən də muncağazı tutdum. Arıq yabıdır.

İbrahim dedi:

– Qoca, bu day sənə əl verməz. Sən gəl dayı mənə ver. Mən də onun əvəzində sənə bir yaxşı atın pulunu verim.

Qocanı İbrahim razı saldı. Qoca İbrahimə dua edə-edə getdi. İbrahim dayı tumarlayıb yedəyinə aldı. Munun üçün atasından bixəbər bir tövlə tikdirdi. Bir neçə gün at bir şey yemədi. İbrahim bir əlində şirni yeyirdi. Qara at şirnini görən kimi kişnəməyə başladı. İbrahim şirnini ata uzatdı, at yedi. Bundan sora İbrahim ata kişmiş verərdi.

Bir gün İbrahimin ögey anası gördü ki, padşah İbrahimi bu oğlanlardan artıq istəyir. Dedi:

– Mən necə edim ki, İbrahimin başını batırım, yoxsa öləndən sora yəqinimdir ki, padşahlıq qalar İbrahimə.

Ögey ana getdi aşpazın yanına, dedi:

– İbrahimin xörəyinə bu zəhəri səpərsən. Əgər bir adama desən başuvu vurdurram.

Günorta İbrahim dərsdən gəldi. Xörək hazırdı. İbrahim xörəyi yeməmişdən qabaq atına baş səkdi. At ağlamağa və ayağını yerə döyməgə başladı. İbrahim dedi:

– Ay heyvan, nə var?

At dilə gəldi:

– İbrahim, sənin bu saat ögey anan xörəyivə zəhər töküb. Amandır yemə get o xörəyi götür bura.

İbrahim evə girdi, xörəyi götürüb atın yanına gəldi. Xörəkdən bir az at üçün atdı. At o saat şişdi. İbrahim xörəgi gizdətdi. Ögey ana bir saat, iki saat gözətlədi, İbrahim ölmədi. Aşpazın üstə getdi:

– Oğlan, məgər xörəgə zəhər atmadın?

Aşpaz dedi:

– Atdım.

– Sabah İbrahimə naharı özüm verəcəgəm.

O biri günorta İbrahim dərsdən gəldi. Bu səfər zəhəri şərbətin içinə tökdülər. At İbrahimə dedi:

– Xörəgi yeyərsən, şərbətdən içməzsən.

İbrahim xörəyi yedi şərbətdən içmədi. İbrahimin analığını od götürdü:

– Ay aman, bu necə sirdir, hər nə var o qara atdadır.

Bir həkim çağırtdırdı. Həkimə dedi:

– Bax başıvı daldan vurdurram, bu sirri açsan. Mən əndəmimə zəfəran çəkərəm. Sən də padşah üçün xəbər yollarsan ki, gərək munun əndamına zil qara atın dərisi çəkilə, bu sarılıqdır.

Padşah üçün xəbər getdi ki, arvadın sarılıqdır. Gərək qara atın dərisi əndamına çəkilə. Padşah əmr etdi:

– Gedin ilxıdakı atlarıma baxın.

İlxıdan qara at tapmadılar. Vəzir dedi:

– Padşah sağ olsun, oğlunun tövləsində bir zil qara day var.

Padşah dedi:

– Bu saat oğlumu çağıtdırın.

İbrahim gəldi, baş əyib oturdu. Padşah dedi:

– Oğlum, anan sarılıq gətirib, gərək qara atın kəsdirəsən, dərisi ona çəkilə.

İbrahim dedi:

– Yaxşı, əmmə mən o ata heç minməmişəm. Görək babam şah Mirzədən qalan yəhəri xəzinədən verəsən, qoyam atın dalına, sora bir çolan vuram.

Padşah razı oldu. Əmr verdi ki, xəzinəni açıb İbrahimə nə istəyir versinlər. İbrahim yəhəri atın dalına qoydu. Qılıncını bağladı. Atına mindi xörək ilə şərbəti padşah üçün yolladı və dedi:

– Sənin arvadın naxoş deyil, o mənim xörəgimə zəhər tökmüşdü, – deyə ata hərəkət verdi.

Qara day qan-qan vururdu. Padşah əmr verir ki, qapıları bağlasınlar, İbrahimi şəhərdən buraxmasınlar. Fərraşdar qapını bağlayınca, İbrahim şəhərdən çıxdı. İbrahim getməkdə ola, padşah hərəmxanaya keçdi. Xidmətçiləri çağırdı, əmr etdi ki, su gətirsinlər. Su gətirdilər. Sora padşah dedi:

– Munun qolunu silin.

Xidmətçilər azarlının qolunu sildilər. Zəfəran su ilə getdi. Padşah güldü. Əmr etdi ki, arvadı ilə həkimin boynun vursunlar.

İbrahim bir xeylaq getdi, oturdu bir çinar ağacının dibində, atın bağladı. İbrahim gördü ki, bir əjdəha zümrüd quşun balalarını yemək istəyir. İbrahim əjdahanı iki böldü.

Əjdahanın ətindən quşdara verdi. Özü ağacın dibində yatdı. Bu aralıqda zümrüd quşunun anası gəldi. İbrahimi yatmış gördü, dedi:

– A, budur mənim hər il balalarımı yeyən.

Yerdən bir daş götürdü, istədi İbrahimin başına salsın. Zümrüdün balaları çığırışdılar və analarına dedilər:

– Onu öldürmə, o əjdahanı öldürdü, ətindən bizə verdi.

Zümrüd quşu daşı atdı. İbrahim yuxudan ayıldı. Zümrüd dedi:

– Al, balalarımın birini sənə verdim. Sən oları ölümdən qurtarıbsan.

At dil oldu, dedi:

– Al!

İbrahim zümrüd quşunu aldı. Atına mindi yola düşdü. Düz getdi, dərə keçdi, bir meşəyə çatdı. Bir də gördü biri zarıldayır. Zarıltıya tərəf getdi. Bir də gördü ki, bir pələng ayağına ağac batıb naləsi ərşə durur. İbrahim atdan düşdü, pələngin ayağından ağacı çəkdi, əsgi ilə bərk bağladı. Pələng də qoşuldu İbrahimə. İndi İbrahim, zümrüd, pələng yol elədilər. Bir şəhərə çatdılar. Gördü çox qoşun var. İbrahim xəbər aldı:

– Bu qoşun bura nöş yığılıb?

Dedilər:

– Qeyri padşah bizim bu padşahdan ya yeddi ilin bad-xəracın, ya da padşahın gözəl qızı Xurşidi almaq istəyir.

İbrahim şəhərin qırağında durdu. Qara at dedi:

– İbrahim, sən get şəhərə. Belə ki biz sənə gərək olduq, al bu tükümdən yandırarsan, biz gəlib çıxarıq.

İbrahim şəhərə girdi. Qabağına bir qarı çıxdı. İbrahim qarıya dedi:

– Qonaq saxlarsan?

Qarı dedi:

– Kül başıva, sən nə hayda, mən nə hayda? Padşahın qızını aparmağa gəliblər.

İbrahim dedi:

– Az danış, al bu pulu, get mənim üçün dügü al, aş bişir.

Qarı hıqqana-hıqqana getdi, düyü aldı, aş bişirdi. İbrahim xörəyi yedi tükü yandırdı. Qarıya dedi:

– Al bu qızıl da sənin. Mən yatıram, sən get.

Qarı getdi. İbrahim qara ata minib qoşuna həmlə etdi. Birinci zərbədə qoşunu nə qədər dalda oturtdu. İki-üç zərbədə qoşunu yer ilə yeksan etdi. Padşaha xəbər getdi ki:

– Padşah sağ olsun, bir qara atdı oğlan düşmanı qırıb çatdı.

Padşah əmr verdi ki:

– Qara atdını çağırın.

İbrahim üçün xəbər getdi. Tapa bilmədilər. Qoca qarı padşaha dedi:

– Padşah sağ olsun, mənim evimdə bir qərib var, bəlkə elə o olur. Çünki həmişə evə gələndə əl-qolu qanlı gəlir.

Padşah əmr verdi ki, qocanın qonağını çağırsınlar. İbrahimi gəlib apardılar. Padşah üzün İbrahimə tutdu:

– Xoş gəlmisən oğlan, otur.

İbrahim oturdu. Padşah dedi:

– Gəl sən qal bargahda, mən qızımı sənə verim.

Pərdə quruldu. Xurşidi-aləm gəldi, pərdənin dalında durdu. Qız dedi:

– Ana, bu oğlanı tanıyırsan, bu şah Şonqar padşahın oğludur.

Padşah yeddi gün, yeddi gecə toy elədi. Qızını verdi İbrahimə. İbrahim Xurşidi-aləmi götürüb yeddi qatır qızıl və nə qədər qoşunla atasının vilayətinə çatdı.

Günlərin bir günündə Ağ dev Xurşid-aləmi götürüb qaçdı. İbrahim qara atı minib adaxlısının ardınca getdi. Bir qalaya saldılar. İbrahim qalanı açdı. Öz adaxlısını tapdı. Qara at dedi:

– İbrahim, durma o şüşədəki balığı parçala.

İbrahim balığı parçaladı, ağ dev göydən yerə gəldi. İbrahim Xurşid–aləmi götürüb təzədən yeddi gün, yeddi gecə toy elədi. O gün olsun olmayanlarçın olsun.

## TOYUQ BİR QILÇLIDI

Bir vardı, bir yoxdu. Bir dərviş vardı. Günnərin bir günündə yolnan gedirdi gördü bir keçəl aşıx-aşıx oynuyur. Amma saqqanı ha yannan qoşa-qoşa çıxardır. Dərviş dedi:

– Keçəl, peşən nədi sənin?

Keçəl dedi:

– Peşəm ələ bıdı ki, aşıx-aşıx oynaram, uşaxlardan aşıx uduram, aparıram onu da satıram, verirəm çörəyə, aparıram evə yeyərik.

Dərviş dedi:

– Baçınnan, qardaşınnan, nənənnən, dədənnən nəyin var?

Dedi:

– Heç-zadım yoxdu, bircə xalam var, elə gedib onun ocağının başında otururam.

Dərviş dedi:

– Keçəl, gəl mənim yanımdaca ol. Yeməyi-içməynı verrəm. Səninki də o olsun ki, elə qalyanımı yandır, afdafama su tök.

Keçəl dedi:

– Nə deyirəm olaram.

Bu keçəli götürdü, gəldi əvə. Beş-on gün dolandılar. Bir gün dərviş dedi:

– Keçəl!

Dedi:

– Hey!

Dərviş dedi:
– Keçəl, gətir sənin gözüvə bir dərman çəkim, sən onu görəsən, o səni görmüyə. Gedəsən paççahın xörəyi çəkiləndə götürüp gələsən.
Keçəl dedi:
– Axı məni vırıp öldürəllər.
Dedi:
– Yox, sən oları görəcəksən, olar səni görmüyəcəklər.
Dərviş gətirdi bunun gözünə bir dərman çəkdi. Bu qorxa-qorxa düşdü yola. Getdi gördü heç buna deyən olmur ki, hara gedirsən, hardan gəlirsən. Girdi içəri, gördü heç bına söz deyən olmadı. Gözdədi paççahın xörəyi çəkiləndə, xörəyi götürüb qapıdan çıxdı. Yolda əlin uzatdı yuxanın altınnan gördü xörəyin üsdə bir toyux var, bir qılçın qopartdı yedi. Gətirdi xörəyi qoydu dərvişin qabağına.
Dərviş yuxanı götürdü, gördü toyuğun bir qılçı yoxdu. Dərviş dedi:
– Keçəl, bəs bu toyuğun bir qılçı hanı?
Dedi:
– Bıy, məgər toyuğun iki qılçı olar?
Dərviş dedi:
– Keçəl, toyuq iki qılçlıdı.
Dedi:
– Xeyr, toyuq bir qılçlı olur.
Dərviş nə qədər dedi, dedi, keçəl dedi ki, xeyr, toyuq bir qılçlı olar.
Gündə gedərdi paççahın xörəyin gətirərdi, yolda toyuğun bir qılçın yeyərdi. Hər gələndə dərviş deyirdi ki, keçəl toyux iki qılçlı olar, bir qılçlı olmaz. And içirdi, aman eliyirdi ki, sən nətər dərvişsən, toyuq bir qılçlı olar. İki qılçlı da toyuq olarmı? Boynuna almırdı.
Paççah car çağırtdırdı ki, bir belə əyyar peyda olub. Hər kəs onu tutsa, dünya malınnan onu qəni elərəm. Dərviş durdu getdi, paççaha baş endirdi. Dedi:
– Onun ixtiyarın ver mana, mən onu tutaram.
Getdi bir dərman verdi, dedi:
– Aşbaza deyinən ki, xörəyi çəkməmiş onu atsın ocağa, yansın.
Dərmanı apardılar verdilər aşbaza. Xörəyi çəkməmiş atdı ocağa. Qayıtdı xörəyi çəkdi. Keçəl girdi içəri, dərmanın tüsdüsü gözün acışdırdı. Başdadı gözün avmağa, dərman getdi. Gördü budu keçəl girdi içəri, sinini isdədi götürsün, qolunnan yapışdılar. Gətirdilər qoydular keçəli dərvişin yanına. Bu da gördü, baho dərviş də burdadı. Dərviş dedi:

– Keçəl, indi sənin boynunu vuracaxlar. Gəl lotuyana boynuna al, yemisən. Yemisən, ta mən səni öldürmüyəm. Ha yeyəndə nolar.

Keçəl dedi:

– Paho vey... sən nəzirçi dərviş imişsən, sənin də canın üçün, dədənin də goru haqqı, nənənin də goru haqqı, toyuq bir qılçlıdı.

Başın bılıyıb dərviş dedi:

– Keçəl, düzün de. İndi səni öldürəcəklər.

Keçəl dedi:

– Neynim öldürəcəklər, düzün deyirəm mən, toyuq bir qılçlı olar, iki qılçlı toyuq olmaz.

Dedi:

– Keçəl, mən bir löh oxuyacıyam, qalxacağam göyə. Onda mənnən bir yumax düşəcək, onu göynən yerin arasında tuta bildin, dalımca gələcəksən. Elə ki, tuta bilmədin, ta gələ bilmiyəcəksən. Boynun vıracaxlar.

Bu bir löh oxudu, qalxdı göyə. Yerə bir yumax düşdü, keçəl atılıp yumaxı göydə tutdu. Bu da dalınca qalxdı göyə. Gəldilər bir xaraba bərri-biyabanda yerə düşdülər. Dərviş dedi:

– Mən bir löh oxuyacağam, bu dağdan bir əjdəha gələcək, alnında bir gözü var. Ala bu qılıncı, elə vur ki, boynu üzülüb yerə düşsün, onda qurtarrıx. Elə ki, vıra bilmədin səni də öldürəcək, məni də.

Keçəl dedi:

– Baş üstə.

Dərviş löhü oxudu, əjdəha gəldi. Bu keçəl qılıncı götürüp elə vırdı ki, bunun boynu düşdü yerə. Dərviş tez sıçradı bunun quyruğundan kəsdi, atdı yerə. Qayıtdı bir tava çıxartdı. Bunu təmiz doğradı qovurmağa. Abanın altınnan da beş-altı çörək çıxartdı. Dedi:

– Keçəl, gəl otur yeyək.

Dedi:

– Mən yemirəm, deyirsən ki, yeyəm məni öldürə.

Dərviş başladı özü yeməyə. Şirin-şirin çörəyin yedi qurtardı, abasın qoydu başının altına yatdı. Keçəl fikir elədi, dedi:

– Öldürsə, elə bunu öldürərdi dayna.

Başdadı bu tavanı yalamağa. Keçəl yaladı, bir də gördü otlar səslənir ki, mən filan dərdin dərmanıyam, qayalar səslənir ki, mənim altımda neçə-neçə küplər var. Keçəl közələnirdi, dərviş oyandı. Dərviş

təpiyiynən keçəli vırdı, keçəl bir parça ət olub, yıxıldı cızığın içinə. Dərviş bir xeylaq getdi, dedi:

– Keçəl!

Dedi:

– Hey!

Dedi:

– Gedirəm, səni qurd-quş yeyəcək, indi düzün de görüm, toyuğun bir qılçın yemisən? Yemisən nolar?

Dedi:

– Paho, qəribə zirçih, sital dərvişmişsən. Sən nəyidin, mən nəyidim, sən mənim başıma bu oyunnarı gətirirsən. Mən düzün deyirəm, toyuq elə bir qılçlı olar. İki qılçlı toyuq olmaz. Sənin meyitini görüm ki, toyuq bir qılçlı olar.

Qayıtdı gəldi bir löh oxudu, keçəl oldu əvvəlki kimi. Keçəli də götürdü yenə gəldi bir xarabalıq yerə. Bir cızıx çəkdi, dedi:

– Keçəl, bir ilan gələcək, onu öldürməlisən, vura bilməsən səni də öldürəcək, məni də.

O saat bir löh oxudu, qılıncı da verdi keçələ. İlan gələn kimi keçəl elə vurdu ki, başı düşdü yerə. O saat dərviş yenə sıçradı. Quyruğun kəsdi atdı. Tavanı çıxartdı bunu da doğradı qavırdı. Dedi:

– Keçəl, gəl yeyək.

Dedi:

– Nə deyirsən, yeyəm öldürə məni, mən yemirəm.

Başladı dərviş özü yeməyə. Yedi, abanı qoydu başının altına yatdı. Keçəl dedi:

– Bu ki belə yeyir. Dibin sivirim görüm bu neçə şeydi.

Başladı qazanı sivirməyə, o saat gördü ot səsləndi, mən filan dərdin dərmanıyam, daş səsləndi, məni filan şeyə vırsan qızıl ollam.

Keçəl bir o yanə-bir bu yanə kərələndi, o saat dərviş oyandı. Yenə buna bir təpik vırdı, dedi:

– Keçəl, mən gedirəm, səni bırda qurd-quş yeyəcək. Gəl denən görüm, toyuğun bir qılçın neynəmisən?

Dedi:

– Paho vey, sən nə zirçik adamsan. Toyuq bir qılçlı olar.

Dərviş gördü ki, keçəl dediyinin üsdə durub, gəldi löh oxudu keçəli yenə elədi həmən adam. Gəldilər bir dağın başına. Dərviş bir avuc arpa çıxartdı səpdi yerə. Səpən kimi bu göyərdi. Əlinə sini aldı, dedi:

– Keçəl, görürsən o qapını?

Baxdı gördü dağın döşündə bir qapı görükür. Dedi:

– Gedərsən qapını açarsan, heç nəyə əlini vırmazsan. İçəridə bir şam var yanılı, onu götürüb gələrsən. Qayıdanda şir, pələng, əjdəha səni qavacax çölə, çıxanda hamısı qayıdacax, qorxma. Ora tilsimdi.

Keçəl dedi:

– Yaxşı.

Keçəl yola düşdü, getdi qapını aşdı. Gördü rəflərdə çoxlu ləl var. Bunlardan yığıb qoynına, şamı götürdü, qayıdanda gördü qapı bağlandı. Keçəl qaldı bırda ağlıya-ağlıya. Gecə oldu bu başın qoydu bir daşın üsdə yatdı. Yuxuda gördü deyillər ki, bu daşı qalxızsan bır qapı açılacax. Oyandı, daşı qalxızdı, qapını aşdı. Bir müddət getdi, çıxdı bir şəhərə. Şəhərə də nabələddi. Gəldi gördü bir karvansara var. Bu karvansarada şam yandırdı, o saat qırx incə qız hazır oldu ki, keçəl, nə buyurursan. Keçəl bu qızları görəndə sevindi.

Paççahın qızı artırmadan baxırdı. Gördü bir karvansarada bir keçəl var. Qulluğunda qırx incə qız durub. İki qaravaş göndərdi ki, gedin o keçəli də, qızdarı da gətirin bıra. Qaravaşlar gələn kimi şam söndü, o saat qızlar da yox oldu. Bu qaravaşlar keçəli götürdülər gəldilər. Qız dedi:

– Ədə keçəl, köpəkoğlu, bu nə işdi?

Dedi:

– Xanım, məndə nə günah var, iş bu şamdadı.

Dedi:

– Şamı maa ver.

Şamı aldılar.

Dedi:

– Qızlar, şama od vurun!

Qızlar şamı yandırdılar. Qız o saat gördü qapıdan qırx burma oğlan girdi. Biri vəzirin qızın, biri vəkilin qızın basmarradı. Dedi:

– Şamı söndürün.

Şamı söndürdülər. Bu əhvalat getdi paççaha çatdı.

Dedi:

– Keçəli gətirin.

Gedib keçəli gətirdilər. Paççah dedi:

– Keçəl, bu nə işdi mənim qızımın başına gətirirsən? Vəzir, şamı yandır.

Yanan kimi qırx dəllək hazır oldu. Başladılar paçcahın, vəzirin bığın-saqqalın qırxmağa. Paçcah dedi:

– Ədə, tez şamı söndürün, verin özünə.

Şamı verdilər keçələ. Keçəl şamı götürdü gəldi gördü dərviş elə sini əlində gözünün yazın buludun baharı kimi tökür. Dedi:

– Keçəl, şamı gətirdin?

Dedi:

– Bəli.

Dedi:

– Maa ver. Keçəl, şamı yandır!

Keçəl o saat şamı yandırdı. Qırx incə qız hazır oldu:

– Adə dərviş, nə buyrursan?

Dedi:

– Çəpəllər, amanatı gətirin.

Keçəl gördü o saat bir xonçada bir ceyranın şəklin gətirdilər. Bir löh oxudu, bu bir qız oldu ki, ta nə təhər. Dərviş dedi:

– Keçəl, sən get o qızdarınnan kef elə, bu mənimdi.

Keçəl öz ürəyində dedi:

– Gör sənin başına nə gətirəcəyəm. Yağın özün yeyip, ayranı maa ötürürsən.

Yığışıb gəldilər dərvişin evinə, bu dərviş bir az qızınan söhbət elədi, başın qoydu dizinə yatdı. Keçəl o saat gəlip qıza dedi:

– Əziyyətin hamısın mən çəkim, onnan söhbət elə.

Qız dedi:

– Neynək, bu dərvişin canı o süşədədi, öldür, sənnən söhbət eliyim. Ama o löhləri gərək öyrənəsən.

Keçəl bir az oxumax-yazmax bilirdi. Bu dərviş löh oxuduqca, bu yazdı öyrəndi. Dərviş yenə yatmışdı. Şüşəni aldı.

Dərviş oyandı, dedi:

– Keçəl, onu qoy yerinə, yeddi paçcahı sənin itaətinə gətirim.

Keçəl dedi:

– Ta o sözlərdən keçib.

Şüşəni vırdı yerə, o saat dərviş öldü. Yığışdılar şamı çıxartdığı imarata. Keçəl başdadı orda paçcahlıx eləməyə.

Olar yedilər, işdilər, kef elədilər. O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü, biri sənin, biri mənim, biri də nağıl deyənin.

## NAZİK BƏDƏN

Gülüzarı məba gözüm bir gülə düşdü,
Alı xalası sünbülə düşdü.
Əfsuseyr dərdim dildən-dilə düşdü.
Hər aşiqi-şeyda özün yara yetirdi.
İqbalı zəmin oldu, bizimki də belə düşdü.

Hamam hamam içində, qoz girdəkan içində, dəvə dəlləklik elər, köhnə hamam içində. Xəlbir saman içində, qarışqa şıllaq atdı, dəvənin boynu batdı.

Biri vardı, biri yoxdı. Allahdan başqa heç kim yoxdı. Sizə kimdən xəbər verim, Misir şəhərindən. Misir şəhərində bir paçcah vardı, çox əzazil, çox dindardı. Misir şəhərində bir dülgər, bir də bir zərgər vardı. Bu dülgər getmişdi qəribliyə. Bu zərgarın gözü bu dülgərin arvadına düşmüşdü.

Bir qarı vardı. Qarı var ipəkdi, qarı var köpəkdi, qarı var iman, Quran nəsib olsun, qarı da var ilan, qurbağa nəsib olsun. Bu qarı köpək qarıdandı.

Bu qarını zərgər göndərdi dülgərin arvadının yanına, beş yol, on yol göndərdi, axırda arvadı ələ gətirdi, bu arvadı aldı.

O dülgər də gəldi, çıxdı. Dedi:

– Arvad mənimdi.

Zərgər dedi:

– Xeyr, mənimdi.

Bu ikisinin arasında dava düşdü. Bu dedi arvad mənimdi, o dedi arvad mənimdi. Bunlar hər ikisi durdular getdilər paçcahın yanına şikayətə.

Paçcahın bir oğlu vardı, İbrahimim adda. İbrahim dedi:

– Atayi-mehriban, bunları ürcah elə mənə, mən bunların davasın kəsim.

Dedi:

– Yaxşı!

Bunları ürcah elədi İbrahimə. İbrahim dedi:

– Siz hərəniz bir şey qayırın gətirin mənə. Hansınızın qayırdığı şey yaxşı olsa, arvad onundu.

Bunlar razı olub getdilər.

Səhər zərgər qızıldan bir xoruz qayırdı. Xoruz başladı otaqda gəzə-gəzə bannamağa. Dülgər də taxtadan bir at qayırdı. Mindi, pucun burdu, başdadı at da otaqda o yana-bu yana getməyə.

İbrahim baxdı dedi:

– At yaxşıdı, arvad dülgərindi.

Ata mindi, pucun burdu, at İbrahimi götürüp qalxdı göyə. Göydə İbrahim xeylaq gedənnən sora baxdı gördü bir şəhərdə işıq gəlir. Bu işığı nəzərə alıp getdi. Bu şəhərin qırağında düşdü. Gördü şəhərin qırağında bir ev var. Getdi gördü burda bir qarı var.

Dedi:

– Qarı nənə, oğuldan, qızdan nəyin var?

Qarı dedi:

– Bala, heç zadım.

İbrahim dedi:

– Qarı nənə, məni götür oğulluğa, mən də olum sənin oğlun.

Qarı dedi:

– Nolar bala, çox yaxşı.

İbrahim hər gün çıxır bazara, ayınnan-oyınnan alıp gətirir qarıynan yeyirdilər. Bir gün İbrahim şəhərdə gəzirdi. Gördü bir ev var, qalxıp ərşi-fələyə, amma heç bunun yolu yoxdu. Qayıtdı evə, çörəyi gətirdi, axşam çörəyi yeyip qurtarannan sora dedi:

– Qarı nənə!

Qarı dedi:

– Hey...

Dedi:

– Qarı nənə, o necə imaratdı ki, heç yolu yoxdu?

Qarı dedi:
– Bala, o paçcahın qızının evidi, ona yol paçcah öz evinin içinnən qoyub. Onu hələ eləyib ki, heç kəs qızı görməsin.
İbrahim gecə həmən atı minib çıxdı imarətin üstünə, yavaşca endi eyvana. Pəncərədən tamaşa elədi, gördü ki, bir qızdı yatıb, dodaqlar yazın baharı kimi, yanaqlar yaqutun kənarı kimi, dişləri inci mirvari kimi, nazik bədən... Bir qızdı ki, Allah-taala xoş gündə, xoş saatda yaradıb. İbrahim baxdı gördü qızın barmağında bir üzük var, adı da üstünə yazılıdı. Qızın da adı Nazik bədən idi. O üzüyü çıxartdı qızın barmağınnan, öz üzüyün saldı qızın barmağına. Qızın o üzünnən, bu üzünnən öpdü. Yavaşca qapını açıp çıxdı, atı mindi, gəldi öz evlərinə.
Səhər qız durdu, bədənnümə güzgüyə baxdı. Gördü üzünə ləkə düşüb; üzüyü də dəyişib, öz üzüyü yoxdu. Bu üzüyün də üstə yazılıp "Misir paçcahının oğlu İbrahim". Qız buna çox təəccüb elədi ki, bunun yolu yox, bəs bu hardan gəlib. Bu gecə yuxusuna haram qatıb yatmadı. Gördü ki, otağın üstə bir şey tappıldadı. Qapı açıldı, içəri bir oğlan girdi ki, Allah-taala onu xoş gündə, xoş saatda yaradıp. Nazik bədən bu oğlana bir könüldən min könülə aşıq oldu. İbrahim istədi qızın üzünnən öpsün, qız yapışdı İbrahimin qolunnan dedi:
– Ləvənd oğlu, ləvənd, nə həddinən bura gəlmisən? Hardan gəldin bura, bıranın yolu yoxdu.
İbrahim dedi:
– Atnan gəldim.
Qız dedi:
– Bəs atın hanı?
İbrahim dedi
– Bıdı, bırda.
Dedi
– İndi ki belə oldu, bağışlayıram səni. Bəs indi neyniyək, apara bilərsənmi məni gedək?
İbrahim dedi:
– Bəli, aparram.
Atın pucun burdular, qalxdılar göyə. Bəli, göynən bir müddət getdilər. Qız dedi:
– İbrahim, mən üşüyürəm.
İbrahim tez atın puçun burdu, düşdülər yerə. Gördülər bura bir qəlbi dağın başıdı. İbrahim baxdı, gördü uzaxda bir işıq gəlir, dedi:

– Sən otur burda, gedim mən saa od gətirim.

Mindi ata, puçun burdu, qalxdı göyə. Atı sürdü bu işıq gələn yerə. Getdi gördü bu bir dəmirçidi. Dedi:

– Usta dəmirçi, ala bu sənin pulun, maa bir maşa çək.

Usta dəmirçi bir maşa çəkib verdi buna. Bu maşada bir oddu kömür götürdü, atı mindi qalxdı göyə. Göydə yel vırdı bir qığılcım düşdü atın puçuna, alışdı. Yavaş-yavaş gördü at yenir aşağa. Nətər elədi olmadı, gördü düşdü yerə. Atın puçu alışdı yandı. İbrahim çox peşman oldu ki, xalqın qızın da yurdunnan-yuvasınnan elədim, gətirdim. İndi görən o dağın başında qurd yeyəcək, canavar yeyəcək. Çox kor-peşman qaldı.

İbrahim qalsın bırda, sizə kimnən xəbər verim qızdan. Qız o qədər qaldı burda, gözdədi, gözdədi, gördü İbrahim gəlmədi. Gördü hava alatordu, ta səhər açılır. Burda heç kəs yoxdu, amma böyründə səs-küy gəlir. Yavaş-yavaş getdi, gördü bu bir cütçüdü cüt əkir. Cütçü baxdı, gördü bir qız gəlir çim qızıl-gümüşün içində. Paççahyana bir qızdı. Qız gəldi, dedi:

– Ay cütçü, Allah qüvvət versin. Ay cütçü, acdığım var.

Dedi:

– Bir az bırda dur, evim yaxındı, gedim çörək gətirim.

Cütçü özün evinə sarı verdi ki, getsin çörəyi gətirsin. Qız fikirləşdi ki, acdıqdan yaxşı mənim burdan qaçıb bir yana getməyimdi. Cütçü getdi, qız durdu yavaş-yavaş ağzın çevirdi bərri-biyabana. Gün çıxınca bu gəldi bir meşiyə çıxdı. Gün batınca burda daldalandı. Axşam qarannıx düşəndə meşədən çıxdı. Bir müddət gəldi, gəldi çıxdı bir dəyirmana. Girdi dəyirmana. Gördü dəyirmançı təkdi, dənin qabağın çəkir. Dedi:

– Ay dəyirmançı, aclığım var!

Dəyirmançı baxdı gördü bu bir qızdı, Allah-taala xoş gündə, xoş saatda yaradıb. Özü də çim qızılın içində.

Başın qalxızdı, dedi:

– Bu saat, otur.

Qız oturdu. Bu dəyirmançı gətirib bir kömbə saldı. Qıza verdi. Qız gördü ki, dəyirmançının fikri başqa yerdədir, əlinə qab almaq bəhanəsiylə çıxdı çölə, qaçdı. Asta qaçana imam qənim. O qədər gəldi ki, gəldi çıxdı bir çobana ürcah oldu. Çoban gördü bir qız gəlir, çim qızılın içində. Çoban dedi:

– Allah mənimkin yetirip.

Qız gəldi, dedi:

– Çoban, acıdın çobana, yoruldun sarvana! Aclığım var.

Çoban gətirip tez bir qoyun kəsdi. Ətin bişirib yedilər. Qız dedi:

– Çoban, bilirsən nə var?

Çoban dedi:

– Xeyr.

Qız dedi:

– Çoban, məni belə aparsan, paççahınız məni belə görüb sənin əlinnən alacaq. Gətir paltarının bir dəsdin soyun ver maa.

Bir qoyunun da qarnın təmiz boşaltdı yerə, saçın yığdı, qarnı geydi başına. Çobanın da bir dəst paltarın geyib dedi:

– Çoban, sən qoyunu qabaqdan çək, mən də daldan yığım.

Bu çoban sürünü çəkdi, bu qız da daldan qoyunu yığdı. Çoban, sür! Çoban sür! – deyə-deyə bir müddət getdi, bir müddətdən sora ağzın çevirdi bərri-biyabana, gəldi o qədər ki, çıxdı bir şəhərə. Gördü şəhər əhalisi yığışıb meydana sarı gedir. Bu da düşdü bunların yanına. Gedirdilər, bu birinnən soruşdu ki, bu adamlar hara gedir, nə var, nə olub? Dedilər, paççahımız ölübdü. İndi dövlət quşu uçurdurlar, hər kəsin başına qonsa, onu paççah eləyəcəklər. Getdilər meydana, bu da çəkilip bir tərəfdən durmuşdu. Quşu uçurdular. Gəldi bunun başına qondu. Bunu adamın içinnən qavdılar ki, ay keçəl, sən hardan gəldin bura? Genə uçurdular, genə hərrəndi gəldi bunun başına qondu. Üç dəfə gəldi. bunun başına qondu.

Dedilər:

– Gətirin, bunu paççah eliyək.

Gətirdilər bunu paççah elədilər. Gördülər bu bir paççahdı ki heç belə paççah olmıyıp. Xülasə, camahat şükür səna elədilər ki, nə yaxşı belə yaxşı paççah olub.

Bu burda qalsın, sizə kimnən xəbər verim bu qızın atasınnan. Səhər açıldı, bu qıza xörək göndərdi. Qarabaşlar xörəyi qaytardılar ki, qız yoxdu. Paççah fikir elədi, dedi:

– Əyər bu otağın bir yerə yolu yoxdu, bunu göyə apardılar, nə oldu?

Münəccim gətirtdi. Münəccim baxdı, dedi:

– Qızı göyə aparıblar. Amma qız sağdı.

Paççah səhər bir dəst dərviş libası alıp dedi:

– Gərək dünyanı gəzəm, görüm qız nə oldu.

Dərviş-libas olub düşdü gəzməyə. İbrahim da burda dərviş-libas olub gəzirdi. Cütçü də bir dərviş libası aldı, başladı gəzməyə. Dəyirmançı da bir dəst dərviş libası alıb düşdü yola. Çoban da qoyunu yığdı apardı, gördü gəlmədi. Bu da dərviş-libas oldu.

Bunlar burda qalsın, sizə xəbər verim qızdan. Qız bir gün dedi ki, burda bir naqqaşkar olarmı ki, mənim hərəmimin şəklin çəksin? Dedilər:

– Olar.

Getdilər bir naqqaşkar gətirdilər. Naqqaşkara dedi ki, gəl, o qapıdan mənim hərəmimin şəklini çək.

Özü çəkildi aynanın qabağına. Başdadı özünə bir zinyət vurdu ki, heç olmayan kimi. Gəldi durdu o qapıdan, naqqaşkar bunun şəklini çəkdi. Bu tez soyunub paççahlıx paltarın geydi. Dedi:

– Bu şəkli aparın vırın ala qarıya, hər kəs ona baxıb ah çəksə gətirin mənim yanıma.

Bir gün bunun öz atası gəldi. Bu qızının şəklin burda gördü. ah çəkdi. Bunu gətirdilər paççahın yanına. Dedi:

– Əşi, niyə ah çəkirsən?

Dedi:

– Heç.

Aşbaza dedi ki, buna yaxşı muğayat olun.

Bir günləri də İbrahim dərviş-libas gəlib şəkli gördü: Ah çəkdi. Bunu da tutub gətirdilər. Paççah dedi ki, yaxşı muğayat olun, bunlara. Onun sabahı günü cütçü gəldi çıxdı. Onun sabahısı günü də dəyirmançı gəldi çıxdı, onun sabahı günü çoban gəldi çıxdı. Paççah bunların hamısın yığdı gətirdi öz mənzilinə. Üzün tutub atasına dedi:

– A kişi, ona niyə baxıb ah çəkdin?

Dedi:

– Qibleyi-aləm, o mənim qızımıdı; o bir otaqdeydi ki, heç bir yerdən yolu yox idi. Yolu mənim evimin içinnən idi. Xurd-xörəyi də mənim evimnən gedərdi. Bir gecə yatdıq, səhər xurd-xörəyin göndərdim. Dedilər qız yoxdu. Nə qədər fikir elədim, bu necə oldu, bilmədim. Münəccim gətirtdim, münəccim dedi ki, qızı göyə aparıblar, ancaq sağdı. İndi dərviş-libas olub onu gəzirəm. Şəklin burda gördüm, ah çəkdim.

İbrahim dedi:

– Bizim səhərdə bir dülgər vardı, bir zərgər. Bu dülgər getmişdi qəribliyə. Bu zərgərin gözü düşdü dülgərin arvadına. Dülgərin arvadın

axırda yola gətirdi. Bunu aldı. Axırda dülgər gəldi. Bu ikisinin arasında dava düşdü ki, bu dedi arvad mənimdi, o dedi arvad mənimdi. Axırda gəldilər dədəmin yanına. Atama dedim ki, bunların ixtiyarın ver maa, mən kəsim bunların davasın. Atam verdi. Dedim ki, hərəniz bir qəribə şey qayırın maa. Hansınızınkı yaxşı olsa, arvad onundu. Bunlar razı oldular. Dülgər bir at qayırdı. Puçun buranda bu at başladı gəzməyə. Zərgər qızıldan bir xoruz qayırdı. Başdadı bannamağa, gəzməyə. Dedim, at yaxşıdı. Arvad dülgərindı. Bunların davasın kəsdim. Bu atı mindim qalxdım göyə, gəldim bir qarının evinə. Ona oğulluq elədim. Bir ay dolandım. Bir gün gördüm bu şəhərdə bir imarət var, heç yerdən yolu yoxdu. Getdim qarı nənəmnən soruşdum ki, qarı nənə, o ev kimin evidi. Dedi ki, bizim paçcahın evidi. Orda onun qızı olur. Heç yerdən ora yol yoxdu. Yolu onun öz evinin içindəndi. Gəldim atı mindim, getdim o imarata çıxdım. Qızın barmağında bir üzük var idi. Onu çıxartdım, öz üzüyümü də onun barmağına taxdım. O üzündən, bu üzündən öpdüm. Qayıtdım. Qız səhər durur, görür üzünə ləkə düşüb, üzük də barmağında dəyişilib. Qız o gecəni yatmır, oturur. Genə atı mindim getdim düşdüm otağın üstə. Ordan da düşdüm eyvana, girdim içəri. Qız dedi:

– İbrahim, hardan gəldin? Nətər gəldin?

Dedim ki, atnan. Dedi ki, məni də apara bilərsənmi? Dedim, aparram.

Mindik ata, o qədər gəldik ki, bir yerdə qız dedi ki, üşüyürəm.

Yendik yerə. Gördüm bir təpənin başıdı. Qızı qoydum orda. Dedim, gedim od gətirim. Gəldim bir dəmirçidən od götürdüm; aparanda oddan qığılcım düşür atın puçuna, alışıb yanır. Mən də qaldım ayrı yerdə. Ta gedə bilmədim qızın yanına. İndi dərviş-libas olub, o qızı axtarıram. Gəldim burda şəklin gördüm, onuncun ah çəkib ağladım.

Sonra cütçüyə dedi:

– Sən niyə ah çəkib ağladın?

O da dedi:

– Qibleyi-aləm, o hava işıqlaşanda gəldi maa ürcah çıxdı, dedi acdığım var. Min könüldən ona aşıq oldum. Dedim ki, otur bu saat çörək gətirim. Getdim çörək gətirdim, gəldim gördüm yoxdu. İndi burda şəklin görüb ağladım.

Ondan dəyirmançıya dedi:

– Bəs sən niyə ona baxıb, ah çəkdin?

Dedi:

– Mən də unun qabağın çəkirdim; gördüm girdi içəri. Dedi ki, acdığım var. Getdim çörək saldım, yedik, əlinə qab aldı, taa gəlmədi. İndi burda şəklin gördüm, ah çəkib, ağladım.

Çobannan soruşdu:

– Bəs sən niyə ağlayıb ah çəkirdin?

Dedi:

– Mən də sürü otarırdım, gördüm gəldi. Dedi ki, aclığım var, çoban. Gətirdim bir qoyun kəsdim. Bişirdik, yedik. Axırda dedi ki, məni sənin əlinnən alarlar, paltarından bir dəstin ver maa. Qoynun qarnın da boşaltdı, geydi başına. Dedi ki, sən sürünün qabağın çək, mən də dalın yığım. Mən qabağı çəkdim, o da dalı yığdı. Bir vədə gördüm ki, yoxdu. İndi şəklin burda görüb, ah çəkib ağladım.

Qız üzünü atasına tutub dedi ki, əsl qızını görsən tanıyarsanmı? Dedi, bəli!

Cıqqanı başınnan götürdü. Dedi:

– Ateyi-mehriban, gör öz qızınammı? Görürsənmi necə əldən-ələ dəymişəm. Heç kim mənə bir şey eliyə bilməyib. Bax, mənim də ərim bu İbrahimdi.

Mollanı gətirdi, kəbini kəsdi. Qız da cıqqanı qoydu İbrahimin başına, dedi:

– İndi burda dolanax.

O yedi yerə keçdi, biz də yeyək, dövrə keçək. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## PİNƏÇİ MƏHƏMMƏD

Biri vardı, biri yoxdu. Allahdan başqa heç kim yoxdu. Bir pinəçi Məhəmməd vardı. Bu Məhəmməd nə qədər əlləşərdi, gündə bir abbası qazancı olardı. Öz züryəti də yoxdu. Bir arvadıydı, bir də özü. O, bir abbasını da evə gələndə verərdi soğan-çörəyə, gətirib yeyərdilər. Başqa heç bir şey almazdı. Bu şəhərdə də bir lotu vardı. Bu lotunun bir çəkməsi vardı, bunu gətirdi verdi Məhəmmədə ki:

– Bunu yama. Neçəyə yamayacaqsan?

Məhəmməd dedi:

– Gündə nə qədər yamaq yamıyam, bir abbası nəfim olar.

Dedi:

– Mən iki abbası verərəm, yama! Məhəmməd, bir abbasıynan nə təhər dolanırsınız?

Məhəmməd dedi:

– Nə bilim, onu evə gedəndə verirəm soğan-çörəyə, aparıram, yeyib-dolanırıq.

Lotu öz-özünə dedi ki, gedim görüm bunun arvadı nə cür adamdı.

Axşamçağı pulu verdi, çəkməni alıb geyindi gəldi Məhəmmədin evinə. Baxdı gördü bunun arvadı göyçək, şücahətdi bir adamdı.

Dedi:

– Məhəmməd hardadır?

Dedi:

– Gedib yamaq yamamağa.

Dedi:

– Mən onnan sığa qardaşam, malım gedir dayana bilmərəm, nətər dolanırsınız?

Arvad dedi:

– Nətər dolanacağıq, gündə bir abbası qazanır, onu da verir soğan, çörəyə, gətirir yeyirik.

Dedi:

– Mən də tələsiyirəm, onnan görüşəsiydim, ta mal gedir dayana bilmirəm. Soğan-çörəyinən adam dolanar? Gələndə Məhəmmədə deyərsən ki, mana bir girvənkə yağ, bir girvənkə bal, onun yanına xurdu-xuruşuynan alıp gətirməsən, səndə otırmayacağam.

Məhəmməd bu dəfə iki abbası almışdı. Bir az artıx alıb çörəyi soğanı, götürdü gəldi evə. Həmişə Məhəmməd gələndə arvad bunun qabağına yüyürürdü. Bu dəfə Məhəmməd gördü heç qapıya da çıxmadı. Gətirdi soğanı-çörəyi arvadın qabağına qoydu. Arvad dedi ki, sabah axşam gələndə bir girvənkə yağ, bir girvənkə də bal, yanına xurdu gərəyinən alıp gətirməsən, səndə oturmıyaçıyam.

Məhəmməd dedi:

– Arvad ye, hələ Allah kərim Allahdı, bəlkə elə yetirəcək alacağam.

Arvad dedi:

– Xeyr, alıp getirməsən, səndə oturmayacağam.

Məhəmməd səhər getdi yamaqdan-zaddan yamadı, axşam evə gələndə, iynəsin, bizin, sapın, bütün ayın-oynun apardı yanında, bir baqqal dükanı vardı, tökdü ora, dedi:

– Bunları qiymət elə götür, mana bir girvənkə yağ, bir girvənkə də bal, yanının xurdu-xuruşuynan çək ver.

Dedi:

– Məhəmməd, bunları neynirsən?

Məhəmməd dedi:

– Arvad maa təkidinən deyip, gərək gələndə bir girvənkə yağ, bir girvənkə də bal, yanının xurdu-xuruşuynan alıp gətirəsən.

Bu dedi:

– Məhəmməd, apar ayın-oynını, yazıqsan işdə, hazırlaram verrəm, havax əlinə pul gəlsə, verərsən.

Hazırladı hamısın verdi, dedi:

– Məhəmməd, onu öyrədiblər. Heç o yeməyi bilmir ki, nə təhər yeyərlər. Gətir yağınan balı qatax bir yerə.

Məhəmməd dedi:

– Nə deyirəm.

Bu yağı, balı qatdı bir yerə, verdi Məhəmmədə. Məhəmməd götürdü gəldi evə. Arvad baxdı gördü yağınan balı qatıblar bir yerə. Dedi:

– Köpəkoğlu, sana deməmişdim ayrı gətir, qatmısan bir yerə.

Götürdü xonçanı tulladı qapıdan çölə.

Məhəmməd dedi:

– Ay arvad, ta niyə atırdın, qoyeydın barı yeyərdim dayna.

Arvad dedi:

– Xeyr, olmaz.

Gecəni yata bilmədi səhərəcən fikirdən-xəyaldan. Səhər açıldı. Məhəmməd genə ayın-oynun gətirdi verdi baqqala ki, bunları qiymət elə götür. Genə, maa dünənki şeyləri çək ver. Bir çörək pulu da qalsa, mana ver, qalmasa da heç.

Baqqal dedi:

– Məhəmməd genə nolub?

Dedi:

– Heç nə! Dünənkiləri arvad götürmədi, atdı. Dedi ki, sana deməmişdim ayrı gətir bunları, qatışdırmısan. Onları çək ver, aparım verim. Başımı götürüb gedirəm.

Baqqal nə qədər buna öyüd-nəsihət elədi, dedi ki, xeyr, gedəcəyəm.

Məhəmmədin haqq-hesabın çəkdi, dedi:

– Bala, altı şaha sana pul qalır.

Məhəmməd dedi:

– Ona da çörək ver, bağlıyım dəsdərxanıma, götürüm çıxım gedim.

Bu Məhəmmədin şeylərin çəkdi verdi. Məhəmməd ağzın çevirdi bərri-biyabana, getdi çıxdı bir yerə, burda namazın-zadın qılıp çəkildi bir çəməngaha yatdı.

Sana kimnən xəbər verim, bir Səməd sövdəgər vardı, qırx sövdərin böyükü idi. Bunlar da alverə gedirdilər. Gəldilər bu Məhəmməd yatan çeşmənin yanında çadırgahların qurub oturdular. Səməd sövdəgər çox dindar, ağıllı adamdı. Çətirin aldı əlinə, gəldi çəmənniyə, gəzirdi gördü bir şəxs yatıp. Amma çox dərddi adamdı. Oturdu bunun

başının üstə. Çətri tutdu bunun üstünə ki, gün düşməsin. Axşamın mehi qalxanda Məhəmməd ayıldı, gördü bir şəxsdı başının üstə oturup, çətir tutup bunun üstünə. Məhəmmədin ayıldığın Səməd sövdəgər görən kimi dedi:

– Adın nədi?

Dedi:

– Adım Məhəmməddi.

Səməd sövdəgər bunun boynın qucaqladı ki, ay qardaş, mən səni elə axtarırdım, başına dönüm, qurbanın olum.

O biri sövdərlər gördülər ki, Səməd sövdəgər bir şəxsin boynuna qolun salıb gətirir. Bunlar məhəttəl qaldılar ki, görən bu kimdi? Sövdərlər yığışdı bunun başına ki, Səməd sövdəgər bu kimdir?

Dedi:

– Bu mənim qardaşımdı, elə mən diyarbadiyar bunu gəzirdim. İndi gəldim bırda tapdım.

O saat Səməd sövdəgər pul çıxartdı verdi birinə ki, atı minib tez gedərsən filan yerdən bir dəst sövdəryana libas alıb gətirərsən. Atdı gedib paltarı aldı gətirdi. Bunu geyindirdilər, bəzəndirdilər. Səməd sövdəgər bir kağız yazdı arvadına yolladı ki, yolu piyandaz döşərsən ki, qardaşım sövdəgər Məhəmmədi tapmışam, gətirirəm. Arvad da öz-özünə dedi ki, məlum bunun qardaşı varmış, heç maa demirmiş. Sövdərlər yığışdılar düşdülər yola. Gəldilər evlərinə. Şəhərdə eşidən Məhəmməd sövdərin görüşünə gəldilər. Oturdular. Səməd sövdəgər dedi:

– Qardaş, ala sana qırx kisə qızıl verəciyəm. Sövdərlər gələcək bırda oturağağıq, qapıdan qırx adam girəcək. Biz hərəmiz onların hərəsinə bir qızıl verəcəyik, sən də hər kisədən bir qızıl çıxart, hərəsinə birin ver.

Dedi:

– Yaxşı.

Bunlar oturmuşdular, sövdərlər qapıdan girdilər. Bunlar yığışıb malın haqq-hesabı çəkdilər. Qurtarannan sora qapı açıldı, qırx fıqarə girdi içəri. Bunların hərəsi fiqarələrə bir qızıl verdi, növbə gəldi Məhəmmədə. Məhəmməd çıxartdı hər fiqarəyə kisənin birin verdi. Səməd sövdəgər öz ürəyində dedi ki, ya bu səxavət sahibidi, ya nədi verdi, verdi neynək, ta keçib, görək axırı nə tövr olur.

Bu səs getdi çatdı paççaha ki, Səməd sövdərin qardaşı Məhəmməd sövdəgər hər fiqarəyə bir kisə qızıl verdi. Paççah bunların qırxın da, Məhəmməd sövdəri də qonaq təklif elədi. Genə getdi Səməd sövdəgər Məhəmmədə qırx kisə qızıl verdi, dedi qardaş məni sındırma, al bunları, genə orda çörəkdən sora qırx fiqarə girəcək, onda hərəsinə bir kisə verərsən.

Dedi:

– Yaxşı.

Bunlar gecə getdilər paççahın əvinə, çörəyi yedilər, içdilər, qırx fiqarə girdi içəri. Bunlar hərəsi hər fıqarəyə bir qızıl verdi. Növbə gəldi Məhəmmədə. Məhəmməd bunların hərəsinə genə bir kisə qızıl verdi.

Padşah öz ürəyində fikirləşdi ki, bunun pulu dərya da olsa, dayanmaz qutarar, bu bəs nə təhər işdi? Dedi ki, ta bunnan artıx yığıncaq olmaz. Gətirdi pərdeyi-ismətdə bir qızı vardı, bunun şərbətin içirdilər Məhəmməd sövdərə. Dedi:

– Səməd sövdəgər, aşıxdan-zaddan tap gətir, qardaşının ehtiyatın gör, qızı köçürək Məhəmməd sövdərə.

Xanəndədən, tarçıdan gətirdilər. Neçə gün, neçə gecə toy elədilər, qızı köçürdülər.

Bir müddətdən sora Məhəmməd sövdəgər paççaha dedi:

– Mənim malım gələcək Şəkidən, Gəncədən, nə bilim hər şəhərdən, atlı göndər.

Qabağına atlı göndərdi hər yerə. Bir aya kimi səs-soraq olmadı. Axır bir gün qıznan çörək yeyirdilər. Qız Məhəmmədin biləyinnən tutup dedi:

– Ay lotu, mənim dədəmgili indi də alladırsan ha...

Məhəmməd dedi:

– Qız biləyimi burax.

Əl atdı xançalı götürüb dedi:

– Xanım, Allahdan gizlin deyil, bəndədən nə gizlin. Ya bu, ya da mən. Vallah elə lütəm ki, mənim heç bir şeyim yoxdu, başımı qırxdırım.

Qız dedi:

– Xörəyini de, Allah kərimdi.

Xörəyi yedilər, içdilər. Gecə yatdılar. Səhər qız Məhəmmədə bir necə ləl verdi dedi:

– Get dədəmə de ki, atlılara məlum elə gəlsinlər, mən özüm gedəcəyəm malımın dalınca. Gedip mal alarsan, götürərsən.

Məhəmməd razı oldu, gəldi paçcahın yanına, paçcaha baş əydi dedi:

– Qibleyi-aləm, gedim özüm görüm malım necə oldu? Sən atlılara xəbər elə, qayıdıp gəlsinnər, özgə özgənin itini bayatıynan çağırır.

Bu özü yola düşdü. Paçcah da xəbər elədi. Atdılar gəlməyin binəsin qoydular. Bu Məhəmməd o günü axşamacan at sürdü, gəldi gördü bir cütçü cüt əkir. Dedi:

– Allah qüvvət versin.

Dedi:

– Xoş gəldin.

Dedi:

– Ay cütçü acdığım var.

Dedi:

– Dur burda, evimiz yavıxdı gedim gətirim.

Bu atdan düzdü. Atı qolbənd elədi, ötürdü otdamağa. Cütçü də tapşırdı ki, öküzlərə əl vurma. Öküzlər bəd havadı.

Dedi:

– Yaxşı.

Cütçü getdi. Gözdən itdi. Məhəmməd durdu dedi:

– Pinəçi Məhəmmədəm dayna, indi artırmamışam ha.

Durdu xışın dəsdəsin aldı əlinə başladı sürməyə. Öküz birəz bərk gedəndə, ayağın qoydu bərk kötüyün üstə. Gördü xışın kötüyü bir zəncirə ilişdi. Zənciri eşə-eşə getdi gördü bir daşa bağlıdı. Daşı qalxızdı, gördü bir qapı var. Qapını açdı, gördü burda bir xəznə var, nətər. Qapını örtdü, gəldi öküzləri də götürdü qoydu öz yerinə, oturdu. Cütçü çörəyi gətirdi. Çörəyi yedi, sora gəldi qapını açdı, girdi içəri. Gördü burda bir bəsdi var, bəsdinin içində də pambığa bükülü bir üzük. Üzüyü götürdü, barmağına saldı, o saat bir qoca hazır oldu. Dedi:

– Ay Məhəmməd, yavaş sıx, bizim canımız ondadı.

Məhəmməd dedi:

– Qoca, sənin canın burdadı?

Dedi:

– Hə...

Dedi:

– Qoca, bu saat bir çadır hazır elə.

Qoca hazır elədi.

Dedi:

– Qoca bir iyirmi dənə at, dəvə, qatır hazır elə.

O saat hazır oldu. Xəznəni daşıtdı çölə, yükləri tutdu. Yarısın saldı Batum yolunnan, yarısın Şəki yolunnan, yarısın Gəncə yolunnan. Neçə yerdən demişdi, ordan saldı yola. Bir kağız da yazdı yolladı ki, ay paççah, mənim malım getdi onları saxla. Qoca yenə çadırı-zadı yığış-dırdı. Məhəmməd cütçünü çağırıb bir neçə ləldən, cəvahiratdan cütçüyə verdi. Atı mindi yükün dalınca, yola düşdü.

Paççaha xəbər gəldi ki, Məhəmməd kağızı göndərib. Oxudu, gördü yazıp filan yerdən, filan yerdən malım gəlir. Paççah gözdədi, gördü hardan demişdi bəli, ordan budu mallar gəlir. Yüklər şəhərə cəm oldu. Paççah gördü ki, ta Məhəmməd sövdərin malı dünyadan çıxdı. Məhəmməd də gəldi çıxdı, atdan düşdü, bunun atın tutdular. Gəldi öz evinə. Axşam xörəyə otdular. Qız dedi:

– Məhəmməd, bu bir belə mal o ləllərin malı deyil.

Məhəmməd o saat ləlləri çıxartdı verdi qıza. Qız baxdı gördü Məhəmmədin barmağında bir üzük var. Dedi:

– Məhəmməd, bu necə işdi?

Dedi:

– Elə bu mallar bu üzüyünən əmələ gəlib.

Qız dedi:

– Üzüyü bərk saxla.

Bir gün paççahın məclisində oturmuşdu. Vəzir baxdı gördü ki, Məhəmmədin barmağında bir üzük var. Bu vəzir çox oxumuşdu, çox bilikliydi. O saat bildi ki, əngəl üzükdədi. Dedi:

– Ay paççah, heç mən sənin girvəvi qonaq çağırmamışam. İstəyi-rəm çağıram. Paççah dedi:

– İxtiyarın var, çağıra bilərsən.

Dedi:

– Məhəmməd sövdəgər, sabah mənə qonaqsan.

Dedi:

– Baş üstə.

Sabah getdi vəzirin evinə. Vəzir xörək-zad gətirdi, oturdu vəzir-nən yeməyə. Xörəyi yedilər. Vəzir dedi:

– Çay gətirin.

Məhəmmədin fincanına bihuşdarı daxil elədi. Məhəmməd çaydan bir qurtum, iki qurtum aldı, bəyqıdı yıxıldı. Vəzir tez durub Məhəmmədin barmağınnan üzüyü çıxartdı, öz barmağına salanda qoca hazır oldu. Dedi:

– Ay vəzir, yavaş sıx, mənim canım ondadı.

Vəzir dedi:

– Qoca, sənin canın ondadı. Bu Məhəmmədi aparıp bir elə yerə atasan ki, tapılmaz.

Qoca Məhəmmədi götürdü, apardı bir elə yerə atdı ki, heç tapılmadı.

Vəzir fikir elədi. Dedi:

– Paççahı da belə öldürrəm. Həm qızın alaram, həm də yerində paççahlıx elərəm, həm də bir belə mala-dövlətə sahib olaram.

Getdi qızın yanına. Qapıdan içəri girəndə qız üzüyü vəzirin barmağında görüb dedi:

– Ay öldüm, ay çatdadım.

Vəzir dedi:

– Xanım, niyə heylə eləyirsən?

Qız dedi:

– Məhəmmədin barmağında bir üzük vardı. Həmişə mənim yanıma gələndə qabaqca o üzüyü verirdi, qoyurdum rəfə. Onnan oturub söhbət eləyirdik. Yoxsa, o saat başım ağrıyır, ürəyim gedir. İndi görürəm ki, o üzükdən biri də sənin barmağında var.

Vəzir o saat dedi:

– Neynək, çıxardaram üzüyü.

Çıxartdı verdi qıza. Qız başladı yalannan düyü-zad artdıyıb xörək qayırmağa. Hərrəndi o tərəfə-bu tərəfə üzüyü götürdü, barmağına saldı. O saat qoca hazır oldu:

– Ay xanım, yavaş sıx, mənim canım ordadı.

Qız dedi:

– Qoca, bu vəziri tez götür, qulağınnan mismarla göyə.

Qoca tez vəziri götürüb göyə mismarladı.

– Qoca, bu saat Məhəmmədi gətir.

Tez Məhəmmədi gətirdi. Gördü vəzir göydən asılıb, tez xəncəri sivirib vəziri bət-bət doğradı, tökdü yerə. Beş gün-on gün bunlar

dolandılar, bir gün paçcah mərhum oldu. Yığışdılar ağsaqqallar, qarasaqqallar paçcah kimi tikək, kimi tikmiyək, dedilər Məhəmməd sövdəri yerində paçcah tikək.

Məhəmməd sövdəri gətirdib cıqqanı qoydular başına, çıxartdılar taxta. Bu başladı burda paçcahlıq eləməyə.

Səməd sövdəgər də eşitdi ki, bəli, Məhəmməd indi paçcahdı, qayıtdı gəldi Məhəmmədin görüşünə.

Səməd sövdərin əlinnən tutdu dedi:

– Qardaş, bu dövlət, bu şöhrət hamısı sənindi, sən vermisən mana. İndi gəl sən paçcahlıx elə, mən də olum sənin vəzirin.

Dedi:

– Qardaş, xeyr, bunlar hamısı sana Allah-taalanın baxşeyşidi.

Məhəmməd dedi:

– İndi ki belədi, gəl ye, iç, bırda qal.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## DAD XƏMPƏRİNİN ƏLİNDƏN

Bir kişi vardı. Bunun da bir arvadı vardı, adına Xanpəri deyərdilər. Bu kişi yarımmolla bir adamdı. Buna da molla deyərdilər. Bir gün Xəmpərinin getmişdi hamama. İrəmdərin arvadı bunu döyüp qavmışdı, qoymamışdı yuyuna. Gəldi axşam dedi:

– Əşi, irəmdərriyi öygəndin öygəndin, örgənmədin, səndə oturmayacağam.

Kişi dedi:

– Ay arvad, Allaha bax, tarıya bax. Mən bunnan belə irəmdərrik örgənə billəmmi?

Arvad dedi:

– Xeyr, nə deyirəm, o olacax.

Kişi nə qədər yalvardı, olmadı. Arvad dedi:

– Qırxdı, biri əsgik deyil.

Kişinin əlacı kəsildi, durdu getdi bir irəmdərrik paltarı aldı, gətirdi. Geyindi, çıxdı bazara. Hər kəs soruşurdu, deyirdi ki, irəmdərəm. Bu dəmdə paçcahın xəznəsin yardılar. Bu xəznəni yaran da qırx lotuydu. Gəldilər bu kişini apardılar paçcahın yanına.

Paçcah dedi:

– Sən irəmdərsən?

Kişi dedi:

– Bəli!

Paçcah dedi:

– Bizim xəznəni yarıplar. İrəm at, görək kim yarıp?

Kişi gəldi dedi:

– Arvad, Allah sənin üzünü qara eləsin.

Çıxıb bazara qırx qarpız aldı, gətirdi yığdı yükün altına. Paççahdan qırx gün möhlət almışdı. Paççah demişdi ki, qırx günə tapdın-tapdın. Tapmadın, boynunu vırdıracağam.

Axşam olanda bu lotular da bilmişdi ki, buna paççah tapşırıp ki, xəznəni yaranı tapsın. Dedilər:

– Biriniz gedin çıxın bacadan, baxın görün nə deyir? Heç bir şey bilir, yoxsa yox.

Bu lotuların biri gəldi bacaya çıxdı. Yavaş-yavaş qulaq asırdı. Bu kişi qarpızın birin gətirdi başdadı kəsməyə. Elə pıcağı qarpıza vıranda dedi:

– Arvad, qırxların biri gəldi ha!

Bu lotu o saat düşdü getdi. Bunnan soruşdular ki, nə oldu?

Dedi:

– Vallah, elə mən bacaya çıxan kimi, dedi ki, qırxların biri gəldi ha, arvad.

Səhər açıldı, lotular dedi:

– Bu gecə ikiniz gedin.

Dedilər:

– Yaxşı.

Genə axşam qarannıxladı. Lotunun ikisi durdu, yola düşdü. Gəldilər bacaya çıxanda kişi durdu qarpızın birin də gətirdi, kəsdi. Dedi:

– Arvad, qırxların ikisi gəldi ha...

Bu lotular qayıtdılar getdilər. Bulardan soruşdular, noldu?

Dedilər:

– Vallah, elə bacaya çıxan kimi, dedi ki, arvad, qırxların ikisi gəldi ha...

Bular dedilər indi də üçünüz gedin.

Sabah axşam buların üçü getdilər, çıxdılar bacaya. Kişi durdu qarpızın birin də gətirdi. Dedi:

– Arvad, qırxların üçü gəldi ha...

Bu lotular qayıdıp gəldilər. Lotubaşına dedilər:

– Sən öləsən, elə biz gedip bacıya çıxan kimi dedi ki, arvad, qırxların üçü gəldi ha...

Lotubaşı dedi:

– Dördünüz gedin.

Bu axşam lotuların gördü gəldi. O saat kişi gətirdi bir qarpızı da kəsdi, dedi:

– Arvad, qırxların dördü gəldi ha...

Lotular yavaş-yavaş gəldilər, lotubaşıya dedilər:

– Siz öləsiniz, elə biz çıxan kimi bacaya dedi ki, qırxların dördü gəldi.

İndi də beşin göndərdi. Bular gəldilər. Kişi durdu bir qarpız da kəsdi, dedi:

– Arvad, budu, beşi gəldi.

Bular sivişip qaçdılar, gəldilər, dedilər ki, elə biz gedip çatan kimi dedi: budu beşi gəldi qırxların.

Belə-belə otuz doqquzu gəldi hər gecə bu lotuların biri gəlirdi, bu da bir qarpız kəsirdi, deyirdi:

– Arvad budu qırxların filanı gəldi.

Bu lotular gəldilər bunu lotubaşıya xəbər verdilər. Dedi:

– Yaxşı, bu gecə hamımız gedərik, görək bilir, yoxsa bilmir.

Qırxıncı günüydü. Axşam lotuların qırxı da cəmləşib getdilər. Elə bacaya çıxmışdılar ki, o saat kişi durdu qarpızın qırxıcısını gətirdi dedi:

– Arvad, ha qırxı da cəm oldu.

Lotubaşı dedi:

– Gəlin hamımız birdən dolaq içəri, bunun əl-ayağına döşənək. Deyək ki, amanın bir günüdü, bizim adımızı paçcaha vermə ki, paçcah bizim boynumuzu vırdırar.

Bular doluşdular içəri, düşdülər bunın əl-əyağına ki, paçcaha bizim adımızı vermə. Odı xəznədə filan yerdə heç bir qəpiyin də xərcdəməmişik. Paçcaha deyərsən, gedip çıxardar.

Kişi dedi:

– Mən elə o günü bilirdim sizdədi. Özüm demədim, yazığım gəldi sizə.

Səhər paçcah, qırx tamamında, bu kişini çağırtdı. Kişi dedi:

– Paçcah sağ olsun, odu xəznə filan yerdə, filan əvin uçuğunda. Gedin çıxardın, gətirin.

Paçcah adam göndərdi, xəzinəni gətirdilər. Hesab elədilər, gördülər düzdü. Dedilər:

– Ədə, belə bilici irəmdər olmaz!

Paçcahın qızının bir qiymətdi üzüyü vardı, qaşı dedikcən qiymətdi qaşıdı. Laxlayırdı, gətirdilər bunu verdilər zərgara ki, bərkidip versin. Elə bu üzüyü çəkicinən vırdı ki, qaşı çıxartsın. Qaş sıçradı düşdü yerə. Əlin olsun, üzün olsun, daş tapılmadı. Nə qədər əvi axtardılar tapmadılar. Zərgər durdu gəldi bu kişinin yanına ki:

– Saa bir bu qədər pul verrəm, o qaşa bax, görək, hardadı?

Kişi dedi:

– Gedərsən bir qazan şorba bişirtdirərsən. Arxan qatda yatarsan qaşığınan götürüp, arxası qatda tökərsən ağzına yeyərsən.

Zərgər gəldi, dedi:

– Arvad, bir qazan süddü aş bişir, çək bir qaba soyusun.

Arvad bişirdi, soyutdu, gətirdi. Mitəkgəni qoydu başının altına. Arxası qatda uzandı; süddü aşı qaşığınan aparıp töydü boğazına. Gözü elə dirəklərdeydi. Bir də gördü daş budu dirəkdədi, yapışıb dirəyə qalıp orda. Tez durdu dirəkdən daşı aldı. Sevinə-sevinə dedi:

– Ta belə irəmdar olmaz!

Paççaha xəbər getdi. Paççah bu kişini aparıp buna xələt, baxşeş verdi. Bunu yanında saxladı. Bir gün genə paççahın xəzinə qatırınnan bir necəsi qırıldı. Yayındılar. Ta tapılmadılar. Gəldilər bu kişinin yanına dedilər:

– Bir bax, görək, bu qatırlar haradadı?

Kişi nə bilirdi ki, nə deyə, yalannan dedi:

– Bu dağın dalınnan belə gedin tapacaqsınız.

Getdilər dağın dalına hərrəndilər, gördülər dağın dalında qatırlar otduyur. Götürdülər gəldilər. Paççah dedi:

– Belə də bilikli irəmdər olarmı?

Əmr elədi ki:

– Sabah tezdən atdar hazır elərsiniz. Vəzir də, vəkil də, irəmdər də, mən də çıxacayıx seyr eləməyə.

Gecə yedilər, içdilər söhbət elədilər. Vaxt oldu yatsınnar. Bunnar yatdılar. Səhər açıldı durdular. Nökərlər atdarı yəhərrədilər, tumarradılar. Tamam hazır elədilər. Bular dördü də atdandılar, düşdülər yola. Yavaş-yavaş gəldilər. Gördülər bir torçu dəryada tor atır. Paççah dedi:

– İrəmdər irəm at görək, tora nə düşür?

İrəmdər dedi:

– Bir cüt sağsağan balası düşür.

Paççah dedi:

– Ədə, dəryada da sağsağan balası olarmı? Dəli olmamısan ha!

İrəmdər dedi:

– Paççah sağ olsun, irəm indi heylə gösdərir.

Axı bu heç bir şey bilmirdi, yalannan deyirdi, elə ağına gəldi, dedi. Paççah gəldi torçuya əmr elədi ki:

– Toru çək, çölə.

Torçu toru çəkdi. Baxdılar, gördülər, doğrudan da tora bir cüt sağsağan düşüp. Paççah dedi:

– Ta heç belə irəmdar olmaz.

Getdilər buna xələtdən, baratdan verdilər. Bır az seyr elədilər, qayıtdılar əvə. Bu da gəldi öz əvinə. Gəldi elə atdan düşürdü. qara çuxa gəldi bunun qabağına. Dedi:

– Ədə köpəyoğlu, mənim qarnımın dərisi ağaşdarda qaldı. Sağsağan balası axdarmaxdan. Ta bir tısbağadan, qurbağadan tapmırdın deyəsən. Bir də belə qələtləri eləmə.

Kişi axşam dedi:

– Mən ta bu Xəmpərini öldürməsəm olmaz. Gərək öldürəm.

Axşam dedi:

– Xanpəri, filan yerdə bir quyu var. Doludu xəzneynən, gərək gedək, onu təmiz daşıyax gətirək.

Arvad dedi:

– Nolar, gedərik.

Durdular bir kəndir də götürdülər, düşdülər ikisi də yola. Bu kişi bir xarabalıq yerdə quyu görmüşdü. Getdilər bu quyunun başına dedi:

– Gətir, bu kəndiri bağlıyım sənin belinə sallıyım. Yığ. Mən də çölə çəkim.

Kişi Xəmpərinin belinə kəndir bağladı, salladı. Quyunun dibinə yaxınnaşanda kəndiri qırdı. Xanpəri guppultu ilə düşdü quyunun dibinə. Bu da gəldi əvə. Bir, iki, üç, dörd gün qaldı.

Bir gün də dedi, gedim, görüm, Xanpəri nətər oldu? Gəldi quyunun başına başın sallayıb quyuya dedi:

– Xanpəri, Xanpəri!

Quyudan səs gəldi:

– Can, başına dönüm! Çək məni!

Sicimi salladı çəkdi. Baxdı gördü bu bir yekə ilandı. İlan dedi:

– Ay başına dolanım, buraxma məni, aman-dad Xəmpərinin əlinnən.

Bu ilanı tulladı. İlan dil oldu dedi:

– Mən gedib Çin paççahının qızının boğazına dolaşaçıyam. Nə qədər eləsələr asılmayacağam. Amma sən gələndə açılacağam.

İlan bir dua da örgətdi, dedi:

– Ha vaxtı sən gəldin, onda bu duanı oxu, üfür, onda mən asılaçıyam. Çin paççahı deyəcək ki, "hər kim bu ilanı bu qızın boğazınnan irəd eləsə, onda qızı verəcəyəm ona". Sən də məni açanda qızı verəcəy saa.

Bu ilan çıxdı getdi, həmən qızın boğazına dolaşdı. Hər yerə paççah adam saldı, həkim, baş bilən adamlar harda var gətirdilər. Bunu açan olmadı. Dedilər:

– Filan yerdə paçcahın bir münəccimi var. Gedin onu gətirin, bəlkə o buna əlac eliyə.

Gəldilər bu kişini apardılar. Paçcah da bir gözəl ata mindirdi bunu yola saldı. Bunu gətirdilər paçcahın hizuruna. Paçcah dedi:

– Hər kəs o ilanı onun boğazınnan açdı, qızı ona verəciyəm.

Gəldi gördü ilan qızın boğazına sarılıp. Qız da qorxusunnan zar-zarı saralıp, heyva kimidi. İlana baxdı. Dedi:

– Mən bını bu saat açım.

Başdadı ilan örgədən duanı oxuyub üfürməyə. İlan o saat açılıp düşdü yerə.

Dedi:

– Gedirəm filan yerdə bir sövdəgər var. Onun qızının boğazına sarılaçağam. Bax gəlmə, gəlsən səni çalasıyam.

Bırdən getdi həmən sövdərin qızının boğazına dolaşdı. Şəhər əhli yığışdı nə ilanın qorxusunnan ilana səmt gedə bildilər, nə də ilanı aşa bildilər. Hər tərəfə səs saldılar, əlac eliyə bilmədilər. Bir adam gəldi bir gün dedi:

– Bu ilan Çin şəhərinin paçcahının qızının da boynuna dolaşmışdı, bir irəmdər gəldi açdı.

Sövdəgər at da, pul da göndərdi ki, o irəmdəri gətirin. Paçcaha dedilər ki, sənin qızıyın boğazına dolanan ilanı kim açıp onu verin aparax. Filan sövdərin qızının da boğazına ilan dolaşıp. Paçcah bu irəmdərə nə qədər elədi, irəmdər ded ki, xeyr, mən getmirəm. Bir təhərinən paçcah bunu yola saldı. Gəldi çatıb Yəmən vilayətinə, bu sövdəgər də Yəmən şəhərində olurdu. Gördü ilan qızın boğazına dolaşıb. İlan bunu görəndə dedi:

– Əşi, genə gəldin? Mən saa deməmişdim ki, gəlmə!

Kişi dedi:

– Öz xoşuma gəlməmişəm ha... Xanpəri göndərip.

İlan dedi:

– Ay aman, dad Xəmpərinin əlinnən. Qoyma. Mən düşüm, qacım.

İlan düşdü qaçdı. Sövdəgər qızın ağırı bu irəmdərə qızıl, gümüş, xələt, hər bir şey verdi. İrəmdər şeyləri də götürdü gəldi. Çin paçcahının qızının yanına. Orda yedilər, içdilər, kef çəkdilər. O yedi yerə keçdi. Siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl deyənin.

## DƏRZİNİN ŞAGİRDİ

Biri var imiş, biri yox imiş, bir dərzi var imiş bunun da bir şagirdi varmış. Bu dərzi padşaha paltar tikirmiş ki, sabaha kimi hazır etsin. Odur ki, gecə şagirdi ilə işləməgə məşğul imiş. Dərzinin şagirdini gecənin bir vaxtı yuxu tutur; dərzi bunu gördükdə tez onu oyadır ki, qalx sabaha kimi paltar hazır olmasa padşah atamıza od vurar. Şagird uyqudan oyanıb ustadına deyir ki, qəribə yuxu görürdüm heyif oyatdın. Dərzi nə qədər bundan gördügü yuxunu söyləməyi xahiş edirsə oğlan cavab verir:

– Yuxum zahir olmasa söyləmərəm.

Qəzadan o gecə padşah şəhəri dolanırmış. Dolana-dolana dərzinin dükanının qabağına yetişəndə dükandan işıq gəldiyini görüb, darvazanın arasından baxanda görür ki, dərzi şagirdi ilə işə məşğuldur. Bir az qulaq asıb bunlar danışdığı sözlərin hamısını eşidir. Qərəz gecə paltarı tikib hazır edirlər və ertəsi gün şagirdin əlinə verib padşahın hüzuruna göndərir. Padşah şagirddən nə qədər soruşursa şagird ərz edir ki, yuxum zahir olmasa, söyləmərəm. Axırda padşahın açığı tutub bunu zindana salır. Padşah gündə bir dəfə şagirdi hizuruna istəyib gördüyü yuxunu buna söyləməyi əmr edirsə, şagird cavab verir ki, and olsun sənin tacına yuxum zahir olmamış söyləmərəm. Gənə padşahın acığı tutub onu zindana saldırdı.

Bir neçə müddətdən sora şagirdi zindanın dalını dəlir, zindanın dal səmti padşahın qızının həyətinə imiş. Oğlan gəldiyi yerdən çıxıb gedib padşahın qızının otağına girir. Baxıb görür ki, qız təxtin üstə yatmış,

bir kəniz qızın ayağı üstündə, biri də başı üstündə oturmuşlar və bunlar da yatmışlar. Otağa göz gəzdirir ki, bir məstə də bir qab ləzzətli plov qoymuşlar. Oğlan əyləşir, doyunca plovdan yeyib genə də gəldiyi yol ilə zindana qayıdır. Padşahın qızı yuxudan qalxıb plovu yeyilmiş görəndə elə güman edir ki, onu kənizlər yemiş. Odur ki, onlara acıqlanır. Kənizlər isə and içib xəbərləri olmadığını qıza söyləyib onu inandırırlar. İki üç gecə bu hal davam edir. Axırda padşah işi həqiqət etmək üçün gecələr keşik çəkməyi qərara alır.

Gecənin bir vaxtı görür ki, qarı asıldı. İgid bir oğlan içəri girdi. Plovun cəmisini götürüb qabağına qoyub təmiz yedi və əlini yuyub təmiz silib ayağa qalxmaq istəyəndə, tez qız qalxıb biləyindən yapışıb kim olduğunu və buraya nə üçün gəldiyini bundan sorur. Oğlan əlacsız başına gələn qəzanı qıza nağıl edir. Qızın ona rəhmi gəlib buraxır. Bir gün qonşu vilayətin padşahı bir adam döndərib, bu şəhərin meydanında bir dairə çəkdirib bunun nəyə işarə olduğunu padşahdan sorur və özinə də deyir ki, cavab verə bilməsə, onda davaya hazırlansın. Padşah gəlib əhvalatını qızına söyləyib ondan tədbir istəyir. Qız isə cavab verir ki, bu işi zindandakılar yaxşı bilərlər çünki bekar olduqlarından həmişə fikir edirlər. Padşah gedəndən sora qız adam göndərib dərzi şagirdini çağırıb ona əhvalatı söyləyib deyir ki:

– Yarın atam səni hizuruna istəyəcəkdir və səndən dairənin nəyə işarə olduğunu soracaqdır. Onda ona söylə ki, qızını mana ver, söyləyim. Atam razı olacaqdır. Onda söylərsən ki, dairə ona işarədir ki, dünyanın cümləsi mənimdir. Ondan sora gedib dairəni iki bölərsən yəni yarısı sənin yarısı mənimdir. Sən də padşahsan, mən də. Onda onlar götürüb bir soğan qoyacaqlar, yəni aramıza acılıq düşər, onda sən də bir qılınc qoyarsan yəni dava edərsən. Onda o götürüb bir ovuc darı tökərsə, yəni mənim darı sayında qoşunum var. Onda sən də bir xoruz qoyarsan yəni bizim qoşunumuz sizin qoşununuzu xoruz kimi dənlər.

Qız bunları deyib oğlanı mürəxxəs edir.

Ertəsi gün padşah oğlanı hizuruna istəyib yuxunu söyləməyi tələb edir. Oğlan isə inadında davam edir. Sora padşah dairənin nəyə işarə olduğunu sorur. Oğlan cavab verir ki, qızını mana ver, söyləyim. Padşah söz verir. Odur ki, oğlan dairənin nəyə işarə olduğunu söyləyib, gedib dairəni iki bölür. Onlar götürüb bir soğan qoyurlar; bu da bir qılınc qoyur. Onlar bir ovuc darı tökürlər. Bu da bir xoruz qoyur. Qərəz, söz ilə onları məğlub edir.

Bir müddətdən sora həmən padşah bu padşaha üç erkək at göndərir ki, tapın görək bu atların hansı böyükdür və hansı daha kiçiydir. Padşah genə də qızının yanına gəlib ondan tədbir istəyir. Qız genə də əvvəlki cavabı verir. Padşah gedəndən sora qız oğlanı yanına çağırıb əhvalatı ona söyləyir ki, padşaha söylərsən ki, qızını mana ver, deyim. Razı olarsa, onda atı bu tövləyə salıb, yanlarına bir madyan buraxarsan və sora madyanın cilovundan tutub tövlədən çıxararsan, onda erkək atlar da onun dalıncan gələcəklər. Tövlədən qabaqcan çıxan böyük atdır; sora çıxan ortancıldır; axırda çıxan ən kiçik atdır.

Ertəsi gün padşah oğlanı istəyib əvvəlcə yuxusun söyləməyi tələb edir. Gənə də oğlan inadına davam edir. Sora padşah atların yaşlarını təyin etməyi ondan tələb edir. Oğlan isə, qızını mana ver, söyləyim, – diyəndə padşah razı olur. Oğlan qızın söylədiyi kimi edib, qonşu padşahın elçisinə qalib gəlir.

Bir müddət padşaha bir düz ağac göndərib bunun uc tərəfiylə dib tərəfini təyin etməyi tələb edir.

Padşah genə də qızın yanına gəlib ondan təbdir istəyir. Qız genə də əvvəlki cavabı verir. Padşah gedəndən sora qız oğlanı çağırtdırıb əhvalatı söyləyib, oğlana deyir ki, bu dəfə atamdan tələb elə ki, kəbini kəsdirsin. Elə ki kəbin kəsildi ağacı suya atarsan. Əvvəlcə uc tərəf sudan çıxacaq sora da dib tərəfi.

Bunu deyib oğlanı yola salır.

Ertəsi gün padşah oğlanı genə də hizurinə istəyir və oğlandan yuxusunu söyləməyi tələb edir. Oğlan genə də əvvəlki cavabı verir. Sora padşah ağacı uc tərəfi ilə dib tərəfini təyin etməyi xahiş edir. Cavab verir:

– Qabaqca qızın kəbinini kəsdir, sora təyin edim.

Padşah əlacsız qızın kəbinini kəsdirib oğlana verir. Sora oğlan qızın dediyi kimi ağacı suya atmaq ilə uc tərəfi ilə dib tərəfini təyin edib genə də elçiyə qalib gəlir.

Bir neçə aydan sora qonşu padşah şaha kağız yazıb təvəqqe edir ki, kürəkənini ona qonaq göndərsin. Oğlan əhvalatı qıza söyləyir. Qız götürüb həmən padşahın qızına bir kağız yazır ki, qoyma, atandan bu oğlana bir zərər yetişsin.

Oğlan kağızı alıb gedir, kağızı qabaqca padşahın qızına verir. Bu padşah bir bəhanə ilə oğlanı öldürmək istəyirmiş, odur ki, təklif edir ki, qırx günə kimi bu qayadan mana bir don tikəsən, yoxsa boynunu vırdıracağam.

Oğlan gəlib əhvalatı padşahın qızına söyləyir. Qız cavab verir ki, qorxma, vədə günündə səndən sorsa ki, niyə tikməmişsən? Cavab ver ki, sap vermədin onda padşah nökərlərə acıqlanacaq ki, niyə buna sap vermədiniz? Sən söylə ki, o sap ilə tikmək olmaz, gərək qumdan sap eşilsin. Onda deyəcək qumdan sap eşilərmi, cavab ver ki, bəs qayadan don tikilərmi? Padşahın sözü kəsilər.

Oğlan qız dediyi kimi edib padşahı sakit edir.

Padşahın oğlan xoşuna gəlib o da qızını buna verir. Oğlan qızı götürüb öz vilayətinə gəlir. Bir ildən sora bunun hər arvaddan bir oğlu olur. Bir gün oğlan oğlanın birini bir dizinin, o birini bir dizinə alıb, arvadının da biri sağda, biri solda oturmuş. Bu halda padşah qapıdan daxil oldu, oğlan istiyir ki, ayağa dursun padşah başınan qoymur.

– Gecə yuxuda dördim ki, bir ulduz sağ dizimdə, biri sol dizimdə, biri sağımda, biri solumda oturtmuşam. Bu halda gördüm göydən ay gəlib başımnan basdı, – deyib yuxusun söylədi.

Bundan sora şad və rahat yaşayıb, yeyib içib kefdə-damaqda olurlar.

## ÜÇ ŞAHZADƏ

Biri var idi, biri yox idi, bir padşah var idi. bu padşah çox pul xərcləyib oğlanlarını oxutmuşdu. Oğlanlar öz zamanlarının dərslərini rəvan eləyib elm dəryası olmuşdular. Günlərin bir günündə xəbər çıxdı ki, oğlanlar dərslərini qurtarıb gəlirlər. Di şəhər bəzəndi, dəsgah... Oğlanlar gəldilər. Bir neçə gün keçəndən sora, padşah bir gecə böyük oğlunu yanına çağırıb, dedi:

– Oğul, daha oxuyub dərsinizi qurtardınız, elə mən də qocalmışam. İstəyirəm sabahdan padşahlığı verəm sənə, ortancıl qardaşını sənə vəzir, kiçik qardaşını da vəkil təyin eləyirəm.

Oğlan doğrudan da çox ağıllı oğlan idi, dedi ki:

– Dədə, mən təzə gəlmişəm. Bütün ömrümü qürbətdə keçirmişəm. Ona görə də camaatı, vilayəti necə dolandırmaq lazımdı, hələ bacarmaram.

Padşah oğlundan heç belə cavab gözləmirdi. Elə ki, bunu eşitdi, dedi:

– Get, ancaq qardaşlarına bu barədə heç bir söz demə!

Belə deyib oğlunu mürəxxəs elədi. Sabahı gecə ortancıl oğlunu çağırıb dedi ki:

– Oğul, istəyirəm padşahlığı verəm sənə, böyük qardaşını vəzir, kiçiyi də vəkil təyin eləyəm.

Oğlan dedi:

– Yox, bunu mən qəbul eləmərəm. Məndən böyük qardaşım var, padşahlıq ona verilməlidi. O, dura-dura mən padşah olmaram.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bir söz deməsin.

Üçüncü gecə kiçik oğlunu çağırıb ona da həmən sözləri dedi, o da cavab verdi ki:

– Böyük qardaşım dura-dura mən padşahlığı qəbul eləmərəm.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bu barədə heç bir söz deməsin. Qardaşlar üçü də bu işdən pəjmürdə olmuşdular. Axırda özlərini saxlaya bilməyib məsələni açdılar. Baxdılar ki, padşah üçünə də həmən sözləri deyib. Fikirləşdilər ki, indi ki biz onun sözünü rədd eləmişik, bizə bundan sora pis nəzərnən baxacaq. Yaxşısı budu ki, biz də hələlik hirsi soyuyanacan çıxaq səyahətə.

Di padşaha adam göndərdilər, padşah razılıq verdi. Tədarük görüldü, lazım olan şeylər hazırlandı, oğlanlar üçü də dədələrinin görüşünə gəldilər. Padşah böyük oğlunun alnından öpüb dedi:

– Get, oğul, ancaq yadında qalsın, qabağına çıxan qisməti təpikləmə...

Ortancıl oğlunun alnından öpüb dedi:

– Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!

Kiçik oğlunun alnından öpüb dedi:

– Həmişə dara düşəndə qocaların məsləhətinə qulaq as!

Oğlanların üçü də görüşüb, atları minib yola düşdülər. Gəlib yetişdilər bir özgə padşahın vilayətinə. Bir neçə vaxt qaldılar burda, bunların kamalları şəhərdə hamını heyran elədi. Bu şöhrət axırda gedib bu məmləkətin padşahına çatdı. Padşah bunların üçünü də qonaq çağırdı. Di bir az söhbət eləyəndən sora yemək gəldi. Padşah ayağa qalxıb dedi:

– Mən ac deyiləm, siz özünüz necə ki kefinizdi yeyin, məni bağışlayın!

Padşah bunu deyib o biri otağa keçdi. Onun məqsədi ayrı idi. O istəyirdi ki, onları tək qoyub, özü onlara tamaşa edib görsün, doğrudan necə adamlardı. Odu ki, qapının dalında əyləşib onları seyr eləməyə başladı. Böyük oğlan ortadakı qızarmış quzudan bir az kəsib elə ağzına qoycaq tüpürdü yerə. O biriləri soruşdular ki:

– Nə olub!

Böyük qardaş üzünü turşudub dedi:

– Bu quzu əti deyil, it ətidi.

Padşah bunu eşidib hirsləndi ki, onlar necə cəsarət eləyib onun ətini it ətinə oxşadırlar. Elə istəyirdi ki, girib onları tutdursun, bu halda

ortancıl qardaş əlini uzatdı şəraba. Şərabdan bir stəkan töküb ağzına yaxınlaşdırcaq, tüpürdü yerə.

Soruşdular:

– Nə oldu?

Dedi:

– Bu şərab deyil, insan qanıdı.

Kiçik oğlan dedi:

– Yaxşı, aşbazdan əmələ gəlmiş bicdən daha bundan artıq nə gözləmək olar ki?

Padşah bunu eşidəndə lap dəli oldu. Az qaldı ki, hirsindən bağrı çatlasın. Bir istədi ki, üçünün də boynunu vurdura. Ancaq bir az fikir eləyib öz-özünə dedi:

– Yaxşısı budu, çağırım bir aşbazdan, şərabçıdan soruşum, sora.

Çağırdı aşbazı:

– De görüm, bu gün bişirdiyin quzunu haradan almışdın?

Aşpaz dedi:

– Şah sağ olsun, çoban sürüdən gətirmişdi.

Padşah əmr elədi, çoban gəldi.

– Bu quzunu haradan gətirmişdin?

– Şah sağ olsun, sürüdən.

– Çoban, bu quzudan it əti tamı gəlir, bir əməlli fikirləş!

Çoban bu sözü eşidəndə başladı yarpaq kimi tir-tir titrəməyə.

Padşah dedi:

– Qorxma, de görüm bu nə işdi?

Çoban dedi:

– Padşah sağ olsun, həmən quzu anadan olandan iki gün sora anasını qurd parçalamışdı. Biz fikirləşdik ki, ta bu böyüyüb bizə qoyun olmayacaq. Odu ki, ötürdük başına. Elə çəpindən həmən otlaqda bizim, üzdən iraq, itimiz də qancıqlamışdı. Bir gün mən gəlib gördüm ki, həmən quzu iti əmir, ta buna heç fikir vermədim. Siz indi it ətinin tamı deyəndə yadıma düşdü, o yəqin o quzu olacaq.

Padşah baxdı ki, böyük oğlanın dediyi doğru çıxdı. Onu mürəxxəs eləyib çağırdı şərabçını. Soruşdu ki:

– Bugünkü şərabı hardan gətirmişdin?

– Meyxanadan, qibleyi-aləm sağ olsun!

– Bu şərab haranın üzümündəndi?

– Güllü bağın.

– Bu bağı kim saldırıb?

– Sənin rəhmətlik atan.

– Bilmirsən, o bağın yeri qabaqca nə imiş?

– Şah sağ olsun, o bağın yeri qabaqca qəbiristanlıq idi. Sənin rəhmətlik atan oranı sökdürüb üzüm bağı elədi.

Padşah baxdı ki, ortancıl oğlanın dediyi də doğru çıxdı. Öz-özünə fikirləşdi, yaxşı, bunlar doğru oldu. Amma xırdanın hökmən boynunu vurduracağam. Çünki mən heç vəchlə aşbazdan əmələ gəlmiş bic deyiləm. Atam bəlli, anam bəlli. İstədi cəlladı çağıra, sora fikirləşdi, yaxşı bunların ikisinin də sözü düz çıxdı. Bəlkə elə bu da düzdü, oldu oldu da... Qoy bir anamdan soruşum.

Qılıncı çəkib girdi anasının yanına ki:

– Ana, düzünü de görüm, mənim atam kimdi?

Arvad dedi:

– Buy, bala, bu nə sözdü? Sənin atan bu vilayətin padşahı Aslan şah. Bu sözdü soruşursan?

– Yox ana, düzün deməsən, bax bu qılıncdı sənin canın. Mənə deyiblər ki, mən padşah oğlu deyiləm, aşbaz oğluyam.

Arvad gördü ki, iş xarabdı, kimsə əhvalatı bilib, ona xəbər verib. Ona görə də çar-naçar əhvalatın düzünü açıb deməyə vadar oldu. Dedi:

– Bala, indi ki, bilirsən, bil, ta Allahdan gizlin deyil, səndən nə gizlin. Mənim həmişə qızım olurdu, heç oğlum olmurdu, Aslan şah da oğlan istəyirdi. Bir gün yenə Allahın məsləhəti ilə mənim vədəm keçdi. Sancım başlayan günü şah mənə dedi ki, əgər bu dəfə də qızın olsa səni öldürəcəyəm. İşin çəpindən uşaq yenə qız oldu. Mən düşdüm qarın ağrısına. Mənim bir yaxşı dayəm var idi. Gəlib gizlincə mənə dedi ki, bu gecə aşbazın bir oğlu olub, gəl uşaqları onunla dəyişdirək. Sən həmən o uşaqsan.

Padşahın gözləri heyrətindən bərəlib lap dörd oldu.

– Bəs mənim əsil atam, anam necə oldu?

– Sənin əsil atan, anan da, mənim əsil qızım da o böyük taunda öldülər.

Padşah daha heç bir söz deməyib çıxdı. Lap mat qalmışdı. Oğlanların dediklərinin hamısı doğru olmuşdu. Birbaş gəldi oğlanların yanına, əyləşdi, başladı söhbətə:

– Mən buna lap mat qalmışam. Siz çörək yeyəndə mən qapının deşiyindən qulaq asırdım. Sizin sözlərinizin hamısını eşitdim.

Oğlanlar qızardı.

Padşah dedi:

– Yox, qızarmayın! İş ondadı ki, dedikləriniz lap düz çıxdı. İndi mən bir şeyə mat qalmışam ki, siz bunları haradan bilirsiniz?

Böyük oğlan dedi:

– Şah sağ olsun, mən quzunun ətindən yeyəndə dedim ki, bu it ətidi. Çünki gördüm ki, bu qoyun əti tamı vermir. Deməkbu başqa heyvan olacaq. Sürüdə də itdən başqa heyvan olmaz. Odu ki, dedim bu yəqin it əti olacaq.

Padşah ortancıla dedi:

– Yaxşı, hələ sən hardan bildin ki, şərab insan qanıdı?

– Şah sağ olsun, mən şərabı ağzıma alcaq məni bir cür iy basdı. Mən ondan bildim ki, bu insan qanı olacaq.

Padşah üzünü tutdu kiçik oğlana ki:

– Yaxşı, bəs sən niyə hələ elə başından yekə qələt elədin?

Oğlan dedi:

– Şah sağ olsun, düzdü, mənim dediyim yaxşı söz deyil. Ancaq iş ondadı ki, elə deyəsən elədi ki, var. Axı hərçənd ki, biz sənə demişik ki, biz tacir oğluyuq, amma yalan demişik. Biz səndən də böyük padşahın oğluyuq. Bizim atamız gələn qonaqlarla oturar, durar, söhbət edər, amma heç xörək haqqında danışmaz. Amma sənin söhbətin elə bu barədə oldu ki, ay nə bilim küftəbozbaşı belə bişirirlər, dolmanı belə bişirirlər, plovun yağını nə vaxt tökərlər, qayğanağın şirəsini nə vaxt vurarlar. Mən gördüm ki, sən xörəkdən başqa heç bir söhbət eləmirsən, fikirləşdim ki, yəqin bunun aşbazla bir qarışığı var.

Gecə padşah böyük oğlanı çağırıb dedi:

– Oğlan, görürəm sən bir ağıllı, kamallı oğlansan. Mən də qocalmışam. Övlad qismindən yaxşı bir qızım var. Gəl elə onun kəbinini kəsdirim sənə, padşahlığı da verim sənə, mən bu qoca vaxtımda bir az rahatlanım.

Oğlan məsələni qardaşlarına açdı, onlar razı olmadılar.

Böyük oğlan dedi:

– Yox, dədəm mənə deyib ki, qabağına çıxan qisməti təpikləmə! Bu bir qismətdi ki, mənim qabağıma çıxıb. Mən qalacağam.

Atalarının sözü onların da yadlarına düşdü. Hamısı razılaşdılar. Qırx gün, qırx gecə toy elədilər, padşah qızı da, tacı da verdi oğlana. Qardaşları bununla görüşüb yola düşdülər. Bir neçə gün gedəndən sora gəlib iki yolun ayrıcına çatdılar. Öpüşdülər, görüşdülər, ortancıl oğlan bir yolnan, kiçik oğlan da bir yolnan getməyə başladılar. Kiçik oğlan getməkdə olsun, biz görək ortancıl oğlanın başına nə gəldi.

Ortancıl oğlan gedib, gedib bir şəhərə çatdı. Şəhərin meydançasına çatanda gördü ki, camahat yığılıb divara vurulmuş bir şəklə baxırlar. Yaxınlaşdı, baxdı ki, bir qız şəklidi. Amma qız nə qız... Elə bir qızdı, elə bir qızdı ki, yemə-içmə, xətti xalına, gül camalına tamaşa elə! Orada duranlardan birinə yanaşıb soruşdu:

– Qardaş, bu nə şəkildi?

– Yəqin ki, sən bu şəhərə təzə gəlmisən?

– Bəli.

– Bu bizim padşahın qızının şəklidi.

– Bəs bura niyə vurublar?

– Ərə vermək üçün.

Oğlan bir könüldən min könülə vuruldu bu qıza. Soruşdu ki:

– Bəs yaxşı, axı mən anlamıram, bunu bura niyə vurublar? Niyə alan yoxdu ki, belə müştəri axtarırlar?

– Yox, istəyən çoxdu. İndiyə kimi bir çox pəhləvanlar, bir çox şahzadələr gəlib bu qızı istəyiblər. Ancaq burada gizlin bir sirr var ki, o qızı istəmək üçün saraya girənlərin biri də qayıdıb eşiyə çıxmır. Bu saat bütün bu şəhər camahatı bu qıza aşiqdi. Ancaq bu işin qorxusundan bir adam cəsarət eləyib elçi göndərə bilmir.

Oğlan dedi:

– Bu qızı mən alacağam.

Kişi gülümsünüb dedi:

– Yazıqsan, oğlan! Sən yaxşı bir cavansan, özünə hayıfın gəlsin, bu sevdadan vaz keç!

Oğlan dedi:

– Yox, hər nə təhər olsa, mən gərək bu qızı alam.

Kim ona nə dedisə, beyninə girmədi. Sabahısı günü düz birbaş getdi padşahın yanına.

– Padşah sağ olsun, mən gəlmişəm sənin qızını almağa.

Padşah çox razılıqla onu qəbul elədi. Ancaq dedi ki:

– Doğrudu, axırda bir oğlan bir qızın, bir qız bir oğlanındı. O da doğrudu ki, mənim qızım mənim sözümdən çıxmaz. Ancaq mən onun sorakı bədbaxtlığına bais olmaq istəmirəm. Sən çox da mənim xoşuma gəlirsən. Bəlkə heç qızın xoşuna gəlməyəcəksən. Ya elə qız özü sənin xoşuna gəlməyəcək. Mənim şərtim budu. Səni sabah qızımnan ötürərəm bir otağa. Orda bir-iki saat bir-birinizlə söhbət edərsiz. Əgər ikiniz də bir-birinizi bəyənsəniz, ondan sora baş üstə!

Oğlan bu təklifə lap ürəkdən razı oldu. Özü də çox şad oldu. Daha bundan yaxşı nə ola bilər ki?..

Sabahısı oğlanı gətirdilər qızın otağına. Qız nə qız, huri mələk. Şəkildəkindən beş qat gözəl, şəhla gözlü, şirin sözlü, hilal qaşlı, balınc döşlü, fındıq burunlu, açıq alınlı, güləbətin ətəyi, dili bal pətəyi, dişləri siçan dişi kimi, ta nə deyim, gəl məni gör, dərdimdən öl...

Oğlan huş-bihuş yerində dayandı. Nazənin məxmər döşəyin üstündən qalxıb süd kim, ayaqlarını fərşin üstünə basa-basa oğlana tərəf gəlməyə başladı. Oğlan ta lap özünü itirdi. Elə handa-handaydı ki, yıxılsan, şümşad qollar Hindistan ilanı kimi dolandı oğlanın boynuna. Oğlan ayıldı, tez dala çəkildi, qız irəlilədi. Qız güclə onu qucaqlamaq istəyirdi. Oğlanın gözləri kəlləsinə çıxmışdı. Elə az qalırdı ki, qucaqlayıb o gülab süzülən dodaqlardan doyunca özünü sirab eləsin, birdən atasının sözü yadına düşdü: "Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!..".

Oğlan elə bil ki, yuxudan ayıldı. İlan vurmuş adamlar kimi yerindən tullanıb, dala qaçdı. Qız qovdu, oğlan qaçdı, qız qovdu, oğlan qaçdı, axırda oğlan gördü ki, yox, bunun əlindən qurtarmayacaq, özün vurdu qapıya, qapı da bağlı. Çəkildi dala, qız hən-hün eləyib bunu tutuncan oğlan qapıya bir təpik çəkdi, qapı sındı. Oğlan bayıra tullandı. Baxdı ki, əlində yalın qılınc bir adam orda hazır durub, yıxılıb özündən getdi.

Bu əhvalatdan üç gün keçmiş oğlan yuxudan ayılıb özünü ipək yorğan-döşəkdə gördü. Yanında da bir çox dava-dərman var idi. Baxdı ki, başı yaman ağrıyır. Əlini atdı başına, gördü ki, başını səritdiyib bağlayıblar. Lap məhətdəl qaldı. Bu vaxtı bir də nə gördü? Qız barmaqlarının ucunda yavaş-yavaş girdi evə. Daha bu halı necə ki, lazımdı deyə bilmirəm. Həftə keçdi, gün keçdi, oğlan yaxşı oldu. Ta bir adama ki, öz məşuqəsi dava-dərman verə, bir naxoş ki, öz yari-nazəninin əlindən dərman içə, əlbət ki, sağalar. İndi yavaş-yavaş oğlan başlamışdı gəzməyə.

Bir gün yenə oğlan qızla oturmuşdular bağda, padşah gəldi bunların yanına. Oğlan ondan soruşdu:

– Şah sağ olsun, mən axı bir şeyə məhətdəl qalmışam. Mən yıxılan günü, əlində qılınc qapıda durub məni qorxudan kim idi.

Padşah gülüb dedi:

– Mən qızımı bir halal süd əmmiş, namuslu adama ərə vermək istəyirdim. Ona görə də belə götürmüşdüm, kim mənim qızımı gəlib

istəyirdisə, mən onu salırdım qızımın yanına. Özüm də əlimdə qılınc qapının deşiyindən baxırdım. Qıza da tapşırmışdım ki, oğlanla mazaq eləyib onu dingildətsin, necə ki, sən özün də bunu gördün. Elə ki, qız belə eləyirdi, oğlanın əlbəhəl halı dəyişib ayrı fikirlərə düşürdü. Əlbəhəl namussuz adam olduğunu bilirdim. Mən də əlimdəki qılıncla başın bədənindən ayırıb, yer üzünü belənçik nakəslərdən təmizləyirdim. Amma sən doğrudan da halal süd əmmiş adamsan. Çünki qız nə qədər sənə soxuldusa, sən qaçdın.

Oğlan dedi:

– Çünki mənim atam mənə vəsiyyət eləyib ki, "elə ki, gördün bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə".

Padşah toy eləyib qızı verdi ona, padşahlığı da ona tapşırıb qoca günlərində hərəmxanasına çəkildi. Bu da burda öz keyfində olsun, biz görək kiçik oğlan nə oldu.

Kiçik oğlan gedib-gedib bir şəhərə yetişdi. Bir gün şəhəri gəzə-gəzə lap çıxdı qırağa. Qabağına bir gözəl dam-daş çıxdı. Evin pəncərəsindən bir qız baxırdı ki, getmə gözümdən, gedərəm özümdən. Oğlan bir ürəkdən min ürəyə qıza elə vuruldu ki, heç Məcnun da bu boyda vurulmamışdı. Axşamacan qaldı orda. Gecə çıraqlar yanandan sora gəldi şəhərə, amma elə fikri ordaydı. Gecə düşdüyü hücrədəki yoldaşına dərdini açdı. O adam əhvalatı buna danışdı.

Deməginən bu qız padşahın qızı imiş. Padşah onu kimə vermək istəyibsə qız getməyib, ona görə də padşah onu dədə malından məhrum eləyib, evindən qovub. O da həmən o dam-daşı tikdirib, özün də tilsimbənd eləyib oturdub orda. İndi o tilsimi açmağa nə qədər pəhləvanlar gəlibsə, düşüb qalıblar orada.

Oğlan dedi:

– Mən o qızı alacağam.

Səhər getdi padşahın yanına. Padşah onu lap yaxşı, ürəyi istəyən kimi qəbul eləyib dərdini soruşdu, oğlan öz fikrini dedi:

Padşah dedi:

– Mən lap ürəkdən buna şadam. Ancaq, vallah, onun ixtiyarı mənim əlimdə deyil. O olub bir çəpəl sehrkun.

Oğlan dedi:

– Mən onun tilsimini sındıraram. Ancaq necə ki, sən onun atası, başının sahibi, əvvəl sənin yanına gəlmişəm.

Oğlan ordan çıxıb soraqlaşdı, öyrəndi, bu şəhərdə lap qoca bir adam tapıb onun yanına getdi. Qoca ona dedi:

– Bala, o tilsimi sındırmaq üçün bircə yol var. O da budu ki, qızın iki qarabaşı var. Bunlar həftədə bir gün gəlib bazardan lazım olan şey-şüy alıb aparırlar. O qarabaşlardan birini gərək pul gücünə aldadıb tilsimin sirrini öyrənəsən.

Oğlan gedib kəsdi bazarın yolunun üstünü. Qızları axır ki aldadıb, tilsimin sirrini öyrəndi. Sabahısı gedib padşaha məlum elədi ki, mən bu gün tilsimi sındıracağam.

Bunu deyib üz qoydu şəhərin qırağına, qızın dam-daşına tərəf. Şəhərin əhalisi əhvalatı eşidib yığışdılar bura. Oğlan altdan geyinib üstdən qıfıllandı, iki şaqqa ət götürüb girdi evə. Baxdı ki, qarabaşların dediyi kimi pilləkanın qabağında bir aslan, bir də qaplan bağlanıb. Qızların öyrətdiyi kimi ətin bir parçasın aslana, o birini qaplana atdı, ayaq qoydu pilləkana. Qapıdan keçəndə göydən asılmış sehirli qılınc aşağı endi. Tez yanındakı divarda duran düyməni basdı. Qılınc sındı, düşdü yerə. Girdi evə. Baxdı ki, hər tərəf od alıb yanır. Odun içindən də bir əjdəha buna həmlə eləyir. Qızların öyrətdiyi kimi özün atdı əjdahanın üstünə. Yapışıb boğazından onu boğdu. Hər tərəfi tüstü bürüdü. Tilsim sındı. Camahat çöldə durub oğlana heyfsilənirdilər. Bir də gördülər ki, oğlan budu qız qucağında çıxdı eyvana. Camahatdan bir gurultu qopdu ki, nə təhər. Qız düşdü, gəldi atasının bərabərinə. Onun əlindən öpüb dedi:

– Ata, sən məni yoldan keçənə vermək istəyirdin, mən də buna razı deyildim. İndi bu oğlan, deyəsən, elə mən axtardığımdı. Sən izin versən, mən bu oğlana üç sual verərəm, cavablarını qaytara bilsə, gedərəm buna.

Padşah razı oldu. Qız oğlana dedi:

– İndi get, mənim sorğularımı gözlə!

Sabahısı gün qız oğlana bir zümrüd göndərdi. Oğlan getdi bazara, bir dənə zəbərcəd alıb qoydu bunun yanına, qaytardı dala. O biri gün qız oğlana bir dənə almaz göndərdi. Oğlan almazı bir daş altdan, bir daş üstdən qoyub əzdi, bir dəsmala bağlayıb qaytardı dala. Üçüncü gün qız oğlana bir brilyant göndərdi. Oğlan gedib bazara, ondan da qiymətli brilyant aldı, iki dənə də yaqut, hamısını bir yerdə göndərdi qıza.

Qız atasına xəbər göndərdi ki, oğlan suallara cavab verib. Kəbin kəsildi, toy oldu. Elə ki, toy qurtardı, padşah oğlanı da, qızı da yanına çağırıb soruşdu:

– Yaxşı, iş qurtardı, indi sən mənə de görüm, bu tilsimi necə sındırdın?

Oğlan dedi:

– Mənə atam tapşırmışdı ki, çətinliyə düşəndə qoca adamların məsləhətinə qulaq as! Odu ki, mən də bir qoca tapıb onun məsləhətiynən tilsimi sındırdım.

Padşah üzünü qızına tutub dedi:

– Bəs sən nə sual verdin, o sənə nə cavab verdi?

Qız dedi:

– Mən birinci dəfə ona bir dənə zümrüd göndərdim ki, mən atam-anam üçün zümrüd kimi bahalıyam, sən məni ala bilməzsən.

Oğlan dedi:

– Mən sənin fikrini anladım. Odu ki, bir dənə zəbərcəd alıb göndərdim ki, çox da qoltuqların şişməsin. Elə mən də atam-anam üçün zəbərcəd kimi qiymətliyəm.

Qız dedi:

– Mən ikinci dəfə bir almaz göndərib dedim ki, mən almaz kimi bərkəm, sən mənim arzularımı yerinə yetirə bilməzsən.

Oğlan dedi:

– Mən başa düşdüm, ona görə də almazı əzib sənə göndərdim ki, əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm.

Qız dedi:

– Sora mən bir dənə brilyant göndərdim ki, mən brilyant kimi gözələm.

Oğlan dedi:

– Mən başa düşdüm. Odu ki, ondan qiymətli bir brilyant alıb sənə göndərdim ki, elə mən də gözələm. Ancaq yanına da iki yaqut qoydum ki, indi gör bizim kimi iki gözəldən iki dənə yaqut kimi oğlan dünyaya gəlsə, nə qiyamət olar...

Padşah bunların ağıl-dərrakəsini görüb yavaşca durdu ayağa, tacı götürüb qoydu oğlanın başına.

Qardaşlar bir neçə ildən sora birləşib getdilər atalarının yanına. Ataları böyük dəsgahla onların qabağına gedib gətirdi evə. Əhvalatı biləndən sora onların alnından öpüb dedi:

– Mən onda qəsdən elə elədim ki, siz çıxıb, gedib özünüzə çörək axtarasınız. Çünki öz əli ilə qazanmayıb ata malına göz dikənlər axırda bədbəxt olarlar.

# HAZARANDASTAN BÜLBÜLÜ

Biri var idi, biri yox idi. Bir padşah var idi. Bu padşahın bir bağı var idi ki, ruzigarın gözü belə bir bağ görməmişdi. Gül gülü çağırır, içindən göz yaşı kimi çeşmələr axırdı. Bağın içində padşah dünyanın hər tərəfindən cürbəcür ağaclar gətirdib, əkdirmişdi Qərəz, nə deyim, bağda can dərmanı desəydin vardı. Bu bağın şöhrəti bütün ətrafa yayılmışdı. Dünyanın hər tərəfindən dəstə-dəstə adamlar bu bağın tamaşasına gəlirdi.

Bir gün yenə şəhərdən üç nəfər bu bağı görməyə gəlmişdi. Padşahnan bağı gəzdilər, dolandılar. Bağın qapısından eşiyə çıxanda, qonaqlardan biri bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyf ki, Hazarandastan gülüynən Hazarandastan bülbülü bu bağda yoxdu.

İkinci qonaq bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyif ki, Bili-Bilqeyis xanım burda deyil.

Üçüncü qonaq da eləcə bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyif ki, Süleymani-ərəbat bu bağın içində deyil.

Qonaqlar getdilər, padşah düşdü fikrə, vəzir diqqətnən baxıb gördü ki, padşah çox fikirdədi, dedi:

– Padşah sağ olsun, nə oldu fikrə getdin?

Padşah dedi:

– Vəzir, qonaqların sözü məni fikrə saldı. Hər nə təhər olsa, gərək Hazarandastan bülbülü, Hazarandastan gülü, Bili-Bilqeyis xanım, bir də Süleymani-ərəbat bu bağa gətirilə.

Vəzir dedi:

– Padşah sağ olsun, burda nə var ki, səni fikrə salır? Şükür olsun üç oğlun var. Çağır, əmr elə, gedib gətirsinlər. Bəs onlar nə vaxt sənə lazım olacaqlar?

Padşah gördü ki, vəzir doğru deyir. Onun doğrudan da üç oğlu vardı. Əmr elədi çağırdılar. Elə ki, oğlanların üçü də gəldi padşahın bərabərinə, padşah dedi:

– Oğlanlarım, mənim bağım misli görülməmiş bir bağdı. Amma dörd dənə əskiyi var, onlar da: Hazarandastan bülbülü, Hazarandastan gülü, Bili-Bilqeyis xanım, bir də ki, Süleymani-ərəbatdı. Bilmirəm, göy göbəyini yerə dayasa da, gərək onları gətirəsiz.

Oğlanlar atalarının əlindən öpüb atlarını minib, öpüşüb ayrıldılar.

O biri qardaşları getməkdə olsunlar, sizə kimdən deyim, kiçik qardaşdan. Bu kiçik qardaş bir neçə gün yol gedəndən sora gəlib bir şəhərə yetişdi. Bir evin qabağında atdan düşüb gördü ki, bir qoca kişi dayanıb qapıda, dedi:

– Qoca, qəribəm, yol adamıyam, bu gecə məni qonaq saxlarsanmı?

Qoca:

– Niyə saxlamıram, bala?! Qonaq Allah qonağıdı.

Ev yiyəsi qoca, gün keçirmiş, dünyanın isti-soyuğun görüb, acı-şirinin dadmış bir adamdı. Gecə söhbət vaxtı oğlanın Süleymani-ərəbatdan ötrü bura gəldiyini bilib dedi:

– Bala, sən gəl bu sevdadan əl çək! Çox igidlər, çox pəhləvanlar bunun üçün gedib, bir də dala qayıtmayıblar. Hələ sənin dimdiyinin sarısı heç getməyib, ağzından hələ süd qoxusu gəlir.

Oğlan dedi:

– Yox, dədəmə söz vermişəm, gərək eləyəm.

Onda qoca dedi:

– Oğlan, indi ki belə oldu, qoy sənə deyim. O at hər gün bir çeşmə var, gəlib o çeşmədən su içir. Onu ancaq orda tutmaq olar. Ancaq o çeşmənin yanına getmək üçün gərək yeddi dənə odlu dərədən keçəsən. Oğlan hər şeyi ondan öyrənib səhər atı mindi. Yola düşəndə qoca dedi:

– Çeşmənin başında bir ağac var. Çıxıb həmən ağacda gizlənərsən. Sübhi-sadıx zamanı bir sürü at gələcək, cəhd eləyib kəməndi qabaqdakı atın boynuna sal, özün də tez denən “at, Süleyman peyğəmbər eşqinə dayan!”. Əgər elə deməsən, at səni də, ağacı da yerindən oyna-

dıb həlak edər. Elə ki, mindin ata, dala baxmadan dördəmiyə çap! Daldan çoxlu səslər gələcək ki, "ay tutun, ay vurun!" Nəbadə dönüb dala baxasan, baxsan daş olarsan.

Oğlan atı sürdü, az getdi, çox getdi, bir də gördü ki, uzaqdan işıq gəlir. Yaxınlaşdıqca işıq yekəldi, elə oldu ki, elə bil uzaqda məşəl yanır. Bir az da gedəndən sora baxdı ki, qabaqdakı işıq qocanın dediyi odlu dərədi. Dərənin istisi oğlanı təngişdirməyə başladı. Ancaq buna fikir verməyib yoluna davam elədi. Getdi yetişdi odlu dərənin başına. Dərə nə dərə, elə bil ki, Allah cəhənnəmi bura köçürdüb.

Oğlan baxmayıb özün vurdu odun içinə. Dərədən çıxanda göy guruldadı, sümsürük oynadı, bir gurultu qopdu ki, həmli arvad olsa, qorxudan uşaq salardı. Oğlan qocanın dediyinə əməl eləyib, heç bir tərəfə baxmayıb, özünü ikinci dərəyə vurdu. Belə-belə dərələrin yeddisini də keçib çıxdı bir düzəngaha. Bir qədər atı sürəndən sora gəlib bir çəmənzara çatdı. Çəmənin ortasında uca bir ağac var idi. Ağacın altından bir çeşmə çıxıb abi-zəmzəm suyu kimi axırdı. Oğlan baxdı ki, elə qocanın dediyi yerdi ki, var. Atdan düşdü, əyləşib çəmənin başında bir az toqqasının altını bərkidəndən sora, çıxıb ağacda oturub gözləməyə başladı.

Səhərə yaxın bir də gördü ki, budu yer titrədi, göy şaqqıldadı, sümsürük oynadı, təpənin dalından bir dəstə at çıxdı. Atlar üz qoydular çeşməyə tərəf gəlməyə. Oğlan yerin möhkəmlədib kəməndi hazırladı. Atlar gəlib çeşməyə çatdılar. Oğlan baxdı qabaqdakı ata, gördü doğrudan da at bir atdı ki, Qırat onun yanında bir pula dəyməz.

Oğlan kəməndi atdı atın boynuna. At iki əlləri üstündə qalxdı göyə, oğlanı çəkdi, oğlan düz düşdü onun belinə. At bir də qalxdı ki, onu vursun yerə, oğlan dedi:

– Ay at, Süleyman peyğəmbər eşqinə dayan!..

At Süleyman peyğəmbərin adını eşitcək dayandı. Oğlan onu dəhnəçilov vurub başın döndərdi. Daldan nə qədər qışqırtı, bağırtı gəldisə oğlan dönüb baxmadı, birbaşa atı sürdü. Beş günə gəldiyini iki saatda keçib qocanın olduğu şəhərə çatdı. Oradan keçib birbaş yola düzəldi. Gəldi həmən üç yolun ayrıcına yetişdi. Daşın altına baxıb gördü ki, üzük ordadı. Bildi ki, hələ qardaşları qayıtmayıblar. Odu ki, üz qoydu ortancıl qardaşının getdiyi yola. Günə bir mənzil gəlib çatdı bir şəhərə. Şəhərin qırağında düşüb atın tükündən bir az çəkdi, cilovun başına dolayıb ötürdü, özü girdi şəhərə, baxdı ki, möhkəm acıb, dedi: gedib bir

çörək yeyim. Bu fikirnən gəlib bir aşbaz dükanına girdi. Əyləşib xörək istədi. Aşbaz şəyirdi xörək gətirəndə oğlan gördü ki, öz qardaşıdı, soruşdu:

– Bəs qardaş, bu nə hal?

Qardaşı dedi:

– Qardaş, işim tutmadı, heç bir şey tapa bilmədim. Axırda aşbazxana sahibinə yataq pulu verə bilmədiyimə görə, indi məni burda şəyird işlədir.

Oğlan onun borcunu verib aşbazdan aldı, şəhərdən də ona bir at aldı, sora da lazım olan başqa şeylər alıb şəhərin qırağına gəldilər. Oğlan cibindən Süleyman-ərəbatın tükünü çıxardıb tutuzdurdu. Süleyman-ərəbat badi-sərsər kimi gəldi. Hər iki qardaş mindi, sürüb birbaş çatdılar üç yolun ayrıcına. Daşın altına baxıb gördülər ki, üzük hələ də ordadı. Kiçik qardaş ortancıla dedi:

– Qardaş, sən qal burda, mən gedim böyük qardaşımızın dalıncan.

Ortancıl qardaş orda qaldı, bizim bu kiçik yola düzəldi. Az getdi, çox getdi, gəlib bir şəhərə çatdı. Baxdı ki, böyük bir qəsr var. Bu qəsrin balaxanasında bir qız oturub, bir qız oturub ki, gözəlliyi göylərdən bac istəyir. Amma qəsrin qabağında bir dəstə fəhlə palçıq ayaqlayır. Oğlan yanaşdı fəhlələrə ki, soruşsun görsün bu balaxanadakı qız kimdi. Bir də nə gördü?! Böyük qardaşı fəhlə paltarında qıçlarını da çirməyib burda palçıq ayaqlayır. Bunu görəndə oğlanın az qaldı ki, ruhu bədənindən uçsun, dedi:

– Qardaş, bu nə haldı?

Qardaşı dedi:

– Qardaş, bu qızı ki, görürsən, bu Bili-Bilqeyis xanımdı. Hazarandastan gülü ilə Hazarandastan bülbülü də ondadı. Bu palçıq ayaqlayanlar da ki, hərəsi bir padşahın oğludu. Gəliblər ki, onu alsınlar. O da hər gələnnən güləşib yıxıb, hər yıxılana da beləcə ömrünün axırınacan burda palçıq ayaqlatdırır.

Oğlan dedi:

– Qorxma qardaş, bu saat onun saçlarını əlimə dolaram.

Başını yuxarıya qaldırıb dedi:

– Qız, düş aşağı!

Qız dedi:

– Nə istəyirsən?

Oğlan dedi:

– Sənnən güləşmək istəyirəm.

Qız gülüb dedi:

– Bir baxginən bu palçıq ayaqlayan adamlara. Bunlar hərəsi bir pəhləvandı. İndi burda palçıq ayaqlayırlar. Mənim sənə yazığım gəlir. Sən yaxşı bir oğlansan, özünü bədbəxt eləmə, çıx get!

Oğlan dedi:

– Uzun danışmağın yeri yoxdu. Bunları da görürəm, səni də, düş gəl yerə!

Qız dedi:

– Get oğlan, sənin ağzından hələ süd qoxusu gəlir. Anan yazıqdı, sənin hələ bələnməli vaxtındı, get, özünü bədnam eləmə!

Oğlan dedi:

– Sənin cənginə indiyə kimi görünür ki, pəhləvan düşməyib, indi məndən gözün qorxduğuna görə, aşağı düşə bilmirsən.

Qız hirsləndi:

– Oğlan, mən sənə qıymırdım, sənə yazığım gəlirdi. İndi ki, sən belə danışdın, çox yaxşı güləşək. Ancaq bir şərtnən. Sən məni yıxa bilsən, ixtiyar sənindi, nə istəyirsən elə, mən səni yıxdım başını kəsəcəyəm.

Oğlan dedi:

– Mən razıyam, şərtin gözüm üstə.

Meydan sulandı, süpürüldü, küştü başlandı. Üç gün, üç gecə güləşdilər. Oğlan axırda canın dişinə yığıb bir tilişdirmə vurub qızın arxasın qoydu yerə.

Qız dedi:

– İxtiyar sənindi, öldürə bilərsən.

Oğlan əlini onun dalına vurdu. Qız oğlan palçıq ayaqlayanların hamısını azad elədi. Hazarandastan gülünü, Hazarandastan bülbülünü, Bili-Bilqeyis xanımı, bir də ki, qardaşını götürüb yola düşdü. Günə bir mənzil gəlib çatdılar üç yolun ayrıcına, gördülər ortancıl qardaş orda bunların yolunu gözləyir. Çadırlar quruldu, qazanlar asıldı, yedilər, içdilər, hərə öz çadırına yatmağa getdi. Gecə nə ortancıl qardaşın, nə də böyük qardaşın gözünə yuxu getmədi. Onlar bilmirdilər ki, atalarının yanına nə üznən çıxacaqlar. Gecənin bir vaxtı böyük qardaş durub getdi ortancıl qardaşın yanına. Bir az götür-qoy eləyəndən sora bu qərara gəldilər ki, qardaşlarının əl-ayağını bağlayıb salsınlar quyuya. Onun gətirdiyi bütün bu şeyləri aparıb öz adlarından versinlər padşaha.

Oğlan şirin yuxuda yatmışdı. Deyərlər ki, səhərin yuxusu ölümdən betərdi. Qardaşlar onun əl-ayağını kəndirnən bərk sarıyıb gətirib Yusif kimi bir quyuya saldılar. Səhər tezdən bütün qəflə-qatırı yükləyib hazırladılar. Bili-Bilqeyis xanım soruşdu:

– Bəs oğlan hanı?

Qardaşlar dedilər ki, o gecəynən atalarına muştuluq aparıb.

Hər şeyi hazırladılar, amma nə qədər elədilərsə Süleymani-ərəbat onlara baş vermədi ki, vermədi. Axırda gördülər ki, tuta bilməyəcəklər, onu çar-naçar buraxıb atların içindən bir yaxşı at seçdilər. Süleymani-ərəbatsız yola düşdülər. Gəlib yetişdilər atalarının hüzuruna. Ataları şeyləri görüb çox sevindi. Kiçik oğlunu soruşdu, dedilər:

– O heç bir şey gətirə bilməmişdi, ona görə də üzüqara olduğundan sənin yanına gələ bilmədi.

Əlqərəz, padşahı aldatdılar. O da bunların dediklərinə inandı. Bili-Bilqeyis xanım üçün məxsusi bir otaq ayırdılar, yaşamağa başladılar.

Onlar öz yaşamaqlarında olsunlar, sənə kimdən xəbər verim, kiçik oğlandan.

Bir vaxt səhərin yeli onun burnuna dəyəndə, ayılıb gördü ki, bir quyunun içindədi. Qardaşlarının xəyanətini başa düşdü, dedi:

– Hey gidi dünya, mən onlara nə elədim, onlar mənə nə elədilər...

Ancaq gecdi. Əlləşdi ki, birtəhər quyudan çıxsın, ancaq quyu çox dərindi, heç bir dənə də ayaq yerisi yoxdu. Odu ki, çıxa bilmədi.

Yadınızdadırmı Süleymani-ərəbat onlara baş verməyib burda qalmışdı, öz sahibini axtarırdı. Qoxuluya-qoxuluya gəlib quyunun başına çatdı. Gördü ki, oğlan quyudadı. Gedib yaxındakı ağaclardan bir az meyvədən-zaddan ağzına yığıb gətirib quyuya saldı. At həmişə belə eləyirdi, gecələr də quyunun başında yatırdı.

Bir gün bir karvan gəlib burda düşdü. Baxdılar ki, quyunun başında yaxşı bir at var. İstədilər onu tutsunlar. Nə qədər elədilərsə, at baş verməyib elə quyunun ətrafında dolanırdı. Axırda dedilər ki, qoy görək bu quyuda nə sirr var ki, bu at burdan o yana getmir. Quyuya səslədilər. Oğlan ordan səs verdi. Qərəz, oğlanı quyudan çıxartdılar, əhval-pürsanlıq elədilər, o da açıb bütün başına gələnləri danışdı, sora onlara razılıq eləyib Süleymani-ərəbatın üstünə süvar oldu, üz qoydu öz şəhərlərinə. Gəlib şəhərin qırağında atdan düşdü, tükündən bir az çəkib cibinə qoydu, cilovun boynuna dolayıb, ötürdü. Gedib bir aşbaza şəyird oldu.

Bu burada işləməyində olsun. Bir gün padşah adam göndərdi Bili-Bilqeyis xanıma ki, hazırlaşsın, onu alır böyük oğluna. Bili-Bilqeyis

xanım padşahla heç görüşməmişdi. Hazarandastan bülbülüynən gülü də vermirdi. Çəkilib öz otağında qara geyinib yasa batmışdı. Padşahın sifarişinə cavab göndərdi ki, mənim nişanlım hələ gəlməyib, kim məni almaq istəyirsə, gərək məni yıxa, sora ala.

Padşah oğluna əmr elədi ki, onu yıxsın.

Oğlan onun gücünü bilirdi, bilirdi ki, onu yıxmaq bunun xörəyi deyil. Odu ki, özünü vurdu naxoşluğa. Oğlanın bu naxoşluğu çox uzun çəkdi. Padşah vəzirdən soruşdu:

– Vəzir, bu məsələdən ağlın nə kəsir?

Vəzir dedi:

– Şah sağ olsun, sənin oğlun məhəbbətin gücündən naxoşlayıb, toy olmayınca o sağalmayacaq.

Padşah əmr elədi, toy tədarükü başlandı. Bili-Bilqeyis xanım gördü ki, işi zorla başladılar, öz ürəyində dedi:

– Yaxşı, mən də özüm bilərəm nə edərəm.

Bəli, toy quruldu, carçılar car çəkdi, qonaqlar çağırıldı, gəldi toyun axırıncı günü ki, gəlin gedəcəkdi, atlılar atlandı, at çapmağa başladılar. Padşah da öz əyan-əşrəfiynən oturub tamaşa eləyirdi. Bili-Bilqeyis xanım pəncərədən baxırdı.

Aşbaz bizim oğlanı dükanda qoyub at çapmağa getmişdi. Elə ki, o getdi, oğlan durdu ayağa, atın tükünü çıxardıb tutuzdurdu. At hazır oldu, ayaq rikabə, diz qabırğaya, yatdı atın boynuna, badi-sərsər kimi özünü vurdu çapışanların arasına. Padşah bir də gördü ki, budu bir oğlan gəlir, bir at minib, bir at minib ki, daha nə deyim. At yernən, göynən əlləşir. Oğlan bir o yana çapdı, bir bu yana çapdı, bir məhmizdə bütün çapışanları keçdi... Üçüncü dəfədə padşahın böyük oğlunun boynunu vurdu, qaçdı.

Padşah nərə çəkdi ki:

– Amandı, tutun, kim tutsa varımın yarısını ona verəcəyəm.

Atlılar düşdülər oğlanın dalına, oğlan gördü budu bütün pəhləvanlar gəlir. Hərçəndi ki, o, onların heç birindən qorxmurdu, amma bildi ki, dayanıb dava eləsə onu tanıyacaqlar, odu ki, üzün ata tutub dedi:

– Süleyman eşqinə, at, məni götür!

Elə söz ağzından qurtarmamışdı ki, at iki əlləri üstündə qalxdı göyə, ucadan bir kişnədi, elə götürüldü ki, elə bil ox yayından çıxıb, bir göz qırpımında gözdən itdi. Toy yasa döndü. Hər şey qara boyandı. Bütün şəhər qırx gün əza saxladı. Amma Bili-Bilqeyis oğlanı tanımışdı. İndi daha lap arxayınlaşmışdı ki, oğlan sağdı, özü də burdadı.

Bu işdən düz bir il keçdi. Elə həmişə aşbaz heyfsilənib deyərdi:

– Köpəkoğlu ölmüş hardansa gəlib toyu yas elədi. Amma oğlan da əntiqə oğlandı ha... Adamın heç dilindən gəlmir ki, ona qarğış eləsin.

Oğlan da həmişə cavabında deyərdi:

– Vay köpəkoğlu, amma heyif ki, mən getməmişdim görəm.

Atalar yaxşı deyiblər ki, "ölən elə ölən yerdə qalar". Odu ki, indi də bir neçə vaxt qara-mara bağlayandan sora böyük oğlan yavaş-yavaş yaddan çıxdı.

Padşah Bili-Bilqeyis xanıma sifariş göndərdi ki, əl-ayağını sazlasın, onun kəbinini kəsdirib ortancıl oğluna.

Bəli, yenə tədarük görüldü, qazanlar asıldı, düyülər salındı suya. Toy başlandı. Ancaq Bili-Bilqeyis xanım bu dəfə arxayındı. O yəqin eləmişdi ki, oğlan buradadı.

Bəli, at çapılan gün yenə oğlan, əvvəl dediyimiz kimi, aşbaz gedəndən sora dükanı bağlayıb şəhərin qırağına çıxdı, atın tükün tutuzdurdu. At hazır oldu, qıçın aşırdı atın belinə, özünü vurdu çapanların içinə. Camahat hən-hün eləyib onu tutunca, o, ortancıl oğlanın da boynunu vurub, atı sürdü düz padşahın qabağına. Atdan düşüb dayandı şahın bərabərində. Padşah gördü öz oğludu. Qolun onun boynuna salıb dedi:

– Oğul, bu nə işdi gördün?

Oğlan dedi:

– Ata, yoldaşına xəyanət eləyənin cəzası belə olmadı, əgərçi o qardaş da olsa.

Padşah təəccübündən dedi:

– Necə? Bu nə sözdü?

Oğlan bütün əhvalatı bizim bildiyimiz kimi, danışdı. Hamı onu haqlı gördü. Yas təzədən toya döndü. Qırx gün, qırx gecə toy eləyib, Bili-Bilqeyis xanımı kiçik oğlana aldılar. Bağın düz ortasında bir qəsr tikdirib onları ora köçürdülər. Hazarandastan gülü bir tərəfdə, Hazarandastan bülbülü bir tərəfdə, Süleymani-ərəbat bir tərəfdə, Bili-Bilqeyis xanımnan oğlan da onların arasında... Bəh-bəh, keçmə bu bağın ləzzətindən.

Onlar yedilər, içdilər, yerə keçdilər. Siz də yeyin, için, mətləbinizə yetişin! Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün, siz sağ, mən də salamat.

## ARMUD BƏY

Biri vardı, biri yoxdu, bir tülkü vardı. Bu tülkü bir gün girrənə-girrənə gedirdi. Gördü bir armud ağacı var. Bunun dibi elədi ta nətər, armuddar bütün saralıb dəyib tökülüb dibinə. İrəli gəldi gördü, armud ağacının dibində bir adam oturub elə yanına düşəni yeyir, gen düşəni götürmür. Tülkü irəli yeridi, gəldi bunun yanına.

– Salam əleyküm.

– Əleykəssalam.

Tülkü bı kişidən soruşdu:

– Sənin adın nədi?

Kişi dedi:

– Adım Armud bəydi.

Tülkü baxdı gördü, bı adam o qədər tənbəldi ki, ərindiyinnən durub, birəz aralı tökülən armuddarı yemir. Elə yanına düşəni yeyir, gen düşənə də qalır baxa-baxa. Tülkü buna dedi:

– Bilirsən nə var, Armud bəy?

Armud bəy dedi:

– Xeyr bilmirəm.

Tülkü dedi:

– Onda qulaq as mən deyim.

– De!

– Mən sənnən sığa qardaşdıx olmaq isdiyirəm.

Armud bəy dedi:

– Sən qardaşdıx olan deyilsən. Armuddan yığ ye.

Tülkü bı aralı tökülən armuddarı təmiz yığdı, gətirdi tökdü Armud bəyin yanına. Başdadılar yedilər. Bunnar sığa qardaş oldular. Ta tülküdə qaldı bunun yanında. Bular elə armudun dibində olurdular. Tülkü hər gün armudun dəymişinnən yığıb gətirirdi, yeyirdilər. Bəli, beş gün-on gün belə. Bı tülkü də o qədər kökəldi, ta nətər.

Bı Armud bəyin armud ağacının yaxununda bir əvi vardı, uçux-sökük. Göydən yağan yağış, qar, hər nə olsa, bı əvin içinə tökülürdü. Tülkü ayınnan-oyunnan tapır gətirirdi bunun işıq gələn yerlərini tuturdu. Bir babat bırda dolanırdılar.

Armud ta savışdı. Tülkü gedirdi, kənddən-kəsəkdən toyuq, cücə oğurruyur gətirirdi. Bırda bişirib yeyirdilər.

Bir gün bu tülkü gəzirdi. Bir abbası tapdı. Bu abbasını götürdü, getdi paççahın elçi daşının üsdə oturdu. Xəbər getdi paççaha ki, bir tülkü gəlib elçi daşının üstdə oturub. Paççah dedi:

– Gedin görün nə deyir.

Gəldilər dedilər, tülkü nə deyirsən?

Dedi:

– Paççahın abbası çanağın isdiyirəm. Qardaşım Armud bəynən abbası bölürəm.

– Gəldilər paççaha xəbər gətirdilər ki, abbası çanağın isdiyir.

Paççah öz-özünə dedi:

– Bı nətər adamdı kı abbasını çanağınan bölür.

Dedi:

– Verin aparsın.

Gətirdilər çanağ verdilər tülküyə. Tülkü çanağı götürdü gəldi bənə-bənə birəz girrəndi. Abbasını qoydu çanağın bir yerinə gətirdi verdi. Paççah baxdı gördü: bəli, abbasının biri çanağın içindədi. Dedi:

– Bu nətər adamdı ki, heç dərbənd olmuyup biri də çanaxda qalıb.

Tülkü çanağı verib qayıtdı, gəldi Armud bəyin yanına.

Dedi:

– Hazır ol, paççahın qızın saa alıram.

Armud bəy dedi:

– Əşi, sən Allah, armuddan-zaddan ye. Açıl mənim başımnan.

Tülkü bir gün də girrənirdı bir qızıl tapdı. Getdi yenə oturdu həmən elçi daşının üsdə. Paççah dedi:

– Gedin görün nə deyir.

Gəldilər tülküdən soruşdular:

– Ay tülkü, nə deyirsən?

Tülkü dedi:

– Paçcahın qızıl çanağın verin qardaşım Armud bəyinən, qızıl böləcəyik.

Getdilər paçcaha dedilər. Paçcah məhətdəl qaldı, dedi:

– Gedin verin aparsın.

Gətirdilər çanağı verdilər.

Tülkü çanağı götürdü gəldi bir saata kimi saxladı qayıtdı qızılı qoydu çanağın bir yerinə, gətirdi verdi paçcaha. Paçcah baxdı gördü, çanaqda da bir qızıl gəlib. Dedi:

– Bu nətər dövlətdidi ki, heç qızıla dərbənd olmuyur, biri də çanaxda qalıb.

Tülkü dedi:

– Qardaş, gərək paçcahın qızın saa alam.

Armud bəy dedi:

– Sən olasan o Allah mənnən əl çək.

Tülkü dedi:

– Yox, biz axı qardaşıx, gərək onu alam saa.

Armud bəy dedi:

– Bizim nəyimizə paçcah qızın verir?

Tülkü dedi:

– O mənim işimdi, sən fikir eləmə.

Durdu gəldi genə həmən elçi daşının üstündə oturdu. Paçcaha xəbər apardılar ki, tülkü genə gəlib elçi daşının üstündə oturub. Paçcah dedi:

– Gedin gətirin, görək nə deyir?

Gəldilər tülküyə dedilər:

– Paçcah səni isdiyir.

Tülkünü apardılar paçcahın yanına. Tülkü ədəbinən, kamalınan, o ki lazımdı, heylə durdu paçcahın qabağında. Paçcaha baş yendirdi dedi:

– Paçcah sağ olsun, gəl sən Allahın əmriynən o qızını ver mənim qardaşım Armud bəyə.

Paçcah dedi:

– Axı heç biz onu görməmişik nətər adamdı. Bir gətir, bır görək sora.

Tülkü gəldi Armud bəyin yanına, dedi:

– Qardaş, paçcahın qızın aldım saa, dur gedək.

Armud bəy dedi:

– Ay tülkü, sən mənim başıma nə kələk açırsan?

Tülkü dedi:

– Yox, sənin canın üçün almışam.

Armud bəyi də gətirdi yola. Yavaş-yavaş gəldi bir çayın qırağında bı Armud bəyin əynində olan paltarları təmiz soyundurdu atdı çaya. Qayıtdı kəndə hay saldı ki, gəlin qardaşımı soydular. Bı Armud bəyin də əyninin paltarları tamam cırıx-cırıx, papağın qulağı yox. Buları tülkü elə soyundurub atmışdı ki, lüt qalmışdı. Yığıldılar kənd adamları gəldilər, gördülər bu lüt qalıb. Paçcah o saat buna bir dəst paçcahyana libas göndərdi. Tülkü bunu geyindirdi. Özünə də tapşırdı:

– Qardaş, səni aparacıyam paçcahın yanına. Nəbada otağa girəndə deyikip əyanə-bəənə baxasan. Bir də ortalığa aş qoyulanda əlini uzadıb başınnan sümük götürəsən? Mən ortalıqda gəzinip quyruqumnan vurub çırağın şüşəsin sındıracağam. Çırağı söndürəcəyik, qarannıx olacax, onda sən də ye, nətər isdiyirsən. Heylə qarnını bərkit, çırax yananda az ye, tez çəkil.

Bı dedi:

– Yaxşı.

Getdilər. Armud bəyi atdan düşürdülər. İçəri girdilər Armud bəy əyənə-bəənə devikip şeylərə baxırdı. Dedilər:

– Ay tülkü, sənin bu qardaşın nə çox əyənə-bəənə baxır?

Tülkü dedi:

– O deyir ki, paçcahlığınan tikdirdiyi imarata bax?

Paçcah məhətdəl qalıb dedi:

– Bu nətər adamdı ki mənim əvimi bəyənmir.

Çox söhbətdən sora ortalığa xörək gəldi. Armud bəy o saat əlin uzatdı xörəyin başınnan bir omba sümüyü götürdü, başdadı gəmirməyə.

Tülkü əyənə baxdı, bəənə baxdı bunun əlinnən sümüyü aldı atdı çölə. Bir az əyənə-bəənə gəzindi quyruğuynan çırağın şüşəsin vırdı saldı yerə. Çırax keçdi. O saat Armud bəy yedi qarnın doyurdu. Çırax yanan kimi bir iki tikə alıb çəkildi. Paçcah camahatı yığdı, bırda şirni içdilər. Bir molla da gətirtdi qızın kəbinin kəsdi Armud bəyə.

Qızı köçürdülər. Qoşunnan, kecabeynan, cehizinən.

Tülkü yolda kimi gördü dedi:

– Soruşan olsa, deyin Armud bəyindi. Məsələn, naxırçıya, çobana. Qoşun gəldi gördü, yolun qırağında bir sürü qoyun otarır bir çoban. Dedi:

– Ay çoban, bı kimindi?

Çoban dedi:

– Armud bəyindi.

Qoşun məhətdəl qaldı. Dedilər:

– Bir bı qədər də dövlət olarmı?

Tülkü də irəlidi, gəldi bir dev vardı. Buna dedi:

– Qoşunu görürsənmi paçcahın oğlu azarrıdı ona dərman dev əti deyirlər. İndi o qoşun gəlir səni öldürüb aparsınnar ona.

Dev qaçdı. Əv qaldı tülküyə. İçində də hər bir ehtiyatı vardı. Gəlini gətirdilər, düşdülər həmən devin əvinə. O saat qazannar qoyuldu, düyü töküldü. Xörək qayrıldı. Verdilər qoşuna. Bı adamlara bir həftə bırda belə xörək qayrılırdı qoşuna verilirdi. Qoşun bir həftədən sora xudahafiz eliyip qayıtdı geri.

Armud bəy gündə çıxırdı ov eləyirdi gətirirdi bı gəlin xörəkdən zaddan qayırırdı. Armud bəy, tülkü, gəlin üçü də yeyirdilər, yatırdılar.

Armud bəy bir gün ova çıxmışdı. Bunun qabağına bir ceyran çıxdı. Kəməndinən bı ceyranı diri tutdu, gətirdi əvə. Əvdə ceyranın başın kəsdilər kabab elədilər, yedilər, içdilər, axşam yatdılar. Səhər açıldı. Bı getdi genə ova. Tülkü öz-özünə dedi:

– Heç görən bı yaxşılıxlarımı bilir, bilmir?

Özün vırdı ölülüyə. Paçcahın qızı bı tülkünün başın, gözün tumarrıyır ağlıyırdı. Gözünün yaşın od təki tökürdü. Bı hində Armud bəy gəldi, gördü qız tülkünün başın sığallayır ağlayır. Soruşdu:

– Niyə ağlayırsan?

Qız dedi:

– Tülkü öldü.

Armud bəy tülkünün quyruğunnan tutdu, atdı çölə.

Tülkü durdu, gəldi dedi:

– Ə, sən o Armud bəy döyülsən ki, armudun dibində oturub Armudun böyrünə düşənin yeyirdin, ta ərindiyinnən uzağa düşəni də yemirdin. Acınnan ölürdün. Necəsən devi gedim gətirim?

Düzəldi yola getdi devi tapdı. Devə dedi:

– Əvin dağılmasın odu, sənin otağında bir qızınan bir kişi oturur, kef eləyir.

Dev dedi:

– Onda gedək dəmirçinin dükanına bir zəncir qayıtdırax bir ucun sən boğazına bağla, bir ucun da mən. Əyər yalan olsa, səni sürüyüp öldürəcəyəm.

Tülkü dedi:

– Yaxşı.

Getdilər dəmirçidən bir zəncir aldılar. Bir tərəfin tülkü bağladı boğazına, bir tərəfində dev. Tülkü düşdü qabağa, dev də dalcan. Yavaş-yavaş gəlirdilər.

Qız pəncərədən baxırdı, buları gördü Armud bəyə dedi:

– Əvin dağılmasın, budu tülkü devi gətirir.

Armud bəy dedi:

– Qoy gəlsin.

Bular qapıya gəldilər.

Armud bəy çıxdı dedi:

– Ədə tülkü, sənin dədən maa bir dev demişdi, yoxsa yeddi dev? Bu biri, bəs altısı hanı?

O saat dev tülkünü sürüdü öldürdü, qaçdı. Bular da bu əvdə yedilər, içdilər ləzzət apardılar.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü biri mənim, biri özümün, biri də nağıl deyənin.

# CİK-CİK XANIM

Biri vardı, biri yoxdu, Allahdan başqa heç kim yoxdu. Bir gün Cik-cik xanım qara tikan çəpərinin üstə qonub çik-çik edə-edə bu tikandan o biri tikana, o tikandan bu tikana atılıb oynuyurdu. Qoca qarı da qapıda təndir odlayırdı. Birdən Cik-cik xanımın ayağına bir tikan batdı. Cik-cik xanım başladı ağlamağa. Qarı nənə dedi:

– Ay Cik-cik xanım, niyə ağlayırsan?

Cik-cik xanım cavab verdi ki:

– Ay qarı nənə, ayağıma tikan batıb, gəl bunu çıxart.

Qarı gəlib sərçənin ayağının tikanın çıxardıb atdı təndirə. Bir az keçəndən sora Cik-cik xanım bir o yana-bir bu yana uçub dedi:

– Qarı nənə, mənim tikanımı ver özümə.

Qarı nənə cavab verdi:

– Hardan alım? Atdım təndirə, yandı.

Cik-cik xanım:

– Mənə nə borc, tikanımı verirsən ver, verməyirsən çörəyini götürüb qaçasıyam.

Qarı qaldı məhətdəl. Cik-cik xanım da o yana uçdu, bu yana uçdu, şığanıb qarının bir çörəgin götürüb qaçdı. Gögnən gedirdi, gördü bir çoban qoyun sağır. Qondu yerə. Başladı yavaş-yavaş çobana doğru gəlməyə. Çobana yaxınlaşıb dedi:

– Bərəkətli olsun, çoban qardaş! Al sana bir isti çörək gətirmişəm, doğra südə, ye.

Çoban sevinib çörəgi alıb, doğradı çanağına, üstə də bir az su töküb başladı yeməgə. Cik-cik xanımı da çağırıb dedi:

– Cik-cik bacı, gəl sən də ye.

Cik-cik xanım cavab verdi:

– Mən toxam, yemirəm, sağ ol.

Çoban çörəgi yeyib qurtarandan sora Cik-cik xanım dedi:

– Çoban qardaş, daha bundan artıq dura bilmərəm. Çörəgimi ver, gedirəm.

Çoban cavab verdi:

– Çörəgi hardan alım, yedim, çıxdı getdi.

Cik-cik xanım dedi:

– Mənə nə borcdı, yedin çörəgimi. Versən ver, yoxsa, qoyununun birisin götürüb qaçaciyəm.

Çoban cavab verdi:

– Balam, məndə nə günah var? Sən özün çörəyi verdin ki, ye, mən də yedim. Səndən güc ilə almadım ki...

Cik-cik xanım dedi:

– Buna bax, buna! Sən məndən güc ilə çörək ala bilərdin? Bir dur gör sənin başına nə oyun gətirəciyəm?

Cik-cik xanım bir oyana uçdu, bir bu yana uçdu, çobanın bir yaxşı kök qoyununu caynağına vurub götürdü qaçdı. Çoban qaldı ağlaya-ağlaya ki, axşam ağam məni dögəcək.

Cik-cik xanım da ayağında qoyun uçurdu, gördü ki, bir dəstə atlı yol ilə gedir. Onlara yaxınlaşıb dedi:

– Ay qardaşlar, hara gedirsiniz?

Onlar da cavab verdilər:

– Cik-cik xanım, gedirik padşaha gəlin gətirək.

Cik-cik xanım şad olub özün yetirdi padşahın qapısına, qoyunu quluqçulara verib dedi:

– Padşahın toyuna gətirdim.

Özü də girib oturdu otaqda.

Qulluqçular qoyunu kəsib bir yaxşı bozbaş bişirdilər, gətirib qonaqlara payladılar. Camahat qazısı ilə Cik-cik xanıma da bir qabda çörək qoydular. Qazı tez-tez yeyib Cik-cik xanımı ac qoydu. Cik-cik xanım da acığa düşüb padşaha dedi:

– Mənim qoyunumu yediniz. Mən də gedib əvəzində bu saat gəlinini götürüb qaçaciyəm.

Cik-cik xanım o qədər gözlədi ki, gəlin daramba-durum ilə darvazadan içəri girən kimi soxulub atın üstündən gəlini alıb qaçdı. Padşah da bir başına dögüb, bir gözünə dögüb, qaldı ağlaya-ağlaya.

Cik-cik xanım gəlini götürüb qaçırdı. Qaçdı-qaçdı, gəldi bir ağacın yanına; gördü ki, aşıq ağacın kölgəsində oturub saz çalır. Dedi:

– Salammələk, ay aşıq qardaş! Gəl mən gəlinimi verim, sən də sazını ver mənə.

Aşıq gəlini götürüb getdi. Cik-cik xanım da sazı alıb oturdu bir fındıq ağacının kölgəsində başladı yavaş-yavaş sazı dınqıldatmağa. Cik-cik xanım deyirdi:

Tikan verdim, çörək aldım.
Sazım dınqır, dınqır, dınqır.
Çörək verdim, qoyun aldım,
Sazım dınqır, dınqır, dınqır.
Qoyun verdim, gəlin aldım.
Sazım dınqır, dınqır, dınqır.
Gəlini verdim, saz aldım,
Sazım dınqır, dınqır, dınqır.

Birdən ağacdan bir fındıq düşdü sərçənin başına, Sərçə xanım da ordaca öldü.

## DANA, KEÇİ VƏ QOYUN

Biri vardı, biri yoxdu. Bir dana, bir keçi, bir qoyun yoldaş olub yolnan gedirdilər. Gəldilər çıxdılar bir arxın qırağına, gördülər bırda bir əyri söyüd ağacı var. Keçi dırmaşdı söydün lap başında durdu. Qoyun da gücün-gücün çıxıb bir qanatda durdu. Dana da bir qanadın üsdə özün sərdi.

Bu dəkkədə bir canavar gəldi çıxdı bıra, başın qalxızdı gördü bir keçidi, bir qoyundu, bir də bir danadı. Ağaca çıxırlar. Canavar baxdı, o saat dana qorxusunnan uçundu özün ağacda saxlıya bilmədi. Tappıltıynan düşdü yerə. Canavar isdədi dananı parçalayıb yesin. O saat keçi ağacda çığırdı.

– Dana qardaş, bərk tut canavarı gəldim.

Canavar qorxudan bəyaqdı, götürüldü.

Canavar qaçannan sora keçi də, qoyun da düşdü ağacdan yerə. Üçü də yavaş-yavaş gəldilər çıxdılar bir dəyirmana. Bı keçinin də bir çomağı, bir də, bir çürçənəsi vardı. Çomağı söykədi qapının dalına. Çürçəni də qoydu altına. Yığıldılar bırda oturdular, birəz oturdular, söhbət eləyirdilər, bir də gördülər qapı açıldı, budu bir asdan girdi içəri. Dalıncan da bir canavar girdi. Bir xeylax ara verdi, bir də gördülər genə qapı açıldı bir tülkü girdi. Birəz oturdular, qoyun, keçi, dananı görən kimi aslan dedi:

– Canavar qardaş, buları bölgünən.

Canavar dedi:

– Dana səhər ertəmizin, qoyun günortamızın, keçi də axşamızın.

O saat başdan bunun başına bir pəmpəçə vurdu ki, gözdərinin ikisi də çıxdı.

Dedi:

– Tülkü baba, canavar qardaş bölə bilmədi. Sən böl.

Tülkü baba dedi:

– Elə bunu Allah bölür dayna, ta mən nəyə böləciyəm. Qoyun səhər ertənə, keçi günortana. Qoyun da axşamına.

Aslan dedi:

– Ay sağ ol. Bunu hardan öyrənmisən?

Tülkü baba dedi:

– Odey, o gözü çıxmış qardaşımnan!

Aslan dedi:

– Tülkü baba, bir çıx çölə bax gör, adam yoxdu ki, mən dananı yeyim.

Tülkü qapıdan çölə çıxanda gördü qapının ağzında bir əli çomaxlı adam durub. Qorxusundan götürüldü: "Ya Əli mədət!" Canavarın da axı, gözdəri çıxmışdı. Bı da durdu ora-bıra dəyə-dəyə çıxıb çölə qaçdı. Gözdədi, gördü bular gəlmədi. Durdu özü çıxdı. Gördü qapının ağzında əli çomaxlı bir adam durub. Bı da qaçdı.

Bular birəz oturdular, durdular. Keçi ağacın da götürdü, çürçənəsin də. Üçü də yola düşdülər. Getdilər çıxdılar bir dağın döşünə. Bırda bir çoban bir sürü qoyun otarırdı. Bir də gördü bir keçidi, bir qoyun, bir dana budu gəlir. Çoban sevinə-sevinə buları yığıb apardı. Qatdı sürüsünə, dedi:

– Allah bunu ta yetirip.

O yedi yerə keçdi. Siz də yeyin, dövrə keçin.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## QIZIL VƏ İLAN

Səfər adlı bir yoxsul kişi var idi. Səfər kişinin bir oğlu, bir arvadı var idi. Bir də var-dövlətdən bir inəyi var idi. Səfər kişinin peşəsi çöldən biyan çıxardıb satıb külfətini dolandırmaq idi.

Səfər kişi bir gün genə çölə biyan çıxartmağa getmişdi. Çöldə biyan qazanda, gördü biyanın dibində bir qızıl ilan yatır. Qızıl ilan səfər kişini görüb ayıldı, dedi:

– Ay kişi, bı biyan qazıyıb satmaqnan gündə neçə qazanırsan?

Səfər kişi köksünü ötürüb dedi:

– Ay başına dönüm, gündə bu biyan qazımaq ilən ikicə şahı qazanıram.

İlan dedi:

– Gündə iki şahı qazanmaq ilən külfətini necə dolandıra bilirsən? Sən gündə maa bir qab süd gətir mən içim hər gün saa bir ləl verim, apar xırdala, dolan.

Səfər kişi baş üstə deyib, qızıl ilana baş endirib getdi.

Sabahı bir qab süd gətirdi, qoydu bir kolun dibinə. Qızıl ilan gəldi, südü içdi, ağzınnan bir ləl qabın içinə saldı getdi. Səfər kişi ləli götürüb sevinə-sevinə evinə gəldi. Apardı bazarda ləli xırdaladı, əvinə əyər-əskiy aldı.

Səfər kişi sabah yenə qızıl ilana süd apardı. Qızıl ilan gəldi, südü içdi, qaba genə bir ləl saldı, getdi. Səfər kişi ləli götürüb getdi, xırdaladı, genə evinə şey aldı. Səfər kişi bu yolnan hər gün ilana süd aparır,

bir ləl alır, gözəl dolanırdı. Bir gün Səfər kişi qırx günlük səfərə gedəsi oldu. Oğlunu yanına çağırıb dedi:

– Ay oğul, mən səfərdən gələnə kimi hər gün anan südü sağsın, mən biyan çıxartdığım yerdəki kolun dibinə qoy. Bir qızıl ilan gələr, südü içər, qaba ləl salar gedər, sən ləli gətir, anan qoysun sandığa saxlasın.

Səfər kişi bu sözü deyib getdi səfərə.

Sabahı oğlan bir qab südü sağdırıb apardı atası diyən kolun dibinə qoydu. Qızıl ilan çıxdı, gəldi südü içdi, qaba bir ləl saldı getdi. Oğlan ləli gətirdi anasına verdi. Oğlan sabah genə süd apardı, genə ləl gətirdi, oğlan bir neçə gün belə elədi, axırda bezikdi. Dedi:

– Elə bir yollux vırram, qızıl ilan ölər, bütün ləllərini gətirrəm evmizə.

Oğlan sabah bu fikirnən bir qab süd apardı, qoydu kolun dibinə. İlan gəldi südü içdi, bir ləl salıb qaba, qayıdanda oğlan vurdu, qızıl ilanın quyruğu qırıldı. Qızıl ilan çevrildi vırdı, oğlan yandı kül oldu.

Qırx gün tamam oldu Səfər kişi səfərdən qayıtdı. Oğlunu evdə görmədi. Arvadınnan oğlunu xəbər aldı. Arvad dedi:

– Bir neçə gün munnan qabax süd apardı getdi, geri qayıtmadı.

Səfər kişi tez süd götürüb gəldi, südü kolun dibinə qoydu. Qızıl ilan gəldi, südü içdi, ləl salmadı, getdi girdi yuvasına. Yüzünü çevirdi Səfər kişiyə dedi:

– Bir də buraya gəlmə, səni vurram, yanıb kül olarsan.

Səfər kişi qorxa-qorxa dedi:

– Mənim nə günahım var ki, vurub kül eləyirsən.

Qızıl ilan dedi:

– Munnan artıq nə günahın olacaq. Bizim aramızda olan sirri özgəsinə verdin, indi hanı mənim quyruğum, hanı sənin oğlun? Munnan sora bizim dostlığımız tutmaz. Sənin sinəndən oğul dağı getməz, mənim sinəmnən quyruq dağı getməz.

Qızıl ilan bunu deyib yuvasına girdi, yazıq yoxsul Səfər kişi də kor-peşiman evinə qayıtdı. Genə biyan çıxardıb kasıblığınan dolanmağa, ömür sürməyə, gün keçirməyə başdadı.

Göydən üç alma düşdü, biri bacadan baxanlara, biri nağılı söyləyənlərə, biri də nağıla qulaq asanlara.

Olar yedilər, içdilər, yerə keçdilər, biz yedik, içdik, dövrə keçdik.

## CIRTDAN

Biri varmış, biri yox imiş, bir qoca qarı var imiş. Bu qarının bir balaca oğlu var imiş. Bu uşaq o qədər balaca imiş ki, buna Cırtdan deyərlərmiş. Bir gün Cırtdan gördü ki, qonşuların uşaqları meşəyə oduna gedirlər. Gəlib anasına deyir, ay ana, uşaqlar ilə mən də oduna gedəcəyəm.

Qarı uşaqları çağırıb hər birinə bir parça yağ yaxması verib, Cırtdanı onlara tapşırdı.

Uşaqlar meşəyə gedib odun topladıqdan sora görürlər ki, Cırtdan odun toplamayır, ona deyirlər:

– A Cırtdan, sən niyə odun toplamayırsan?

Cırtdan cavab verir:

– Anam sizə yağ yaxması verdi ki, mənim də odunumu toplayasınız.

Uşaqlar bunun da odununu toplayırlar və sora hər kəs öz odununu yükləyib yola düşmək istəyəndə gördülər ki, Cırtdan oturub baxır. Buna deyirlər:

– A Cırtdan, sən niyə odununu yükləməyirsən?

Cırtdan cavab verdi:

– Anam sizə yağ yaxması verdi ki, mənim də odunumu gətirəsiniz.

Uşaqlar əlacsız qalıb bunun da odunun gətirirlər. Bir az yol getdikdən sora görürlər ki, Cırtdan geridə qalıb ağlayır. Buna deyirlər:

– A Cırtdan, niyə ağlayırsan?

Cırtdan cavab verdi:

– Yorulmuşam, anam sizə yağ yaxması verdi ki, mən yorulanda məni də dalınıza götürəsiniz.

Uşaqlar əlacsız qalıb bunu da dallarına götürürlər. Bir xeyli yol getdikdən sora axşam olur, qaranlıq qavışanda yolu azırlar. Meşədən çıxanda baxıb görürlər ki, bir səmtdə it hürür və bir səmtdən işıq gəlir.

Onda Cırtdana deyirlər:

– Ay Cırtdan, it hürən səmtə gedək, yoxsa işıq gələn səmtə?

Cırtdan cavab verdi:

– İt hürən səmtə getsək it bizi yeyər. İşıq gələn səmtə gedək, bəlkə yolu tapaq.

Uşaqlar işıq gələn tərəfə gedib bir devin evinə çıxırlar. Dev bunları görəndə sevinir və öz-özünə deyir:

– Yaxşı oldu, gecə bunları bir-bir yiyərəm.

Bunları gətirib evdə oturtdu və uşaqlara bir az çörək yedirdib yatırdır. Gecədən bir az keçəndən sora dev uşaqların birini yemək istəyir və uşaqların yatıb-yatmadığını bilmək üçün deyir:

– Kim yatmış, kim oyaq?

Bu səsi eşidəndə tez Cırtdan başını qaldırıb deyir:

– Hamı yatmış, Cırtdan oyaq.

– Cırtdan nə üçün oyaq?

– Çünki anası hər gecə ona qayğanaq bişirib yedirib yatırardı.

Dev qalxıb tez qayğanaq bişirib, yedirdib yatırtdı, bir qədər keçəndən sora dev yenə soruşdu:

– Kim yatmış, kim oyaq?

Genə də Cırtdan başını qaldırıb deyir:

– Hamı yatmış, Cırtdan oyaq.

– Cırtdan nə üçün oyaq?

– Çünki hər gecə anası gedib çaydan ona xəlbirdə su gətirərdi.

Bu sözü eşitdikdə, dev qalxıb bir xəlbir götürüb çaya su gətirməgə gedir.

Cırtdan da tez yoldaşlarını qaldırıb deyir.

– Bu dev bizi yemək istəyir, qalxın qaçaq.

Uşaqlar tez qaçırlar və vurub çaydan keçirlər.

Bu tərəfdən dev xəlbiri nə qədər suya salıb qadırırsa, görür xəlbirdə su qalmadı. Axırda təngə gəlib qayıtmaq istəyirdi, bir də baxıb

gördü ki, uşaqlar çayın o tərəfində gedirlər. İstədi sudan keçib uşaqların dallarınca getsin, sudan keçə bilməyir və axırda uşaqları səsləyir:

– Ay uşaqlar, sudan nətər keçdiniz?

Tez Cırtdan cavab verdi:

– Get, bir dənə dəyirman daşı tap boynuna keçir, ondan sora keçərsən.

Dev Cırtdanın sözünə inanıb gedib bir dəyirman daşı tapıb boynuna keçirir. Özünü suya salır və suda boğulub ölür. Uşaqlar salamət evlərinə qayıdırlar.

## HAXNƏZƏR

Biri var imiş, biri yox imiş, bir arvadın Haxnəzər adında qorxaq bir əri var imiş. Bu kişi tülküdən o qədər qorxarmış ki, evdən eşiyə çıxmaz imiş. Arvadı gedib qazanırmış, bu da rahat yeyərmiş.

Bir gün arvad ərindən qonşu arvadlarına şikayət edirdi. Bir arvad buna söyləyir:

– Get, iki girvənkə kişmiş al. Gətirib darvaza qapısının eşiyindən başlıyaraq evin qapısına kimin tökərsən və sora kişiyə deyərsən ki, ay kişi, eşiyə kişmiş tökülüb gəl yığaq və birdən itələyib darvazadan eşiyə salıb bağlarsan. Onda əlacı kəsilib gedib pul qazanar.

Arvad gedib iki girvəngə kişmiş alır, darvazanın eşiyindən evin qapısına kimin tökür. Sora gəlib kişini tavlayıb kişmiş yığmağa başlayırlar. Darvazaya yetişəndə birdən itələyib kişini küçəyə salıb bağlayır. Küçədə kişi nə qədər bağırırsa, arvad darvazanı açmayıb buna deyir ki:

– Bu zamana kimin çalışıb mən qazandım, bundan sora sən qazanmalısan.

Kişi görür ki, arvad darvazanı açmayacaq, axırda əlacı kəsilib arvada deyir:

– Get mənim çomağımı və xurcuna bir qədər un, bir neçə yumurta, bir çuvalduz iynəsi qoy bura gətir.

Arvad dedikləri şeyləri gətirib buna verdi. Kişi xurcunu çiyninə salıb, çomağı əlinə alıb, yol başlayır. Az gedir, üz gedir, dərə təpə düz

gedir, gəlib bir çəmənə yetişir. Burada yuxusu gəlir. Götürüb bir kağız yazır.

"Haxnəzərəm, Haxnəzər, qırx devin başın birdən əzərəm".

Sonra xurcunu başının altına, kağızı da yanına qoyub yatır.

Bir az keçir, bunun yanına bir dev gəlir, kağızı alıb oxuyanda təəccüb edir ki, bu necə adamdır ki, qırx devin başını birdən əzir. Bunnan çox maraqlanıb Haxnəzəri oyadır ki, qalx, bir az söhbət edək. Bir az söhbətdən sora Haxnəzər yerdən bir daş götürüb devə verdi ki:

– Dev qardaş! Bu daşı əz.

Dev daşı alıb əlinə oxalayıb yerə tökdü. Bir az keçdi, dev yerdən bir daş götürüb Haxnəzərə verdi:

– Sən də bunu un elə.

Haxnəzəri göz-göz eləyib daş tollayıb xurcundan bir avıc un götürüb əlində bərk sıxdıqdan sora, onu devin qabağına tökür. Dev bu işdən çox təəccüb edir. Bir az keçir Haxnəzər yerdən bir daş götürüb devə verir ki:

– Dev qardaş, bu daşı əz, su olsun.

Dev daşı genə də oxalayıb yerə tökür. Dev də yerdən bir daş götürüb Haxnəzərə verir ki, bunu sən su elə.

Haxnəzər genə də göz-göz eliyib daşı kənarə atıb, xurcundan bir yumurta gətirib əlində əzib devin qabağına tökür.

Dev təəccüb edib öz-özünə deyir ki, bu kişi bizdən çox qüvvətlidir.

Dev Haxnəzərə deyir ki:

– Biz yeddi qardaşıq, gəl mənimlə gedək, olax səkkiz qardaş.

Haxnəzər razı olur.

Dev onu dalına alıb yola düşür. Yolda dev ondan sorur ki:

– Qardaş, nə yüngülsən?

Haxnəzər cavab verir ki:

– Ağırlığımı salmayıram.

Dev deyir:

– Bir ağırlığını sal görüm necəsən?

Haxnəzər çuvaldız ignəsini çıxardıb bunun yanına soxur.

Dev görür ki, yanı alışdı, bağırır:

– Amandır qardaş, ağırlığını salma, az qaldı canım çıxa.

Haxnəzər ignəni çıxardıb genə xurcuna qoydu. Qərəz bir müddət yol gedəndən sora devin evinə yetişirlər. Devin qardaşları bunu görəndə

sevinib istəyirlər ki onu yesinlər. Amma Haxnəzəri gətirən dev qabağa yeriyir, onlara əhvalatı söyləyib deyir:

– Artıq bu bizim qardaşımızdı. Bunu kimsə incidə bilməz.

Devlər də qəbul edib bunu özləriynən qardaş edirlər.

Qərəz Haxnəzər bunların yanında qalır. Görür ki, devlər hər işi növbət ilə görürlər. Bir gün su gətirmək növbəti Haxnəzərə gəlir. Buna bir tuluq verirlər ki, getsin su gətirsin. Yolda Haxnəzər baxıb deyir ki, bu yalnız tuluğu güc ilə gətirir su dolduranda heç gətirə bilməyəcəkdir. Odur ki, tuluğu götürüb içinə bir az su qoyub qayıdır devlərə çatanda tuluqdakı suyu tökməyə başlayır. Devlər gəlirlər ki, bunlara da su versin Haxnəzər cavab verir:

– Gətirdiyim su mənim özümə ancaq çatacaqdır. Siz gedin özünüz üçün su gətirin.

Devlərin əlacı kəsilib gedib özləri üçün su gətirirlər.

İki gündən sora odun gətirmək növbəti Haxnəzərə düşür. Haxnəzər çoxlu kəndir götürüb meşəyə gedir. Görür ki, yeddi-səkkiz zorba ağac kökündən yıxılıb. Kəndirləri gətirib bu ağaclara bağlayıb hamısını birdən sürümək istəyir, nə qədər çəkirsə, yerindən hərəkət etdirə bilməyir. Devlər nə qədər gözləyir Haxnəzər gəlməyir, axırda tez durub onun dalınca meşəyə gedirlər və gəlib görürlər ki, Haxnəzər yeddi-səkkiz köklü ağacı kəndirə bağlayıb çəkir. Bundan soruşurlar:

– Haxnəzər, qardaş, nə edirsən?

Cavab verir:

– İki gündənbir gəlib odun aparmaqdansa, altı aylığını birdən aparmaq yaxşıdır, – deyib kəndiri çəkməyə başlayır.

Devlər buna deyirlər:

– Sənin odunun bizə lazım deyildir bu saat meşəbəyi gəlib görsə hamınızı tutar, – deyib Haxnəzəri bir təhər razı edib evə aparırlar.

Haxnəzərin bu işlərini gördükdə devlər ondan qorxub onu öldürmək fikrinə düşürlər və öz aralarında danışıb belə qərar qoyurlar ki, axşam Haxnəzər yatanda aparıb başına bir dəyirman daşı salsınlar. Bu sözlərin hamısını Haxnəzər eşidir və gecə yatanda gedib bir kötük tapıb gətirib öz yerində qoyub yorğanı da üstünə çəkib, özü bir tərəfdə gizlənir.

Gecə devlər bir dəyirman daşı tapıb gətirib Haxnəzər güman edib kötüyün üstə salıb qaçırlar.

Devlər gedəndən sora Haxnəzər kötüyü götürüb bir tərəfə tollayıb, gəlib öz yerində rahat yatır. Sübh olanda divlər gəlirlər ki, Haxnəzərin meyitin aparıb yesinlər. Baxıb görürlər ki, Haxnəzər yenicə oyanmış, paltarını geyinir. Bundan sorurlar:

– Qardaş, gecəni necə yatdın?

Cavab verir:

– Birələr bir dəfə hücum edib məni bir az narahat etdilər.

Bunu eşidən devlər daha da artıq qorxdular və öz aralarında qərar qoydular ki, gecə onun üstünə qaynar su töksünlər. Bu söhbəti genə də Haxnəzər eşidir, gecə yatanda gənə də həmən kötüyü götürüb öz yerinə qoyub yorğanı üstə çəkir və özü də bir tərəfdə gizlənir.

Gecə olanda devlər iki qazan qaynar su götürüb kötüyün üstə töküb qaçırlar.

Devlər gedəndən sora Haxnəzər gəlib kötüyü bir tərəfə tollayıb rahat öz yerində yatır. Sübh olanda devlər gəlirlər ki, görsünlər Haxnəzərin əhvalatı necə olmuş. Gəlib görürlər ki, yuxudan oyanmış paltarını geyir. Bundan sorurlar:

– Gecə əhvalın necə keçdi?

Cavab verir:

– Gecə bərk tərləmişdim.

Bu əhvalatdan sora devlər Haxnəzərdən qorxurlardı və bunu gətirən devə deyirlər:

– Bunu aparıb evinə qoy.

Bu da bunun xurcununu qızıl-gümüş ilə doldurub dalına alır, aparıb evinə qoyub qayıdır. Bundan sora zəhmətsiz yeyib yaşayırlar.

# KEÇƏLİN DİVANI

Biri vardı, biri yoxdu. İki qardaş vardı, böyük qardaşın adı Salah, kiçik qardaşın adı Valah. Bular İsfahanda olurdular. Buların hər ikisi böyük, addı şəyirdlərdilər. Bular sınıx düşdülər, kasıb oldular ki, ta nətər.

Bir gün Salah Valahı çağırıb dedi:

– Qardaş, gəl burdan yığışaq bir şəhərə gedək abrımız açılmasın, ayıpdı.

Burdan yığışdılar, yavaş-yavaş getməyin binasını qoydular. Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, çıxdılar bir şəhərə. Soruşdular ki, bura hankı şəhərdi?

Dedilər:

– Hindistan şəhəridi.

Bular hərəsi gedib bir tacirə nökər oldular. Buların ili tamam oldu. Valahın ağası gətirdi haqq-hesab çəkdi ki, görək nəfimiz, ziyanımız nədi? Gördülər on iki abbası ikisinin nəfləri olub. Tacir dedi:

– Qalacaxsan bala, təzəliyək?

Dedi:

– Qalacağam.

Bular şərti təzələdilər, bu genə oturdu dükanda. O ili qaldı, gələn il genə başladılar haqq-hesab çəkməyə. Genə buların on iki abbası nəfləri oldu. Dedi:

– Bala, Allah bərəkət versin.

Sonra yenə soruşdu ki, bala, genə qalacaxsan, gedəcəksən?

Dedi:

– Qalacağam.

Tacir gördü ki, bı elə müsəlman adamdı ki, çox da yaxşı alver eləyir. O ili qaldı, alverin elədi, gələn il yenə haqq-hesab çəkdilər: on iki abbası nəfləri oldu. Valah üç ildə on səkkiz abbası nəf elədi. Kağızların təzələdilər. Bı o ürəginnən keçdi ki, bu ki belə düz alver eləyir, gərək buna maya verəm, özü alver eliyə. Bı heyində qardaş gəldi, dedi:

– Qardaş, getmirsən sən? Mən gedirəm.

Valah dedi:

– Ay qardaş, mənim nəyim var ki, gedəm.

Salah dedi:

– Neçə manatın var?

Dedi:

– On səkkiz abbasım var.

Salah dedi:

– Altı yüz manat qazanmışam, mən gedirəm.

Valah dedi:

– Yox qardaş, mən onnan gedə bilmərəm.

Salah dedi:

– Onda sən çıx bazara, barı bir az uşaxlarına ayın-oyun al, ver aparım, deyim bunu alıb göndərib.

Valah çıxdı bazara, gördü ki, bir balaca uşağın əlində bir ləl var. Soruşdu ki:

– Bala, satarsanmı?

Uşaq dedi:

– Sataram.

Dedi:

– Bala, nəçiyə verirsən?

Dedi:

– Əmi, bir az yeməli şey al, verim saa.

Valah getdi, bir az kişmişdən, noxuddan, ayın-oyun aldı, tökdü bunun ətəyinə.Ləli aldı, getdi. Dedi:

– Qardaş, mən gedə bilmiyəcəcəm. Kağızımızı bağlamışıq. Sən get, bı ləli də apar ver mənim külfətimə, xırıd eləsin uşaqları dolandırsın, mənim də işim yaxşıdı. İlim tamam olsun, gələcəyəm.

Salah ləli də götürdü mənzilbəmənzil gəldi çıxdı İsfahana. Arvad gəldi Salahın yanına dedi:

– Bəs, Valah necə oldu?

Dedi:

– Elə Valah gedəndə öldü.

Arvad dedi:

– Bəs mənim bı yetimlərim necə olacaq?

Dedi:

– Mən nə bilim, gör necə olacaq?

Bir gün günorta vaxtıdı tacir dedi:

– Valah, bala, get havızdan aftafanı doldu, namazımızı qılax, vaxdı keçməsin.

Havız bir baxçadeydi bu tələsik-tələsik getdi ki, namazın vaxtı keçməsin. Ayağın qoydu kərpicə qalxanda kərpic düşdü yerə. Valah bir istədi kərpici yerinə qoysun, heç bilinməsin, gördü bı kərpicin altında bir küp var. Baxdı gördü, bı küpün içindəki elə ləldi ki, heç qiyməti yoxdu. Bı öz ürəyində dedi: "Ay allah, bı nə pis iş oldu. Tacir deyəcək ki, elə mən buna xayanat eləmişəm. Bı kərpici mən nətər eliyim qoyum yerinə ki, heç bilinməsin?"

Getdi aftafanı verdi, dedi:

– Ata, ürəyinə ayrı şey gəlməsin. Bərk getdiyim yerdə ayağımın altınnan bir kərpic qalxdı. Amma o lələrə heç əlimi də vurmamışam.

Dedi:

– Bala, neynək. Get dükanına.

Kişi dəsdamazın alıb, namazın qıldı. Gəldi yavaşca həmən kərpici qalxızdı, gördü: bırda bir küpə ləl var ki, heç qiyməti yoxdu. Bı ləldən xeylaq çıxartdı, gətirdi əvə. Axşam olanda dedi:

– Valah, bilirsən nə var?

Dedi:

– Xeyr.

– Ləlləri gətirərsən, aparıb Çində xırıd eliyərsən.

Valah dedi:

– Baş üstə!

Tacir səhər bir neçə nökər də tutdu bunun yanına. Buları yola saldı.

Valah getdi Çinə, başdadı xırıd eləməyə. Sövdəgər ləllərin qalanını da çıxardıb gətirdi əvə. Yığdı bir sandığa. Bir kağız da yazdı qoydu

içinə. Bı kağıza yazdı ki, ey Valah, bı lələri də, ordakı lələri də xırıd eliyib, verərsən, mal alarsan. Yük tutub öz vilayətinə gedərsən. Bırda nə yemisən, nə əziyyət çəkmişəm, hamısı halal xoşun olsun.

Kağızı qatdadı sandığı da bağladı. Bir nökər çağırdı dedi:

– Bir at minərsən bunu aparıp Çində verərsən Valaha. Bir kağız da dübarə yazdı verdi nökərinə:

– Valah, Allahın birriyi haqqı, qayıdıp bura gəlsən, boynını vırdıracıyam. Get, öz şəhərinə. Mataxlarını xırıd elə.

Nökəri saldı yola. Nağıllarda mənzil olmaz. Bı nökər günə bir mənzil, tey mənazil getdi çıxdı Çin şəhərinə. Getdi Valahı tapdı, gördü elə Valah xırıd eliyip yük tutub qayıdır. Nökər kağızı verdi. Açdı oxudu gördü belə yazıb. Sandığı açdı, gördü bir kağız da yazıb bıra qoyub. Valah buları da satdı, yük tutub İsfahana gəlməyin binəsin qoydu. Axır aradan üç il keçmişdi. Gəldi çıxdı İsfahana. Bu fikir elədi, öz könlündə dedi:

– Dünyadı dayna, bəlkə tamax artıxlıx eliyip ləli vermiyip. Hələ əvə getmiyim, görüm bir şey bilə bilərəmmi?

Gəldi bir karvansara tutdu, başdadı matahın xırıd eləməyə.

Bı bırda qalsın, sizə kimnən xəbər verim, şəhərdə qırx keçəl vardı. Bının birin öz aralarında paçcah tikmişdilər, qalanına da gündə hərəsinə bir aşıx donnux kəsmişdilər. Bı keçəl batdaxdan səki qayırmışdı. Paçcah oturmuşdu səkidə ayağın-ayağının üsdən aşırmışdı. Birin vəzir, birin də vəkil tikmişdilər. Keçəl:

– Tutun, gətirin, basın, – deyirdi.

O saat əməl eləyirdilər. Həmən keçəl Valaha yaxın oldu.

Bir gün Valah gördü bir arvad o adama, bı adama əl açır ki, maa bir qəpik, iki qəpik verin. Gəldi Valaha. Valah baxdı gördü öz arvadıdı. Dedi:

– Az, sən Valah sövdəgərin arvadı deyilsən?

Arvad dedi:

– Bəli!

Bı keçəl də bunu eşidirdi.

Dedi:

– Az, Valah sövdəgər Salaha bir ləl verdi ki, bunu apar ver mənim külfətimə, mən bu il gələsi olmadım qalacağam, onu vermədi?

Arvad dedi:

– Xeyr, vermədi.

Dedi:

– Valah sövdəgər o ləli mənim yanımda verdi ki, onu ver mənim külfətimə xırıd eləsin, uşaqları saxlasın.

Arvad dedi:

– Salah gələndə getdim soruşdum dedi, Valah gedən kimi öldü.

Valah dedi:

– İndi sən get Şah Abbasa şikayət elə. Məni də şahat[1] görkəz. Mən gəlip deyərəm.

Arvad gəldi Şah Abbasın yanına, dedi:

– Şah sağ olsun, mənim ərimnən qardaşı gedib başqa şəhərə. Gələndə Salah sövdəgərə bir ləl verib ki, bunu apar ver mənim külfətimə. İndi gətirib verməyir. Mən də dilənirəm.

O saat fərraş yolladı:

– Gedin, Salah sövdəgarı çağırın.

Getdilər Salah sövdəgəri gətirdilər.

Şah Abbas dedi:

– Filan-fılanşüdə, adam qardaşının amanatın gətirib verməz? İndi arvadı dilənir.

Salah dedi:

– Şah sağ olsun, mən onu çoxdan vermişəm, arvad lotunun biridi, satıb yeyib, indi deyir, vermiyib. Neçə adam da şahat görkəzərəm.

Şah dedi:

– Get o şahatdarı da yığ gətir, gəl bura.

Getdi bir neçə yalançı şahat gətirdi. Hamısı dedi:

– Verdi.

Şah Abbas arvada dedi:

– Bunu, saa kim dedi?

Arvad dedi:

– Filan yerdə bir sövdəgər var, o dedi.

Şah Abbas dedi:

– O sövdəgəri gətirin bıra.

Onlar getdi gətirməyə. Keçəl əhvalı bilib, o saat dedi:

– Fərraşdarı gətirin bura.

Gedib gətirdilər.

Keçəl ayağın yerə döyüb dedi:

---

[1] Şahat – şahid

– Vurun bunları, məyər mənnən başqa bırda paçcah var?

Fərraşdar qaçdı, özdərin yetirdi Şah Abbasa.

Keçəllərdən ikisini göndərdi ki, gedin bu dəqiqə də o Abbasdınədi, onu gətirin bıra. Fərraşlardan əhvalı eşidib fikirləşdi. Bir də Şah Abbas baxdı gördü iki adam girdi içəri:

– Abbas kimdi? Paçcah onu çağırır.

Şah Abbas ürəyində dedi: "Sən öl, məsələ var".

Vəzirə dedi:

– Vəzir Allahverdixan, dur gedək, görək bı nə deyir?

Yolda dedi:

– Vəzir Allahverdixan, əyər mən gedəndə durdu ayağa boynunu vurduracağam. Bunda bir kəramət var.

Yavaş-yavaş gəldilər keçəlin qulluğuna. Baxdılar gördülər heç bı keçəl başın yuxarı qalxızmır. Keçdilər qabağında durdular, gördülər heç, genə başın yuxarı qalxızmadı. Bir havırdan sora başın qalxızdı dedi:

– Abbas sənsən?

Dedi:

– Bəli.

Dedi:

– O sövdəgəri neynirsən çağırıp?

Dedi:

– Bəs belə-belə.

Dedi:

– Bəs belə-belə, yalan danışıb ona görə çağırtdırdım!

Keçəl yanınnan iki keçəl çağırtdırdı dedi:

– Gedin Salah sövdəgəri də, şahatdarın da gətirin bıra.

Getdilər, gətirdilər. Keçəl Salah sövdəgərdən buların yanında soruşdu:

– Sən o ləli vermisən arvada?

Dedi:

– Bəli.

Arvad da, Salah sövdəgər də, Valah sövdəgər də, Şah Abbas da, vəzir Allahverdixan da, şahatdar da bırda idilər.

Keçəl dedi:

– Buları doldurun bir otağa.

Doldurdular buları bir otağa. Yalnız Şah Abbasnan vəziri qaldı. Şah Abbas vəzir Allahverdixana dedi:

– Sən öləsən, divan bunınkıdı, görək neyniyir.

Bı birəz batdax gətirdi, bunı balaca-balaca, qarpız-yemiş, xiyar, şamama boyda yumurtlatdırdı. Salah söydəgəri çağırtdırıb dedi:

– O ləli vermisəm arvada?

Dedi:

– Bəli. Beş-altı adamın yanında vermişəm.

Dedi:

– O ləl nə irilikdə idi? Bı batdaxların hansı boydeydi?

Salah dedi:

– İri təsbehin dənəsi boyda.

Dedi:

– Di, dur orda.

Fərraşın birinə dedi:

– O şahatın birin gətirin bıra.

Gətirdilər. Dedi:

– Əşi, o ləli sənin yanında verdi?

Dedi:

– Bəli.

Dedi:

– O ləl nə irilikdeydi? Qarpız boydaydı? Yemiş boydaydı? Boranı boydaydı? Nə boydaydı?

Bı da ləl görməmişdi, dedi:

– Boranı boydaydı.

Dedi:

– Onun rəngi nə rəngdəydi? Ağıdı, göyüdü? Nətəridi?

Dedi:

– Pambıxdan da ağıdı.

Şah Abbas dedi:

– Vəzir Allahverdixan, sən öləsən, divan bunınkıymış.

Keçəl dedi:

– Hə qoçağım, get dur orda.

Onnan da birin gətirtdirdi, dedi:

– Əşi, o ləli sənin yanında verib?

Dedi:

– Bəli.

Dedi:

– Nə boydeydi?

Dedi:
– Qarpız irilikdeydi.
Dedi:
– Rəngi nətərdi?
Dedi:
– Ağ kağız kimiydi.
Bunu da saldılar o birilərinin yanına. Başqa birin çağırdılar, bunnan da soruşdu:
– Sənin yanında verdi?
Dedi:
– Bəli.
Dedi:
– Nə boydeydi?
Dedi:
– Yemiş boydeydi.
Dedi:
– Rəngi nətərdi?
Dedi:
– Göyüdü.
Bunu da saldılar oların yanına. O birin gətirdilər.
Dedi:
– Sənin yanında verdi?
Dedi:
– Bəli.
Dedi:
– Nətəridi?
Dedi:
– Uzun şülləy idi.
Dedi:
– Rəngi nətər idi?
Dedi:
– İri xiyardan iriydi, rəngi də sarıydı.
Dedi:
– Qoçağım, sağ ol, get!
Apardılar bunu da onun yanına saldılar. Birin gətirdilər.
Dedi:
– Sənin yanında verdi?

Dedi:
– Bəli.
Dedi:
– Nə boydeydi?
Dedi:
– Şamamadan iriydi.
– Rəngi nə idi?
Dedi:
– Qırmızıydı.
Dedi:
– O biri sövdəgəri gətirin.
Valah sövdəgəri gətirdilər.
Dedi:
– Əşi, o ləli sənin yanında verdi.
Dedi:
– Bəli.
Dedi:
– Nə boydeydi?
Dedi:
– İri təsbehin dənəsi boyda.
Dedi:
– Rəngi nəydi?
Dedi:
– Onun rəngi bir olmaz, gah ağ çalar, gah yaşıl çalar, gah göy çalar, qarannıx yerdə işıq salar.
Qalxdı düşdü Şah Abbasın ayağına dedi:
– Şah, taa ixtiyar sənindi. Nə eləyəcəksən elə.
O saat Şah Abbas qayıtdı qırmızı geyindi, çıxdı taxta.
Dedi:
– Gətirin Salah sövdəgəri, şahatdarın da.
Gətirdilər. Arvadı da gətirdilər. Şahatdara dedi:
– Bəs siz, görməmişdiniz niyə şahat dururdunuz.
Dedilər:
– Qibleyi-aləm, bizim hərəmizə beş-on manat verdi ki, durun, biz də durdux.
Şahatdara dedi:

– Sizin boynunuzu vırdırmazdım. Amma indi vırdırıram ki, mənim şəhərimdə bir də belə iş olmasın.

Bı görk olsun diyə, buların boynun cəllad çağırtdırıp vırdırdı. Onnan da Salah sövdəgərin boynun vırdırdı. Sövdəgərin nə qədər malı vardı yığdı verdi bı arvada, dedi:

– Apar yeginən.

Sövdəgər dedi:

– Axşam gedim arvadın halın da soruşum, görüm məni tanıyacax, ya yox.

Axşam yavaş-yavaş gəldi əvinə sarı. Qapıdan girdi, gördü arvad xörəyi vırıp dəmə, dedi:

– Əy, arvad.

Dedi:

– Belə-belə olasan, dünən maa bir yaxşılıq eləmişən, bu gün maa arvad deyirsən?

Dedi:

– Arvad səf eləmə, mən sənin öz ərin Valah sövdəgərəm.

Arvad baxdı, gördü öz əridi. Təzədən görüşdülər. Valah başına gələnnəri arvada söylədi. Bırda xörəyi də yedilər, içdilər, yaşadılar.

O yedi yerə keçdi. Siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

# USTA ABDULLA

Gülüzarı-məlahətdə gözüm bir gülə düşdü,
Alxala siya sünbülə düşdü.
Əfsus, dərdim dildən-dilə düşdü,
Hər aşiqi-sevda özün yara yetirdi.
İğval zəmin oldu, bizimki də belə düşdülər.

Həkan-həkan içində,
Qoz girdəkan içində,
Dəvə dəlləklik elər,
Köhnə hamam içində.

Milçək mindik Kür keçdik, yabaynan dovğa içdik.

Günlərin bir günüdə sana kimnən xəbər verim, Yəmən vilayətinnən. Yəmən vilayətində bir padşah vardı. Bı imarət tikdirirdi. Hankı ustanı gətirirdi, boynun vırdırırdı. Hörgü yarımçıq qalırdı.

İsfahanda bir usta Abdulla vardı. Bı eşitdi ki, padşah belə iş görür. Bı əhvalatı eşitcək durdu, hər həməssalanın götürüb düşdü yola. Bəli, yolların kənarıynan, dağların dabanıynan, amma dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi özün yetirdi Yəmən şəhrinə. Soruşdu kimin hörgüsü var, usdayam hörəcəyəm, dedilər:

– Padşahın hörgüsü var, elə yarımçıxdı.

Apardılar bunu padşahın yanına. Padşah bunnan soruşdu:

– Adın nədi?

Dedi:
– Adım usta Abdulladı, İsfahanlı.
Dedi:
– Usta Abdulla!
Dedi:
– Bəli.
Dedi:
– Görürsən, mənim bu imaratımı? Onu hörərsənmi?
Dedi:
– Padşah sağ olsun, mən tikəcəyəm. Ancax sənnən belə danışax ki, fəhləni verərsən, onnarın ixtiyarına da verərsən. Ancax yanıma da gəlməzsən.
Bir neçə fəhlə tutdu, verdi bunun əlinin altında işləməyə.
Dedi:
– Bax sizin ixtiyarınızı da verirəm buna, lap öldürmək ixtiyarını da.
Fəhləni gətirənnən sora dedi:
– Bilirsiniz nə var?
Dedilər:
– Yox!
Dedi:
– Mənim ağzımnan nə çıxsa, onu elərsiniz.
Başdadılar hörməyə. Gördü padşah gəlir. Dedi:
– Bir adam dinə bilməz, siz elə batdax verin, kərpic verin.
Padşah vəzir-vəkilnən gəldi. Dedi:
– Allah qüvvət versin!
Bir kisə qızıl xələt tulladı. Usta Abdulla kisəni qoyub hördü.
Dedi:
– Verin batdax, ver kərpic.
Vəzir padşahın üzünə baxdı, padşah vəzirin üzünə baxdı.
Vəzir dedi:
– Bunun arvadı yəqin gözəldi ki, bu belə eliyir.
Dedi:
– Usta, sənin evin İsfahanda hardadı?
Dedi:
– Mənim evim İsfahanda məşhurdu, gedəndə gennən görükür.
Vəzir yeməlidən, işməlidən, geyməlidən götürdü, dedi:
– Gedəciyəm bunun arvadının görüşünə.

Vəzir düşdü yola. Günə bir mənzil, teyimə nazil, özün yetirdi İsfahana. O küçəynən atı sürdü, gördü bir ağ imaratdı ki, nətər. Yavaş-yavaş atı sürdü qapıya, gördü ki, bir qarı oturup qapının ağzında.

Dedi:

– Qarı nənə, usta Abdullanın evi budı?

Dedi:

– Bəli, budı, başına dönüm!

Arvad atı bağladı, vəzir yol elədi qırx pilləkannan çıxmağa. Pilləkannan beş pilləkan çıxmışdı, gördü, pilləkan bunı tulladı aşağa. Düşdü bir zirzəmiyə. Bir də gördü, iki əli payalı adam girdi içəri, dedi:

– Vəzir, nə əlinnən gəlir, deynən.

Vəziri hərəsi bir yannan payalamağa başdıyanda, dedi:

– Başınıza dönüm, öldürmüyün məni, papax tikmək gəlir əlimnən.

Padşahınan vəkil gözdədilər, gördülər gəlmədi. Padşah dedi:

– O arvada bənd oldu. Vəkil sən də get.

Vəkil də ipək parçalardan-zaddan alıb doldurdu xurcunu. Atı minib düşdü yola. Günə bir mənzil, teymə nazil, özün yetirdi həmən şəhərə. Bı da gəldi gördü, darvazanın ağzında bir qarı oturub, dedi:

– Qarı nənə, Usta Abdullanın evi budı?

Dedi:

– Bəli, budı başına dönüm.

Arvad genə çıxdı, dedi:

– Buyur yuxarı.

Bı bir pilləkan, iki pilləkan çıxdı, beşimci də bu da düşdü zirzəmiyə, gördü, vəzir bir yanda dəri bir yanda iynə-sap papax tikir. Bir vədə gördü, iki əli ağaşdı gəlip başdadı vəkili döyməyə. Vəkil dedi:

– Ay aman döymiyin, öldürmüyün, çarıx tikmək bilirəm.

Padşah gördü bular gəlmədi, yerində bir tirmə qoydu. Özü düşdü yola. Bəli, bu da özün yetirdi İsfahan şəhrinə. Gəldi gördü bir qarı oturub qapının ağzında. Dedi:

– Qarı nənə, usta Abdullanın evi budı.

Dedi:

– Bəli, budı. Buyur, yuxarı.

Bu da çıxmaq istədi düşdü zirzəmiyə. Gördü vəzir papax tikir, vəkili də çarıx. Dedi:

– Bı nədi?

Dedilər:

– Dinmə, işimiz yamandı.

Onda qapı açıldı, iki əli payalı adam içəri girib başdadı padşahı döyməyə:

– İşini de.

Dedi:

– Mən padşah olmamış atıcılıq elərdim!

O saat yun gəldi, toxmax-kargah...

Bu da başdadı atıcılıq eləməyə.

Usta Abdulla imaratı tikdi, qurtarannan sora düzəldi yola. Gəldi dedi:

– Arvad, nə iş gördün?

Dedi:

– Get zirzəmiyə, gör nə iş görmüşəm.

Abdulla zirzəmiyə girdi, gördü paho, kimi çarıx tikir, kimi papax tikir, padşah da atıcılıq eliyir. Dedi:

– Padşah! Həmişə bu gündə.

Usta Abdulla buları çıxarıb gətirdi, öz haqqın aldı. Buları da saldı yola dedi:

– Get, bir də belə qələti eləmiyin.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü: biri sənin, bir mənim, biri də nağıl deyənin.

# İKİ ARVADIN İŞLƏYİ

Keçmiş zamanda bir kişi varmış. Bir gün bu kişi bazardan bir çuval buğda alıb evinə gətirib övrətinə deyir:

– Arvad, bu buğdanın adını qoyaq rəməzan. Allah qoysa, rəməzanda yiyərik.

Böylə deyib, kişi gənə bazara qayıdır. Bu yolda bir dilənçi gəlirmiş. Arvad bundan xəbər alır:

– Ay əmi, sənin adın Rəməzandırmı?

Dilənçi fikir edir ki, yəqin bunda bir iş var. Cavab verir ki:

– Bəli, mənim adım Rəməzandır.

Arvad bunu eşitdikdə deyir:

– Sənin bizdə bir çuval buğdan var, gəl verim apar.

Kişi sevinə-sevinə buğdanı dalına alıb götürüb gedir. Bir saatdan sora arvadın əri bazardan evinə qayıdır. Arvad kişisinin qabağına yüyürüb deyir:

– Ay kişi! Rəməzan gəlmişdi, buğdanı verdim apardı.

Kişi təəccüb edib deyir:

– Arvad, Rəməzan kimdir? Buğdanı kimə verdin?

Arvad əhvalatı kişiyə söyləyir. Kişi əhvalatı eşidən kimi küçəyə yüyürür ki, bəlkə dilənçini tutub buğdanı qaytarsın. Acıqlı küçə ilə gedəndə bunun qabağında bir arvad çıxır, bundan sorur:

– Əmi, haradan gəlirsən?

Kişi acıqlı cavab verir cəhənnəmdən. Bu sözü eşidib arvad buna yalvarır:

– Mənim qardaşımı gördünmü, əhvalı necədir?

Genə də kişi acıqlı cavab verir:

– Bəli, gördüm, borcu çox olduğundan, boğazından asmışdılar.

Arvad deyir:

– Kişi, sən Allah, burda dayan. Gedim bir az qızıldan, puldan gətirim sana verim. Apar qardaşıma ver, özünü boclılardan xilas etsin.

Bu sözləri deyib arvad evə yüyürüb, nə qədər qızıl-gümüş var idisə, götürüb kişiyə verir.

Kişi:

– Allah mənimkini yetirdi, – deyib bunları alıb gedir.

Bu halda arvadın əri gəlir, arvad kişinin qabağına yüyürüb deyir:

– Ay kişi, ay kişi, cəhənnəmdən bir adam gəlmişdi, qardaşımı xəbər aldım, dedi: borcu çox olduğundan boğazından asmışlar. Doğrusu ki, qardaşıma yazığın gəldi, evdə nə ki qızıl-gümüş vardı, cəhənnəmdən gələn kişiyə verdim ki, aparsın qardaşına versin. O da özünü bu cəlladlardan xilas eləsin.

Kişi bu xəbəri eşitdikdə acıqlanıb deyir:

– Arvad, dəli olmusan, cəhənnəmdən də adam gələrmi? Mənim evimi yıxıb qızılları niyə verdin?

Deyib, atın minib bir qədər getdikdən sora baxıb görür ki, qızılı aparan kişi dalına baxa-baxa qaçır. Xülasə o qaçır, bu qovur, ta ki şəhərdən çıxırlar. Qızıl aparan gəlib görür ki, bir quyunun başında bir keçəl qoyun otarır. Keçələ deyir:

– Ay biçarə, nə oturmusan, padşah əmr etmiş ki, şəhərdə nə qədər keçəl var, başını kəsib ona aparsınlar. Bax, o gələn atlı keçəl axtarır. Səni görsə başını kəsəcək, tez dur bu quyuya gir.

Keçəl qorxub tez quyuya girir, atlı kişi isə keçəlin quyuya girdiyini görmüşdü. Elə güman edir ki, quyuya girən qızılı aparan kişidir. Quyunun başına yetişcək, düşüb kişidən xəbər alır:

– Ata can, kişi necə oldu?

Bu cavab verir:

– Bu quyuya düşdü.

Kişi cəld paltarını soyunub atın buna tapşırıb ki, bu quyudan çıxana kimi saxlasın. Sora quyuya düşür. Qızıl aparan kişi fürsəti fota verməyib kişinin paltarını götürüb, atını minib qaçır.

Kişi quyuda keçəlin üst-başını nə qədər axtarırsa, bir şey tapmayır. Axırda bunun bir hiylə olduğunu anlayıb quyudan çıxır və görür ki, kişi paltarını da, atını da götürüb qaçmış. Əlacı kəsilib çılpaq və piyada xəcalət çəkə-çəkə evinə qayıdır.

## ALTI DUL ARVAD

Bir gün altı dul arvad bir yerdə toplaşdılar. Bunların biri təklif edir ki, gəlin hər birimiz öz başına gələni söyləsin.

Arvadlar bu təklifə razı oldular. Əvvəlinci arvad başlayır:

– Bir gün ərim xeyli qoyun quyruğu almışdı. Mən də biləgimi çirməyib bunu əritdim. Yağını küpələrə doldurdum, cızdağını beş-altı gün yedik. Baxdım gördüm ki, bu cızdax qurtarası deyildir. Götürüb bundan bir yastıq tikdim. Bir gün ərim həmən yasdığı başının altına qoyub yatmışdı. Bir vəqt gördüm ki, kişinin başının ortasında bir qurd var. Kişini yuxudan oyatmaq istəmədim. Tez gedib bir ağac gətirdim ki, qurdu öldürəm. Ağacı vuranda qurd öldüsə də, kişinin başı yarıldı. Kişi qorxmuş yuxudan qalxıb əhvalatı bilәndən sora məni bərk döydü, özümü də boşadı.

İkinci arvad deyir ki:

– Ay bacım, sənin namhala bir təqsirin varmış, amma mənim ərim məni lap təqsirsiz boşadı. Bir gün kişi evə bir araba qənd gətirmişdi. Qonşu arvadlar həmişə mana diyərlərdi ki, istəyirsən ki, kişinin xoşuna gələsən, özünü kişiyə şirin göstərməyə çalış. Buna görə mən də qalxıb qəndləri parçalayıb həvizə, quyuya, müxtəsər nə qədər su qabı varıdısə tökdüm. Axşam kişi gəldi aftafanı gətirib dəstəmaz alıb məndən soruşdu:

– Arvad, bu nətər sudu ki, şirə kimi əlimə, üzümə yapışır.

Mən heç cavab vermədim. Sora kişi satılı götürüb gedib quyudan su çəkdi və bir qab sudan içəndə gördü ki, su şirin dadır. Məndən xəbər aldı:

– Arvad, bu su niyə şirin dadır.

Cavab verdim:

– Ay kişi, Allahdan gizlin deyil, bəndədən nə gizlin. Sənə şirin görükməkdən ötəri gətirdigin qəndi suya tökdüm.

Bunu eşidəndə kişi qabaqca məni bərk döydü, sora da boşadı.

Üçüncü arvad deyir:

– Mənim heç təqsirim olmamışdı. Bir gün ərim evə bir tay xına gətirmişdi. Kişi çoxdan söyləyirdi ki, evi suvadıb rənglədəcəyəm. Əmma rənglətməyirdi. Bir gün qollarımı çırmıyıb xınanın hamısını isladıb evi suvadım. Axşam kişi evə gələndə qabağına yüyürüb muştuluq istəyib dedim:

– Çoxdan bəri evi suvadacağam deyib, suvadmayırdın, imdi özüm çox gözəl suvamışam.

Kişi soruşdu:

– Nə ilə suvadın?

Dedim:

– Elə deyirdin ki, behiştin suvaxı xınadandır. Mən də evi xına ilə suvadım.

Bunu eşidən kimi, kişi məni bərk döydü və sora boşadı. İndi baxın görün heç təqsirim varmı?

Dördüncü başladı:

– Ay bacılar! Sizin az-çox təqsiriniz olmuş. Amma məni ərim təqsirsiz boşadı. Kişi həmişə mana deyirdi:

– Sənə bir kəndir alacağam, qulluğunu eləsin, amma almayırdı. Bir gün kişi evə çoxlu qızıl gətirmişdi. Baxdım gördüm ki, bir kişi küçədə deyir, ay kəndir alan! Tez küçəyə yüyürüb qızılları verib kişinin kəndirinin hamısını aldım və gətirib evlərə, mütbəxə, darvazaya bağladım. Axşam kişi evə gəlib darvazanı gəzəndə gedib açmadım ki, kəndir özü açar, kişi nə qədər döydüsə kəndir qapını açmadı. Fikir etdim ki, yəqin otarır, axırda, özüm gedib açdım. Kişi dedi:

– Arvad niyə gec gəldin, nə iş görürdün ki, gəlib qapını açmadın?

Dedim:

– Ay kişi, çoxlu kəndir almışam, gözlədim ki, o gedib açsın. Amma biçarə xaş olduğundan, utanıb gedib açmadı. Axırda özüm gedib açdım.

Kişi dedi:

– Arvad, kəndir nədir?

Dedim:

– Sən mana həmişə diməyirdin ki, kəniz alacağam. Mən də evdəki qızılları verib çoxlu kəndir aldım. Bunu eşidən kimi kişi qabaqca məni bərk dögdü, sora boşadı.

Beşinci arvad:

– Ərim bəzzaz idi, evə çoxlu çit gətirmişdi. Baxıb gördüm ki, çitləri toz basmış. Bir gün qollarımı çırmayıb çitlərin hamısını yuyub sərdim. Axşam kişi evə gələndə, qabağına yüyürüb dedim:

– Əlmuzdumu ver.

Dedi:

– Nə əlmuzdu?

Dedim:

– Çitləri toz-torpaq basmışdı, hamısını yuyub sərdim. Kişi baxıb gördü ki, çitlərin hamısı solub xarab olub. Məni bərk döyüb boşadı.

Altıncı arvad:

– Bacılarım mənim heç təqsirim olmamış. Heç əlacımız yox, var-yox bir keçimiz var idi. Bir gün gördüm qonşumuzda toy olur. Hamı qızlarını bəzəyib toya göndərir. Doğrusu ki, ürəyim xarab oldu. Gəlib keçiyə öz paltarımı geydirib qızıllarımı taxıb toy olan evə göndərdim. Əmma keçi əlimdən qurtaran kimi düz başaşağı qaçdı. Axşam kişi gəlib keçini soruşanda, əhvalatı söylədim. Kişinin acığı tutub məni bərk döydü və sora da boşadı.

Altı dul qadının hekayəsi bununla bitir.

## ZƏRNİGAR

Biri var, biri yoxmuş. Səmərqənddə bir paççah varmış. Onun adına Şəmil deyərdilər. Sonu, züryəti bircə qızı vardı. Bının adı Zərnigardı. Bı bir molla tutmuşdu ki, bir ayrı otaxda bı qıza dərs deyə. Bı molla həmişə qabaxca bı qıza gəlib dərs deyirdi. Sora gedib başqa uşaqlara dərs deyirdi.

Bir gün oturub ərri-arvatdı xörək yeyirdilər. Bı arvad ərinə dedi ki:

– Əşi bizim də bir soymuz yoxdu, gəl gedək Məkkəyə ziyarət eliyək. Bir adımızı iki eliyək.

Bı Şəmil arvadının sözün qəbul elədi. Dedi:

– Nolar, yaxşı olar.

Səmil vəziri çağırdı. Dedi:

– Vəzir, mənim pərdeyi-ismətdə bir qızım var. Onun saa bir ehtiyacdığı yoxdu, yeməyi yanında, içməyi yanında. Otur yerimdə paççahlıx elə, ölərəm paççahsan, gələrəm də genə vəzirsən. Mən gedirəm Məkkəyə, o qızı saa tapşırıram, səni də Allaha.

Bı qızı tapşırdı vəzirə, arvadı da götürüb getdi. Günə bir mənzil teyi-mənazil, gedip çıxdılar Məkkəyə. Vəzir də bının yerində paççahlıx elədi. Vəzir bir gün çıxmışdı balkonda gəzirdi, bı qız da əlinə aftafa alıb çölə çıxmışdı. Vəzir baxdı gördü ki, vallahı, bı bir qızdı ki, Allah-taala xoş gündə, xoş saatda yaradıb. Vəzir buna min könüldən aşıx oldu. Dedi:

– Kim bilir, paççah, necə olacax! Qoca kişidi indi görən ölüp harda qalacax.

Gecəni saldı arıya. Getdi qızın qulluğuna. Qız gördü, vəzir qapıdan girdi. Dedi:

– Filan-fılanşüdə, sən nə cürət edib mənim otağıma girirsən?

Qıza vəzir dedi:

– And olsun Allaha, birəz o ən-buən eliyərsən, boynunu vırdıraram. Dədən də bir qoca kişidi. İndi görən harda ölüp qalacax.

Qız gördü ki, bı çox qəzəbnak olub, bını öldürəcək.

Dedi:

– Vəzir, otur, bı saat əlimə qab alım, gəlim.

Qız əlinə qab alıp çölə çıxdı. Ağzın çevirdi bərri-biyabana. Yavaş-yavaş getməyin binəsin qoydı. Ayın qarannığı, bir yer görməmiş, paççah qızı. Getdi, bir çobana ürcah çıxdı. Çoban qızı görən kimi dedi:

– Ay bacı, başına dönüm, bacım yoxdu, Allah səni maa yetirip, gəl gedək.

Başdadı bı qızın boynun qucaxlıyıp, o üzünnən-bı üzünnən öpməyə. Qızı da götürüp apardı. Qız gördü ki, bir meşənin qırağında əvi var. Çobanın bir qoca nənəsi də var. Əvdə də yağ, süd, qatıx, pendir hər şey var. Çoban içəri girən kimi dedi:

– Ay nənə, bir bacı tapmışam.

Nənəsi dedi:

– Bala, sənin bacına da qurban olum, özünə də.

Qız biraz oturdu, baxdı gördü bı arvadın üst-başı çirklidi. Qayıtdı su qoydu, bı arvadı yudu, çimizdirdi, paltarın yudu. Çoban da hər saatda gəlip tapşırırdı ki, bacım amanatı mənə bax, gələm, görəm, bacım bekardı, bı dəyənəyi görürsənmi? Sınınca, səni döyəciyəm.

Bı burda qalsın, sizə kimnən xəbər verim, Şəmil paççahdan. Bı Məkkəni ziyarat elədi qayıtdı. Vəzir də bildi ki, bı gələndə bı sirr açılacaq. Atın mindi bir mənzil bı kişinin qabağına getdi. Kişiynən görüşdülər, elədilər, kişi tez qızının əhvalın soruşdu. Vəzir başını bılıyıb dedi:

– Ey Şəmil! Ona qız demə, bir lotunun biri de. Bütün şəhəri bir-birinə qırdıdı, nə qədər öyüd-nəsihət verdim, baxmadı. Axırda dedim:

– Atan gələndə xəbər verəciyəm, səni öldürsün.

Gecəynən qaçıp. Hər şəhərdə sorax salmışam, həmən qız tapılmır.

Paççah gəldi camaatınan görüşdü. Gəldi çıxdı genə taxdı səltənətinə. Başdadı paççahlıx eləməyə. Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, taa mən vəzirrik eləmirəm.

Paççah dedi:
– Niyə?
Dedi:
– Bına görə ki, taa qocalmışam, vəzirrik elədiyim də taa bəsdi.
Paççah bını vəzirrikdən çıxartdı. Bı gəldi bir dərviş libası alıb geydi. Başdadı dərviş-libas gəzməyə. Bı şəhərdən o şəhərə qızı gəzirdi. Qız da bı çobanın yanında bir ay qaldı.
Bir gün öz-özünə dedi:
– Əyyar, mən paççah qızıyam, bırda nə gəzirəm?
Gecəni saldı araya qaçdı, gəldi hava işıxlananda çıxdı bir yerə. Gördü, bəli, bırda bir çinar ağacı var, bı çinar ağacının koxuşunda gizlənip pünhan oldu.
Gördü bir atdı gəlir. Bı atdı da paççahın oğluydu. Bı atdı gəlhagəl gəldi başdadı atı suvarmağa. Bı atı çəkdi suya, gördü bı at içmir. Baxdı gördü suya bir şövq düşüb. Ənə-ənə baxdı gördü çinarın dibində bir zənən oturur! Çevrikdi qıza dedi:
– Nəçisən? Hardan gəlirsən?
Zərnigar dedi:
– Qaçqınam.
Dedi:
– Gəl, tərkimə min.
Qızı aldı tərkinə, getdi gəldi evlərinə. Qız bir ay qaldı. Arvad baxdı gördü, bı bir qabil adamdı, lap paççahyana. Ərinə dedi:
– Əşi, gətir bı qızın kəbinin kəsdirək, alax oğlumuza.
Qızın kəbinin kəsdilər, necə gün, neçə gecə toy eləyib qızı gəlin gətirdilər oğluna. Qız dedi:
– Mən Yəmən paççahının qızıyam.
Bı oğlan dedi:
– Bəs paççah qızısan, indiyətən taa niyə deməmisən?
Vaxt oldu, ay ötdü, il dolandı. Bı qızın gəldi düşdü boyuna bir uşax. Gəldi bının bir oğlu oldu.
Bı qalsın bırda, sizə xəbər verim çobannan. Gəldi əvə, gördü qız yoxdu. Dedi:
– Nənə, bəs bacım necə oldu?
Dedi:
– Bala, gecə yox olup.
Bı çoban da sürünü unudur, dərviş-libas olub başdadı şəhərbəşəhər bı qızı axtarmağa.

Bı Zərnigarın da oğlu da gəldi oldu üzə gülən. Paççahın oğlu vəziri çağırıb dedi:

– Vəzir, gəl bını apar, öz atasının vilayətinə. Yəmən şəhərinin paççahının qızıdı. Ata-anasıynan görüşsün, gənə gətir.

Bını qoşunnan, cəlalınan vəzirə qoşdu, yola saldı.

Bıllar gəlməyə məşğul oldu. Gəldilər Yəmənin üç ağaşdığında düşdülər. Çadırı, kənəfi qurdular. Vəzir gecəni saldı arıya dedi:

– Bəli, bırda kim var.

Durdu yavaş-yavaş getdi qızın yanına. Qız gördü vəzir gəldi, dedi:

– Filan-südə, sənin nə həddin var ki, mənim çadırıma girirsən?

Vəzir dedi:

– Bı saat sənin də, oğlunun da boynun vırdırram, artıx uzun eləmə.

Qız baxdı gördü, olmuyacax. Dedi:

– Sən otur, bı saat əlimə qab alım gəlirəm.

Çölə çıxdı, başdadı daşmağa. İşıxlananda gəldi-gəldi, çıxdı bir şəhərə. Gördü, bıra öz dədəsinin vilayətidi.

Zərnigar bələd idi dükan-bazara. Gəldi dərzi dükanına dedi:

– Mənim ərim dərvişdi, ona bir dəst dərviş paltarı verərsən.

Köşkülünəcən, təbərzinəcən aldı. Geyindi. Saçın yığdı papağın altına, təbərzini də aldı əlinə, köşgülü də. Gəldi böyük bir çayxananın qabağına. Başdadı bir qəsidə oxumağa. Bında bir ləvs vardı ki, bını eşidən səsinə valeh olurdu. Camahat hamısı yığışdı bıra. Çayçı, aşbaz gördü gündə bılların yüz manat qazancı olurdusa, bı dəfə iki yüz manat qazancı oldu. Bı aşbaz dedi:

– Ağa dərviş, yeməyin də mənnən, içməyin də. Nə qədər qalacaxsan, qal bırda.

Bı bırda qalmaxda olsun, sizə kimnən xəbər verim vəzirdən.

Səhər açıldı, vəzir qoşunu da götürüb geri qayıtdı, getdi paççaha dedi:

– Qız lotunun biriydi. Çıxdı getdi.

Vəzir də dərviş-libas olub, başdadı qızı axtarmağa.

Qız qəsidə oxıdığı yerdə, gördü camaatın içində bir dərviş durur. Nəzər saldı, gördü dədəsinin vəziridi. Dedi:

– Ağa dərviş, buyur sən də bir qəsidə de.

Bı dedi ki, mənim nə laiqim var ki, sənin yanında oxuyam? Qız dedi:

– İndi ki belədi, gəl bırda mənim yanımda çal.

Bir gün də gördü ki, çoban dərviş-libas gəlir. Dedi:

– Buyur, bir qəsidə də sən oxu!

Bı da dedi:

– Mənim nə qüdrətim var ki, sənin yanında qəsidə deyəm.

Dedi:

– Onda, sən də qal mənim yanımda.

Bılar oldular beş dərviş. Bı qız gündə çıxıb meydan eləyirdi; camaatı yığırdı başına. Bı höl-hölə, bı qul-qula bı səs getdi çıxdı paççaha.

Paççah bı əhvalatı eşidəndə adam göndərdi ki, o dərvişi qonax eliyin. Qız gələn fərraşa dedi:

– Paççaha deyin bir nəfər deyilik, beş nəfərik.

Bı fərraş gəldi paççaha dedi ki, belə-belə deyir. Bı qaytardı dedi:

– Get denən, paççah deyir ki, beşi də maa qonaxdı.

Bıllar beşi də gəldilər paççaha qonax, yedilər, içdilər. Bı qız bir qəsidə başdadı. Padşah gördü ki, bında bir nəfəs var ki, göyünən gedən quş valeh olub dayanır. Qəsidəni tamam eliyənnən sora dedi:

– Paççah sağ olsın, ərzim var.

Paççah dedi:

– Buyur.

Dedi:

– Paççah sağ olsun, mənim sənnən bir təvaqqe eliyirəm.

Paççah dedi:

– Nə desən, əməl eliyərik, ağa dərviş. Buyura bilərsən.

Qız dedi:

– Qapıda bir qarol qoy, içəridən çölə çıxanı buraxmasın, çöldən içəri gələni buraxsın.

Paççah dedi:

– Baş üstə!

Qayıtdı qapıda bir qarol qoydu. Bı qız dedi:

– Dərviş qəsidə deyənnən sora gərək arasında qə zoqədərdə desin.

Paççah dedi:

– Buyura bilərsən, ağa dərviş!

Qız dedi:

– Günnərin bir günündə, paççah sağ olsun, bir paççah vardı. Bının da bir qızı vardı. Bir gün bı paççah arvadıynan çörək yeyəndə arvadı dedi:

– Əşi, gəl bir Məkkəyə gedip ziyarət eliyək.

Kişi dedi:

– Çox yaxşı.

Qızın xurdu-xörəyin də qoymışdı yanına, bir molla da təyin eləmişdi ki, ona dərs versin. Bı vəziri çağırdı. Dedi:

– Vəzir, bilirsən nə var? Biz gedirik Məkkəyə, səni yerimdə qoyuram. Pərdeyi-ismətdə bir qızım var. Onu saa tapşırıram. Səni də Allaha.

O saat paççah dedi:

– Ay qurban olum, o qız necə oldu?

Dedi:

– Dinmə, nağılın axırına qulax as!

Vəzir də dedi:

– Qoy çölə çıxım.

Dedilər:

– Olmaz, otur yerində.

Vəzir razı oldu.

– Bəli, bılar getdilər, bir gün vəzir balkonda gəzirdi. Gözü sataşdı bı qıza. Gecəni saldı arıya, gəldi qızın yanına. Qız nə qədər bına yalvardı, nə qədər minnət elədi, olmadı. Qız gördü ya bını öldürəcəy, ya ələ gətirəcək. Dedi:

– Əlimə qab alım gəlim!

Çıxdı qaçdı. Bərri-biyabanınan gedirdi, bir çobana ürcah çıxdı. Çoban bının o üzünnən, bu üzünnən öpdü: Bıy bacı, saa qurban olum; bacın yoxdu; Allah səni maa yetirdi.

Çoban dedi:

– Ay ağa dərviş, başına dönüm, o qız necoldu?

Dedi:

– Axırına qulax as!

Çoban bını apardı əvlərinə. Qız gördü, hər şey var əvlərində, yağ, motal, süd, qatıx. Bir də bir qoca nənəsi var, heç nəyi tay yoxdu. Çoban anasına dedi:

– Ana, bir bacı tapmışam, bı anda, bı kalama bını bikef görsəm, bı ağac sınıcan səni döyəcəyəm. Səhər qız biləyin çırmayıb evi-eşiyi təmizdədi. Arvadı suya saldı. Arvad dedi:

– Ay, Allah, saa şükür, bını maa hardan yetirdin. Beş gün, üç gün bırda yedi-içdi, ləzzət apardı. Bir gün dedi:

– Mən paççah qızı bırda havaatan qalacağam.

Gecəni saldı arıya qaçdı. Səhər açılanda özün yetirdi bir şəhərə, gördü bir çinar var. Bının koğuşunda pünhan oldu. Bir vədə gördü bir

atdı gəlir. Bı atdı gəlib atın süvaranda gördü ki, at su içmir. Baxdı, gördü suya şövqü düşüb. O yana-bı yana baxdı, gördü çinarın koğuşunda bir qız oturub. bınnan soruşdu ki, niyə bırda oturmısan? Nəçisən?

Qız dedi:

– Qaçqınam.

Bına dedi:

– Gəl tərkimə min.

Qızı tərkinə alıb apardı evlərinə. O saat paççahın oğlı dedi:

– Ay başına dönüm, o qız necə oldu?

Qız dedi:

– Axırına qulax as.

– Bəli, paççahın oğlu bı qızı əvlərinə apardı. Bı qız beş gün, on gün bırda dolandı. Oğlanın nənəsi baxdı gördü, bı bir qabil adamdı. Ərinə dedi, bının kəbini kəsdirək oğlumuza. Bının kəbini kəsdilər oğluna.

Bir gün bı qız dedi:

– Bəli, mən filan paççahın qızıyam, bının bir oğlu da olmışdı. Əri dedi, bəs indiyətən niyə bını maa demirdin. Sabah bını cəh-cəlalınan, qoşınnan, vəziri də yanına qoşub yola saldı.

O saat ərinin vəziri dedi:

– Qoyun, mən çölə çıxım.

Dedilər:

– Olmaz, otur yerində.

– Bıllar, bəli, vilayətdərinə üç ağac qalmış durdular, düşdülər gecə vəzir öz-özünə dedi: bırda kim var, getdi qızın yanına. Qız nə qədər elədi, of eliyə bilmədi. Dedi:

– Sən otur, bı saat gəlirəm.

Asda qaçana imam mənim, qaçdı. Qız gəldi bir dəst dərviş libası aldı, geyindi, gəldi çıxdı atasının şəhərinə. Başdadı bir çayxanada dərvişdik eləməyə. İndi bax, paççah sağ olsun, o sənin vəzirin, bı çoban, bı da mənim ərim. Bı da mənim ərimin vəziri. Siz də atam.

Başınnan papağın götürdü:

– De, görüm, qızınammı?!

Paççah o saat cəlladı çağırdı. İki vəzirin də boynın vırdırdı. Qızın ərin öz yerində paççah elədi, çobanı da vəzir.

O yedi, yerə keçdi. Siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## NOXUDU KEÇƏL

Biri var idi, biri yoxdu, tanrı var idi, bəndəsi çox idi. Bir keçəl var idi, buna Noxudu Keçəl deyərdilər. Keçəlin bir dayısı var idi, bir də dayısı arvadı var idi. Keçəl damlarının üstündə oturmuşdu. Gördü dayısının arvadı darğa ilən söhbət eləyir. Qulaq aşdı, darğa dayısının arvadına dedi:

– Ay aşına, mənim xırmanım ala öküzlü xırmandır, mən alma qabığını yolnan tökə-tökə xırmana gedirəm. Sən plov bişir götür, alma qabığını yığa-yığa gəl, mənim ala öküzlü xırmanıma çıxarsan.

Darğa bunu deyib getdi.

Keçəl evə gəldi, dayısı arvadına dedi:

– Dayım xırmanda yanır, deyir mənə qatıq-çörək gətir.

Arvad qalxdı, könülsüz-könülsüz keçələ qatıq-çörək verib yola saldı. Keçəl çörəyi, qatığı götürüb darğanın xırman yoluna tökülən alma qabıqlarını götürüb öz xırmanlarının yoluna düzəldi. Getdi xırmanlarına çatdı. Yavan çörəyi dayısına verdi dedi:

– Ay dayı! Mənim ala öküz xoşuma gəlir, mən bu qatıq ilə öküzümü ala boyayacam.

Dayısı dedi ki:

– A başın batsın keçəl, dəli olma!

Keçəl qulaq asmadı, qatığnan qızıl öküzlərini ala-bula elədi. O tərəfdən arvad plovu hazır elədi. Qaba töküb alma qabıqlarını yığa-yığa gəldi, öz xərmənlərinə çıxdı, gördü öküzləri aladır. Məəttəl qaldı. Kişi dedi:

– Ay arvad, gün hansı tərəfdən çıxıb, ay hansı tərəfdən doğub, cinlərin hansı dağlara dağılıb ki, bizi yad eləyirsən?!

Arvad əvvəl qızardı, sora dedi:

– Ay kişi, bildim ki, xırmanın tozu döşünüzü tutur. Küpənin dibində bir az yağ qalmışdı, onnan çərçidən aldığım düyünü plov bişirib gətirdim ki, yiyəsiniz sinənizin tozu təmizlənə.

Keçəl üstünü vurmadı, gəldi dayısından xörəyi yeməyə. Arvad dedi:

– Ay kişi, siz elə də olsa xörəyi yeyəcəksiniz, belə də olsa. Darğanı da çağırın gəlsin bir-iki tikə də olsa, o yesin. Vergidə, xarcda bizi gözdəyər.

Dayısı keçələ dedi:

– Keçəl, dur get darğanı çağır gəlsin. bir-iki tikə biznən çörək yesin.

Keçəl getdi darğanın xırmanına, dedi:

– Ay darğa, köpəyoğlu, dünən nə iş qarışdırıbsan, dayım odu gəlir səni öldürməyə.

Keçəl bunu deyib axsaya-axsaya gəldi öz xırmanlarına, dayısına dedi:

– Ay dayı, darğagilin itləri var, mənim də baldırımı dişlədi, çağıra bilmədim. Yabanı al get, özün çağır gəlsin.

Kişi yabanı götürüb getdi darğanı çağırmağa. Darğa kişini görüb qaçdı. Kişi çağırdı ki, heç olmasa gəl gedək, bircə tikəsə də ye.

Darğa daha da bərk qaçdı. Elə bildi ki, kişi deyir:

– Heç olmasa bir yaba vırım, sora get.

Darğa dalına baxmayıb daha da bərk qaçmağa başladı. Kişi darğanı qaçan görüb qayıtdı öz xırmanlarına gəldi. Dedi:

– Ay arvad, bilməyirəm nə olubsa da, darğa məni görəndə qaçdı gəlmədi. Əlbət, bir gün qonaq çağırarıq, əvəzini çıxarıq.

Arvad bildi ki, bu arğac keçəldən keçib. Ancaq keçəlin üzünə bir söz diyə bilmədi. Keçəl dayısınnan bərabər basıb şirin-şirin plov yedilər. Arvad donquldana-donquldana boş qabları götürdü evlərinə getdi.

Sabah gənə keçəl damlarının üstündə oturmuşdu, darğa gəldi dayısı arvadının yanına dedi:

– Ay aşına, dünən yolu yanıldın, gəlib çıxmadın. Bu gün dolma bişir, mən yolnan xurma tökə-tökə xırmana gedəcəm. Sən xurmanı döşürə-döşürə gəl, mənim xırmanıma.

Darğa bunu deyib getdi. Keçəl damın üstündən darğa ilən dayısı arvadının danışığını eşitmişdi. Genə gəldi qatıq-çörək götürdü, qayıtdı darğanın xırman yoluna tökülən xurmaları yığıb, öz xırman yollarına düzdü. Getdi yavan çörəyi dayısına verdi, genə qızıl öküzlərini ala boyadı.

O tərəfdən arvad dolmanı bişirdi, yola düşdü. Xurmanı yığa-yığa genə gəldi öz xırmanlarına çıxdı. Kişi genə dedi:

– Ay arvad, sən nə yaxşı insafa gəlibsən. Bu dolmanı necə bişirdin gətirdin, nə bildin ki, mənim ürəyim dolma istəyir?

Arvad min bir dilnən kişinin yanımda özünü təmizə çıxartdı. Dedi:

– Ay kişi, nə olacaq? Qonşulardan borc-xərc elədim, qoymadım sən burada ac qalasan.

Keçəl bütün əhvalatı bilirdi, üstünü vurmadı, gəldi, oturdu dayısınnan bərabər dolmanı yedi, qalxdı.

Sabah ertə keçəl damlarının üstündə oturmuşdu, darğa qaşqabağı yernən getmiş gəldi, dedi:

– Aşna, sən heç vədənə doğru çıxmayırsan. Dünən də gözləməkdən yoruldum, xörəyi gətirib gəlmədin. Bu dəfə halva çal, mən yola fındıq tökə-tökə gedəcəm. Halvanı götür, fındığı yığa-yığa gəl mənim xərmənimə çıx.

Darğa bunu deyib getdi. Keçəl damın üstündən enib gəldi qatıq-çörəyi götürdü, darğanın xırman yoluna düzülən fındıqları yığıb öz xırman yollarına düzə-düzə getdi, yavan çörəyi dayısına verdi, genə öküzlərini qatıqnan ala-bula boyadı. Bu tərəfdən arvad halva çalıb qaba çəkdi, yola düşdü. Fındıqları yığa-yığa gəldi öz xırmanlarına çıxdı. Kişi dedi:

– Ay arvad, sən nə yaxşı insafa gəlibsən. Sən beləliknən bizi o qədər bordayarsan ki, dərimizə sığmarıq.

Arvad min bir dilnən kişini inandırdı ki, bunu da qonşulardan borc alıb bişirib. Keçəl üstünü vurmadı. Gəldi dayısıynan bərabər halvanı basıb yedi. Arvad boş qabları götürüb deyinə-deyinə evlərinə gəldi.

Keçəl damlarının üstündə oturmuşdu, gördü darğa gəldi, dayısı arvadına dedi:

– Aşna, sən heç əhdimə doğru çıxan döyülsən. Sabaha süddü aş, kömbə bişir, mən də qarpız alım gələcəm, evdə yeyib kef çəkərik.

Darğa bunu deyib getdi. Keçəl qatıq-çörək götürüb gəldi dayısının yanına, bütün əhvalatı dayısına nağıl elədi. Xırmançılar xırmanlarını

döydülər, evlərinə getdilər. Axşam oldu, hamı yeyib yatdı, sabah işlərinə getdilər.

O tərəfdən arvad süddü aş, kömbə bişirib darğanın yolunu gözləməyə başladı. Bir az keçdi, darğa bir qarpız da alıb evə gəldi. Bunlar oturub yemək istəyirdilər ki, birdən qapı döyüldü. Arvad oynaşı buğda kisəsinə saldı, süddü aşı yükün altına qoydu, kömbəni yükün üstünə qoydu, qarpızı da bir küncə dığırradı. Qapını açdı, keçəl dayısınnan içəri girdi, oturub çörək istədilər. Arvad qalxdı qaşlı-qabaxlı gətirdi olara yavan çörək qoydu. Keçəl dedi:

– Ay dayı, mənim bir sözüm var, onu söyləyim, sora yeyək.

Dayısı dedi:

– Söylə, qulaq asaq.

Keçəl dedi:

– Mən yolnan gedirdim gördüm bir ilan yolda qıvrılıb, yatıb yükün üstündəki kömbə kimi. Başına bir daş saldım, küncdəki qarpız kimi, başı elə dağıldı ki, nəmidəki süddü aş kimi, gözləri işıldamağa başladı, kisədəki oynaş kimi.

Əhvalat açıldı, keçəl dayısıynan bərabər oynaşı tutdu öldürdü. Meyitini quyuya salıb gizlətdilər. Sora xörəkləri gətirib qabaqlarına qoyub yedilər. Arvada tənbeh elədilər, ömür sürməyə, gün keçirməyə başladılar.

## ƏBÜLQASIM

Günnərin bir günü İsfahanda bir kişi vardı, bı dedikcə kasıp idi. Bir qədər də bının özgəyə borcu vardı. Bir gün arvadına dedi:

– Birəz hərbiyə çörəkdən-zaddan qoy hazırra. Gedim görüm, o borcu düzəldə billəmmi?

Bının bir az da savadı vardı. Düşdü yola getdi, günə bir mənzil teyyi-mənazil getdi. O qədər ki, bir bulağa rast gəldi.

Gəldi bı bılağın üsdə düşdü, əlin yudu, üzün yudu, dəstəmaz alıp namazın qıldı oturdu. Çörəyin açdı qoydu qabağına, başdadı yeməyə. Çörəyin yedi qurtardı. Bı bulağın yaxınlığında da bir şəhər vardı. Yavaş-yavaş yola düşdü. Bı şəhərə gedirdi. Xeylax getdi, çatdı bı şəhərə. Bı kişi bir balaca da dərvişliy bilirdi. Bir küçeynən getdi gördü bir oğlan yanına xeylax çit töküb satır. Amma elə hey deyirdi: "Əli başı üçün almaram, Əli başı üçün verməərəm!"

Kişi fikirləşdi ki, oturum bırda görüm, bı nə işin sahibidi? Bı niyə bilə deyir?

Oturdu bir daş vardı, onun üstündə. Bı oğlan parça ölçdüyü yerdə baxdı gördü, bir daşın üsdə bir dərviş oturub.

Oğlan dedi:

– Vay məni, kor oleydım, şil oleydım! Ay dərviş ağa, mən səni niyə görməmişəm? Dur gedək əvə, bırda niyə oturmusan?

Durdu bı parçanı-zadı yığışdırdı. Bı kişini də götürdü gəldilər əvə, qapıya çatanda, oğlan çağırdı:

– Nənə.

Arvad çıxıb dedi:

– Bala, nədi?

Dedi:

– Nənə, Allah qonağımız var.

Arvad dedi:

– Gəlsin, bala, Allaha da qurban olum, qonağına da, saa da. Xoş gəlip, göz üsdə gəlip.

Bı kişini apardılar əvə. Bı kişi baxdı gördü bının qapısında bağçası, fəvvarəsi, hamamı var. Bir imaratdı ki, tey mərmər daşınnan əmələ gəlib.

Bının altına döşək saldılar. Bı oturdu birəz söhbət elədilər. Sırpa salındı. Kişi gördü bir qızıl boşqabda bının qabağına xörək qoydular. Xörəyi yedilər, qurtardılar. Bı xonçeynan boşqabı götürdülər, qoydular bının heybəsinə. Dedilər:

– Qardaş, qaydamız bıdı. Hər kəs hankı qabda görək yesə, onu gərək onun heybəsinə qoyax, gedəndə apara!

Kişi qaldı məhətdəl ki, bı necə işdi. Bı oğlan dedi:

– Əmi, düz bir ay bizə qonaxsan. Bı şəhərdə də bircə şiyə mənəm. "Əli başı üçün almaram, Əli başı üçün verməræm". Onun üçün deyirəm nə bir qəpiy artıq almaram, nə də bir qəpiy əsgiy verməræm. İldə də yüz tümən dil cərməsi verirəm, paççaha.

Bı kişi bir ay qaldı bırda. Bir ay tamamıdı, oğlan dedi:

– Əmi, on gündə artıx qal.

Əbülqasımdı bı oğlanın adı. Axşam oldu Əbülqasım bir cüt alma çıxartdı oxudu, üfürdü, ikisin də elədi gül. Bıllar oynadılar, oxudular, çaldılar, çağırdılar. Dərviş də baxırdı. On gün tamam oldu, bir kisə pul gətirdi verdi ki, dərviş, sən xərcdə, birdən korrux çəkərsən. Dübara yüz manat da verdi ki, bı da sənin yor xərcin. Kişi durdu-düşdü yola. Günə bir mənzil, tey mənzil gəldi, özün yetirdi İsfahana.

Dedi:

– Gərək gedəm Şah Abbası da sınıyam, görəm o nə verir?

Gəldi Şah Abbasın qapısında qəsidəni başdadı, oxudu qurtardı. Şah Abbas dedi:

– Gətirin, bına bir qızıl verin.

Bına bir qızıl verdilər. Şah Abbas bınnan soruşdu:

– Ağa dərviş, heç mənim kimi səxavətli adam görmüsən?

Dərviş cavab verdi ki, filan şəhərdə bir Əbülqasım var, parça satır, özü də deyir, Əli başı üçün almaram, Əli başı üçün vermərəm. Əvinə də sırfa salınır. Bir qızıl xonçada bir qızıl boşqabda xörək gətirir, qoyur qabağına. Yeyib qutarannan sora da həmən qabı qoyur heybəsinə, deyir, apar, əvinə.

Əbülqasımın əvində nələr olmuşdu, söylədi Şah Abbasa.

Şah Abbas vəzir Allahverdixanı çağırtdı, dedi:

– Olmaz, gərək gedək görək, o necə işdi?

İkisi də dərviş-libas oldular. Şah Abbas bı kişini geyindirdi, çıxartdı taxda, dedi:

– Mən gəlincən paççahlığı verirəm saa. Gedirik Əbülqasımın yanına. Əyər söylədiklərin doğruysa, gələndə saa bir şəhər bağışdıyacıyam.

Düşdülər yola. Bı kişi də bılara dedi:

– Gedərsiniz, filan yerdə bir bılax var, onun üsdən baxanda həmən şəhər görükür. O şəhərdə də filan küçeynən gedin, çıxacaqsınız Əbülqasımın yanına.

Gəldilər o qədər ki, çıxdılar həmən çeşmənin üstünə. Əl-üzdərin yudular. Çörək yedilər, gördülər, bəli günorta namazının vaxdıdı. Dəsdəmaz alıp, namazdarın qıldılar. Gördülər şəhər görükür. Durdular getdilər həmən şəhərə, həmən küçeynən getdilər, gördülər həmən oğlandı, parçanı töküb alın bir tərəfə, qumaşın bir tərəfə. Arşın əlində alır-satır. Deyir:

– Əli başı üçün vermərəm, Əli başı üçün almaram.

Bılar oturdular həmən daşın dibində. Əbülqasım gördü iki dərviş oturup. Dedi:

– Ay ağa dərviş, başınıza dönüm, qurbanınız olum, gözdərim kor oleydı, mən sizi niyə görməmişəm? Durun gedək əvə.

Başdadı parçaları yığışdırdı. Bıları da götürdü gəldilər əvə. Şah Abbas nəzər saldı, gördü, baho, bir otaxdı ki, heç bir yerdə yoxdu. Qapısında fəvvarəsi, gülü-güllüyü, bağı-baxçası, özü də tey mərmər. Gəldilər qapının qabağında Əbülqasım dedi:

– Nənə, Allah qonağı.

Anası dedi:

– Bala, Allaha da qurban olum, qonağına da, saa da. Xoş gəliplər, beş gəliplər. Gəlsinnər. Niyə gəlmillər?

Gəldilər əvə, bıların altına döşək saldılar. Bılar oturdular, çörək vaxdı oldu. Bıların hərəsinin qabağına bir qızıl xonçada, bir qızıl qabda xörək gəldi. Bılar yedilər, içdilər yığışıldı. Bı xonçalar hər kəsin öz xonçasın, öz qabın, öz heybəsinə qoydular. Şah Abbas, vəzir Allahverdixan təəccüb elədilər ki, bı necə işdi? Söhbət elədilər. Söhbətdən sora Əbülqasım dedi:

– Ağa dərviş, bir ay maa qonax olun!

Bılar bir ay bırda qonax oldular. Axırıncı günü Əbülqasım dedi:

– Ağa dərviş, onca gün də artıx qalın.

Söhbətdən sora iki alma çıxartdı, dedi:

– Şəhəri görmüsünüz. Bir tamaşa eliyin kefiniz açılsın. Oxudu bı almaların ikisin də elədi qul. Bıllar başdadılar çaldılar-çağırdılar. Bılar da baxırdı. Şah Abbas dedi:

– Ay Əbülqasım, bıllar nə gözəl şeydi!

O saat Əbülqasım genə oxudu, bı almaların ikisin də elədi alma. Verdi Şah Abbasa, dedi:

– Ala, bılları saa bağışdıyıram.

Onuncu gün dedi:

– Ana, gətir bılların hərəsinə bir kisə pul ver.

Gətirdilər hərəsinə bir kisə pul verdilər. Hər kisədə yüz tümən pul vardı. Dübarə gətirdi yüz manat da pul verdi ki, bı da yol xərciniz. Almanı da neçə oxuyub qul eləmək lazımdı, necə də alma eləmək lazımdı örgətdi, saldı yola.

Yavaş-yavaş gəldilər çıxdılar öz şəhərrəri İsfahana. Gəldilər əvə. Bir kağız yazdı, verdi bı kişiyə dedi:

– Get, filan şəhəri verdim saa.

Kişi gəldi arvadının yanına başdadı olan borcdarın verdi, qutardı. Yedilər-içdilər, kefinən dolandılar.

Şah Abbas da geyindi çıxdı taxda, bir gün dedi:

– Vəzir Allaverdixan! Neyniyək ki, Əbülqasımın borcunnan çıxax?

Vəzir Allahverdixan dedi:

– Qibleyi-aləm, ona pul əsgih deyil, qızıl əsgih deyil. Neyniyəcəksən? Gətir, pərdeyi-ismətdə bir qızın var. Elə onu ver ona.

Şah Abbas dedi:

– Yaxşı olar.

Gecə yatdılar. Səhər bir kamıl molla vardı. Bını gətirtdilər, qızın kəbinin kəsdirdilər Əbülqasıma.

Bırda da bir keçəl oğlan vardı. Səhər tezdən düşdü yola, gəldi həmən şəhərə. Getdi paççahın yanına. Baş yendirdi dedi:

– Qibleyi-aləm, Şah Abbas qızın verdi Əbülqasıma. Sabah da gələcək səni taxdan salacax. Əbülqasımı qoyacax sənin yerinə paççah.

Şah Abbas qızın tədarikin görməkdə, sizə kimnən xəbər verim. Bı paççahın bir vəziri vardı. Bının da yeddi oğlu vardı. Bı vəzir də Əbülqasımnan çox dostdular. Paççah vəziri çağırdı, dedi:

– Bı and mənim üzərimə qənim olsun, bı gecə Əbülqasımı öldürtdürdün, öldürtdürdün. Öldürtdürmədin, sənin də yeddi oğluyun da boynun vırdıracağam!

Vəzir qaldı mat. Gecə neynim, nətər eliyiminən durdu düşdü yola. Əbülqasım gəldi gördü, bıdı qapı döyülür. Durdu qapını açdı, gördü vəzirdi. Dedi:

– Vəzir, bəs nə gec gəldin?

Vəzir dedi:

– Nə bilim, birəz kağız yazırdım. Ona görə gec gəldim. Gəldilər oturdular. Bı Əbülqasımın da bircə bacısıydı, bir anasıydı, bir də özü, ta heç bir kimsəsi yoxdu. Birəz söhbət elədilər, sora xörək gəldi. Vəzir dedi:

– Əbülqasım, o suyu maa ver.

Əbülqasım yönün əynə çevirdi, o saat vəzir behişdarı verdi Əbülqasıma. Bir şapalax, iki şapalax vurdu. Əbülqasım yıxıldı. Vəzir ta özün diddi töhdü ki, ay aman, ay dad, qoymayın Əbülqasımı. Bı nə işdi?

Bının anası-bacısı istədilər ağlasınnar. Vəzir dedi:

– Bının şəhərdə alacağı çoxdu. Elə eliyin bının öldüyün şəhər əhli bilməsin, yoxsa heç biri verməz, danar! Görək birtəhər oları ala biləcəkmi?

Bıllar meyiti zirzəmiyə qoydular.

Vəzir apardı Əbülqasımı zirzəmidə çarmıxa çəkdi. Gətirdi bının burnuna bir şey tutdu, Əbülqasım ayıldı. Baxdı gördü, vəzirdi. Dedi:

– Ay duz-çörəyim səni tutsun, mən saa neynəmişdim ki, məni belə elədin.

Vəzir dedi:

– Ta keçip, əyər, səni öldürməseydim, sabah da yeddi oğlumun boynu vırılardı. Ta keçip, alacağın kimdədi, necədi, de, yazım.

Əlin cibinə saldı, gördü qələmdan yoxdu. Yüyürdü qələmdanı əvdən gətirsin. Bı hində paççahın xəznəsin qırx lotular yardılar. Götürdülər

gəldilər, bı zirzəmiyə doluşdular. Bir azdan sora gördülər, nəfəs səsi gəlir. O ənə-buənə baxdılar, gördülər bıdı, Əbülqasım girip çarmıxa.

Dedilər:

– Ədə, Əbülqasım, bı nə işdi?

Əbülqasım dedi:

– O sizdən keçip, tez məni açın.

Əbülqasımı açıb buraxdılar. Xəznəni götürüp bırdan getdilər başqa yerə. Əbülqasım ta bir yer görməmişdi. Qaçağa yer tapılmıyan kimi, Əbülqasıma da gizdənməyə bir yer tapılmadı.

Əbülqasım gördü ta səhərdir işıqlanır. Əyənə-buənə baxdı, şəhərin qırağında uçux üç-dörd kümə vardı, girdi bının birinə. Gördü bırda qəlib qazılıp. Qəlibin birin qalxızdı, girdi altına. Bırda pünhan oldu. Vəzir gəldi gördü Əbülqasım yoxdu. Tez qayıtdı oğlannarına xəbər verdi. Yeddi oğlu, bir də özü atdandılar, başdadılar bı şəhəri axdarmağa. Bə Əbülqasımın bı küməyə girdiyin bir naxırçı görmüşdü, gəldilər çıxdılar bı naxırçının yanına, soruşdular. Naxırçı dedi:

– İndicə bırdeydi.

Bir qız da Əbülqasımın qəlibin altına girdiyin görmüşdü. Qız bılara dedi:

– Odey, həmən oğru o qəlibin altında.

Gəldilər qəlibi qalxızdılar, gördülər Əbülqasım orda gizlənip. Çıxartdılar atın döşünə qatdılar gətirdilər əvlərinə. Saldılar otağa. ağzın bağladılar. Çox yorulduxlarına görə yatışdılar. Bı vəzirin də bir qızı vardı gəldi dedi:

– Əbülqasım, məni alarsanmı, səni qurtarım.

Dedi:

– Alaram.

Qız gəldi biləyin çirmədi, bir qazan xörək qayırdı, içinə bihuşdarı daxil elədi. Atasıgil durdular. Qız o saat qazanı götürdü, qapıdan çıxdı. Atası dedi:

– Bala, onu hara aparırsan?

Qız dedi:

– Siz Əbülqasımı axtarmağa gedəndə əhd eləmişdim ki, tapasınız bir qazan xörək bişirəm, paylıyam fəqir-füqərıya. İndi bişirmişəm, aparıram paylıyam.

Atası dedi:

– Bala, elə biz axşamnan ac yatmışıx. Gətir, yeyək.

Qız qazanı gətirdi qoydu bıların qabağına, dedi:

– Çəkmək lazım deyil, elə qazanda yeyin. Bılar bir-iki tikə aldılar, səkkizi də bəyağıdı bayıldılar. Qız o saat gəldi tovladan iki yaxşı at seçdi, çıxartdı. Yəhərrədilər. Əbülqasımı da otaxdan çıxartdı. Hərəsi birin minip düşdülər yola. O günü yol getdilər, səhər gəldilər çıxdılar İsfahana. Bırda atdarın satdılar, bir mənzil aldılar.

Bı bırda qalsın. Sizə xəbər verim Şah Abbasdan. Şah Abbas qızın toyun elədi, axşam kəcavəyə qoydu. Vəzir Allahverdi xanı da qoşdu bına qoşununan, cəlalınan yola saldı Əbülqasımın şəhərinə. Şəhərin bir ağacdığına gedəndə qız vəzir Allahverdixana dedi:

– Buratan biz gəlmişik, heç bilmirəm Əbülqasım da nətər adamdı, barı o gəlsin qabağımıza.

Qoşuna əmr elədi, düşdülər kəmingahların qurdular. Vəzir Allahverdixan atın sürdü Əbülqasımın qapısına, çağırdı:

– Əbülqasım, Əbülqasım.

Əbülqasımın anası çıxdı çölə. Baxdı gördü, bı bir paççahyana adamdı.

Dedi:

– Neynirdin Əbülqasımı?

Bı dedi:

– Mən Şah Abbasın vəziri Allahverdixanam. Şah Abbas qızının kəbinin kəsdirip Əbülqasıma, göndərip qoşununan. İndi bir ağaclıqda düşmüşük. Qız deyir ki, gərək Əbülqasım gələ qabağımıza, görək nətər adamdı, keçəldi, şildi, nədi?

Anası dedi:

– Əbülqasım ölüp.

Vəzir Allahverdixan qayıtdı bı xəbəri qıza gətirdi. Qız dedi:

– İndi ki məni atam verip ona, ta qayıtmaram. Saçımın birin ağ hörərəm, birin qara. Oturram onun anasıynan, bacısıynan, onun yasın saxlaram.

Nə qədər vəzir Allahverdixan yalvardı, dedi, ölər qayıtmaram. Bını gətirdilər, Əbülqasımın əvinə düşdülər. Qoşunu da götürdü Allahverdixan, qayıtdı. Dedi:

– Şah sağ olsun, Əbülqasım biz qayıdannan sora ölüp. Qızına da nə qədər elədim, dedi, xeyr, saçımın birin ağ, o birin qara hörüp, ana-bacısıynan oturup, onun yasın saxlıyacağam.

Şah Abbas dedi:

– Qaldı, qaldı, neynəmək olar?!

Bəli, bılar bir müddət bırda qaldılar, bının yasın saxladılar. Bir il tamam oldu. Qız dedi:

– Xala, mənim atam bir paçcahdı. Bura da bir bütpərəs şəhərdi. Biri gələr qapımıza, atam da bilər-bilməz dost kimdi, düşman kimdi, bı şəhəri qırdırar. Gəl ağırlarımızı satax, yüngüllərimizi götürək, gedək atamın vilayətinə. Nə çoxdu xəznəsi, otağı, büsatı, orda olax.

Satmalıların satdılar, götürməlilərin götürdülər, gəldilər Şah Abbasın qulluğuna. Şah Abbas da o Əbülqasıma verdiyi almaları qoxuyup, nəfsin qulu qayırmışdı. Qoymurdu gözünün qabağınnan bir havır o yana gedə. Bılara yer verdi. Bırda oldular üç gün, beş gün bılara yaxşı hürmət-izzət etdilər.

Əbülqasımgildə nə gətirmişdilər satdılar, yedilər. Ta səhərə çörək pulları olmadı.

Arvad dedi:

– Əbülqasım, heç fikir eləmə, Allah kərimdi, gətir mənim örtüyümü apar sat, bir palan tikdir. Artığın da ver çörəyə. Yüngül taylardan-zaddan daşı. Hamballıx elə. Birtəhər dolanax, görək başımıza nə gəlir.

Əbülqasım apardı örtüyünü satdı, bir palan tikdirdi, artığın da çörəyə verdi, gəldi əvə.

Axşam Vəzir Allahverdixanı Şah Abbası çağırıb dedi:

– İsdiyirəm, Əbülqasıma bir xeyrat vermək binəsi qoyam. Nə deyirsən?

Dedi:

– Çox yaxşı olar.

Axşam şəhərə car çağırtdırdı ki, bir adam yağ ala, düyü ala, boynu vırılacax. Hamı şahlığa yığışacaq. Şah xeyrat verəcək. Səhər tezdən Şah Abbas çıxdı bazara. Baxdı gördü bir balaca uşaxdı dalında palan. Bınnan soruşdu:

– Bala, hambalsan?

Dedi:

– Bəli.

Gəldi yağ aldı, qoydu bının dalına, dedi:

– Aparacaxsan bizə.

Bı yağı büdrüyə-büdrüyə gətirdi Şah Abbasın imaratına. Şah Abbas yer görkəzdi, yağı düşürdü, dedi:

– Bala, otur bırda, gedim saa çörək göndərim.

Nəzərqulu xörəyi gətirdi. Gördü baho, Əbülqasımdı. Xörəyi tulladı, ay ağa, başına dönüm, qurbanın olum! Bunun boynun qucaxladı, üzünnən öpdü. Əbülqasım dedi:

– Ədə, dəli-zad olmamısan ha, cəhənnəm ol yana.

Bı əl çəkmədi. Şah Abbas gördü qulunun biri gəlmədi. O birisin göndərdi. Bı da gəldi gördü, Əbülqasımdı, bı da sarıldı bının boynuna, ay ağa, başına dönüm, qurbanın olum!

Şah Abbas birəz gözdədi, gördü, bu qul da gəlmədi. Durdu yavaş-yavaş özü gəldi qapını açdı, içəri girdi, gördü bılların hərəsi bının boynuna bir tərəfdən sarılıplar ki, ay ağa başına dönüm, qurbanın olum. Bı da deyir, cəhənnəm olun.

Şah Abbas birəz diqqət elədi gördü, xeyr, Əbülqasımdı. Vəzir Allahverdixan gəldi. Şah Abbas dedi:

– Bax gör, bı neçə işdi?

Bı qullar hərəsi bir tərəfdən:

– Ağa, bı deyir, Əbülqasım deyiləm.

Vəzir Allahverdixan gördü Əbülqasımdı. Şah Abbas vəzir Allahverdixana dedi:

– Get, bının anasının yanına. Soruş ki, Əbülqasımın ölümü nətər oldu?

Vəzir Allahverdixan gəldi arvadın yanına, dedi:

– Şah Abbas xeyrat verir. Deyir ki, Əbülqasımın nətər ölməsin desin.

Arvad dedi:

– Xörək bişirmişdim. Bir vədə gördük, qapı döyüldü, Əbülqasım durdu açdı, gördü ki, vəzirdi, gəldilər. Xörək yedikləri yerdə, Əbülqasım öldü. Biz istədik ayıldax, qoymadı ki, səs salmıyın, bının alacağı şəhərdə çoxdu, eşidəllər ölüp, verməzdər. Görək, bir təhər ala bilirikmi? Apardı yavaşca zirzəmiyə qoydu.

Vəzir Allahverdixan dedi:

– Bizdə bir adam var, o deyir, dəli olmamısınız ha?! Əbülqasım gəzir. Bir zəhmət çək gedək ona bax gör Əbülqasımdımı?

Vəzir Allahverdixan arvadı da götürdü gəldilər. Baxdı gördü öz oğlu Əbülqasımdı. Oğul anasının, ana oğlun boynun qucaxladılar, öpüşdülər. Əbülqasım başına gələni Şah Abbasa söylədi. Şah Abbas dedi:

– Mənim qızım sənin hərəmindi. Vəzirin qızı da böyük hərəmin.

Səhər açıldı, qoşunu cəm elədi, göndərdi həmən paççahın üstünə. Vəzir Allahverdixanı da, Əbülqasımı da qoşdu, dedi:

– Gedərsiniz həmən paççahın taxdın tarımar elərsiniz. Əbülqasımı yerində paççah qoyarsınız.

Qoşun gəlirdi. Paççah gördü Şah Abbasın qoşunu gəlir.

– Vəzir, tədbir!

Vəzir dedi:

– Nə tədbir? Sən onun yanında duruş gətirə bilməzsən.

Qoşun gəldi başdadılar davanı. Səhər paççahın qoşunu sınıx düşdü, hərəsi qaçdı bir tərəfə. Şah Abbasın qoşunu paççahı öldürdü. Əbülqasımı paççah elədilər. Şəhəri də döndərdilər müsəlman elədilər. Əbülqasım anasın, bacısın, hərəmlərin yığdı getdi. Başdadılar bırda kef elədilər.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin.

## ŞAH ABBASIN OĞLU

Biri vardı, biri yoxdu, Allahdan başqa heç kim yox idi. Bir Şah Abbas vardı, dərviş-libas gedirdi. Yolda bir kişiynən yoldaş oldu. Danışa-danışa gedirdilər. Bı kişiyə Şah Abbas dedi:

– Gəlsənə, bı yola bir nərdivan qoyaq?!

Kişi dedi:

– Axmaq dərviş, bırda bizim kərkimiz yox, taxda yox, nəyinən nərdivan qoyax.

Bir müddət getdilər, qabaqları bir çaya çıxdı. Şah Abbas dedi:

– Əşi, gəlsənə, bı çaya bir körpü salax!

Kişi, güldü dedi:

– Ay axmax, bırda bizim kərkimiz yox, baltamız yox. Taxda, odun yox. Nəyinən salax.

Genə ikisi də soyundu çaydan keçdilər. Addadılar çayın o tərəfinə. Paltarlarını geyindilər, düşdülər yola. Günortayacan yol gəldilər, gəldilər, çıxdılar bir şəhərə. Bı şəhərdə kişinin bir dostu vardı. Bı Şah Abbasa dedi:

– Ağa dərviş, buyur gedək bizə qonax ol.

Gəldilər kişinin evinə. Şah Abbas gördü ki, bı kişinin bir göyçək qızı var. Amma bı qızın gözünün bir tərəfi əyridi. Kişi qızına dedi:

– Bilirsən, bı dərviş necə axmax dərvişdi? Yolda deyir, gətir bı yola bir nərdivan salax. Baltasız, taxdasız nəyinən salax?

Qız dedi:

– Ata, o elə yaxşı deyip. O onu deyip ki, yanı gəl hərəmiz bir söhbət eliyək. Yolu tez gedək, qurtarsın.

– Gəldik bir çayın yanına yenə dedi ki, gəl, bı çaya körpü salax. Orda nəyinən salax körpünü, bir hacatımız yox, taxdanı, odunu hardan alax?

Qız o saat dedi:

– Ata, onu da deyip ki, gəl birimiz soyunsun o birimizi keçirsin. Bir də ikimiz soyunmuyax.

Şah Abbas baxdı gördü bı çox bilikli, ağıllı, kamallı, mərifətdi bir qızdı. Şah Abbas da elə oxurdu ki, yernən, göyünən gedən quş da onun səsin eşidəndə dururdu. Gecə yatdılar.

Səhər açılanda Şah Abbas durdu geyindi çıxdı bazara. Meydan elədi, nə qədər pul almışdı fağıra-füğarıya payladı. Bı əvin də nə xərcdiyi varıdı gətirdi. Ətdən, yağdan, ayın-oyunnan alıp gətirdi. Axşam genə bırda qaldı, xörəklərin yedilər, çaydan-zaddan içdilər, birəz söhbət elədilər, yatmax vaxdı gəldi, yatdılar. Səhər açıldı. Şah Abbas durdu geyindi, çıxdı bazara. Meydan elədi. Aldığı pulu fəqir-füğarıya payladı, artığın da yağa, düyüyə, ətə, nə bilim ayın-oyna verdi, nə lazımdı aldı, gətirdi əvə. Beş gün, on gün bırda qaldı. Hər gün də belə gedərdi, meydan elərdi, pul alardı. Fağır-füğarıya verərdi, artığına da şey alıp gətirərdi əvə.

Bir gün dedi:

– Əşi, gəl Allahın əmriynən şəriyətin qanunuynan bı qızı ver maa.

Bı kişi razı oldu. Getdi bir molla gətirdi, qızın kəbinin kəsdi Şah Abbasa. Bı qızı aldı, on gün bırda qaldı, bir gün dedi:

– Arvad!

Dedi:

– Bəli.

Şah Abbas dedi:

– Bilirsən, nə var? Mən İsfahannıyam. Gedirəm İsfahana, ala bı dəryeyi-nuru. Əyər oğlum olar bağlarsan sağ qoluna, gələr məni tapar. Qızım oldu, xırdalıyıp xərcdərsən. Bir qədər də qızıldan, gümüşdən verdi, xudahafizləşib yola düşdü. Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəldi çıxdı İsfahan şəhərinə. Bı arvad da qaldı öz atasının evində. Bir neçə müddət qaldı. Gördü ki, bəli, boyuna uşax düşüp. Vaxt oldu ki, bı arvad bari-həmlin yerə qoydu. Gəldi bının bir oğlu oldu. Adın qoydılar İbrahim. Gəldi, bir yaşınnan iki yaşına, iki yaşınnan üç yaşına, yeddi yaşına yetişdi. Bını qoydular məktəbə. Bı oxudu. On iki yaşına çatınca, bir gün məktəbdə uşaxdarnan dalaşdı, uşaxlar bına dedilər, ə, bıra bax, sənin dədən yoxdu ha.

Bı sözdən sora çox bekaf, məlul, ağlıya-ağlıya gəldi anasının yanına.

Anası dedi:

– Bala, niyə bekafsan?

Dedi:

– Ana, mənim atam hardadı?

Anası dedi:

– Bala, bəs bıdı sənin atan, dayna.

İbrahim dedi:

– Xeyr, o sənin atandı, bəs nətər mənim dədəmdi ki, sən də dədə deyirsən, mən də? Düzün deməsən, özümü öldürəcəyəm.

Anası gördü, xeyr, İbrahim durmuyacax, dedi:

– Bala, sənin atayın adına dərviş Abbas deyəllər. Özü də isfahannıdı. İsfahanda olur.

İbrahim dedi:

– Onda mənim heybəmə birəz ayınnan-oyunnan qoy, mən gedəcəyəm atamı tapam.

Arvad dedi:

– Bala, onda gətir, bı dəryeyi-nuru bağlıyım qoluna.

İbrahim dedi:

– Bağla, nə deyirəm, ana!

Anası dəryeyi-nuri bağladı İbrahimin sağ qoluna. Bınnar xudahafizləşip, halallaşıp, öpüşüp, qucaxlaşıp ayrıldılar.

İbrahim düşdü yola. Az getdi, çox getdi, dərə-təpə düz getdi. Dərələrdən yel kimi, təpələrdən sel kimi, acı biyannıx, çax-çax qamışdıx, gəldi çatdı İsfahana. Qərib adamıdı, gəzdi bəyənə-oyənə. Gəldi bir aşbaza şəyirt oldu. Gündə xörək bişirərdi, bının da əlinin altında dolanardı.

Aşbaz baxdı gördü gündə yüz tümən qazanırdısa, indi İbrahim gələnnən, gündə iki yüz manat nəfi olur. Öz-özünə deyirdi:

– Allah, sənə şükür. Nə yaxşı, bı gəldi çıxdı. Bını mana hardan yetirdin?

Məhəmməd bı hesab ilə bir aya kimi bının yanında qaldı. Aşbaz baxdı gördü, elə bı aşbazxanıya kim girir, İbrahimi görür, oturur ta getmək bilmir. İbrahim çox göycəh, çox ağıllı-kamallı bir uşaxdı. Əlinnən də hər nə xörək desən, gəlirdi. Elə xörəklər bişirirdi ki, ətirinnən aləm doyurdu.

Bir gün vəzir Allahverdi xanın qızının xidmətində qırx incə qız dururdu. Bı qız bı qırx incə qızın birin çağırdı, pul da verdi, bir qab da verib dedi:

– Gedərsən filan aşbazdan maa bir qab xörək alıp gətirərsən. Bı xörəyi yeyə bilmirəm. Dihsinmişəm.

Qarabaş gəldi İbrahimi gördü. O qədər ağlı başınnan çıxdı ki, xörək yadınnan çıxdı. O qədər bırda oturdu ki, xörəy tamam qurtardı. Camahat dağılıp gedəndə bı da durdu yavaş-yavaş, boş atıla-atıla gəldi qızın yanına. Qız istədi bını döysün. Dedi:

– Vallah, mən görəni sən görsən, bəlkə sabah da gəlməzdin.

Başdadı, bı oğlanı o qədər təriflədi ki, qızın ağlı başınnan çıxdı. Səhər dedi:

– Qızdar bir başmağı qoyun, bu gün sehrə çıxasıyam.

Qızlar başmağı qoydular, geyindi getdi aşbazın dükanının qabağına. Gözü oğlanın üzünə sataşdı. O saat bir könüldən min könülə aşıx oldu, ta getmədi heç yerə. Yoldan yarımçıx qayıtdı. Gəldi əvə. Qarabaşdara dedi:

– Bir kankan tapın, gətirin bıra.

Qarabaşdar gedip bir kankan gətirdilər qızın yanına. Kankan dedi:

– Xanım, nə buyurursunuz?

Dedi:

– Usta, nə vaxta kimi bırdan filan aşbazın dükanının lap ortasına bir lağım vırarsan?

Usta dedi:

– İki günə.

Qız dedi:

– Onda, bı olmadı, sən çıx get!

Bı getdi.

Qızdara dedi:

– Gedin, bir ayrı kankan tapın gətirin.

Qızdar gedip bir ayrı kankan tapdılar, gətirdilər qızın qulluğuna.

Kankan dedi:

– Xanım, nə buyururdunuz?

Qız dedi:

– Neçə günə bırdan filan aşbazın dükanına bir lağım ata bilərsən?

Kankan dedi:

– Torpağımı çölə atan olsa, sabah qurtarram.

Dedi:

– Onda usda bı tutmaz. Çıx get.

Kankan getdi. Qız qarabaşdarı çağırdı dedi:

– Gedin, bir başqa kankan gətirin.

Qarabaşdar gedip bir başqa kankan gətirdilər.

Kankan dedi:

– Xanım, nə buyurursan?

Qız dedi:

– Usta, bırdan filan aşbazın dükanına neçə günə lağım atarsan?

Kankan dedi:

– Bəli, əyər, torpağımı atan olsa, bı gecə açaram.

Qız gətirdi bınnan danışdı. Haqqı nə qədər isə verdi. Qarabaşdarı da bının qulluğuna verdi. Dedi:

– Di, sən işində ol.

Kankan işə başdadı. İbrahim oturmuşdu, gördü otaxın içinnən bir tıppıltı gəlir. Bənə-ənə baxdı. Bir də gördü, otağın ortasınnan bir baş çıxdı. Gəldi, genə qayıtdı, getdi.

İbrahim qaldı belə öz-özünə fikir eliyirdi ki, bı nə olan işdi. Qız da bir qarabaş göndərdi ki, İbrahim, bı gecə maa qonaxsan. İbrahim belə fikirdə, bir də gördü, qapı açıldı. Bir qız girdi içəri, dedi:

– İbrahim, xanım deyir, maa qonaxdı bı gecə.

İbrahim durdu, qarabaşınan gəldi. Xanım bına yer göstərdi, oturdular başdadılar söhbətə.

Səhər Şah Abbasın oğlu dərviş-libas gəldi çıxdı həmən aşbazın dükanına. İçəri girdi. Gördü bir oğlan var ki, nətər. Xörəylərin iyinnən adamın qarnı doyur. Xörəkdən-zaddan yedi. Çıxdı getdi. Şah Abbas da gəldi həmən aşbazxanıya. Gördü bırda bir oğlan var. Nətər baxdı gördü bir paçcahyana adamdı. Bı oğlana aşıx oldu. Qaldı bırda. Gecə gördü vəzir Allahverdi xanın qızının qarabaşı gəldi bıra ki, İbrahim bəs niyə gəlmədin? Bı dedi:

– Qonağım var.

Qız getdi, xanıma xəbər verdi ki, belə deyir. Qız dedi:

– Get, denən qonağın da gətirsin.

Qız gəldi, İbrahimə dedi. İbrahim durdu, Şah Abbası da götürdü, getdilər qızın qulluğına. Şah Abbas baxdı gördü, bı, vəzir Allahverdi xanın qızıdı. Səhər açıldı. Şah Abbas gəldi vəzir Allahverdi xanın yanına. Dedi:

– Dur gedək, filan yerdəki aşbazxanıya.

Gəldilər aşbazxanıya, gecə qaldılar. Bir də gördülər bir qız girdi içəri dedi:

– İbrahim, bəs niyə gəlmirsən?

Dedi:

– Get, xanıma denən, iki qonağım var.

Qız xanıma xəbər apardı.Dedi:

– Get, denən, qonaxların da gətirsin.

İbrahim dedi:

– Durun gedək. Bılları da götürdü, getdilər, qızın qulluğına.

Yolda Şah Abbas vəzir Allahverdi xana dedi:

– Əyər dinərsənsə, boynunu vırdırraram.

Gəldilər qızın qulluğına. Vəzir Allahverdi xan gördü öz qızıdı. Ta Şah Abbasın qorxusunnan dinə bilmədi. Qayıtdılar, gəldilər aşbazxanıya.

Sabah Şah Abbas qırmızı geydi, çıxdı taxda. Əmr elədi ki, filan aşbazın şəgirdin gətirin bura. Getdilər, gətirdilər.

Şah Abbas dedi:

– Cəllad gəlsin.

Cəllad gəldi. Şah Abbas əmr elədi ki, vırın bının boynun. Cəlladdar bını soyundurdular. Dəryeyi-nur çıxdı. Cəlladdar bı dəryeyi-nurun üsdə dava saldılar. O dedi dəryeyi-nur mənimdi, bı dedi dəryeyi-nur mənimdi.

Şah Abbas eşitdi, dedi:

– Nədi o?

Cəlladdar dedi:

– Bir dəryeyi-nurdu.

Şah Abbas dedi:

– Ay aman, onu öldürmüyün. Gətirin bıra.

İbrahimi gətirdilər Şah Abbasın yanına. Dəryeyi-nura baxdı. Gördü həmən özü verdiyi dəryeyi-nurdur. Şah Abbas vəzir Allahverdini çağırdı, dedi:

– Bı mənim oğlum, o da sənin qızın. Allahın əmriynən verək bir-birinə.

Vəzir Allahverdi xan bir molla çağırtdırdı. Qızın kəbinin kəsdirdi İbrahima. Qırx gün, qırx gecə toy eləyip qızı köçürdülər.

O yedi, yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri nağıl deyənin.

# XOŞQƏDƏM

Biri varımış, biri yoxmuş, Allahdan başqa heç kim yoxdu. Bir qoca kişi vardı, bunun da bir arvadı vardı. Günnərin bir günü bı arvad dedi:

– Əşi, gəl sən get Məkkiyə, Xorasana ziyarat elə, bu ömrüyün axır çağında.

Kişi buna razı oldu.

Dedi:

– Arvad, onda sən dur, birəz yol ehtiyatı gör.

Arvad durdu cücədən-zaddan bişirdi, xəmir qatıp fətir bişirdi. Qabladı xurcuna. Gecə yatdılar. Bı arvad da boyluydu. Səhər kişi durdu, arvadın durğuzdu. Dedi:

– Arvad, mən gedirəm. Oğlum olar, saxlarsan, əyər qızım olarsa, başın kəsip, qanın doldurarsan şüşüyə, saxlarsan mən gələnə.

Arvad dedi:

– Yaxşı.

Bu kişi düşdü yola. Bəli, vaxt oldu ki, bu arvad barı-həmlin yerə qoydu. Gəldi bunun bir qızı oldu ki, aya deyir çıxma mən çıxım, günə deyir, çıxma mən çıxım. Dodaxlar yazın baharı kimi, yanaxlar yaqudun kanarı kimi, dişdər inci mirvarı kimi. Bir qızdı ki, Allah-taala xoş gündə, xoş saatda yaratmışdı.

Arvad qıymadı ki, bının başın kəsə. Bını saxladı, bı qızın adın Xoşqədəm qoydu. Bəli, bı qız yekəldi, çatdı on iki yaşına.

Bir gün arvada muşduluxçu gəldi ki, kişi Xorasannan qayıdıp gəlir. Arvad qaldı labüd, nətər eliyim, necə eliyim. Birdən ağlına gəldi ki,

verim qonşuya. Tez qızı geyindirdi, bütün paltarların da yığdı sandıxçıya. Apardı verdi qonşuya. Tapşırdı ki, bını burda saxlıyın, kişi bilməsin. Tez qayıtdı evə. İki xoruz aldırdı, başın kəsdirdi, qanın doldurdu bir qava ki, kişi gələndə gösdərsin; qız oldu başın kəsdim, qanın doldurdum qava, saxladım sən gələnə. Qayıtdı xoruzdarı da bir qazan xörək qayırdı qoydu başına. Başdadı evi-zadı hazırramağa. Kişi gəldi. Camahat yığışdı bu kişinin başına. Görüşdülər, söhbət elədilər ənnən, bənnən. Dağılışdılar.

Kişi arvadı çağırıb dedi:

– Arvad nəyim oldu?

Arvad dedi:

– Qızın oldu, başın da kəsdim, qanın da sən diyən qava doldurdum.

Kişi dedi:

– Dur gətir görüm.

Arvad durdu qavı kişiyə görsətdi.

Bir neçə gün keçdi, bir gün kişi əlinə afdafa almışdı, bu qızı gördü. Gəldi arvadına dedi ki, arvad o qonşuda bir qız var, gərək onu mana alasan.

Arvad dedi:

– Əşi, onu sana verərlərmi? Dəli olmamısan? Başına hava gəlmiyip ha?..

Bir neçə dəfə belə bu qızı gördü. Min könüldən Xoşqədəmə aşıx oldu. Bir gün arvad getdi usdanın yanına. Dedi:

– Elə bir araba qayırarsan ki, gecə-gündüz öz-özünə yol gedər.

Bını danışdı, pulun verdi, dedi:

– Havax hazır olar?

Usta dedi:

– Sabah hazır olar.

Arvad qayıtdı evə fətirdən-çörəkdən qayırdı, bağladı bir sırfıya. Qənd, çay, hər bir ehtiyat hazır elədi. Səhər getdi arabanı aldı gətirdi, kişi bazara çıxanda qızı çağırdı, təmiz geyindirdi, hər bir ehtiyatdarı yığdı arabaya. Öpüşdülər, halallaşdılar. Xəşdik-zad da verdi. Xoşqədəmi mindirdi arabıya. Dedi:

– Bala, get Allah işinə sürət versin.

Arabanın ağzın bağladı, saldı yola. Qız ağzın çəvirdi bərri-biyabana. Kişi bir neçə gün çölə çıxdı, bu qızı görmədi, gəlip arvada deyirdi, arvad, o qız hara gedip ki, yoxdu? Arvad da dedi:

– Nə bilim, həlbət, qohumları evinə gedip.

Xoşqədəm də qırx gün, qırx gecə yol getdi, çıxdı bir şəhərə.

Sizə kimnən xəbər verim, bu şəhərin paçxahının oğlundan. Paçcahının bir oğlu vardı, adına Ağabəy deyərdilər. Ağabəyin bir sürü qazı vardı. Bir nökər bunu həmişə çıxardıp çimənnihdə otarardı. Xoşqədəm gəldi çıxdı bu qazdar otduyan otduğa. O qız o qədər gözəlidi ki, şövqü düşürdü çimənə, qazdar ürküp otdamırdılar.

Ağabəy bir gün baxdı gördü elə bu qazdar günü-günnən geri gedir. Nökəri çağırdı dedi:

– Bılları nətər otarırsan ki, bıllar günü-günnən geri gedir?

Nökər dedi:

– Ağa, vallah aparıram, dilin ota vurmurlar. Bir axşam qaytarıram gətirirəm əvə. Evdə arpadan-zaddan tökürəm.

Ağabəy öz-özünə dedi:

– Sabah özüm də bulları busa-busa gedərəm görüm, bu nətər otarır?

Səhər nökər qazdarı götürdü gəldi həmən yerə. Ağabəy də bunun dalınca qarabaqara gəldi, gördü bırda bir qız var ki, xəddi-xalına, gül camalına tamaşa elə. Şövqü düşür çimənə. Qazdar ürkür, yemir. Getdi bu qızın yanına. Soruşdu nəçisən? Haralısan? Xoşqədəm dedi:

– Köçdən qalmışam. Bir yerim yoxdu gedəm, burda qalmışam.

Ağabəy baxdı, bu qız danışdıxcan fikir verdi gördü, bu bir ağıllı, kamallı, paçcahyana bir qızdı. Bunu götürdü gəldi əvə. Nə qədər elədi, bu qız arabadan düşmədi, dedi:

– Xeyr, mən arabadan çıxsam o saat ölərəm.

Xoşqədəm bir neçə gün burda qaldı. Elə nə iş görseydi, arabada görərdi. Ağabəyə çörək aparanda da elə arabada aparardı, qapının ağzınnan verərdi. Bir gün Ağabəy dedi, nətər eliyim bu arabanı sındırım, bu çıxsın? Bir gün baltanı itilədi, qoydu yanına. Qız xörək gətirəndə dedi:

– İçəri girməsən almaram. Gərək gətirip qabağıma qoyasan.

Qızın əlacı kəsilip arabadan düşdü. Xörəyi gətirip Ağabəyin qabağına qoyanda, Ağabəy qalxdı əyağa, getdi baltanı götürüb arabanı təmiz doğradı. Qız qaldı ağlıya-ağlıya.

Bir neçə gün belə keçirdi. Günün bir günü, paçcah bir molla gətirtdi. Xoşqədəmin kəbinin kəsdirdi Ağabəyə. Yeddi gün, yeddi gecə toy eliyip qızı köçürdülər Ağabəyə.

Bu burda qalsın, sizə kimnən xəbər verim Xoşqədəmin atasınnan. Bir gün arvada dedi:

– Arvad, gərək o qızı nətər olsa, mana alasan.

Arvad əlacsız qalıp dedi:

– Əşi, o sənin qızındı, adam da öz qızın alarmı?

Kişi dedi:

– Necə mənim qızımdı?

Arvad dedi:

– Sən gedəndə olmuşdu, qıymadım başın kəsəm, xoruz aldırdım başın kəsdirdim, qanın doldurdum şüşüyə, sən gələndə gösdərdim. Onu da vermişdim qonşuya. İndi də araba qayırtdırdım, yola saldım, çıxdı getdi.

Kişi dedi:

– Arvad, gərək gedəm, tapam.

Kişi dərviş-libas oldu, düşdü yola. O qədər gəldi ki, gəldi çıxdı Ağabəyin qapısına. Soruşdular kimsən? Dedi:

– Allah qonağı!

Dedilər:

– Allaha da qurban olum, qonağına da.

Kişi baxdı gördü baho, qız burdadı. Üstün vurmadı. Qız da baxdı gördü, atasıdı. Qız gətirdi bunun qabağına xörək-zad qoydu, kişi yedi-içdi. Başdadı sözü açdı. Qız o saat atasının boynun qucaxladı, başına gələnnəri söylədi. Atası bir müddət də burda qaldı. Qızının nişanasın götürdü, gəldi əvlərinə. Təzədən xərc çəkdi, qırx gün, qırx gecə toy vurdurdu. Qızın dalıncan hər bir ehtiyat alıp, qıza cehiz göndərdi.

O yedi yerə keçdi, siz də yeyin, dövrə keçin.

# KEÇƏLLƏ TACİR

Günlərin bir günündə bir nəfər kasıb kişi olur. Bu kişinin gözünün ağı-qarası keçəl bir oğlu varmış. Keçəl bayırda başqa uşaqlar kimi oynamağı çox sevirdi, amma tacir uşaqları keçəli öz aralarına buraxmırdılar. Bir gün keçəlin atası səhər tezdən işə getmişdi. Novruz qabağı idi, havalar da qızmışdı. Keçəl əvdən bayra çıxıb görgi ki, uşaqlar əlvan geyinib oynayırlar. Keçəl bulara qoşuldu, amma uşaqlar qoymayıb, bir ağızdan dedilər:

Keçəl-keçəl daz eylər,
Yuvada pərvaz eylər.
Minər qamış altına,
Sağsağana göz eylər.

Keçəlin acığı dutub evə gəldi, gördü ki, anası evdə təkdi.
Keçəl dedi:
– Ana, nə bişirirsən?
Anası dedi:
– İki ovuc arpa unumuz qalmışdı, umac bişirirəm.

Keçəl bərk acmışdı, dinməz oturub əvin bir küncündə anasını gözlədi ki, bir parça çörək alıb yesin. Amma çörəkləri yoxdu, günorta idi, keçəlin atası işdən gəldi. Gördü ki, atası iki parça quru çörək, bir az da xırda parça dəsmalından çıxarıb atdı süfrəyə.

Keçəl bərk acmışdı, tez çörəgin bir parçasını götürüb gördü ki, çörək çox qurudu. Keçəlin dişini sındırdı. Keçəl üzün atasına tutub dedi:

– Ata, bu çörəyi sənə kim verib?

Atası dedi:

– İki gündür ki, tacirbaşı Əlixanın çörəkçi dükanında odun yarmışdım, tacir bu çörəkləri mənə verdi.

Keçəl umaca dayanmadı, tez yarım çörəgi qoltuğuna vurub getdi tacirin qapısına. Gördü ki, tacirin oğlu qapıda oynıyır, bir quru çörəyə baxdı, bir də tacirin oğluna. Keçəlin dişi də sınmışdı, Allah deyib quru çörəgi vurdu tacirin oğlunun başına.

Tacirin oğlunun başından qan axa-axa getdi atasının yanına. Tacir oğlunun başının yarılmış görüb dedi:

– Oğlum, səni kim vurub?

Dedi:

– Keçəl vurubdu.

Tacir qəzəblənib adam göndərdi keçəlin dalısıncan. Eşit keçəldən.

Keçəl tacirin oğlunun başını yaran kimi özün yetirdi evlərinə, Anasına dedi:

– Naxoşam, yer sal.

Keçəl yatmaqda olsun. Tacirin adamları gəlib çıxdı. Keçəl gördü ki, tacirin adamları gəlir, özün vurdu naxoşluğa. Keçəlin atası tacirin adamlarının qabağına çıxıb dedi:

– Niyə gəlmisiz?

Dedi:

– Oğlun keçəl, tacirin oğlunun başını yarıb. Gərək keçəli aparaq tacirin yanına.

Dedi:

– Oğlum naxoşdur.

Tacirin adamları içəri girib gördülər ki, keçəl həqiqətən də naxoşdur, zarıltısından qulaq tutulur. Gedib tacirə xəbər verdilər, tacir əmr verdi ki, gərək gətirəsiz.

Tacirin adamları gəldi keçəlin yanına. Dedilər, səni tacirbaşı çağırır. Gərək gedəsən.

Keçəl dedi:

– Məndə hal yoxdur tacirin yanına gedəm, əgər ona çox lazımam, qoy özü yanıma gəlsin.

Xəbər çatdı tacirə ki, keçəl belə deyir. Tacirbaşı qəzəblənib ayağa durdu. İstədi ki, keçəli tutdursun, axırda əlacı kəsilib özü piyada keçəlin yanına gəldi.

Keçəl gördü ki, tacir gəlir, saldı özünü naxoşduğa.

Dedi:

– Ana, gələn tacirbaşıdırsa, xahiş elə iki barmaqilə alt dodağımla üst dodağıma vursun.

Tacir təəccüb elədi, axırda əlacı kəsilib keçəlin ağzına iki barmağilə bərk vurdu, keçəl sınıq dişini saxlamışdı, tez yerə atıb bağırdı:

– Vay-vay, tacir dişimi qırdı.

Tacir baxıb gördü ki, keçəl bunu çox incidəcək.

Dedi:

– Keçəl, bu gün oğlumun başını niyə vurub yarıbsan?

Keçəl dedi:

– Mən yarmamışam.

Tacir dedi:

– Yalan demə.

Keçəl baxıb gördü ki, tacir bundan əl çəkmiyəcək, tez başını yorğanın altınnan çıxarıb dedi:

– Tacirbaşı, mənim atam sənin dükanında işləyir? Mən yolnan gəlirdim, sizin evinizin qabağında atama rast gəldim, özüm də bərk acmışdım, atamdan çörək istədim. Atam da səndən aldığı çörəgi mənə verdi, çörəgi dizimə vurdum. Çörək o qədər quru idi ki, dişimi sındırıb, əlimdən tollanıb yarısı atamın gözünü çıxartdı, bir parası da oğluvun başına dəydi. İndi mən səndən iki qabaq dişimi istəyirəm. Əgər verməsən divana, şikayətə gedəcəyəm.

Tacir baxıb gördü ki, keçəlin qabaq dişi düşüb. Bu tərəfdən də keçəlin atası gözünü bağlayıb. Gəldi tacirin yanına.

Keçəl dedi:

– Mən səndən şikayətə gedəcəyəm.

Tacir əlini cibinə salıb bir beşlik keçəlin ovcuna basıb durub getmək istədi. Keçəl dedi:

– Bəs atamın gözünün cəriməsi?

Tacir dedi:

– Sabah görüşərik.

Tacirbaşı getdi. Keçəl durdu, beşliyi verdi atasına, dedi:

– Ata gözüvü bağla, sabah səni divana aparacağam.

Eşit tacirdən. Tacir evinə getmişdi, amma yarı canı keçəlin yanında idi ki, səhər şikayətə getməsin. Keçəl gecəni yatıb səhər tezdən durub gəldi tacirin dükanına. Dedi:

– Nə deyirsən, atamın gözünün cəriməsini vermirsən, gedirəm divana.

Tacir dedi:

– Mənə bu günü də möhlət ver. Sabah atovun xəcalətindən çıxaram.

Keçəl pazı olub gəldi evnə.

Taciri fikir götürmüşdü. Bu dəm qoca bir qarı gəlib tacirdən pul istədi. Tacir acıqlanıb qarını qovdu.

Qarı dedi:

– Mənim üstümə çığırınca, keçəllə bacar.

Tacir dedi:

– Qarı nənə, sən yol göstər, keçəli yox eliyim. Nə istəsən sənə verrəm.

Qarı dedi:

– Qadavı alım, yatmağa yerim, yeməyə çörəyim yoxdur.

Tacir dedi:

– Mənim boynuma, sən tədbir gör.

Qarı dedi:

– Keçəl bu axşam damda yatacaq, gecə adam göndər, yorğan-döşəginən ogurrasunlar, sora başını tez batıra bilərsən.

Tacir qarıdan razı qalıb dedi:

– Al bu nişanəni get bizə, deginən tacir deyir qonağım gələcəkdir, hazırlıq görsunlər.

Qarı atdana-atdana getdi tacirin əvinə xəbərə.

Axşam tacir dükanını bağlayıb evinə gəldi. Qarı üçün ambarda yatmağa yer düzəltdi. Tacir öz keyfinə məşğul olub, gecə yarıdan keçəndən sora üç nəfər öz adamlarından keçəlçün göndərdi. Keçəl damda yatmadı. Tacirin adamları keçəlin yerini tapdılar. Keçəli yorğana səriyib birbaş apardılar tacirin yanına. Tacirin ürəgi keçəlin əlindən yanıqlı idi. Gələn kimi keçələ bir bərk təpik vurdu, keçəl işdən xəbərdar idi, amma dinmirdi. Tacir əmr elədi ki, keçəli öz yatan evinə qoysunlar. Səhər tezdən yorğan qarışıq ölənə qədər döysünlər. Keçəl tacirin dediklərini eşidirdi, tez tacirin nökərləri keçəli apardılar tacirin otağına.

Tacir soyunub yatana qədər keçələ o qədər təpik vurdu ki, keçəlin anadan əmdiyi süd burnundan gəldi. Axırda tacir yorulub yatdı. Keçəl taciri yuxuya verib özün bayıra atdı. Gördü ki, tacir yatıbdı, tez kilimi yerə salıb taciri kilimə sarıdı, bərk-bərk bağlayıb uzatdı evin bir

küncünə. Özünü bayıra atıb, nökərlərin bir dəst paltarını geyib tacirin qızılın doldurdu cibinə, aşağa düşüb nökərləri ayıltdı:

– Tacir əmr eləyir ki, keçəlin başının iyindən yata bilmir, hələ bu saat keçəli döyüb öldürsünlər.

Nökərlər keçəlin yerinə öz ağalarını çəkdilər həyətə, o ki var vurdular. Amma tacirin naləsi göyə çıxırdı. Qarı gördü ki, döyülən keçəl döyül, tacirdi, dedi:

– Bəs keçəl hanı?

Nökərlər dedi:

– Palas arasındakı keçəldi.

Qarı nökərləri qoymadı. Palazı açıb gördülər ki, döyülən tacirdi. Amma tacir yarımcandı. Nökərlər baxıb gördülər ki, işin üstü açılsa, iş yavalaşacaq, tacirin əl-ayağını bağlayıb atdılar çaya.

Keçəl tez özünü atasına yetirib ağır yüklərini yığıb gecəynən başqa şəhərə qaçdılar. Tacirdən götürdükləri pulu oturub rahat yedilər.

Onlar yeyib kef çəkdilər. Siz də var olun.

## MÜNDƏRİCAT


*Redaktordan* .... 4
*Azərbaycan nağılları haqqında* .... 7

Zəmanənin hökmü .... 21
Göy Mıncıx .... 27
Keçəl Məhəmməd .... 34
Məlik Məmmədlə Məlik Əhməd .... 53
Axvay .... 62
Bəxtiyar .... 71
Avçı Məhəmməd .... 88
Quş dili bilən İskəndər .... 93
Nar qız .... 105
Kiçik şahzadə .... 111
Məlik Məhəmməd .... 115
Taxta qılınc .... 120
Südəmən .... 124
Gül Sumana neylədi? .... 133
Gül və Sanavar .... 141
Bulud .... 147
Fərasətsiz oğul .... 156
Peşə dalınca .... 158
Üç bacı .... 164
Lala və Nərgiz .... 168
Mərdnən Namərdin nağılı .... 174
İskəndər .... 179
Şəmsi Qəmər .... 186
Məlik Cəmilin hekayəsi .... 189
Dəmirdiş qız .... 192
Yeddi qardaşlar .... 194
Dünya gözəli .... 199
Muxtarın hekayəti .... 204
Barxudarın baxtı .... 208
Tənbəl Əhməd .... 212
Şahşonqar .... 221
Təlimli pişik .... 225

Qara at .....227
Toyuq bir qılçlıdı .....232
Nazikbədən .....238
Pinəçi Məhəmməd .....246
Dad Xanpərinin əlindən .....255
Dərzinin şagirdi .....261
Üç şahzadə .....265
Hazarandastan bülbülü .....275
Armud bəy .....283
Cik-cik xanım .....289
Dana, keçi və qoyun .....292
Qızıl ilan .....294
Cırtdan .....296
Haxnəzər .....299
Keçəlin divanı .....303
Usta Abdulla .....313
İki arvadın işləyi .....317
Altı dul arvad .....319
Zərnigar .....322
Noxudu keçəl .....329
Əbülqasım .....333
Şah Abbasın oğlu .....343
Xoşqədəm .....349
Keçəllə tacir .....353

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 29.10.2004. Çapa imzalanmışdır 30.04.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 22,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 100.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.